Şeyx Həsən Abdullah əl-Əcmi

# VƏHHABİ ALİMİ OSMAN ƏL-XƏMİSƏ CAVAB

## I CİLD

313news

Şeyx Həsən Abdullah əl-Əcmi

# VƏHHABİ ALİMİ
# OSMAN ƏL-XƏMİSƏ CAVAB

1-ci cild

| | |
|---|---|
| Layihə rəhbəri: | 313news.net |
| Tərcüməçi: | İdris Hüseynzadə |
| Redaktor: | Peyman Məmmədov |
| Korrektor: | Peyman Məmmədov |
| Texniki redaktor: | Tural Ordubadi |

**MÜNDƏRİCAT**


OSMAN ƏL-XƏMİSİN "TƏTHİR" AYƏSİ VƏ "KİSA" HƏDİSİ İLƏ BAĞLI İDDİALARINA CAVAB ........ 7
Osman əl-Xəmis "təthir" ayəsini Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımlarına aid etməyə çalışır ........ 8
"Kisa" hədisini Ümmü-Sələmədən nəql edən şəxslər ........ 8
1-Əta ibn Yəsar ........ 8
Hədisi nəql edən ikinci səhabə: Səd ibn Əbi Vəqqas ........ 15
Üçüncü səhabə: Ömər ibn Əbu Sələmə ........ 18
Dördüncü səhabə: Əbu Səid əl-Xudri ........ 19
Beşinci səhabə: Abdullah ibn Abbas ........ 19
Altıncı səhabə: Vasilə ibn əl-Əsqə (الأسْقَعُ) ........ 21
Yeddinci səhabə: Abdullah ibn Cəfər ........ 24
Osman əl-Xəmisin ayələrin düzülüşünə əsaslanması batildir ........ 26
Əhli-sünnə alimlərinin təthir ayəsindəki şəxslərin kimliyi barədə sözləri ........ 26
Osman əl-Xəmis nəss müqabilində ictihad edir! ........ 32
Təthir ayəsi müstəqil şəkildə nazil olmuşdur ........ 32
Osman əl-Xəmisin dediyi söz bidətdir: heç bir səhabə onun dediyi sözü deməyib ........ 33
Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımlarından heç biri Osman əl-Xəmisin onlar üçün iddia etdiyi şeyi iddia etməmişdir ........ 35
Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Ümmü-Sələməyə əbanın altına daxil olmağa icazə vermir ........ 36
Osman əl-Xəmis əbanı Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) əlindən almağa çalışır ........ 36
Əgər təthir ayəsinin zövcələrə xitabən deyilən ayələr arasında olduğunu qəbul etsək ........ 37
Osman əl-Xəmis təthir ayəsinin "kisa" əhli ilə bir əlaqəsinin olmadığını iddia edir ........ 37
Osman əl-Xəmisin ayədəki "Əhli-Beyt" məfhumunu bütün Bəni-Haşimə aid etməyə çalışması! ........ 42
Osman əl-Xəmis Allaha iftira ataraq Allahın bütün səhabələri çirkinliklərdən təmizlədiyini deyir ........ 51
Təthir ayəsinin imamətə dəlaləti ........ 52
OSMAN ƏL-XƏMİSİN SƏQƏLEYN HƏDİSİ BARƏDƏ SƏSLƏNDİRDİYİ BATİL SÖZLƏRƏ CAVAB ........ 53
Osman əl-Xəmis səqəleyn hədisini zəif göstərməyə çalışır ........ 54
Birinci: Səqəleyn hədisi Tirmizinin və başqalarının nəql etdiyi formada səhihdir ........ 55
İkinci: Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) səqəleyn hədisində Qurandan və Əhli-Beytdən (əleyhimussəlam) sarılmağa əmr etmişdir ........ 62

Üçüncü: Alimlər hətta Müslimin hədisindən belə itrətdən yapışmağın vacib olduğunu başa düşmüşlər ... 65
Dördüncü: Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra ən elmli şəxslər onlardırlar ... 69
Beşinci: Onların Allahın hökmü ilə bu ümmətin imamlarıdırlar ... 70
Altıncı: Əhli-Beytin (əleyhimussəlam) imaməti qiyamətə qədər davam edəcək 70
Yeddinci: Onlar Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra ən üstün şəxslərdirlər ... 71
Osman əl-Xəmis səqəleyn hədisini bir kənara qoyub əvəzində uydurma rəvayətlərdən yapışır! ... 74
1-ci rəvayət: "Sizin aranızda elə bir şey qoyub getdim ki, ondan sarıldığınız müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və sünnətim"! ... 74
2-ci rəvayət: "Mənim sünnəmə və məndən sonrakı raşidi xəlifələrin sünnəsinə sarılın" ... 81
3-cü rəvayət: "Məndən sonra gələcək iki şəxsin; Əbu Bəkr və Ömərin ardınca gedin" ... 84
Əhli-sünnə alimləri Osman əl-Xəmisin dəlil gətirdiyi rəvayəti zəif hesab edirlər! ... 91
Şiələrdə hədislərin isnadı ilə bağlı Osman əl-Xəmisin iftirasına cavab ... 96
Bizim kitablarımız səhihdir, yoxsa Buxarinin kitabı? ... 100
Osman əl-Xəmisin yeni iddiası: Osman əl-Xəmis Əhli-Beyti şiələrin zülmündən müdafiə edir ... 102

OSMAN ƏL-XƏMİSİN "QƏDİR-XUM HƏDİSİ" BARƏDƏ BATİL FİKİRLƏRİNƏ CAVAB ... 109

Osman əl-Xəmisin "Qədir-xum" hədisi barədə iddiaları ... 110
Qədir-xum hədisini nəql edən əlli səhabə ... 117
İmam Əlinin (əleyhissəlam) səhabələri Qədir-Xum hədisinə şahidlik etməyə çağırması hadisəsi ... 155
"Əhli-sünnə vəl-cəmaə" məzhəbi alimlərinin Qədir-Xum hədisinin mütəvatirliyini etiraf etmələri ... 163
Osman əl-Xəmisin Qədir-Xum hədisinə həmlə etməsi ... 169
Osman əl-Xəmis hədis alimlərinin təsbit etdiyi "təvatürlük" prinsipinə müxalifətçilik edir ... 180
Osman əl-Xəmisin öz məzhəbinin alimlərinin İbn Teymiyyəyə rəddiyyə verdiklərindən xəbəri yoxdur ... 181
Osman əl-Xəmisin Qədir-Xum xütbəsinin səbəbini təhrif etməyə çalışması... 185
Osman əl-Xəmisin Qədir-Xum hədisinin mənasını sapdırmağa çalışması ... 194

OSMAN ƏL-XƏMİSİN "ƏLİ MƏNDƏNDİR, MƏN DƏ ƏLİDƏNƏM" HƏDİSİ BARƏSİNDƏ DEDİYİ SÖZLƏRƏ CAVAB ... 210

Osman əl-Xəmis başqalarını İmam Əlinin (əleyhissəlam) xüsusiyyətlərinə şərik etməyə çalışır ... 210

İMAM ƏLİNİN (əleyhissəlam) İMAMƏTİNƏ DƏLALƏT EDƏN ƏN MÜHÜM DƏLİLLƏRDƏN BİRİ DƏ "VİLAYƏT" HƏDİSİDİR ... 218

بســـم الله الرحمن الرحيم

**“Osman əl-Xəmisin batil fikirlərinə cavab”**
**Şeyx Həsən Abdullah əl-Əcmi**

Həmd olsun aləmlərin Rəbbi olan Allaha. Salavat və salam olsun bütün məxluqatın üstünü olan həzrət Muhəmmədə və onun pak, təmiz və məsum olan Əhli-Beytinə; hansılar ki, Allah hər növ pisliyi onlardan uzaqlaşdırmış, onları bütün növ çirkinliklərdən təmizləmişdir; habelə salavat və salam olsun həzrət Muhəmmədin (sallallahu əleyhi və alihi və səlləm) yaxşı və üstün səhabələrinə və qiyamətə qədər iki ağır əmanət olan Quran və itrətin yoluna tabe olan kəslərə.

Oxucu qardaşım, qarşındakı bu kitab on iki imam şiələrinin başda Əmirəlmöminin Əli ibn Əbu Talib (əleyhis-səlam) olmaqla ümumən Əhli-Beytin (əleyhimus-səlam) imamətinin isbatına dair əsaslandıqları dəlillər barədə Şeyx Osman əl-Xəmisin “Hiqbətün minət-tarix” (“Tarixdən bir dövr”)[1] adlı kitabında qeyd etdiyi bir sıra şübhələrə cavabdır. Mən bu kitabda onun bu mətnləri istər sənəd, istərsə də dəlalət baxımından gözdən salmaq cəhdlərinə cavab vermişəm. Müvəffəqiyyət əta etdiyinə görə uca olan Allah həmd olsun.

Həsən Abdullah

[1] Bu kitab bir neçə il öncə “Tarixi hadisələrin təhlili” adı altında azərbaycan dilinə tərcümə edilmişdir. (Tərc.).

# OSMAN ƏL-XƏMİSİN “TƏTHİR” AYƏSİ VƏ “KİSA” HƏDİSİ İLƏ BAĞLI İDDİALARINA CAVAB

**Osman əl-Xəmis “təthir” ayəsini Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımlarına aid etməyə çalışır**

Osman əl-Xəmis demişdir:

““Kisa”[2] hədisini Aişə - Allah ondan razı olsun - nəql etmişdir. Hədis belədir: “Bir sübh vaxtı Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) əynində qara tükdən olan xəttli[3] əbası ilə birgə (evdən və ya otaqdan) çıxdı. Bu zaman Həsən ibn Əli gəldi. Peyğəmbər Əlini, Fatiməni, Həsəni və Hüseyni – Allah onlardan razı olsun - əbanın altına salıb buyurdu: “**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**”.””[4]

Osman əl-Xəmis rəvayəti sanki onu təkcə Aişə nəql edirmiş kimi təqdim etmişdir. Halbuki özünün “hədis elmində mütəxəssis” olduğunu, “cərh və tədil elminə”[5] agah olduğunu deyir!

**“Kisa” hədisini təkcə Aişə nəql etməmişdir**

Deyirəm: “kisa” hədisi təkcə Aişə yolu ilə nəql edilməmişdir. Aişə bu hədisin yeganə ravisi deyil. Əksinə, bu hədisi ondan başqa da bir çox səhabələr nəql etmişdir:

**Ümmü-Sələmə “kisa” hədisini nəql etmişdir**

Əhli-Beyt (əleyhimus-səlam) dostu olan bu uca məqamlı xanım Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) təthir ayəsi nazil olduqdan sonra Əlini, Fatiməni, Həsəni və Hüseyni (əleyhimus-səlam) öz əbası altına yığıb onlar üçün “**İlahi, bunlar mənim Əhli-Beytimdirlər, çirkinlik və pislikləri onlardan uzaqlaşdırıb onları pak-pakizə et**”, - deyə dua etdiyini nəql etmişdir. Bu hadisəni ondan bir çox səhabə və tabei nəql etmişdir. Bir çox sünni hədis alimləri bu hədisi ona istinadən öz kitablarında nəql etmişlər. Bu hədis Ümmü-Sələmədən (Allah ondan razı olsun) mütəvatir həddə olmasa belə ən azından müstəfiz[6] həddə nəql olunmuşdur.

**“Kisa” hədisini Ümmü-Sələmədən nəql edən şəxslər**
**1-Əta ibn Yəsar**

“Kisa” hədisini Əta ibn Yəsar yolu ilə Ümmü-Sələmədən nəql edən şəxslərdən biri Hakim ən-Nişapuridir. O, özünün “əl-Müstədrək ələs-səhiheyn” kitabında belə nəql etmişdir:

---

[2] Əba. (Tərc.)

[3] Hədisin orijinalında işlənən “murahhal” sözünün hansı mənaya gəlməsi barədə ixtilaf edilmişdir. Bəziləri onu “üzərində dəvə yəhəri şəkilləri çəkilmiş” kimi, bəziləri də “xəttli (xət-xət)” kimi mənalandırmışlar. (Tərc.).

[4] “Tarixdən bir dövr”: səh.187.

[5] “Cərh və tədil” elmi: “rical” elmi, hədisləri nəql edilən şəxslərin tərcümeyi-hallarını araşdıran elm. (Tərc.).

[6] “Mütəvatir” pilləsindən daha aşağı, “xəbəri-vahid” pilləsindən daha yuxarı olan hədis. (Tərc.).

Bizə Əbu Bəkr Əhməd ibn Süleyman əl-Fəqih və Əbül-Abbas Muhəmməd ibn Yaqub nəql edib dedilər: bizə Həsən ibn Mukrəm əl-Bəzzar nəql edib dedi: bizə Osman ibn Ömər nəql edib dedi: bizə Əbdür-Rəhman ibn Abdullah ibn Dinar Şərik ibn Əbu Nəmirdən, o Əta ibn Yəsardan, o da Ümmü-Sələmədən nəql edib dedi:

Ümmü-Sələmə dedi: "**Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**"[7] mənim evimdə nazil olmuşdur. Bundan sonra Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) xəbər göndərib Əlini, Fatiməni, Həsəni və Hüseyni çağırtdı və dedi: "Bunlar mənim Əhli-Beytimdirlər".

Bunun ardınca Hakim ən-Nişapuri demişdir: "Bu, Buxarinin şərtinə əsasən səhih hədisdir, lakin onlar (Buxari və Müslim) bu hədisi nəql etməmişlər". [8]

Bu hədisi Beyhəqi "əs-Sünənul-kubra"da[9], İbn Əsakir "Tarixu-mədinəti-Diməşq"də[10], başqaları da öz kitablarında nəql etmişlər.

## 2-Şəhr ibn Həvşəb

"Kisa" hədisini Əta ibn Yəsar yolu ilə Ümmü-Sələmədən nəql edən şəxslərdən biri Təbəranidir. O özünün "əl-Mücəmül-kəbir" kitabında belə nəql etmişdir:

Bizə Hüseyn ibn İshaq nəql edib dedi: bizə Yəhya əl-Himmani nəql edib dedi: bizə Əbu İsrail Zubeyddən, o, Şəhr ibn Həvşəbdən, o da Ümmü-Sələmədən nəql edib dedi ki,"**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**" ayəsi Ümmü-Sələmənin evində nazil olmuşdur. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) əbasını götürüb onu Əli, Fatimə, Həsən və Hüseynin üzərinə salmış, "İlahi, bunlar mənim Əhli-Beytimdirlər, elə isə çirkinlik və pislikləri onlardan uzaqlaşdırıb onları pak-pakizə et", - demişdir. Bu zaman mən (yəni, Ümmü-Sələmə) qapı ağzında idim. Mən dedim: "Ey Allahın Rəsulu, mən də onlarlayam?" Buyurdu: "Sən xeyr üzərəsən və aqibətin də xeyirdir."[11]

Bu hədisi Əbu Yəla da "əl-Müsnəd"də nəql etmişdir:

Bizə Əbu Xeysəmə nəql edib dedi: bizə Muhəmməd ibn Abdullah nəql edib dedi: bizə Süfyan Zubeyddən, o, Şəhr ibn Həvşəbdən, o da Ümmü-Sələmədən nəql edib dedi ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Əlinin, Fatimənin, Həsənin və Hüseynin üzərinə bir əba salıb "İlahi, bunlar mənim Əhli-Beytim və ailə üzvlərimdən olan ən yaxın şəxslərimdirlər[12]. İlahi, çirkinlikləri onlardan uzaqlaşdırıb onları tərtəmiz et", - dedi.

---

7 Əhzab surəsi, 33-cü ayə.
8 "əl-Müstədrək ələs-səhiheyn": 3/158, hədis: 4705, həmçinin: 2/451, hədis: 3558.
9 "əs-Sünənul-kubra": 2/105, hədis: 2683.
10 "Tarixu-mədinəti-Diməşq": 14/138.
11 "əl-Mucəmul-kəbir": 23/333, həmçinin: 4/134, hədis: 3799.
12 Orijinalda "hammə" sözü işlənmişdir ki, mənası ailə üzvləri arasında insana ən yaxın, ən sevimli və ən xüsusi olan şəxslər deməkdir. (Müt).

Ümmü Sələmə deyir: Mən: “Ey Allahın Rəsulu, mən də onlardanammı?” , - dedim. Həzrət buyurdu: “Sənin aqibətin xeyirdir”.[13]

Həmçinin Tirmizi “Sünən” kitabında bu hədisi nəql etmişdir:

Bizə Mahmud ibn Ğaylan nəql edib dedi: bizə Əbu Əhməd əz-Zübeyri nəql edib dedi: bizə Süfyan Zubeyddən, o, Şəhr ibn Həvşəbdən, o da Ümmü-Sələmədən nəql edib dedi ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Əlinin, Fatimənin, Həsənin və Hüseynin üzərinə bir əba atmış və demişdir: “İlahi, bunlar mənim Əhli-Beytim və xüsusi şəxslərimdirlər. Çirkinlikləri onlardan uzaqlaşdırıb onları tərtəmiz et”. Həmin vaxt Ümmü-Sələmə demişdir: “Mən də onlarlayammı, ey Allahın Rəsulu?” Peyğəmbər buyurmuşdur: “Sənin aqibətin xeyirdir”.

Tirmizi demişdir: “Bu, həsən hədisdir. Bu hədis bu babda nəql edilən ən gözəl hədisdir. Bu babda Ömər ibn Əbu Sələmədən, Ənəs ibn Malikdən, Əbul-Humeyradan, Məqəl (مَعْقَل) ibn Yəsardan və Aişədən hədis nəql edilmişdir.”[14]

Bu hədisi Əhməd ibn Hənbəl də öz “Müsnəd”ində nəql etmişdir:

Bizə Əbu Əhməd əz-Zubeyri nəql edib dedi: bizə Süfyan Zubeyddən, o, Şəhr ibn Həvşəbdən, o da Ümmü-Sələmədən nəql edib dedi ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Əlinin, [Fatimənin,] Həsənin və Hüseynin üzərinə əba salaraq “İlahi, bunlar mənim Əhli-Beytim və xüsusi şəxslərimdirlər. Çirkinlikləri onlardan uzaqlaşdırıb onları tərtəmiz et”, - demişdir. Ümmü-Sələmə demişdir: “Ey Allahın Rəsulu, mən də onlarlayammı?” Peyğəmbər buyurmuşdur: “Sənin aqibətin xeyirdir”.[15]

Bu hədisi, həmçinin, Təbəri öz təfsirində[16], İbn Əsakir “Tarixu-Diməşq”də[17], digərləri də öz kitablarında nəql etmişlər.

### 3-Əbu Səid əl-Xudri

“Kisa” hədisini Əbu Səid əl-Xudri yolu ilə Ümmü-Sələmədən nəql edən şəxslərdən biri Təbəridir. O öz təfsirində belə nəql etmişdir:

Mənə Əbu Kureyb nəql edib dedi: bizə Vəki Əbdül-Həmid ibn Bəhramdan, o, Şəhr ibn Həvşəbdən, o, Fuzeyl ibn Mərzuqdan, o, Əbu Səid əl-Xudridən, o da Ümmü-Sələmədən nəql edib dedi: “**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**” ayəsi nazil olduğunda Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlini, Fatiməni, Həsəni və Hüseyni çağırıb onların üzərinə xeybərdən əldə edilən bir əbanı salıb dedi: “İlahi, bunlar mənim Əhli-Beytimdirlər. Çirkinlikləri onlardan uzaqlaşdırıb onları tərtəmiz et!”. Bu zaman mən dedim: “Mən də onlardan deyiləmmi?” Peyğəmbər buyurdu: “Sənin aqibətin xeyirdir”.[18]

---

[13] “Müsnədi-Əbu Yəla”: 12, 451, hədis 7021. Kitabın mühəqqiqi Şeyx Hüseyn Səlim Əsəd sənəd barədə belə demişdir: “**Raviləri “Səhih”in raviləridir**”.

[14] “Sünənüt-Tirmizi”: 5/699, hədis: 3871. Muhəmməd Muhəmməd Nasiruddin əl-Əlbani “Səhihu-Sünənüt-Tirmizi” kitabında (3/570, hədis: 3871) bu hədisi **səhih** hesab etmişdir.

[15] “Müsnədü-Əhməd”: 18/272-273, hədis: 26476, kitabın mühəqqiqi Şeyx Həmzə Əhməd əz-Zeyn demişdir: “**İsnadı həsəndir**”.

[16] “Təfsirüt-Təbəri”: 22/6.

[17] “Tarixu-Diməşq”: 13/203-204.

[18] “Təfsirüt-Təbəri”: 22/6.

Başqa bir rəvayəti isə Təhavi “Şərhu-muşkilil-asar” adlı kitabında nəql etmişdir:

Bizə Fəhd nəql edib dedi: bizə Əbu Ğəssan nəql edib dedi: bizə Fuzeyl ibn Mərzuq Ətiyyədən, o, Əbu Səiddən, o da Ümmü-Sələmədən nəql edib dedi: “**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**” ayəsi mənim evimdə nazil oldu. Mən dedim: “Ey Allahın Rəsulu, mən də “əhli-beyt”dən deyiləm?” Həzrət buyurdu: “Sən xeyir üzərəsən, sən Peyğəmbərin xanımlarındansan”. Bu vaxt Əli, Fatimə, Həsən və Hüseyn evdə idilər.[19]

Bu hədisi həmçinin Hakim əl-Həskani “Şəvahidüt-tənzil” kitabında nəql etmişdir.[20] O burada Əbu Səid əl-Xudrinin (Allah-taala ondan razı olsun) yolu ilə Ümmü-Sələmədən bir neçə rəvayət nəql etmişdir. Həmçinin bu hədisi İbn Əsakir “Tarixu-Diməşq”də [21] , habelə “əl-Ərbəin fi mənaqibi ummahatil-muminin” kitabında[22], Təbərani “əl-Mücəmül-kəbir”də[23], Muhəmməd ibn Abdullah əş-Şafei də “əl-Fəvaid”də (başqa adla: “əl-Ğiylaniyyat”da)[24] nəql etmişdir.

## 4-Əbu Hureyrə əd-Dəvsi

Bu hədisi Ümmü-Sələmədən nəql edən şəxslərdən biri də Əbu Hureyrə əd-Dəvsidir. Onun rəvayətini Təbəri öz təfsirində nəql etmişdir:

Bizə Əbu Kureyb nəql edib dedi: bizə Musab ibn əl-Miqdam nəql edib dedi: bizə Səid ibn Zərbi Muhəmməd ibn Sirindən, o, Əbu Hureyrədən, o da Ümmü-Sələmədən nəql edib dedi:

Fatimə içində Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) üçün xəşil bişirdiyi bir qazanını götürüb Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) yanına gəldi. O xəşili bir boşqaba qoyub Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) önünə qoydu. Peyğəmbər buyurdu: “Əmin oğlu və oğlanların haradadırlar?” Fatimə buyurdu: “Evdədirlər”. Həzrət buyurdu: “Çağır onları”. Fatimə Əlinin yanına gəlib dedi: “Peyğəmbər səni və iki oğlunu çağırır”.

Ümmü-Sələmə dedi: Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onların gəldiyini görüncə əlini yatağının üzərində olan əbasına uzadıb onu götürdü, sonra onu açıb yerə sərdi. Onları onun üzərinə əyləşdirdi. Sonra sol əli ilə əbanın dörd tərəfindən yapışıb onu onların başları üzərində birləşdirdi, sonra sağ əlini qaldırıb Rəbbinə belə dua etdi: “Bunlar mənim Əhli-Beytimdirlər. Onlardan çirkinliyi təmizləyib onları tərtəmiz et”.[25]

## 5-Əbu Leyla əl-Kindi

Onun rəvayətini Əhməd ibn Hənbəl “əl-Müsnəd”də nəql etmişdir:

---

19 “Şərhu-muşkilil-asar”: 2/241, hədis: 768.
20 “Şəvahidut-tənzil”: 2/57.
21 “Tarixu-Diməşq”: 13/206.
22 “əl-Ərbəin”: səh.105.
23 “əl-Mucəmul-kəbir”: 3/52, hədis: 2660, həmçinin: 23/249, hədis: 503.
24 “əl-Fəvaid”: 1/264, hədis: 259.
25 “Təfsirüt-Təbəri”: 1/297, hədis: 28497.

Bizə Abdullah ibn Numeyr nəql edib dedi: bizə Əbdül-Məlik, yəni: İbn Əbu Süleyman Əta ibn Ribahdan nəql edib dedi: bir nəfər Ümmü-Sələmədən belə eşitdiyini mənə nəql etdi:

Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Ümmü-Sələmənin evində imiş. Bu zaman Fatimə içində xəzirə[26] olan bir qazanla birlikdə Peyğəmbərin yanına gəlir. Peyğəmbərin hüzuruna daxil olduqda Peyğəmbər ona deyir: "Həyat yoldaşını və oğlanlarını çağır".

Sonra Ümmü-Sələmə nəql edib demişdir:

Əli, Həsən və Hüseyn gəlib Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) yanına daxil oldular. Oturub həmin xəzirədən yeməyə başladılar. Bu vaxt Peyğəmbər çarpayısının üstündə yatağının üzərində əyləşmişdi. Altında isə xeybəri bir əba var idi. Bu vaxt mən də otaqda (hücrədə) namaz qılırdım. Həmin vaxt Allah "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**" ayəsini nazil etdi. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) əbanın artıq qalan hissəsini götürüb onların üzərinə örtdü. Sonra əlini çıxarıb səmaya tərəf uzadıb belə buyurdu: "İlahi, bunlar mənim Əhli-Beytim və xüsusi şəxslərimdirlər. Onlardan çirkinliyi uzaqlaşdırıb onları tərtəmiz et. İlahi, bunlar mənim Əhli-Beytimdirlər. Onlardan çirkinliyi uzaqlaşdırıb onları tərtəmiz et". Mən başımı otağa salıb dedim: "Mən də onlarlayammı, ey Allahın Rəsulu?" Həzrət (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: "Sənin aqibətin xeyirdir, sənin aqibətin xeyirdi".

(Abdullah ibn Numeyr) dedi: Əbdül-Məlik demişdir: "Mənə Əbu Leyla Ümmü-Sələmədən Ətanın hədisinin eynisini nəql etmişdir".

Həmçinin Əbdül-Məlik demişdir: "Mənə Davud ibn Əbul-Cuhaf Şəhr ibn Həvşəbdən, o da Ümmü-Sələmədən bu hədisin eynisini nəql etmişdir".

"Müsnədü-Əhməd"in mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut ikinci sənəd barədə (Əbu Leylanın Ümmü-Sələmədən nəql etdiyi sənəd barədə) belə demişdir: "**Səhihdir**"[27]. Həmçinin, "Müsnədü-Əhməd"in başqa bir mühəqqiqi Şeyx Əhməd Həmzə əz-Zeyn də bu hədisi səhih hesab etmişdir.[28]

Bu hədisi Hakim əl-Həskani də "Şəvahidüt-tənzil" kitabında nəql etmişdir.[29]

## 6-Həkim (və ya: Hukeym) ibn Səd

Onun rəvayətini Təbərani "əl-Mücəmül-kəbir" kitabında nəql etmişdir:

Bizə Hüseyn ibn İshaq nəql edib dedi: bizə Osman nəql edib dedi: bizə Cərir Əməşdən, o, Cəfər ibn Əbdür-Rəhmandan, o Həkim ibn Səddən, o da Ümmü-Sələmədən nəql edib dedi:

"**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**" ayəsi Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm), Əli, Fatimə, Həsən və Hüseyn barəsində nazil olmuşdur.[30]

---

[26] Çox kiçik doğranan ətin duz qatılıb suda qaynadılması, qaynadıldıqdan sonra isə un əlavə edilib sıyıq formasında bişirilməsi nəticəsində ortaya çıxan yemək növü. (Tərc.).

[27] "Müsnədü-Əhməd": 6/292, hədis: 26551.

[28] "Müsnədü-Əhməd": 18/244, hədis: 26388. "Darul-hədis" (Qahirə) çapı.

[29] "Şəvahidut-tənzil": 2/86.

[30] "əl-Mucəmul-kəbir": 23/327.

Təhavi bu hədisi “Şərhu-muşkilil-asar” kitabında nəql edərək ona belə şərh vermişdir: “Birinci hədisdə olan şey bu hədisdə də vardır”. Birinci hədislə bağlı isə belə demişdir (o bu hədisi öz sənədi ilə Amir ibn Səddən, o da atası Səd ibn Əbi Vəqqasdan nəql edir): “Bu hədisdə ona işarə edilmişdir ki, təthir ayəsində nəzərdə tutulan şəxslər Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm), Əli, Fatimə, Həsən və Hüseyndirlər.”[31]

Muhəmməd ibn Cərir ət-Təbərinin öz təfsirində Ümmü-Sələmədən nəql etdiyi başqa bir rəvayətdə isə belə deyilir:

Bizə İbn Humeyd nəql edib dedi: bizə Abdullah ibn Əbdül-Quddus Əməşdən, o da Həkim ibn Səiddən nəql edib dedi:

Ümmü-Sələmənin yanında Əli ibn Əbu Talibin (Allah ondan razı olsun) adını çəkdik. Ümmü-Sələmə dedi: “**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**” ayəsi onun barəsində nazil olmuşdur. Sonra dedi: Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) mənim evimə gəlib “heç kəsə (evə gəlməsinə) izin vermə”, - dedi. Sonra Fatimə gəldi. Mən onu atasından ayrı saxlaya bilmədim. Sonra Həsən gəldi. Mən onu da babasından və anasından ayrı saxlaya bilmədim. Sonra Hüseyn gəldi. Mən onu da babasından və anasından ayrı saxlaya bilmədim. Sonra Əli gəldi. Mən onu da ayrı saxlaya bilmədim. Onlar bir döşəyin üzərində Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) ətrafına cəm oldular. Allahın Peyğəmbəri əynində olan bir əbanı onların üzərinə salıb dedi: “Bunlar mənim Əhli-Beytimdirlər. (İlahi,) onlardan çirkinliyi təmizlə və onları tərtəmiz et”. Onlar döşəyin üzərində cəm olduqları vaxt bu ayə nazil oldu. Mən dedim: “Ey Allahın Rəsulu, bəs mən?” Allaha and olsun ki, Həzrət “bəli” demədi. Buyurdu: “Sənin aqibətin xeyirdir”.[32]

### 7-Abdullah ibn Vəhb ibn Zəmə (زَمْعَةُ)

Onun rəvayətini Təbəri öz təfsirində[33] nəql etmişdir:

Bizə Əbu Kureyb nəql edib dedi: bizə Xalid ibn Muxəlləd nəql edib dedi: bizə Musa ibn Yaqub nəql edib dedi: mənə Haşim ibn Ütbə ibn Əbi Vəqqas Abdullah ibn Vəhb ibn Zəmədən nəql edib dedi:

Ümmü-Sələmə mənə xəbər verib dedi ki, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlini və Həsəneyni bir araya toplayıb onları öz libasının altına salmış, sonra Allaha yalvarıb dua etmiş, sonra isə demişdir: “Bunlar mənim Əhli-Beytimdirlər”. Bu zaman Ümmü-Sələmə demişdir: “Ey Allahın Rəsulu, məni də onların yanına daxil et”. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) buyurmuşdur: “Sən mənim ailəmdənsən (həyat yoldaşımsan)”.

Bu rəvayəti Təbərani “əl-Mücəmül-kəbir”də nəql etmişdir [34] . Lakin Təbəraninin nəqlində rəvayətin sənədində Abdullah ibn Vəhb ibn Zəmə deyil Vəhb ibn Abdullah ibn Zəmə adı keçmişdir. Habelə Təbərinin nəqlində həzrət Zəhranın (əleyhəs-salam) adı qeyd olunmur, Təbəraninin nəqlində isə İmam Əli (əleyhis-

---

[31] “Şərhu-muşkilil-asar”: 2/236-237, hədis: 762. Onun Səd ibn Əbi Vəqqasdan nəql etdiyi hədis bir qədər sonra qeyd olunacaq.

[32] “Təfsirüt-Təbəri”: 10/298, hədis: 28502.

[33] “Təfsirüt-Təbəri”: 10/298, hədis: 28498.

[34] “əl-Mucəmul-kəbir”: 3/53.

səlam)-ın adı qeyd olunmur. Bu yanlışlıq ya ravilərdən biri tərəfindən baş vermiş, ya da nüsxəköçürənlər tərəfindən baş vermişdir. Çünki sübuta yetmiş və səhih olan məlumat budur ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) əbanı həzrət Əlinin, həzrət Fatimənin və Həsəneynin (əleyhimus-səlam) üzərinə salmışdır.

Bu rəvayəti həmçinin Hakim əl-Həskani "Şəvahidüt-tənzil" kitabında[35], Təhavi də "Şərhu-muşkilil-asar"[36] kitabında nəql etmişdir.

### 8-Umrə əl-Həmədaniyyə[37]

Onun Ümmü-Sələmədən nəql etdiyi rəvayəti Təhavi "Şərhu-muşkilil-asar" kitabında nəql etmişdir:

Bizə Fəhd nəql edib dedi: bizə Səid ibn Kəsir ibn Ufeyr nəql edib dedi: bizə Əbu Ləhiə Səxrdən, o, Əbu Muaviyə əl-Bəclidən, o da Umrə əl-Həmədaniyyədən nəql edib dedi:

Ümmü-Sələmənin yanına gedib ona salam verdim. O dedi: "Sən kimsən?" Mən dedim: "Umrə əl-Həmədaniyyəyəm". Sonra dedim: "Ey möminlərin anası, bizə bizim aramızda öldürülən bu kişi – yəni, Əli – barədə xəbər ver. (Bəziləri) onu sevir, (bəziləri) də ona nifrət bəsləyirlər." Ümmü-Sələmə dedi: "Sən onu sevirsən, yoxsa ona nifrət bəsləyirsən?" Mən dedim: "Nə sevirəm, nə də nifrət bəsləyirəm!" Ümmü-Sələmə dedi: "Allah "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**" ayəsini nazil etdiyi vaxt evdə yalnız Cəbrail, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm), Əli, Fatimə, Həsən və Hüseyn var idi. Mən dedim: "Ey Allahın Rəsulu, mən də "əhli-beyt"dənəm?" Həzrət buyurdu: "Sənin üçün Allah yanında əcr (savab) vardır". Mən onun "bəli" deməsini istədim. Onun bu sözü deməsi mənim üçün günəşin üzərinə saçdığı və batdığı hər bir şeydən daha sevimli idi."[38]

Bu rəvayəti həmçinin Hakim əl-Həskani "Şəvahidüt-tənzil" kitabında nəql etmişdir.[39]

### 9-Ətiyyə ət-Təfavinin atası

Onun rəvayətini bir neçə əhli-sünnə alimi nəql etmişdir. Onlardan biri Əhməd ibn Hənbəldir. O özünün "əl-Müsnəd" kitabında belə nəql etmişdir:

Bizə Əbdül-Vəhhab ibn Əta nəql edib dedi: bizə Auf Əbul-Muaddil Ətiyyə ət-Təfavidən nəql edib dedi: mənə atam Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) xanımı Ümmü-Sələmədən belə nəql etmişdir:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) mənim evimdə olan vaxt xidmətçi qadın "Əli və Fatimə qapıdadırlar", - dedi. Həzrət (mənə) dedi: "Qalx qoy Əhli-Beytimlə əyləşim". Mən qalxıb evin bir tərəfinə, yaxın bir yerə çəkildim. Əli, Fatimə, Həsən və Hüseyn içəri daxil oldular. Həsən və Hüseyn kiçik uşaq idilər. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) uşaqları götürüb öpdü. Sonra onları qucağında əyləşdirdi. Əlini və Fatiməni də qucaqladı. Sonra Əlinin və

---

35 "Şəvahidut-tənzil": 2/61.
36 "Şərhu-muşkilil-asar": 2/237, hədis: 763.
37 Bəzi mənbələrdə: Umarə əl-Həmədaniyyə. (Tərc.).
38 "Şərhu-muşkilil-asar": 2/244, hədis: 772.
39 "Şəvahidut-tənzil": 2/87.

Fatimənin üzərinə[40] bir əba salıb dedi: "İlahi, mən və Əhli-Beytim oda deyil, Sənə tərəfik.[41]" Mən dedim: "Ey Allahın Rəsulu, bəs mən?" Dedi: "Sən də[42]".[43]

### 10-Ümmü-Sələmənin azad etdiyi qul olan Abdullah ibn Məin

Onun rəvayətini İbn Əsakir "Tarixu-mədinəti-Diməşq" kitabında qeyd etmişdir:

Bizə Əbül-Qasim ibn əs-Səmərqəndi xəbər verib dedi: bizə Asim ibn Həsən xəbər verib dedi: bizə Əbu Əmr ibn Məhdi xəbər verib dedi: bizə Abbas ibn Üqdə xəbər verib dedi: bizə Əhməd ibn Yəhya əs-Sufi xəbər verib dedi: bizə Əbdür-Rəhman ibn Şərik xəbər verib dedi: bizə atam Əbu İshaq əs-Səbiidən, o, Ümmü-Sələmənin azad etdiyi qul olan Abdullah ibn Məindən, o da Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) xanımı Ümmü-Sələmədən nəql edib dedi ki, "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**" ayəsi onun (Ümmü-Sələmənin) evində nazil olmuşdur. Sonra Ümmü-Sələmə ona belə deyib:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) məndən Əliyə, Fatiməyə, Həsən və Hüseynə xəbər göndərməyimi istədi. Mən onlara xəbər göndərib onları çağırdım. Onlar Peyğəmbərin yanına gəldiklərində, Həzrət sağ əli ilə Əlini, sol əli ilə də Həsəni qucaqladı. Hüseyn onun qarnına yapışdı, Fatimə də onun qarşısında dayandı. Sonra dedi: "İlahi, bunlar mənim ailəm və itrətimdirlər, onlardan çirkinliyi uzaqlaşdırıb onları tərtəmiz et". Həzrət bunu üç dəfə dedi. Mən dedim: "Bəs mən, ey Allahın Rəsulu?" Həzrət buyurdu: "Sən xeyir üzərəsən, inşəallah".[44]

Bu şəxslərin hamısı "kisa" hədisini Ümmü-Sələmə xanımdan (Allah-taala ondan razı olsun) nəql etmişlər. Ola bilsin başqa şəxslər də bu hədisi ondan nəql etmişlər. Lakin mən bu qədərlə kifayətlənir və bu hədisi nəql edən digər səhabələrə keçirəm.

Elə isə Osman əl-Xəmis hansı haqla sanki hədisi yalnız Aişə nəql edibmiş və ondan başqa heç kəs nəql etməyibmiş kimi bir görüntü yaratmağa çalışır?!

### Hədisi nəql edən ikinci səhabə: Səd ibn Əbi Vəqqas

Səhabələr arasında "kisa" hədisini nəql edən şəxslərdən biri də Səd ibn Əbi Vəqqasdır. Nəsainin "Xəsais" kitabında belə nəql olunmuşdur:

Bizə Qüteybə ibn Səid əl-Bəlxi və Hişam ibn Əmmar əd-Diməşqi xəbər verib dedilər: bizə Hatim ibn Bukeyr ibn Mismar Amir ibn Səd ibn Əbi Vəqqasdan, o da atası barədə nəql edib dedi:

---

[40] Başqa bir rəvayətdə: "Onların (hər dördünün) üzərinə...". (Tərc.).

[41] Yəni, oda deyil, Sənə tərəf gəlirik. Oda aparan yolda deyil, Sənin yolundayıq. Yaxud oda deyil, Sənə üz tutmuşuq. (Tərc.).

[42] "Sən də" sözü "Əhli-Beyt"ə deyil, "oda deyil Sənə tərəfik" sözünə qayıdır. Yəni, "mən, Əhli-Beytim və Ümmü-Sələmə oda deyil, Sənə tərəfik".

[43] "Müsnədü-Əhməd": 6/304, hədis: 26642.

[44] "Tarixu-mədinəti-Diməşq": 14/143.

Müaviyə Sədə əmr etdi[45] və dedi: “Sənə Əbu Turabı söyməyə nə mane olur?” Səd dedi: “Mən Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) ona dediyi üç sözü xatırladım. Buna görə də əsla onu söyməyəcəyəm. O sözlərdən birinin mənim barəmdə deyilməsi mənim üçün qırmızı tüklü dəvə sürüsündən daha sevimlidir. (Birinci budur ki) döyüşlərin birində Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) onu öz yerində qoydu, Əli ona dedi: “Məni qadınlar və uşaqların yanında qoyursan? Allah Rəsulu ona dedi: “Məgər razı olmazsan ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun, bir şərtlə ki, məndən sonra peyğəmbər yoxdur?” (İkinci budur ki,) Peyğəmbərin Xeybər günü belə dediyini eşitdim: “Sabah bayrağı elə bir kəsə verəcəyəm ki, Allahı və Onun Rəsulunu sevir, Allah və Onun Rəsulu da onu sevirlər.” Bundan sonra bir boyunlarımızı ona tərəf uzatdıq. Lakin Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Əlini mənim üçün çağırın”. Əlini gözləri ağrayan bir halda gətirdilər. Peyğəmbər ağzının suyunu onun gözünə sürtüb bayrağı ona verdi. (Üçüncü budur ki) “**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**” ayəsi nazil olan zaman Allah Rəsulu Əlini, Fatiməni, Həsən və Hüseyni çağırıb dedi: “İlahi, bunlar mənim Əhli-Beytimdirlər”.[46]

Kitabın mühəqqiqi Şeyx Əbu İshaq əl-Huveyni əs-Əsri bu hədis barədə “**isnadı səhihdir**” - demişdir. Nəsai bu hədisi eyni sənədlə “əs-Sünənul-kubra” kitabında da nəql etmişdir.[47]

“əl-Müstədrək ələs-səhiheyn” kitabında Hakim belə nəql etmişdir:

Bizə Əbül-Abbas Muhəmməd ibn Yaqub nəql edib dedi: bizə Muhəmməd ibn Sinan əl-Qəzzaz nəql edib dedi: bizə Ubeydullah ibn Əbdül-Məcid əl-Hənəfi nəql edib dedi: mənə Əhməd ibn Cəfər əl-Qətifi xəbər verib dedi: bizə Abdullah ibn Əhməd ibn Hənbəl nəql edib dedi: mənə atam nəql edib dedi: bizə Əbu Bəkr əl-Hənəfi nəql edib dedi: bizə Bukeyr ibn Mismar nəql edib dedi:

Amir ibn Sədin belə dediyini eşitdim: Müaviyə Səd ibn Əbi Vəqqasa dedi: “Sənə Əbu Talibin oğlunu söyməyə nə mane olur?” Səd dedi: “Allah Rəsulunun

---

[45] Bu rəvayətdən belə görünür ki, Müaviyə ibn Əbi Süfyan Səd ibn Əbi Vəqqasa İmam Əmirəlmöminin Əli ibn Əbu Talibi (əleyhissəlam) söyməyi əmr edibmiş. Səd isə hədisdə də bildirildiyi kimi Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) onun barəsində buyurduğu üç xislət səbəbindən ona söyməkdən imtina edib. Buna əsasən, əslində rəvayətdə belə deyilmək istənib: “Müaviyə Sədə Əlini söyməyi əmr etdi. Səd bundan imtina edincə Müaviyə ona dedi: Sənə Əbu Turabı söyməyə nə mane olur?”. Bunu İbn Macənin öz sənədi ilə Səd ibn Əbi Vəqqasdan nəql etdiyi rəvayət də təsdiq edir (“Sünəni-İbn Macə”: 1/45): “*Müaviyə həcc səfərlərinin birində (Mədinəyə) gəldi. Səd onun yanına getdi. Məclisdə Əlinin adını çəkdilər, bu zaman Müaviyə onun barəsində pis və təhqiramiz sözlər deməyə başladı. Səd qəzəblənib dedi: “Sən bu sözü Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) onun barəsində “mən kimi mövlasıyamsa, Əli də onun mövlasıdır”, - dediyini eşitdiyim, həmçinin: “sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir”, - dediyini eşitdiyim, həmçinin də: “bu gün bayrağı elə bir kəsə verəcəyəm ki, Allahı və Onun rəsulunu sevir...”, - dediyini eşitdiyim bir kəs barəsində deyirsən?!*”. Bu hədis səhih hədisdir. Əl-Əlbani onu “Səhihi-sünəni-İbn Macə” kitabında (1/58, hədis: 98) səhih hesab etmişdir. Həmçinin İbn Teymiyyə əl-Hərrani bu hədisi “Minhacus-sünnə” kitabında (5/42) səhih hesab edərək demişdir: “...*Sədin hədisinə gəldikdə isə, hansı ki, Muaviyə ona Əlini söyməyi əmr edir və o qəbul etmir. Bu zaman Muaviyə deyir: “Sənə Əli ibn Əbi Talibi söyməyə nə mane olur?” Səd də cavab verir ki: “Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) (Əli haqqında) üç şey deyib ki, mən heç vaxt onu söymərəm. Əgər həmin üç şeydən biri mənim olsaydı, (bu) mənə qırmızı rəngli dəvə sürüsündən daha sevimli olardı...” Bu hədis səhihdir, Müslim onu “əs-Səhih” kitabında rəvayət edib.*”. Müaviyənin İmam Əli (əleyhissəlam)-ı söyməsi və camaata bunu əmr etməsi məşhur və hamı tərəfindən bilinən bir məsələdir.

[46] “Xasaisul-İmam Əli”: səh.32, hədis: 9.

[47] “əs-Sünənul-kubra”: 6/107, hədis: 8399.

(sallallahu əleyhi [və alihi] və səlləm) onun barəsində buyurduğu üç şeyi xatırladığım müddətcə onu söymərəm. Onlardan birinin məndə olması mənim üçün qırımızı tüklü dəvə sürüsündən daha sevimlidir.” Müaviyə dedi: “Nədir o üç şey, ey İshaqın atası?” Dedim: “Peyğəmbərə vəhy nazil olduğu zaman o, Əlini, onun iki oğlunu və Fatiməni öz libası altına salıb: “Ey Rəbbim, bunlar mənim Əhli-Beytimdirlər”, - dedi. Mən bunu xatırladığım müddətcə onu söymərəm.

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Təbuk qəzvəsində[48] onu (Mədinədə) saxlayarkən Əli ona dedi: “Məni qadınlarlamı qoydun?”. Bu zaman Peyğəmbər ona dedi: “Razı olmazsan ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun? Bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur”. Mən bunu xatırladığım müddətcə onu söymərəm.

Həmçinin Xeybər gününü xatırladığım müddətcə onu söymərəm. Həmin gün Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Bayrağı elə bir şəxsə verəcəyəm ki, Allahı və Onun Rəsulunu sevir. Allah onun əli ilə zəfər bəxş edəcək”. Biz Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) tərəf uzandıq (özümüzü onun gözünə salmağa çalışdıq). Lakin Peyğəmbər buyurdu: “Əli haradadır?” Dedilər: “Onun gözü ağrayır”[49]. Buyurdu: “Çağırın onu”. Onlar gedib əlini çağırdılar. Peyğəmbər ağzının suyunu onun üzünə atdı. Sonra bayrağı ona verdi. Beləcə Allah ona zəfər bəxş etdi.”

Ravi deyir: Allaha and olsun ki, Müaviyə Mədinədən çıxanadək Əli barədə bir kəlmə belə söz demədi.

Hakim ən-Nişapuri bu hədisi qeyd etdikdən sonra demişdir: “Bu, iki şeyxin (Buxari və Müslimin) şərtinə əsasən səhihdir, lakin onlar bu hədisi nəql etməmişlər...”[50]. Zəhəbi də “ət-Təlxis”də hədis üçün “Müslimin şərtinə əsasən səhihdir”, - demişdir.

Bu hədisi Nəsai “əs-Sünənul-kubra” kitabında, Bəzzar da “Müsnəd” kitabında nəql etmişdir. Lakin sonuncu mənbədə Müaviyənin adı qeyd olunmamışdır. Belə ki, “**Müaviyə Sədə dedi...**” cümləsi dəyişdirilərək “**Bir nəfər Sədə dedi...**” şəklinə salınmışdır. Həmçinin “**Allaha and olsun ki, Müaviyə Mədinədən çıxanadək...**” cümləsi dəyişdirilərək “**Allaha and olsun ki, o şəxs Mədinədən çıxanadək...**” şəklinə salınmışdır!! Biz bu elmi xəyanətə bulaşan şəxsin kim olduğunu bilmirik. Bu xəyanəti edən şəxs ya ravilərdən biridir, ya Bəzzarın özüdür, ya da Bəzzarın kitabını çap edən şəxslərdir. Bunu edən hər kimdirsə bu hədisdə öz azğın ağası Müaviyənin Əmirəlmöminin Əli ibn Əbu Talibə (əleyhissəlam) dil uzadıb onu söyməsinə qəti dəlil olduğunu görmüşdür, buna görə də Müaviyənin adını qeyd etməyə ürəyi razı olmamışdır!

“Təfsirüt-Təbəri”də İbn Cərir demişdir:

Bizə İbn əl-Müsənna nəql edib dedi: bizə Əbu Bəkr əl-Hənəfi nəql edib dedi: bizə Bukeyr ibn Mismar nəql edib dedi: Amir ibn Sədin belə dediyini eşitdim: Səd dedi:

---

[48] Qəzvə: Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) özünün şəxsən iştirak etdiyi hərbi yürüş. (Tərc.).

[49] Qeyd edək ki, orijinalda “huvə ərmədu” – “o “raməd” xəstəliyinə tutulub” cümləsi işlənmişdir. “Raməd” gözdə yaranan iltihabi xəstəlik növüdür. (Tərc.).

[50] “əl-Müstədrək”: 3/117, hədis: 4575.

“Vəhy nazil olduğu zaman Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlini, onun iki oğlunu və Fatiməni öz libasının altına daxil edib dedi: “Ey Rəbbim, bunlar mənim ailəm və Əhli-Beytimdirlər”.”[51]

Bu rəvayəti Təhavi də “Şərhu-muşkilil-asar” kitabında azacıq fərqlə nəql etmişdir:

Bizə Rəbi əl-Muradi nəql edib dedi: bizə Əsəd ibn Musa nəql edib dedi: bizə Hatim ibn İsmayıl nəql edib dedi: bizə Bukeyr ibn Mismar Amir ibn Səddən, o da atasından nəql edib dedi:

“Bu ayə nazil olduğu zaman Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlini, Fatiməni, Həsəni və Hüseyni çağırıb dedi: “İlahi, bunlar mənim ailəmdirlər”.”[52]

Təhavi bu hədisə şərh verərək demişdir: “Bu hədisdə ona işarə edilmişdir ki, ayədə nəzərdə tutulan şəxslər məhz Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm), Əli, Fatimə, Həsən və Hüseyndir”.

## Üçüncü səhabə: Ömər ibn Əbu Sələmə

“Kisa” hədisini nəql edən səhabələrdən biri də Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) oğulluğu Ömər ibn Əbu Sələmədir. “Sünənüt-Tirmizi”də belə nəql olunmuşdur:

Bizə Quteybə nəql edib dedi: bizə Muhəmməd ibn Süleyman ibn əl-İsfahani Yəhya ibn Ubeyddən, o, Əta ibn Əbu Ribahdan, o da Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) oğulluğu Ömər ibn Əbu Sələmədən nəql edib dedi:

“**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**” ayəsi Ümmü-Sələmənin evində Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) nazil olduğu vaxt Peyğəmbər Fatiməni, Həsəni və Hüseyni çağırıb onların üzərinə bir əba saldı. Həmin vaxt Əli onun arxasında idi. Peyğəmbər onun da üzərinə əba salıb dedi: “İlahi, bunlar mənim Əhli-Beytimdirlər. Çirkinlikləri onlardan təmizləyib onları tərtəmiz et”. Ümmü-Sələmə dedi: “Ey Allahın Peyğəmbəri, mən də onlarlayammı?” Peyğəmbər buyurdu: “Sən öz yerində qal. Sən xeyir üzərəsən.”

Şeyx Əlbani bu hədis üçün “**səhihdir**” demişdir[53]. Bu hədisi Təbəri öz təfsirində[54], Təhavi də “Şərhu-muşkilil-asar” kitabında nəql etmişdir[55]. Sonuncu demişdir:

Bizə İbrahim ibn Əhməd ibn Mərvan əl-Vasiti Əbu İshaq nəql edib dedi: bizə Muhəmməd ibn Əban əl-Vasiti nəql edib dedi: bizə Muhəmməd ibn Süleyman ibn əl-İsfahani Yəhya ibn Ubeyd əl-Məkkidən, o, Əta ibn Əbu Ribahdan, o da Ömər ibn Əbu Sələmədən nəql edib dedi:

---

51 “Təfsirüt-Təbəri”: 1/298, hədis: 28501.

52 “Şərhu-muşkilil-asar”: 2/235, hədis: 761. Şüeyb əl-Arnaut demişdir: “**İsnadı səhihdir.**”

53 “Səhihi-Sünənüt-Tirmizi” (əl-Əlbani): 3/305, hədis: 3205. Əlbani bu hədisi eyni mənbədə başqa bir yerdə də qeyd etmiş və “**səhihdir**” demişdir: “Səhihi-Sünənüt-Tirmizi”: 3/543, hədis: 3787.

54 “Təfsirüt-Təbəri”: 10/298, hədis: 28499.

55 “Şərhu-muşkilil-asar”: 2/243-244, Şüeyb əl-Arnaut bu hədis üçün “**isnadı həsəndir**” - demişdir.

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Ümmü-Sələmənin evində olarkən “**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**” ayəsi ona nazil oldu. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Fatiməni, Həsəni və Hüseyni çağırıb onları öz qarşısında əyləşdirdi. Əlini də çağırıb onu da öz arxasında əyləşdirdi. Sonra onların hamısının üzərinə əba salıb dedi: “İlahi, bunlar mənim Əhli-Beytimdirlər. Çirkinlikləri onlardan təmizləyib onları tərtəmiz et”. Bu zaman Ümmü-Sələmə dedi: “İlahi, məni də onlardan et!” Peyğəmbər buyurdu: “Sən öz yerində qal. Sən xeyir üzərəsən”.”

## Dördüncü səhabə: Əbu Səid əl-Xudri

“Tarixu-Diməşq” kitabında İbn Əsakir belə nəql etmişdir:

Bizə Əbul-Fəth Əhməd ibn Muhəmməd ibn Səid əl-Həddad xəbər verib dedi: mənə Əbu Tahir Muhəmməd ibn Muhəmməd ibn Abdullah əs-Sinci xəbər verib dedi: bizə Qazi Əbu Bəkr Muhəmməd ibn Hüseyn ibn Cərir əd-Diməşqi xəbər verib dedi: bizə Əbu Cəfər Muhəmməd ibn Əli ibn Duheym əş-Şeybani Kufədə xəbər verib dedi: bizə Əhməd ibn Hazim ibn Əbu Ğərəzə nəql edib dedi: bizə Əbu Nüeym nəql edib dedi: bizə İmran ibn Əbu Müslim nəql edib dedi:

“Ətiyyədən “**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**” ayəsi barədə soruşdum. Ətiyyə dedi: Sənə onun barəsində məlumat verim. Əbu Səid mənə xəbər verib dedi ki, bu ayə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) evində nazil olmuşdur. Peyğəmbər Əlinin, Fatimənin, Həsənin və Hüseynin üzərinə əba salmışdır.

Sonra Əbu Səid dedi: Həmin vaxt Ümmü-Sələmə qapının ağzında imiş. O deyib: “Ey Allahın Peyğəmbəri, bəs mən?” Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) ona buyurub: “Sən xeyir üzərəsən və aqibətin də xeyirdir”.”[56]

Təbərinin öz təfsirində nəql etdiyi başqa bir rəvayətdə isə belə deyilir:

Mənə Muhəmməd ibn Müsənna nəql edib dedi: bizə Bəkr ibn Yəhya ibn Zəban əl-Ənəzi nəql edib dedi: bizə Mindil Əməşdən (الأَعْمَش), o, Ətiyyədən, o da Əbu Səid əl-Xudridən nəql edib dedi:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**” ayəsi beş nəfər barəsində: mənim, Əlinin, Fatimənin, Həsənin və Hüseynin barəsində nazil olmuşdur.[57]

## Beşinci səhabə: Abdullah ibn Abbas

Hakim ən-Nişapuri “əl-Müstədrək” kitabında deyir:

Bizə Əbu Bəkr Əhməd ibn Cəfər ibn Həmdan əl-Qətii Bağdadda bir kitabdan (və ya: yazılı qaynaqdan) nəqlən xəbər verib dedi: bizə Abdullah ibn Əhməd ibn Hənbəl nəql edib dedi: mənə atam nəql edib dedi: bizə Yəhya ibn Həmmad nəql

---

[56] “Tarixu-Diməşq”: 14/147.
[57] “Təfsirüt-Təbəri”: 10/296, hədis: 28487.

edib dedi: bizə Əbu Əvanə nəql edib dedi: bizə Əbu Bəlc nəql edib dedi: bizə Əmr ibn Məymun nəql edib dedi:

"Mən İbn Abbasın yanında oturmuşdum. Bu zaman onun yanına doqquz nəfər şəxs gəlib dedi: "Ey Abbasın oğlu, ya bizimlə gəl, ya da bu şəxslər qalxsınlar, biz təkbaşına oturaq". İbn Abbas dedi: "Mən sizinlə gələrəm". Həmin vaxt İbn Abbas sağlam idi və gözləri tutulmamışdı. Onlar gedib danışmağa başladılar. Biz onların nə dediklərini bilmirdik. Birdən İbn Abbasın öz paltarını çırpa-çırpa bizim yanımıza gəldiyini gördük. O dedi: "Vay olsun, tfu! Elə bir şəxsi təhqir etdilər ki, onda heç kəsdə olmayan ondan yuxarı fəziləti vardır! Elə bir şəxsi təhqir etdilər ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onun barəsində "Elə bir şəxsi göndərəcəyəm ki, Allah əsla onu zəlil-xar etməyəcək. O, Allahı və Onun Rəsulunu sevir, Allah və Rəsulu da onu sevirlər", - demişdir. Həmin vaxt bəziləri bu şərəfə nail olmaq istədilər. Lakin Peyğəmbər buyurdu: "Əli haradadır?" Dedilər: "Əli (əl) dəyirmanının başında dən üyüdür". Peyğəmbər buyurdu: "Dən üyüdəcək başqa adam yox idi?" (Yaxud, cümlə İbn Abbasındır və bu şəkildədir: "O zaman dən üyüdəcək başqa adam yox idi" – tərc.). Bu zaman Əli gözləri ağrayan və az qala heç bir şey görə bilməyəcək bir vəziyyətdə gəldi. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) ağzının suyunu onun gözlərinə atdı. Sonra bayrağı üç dəfə yelləyib ona verdi.

Sonra İbn Abbas dedi: Sonra Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) filankəsi[58] "Tövbə" surəsi ilə birgə göndərdi. Lakin onun ardınca Əlini göndərib surəni ondan aldırdı və "Bu surəni yalnız elə bir şəxs apara bilər ki, o məndən olsun, mən də ondan olum!", - deyə buyurdu.

Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) əmisi oğlanlarına dedi: "Sizlərdən hansı biriniz dünya və axirətdə mənim vəlim olar?" Bu zaman Əli də onlarla birgə əyləşmişdi. Sonra Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) yenidən onlara üz tutub dedi: "Sizlərdən hansı biriniz dünya və axirətdə mənim vəlim olar?" Onlar imtina etdilər. Peyğəmbər Əliyə dedi: "Sən dünya və axirətdə mənim vəlimsən".

Əli Xədicədən (Allah ondan razı olsun) sonra iman gətirən ilk şəxs idi.

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) libasını götürüb Əlinin, Fatimənin, Həsənin və Hüseynin üzərinə saldı və buyurdu: "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**"..."

Hakim bu hədisi qeyd etdikdən sonra demişdir: "Bu, səhih sənədli hədisdir, lakin iki şeyx bu hədisi nəql etməmişlər"[59]. Zəhəbi də "Təlxis"də demişdir: "**Səhihdir**".

Bu hədisi Nəsai "əs-Sünənul-kubra" kitabında[60], həmçinin "Xasais" kitabında[61], eləcə də Əhməd ibn Hənbəl "əl-Müsnəd" kitabında[62], həmçinin "Fadailus-səhabə" kitabında[63], həmçinin də digərləri öz kitablarında nəql etmişlər.

---

58 Əbu Bəkr ibn Əbu Qufahəni.
59 "əl-Müstədrək ələs-sahiheyn": 3/143, hədis: 4652.
60 "əs-Sünənul-kubra": 5/112, hədis: 8409.
61 "Xasaisul-İmam Əli": səh.44, hədis: 23.

## Altıncı səhabə: Vasilə ibn əl-Əsqə (الأَسْقَعُ)

"Kisa" hədisini nəql edən səhabələrdən biri də Vasilə ibn əl-Əsqədir. Onun rəvayəti bir çox mənbələrdə qeyd olunmuşdur. Belə mənbələrdən biri də İbn Əbu Şeybənin "əl-Müsənnəf" kitabıdır. İbn Əbu Şeybə demişdir:

Bizə Muhəmməd ibn Musəb əl-Əvzaidən, o da Şəddad Əbu Əmmardan nəql edib dedi:

"Vasilənin yanına getdim. Onun yanında bir dəstə şəxs var idi. Həmin şəxslər Əlini yad edib onu təhqir etməyə başladılar. Mən də onlarla birgə Əlini təhqir etdim. Vasilə dedi: "Sənə Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) eşitdiyim bir şeyi xəbər verimmi?" Dedim: "Bəli". Dedi: "Mən Fatimənin yanına gedib Əlini soruşdum. Fatimə dedi: "Əli Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) yanına gedib". Xülasə, bir qədər sonra Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əli, Həsən və Hüseynlə birgə gəldi. Həsən və Hüseyn Peyğəmbərin əlindən tutmuşdular. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Əliyə və Fatiməyə yaxınlaşıb onları öz önündə əyləşdirdi. Həsən və Hüseyni də dizləri üstündə əyləşdirdi. Sonra libasını – yaxud əbasını – onlara sarıb bu ayəni tilavət etdi: "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**". Sonra buyurdu: "İlahi, bunlar mənim Əhli-Beytimdirlər. Mənim Əhli-Beytim daha layiqdir".[64]

Bu rəvayəti həmçinin Əhməd ibn Hənbəl "Müsnəd"[65] və "Fadailus-səhabə"[66] kitablarında nəql etmişdir.

İbn Hibbanın "Səhih" kitabında nəql etdiyi başqa bir rəvayətdə isə deyilir:

Bizə Abdullah ibn Muhəmməd ibn Müslim xəbər verib dedi: bizə Əbdür-Rəhman ibn İbrahim nəql edib dedi: bizə Vəlid ibn Müslim və Əmr ibn Əbdül-Vahid nəql edib dedilər: bizə əl-Əvzai Şəddad Əbu Əmrdən, o da Vasilə ibn əl-Əsqədən nəql edib dedi:

"Əlinin evinə gedib onu soruşdum. Mənə "Əli gedib. Gələndə Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birlikdə gələcək", - dedilər. (Bir qədər sonra) Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) gəldi. Mən də evə daxil oldum. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) yatağın üzərində əyləşdi. Fatiməni sağ tərəfində, Əlini sol tərəfində, Həsən və Hüseyni də önündə əyləşdirib dedi: ""**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**". İlahi, bunlar mənim Əhli-Beytimdirlər".

Bu vaxt mən evin bir tərəfindən dedim: "Bəs mən, ey Allahın Rəsulu, mən də sənin ailəndənəmmi?" Peyğəmbər buyurdu: "Sən də mənim ailəmdənsən."

Vasilə dedi: Bu söz mənim ən çox arzu etdiyim şeylərdən idi."[67]

---

62 "Müsnəd": 1/330-331, hədis: 3062. Kitabın mühəqqiqi Şeyx Əhməd Muhəmməd Şakir demişdir: "**İsnadı səhihdir**".

63 "Fadailus-səhabə": 2/682, hədis: 1168.

64 "Müsənnəf": 6/370, hədis: 32102.

65 "Müsnədü-Əhməd": 4/107, hədis: 17029. Kitabın mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut demişdir: "**Səhih hədisdir**".

66 "Fadailus-səhabə": 2/577, hədis: 978.

67 "Səhihü-İbn Hibban": 15/432, hədis: 6976. Kitabın mühəqiqi Şeyx Şüeyb əl-Arnaut demişdir: "**İsnadı səhihdir. Raviləri siqədirlər, "Səhih"in raviləridirlər...**".

Bu rəvayətdə Vasilə, yaxud Vasilənin adından ravilərdən biri iddia edir ki, Vasilə Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm): “Mən də sənin ailəndənəmmi?”, - demiş, Allah Rəsulu da ona: “Sən də mənim ailəmdənsən”, - demişdir.

**Deyirəm:** Qəti olaraq məlumdur ki, Vasilə təthir ayəsindəki “əhli-beyt” məfhumundan xaricdir. Buna görə də hədisdəki bu əlavə hədisin ravilərindən biri tərəfindən artırılmışdır. Onlar ayə Vasilə və onun kimi başqa şəxslərə də şamil olsun deyə ayədəki “əhli-beyt” məfhumunu genişləndirmək istəmişlər. Şübhəsiz ki, onlar bunu inadkarlıq üzündən, “kisa” əhlinə (əleyhimus-səlam) olan nifrətləri səbəbindən etmişlər. Xüsusən də nəzərə aldıqda ki, bu əlavə Vasilənin bütün rəvayətlərində deyil, məhz bəzi rəvayətlərində gəlmişdir.

Bəziləri Vasiləyə nisbət edilən bu sözü yozmağa çalışmış, deyilənlərin məcazi mənada olduğunu bildirmişlər! Halbuki bu necə doğru ola bilər?! Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) konret olaraq “əhli-beyt” məfhumunun kimlərdən ibarət olduğunu açıqlayır və ayədəki “əhli-beyt”in kimlərlə məhdudlaşdığını bildirir. Konretləşdirmə və məhdudlaşdırmadan söhbət gedən bu məqamda Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Vasiləni necə bu məfhuma daxil edə bilər? Əgər Vasilənin “əhli-beyt”dən olmasını doğru qəbul etsək, o zaman Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) məhdudlaşdırma aparmaqla, habelə Ümmü-Sələmənin “əhli-beyt”dən olmasını inkar etməklə – Allaha pənah – batil iş görmüş sayılacaq.[68]

Bununla Təhavinin “Şərhu-muşkilil-asar” kitabında dediyi aşağıdakı sözlərin zəifliyi də aşkar olur. O demişdir:

“Peyğəmbərin Vasiləyə buyurduğu “sən də mənim ailəmdənsən” sözünün mənası budur ki, sən mənə tabe olduğuna və mənə iman gətirdiyinə görə mənim ailə üzvlərimin cərgəsinə daxil olmusan. Biz Allah-taalanın öz kitabında buna dəlalət edən bir söz buyurduğunu görürük. Belə ki, buyurur: “**Nuh öz Rəbbini səsləyib dedi: Ey Rəbbim, həqiqətən də oğlum mənim ailəmdəndir**”. Allah isə ona belə cavab verdi: “**O sənin ailəndən deyil. O (küfr etməklə) pis bir iş görmüşdür**”. Nuhun dinində olmadığına görə onun doğma oğlunun Nuhun ailəsindən sayılmaması mümkün olduğu kimi, onun dinindən olduğu təqdirdə öz nəslindən olmasa belə başqa bir şəxsin onun ailə üzvlərindən sayılması da mümkündür.”[69]

Bununla Təhavinin sözü ilə eyni mənada olan Əbul-Məhasin əl-Hənəfinin sözünün də zəifliyi aşkar olur.[70]

Doğru olan Vasilənin rəvayətində gələn bu əlavənin rədd edilməsidir. Çünki hədis Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) “əhli-beyt”in kimlərdən ibarət olduğunu təyin etdiyini və konkretləşdirdiyini deyir, bu əlavə isə bu konretləşdirmə və məhdudlaşdırma ilə ziddiyyət təşkil edir.

---

[68] Çünki Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Vasiləyə bu sözü deyərkən məcazi mənanı nəzərdə tutduğunu fərz etsək, o zaman eyni şeyin Ümmü-Sələmə üçün də edilməsi lazım gələcək. Elə isə nə üçün Ümmü-Sələmə eyni istəyi etdikdə ona rədd cavabı verilir, lakin Vasilə bu istəyi edincə ona bu şəkildə cavab verilir? Bu onu göstərir ki, rəvayətdə gələn bu əlavə ravilərdən biri tərəfindən artırılmış bir əlavədir. (Tərc.).

[69] “Şərhu-muşkilil-asar”: 2/246, “Tuhfətul-əxyar”: 8/477.

[70] Onun sözü bir qədər sonra qeyd olunacaq.

Vasilənin “kisa” hədisini nəql etməsini Hakim ən-Nişapuri də qeyd etmişdir. Hakim demişdir:

Bizə Əbül-Abbas Muhəmməd ibn Yaqub nəql edib dedi: bizə Abbas ibn Vəlid ibn Məzid xəbər verib dedi: mənə atam xəbər verib dedi: Əvzainin belə dediyini eşitdim: Əbu Əmmar mənə nəql edib dedi:

“Vasilə ibn əl-Əsqə (Allah ondan razı olsun) mənə nəql edib dedi: Əlinin (Allah ondan razı olsun) evinə gedib onu istədim, lakin onu evdə tapmadım. Fatimə (Allah ondan razı olsun) dedi: “Əli Allah Rəsulunu (sallallahu əleyhi [və alihi] və səlləm) çağırmaq üçün onun yanına gedib, əyləş”. [Mən əyləşdim. Bir qədər sonra] Əli Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birlikdə gəldi. Onlar evə daxil oldular, mən də onlarla birgə daxil oldum. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Həsəni və Hüseyni çağırıb onları dizləri üstündə əyləşdirdi. Fatiməni və onun həyat yoldaşını da öz yanında əyləşdirdi. Sonra mənim gözümün qabağında öz libasınını onlara bürüyüb dedi: ““**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**”. İlahi, bunlar mənim Əhli-Beytimdirlər”.”

Bunun ardınca Hakim demişdir: “Bu, Müslimin şərtinə əsasən səhih hədisdir. Lakin iki şeyx bu hədisi nəql etməmişlər”.[71]

Hakim bu hədisi eyni kitabın başqa bir yerində də nəql etmişdir:

Bizə Əbül-Abbas Muhəmməd ibn Yaqub nəql edib dedi: bizə Rəbi ibn Süleyman əl-Muradi və Bəhr ibn Nəsr əl-Xəvlani nəql edib dedilər: bizə Bişr ibn Bəkr və Bişr ibn Bəkr nəql edib dedilər: əl-Əvzai nəql edib dedi: mənə Əbu Əmmar nəql edib dedi: mənə Vasilə ibn əl-Əsqə nəql edib dedi:

“Əlinin yanına getdim, lakin evdə deyildi. Fatimə dedi: “Əli Allah Rəsulunu (sallallahu əleyhi [və alihi] və səlləm) çağırmaq üçün onun yanına gedib.” Bir qədər sonra Əli Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birgə gəldi. Onlar evə daxil oldular, mən də onlarla birgə evə daxil oldum. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Həsən və Hüseyni çağırıb onları dizlərində əyləşdirdi. Fatiməni və onun yoldaşını da özünə yaxınlaşdırdı. Sonra onların üzərinə bir libas sarıb buyurdu: “**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**”. Sonra dedi: “Bunlar mənim Əhli-Beytimdirlər. İlahi, Əhli-Beytim daha layiqdirlər”.”

Bunun ardınca Hakim demişdir: “**Bu, iki şeyxin şərtinə əsasən səhihdir, lakin onlar bunu nəql etməmişlər**”[72]. Zəhəbi də “Təlxis”də demişdir: “**Müslimin şərtinə əsasəndir**”.

Vasilənin bu rəvayətini həmçinin Əbu Yəla da öz “Müsnəd”ində nəql etmişdir.[73]

---

[71] “əl-Müstədrək ələs-sahiheyn”: 2/451, hədis: 3559.
[72] “əl-Müstədrək”: 3/159, hədis: 4706.
[73] “Müsnədi-Əbu Yəla”: 13/470, hədis: 7486.

## Yeddinci səhabə: Abdullah ibn Cəfər

Onun rəvayətini Hakim ən-Nişapuri "əl-Müstədrək aləs-sahiheyn" kitabında nəql etmişdir:

Mənə Əbül-Həsən İsmayıl ibn Muhəmməd ibn Fəzl ibn Muhəmməd əş-Şirani (الشِّعْرَانِيُّ) nəql edib dedi: bizə babam nəql edib dedi: bizə Əbu Bəkr ibn Əbu Şeybə əl-Hizami nəql edib dedi: bizə Muhəmməd ibn İsmayıl ibn Əbu Fudeyk nəql edib dedi: mənə Əbdür-Rəhman ibn Əbu Bəkr əl-Muleyki İsmayıl ibn Abdullah ibn Cəfər ibn Əbu Talibdən, o da atasından nəql edib dedi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) rəhmətin nazil olduğunu görüncə "çağırın yanıma, çağırın yanıma", - dedi. Səfiyyə dedi: "Kimi, ey Allahın Rəsulu?" Buyurdu: "Əhli-Beytimi: Əlini, Fatiməni, Həsəni və Hüseyni". Onları Peyğəmbərin yanına gətirdilər. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) əbasını onların üzərinə saldı, sonra əllərini səmaya qaldırıb dedi: "İlahi, bunlar mənim ailəmdirlər. Elə isə Muhəmmədə və onun ailəsinə salavat et". Bu zaman Allah (əzzə və cəll) "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**" ayəsini nazil etdi."

Hakim ən-Nişapuri demişdir: "Bu, səhih sənədli hədisdir, lakin iki şeyx bunu nəql etməmişlər".[74]

"Kisa" hədisini nəql edən səhabələrdən bu qədərinin adını qeyd etməklə kifayətlənirik. Bu qeyd etdiklərimiz insaf sahibləri üçün kifayətdir. Bütün bu rəvayətlərdən sonra "Əhli-Beyt" deyərkən kimin nəzərdə tutulduğu aydın olur. Həmçinin bu deyilənlərlə o da aydın olur ki, Osman əl-Xəmisin hədisi sanki yalnız Aişə nəql edibmiş kimi göstərməsi saxtakarlıq və insanları aldatmaqdır.

## Osman əl-Xəmisin "dirayə"[75] elmindən xəbəri var?!

Osman əl-Xəmis deyir:

"Şiələr "kisa" hədisinə əsaslanaraq deyirlər ki, Allah-taala çirkinliyi Əhli-Beytdən uzaqlaşdırmaq istəmişdir. Allah da nəyi istəsə, o şey mütləq baş verməlidir. Deməli, Allah çirkinliyi Əhli-Beytdən uzaqlaşdırmışdır. İndi ki, belədir, deməli Əhli-Beyt məsumdur; əgər məsumdursa, deməli xilafətə hamıdan daha layiqdir.

Bu iddia bir çox cəhətdən batildir. Belə ki..."[76].

Deyirəm: On iki imam şiələri deyirlər ki, "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**" ayəsindəki "istək"dən (iradədən) məqsəd təkvini istəkdir. Allah-taalanın təkvini istək ilə

---

[74] "əl-Müstədrək aləs-sahiheyn": 3/148.

[75] "Dirayə elmi": hədisi mətn və sənəd yönündən araşdıran elmdir. Əlbəttə "...sənəd yönündən" dedikdə sənəddəki ravilərin tək-tək tərcümeyi hallarının araşdırılması deyil, sənədin ümumi baxımdan (mütəvatir, xəbəri-vahid, müttəsil, münqəti, səhih, zəif, mürsəl və s. olma baxımından) vəziyyətinin araşdırılması nəzərdə tutulur. "Mətn yönündən.." deyərkən isə hədisin hansı mənaya dəlalət etməsinin araşdırılması, habelə zahir, mücməl, mübəyyən, möhkəm, mütəşabeh və s. bu kimi xüsusiyyətlərdən hər hansısa birinə sahib olub-olmamasının araşdırılması nəzərdə tutulur. (Müt.)

[76] "Tarixdən bir dövr": səh. 187.

istədiyi şey mütləq baş verməlidir: "**(Allah) bir şeyi istədiyi zaman ona ancaq: "Ol!", - deyər, o da dərhal olar.**" (Yasin surəsi, 82-ci ayə). Allah-taala bu ayədə Əhli-Beytin (əleyhimussəlam) hər növ pislikdən və çirkinlikdən pak və uzaq olduqlarını xəbər verir. Əgər onlar bütün bu çirkinliklərdan pak və uzaqdırlarsa, o zaman şübhə yoxdur ki, məsumdurlar. Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xəlifəliyi məqamına hamıdan daha layiq olan şəxs də məhz məsumdur.

Buna əsasən, şiələr bu məsələyə dəlil gətirərkən Şeyx Xəmisin iddia etdiyi kimi "kisa" hədisinə deyil, ayənin ifadə etdiyi mənaya əsaslanırlar. Bəli, şiələr "kisa" hədisinə məhz ayədəki "əhli-beytin" Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) əba altına cəm edib barələrində "İlahi, bunlar mənim Əhli-Beytimdirlər, bütün çirkinlikləri onlardan təmizləyib onları tərtəmiz et", - deyə buyurduğu şəxslər olduğunu isbat etməkdən ötrü əsaslanırlar.

Osman əl-Xəmisin təəccüblü işlərindən biri də onun bu işin bir neçə cəhətdən batil olduğunu deməsidir. Bunu dedikdən sonra yeddi cəhət qeyd etmişdir. Halbuki bu qeyd olunan yeddi cəhətin heç birində təthir ayəsinin "kisa" əhlinə məxsus olmasını batil edəcək və ya təthir ayəsinin Əhli-Beytin (əleyhimussəlam) məsumluqlarına və imamlıqlarına dəlalət etməsini batil edəcək heç bir şey yoxdur.

Osman əl-Xəmis deyir:

"Birinci: "Təthir" ayəsi adlanan bu ayə Allah-taalanın da buyurduğu kimi Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) xanımları barədə nazil olub. Allah-taala buyurur: "**Siz ey Peyğəmbərin zövcələri! Allahdan qorxacağınız təqdirdə siz (başqa) qadınların heç biri kimi deyilsiniz. (Sizin qədir-qiymətiniz, məqamınız daha yüksəkdir. Allahdan qorxsanız, daha şərəfli olarsınız). Buna görə də (yad kişilərə) yumşaq (əzilə-əzilə) danışmayın, yoxsa qəlbində mərəz (şəkk, nifaq və günah mərəzi) olan tamaha (özgə təmənnaya) düşər. (Danışdığınız zaman) gözəl danışın! (Allahın buyurduğu kimi, yaxud qəbul olunmuş qayda üzrə gözəl, ciddi bir söz deyin!) Evlərinizdə qərar tutun. İlkin cahiliyyət dövründəki kimi açıq-saçıq olmayın. (Bər-bəzəyinizi taxaraq evdən çıxıb özünüzü, gözəlliyinizi yad kişilərə göstərməyin!) Namaz qılın, zəkat verin, Allaha və Rəsuluna itaət edin. Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər! Allahın evlərinizdə oxunan ayələrini (Quranı) və hikməti (Peyğəmbərin qoyduğu qayda-qanunu) xatırlayın. Allah (möminlərə) lütfkardır, (bəndələrinin bütün əməllərindən) xəbərdardır**!" (Əhzab surəsi, 32-34-cü ayələr).

Ayələrin düzülüşünə və ardıcıllığına diqqət yetirən şəxs onların xüsusi olaraq Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) xanımları barədə nazil olduğuna əmin olur. Şiələr isə təthir ayəsində "an*kunnə*" əvəzinə "an*kum*" sözünün, həmçinin, "yutəhhira*kunnə*" əvəzinə "yutəhhira*kum*" sözünü işlənməsini əsas gətirərək deyirlər ki, ayədə [kişi cinsinin] cəmi[ni] ifadə edən "m" hərfinin işlənməsi ayənin Peyğəmbər xanımları barədə olmadığına dəlalət edir və "kisa" hədisinə əsasən, aydın olur ki, ayədə nəzərdə tutula şəxslər Əli, Fatimə, Həsən və Hüseyndən ibarətdir.

Bu, batil sözdür. Çünki, təthir ayəsi [müstəqil yox] bitişik ayədir. Ayə "**Evlərinizdə qərar tutun. İlkin cahiliyyət dövründəki kimi açıq-saçıq olmayın.**

**Namaz qılın, zəkat verin, Allaha və Rəsuluna itaət edin. Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**" şəklindədir. Ardınca da "**Allahın evlərinizdə oxunan ayələrini...**" ayəsi gəlir. Buna əsasən, bu ayədəki xitab bütünlüklə Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) xanımlarına yönəlib"[77].

**Deyirəm:** Gördüyünüz kimi onun dediyi bu sözlərdə nə ayədəki istəyin təkvini istək olduğunu batil edəcək, nə də ayənin Əhli-Beytin (əleyhimussəlam) pak və məsum olduğuna dəlalət etməsini batil edəcək heç bir şey yoxdur. O yalnızca ayələrin gedişatına və məzmununa əsaslanaraq onların Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımları barədə nazil olduğunu iddia edib. O bu iddiası üçün ayələrin gedişatından və düzülüşündən başqa heç bir dəlil gətirməyib. Biz onun bu sözünün batilliyini bir neçə cəhətdən göstərəcəyik:

## Osman əl-Xəmisin ayələrin düzülüşünə əsaslanması batildir

**Birinci dəlil:** Nümunə olaraq qeyd etdiyimiz rəvayətlərin hamısı açıq-aşkar şəkildə Allah-taalanın təthir ayəsində nəzərdə tutduğu şəxslərin məhz Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) öz əbası altına yığdığı şəxslərdən ibarət olduğunu bildirir. Bunu istənilən oxucu başa düşür. Bunu bir çox əhli-sünnə alimləri də başa düşmüşlər. Elə isə bu rəvayətlərdən sonra ayənin başqa şəxslər barəsində nazil olduğunu iddia etmək Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) qarşı müxalifət etməkdən və nəss müqabilində ictihad etməkdən başqa bir şey deyildir! Biz burada əhli-sünnə alimlərinin ayə barədə sözlərini qeyd edirik:

## Əhli-sünnə alimlərinin təthir ayəsindəki şəxslərin kimliyi barədə sözləri

Təhavi "Şərhu-muşkilil-asar"[78] kitabında "Əhzab surəsi 33-cü ayədə kimin nəzərdə tutulması barədə Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) nəql olunan hədislərdəki müşkülün izahı" başlığı altında demişdir:

Bizə Rəbi əl-Muradi nəql edib dedi: bizə Əsəd ibn Musa nəql edib dedi: bizə Hatim ibn İsmayıl nəql edib dedi: bizə Bukeyr ibn Mismar Amir ibn Səddən, o da atasından nəql edib dedi:

"Bu ayə nazil olduğu zaman Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlini, Fatiməni, Həsəni və Hüseyni çağırıb dedi: "İlahi, bunlar mənim ailəmdirlər"."

Sonra Təhavi deyir:

"Bu hədisdə ona işarə edilmişdir ki, ayədə nəzərdə tutulan şəxslər məhz Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm), Əli, Fatimə, Həsən və Hüseyndir".

Sonra deyir:

---

[77] "Tarixdən bir dövr": səh.187-188.

[78] "Tuhfətul-əxyar bi-tərtibi-şərhi-muşkilil-asar": 8/470-471.

“Bizə Fəhd nəql edib dedi: bizə Osman ibn Əbu Şeybə nəql edib dedi: bizə Cərir ibn Əbdül-Həmid Əməşdən, o, Cəfər ibn Əbdür-Rəhman əl-Bəclidən, o Həkim ibn Səddən, o da Ümmü-Sələmədən nəql edib dedi:

““**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**” ayəsi Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm), Əli, Fatimə, Həsən və Hüseyn barəsində nazil olmuşdur”.”

Sonra deyir: “Birinci hədisdə olan şey bu hədisdə də vardır”.”

Bunun ardınca möminlər anası Ümmü-Sələmə (Allah ondan razı olsun) təriqi ilə bir neçə rəvayət nəql edir və deyir:

“Nəql etdiyimiz bu rəvayətlərdə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Ümmü-Sələməyə buyurduğu sözlərdən belə anlaşılır ki, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Ümmü-Sələmənin tilavət olunan ayədə (yəni, təthir ayəsində) nəzərdə tutulan şəxslərdən olmadığını bildirmişdir. Bu rəvayətlər təthir ayəsində nəzərdə tutulan şəxslərin məhz Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm), Əli, Fatimə, Həsən və Hüseyn olduğunu bildirir.”[79]

“Əbul-Məhasin” kimi tanınan Əllamə Yusuf ibn Musa əl-Hənəfi demişdir:

“Nəql olunmuşdur ki, “**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**” ayəsi nazil olan zaman Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlini, Fatiməni, Həsəni və Hüseyni çağırıb: “İlahi, bunlar mənim ailəmdirlər”, - demişdir. Həmçinin nəql edilmişdir ki, Peyğəmbər [Əlini][80], Fatiməni, Həsəni və Hüseyni bir araya cəm edib onları öz libasının altına almış, daha sonra Allah-taalaya nida edərək: “İlahi, bunlar mənim ailəmdirlər”, - demişdir. Bu zaman Ümmü-Sələmə: “Ey Allahın Rəsulu, məni də onlarla birgə daxil edirsənmi?”, - demiş, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) isə: “Sən mənim ailəmdənsən”, - demişdir. Peyğəmbər Ümmü-Sələməyə “sən mənim ailəmdənsən” deyərkən Ümmü-Sələmənin onun zövcələrindən olduğunu nəzərdə tutmuşdur. Necə ki, “ifk” (“böhtan”) hədisində “kim ailəm [yəni, zövcəm: Aişə – tərc.] barədə mənə əziyyət verən bu kəsə qarşı mənə yardım edər?” deyə buyurmuşdu. Peyğəmbər Ümmü-Sələməyə “sən mənim ailəmdənsən” deyərkən Ümmü-Sələmənin tilavət olunan ayənin əhlindən olduğunu nəzərdə tutmamışdır.

Bunu Ümmü-Sələmədən nəql edilən başqa bir rəvayət də təsdiqləyir. Belə ki, həmin rəvayətdə Ümmü-Sələmə belə nəql etmişdir ki: “Bu ayə mənim evimdə nazil oldu. Həmin vaxt mən dedim: “Ey Allahın Rəsulu, mən də “əhli-beyt”dən deyiləmmi?”. Peyğəmbər buyurdu: “Sən xeyir üzərəsən. Sən Peyğəmbərin xanımlarındansan (yəni, ayədəki “əhli-beyt”dən deyilsən – tərc.).” Həmin vaxt evdə Əli, Fatimə, Həsən və Hüseyn var idi.”

Həmçinin Vasilə ibn əl-Əsqədən belə nəql edilmişdir:

Əlinin evinə getdim, lakin onu evdə tapmadım. Fatimə dedi: “Allah Rəsulunu (sallallahu əleyhi [və alihi] və səlləm) çağırmaq üçün onun yanına gedib”. (Bir qədər sonra) Əli Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birgə

[79] “Tuhfətul-əxyar bi-tərtibi-şərhi-muşkilil-asar”: 8/476.

[80] əl-Hənəfi İmam Əli (əleyhissəlam)-ın adını qeyd etməmişdir. Bu xəta ya ondan qaynaqlanmışdır, ya da nüsxəköçürənlərdən.

gəldi. Onlar evə daxil oldular, mən də daxil oldum. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Həsəni və Hüseyni çağırıb onları dizləri üzərində əyləşdirdi. Sonra Fatiməni və onun yoldaşını özünə yaxınlaşdırdı. Bundan sonra onların üzərinə bir bir libas salıb dedi: "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**". Bu zaman mən də (onlara) baxırdım. Sonra Peyğəmbər buyurdu: "İlahi, bunlar mənim ailəmdirlər, İlahi, bunlar mənim ailəmdirlər. Həqiqətən də onlar haqq əhlidirlər". Bu zaman mən dedim: "Ey Allahın Rəsulu, mən də sənin ailəndənəmmi?" Peyğəmbər buyurdu: "Sən də mənim ailəmdənsən."

Vasilə dedi: Bu söz bizim ən çox arzu etdiyimiz şeylərdən idi.

Vasilə Ümmü-Sələmədən daha uzaqdır. Çünki Vasilə qüreyşli deyil. Ümmü-Sələmənin isə Qüreyş arasındakı mövqeyi bəllidir.[81] Peyğəmbərin Vasiləyə buyurduğu "sən də mənim ailəmdənsən" sözünün mənası budur ki, sən mənə tabe olduğuna və mənə iman gətirdiyinə görə mənim ailəmdənsən. Çünki Peyğəmbərlərin ailələri onlara tabe olan şəxslərdirlər. Bunu Allah-taalanın Nuha (əleyhissəlam) buyurduğu "**O sənin ailəndən deyil. O (küfr etməklə) pis bir iş görmüşdür**" sözü də təsdiq edir. Nuhun dinində olmadığına görə öz doğma oğlu onun ailə üzvlərinin cərgəsindən çıxa bilirsə, onun dinindən olduğu təqdirdə öz nəslindən olmasa belə başqa bir şəxs onun ailə üzvləri cərgəsinə daxil ola bilər. Əhzab surəsindəki ayələrdə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) xanımlarına ünvanlanan müraciət "**Namaz qılıb zəkat verin...**" ayəsindən sonra bitir. "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək...**" ayəsi isə yeni və müstəqil bir cümlədir. Allah belə etməklə Əhli-Beytin məqam və dəyərini qaldırmaq istəmişdir. Məgər ayənin "müzəkkər"[82] xitab formasında gəldiyini görmürsənmi? Allah "ankunnə" deyil "ankum" demişdir. Heç kəs Peyğəmbərin xanımlarını bu ayəyə daxil edə bilməz.

Bu dediyimizə həmçinin Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) hər sübh vaxtı Fatimənin qapısına gəlib: "Salam olsun sizə, ey Əhli-Beyt! "**Allah siz Əhl-Beytdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**"" – deməsi də şahidlik edir."[83]

Əllamə Həsən ibn Əli əs-Səqqaf deyir:

"Əhli-Beyt ağamız Əli, xanım Fatimə, ağamız Həsən və ağamız Hüseyndən, eləcə də onların özlərindən sonra gələn övladlarından və onların nəsillərindən ibarətdir. Buna dəlil Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) nəql olunan səhih bir hədisdir. Həmin səhih hədisdə gəlmişdir ki: "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**" ayəsi Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) Ümmü-Sələmənin evində nazil oldu. Həmin vaxt Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Fatiməni,

---

[81] Yaxud: Ümmü-Sələmənin isə Qüreyşdən olması bəllidir. Müəllif bununla onu çatdırmaq istəyir ki, əgər qüreyşli olan və qüreyşli olması ilə yanaşı Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımı olan Ümmü-Sələmə (Allah ondan razı olsun) ayədəki "əhli-beyt" məfhumuna daxil olmursa, o zaman qüreyşli və Peyğəmbərin qohumu olmayan Vasilənin bu məfhuma daxil olması daha mümkünsüzdür. Buna görə də Vasilənin ailədən sayılmasını başqa bir şəkildə təfsir etmək lazımdır. (Tərc.).

[82] Kişi cinsinə aid. (Tərc.).

[83] "Mutəsərul-muxtəsər" (**مُعْتَصَرُ المُخْتَصِرِ**): 2/266-267.

Həsəni və Hüseyni çağırıb onların üzərinə bir əba atdı. Bu zaman Əli də onun arxasında idi. Peyğəmbər onun da üzərinə əba atıb buyurdu: "İlahi, bunlar mənim əhli-beytimdirlər. Çirkinlikləri onlardan təmizləyib onları tərtəmiz et". Bu zaman Ümmü-Sələmə dedi: "Mən də onlarlayammı, ey Allahın Peyğəmbəri?" Həzrət buyurdu: "Sən öz yerində qal. Sənin aqibətin xeyirdi"."[84]

O, elə həmin mənbədə (səh.657) əl-Əlbaninin dediyi "*şiələrin ayədəki əhli-beyti Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) xanımlarına aid etməyib yalnız Əli, Fatimə, Həsən və Hüseynlə (Allah onlardan razı olsun) məhdudlaşdırmaları onların öz batil fikirlərini əsaslandırmaqdan ötrü Allahın ayələrini təhrif etmələrinin bir nümunəsidir*" sözünə rəddiyyə verərək demişdir:

"Bu, onun sabit olan sünnəni rədd etmək üçün baş vurduğu hiyləgərlik və saxtakarlıqlardan biridir. O bununla belə bir görünüm yaratmağa çalışmışdır ki, sanki əhli-beytin "kisa" əhlindən ibarət olduğunu deyən şəxslər məhz şiələrdir! Həqiqət isə budur ki, bu sözü deyən şəxslər bütün əhli-sünnə vəl-cəmaət məzhəbidir. Onlardan qabaq da "həva-həvəs üzündən danışmayan" şəxs bu sözü demişdir (sallallahu əleyhi və alihi və səlləm). Lakin, nasibilik bax belə şeydir; sahibini gördüyünüz bu cür vəziyyətlərə salır".

**Deyirəm:** Səqqafın Əlbaniyə verdiyi cavab möhkəm və tutarlıdır. Çünki onların və bizim yanımızda səhih olan hədislər təthir ayəsində nəzərdə tutulan əhli-beytin Əli, Fatimə, Həsən və Hüseyndən (əleyhimussəlam) ibarət olduğunu çatdırır. Həmçinin bizim yanımızda həzrət Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) həzrət Həsən və həzrət Hüseyndən sonra: "Və Hüseynin nəslindən olan doqquz şəxs "Əhli-Beyt" sayılırlar. Onların sonuncuları Məhdidir", - deyə buyurması sübuta yetmişdir.

Lakin biz Səqqafın "**Əhli-Beyt... onların özlərindən sonra gələn övladlarından və onların nəsillərindən ibarətdir**" sözü ilə razılaşmırıq. Çünki buna dəlalət edəcək bircə rəvayət belə yoxdur. Əqli və nəqli dəlillər bunun əskini söyləyir. Görəsən həzrət Əli və həzrət Fatimənin (əleyhiməssəlam) nəslindən olan hər bir şəxs necə günahlardan pak ola bilər? Halbuki onların aralarında fasiqlər, çirkin əməl sahibləri, hətta kafirlər belə var!

Əllamə Əbu Bəkr əl-Hadrami "Rəşfətus-sadi min bəhri fadailin-Nəbiyyil-hadi" kitabında demişdir:

"Alimlərin çox böyük hissəsinin etiqad etdiyi, imamların ən böyüklərinin inam bəslədiyi və dəlillərin dəstəklədiyi nəzər budur ki, ayədəki "əhli-beyt"dən məqsəd ağamız Əli, Fatimə və onların iki övladlarıdır. Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) ayədə nəzərdə tutulan şəxslərin məhz onlardan ibarət olduğunu ilahi bir əmr və səmavi bir vəhy əsasında demişdir."

Həmçinin deyir:

"Bu babda nəql olunan hədislər çoxdur. Mənim qeyd etdiklərim ilə əhli-beytdən məqsədin Əli, Fatimə və onların iki övladları olduğu qəti şəkildə aydın olur. Allah onlardan razı olsun. Buna əsasən, "Ruhul-məani" kitabının müəllifinin dediyi "Əhli-Beytin yalnız bu beş şəxsdən ibarət olduğunu demək şiələrin

---

[84] "Səhihu-şərhil-əqidətit-təhaviyyə": səh.655.

etiqadlarındandır” sözünə əhəmiyyət verilməz. Çünki bu söz düşünmədən deyilən təəccüb doğuran bir sözdür. Qeyd edilən hədislərdən və əhli-sünnənin dəyərli kitablarında gələn sözlərdən sonra həqiqət gün kimi aydın olur”.[85]

Əllamə Şəvkani “İrşadul-fuhul ilə təhqiqi-haqq fi ilmil-usul” kitabında ayənin Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımları barədə olduğunu deyən şəxslərin sözlərinə rəddiyyə verərək demişdir:

“Bu iddiaya belə cavab verilər ki, səhih dəlildə (hədisdə) bu ayənin Əli, Fatimə və Həsəneyn barədə nazil olduğu gəlmişdir”.[86]

Əs-Səmhudi “Cəvahirul-iqdeyn” kitabında demişdir:

“...Bunlar “kisa” əhlidirlər. İki ayədə – təthir və mübahilə ayələrində – nəzərdə tutulan şəxslər də məhz bunlardırlar”.[87]

İbn Əsakir “əl-Ərbəin fi mənaqibi-ummahatil-muminin” kitabında Ümmü-Sələmədən “Əhli-Beyt Allah Rəsulu, Əli, Fatimə, Həsən və Hüseyndir” məzmunlu bir rəvayət nəql etdikdən sonra demişdir: “**Bu, səhih hədisdir**”.

Sonra demişdir: “Ümmü-Sələmənin dediyi “Əhli-Beyt bu dediyim şəxslərdir” sözü həmin vaxtda evdə olanlara işarədir. Yoxsa ki, Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) bütün ailəsi “əhli-beyt”dəndirlər (ev əhlindəndirlər). Ayə xüsusi olaraq bu qeyd olunan şəxslər barədə nazil olmuşdur. Allah daha yaxşı bilər.”[88]

Əllamə Seydi Muhəmməd Cəsus “Şərhuş-şəmail” adlı kitabında demişdir:

“...Sonra Həsən ibn Əli gəldi. Peyğəmbər onu əbanın altına saldı. Sonra Hüseyn gəldi. O da onlarla birgə əbanın altına daxil oldu. Sonra Fatimə gəldi, Peyğəmbər onu da əbanın altına saldı. Sonra Əli gəldi, Peyğəmbər onu da əbanın altına daxil etdi. Sonra buyurdu: “**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**”.

Bunda ayədəki əhli-beytdən məqsədin məhz onlar olduğuna işarə edilmişdir”.[89]

Əllamə Muhəmməd Əmin Buneys Buseyrinin “həmziyyə”sinə verdiyi şərhində (“Ləvamiu-ənvaril-kəvkəbid-durriy”) demişdir:

“Təfsirçilərin əksəriyyəti “**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**” ayəsinin Əlinin, Fatimənin və Həsəneynin (Allah onlardan razı olsun) barəsində nazil olduğunu deyirlər.”[90]

Tofiq Əbu Əli özünün “Əhlul-Beyt” kitabında Əbdül-Əziz əl-Buxariyə rəddiyyə verərək demişdir:

“Onun dediyi “təthir ayəsində nəzərdə tutulan şəxslər Peyğəmbərin xanımlarıdır” sözünə gəlincə, biz ayədəki əhli-beytdən məqsədin xanımlar deyil, məhz pak itrət olduğunu daha öncə lazımı şəkildə izah etdik.”[91]

---

85 “Rəşfətus-sadi”: səh. 13-14, birinci bab.
86 “İrşadul-fuhul”: səh.83.
87 “Cəvahirul-iqdeyn”: səh.204.
88 “əl-Ərbəun”: səh.106.
89 “Şərhuş-şəmail”: 1/107.
90 “Ləvamiu-ənvaril-kəvkəbid-durriy”: 2/86.
91 “Əhlul-Beyt”: səh.35.

Şeyx Həsən Fərhan əl-Maliki özünün "Məəş-şeyx Abdullah əs-Səd fis-suhbəti vəs-səhabə" adlı kitabında təthir ayəsinin təkcə "kisa" əhlinə aid olmadığını iddia edən şəxslərə cavab verərkən demişdir:

"...Daha sonra o [Abdullah əs-Səd], ayədə qeyd olunan əhli-beytdən məqsədin Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımları, övladları və qohumları olduğunu bildirmişdir. Halbuki Müslimin hədisində də gəldiyi kimi, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) ayədəki əhli-beyti dörd nəfərlə: Əli, Fatimə, Həsən və Hüseynlə məhdudlaşdırmışdır.

Ümmü-Sələmə onlarla birgə əbanın altına girmək istədikdə Peyğəmbər "Sənin aqibətin xeyirdir", - deyərək ona izin verməmişdir. Bu, açıq-aşkar zövcələri əhli-beytin cərgəsindən çıxarmaqdır. Zeyd ibn Ərqəm də zövcələri əhli-beytin cərgəsindən çıxarmışdır. Quranı hamıdan yaxşı təfsir edən şəxs Peyğəmbərdir. Quranın ayələrinin düzülüşündən heç də həmişə dəlil olaraq istifadə etmək olmaz."

Sonra demişdir:

"Hər halda, belə deyilə bilər ki, əhli-beyt məfhumu bir xüsusi, bir də ümumi mənada başa düşülə bilər. Xüsusi mənada əhli-beyt dörd nəfərdən: Əli, Fatimə, Həsən və Hüseyndən ibarətdir. Ümumi mənada isə bu məfhuma Bəni-Haşim, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımları, o Həzrətin digər qızları, Zeyd ibn Harisə, Zeydin oğlu Üsamə, həmçinin Ümmü-Əymən daxildir.

Lakin belə görünür ki, təthir ayəsi yalnızca dörd nəfərə məxsusdur. Buna "kisa" hədisi dəlalət edir. Daha öncə də deyildiyi kimi ayənin mənasını hamıdan daha yaxşı bilən Peyğəmbərdir (sallallahu əleyhi və alihi və səlləm). O Həzrət də ayəni dörd nəfərlə məhdudlaşdırmışdır."[92]

İbn Səbbağ əl-Maliki demişdir:

"Təfsirçilərin "mübahilə" ayəsinin təfsirində qeyd etdikləri sözlərə və Ümmü-Sələmədən nəql edilən hədislərə əsasən əhli-beyt Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm), Əlidən, Fatimədən, Həsəndən və Hüseyndən ibarətdir."[93]

Hafiz Muhəmməd ibn Yusuf Gənci əş-Şafei "Kifayətut-talib" kitabında demişdir:

"Səhih olan əhli-beytin Əlidən, Fatimədən və Həsəneyndən (əleyhimussəlam) ibarət olmasıdır. Necə ki, Müslim öz sənədi ilə Aişədən belə nəql etmişdir ki, bir sübh vaxtı Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) əynində qara tükdən olan xəttli əbası ilə birgə (evdən və ya otaqdan) çıxdı. Bu zaman Həsən ibn Əli gəldi. Peyğəmbər onu əbasına daxil etdi. Sonra Hüseyn gəldi. Peyğəmbər onu da əbasına daxil etdi. Sonra Fatimə gəldi, Peyğəmbər onu da əbasına daxil etdi. Sonra Əli gəldi, Peyğəmbər onu da əbasına daxil etdi. Sonra buyurdu: "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**". Bu ona dəlalət edir ki, "əhli-beyt" məhz Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) "Əhli-Beyt" deyə çağırdığı və əbasına daxil etdiyi şəxslərdir."[94]

Şeyx Süleyman əl-Qunduzi əl-Hənəfi demişdir:

---

92 "Məəş-şeyx Abdullah əs-Sə`d fis-suhbəti vəs-səhabə": səh.288.
93 "əl-Fusulul-muhimmə": səh.23.
94 "Kifayətut-talib fi mənaqibi Əli ibn Əbi Talib": səh.49.

“Təfsirçilərin əksəriyyəti “ankum” və “yutahhirakum” sözlərindəki əvəzliklərin müzəkkər olması səbəbindən ayənin Əli, Fatimə, Həsən və Hüseyn barəsində nazil olduğunu deyirlər.”[95]

## Osman əl-Xəmis nəss müqabilində ictihad edir!

**<u>İkinci dəlil:</u>** Osman əl-Xəmisin təthir ayəsinin Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımları barədə nazil olduğunu deməsi, yaxud ayənin onlara aid olduğunu və ya onları da əhatə etdiyini deməsi nəss müqabilində ictihaddır. Daha öncə qeyd etdiyimiz rəvayətlər açıq-aşkar şəkildə təthir ayəsinin “kisa” əhlinə aid olduğunu, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımlarının bu ayə ilə heç bir əlaqələrinin olmadığını bildirir.

Osman əl-Xəmis öz mənbələrində gələn bu hədislərdən xəbərdardır. (Çünki, özünün “cərh və tədil” elmlərində müctəhid olduğunu iddia edir.) Onun təthir ayəsinin Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımlarına aid olduğunu deməsi Peyğəmbərin sözünü rədd etməkdən və onun sözünün qabağında ictihad etməkdən başqa bir şey deyildir. Nəss müqabilində ictihad etmək isə ən yüngül halda böyük günahlardan sayılır.

## Təthir ayəsi müstəqil şəkildə nazil olmuşdur

**<u>Üçüncü dəlil:</u>** Səhih hədislər təthir ayəsinin müstəqil şəkildə Ümmü-Sələmənin (Allah ondan razı olsun) evində nazil olduğunu göstərir. Bu ayənin Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımlarına ünvanlanan digər ayələrlə birlikdə nazil olduğunu sübut edəcək bircə dəlil belə yoxdur.

Elə isə ayələrin düzülüşü təthir ayəsinin Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımları barədə nazil olması və ya onlara da şamil olması məsələsinin isbatından necə dəlil sayıla bilər? Ayələrin düzülüşü məhz ayələr bir dəfəyə və eyni bir münasibətlə nazil olduğu zaman dəlil sayıla bilər. Əgər bizim məsələmizdə də olduğu kimi bunun xilafına dəlalət edəcək bir nəss mövcuddursa, yaxud tutarlı bir dəlil varsa, o zaman ayələrin düzülüşü dəlil hesab edilməz.

Siz özünüz də daha öncə qeyd olunan rəvayətlərin açıq-aşkar şəkildə təthir ayəsinin müstəqil nazil olduğuna dəlalət etdiyini gördünüz. Onların bəzisində Ümmü-Sələmə “bu ayə mənim evimdə nazil oldu” demişdir. Bu söz iki mənaya gəlir:

1-Təthir ayəsi müstəqil şəkildə nazil olmuşdur.

2-Təthir ayəsi kamil bir ayədir.

Təthir ayəsinin müstəqil şəkildə nazil olması barədə, onun həzrət Əliyə, həzrət Fatiməyə və həzrət Həsəneynə (əleyhimussəlam) məxsus olması barədə deyilən bu açıq-aydın şəhadətlərdən sonra aqil bir şəxs bu ayənin Peyğəmbər xanımları barədə nazil olduğunu, yaxud onlara da şamil olduğunu necə deyə bilər?!

---

[95] “Yənabiul-məvəddə”: 2/429.

## Qurani-Kərim ayələrin nazil olma sırası ilə tərtib edilməyib

**Dördüncü dəlil:** Müsəlmanlar Qurani-Kərimin ayələrin nazil olma sırası əsasında cəm edilmədiyi üzərində ittifaq etmişlər. Quranın bütün ayələri xronoloji ardıcıllıqla düzülməmişdir. Nə çox mədəni (Mədinədə nazil olan) ayələr vardır ki, məkki (Məkkədə nazil olan) ayələrin arasında qeyd olunmuşdur. Həmçinin də əksinə. Bu, Qurani-Kərimi toplayan şəxslərin ictihadları səbəbindən belə olmuşdur. Bu məsələ hamı tərəfindən qəbul edilən və isbat etməyə lüzum olmayan bir məsələdir. Bu da öz növbəsində Osman əl-Xəmisin ayələrin düzülüşünə əsaslanmasını batil edir.

## Osman əl-Xəmisin dediyi söz bidətdir: heç bir səhabə onun dediyi sözü deməyib

**Beşinci dəlil:** Osman əl-Xəmis təthir ayəsinin Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımlarına məxsus olması fikrini yalançı nasibilərdən götürmüşdür. Heç bir səhabədən səhih sənədlə təthir ayəsinin xanımlara məxsus olması və ya onlara şamil olmasını deməsi nəql edilməmişdir. Bəli, mən yalandan İbn Abbasa nisbət verilən iki rəvayətlə qarşılaşdım. Bu rəvayətlərdə İbn Abbasın güya ayənin Peyğəmbər xanımları barədə nazil olduğunu deməsi nəql olunur.

Onların birincisini Vahidi "Əsbabun-nuzul" kitabında nəql etmişdir:

Bizə Əbül-Qasim Əbdür-Rəhman ibn Muhəmməd əs-Sərrac nəql edib dedi: bizə Muhəmməd ibn Yaqub nəql edib dedi: bizə Həsən ibn Əli ibn Əffan nəql edib dedi: bizə Əbu Yəhya əl-Himmani Saleh ibn Musa əl-Qurəşidən, o, Xuseyfdən, o, Səid ibn Cübeyrdən, o da İbn Abbasdan nəql edib dedi:

""**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**" ayəsi Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) xanımları barədə nazil olmuşdur".[96]

İkincisini isə İbn Kəsir öz təfsirində nəql etmişdir:

İbn Əbi Hatim nəql edib dedi: bizə Əli ibn Hərb əl-Mosuli nəql edib dedi: bizə Zeyd ibn Hubab nəql edib dedi: bizə Hüseyn ibn Vaqid Yəzid ən-Nəhvidən, o, İkrimədən, o da İbn Abbasdan "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**" ayəsi barədə belə dediyini nəql etdi:

"Bu ayə məxsusi olaraq Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) xanımları barədə nazil olmuşdur".[97]

Lakin bu rəvayətlərin hər ikisi sənəd baxımından zəifdir. Bu rəvayətlər sənədləri zəif olduğuna və daha öncə qeyd olunan səhih və aşkar hədislərə (hansılar ki, aralarında elə İbn Abbasın özündən hədis var!) müxalif olduqlarına görə heç bir mötəbərliyə malik deyillər.

Vahidinin rəvayətinin sənədində bir neçə zəif ravi vardır. Onlardan birinin zəifliyinin sübuta yetməsi belə rəvayətin qüvvədən düşməsi üçün kifayətdir.

---

[96] "Əsbabun-nuzul": səh.203.
[97] "Təfsirü-İbn Kəsir": 4/515.

Sənəddə "Əbu Yəhya əl-Himmani" vardır. O, Əbdül-Həmid ibn Əbdür-Rəhman əl-Himmanidir. O, mürciliklə[98] və xəta etməklə ittiham olunmuşdur.[99] Nəsai onun barəsində: "Güclü deyildir", - demişdir[100]. İbn Səd: "Zəif olub", - demişdir.[101] İcli isə: "Kufəlidir, hədisləri zəifdir", - demişdir.[102]

Həmçinin sənəddə "Saleh ibn Musa əl-Qurəşi" vardır. O, Saleh ibn Musa ət-Təlhidir. İbn Məin onun barəsində: "Bir şey deyildir", - demişdir.[103] İsfahani: "Əbdül-Məlik ibn Umeyr və başqalarından münkər hədislər nəql edir. Tərk olunmuş şəxsdir", - demişdir.[104] Buxari özünün "əd-Duəfa" kitabında: "Hədisləri münkərdir", - demişdir.[105] Nəsai isə: "Hədisləri tərk olunmuşdur", - demişdir.[106] Zəhəbi: "Zəifdir", - demiş,[107] Əsqəlani də: "Tərk olunmuş şəxsdir", - demişdir.[108]

Həmçinin sənəddə Xuseyf vardır. O, Xuseyf ibn Əbdür-Rəhman əl-Cəzəridir. Osman ibn Əffanın, həmçinin demişlər ki, Müaviyə ibn Əbi Süfyanın azad etdiyi qul olmuşdur.[109] Əhməd ibn Hənbəl onun barəsində: "Höccət deyildir. Hədisdə güclü deyildir", - demişdir. Həmçinin demişdir: "Hədisləri zəifdir".[110] Əbu Hatim isə demişdir: "Saleh şəxsdir. Lakin qarışdırır (xəta edir). Onun yaddaşının zəif olduğunu demişlər".[111] Əsqəlani demişdir: "Səduqdur (doğru danışandır). Yaddaşı pisdir. Ömrünün axırında qarışdırıb. Mürciəlikdə ittiham olunmuşdur".[112] Zəhəbi isə demişdir: "Səduqdur. Yaddaşı pisdir. Əhməd onu zəif hesab etmişdir".[113]

İbn Kəsirin nəql etdiyi rəvayətə gəlincə, o da etibarsızdır. Belə ki, onun sənədində Hüseyn ibn Vaqid vardır. Darəqutni və Əbu Yəla onu müdəllis[114] hesab etmişlər. Burada da o, "ənənə" (عَنْعَنَة) etmiş, "bizə filankəs nəql etmişdir" sözü

---

98 Dini cərəyandır. (Tərc.).

99 "əl-Kaşif": 1/617, "Təqribüt-təhzib": 2/334, "Təhzibül-kəmal": 6/109.

100 "əl-Kaşif": 1/617, "Təhzibüt-təhzib": 6/109, "Təhzibül-kəmal": 15/454.

101 "Təhzibüt-təhzib": 6/109.

102 "Təhzibüt-təhzib": 6/109.

103 "əl-Cərh vət-tədil": 4/415.

104 "əd-Duəfa": 1/93.

105 "əd-Duəfa": 1/59.

106 "əd-Duəfa": 1/57.

107 "əl-Kaşif": 1/449.

108 "Təqribüt-təhzib": 1/347.

109 Qeyd edək ki, ravilərin tərcümeyi-hallarında tez-tez "filankəsin mövlası filankəs" kimi ("İbn Abbasın mövlası İkrimə" kimi) sözlərə rast gəlirik. Şəxslərin tərcümeyi-hallarında qeyd olunan bu sözün bir neçə mənası ola bilər. Bununla "azad edilmiş qul", "həmpeyman" , "həmqəbilə" və s. kimi mənalar nəzərdə tutula bilər. (Tərc.).

110 "Təhzibül-kəmal": 2/385.

111 "Təhzibül-kəmal": 2/385.

112 "Təqribüt-təhzib": 1/220.

113 "əl-Kaşif": 1/236.

114 "Müdəllis": "tədlis" edən şəxs deməkdir. "Tədlis" terminin mənası barədə bir neçə fikir söylənmişdir. Bu fikirləri xülasələşdirmək istəsək belə deyə bilərik ki, "tədlis" ravinin hədis eşitdiyi şeyxindən, yaxud eyni dövrdə yaşayıb hədisini eşitmədiyi bir şəxsdən şəxsən eşidibmiş kimi hədis nəql etməsinə deyilir. Məsələn, şeyxinin yanında hədis öyrənən bir ravi təsəvvür edək. Əgər bu ravi yanında hədis öyrəndiyi bu şeyxindən şəxsən deyil də başqa birisinin vasitəsilə (məsələn, dərs yoldaşlarından birinin vasitəsilə) hədis eşitsə, sonra vasitə ilə eşitdiyi bu hədisi vasitəni qeyd etmədən birbaşa ustadından nəql etsə, ("mənə filankəs nəql etdi", "filankəsdən eşitdim ki" kimi sözlər demədən birbaşa müəllimindən nəql etsə), bu şəxsin etdiyi iş "tədlis", özü isə "müdəllis" sayılar. Həmçinin, əgər ravi onunla eyni dövrdə yaşayan, lakin heç vaxt görüşüb hədisini eşitmədiyi bir şəxsdən vasitə ilə bir hədis eşitsə, lakin sonradan aradakı vasitəni qeyd etmədən həmin hədisi birbaşa həmin şəxsdən nəql etsə, bu iş də tədlis sayılar. Müdəllisin hədislərinin hökmü barədə də ixtilaf edilmişdir. Lakin burada da xülasə fikir bildirmək istəsək belə deyə bilərik ki, tədlis etməsi ilə məşhur olan ravi "filankəsdən eşitdim", "filankəs mənə nəql etdi" və s. bu qəbildən olan sözlər işlətməsə, onun hədisi zəif hesab edilər. Tədlis ilə məşhur olan ravinin qeyd etdiyimiz növdən sözlər işlətmədən hədis nəql etməsinə isə terminoloji olaraq "**ənənə**" deyilir. (Tərc.).

işlətməmişdir. İbn Hibban onun barəsində demişdir: “Mərvdə qazi olmuşdur. İnsanların ən yaxşılarından olmuşdur. Bəzən rəvayətlərdə xəta etmişdir”.[115] Abdullah ibn Əhməd ibn Hənbəl atasından nəqlən belə demişdir: “Hüseyn ibn Vaqidin Əbul-Munibdən nəql etdiyi hədisi münkər hesab etmirəm”. Üqeyli demişdir: “Əhməd ibn Hənbəl onun hədisini münkər hesab etmişdir”. Əl-Əsrəm demişdir: “Əhməd demişdir: “Onun hədislərində əlavələr var. Bilmirəm o əlavələr nədir!” Bunu deyib əlini yelləmişdir”.[116]

Həmçinin sənəddə Abdullah ibn Abbasın azad etdiyi qul İkrimə əl-Bərbəri vardır. İkrimənin öz mövlası İbn Abbasın adından yalan danışması kifayət qədər məşhur məsələdir. Səid ibn əl-Müseyyib öz qulamı Burda demişdir: “Ey Burd! Məbadə İkrimə İbn Abbasın adından yalan danışdığı kimi sən də mənim adımdan yalan danışasan!”[117] İbn Abbasın oğlu Əli ibn Abdullah ibn Abbas onu ayaqyolunun qapısına bağlayıb. Əlidən bunun səbəbini soruşduqda o: “O mənim atamın adından yalan danışır!”, - demişdir. Səid ibn əl-Müseyyib və İbn Sirin onu təkzib etmiş, onu yalançı hesab etmişlər.[118] Həmçinin İkrimənin xəvaricdən olduğu deyilmişdir. Xəvaricin Əmirəlmöminin və Əhli-Beyt (əleyhimussəlam) barədə fikirləri isə məlumdur.

## Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımlarından heç biri Osman əl-Xəmisin onlar üçün iddia etdiyi şeyi iddia etməmişdir

**Altıncı dəlil:** Osman əl-Xəmis “kraldan çox kralçı olmaq” məsəlinə misdaq olduğunu sübut etmişdir. Çünki Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımlarından heç biri təthir ayəsinin onlara məxsus olduğunu və ya onları da əhatə etdiyini iddia etməmişdir. Belə bir şey onların heç birindən nəql edilməmişdir. Aişənin özünə fəzilət sayıla biləcək şeyləri bəyan etməyə necə istəkli olduğu hər kəsə məlumdur. Bununla belə Aişənin bu məsələni qeyd etmədiyini görürük. Hətta əksinə olaraq Aişə və Ümmü-Sələmənin təthir ayəsinin məhz “kisa” əhlinə xas olduğunu nəql etdiklərini görürük.

İbn əl-Cəvzi deyir: “İkinci: bu ayə Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm), Fatimə, Əli, Həsən və Hüseynə məxsusdur. Bunu Əbu Səid əl-Xudri demişdir. Ənəsdən, *Aişədən* və *Ümmü-Sələmədən* də belə nəql olunmuşdur.”[119]

Buna görə də gərək Osman əl-Xəmisə başsağlığı verək. Çünki Aişə özü ayənin məhz həzrət Əli, həzrət Fatimə və həzrət Həsəneyn (əleyhimus-səlam) barədə olduğunu nəql etmiş, Osman əl-Xəmisin sübut etmək istədiyi şeyi batil etmişdir.

Səmani (السَمْعَانِيُّ) öz “Təfsir”ində demişdir:

“Əbu Səid əl-Xudri, Ümmü-Sələmə, o cümlədən Mücahid, Qətadə və başqaları kimi tabeilərdən olan çoxlu sayda şəxs ayənin Peyğəmbərin Əhli-Beyti barədə, yəni Əli, Fatimə, Həsən və Hüseyn barədə olduğunu demişlər”.[120]

---

115 “Təhzibüt-təhzib”: 2/321.
116 “Təhzibüt-təhzib”: 2/321.
117 “Təhzibüt-təhzib”: 7/238, “Təhzibül-kəmal”: 7/213.
118 “Təhzibüt-təhzib”: 7/238, “Təhzibül-kəmal”: 7/213.
119 “Zadul-məsir fi ilmit-təfsir”: 6/381-382.

## Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Ümmü-Sələməyə əbanın altına daxil olmağa icazə vermir

**<u>Yeddinci dəlil:</u>** Əhməd və başqalarının nəql etdiyi bəzi rəvayətlərdə açıq-aşkar şəkildə bildirilir ki, möminlər anası Ümmü-Sələmə (Allah ondan razı olsun) əbanın altına girmək istədiyi zaman Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) ona mane olmuşdur. Əgər ayə Peyğəmbər xanımlarına aid idisə və ya onlara da şamil olurdusa, o zaman bu qadağanın bir mənası olmazdı, yaxud ən azından Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Ümmü-Sələməyə "sən xeyir üzərəsən" deyil, başqa bir söz deyərdi. Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) bu hərəkətindən və dediyi bu sözdən ayənin Peyğəmbər xanımlarına aid olmadığını və zövcələrin ayədəki "Əhli-Beyt" məfhumuna daxil olmadıqlarını başa düşürük.

## Osman əl-Xəmis əbanı Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) əlindən almağa çalışır

Əhməd ibn Hənbəl "Müsnəd" kitabında belə nəql etmişdir:

"Ümmü-Sələmə dedi: Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Fatiməyə dedi: "Həyat yoldaşını və oğlanlarını yanıma çağır". Fatimə onları çağırdı. Peyğəmbər onların üzərinə bir fədəki əba[121] saldı. Sonra əlini onların üzərinə qoyub dedi: "İlahi, bunlar Muhəmmədin ailəsidirlər. Salavatını və bərəkətini Muhəmmədin və Muhəmmədin ailəsinin üzərinə et. Həqiqətən də sən Həmid (tərifəlayiq) və Məcidsən (uca, şanlı)."

Ümmü Sələmə deyir: Mən onların yanına daxil olmaq üçün əbanı qaldırdım, bu zaman Peyğəmbər əbanı mənim əlimdən çəkib aldı və buyurdu: "Sən xeyir üzərəsən"."[122]

Bu hədisi Əbu Yəla "Müsnəd"də[123], Təbərani "əl-Mücəmül-kəbir"də[124], başqaları da öz kitablarında nəql etmişlər.

Buna əsasən, Osman əl-Xəmisin ayənin Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımlarına aid olduğunu və ya onlara da şamil olduğunu iddia etməsi onun əbanı Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) əlindən çəkib alaraq zorla Peyğəmbər xanımlarını oraya daxil etməsinə bənzəyir!

---

[120] "Təfsirüs-Səmani": 4/281.

[121] Bəzi hədislərdə "xeybəri" ifadəsi işlənmişdir. Hər iki ifadə doğru sayılır. Çünki Fədək də Xeybər məntəqəsində yerləşən bağ olmuşdur. Əba həmin ərazidən əldə edilən qənimətlər arasında olduğuna görə ona "xeybəri əba" və ya "fədəki əba" deyilmişdir. (Tərc.).

[122] "Müsnədü-Əhməd": 18/314, hədis: 26625. Şeyx Həmzə Əhməd əz-Zeyn demişdir: "**İsnadı həsəndir**".

[123] "Müsnədü-Əbi Yəla": 21/344 və 456.

[124] "əl-Mucəmul-kəbir": 3/53, həmçinin: 32/336.

## Əgər təthir ayəsinin zövcələrə xitabən deyilən ayələr arasında olduğunu qəbul etsək

**<u>Səkkizinci dəlil:</u>** “Bəlağətli nitqdə cümlələr arasına əlavə cümlə və sözlər daxil ola bilər, cümlələr arasında yad bir cümlə işlənə bilər. Məsələn, Allah-taala Misirin əzizinin öz arvadına dediyi sözü nəql edərkən belə nəql etmişdir: “**(Arvadına dedi: ) Bu sizin (siz qadınların) məkrlərinizdəndir. Doğrudan da, sizin məkriniz böyükdür! – Ey Yusif! Sən bu işi açıb ağartma –. Günahına görə bağışlanmanı dilə**” (Yusif (əleyhissəlam) surəsi, 28-29-cu ayələr). Burada “**Ey Yusif! Sən bu işi açıb ağartma**” cümləsi Misirin əzizinin öz arvadına etdiyi iki xitabın arasına daxil olan bir əlavədir.

Həmçinin başqa bir ayədə Allah-taala buyurur: “**(Bəlqis dedi: ) Hökmdarlar bir ölkəyə (zorla) girdikləri zaman onu xarabazara çevirər, xalqının böyüklərini də zəlil (qul, əsir) edərlər. – Onlar məhz belə hərəkət edərlər –. Mən onlara bir hədiyyə göndərəcəyəm; görüm elçilər nə ilə qayıdacaqlar!**” (Nəml surəsi, 34-35-ci ayələr). Buradakı “**Onlar məhz belə hərəkət edərlər**” cümləsi əlavədir. Bu, Bəlqisin sözü deyildir, bu cümləni məhz Allah-taala Özü buyurmuşdur. Başqa bir nümunə isə Allah-taalanın bu sözüdür: “**Ulduzların (doğub-batdıqları) yerlərinə and olsun ki – kaş bunun nə qədər böyük bir and olduğunu biləydiniz – bu, çox qiymətli Qurandır**” (Vaqiə surəsi, 75-77-ci ayələr). Burada cümlənin mənası “ulduzların yerlərinə and olsun ki, bu, çox qiymətli Qurandır” şəklindədir. Arada qeyd olunan ayə isə əlavədir. Quranda, sünnədə və bəlağət sahibi ərəblərin sözlərində bu cür misallara çox rast gəlmək olar.

Təthir ayəsi də eyni ilə bu ayələr kimi xanımlara müraciətlə deyilən ayələr arasında bir əlavə olaraq gəlmişdir. Təthir ayəsinin xanımlara müraciətlə deyilən bu ayələr arasında əlavə olaraq gəlməsindən belə aydın olur ki, Allah-taalanın xanımlara ünvanladığı əmrlər, qadağalar, nəsihətlər və göstərişlər məhz Allahın Əhli-Beytə, yəni beş kimsəyə olan xüsusi inayət və diqqətinə görə olmuşdur. Bunun üçün ki, hətta Peyğəmbər xanımları tərəfindən olsa belə onlara bir tənə (danlaq, etiraz) yetişməsin; hətta Peyğəmbər xanımları tərəfindən belə onlara şər və fəsad gəlməsin, yaxud münafiqlər hətta xanımların vasitəsilə olsa belə onlara qarşı bir pislik törədə bilməsinlər. Əgər bu əlavə olmasaydı, bu incə məqam ortaya çıxa bilməzdi. Bununla Quranın bəlağəti artmış, ecazkarlığı daha da kamil olmuşdur.”[125]

## Osman əl-Xəmis təthir ayəsinin “kisa” əhli ilə bir əlaqəsinin olmadığını iddia edir

Osman əl-Xəmis deyir:

“Ayədəki əvəzliklərin sonunda məhz ona görə qadın cinsinin cəmini bildirən “n” hərfi yox, kişi cinsinin cəmini bildirən “m” hərfi işlənib ki, xanımları ilə birlikdə Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) də “Əhli-Beyt”

[125] “əl-Kəlimətul-ğərra fi tafdiliz-Zəhra”, Seyyid Şərəfuddin Musəvi: səh.33-34.

məfhumuna daxildir və Peyğəmbər əhli-beytin başçısıdır. Bu dediyimizin, yəni kişinin də əhli-beytdən sayılmasının dəlili aşağıdakı ayələrdir.

Allah-taala İbrahimin həyat yoldaşından söz açarkən belə deyir: "**Mələklər (İbrahimin yoldaşına) dedilər: "Allahın əmrinə təəccübmü edirsən? Ey ev əhli! Allahın rəhməti və bərəkəti sizin üstünüzdə olsun! Həqiqətən, O, Tərifəlayiqdir, Şan-şöhrətlidir"**" (Hud surəsi, 73-cü ayə). Bu vaxt İbrahimin həyat yoldaşı onun yanında idi.

Həmçinin, Allah-taala Musadan danışarkən belə deyir: "**Musa müddətini başa vurub ailəsi ilə birlikdə yola çıxdığı zaman...**" (Qəsəs surəsi, 29-cu ayə). Bu vaxt yoldaşı da Musa ilə birgə idi.

Buna əsasən, kişi də əhli-beytdən (ev əhlindən) sayılır. Elə isə, Allah təthir ayəsində "ankum" sözünü Əlinin, Fatimənin, Həsənin və Hüseynin bu ayəyə daxil olmasına görə deyil, xanımları ilə bərabər Peyğəmbərin bu ayəyə daxil olmasına görə işlətmişdir. Əli, Fatimə, Həsən və Hüseyn bu ayə ilə deyil, məhz kisa hədisi ilə Peyğəmbərin əhli-beytindən sayılmışlar. Əlinin, Fatimənin, Həsən və Hüseynin əhli-beytdən olmalarına dəlalət edən dəlil məhz kisa hədisidir."[126]

**Deyirəm:** Burada da o, ayədəki istəyin təkvini istək olması və ayənin xitab olunan şəxslərin məsumluqlarına dəlalət etməsi ilə bağlı şiələrin dedikləri sözləri batil edəcək nə bir dəlil, nə də rəddiyyə ortaya qoya bilmişdir. O burada yalnızca ayənin Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımlarına aid olmasını isbat etməyə cəhd etmiş, habelə ayənin yaxından uzaqdan "kisa" əhli ilə bir əlaqəsinin olmadığını, onların "əhli-beyt" məfhumuna məhz "kisa" hədisi ilə daxil olduqlarını iddia etmişdir. Qulaq hər gün yeni bir söz eşitməsə kar olar.

**Ona cavabımız:**

**Birinci:** Biz onun təthir ayəsinin Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımları barədə nazil olması, yaxud onlara məxsus olması və ya onlara şamil olması ilə bağlı iddiasının batilliyini sübut etdik. Biz ayənin məhz "kisa" əhlinə aid olduğunu bildirən aşkar məzmunlu rəvayətlər qeyd etdik. Buna dəstək olaraq da əhli-sünnə alimlərinin nəzərlərini qeyd etdik. Göstərdik ki, bir sıra əhli-sünnə alimləri hədisi-şəriflərdən ayənin məhz "kisa" əhlinə aid olduğunu başa düşmüşlər. Həmçinin onun əlində əsas tutduğu yeganə dəlilini – ayələrin düzülüşü dəlilinin əsassız olduğunu isbat etdik.

**İkinci:** Yoldaşımız güclü bir iradla qarşılaşmışdır. O budur ki, əgər həqiqətən də ayə Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımları barədə idisə, həqiqətən də ayə onlar barədə nazil olmuşdusa və ayədəki xitab həqiqətən də məhz onlara ünvanlanmışdısa, o zaman nə üçün Allah-taala "ankunnə" və "yutahhirakunnə" deyil, "ankum" və "yutahhirakum" demişdir?

Osman əl-Xəmis "Peyğəmbər əhli-beytin başçısı olduğuna görə bu xitaba daxil olmuşdur, ona görə də əvəzlik qadın cinsində deyil, kişi cinsində gəlmişdir" deməklə bu sualın altından çıxmağa çalışmışdır.

---

[126] "Tarixdən bir dövr": səh.188-189.

Lakin ona belə cavab verilər ki, əgər Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Allahın çirkinliklərdən təmizlədiyi şəxslərin cərgəsinə daxil olsa, o zaman onun qəbul etdiyi prinsiplərə əsasən, Peyğəmbər – Allaha pənah – çirkinlik əhlindən olmuş olacaq! Çünki onun etiqadına əsasən ayədəki istək təkvini deyil, təşrii istəkdir. Onun nəzərində ayənin mənası "Allah sizə məsləhət verərək sizi sizdə olan çirkinliklərdən təmizləmək istəyir" şəklindədir. Onun düşüncəsinə görə ayədə xitab ünvanlanan şəxslər çirkinliyə bulaşmış şəxslərdirlər, Allah da bu çirkinliyi onlardan qaldırmaq istəmişdir. Buna ardınca Osman əl-Xəmis deyir ki, Peyğəmbər də xitab ünvanlanan şəxslərdəndir, buna görə də ayədə "ankunnə" və "yutahhirakunnə" deyil, "ankum" və "yutahhirakum" deyilmişdir! Deməli belə çıxır ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və sələm) – Allaha pənah – çirkinlik əhlindəndir..

Bizə gəlincə, bu irad bizə tutula bilməz. Çünki bizim nəzərimizdə ayədəki istək təşrii deyil, təkvini istəkdir. Çünki təşrii olsaydı, bunda Əhli-Beyt (əleyhimussəlam) üçün bir mədh olmazdı. Ona görə ki, Allah-təala təşrii iradə ilə bütün şəxslərin – Onun əmr və qadağalarını yerinə yetirməklə – çirkinlikdən təmizlənmələrini istəmişdir. Bu məsələ ayədə xitab edilən Əhli-Beytə (əleyhimussəlam) xas olan bir şey deyildir.

Buna əsasən, "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**" ayəsi çirkinliyin yerli-dibli Əhli-Beytdən (əleyhimussəlam) götürüldüyündən xəbər verir. Bununla ayə Əhli-Beytin (əleyhimussəlam) məsum olduqlarına dəlalət edir. Çünki ayə onların çirkinliyə bulaşmadıqlarını bildirir. Buna əsasən, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımları qəti şəkildə ayədən xaric olurlar. Çünki, bütün ümmət onların məsum olmadıqları üzərində icma etmişdir. Həmçinin onlardan bəziləri müsəlman olmazdan qabaq şirk çirkabına bulaşmışdır. Şirk də çirkinliyin növlərindən biridir. Hətta hamının yanında bəzi xanımların şəri cəhətdən günah işlərə bulaşdıqları və bunu etiraf etdikləri sübuta yetmişdir.

## Mövzudan xaric olan dəlil

**Üçüncüsü:** Osman əl-Xəmis təthir ayəsinin Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımlarına aid olmasını isbat etməkdən ötrü mövzuya yaxından-uzaqdan aidiyyatı olmayan bir ayəni dəlil gətirmişdir. Bu, "**Musa müddəti başa vurub əhli ilə birgə yola düşdüyü zaman...**" ayəsidir. Osman əl-Xəmis bununla onu göstərmək istəmişdir ki, Allah-taala həzrət Musanın (əleyhissəlam) xanımı üçün "əhli" sözünü işlətmişdir, buna əsasən Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımları da onun əhli sayılırlar! Burada o, böyük bir yanlışa yol vermişdir. Bunun səbəbi ya dərrakənin zəifliyidir, ya da saxtakarlıqdır. Belə ki, heç kəs "əhl" sözünün qərinə (müəyyən dəlil) ilə işlədildiyi təqdirdə həyat yoldaşı (zövcə) mənası verə biləcəyini inkar etmir. Onun qeyd etdiyi ayədə "əhl" deyilərkən həzrət Musanın (əleyhissəlam) zövcəsi nəzərdə tutulmuşdur. Çünki ayədə qərinə vardır. Həmin qərinə də həzrət Musanın (əleyhissəlam) zövcəsinin

səfərdə onunla birlikdə olmasının məlumluğudur[127]. Həmçinin, "kisa" hədisinin bəzi nəqllərində həzrət Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Ümmü-Sələməyə "sən mənim əhlimdənsən (zövcələrimdənsən)" dediyi gəlmişdir.

Məsələ "əhl" sözünün nə mənaya gəlib-gəlməməsi deyil. Məsələ təthir ayəsindəki "Əhli-Beyt" məfhumu barədədir. Görəsən bu ayə Peyğəmbər xanımlarına aiddir və ya onlara şamil olur, yoxsa yalnızca Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) təyin etdiyi kisa əhlinə aiddir? Qəti dəlillər sübut edir ki, ayədəki "Əhli-Beyt" məhz Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) əba altına yığdığı şəxslərdir.

### Osman əl-Xəmis qaş düzəltmək istəyən yerdə vurub göz çıxarıb

**Dördüncüsü:** Osman əl-Xəmis belə bir iddia edir ki, Əli, Fatimə, Həsən və Hüseyn məhz Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) onları əba altına yığıb onlar üçün dua etməsi ilə Əhli-Beytin cərgəsinə daxil olmuşlar. Daha təthir ayəsi onlar barədə nazil olmamışdır.

Ona cavabımız:

*Birinci:* Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) dörd şəxsi əba altına yığdıqdan sonra onların üzərinə təthir ayəsini tilavət etmişdir. Bu, "kisa" hadisəsinin nəql olunduğu əksər rəvayətlərdə qeyd olunmuşdur. Həmin rəvayətlərdən biri də Müslimin ("Səhihü-Müslim": 4/1883) Aişədən nəql etdiyi bu rəvayətdir:

"Bir sübh vaxtı Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) əynində qara tükdən olan yəhər şəkilli əbası ilə birgə (evdən və ya otaqdan) çıxdı. Bu zaman Həsən ibn Əli gəldi. Peyğəmbər onu əbasına daxil etdi. Sonra Hüseyn gəldi. Peyğəmbər onu da əbasına daxil etdi. Sonra Fatimə gəldi, Peyğəmbər onu da əbasına daxil etdi. Sonra Əli gəldi, Peyğəmbər onu da əbasına daxil etdi. Sonra buyurdu: "**Ey əhli-beyt! Allah məhz sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**"."

Həmçinin Nəsainin "Xəsais" və "əs-Sünənul-kubra" kitablarında, Əhmədin "Müsnəd" və "Fadailus-səhabə" kitablarında, Hakimin "əl-Müstədrək" kitabında İbn Abbasdan nəql etdikləri (daha öncə bu rəvayəti qeyd etdik) rəvayətdə deyilir:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) libasını götürüb Əlinin, Fatimənin, Həsənin və Hüseynin üzərinə saldı və dedi: "**Ey əhli-beyt! Allah məhz sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**"..."[128]

Bu rəvayətlərdən də göründüyü kimi, Allah-taala Əhli-Beytə xitab etdiyi kimi Allah Rəsulu da (sallallahu əleyhi və alihi və səlləm) onları əba altına toplayıb eyni şəkildə onlara xitab etmişdir. Bu, ayənin məhz əba əhli barədə nazil olduğuna və onlara məxsus olduğuna, eləcə də "əhli-beyt" adının bu ayə nazil olmamışdan qabaq onlarda var olduğuna və Allah-taalanın onları bu adla adlandırdığına bir

[127] Həzrət Musanın (əleyhissəlam) xanımının səfər əsnasında onunla birlikdə olması məlum olduğuna görə ayədə "əhli.." deyilərkən xanımın nəzərdə tutulduğunu anlayırıq. (Tərc.).

[128] "Xəsais": səh.44, hədis: 33 və s.

dəlildir. Əgər ayə onlara məxsusu olmasaydı, onda Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) onlara bu ayə ilə xitab etməzdi.[129]

*İkinci:* Heysəmi "Məcməuz-zəvaid" kitabında belə nəql etmişdir:

"Əli qətlə yetirildiyi vaxt Həsən ibn Əli xilafət başına keçdi. O namaz qıldığı vaxt bir nəfər ona hücum edib xəncərlə onun budunu yaraladı. Həsən ibn Əli bu zərbə səbəbilə bir neçə ay xəstə oldu. (Sağaldıqdan) sonra qalxıb mibər üzərindən xütbə etdi və dedi: "Ey İraq camaatı! Bizim barəmizdə Allahdan qorxun. Biz sizin rəhbəriniz və qonaqlarınızıq. Biz Allahın "**Ey əhli-beyt! Allah məhz sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**" dediyi həmin Əhli-Beytik." Həmin gün Həsən ibn Əli elə danışdı kı, məsciddə ağlamayan şəxs qalmadı."

Bu rəvayətin ardınca Heysəmi deyir: "Bunu Təbərani nəql etmişdir. Raviləri siqədir".[130]

Göründüyü kimi Əba Muhəmməd Həsən ibn Əli ibn Əbu Talib (əleyhiməssəlam) bu ayəni dəlil gətirərək ayədə nəzərdə tutulan şəxslərin məhz özləri olduğunu bildirir.

*Üçüncü:* Rəvayətlərdə Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) altı yaxud yeddi ay boyunca hər sübh həzrət Əlinin və həzrət Fatimənin (əleyhiməssəlam) evlərinin qarşısına gəlib onların qapılarının ağzında: "Namazdır, ey Əhli-Beyt!", - dediyi, bunun ardınca da onlara müraciətlə təthir ayəsini tilavət etdiyi gəlmişdir. Bu da ayədə nəzərdə tutulan şəxslərin məhz onlar olduğuna bir dəlildir.

Hakim ən-Nişapuri "əl-Müstədrək" kitabında Ənəs ibn Malikdən belə nəql edir:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) altı ay boyunca hər dəfə sübh namazına getmək üçün evdən çıxdıqda Fatimənin (Allah ondan razı olsun) qapısına gələr və deyərdi: "Namazdır, ey Əhli-Beyt! "**Ey əhli-beyt! Allah məhz sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**""."

Bunun ardınca Hakim demişdir: "Bu Müslimin şərtinə əsasən səhih hədisdir, lakin iki şeyx bunu nəql etməmişlər".[131]

Bu hədisi Tirmizi "əl-Camius-səhih"də[132], Əhməd ibn Hənbəl "Müsnəd"də[133], Əbd-Həmid "Müsnəd"də[134], Əbu Davud ət-Təyalisi "Müsnəd"də[135], Təbərani "əl-

---

[129] Osman əl-Xəmisin "Əli, Fatimə, Həsən və Hüseyn məhz Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) onları əba altına yığıb onlar üçün dua etməsi ilə Əhli-Beytin cərgəsinə daxil olmuşlar, daha təthir ayəsi onlar barədə nazil olmamışdır" deməsi kökündən batil bir iddiadır. Çünki bu sözdən belə nəticə çıxır ki, əgər Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) dörd kimsəni (əleyhimus-səlam) əba altına yığmasaydı, o zaman onlar ayədəki "Əhli-Beyt"dən sayılmayacaqdılar; Peyğəmbər onları əbanın altına yığmaqla ayənin onlara da şamil olduğunu bildirmişdir. Bu, batil və dəlilə əsaslanmayan bir sözdür. Ona görə ki, əvvəla Osman əl-Xəmis "əhli-beyt" deyərkən yalnız şəxsin xanımlarının nəzərdə tutulduğunu isbat etməlidir, (bu isə qeyri-mümkün işdir, çünki dilçi alimlər bunun əksini deyirlər) ikincisi: heç bir müsəlman bir şəxsin övladlarının o şəxsin əhli-beytindən sayıldığına şübhə etmir. Əgər ayədə "əhli-beyt" ifadəsi işlədilmişdirsə, deməli bu ifadə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) yaxın ailə üzvlərinə və övladlarına da şamil olmalıdır. Elə isə Osman əl-Xəmis necə iddia edə bilir ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) əbanı dörd kimsənin üzərinə atmasaydı, ayədəki "əhli-beyt" sözü onlara şamil olmayacaqdı?! Görəsən Osman əl-Xəmisin dilçilikdə "əhl", "əhli-beyt" sözünün hansı mənalara gəldiyindən xəbəri varmı? (Tərc.).

[130] "Məcməuz-zəvaid": 9/172.

[131] "əl-Müstədrək": 3/172, hədis: 4748.

[132] "əl-Camius-səhih" ("Sünənüt-Tirmizi"): 5/352, hədis: 3206.

Mücəmül-kəbir”də[136], İbn Əbu Şeybə “Müsənnəf”də[137] nəql etmişlər. Həmçinin Əbd-Həmid “Müsnəd”də[138], Təbərani də “əl-Mücəmül-kəbir”də[139] bu hədisi Əbul-Həmra yolu ilə nəql etmişlər. Həmçinin Təbərani “əl-Mücəmül-əvsət”də[140] bu hədisi Əbu Səid əl-Xudri yolu ilə nəql etmişdir.

### Osman əl-Xəmisin ayədəki “Əhli-Beyt” məfhumunu bütün Bəni-Haşimə aid etməyə çalışması!

Osman əl-Xəmis deyir:

“Üçüncü: Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) əhli-beyti məfhumu, Peyğəmbərin xanımlarından və Əli, Fatimə, Həsən və Hüseyndən başqalarına da şamil olur. Bu, Zeyd ibn Ərqəmin hədisində gəlmişdir. Zeydə “Peyğəmbərin xanımları onun əhli-beytindəndirlərmi?”, - deyə sual verildikdə, o, “Peyğəmbərin xanımları onun əhli-beytindəndirlər, lakin onun sədəqə yemələri haram olan əhli-beyti Əli ailəsi, Cəfər ailəsi, Əqil ailəsi və Abbas ailəsindən ibarətdir”, - demişdir. Deməli, əhli-beyt məfhumu daha geniş mənaya malikdir. Təthir ayəsinə əsasən Peyğəmbər xanımları, kisa hədisinə əsasən Əli, Fatimə, Həsən və Hüseyn, Zeyd ibn Ərqəmin hədisinə əsasən də Abbas, Əqil, Cəfər və Haris ibn Əbdül-Müttəlib əhli-beyt məfhumuna daxildirlər. Bütün bu şəxslər Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) əhli-beyti sayılırlar. Hətta, bütün Bəni-Haşim onun əhli-beyti sayılır. Onlar sədəqə yeməIəri haram olan şəxslərdirlər”[141].

### Ayədəki “Əhli-Beyt” termini ilə əhli-beyt sözünün lüğəvi mənasını qarışdırmışdır

**Birincisi:** Yoldaşımız təthir ayəsində gələn və xüsusi mənada olan “əhli-beyt” məfhumu ilə ümumi mənada olub Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) sədəqə haram olan qohumlarını öz əhatə dairəsinə alan “əhli-beyt” məfhumunu bir-birinə qarışdırmışdır.

Bu, bu insanın qavrayışının azlığından, yaxud da saxtakarlıqdan xəbər verir. Məlumdur ki, “əhli-beyt” adında ümumi bir məfhum vardır. Bəni-Haşimdən sədəqə verilməsi haram olan hər bir kəs bu ümumi məfhum altına daxil olur. Lakin bizim söhbətimiz bu barədə deyil. Bizim söhbətimiz təthir ayəsindəki “əhli-beyt” məfhumu barədədir. Bu məfhum xüsusi məfhumdur. O məhz Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) əba altına alıb barələrində “İlahi, bunlar mənim Əhli-beytimdirlər. Elə isə çirkinlikləri onlardan təmizləyib onları tərtəmiz

---

133 “Müsnədü-Əhməd”: 3/259, hədis: 13754, 3/285, hədis: 14072.
134 “Müsnədi-Əbd ibn Həmid”: 1/367, hədis: 1223.
135 “Müsnədi-Əbu Davud”: 1/274, hədis: 205.
136 “əl-Mucəmul-kəbir”: 3/56, 22/402.
137 “Müsənnəf”: 6/388, hədis: 32272.
138 “Müsnədi-Əbd ibn Həmid”: 1/173, hədis: 475.
139 “əl-Mucəmul-kəbir”: 3/56, 22/200.
140 “əl-Mucəmul-əvsət”: 8/111, hədis: 8127.
141 “Tarixdən bir dövr”: səh.189.

et”, - deyə dua etdiyi şəxslərə məxsusdur. Səhih və açıq-aşkar məzmunlu rəvayətlər ayədəki “əhli-beyt”in yalnız bu beş şəxsə aid olduğunu sübut etmişdir. Biz daha öncə ayədəki əhli-beyt məfhumunun Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımları ilə heç bir əlaqəsinin olmadığını lazımı şəkildə sübut etdik.

Osman əl-Xəmisin xanımların “Əhli-Beyt” məfhumuna daxil olduqlarını iddia etməsi batil bir iddiadır. Onun bu işi nəss müqabilində ictihad etməkdir.

Mən həqiqətən də təəccüb edirəm! Əhli-Beytin kimlərdən ibarət olduğunu adbaad təyin edən və bunu islami bir terminə çevirən səhih və möhkəm hədislərdən sonra Osman əl-Xəmis filan xanımı, filan xanımı və filan xanımı bu məfhuma daxil etməyə necə cürət edə bilir?! Görəsən Osman əl-Xəmisdən “sənin övladların kimdir?”, - deyə soruşsalar, o da bir əba gətirib onu beş nəfərin üzərinə salsa və “bunlar mənim övladlarımdır”, - desə, lakin sonra bir şəxs gəlib “filan xanım, filan xanım və filan xanım da onun övladlarındandır”, - desə, Osman əl-Xəmis buna razı olarmı?! Elə isə onun etdiyi işə nə ad vermək olar? Görəsən onun etdiyi inadkarlıq və Peyğəmbərin sözünü tapdamaq deyilmi?

### Nə üçün Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bu beş nəfərdən başqasının üzərinə əba salmayıb?

**İkincisi:** Əgər ayədəki “əhli-beyt” məfhumu Osman əl-Xəmisin iddia etdiyi kimi bütün Bəni-Haşimi əhatə edirdisə, bəs nə üçün Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bütün bu şəxsləri əba altına alıb: “İlahi, bunlar mənim əhli-beytimdirlər, elə isə çirkinlikləri onlardan təmizləyib onları tərtəmiz et”, - deməmişdir? Nə üçün təkcə özünü, Əlini, Fatiməni, Həsəni və Hüseyni (salavatullahi əleyhim əcməin) əba altına almışdır?

Peyğəmbərin gördüyü bu iş bizə qəti şəkildə belə deməyə əsas verir ki, nə zövcələr, nə də Bəni-Haşim təthir ayəsindəki əhli-beyt məfhumuna daxil deyillər.

### Zeyd ibn Ərqəm Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımlarının Əhli-Beytdən olduqlarını inkar edir

**Üçüncü:** Zeyd ibn Ərqəmə nisbət verilən yuxarıdakı rəvayəti ondan kisa hədisindən sonra deyil, məhz səqəleyn hədisindən sonra nəql etmişlər! Lakin Osman əl-Xəmisin oxucunu aldadıb ona kələk gələrək hədisi təthir ayəsindəki “əhli-beyt” məfhumunun izahı ilə bağlı bəhsdə qeyd etmişdir. Biz səqəleyn hədisi barədə Osman əl-Xəmisə verdiyimiz rəddiyyədə “**itrətim olan Əhli-Beytim**” cümləsindəki “Əhli-Beyt” sözü ilə bütün Bəni-Haşimin nəzərdə tutulmadığını isbat etmişik. Çünki Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Qurandan və itrətdən sarılmağı əmr edir, onlara sarılmağın zəlalətdən qurtulma amili olduğunu bəyan edir. Məlumdur ki, Bəni-Haşimin arasında təqvalı, imanlı və elmli şəxslər olduğu kimi cahil, fasiq və sarılmağa layiq olmayan şəxslər də var. Elə isə bu cür şəxslərdən sarılmaq insanı necə zəlalətdən qoruya bilər?!

Quranla birgə Əhli-Beytə sarılmağa əmr edilməsi onu göstərir ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) “**itrətim olan Əhli-Beytim**” sözü ilə bir dəstə xüsusi şəxsi nəzərdə tutmuşdur, nəinki bütün Bəni-Haşimi.

Onu da qeyd edək ki, Zeyd ibn Ərqəmə nisbət verilən bu hədisdən zövcələrin hətta səqəleyn hədisindəki "əhli-beyt" məfhumuna belə daxil olmadıqları başa düşülür. Çünki onun dediyi "xanımları onun əhli-beytindəndirlər" cümləsi inkar mənalı sual cümləsidir. Yəni, cümlə "xanımları onun əhli-beytindəndirər?!" şəklindədir. Bunun dəlili bu cümlənin ardınca deyilən "lakin onun əhli-beyti sədəqə verilməsi..." cümləsidir. Həmçinin başqa bir dəlil Zeyd ibn Ərqəmin özündən nəql edilən başqa bir səhih hədisdə onun zövcələrin səqəleyn hədisindəki "əhli-beyt" məfhumuna daxil olmalarını inkar etməsidir. Müslimin öz "Səhih" kitabında nəql etdiyi bir hədisdə belə gəlmişdir:

"Biz dedik: "Peyğəmbərin Əhli-Beyti kimlərdir? Xanımlarıdır?" Zeyd dedi: "Xeyr! Allaha and olsun, qadın uzun müddət kişi ilə birgə olsa, sonra kişi ona talaq versə, qadın öz atasının və tayfasının yanına qayıdar. Peyğəmbərin Əhli-Beyti onun əsli və özündən sonra sədəqə verilməsi haram olan şəxslərdir."[142]

## Osman əl-Xəmis təkvini və təşrii istəyi başa düşməyib

Osman əl-Xəmis deyir:

"Dördüncü: Ayədə Allahın çirkinliyi əhli-beytdən uzaqlaşdırıldığı deyilməmişdir. Çünki ayədəki istək təşrii istək və ya sevgiya bağlı olan istəkdir. Bu istək isə qədəri istəkdən fərqli şeydir. Şübhəsiz ki, Allah çirkinliyi Fatimədən, Həsəndən, Hüseyndən, Əlidən, Peyğəmbərin xanımlarından, Əqil ailəsindən, Cəfər ailəsindən və Abbas ailəsindən uzaqlaşdırmışdır. Lakin, buradakı, yəni ayədəki istək təşrii istəkdir. Məhz buna görədir ki, kisa hədisində Peyğəmbərin əbasını dörd nəfərin üstünə salıb "İlahi, bunlar mənim Əhli-Beytimdir, çirkinliyi onlardan təmizlə", - dediyi deyilir. Əgər Allah onlardan çirkinliyi təmizləmişdisə, onda nə üçün Peyğəmbər belə bir dua edirdi?!! Peyğəmbərin duası onu göstərir ki, ayədəki istək təşrii istəkdir. Bu ayənin başqa bir misalı aşağıdakı ayədir: "**Allah sizə (şəriət hökmlərini) bəyan etmək, sizi özünüzdən əvvəlkilərin yollarına yönəltmək və tövbələrinizi qəbul etmək istəyir. Allah Biləndir, Müdrikdir. Allah sizin tövbələrinizi qəbul etmək istədiyi halda, ehtiraslara qapılanlar sizi çox kənara meyl etməyə (haqdan uzaqlaşmağa) yönəldərlər. Allah sizin üçün (şəriət hökmlərini) yüngülləşdirmək istəyir, çünki insan zəif yaradılmışdır.**" (Nisa surəsi, 26-27-ci ayələr). Allah-taalanın qeyd etdiyi bütün bu istəklər təşrii istək növündəndir. Allah bütün insanlar üçün yüngüllük istəyir, onların hamısının tövbələrini qəbul etmək istəyir, lakin görəsən hamısının tövbəsini qəbul edibmi?! "**Sizi yaradan Odur. Sizin bəziniz kafir, bəziniz isə mömindir**" (Təğabun surəsi, 2-ci ayə). İnsanların bəzisi mömindir, bəzisi isə kafir. Allah bütün insanların tövbəsini qəbul etməyib"[143].

## Ayədəki istək təkvinidir, təşrii deyil

Osman əl-Xəmis bu sözləri deməklə mətnləri necə yanlış anladığını, mövzuları necə bir-birinə qarışdırdığını, məfhumları necə səhv saldığını və təhrifçiliyə necə meyl etdiyini gözlər önünə sərib. Belə ki, o, təthir ayəsindəki istək

---

142 "Səhihü-Müslim": 4/1874.
143 "Tarixdən bir an": səh.191.

ilə digər ayələrdəki istəkləri qarışdırıb. Təthir ayəsindəki istəyin təşrii istək olduğunu iddia edib. (Özü də buna "sevgiyə bağlı olan istək" deyir). Buna dəlil olaraq da Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) "İlahi, bunlar mənim Əhli-Beytimdirlər, elə isə çirkinlikləri onlardan təmizləyib onları tərtəmiz et" deməsini göstərib. Bu cümləni qeyd etdikdən sonra deyib ki, əgər Allah çirkinliyi bu dörd şəxsdən təmizləmişdisə, bəs nə üçün Peyğəmbər onlar üçün belə bir dua edirdi?! Bunun ardınca isə özündən əvvəl heç kəsin ortaya atmadığı bir iddia ortaya ataraq demişdir ki, Allah-taala çirkinlikləri təkcə əba əhlindən deyil, həmçinin Ali-Əqildən, Ali-Cəfərdən və Ali-Abbasdan da təmizləmişdir. O, bu sözü ilə az əvvəl dediyi sözün; ayədəki istəyin təşrii istəy olduğunu deməsinin ziddinə getmiş və onu batil etmişdir. Çünki əgər ayə Allah-taalanın xitab edilən şəxslərdən çirkinlikləri uzaqlaşdırıb onları tərtəmiz etdiyi mənasını verirsə, o zaman heç şübhə yoxdur ki, ayədəki istək təşrii yox, təkvini istək mənasında olacaq! Bax gör, bu insan özü öz sözünü necə batil edir!

**Biz ona cavab olaraq deyirik:**

**Birincisi:** İstək iki növə: təşrii və təkvini istəyə bölünür. Bunu üsul, fiqh, təfsir və s. elmlərin alimləri qeyd etmişlər.

Təkvini istək bir şəxsin başqasının istəyi ilə deyil öz istəyi ilə bir işi görməyi istəməsidir. Eyniylə Allah-taalanın aləmi, yeri, göyü və s.-ni yaratmağı istəməsi kimi. Allah (əzzə və cəll) buyurur: "**Bir şeyi (yaratmaq) istədiyi zaman (Allahın) buyurduğu ona ancaq: "Ol!" deməkdir. O da dərhal olar**" (Yasin surəsi, 82-ci ayə). Təşrii istək isə bir şəxsin başqa bir şəxsdən o şəxsin öz istəyi ilə bir işi görməsini istəməsidir. Allahın bəndələrdən oruc, namaz, zəkat və s. kimi şeyləri istəməsi kimi. Burada Allah bu işləri bəndələrdən ixtiyari şəkildə istəyir, onları bu işlərə məcbur etmir. Allah-taala buyurur: "**Allah sizin tövbələrinizi qəbul etmək istəyir. Öz nəfsinə uyanlar isə sizi böyük bir əyriliklə (düz yoldan) sapdırmaq istəyirlər**" (Nisa surəsi, 27). Allah-taalanın bu ayədə bəndələrin tövbələrini qəbul etməsini istəməsi təkvini istəklə deyildir. Əks halda bütün bəndələr üçün tövbə hasil olardı. Allah-taala bəndələrdən Onun şəriətinə əməl etmələrini və bunun nəticəsində onları bağışlamasını istəyir. Təşrii istək budur.

Təthir ayəsindəki istək həyata keçməsi mütləq olan təkvini istək növündəndir. Əgər ayənin mənası "Allah istəyir ki, siz günahlardan uzaq durasınız və bununla Allah sizi təmiz etsin" şəklində olsaydı, o zaman ayədə heç kəs üçün bir fəzilət olmazdı. Çünki təşrii mənada təmizləmə istəyi bütün müsəlmanlar üçün, hətta bütün bəşəriyyət üçün keçərlidir. Təthir ayəsindəki təmizləmə istəyi Maidə surəsinin 6-cı ayəsindəki təmizləmə istəyi kimi deyildir. Allah buyurmuşdur: "**Ey iman gətirənlər, namaza durarkən üzlərinizi və dirsəklərinizə qədər əllərinizi yuyun və başınıza və iki ayaqlarınızın üzərinə hər iki ayağınızın üstündəki qabarıq yerə kimi məsh edin. Əgər cənabətli olsanız yuyunun (qüsl edin). Əgər xəstə və ya səfərdə ikən sizlərdən biri ayaqyolundan gəlmiş, yaxud qadınlarla yaxınlıq etmiş olsa və su tapmasanız, onda pak torpaq axtarın. (Hər iki əlinizin içini ona vurduqdan sonra) həmin torpaqdan üzünüzə və əllərinizə çəkin (təyəmmüm edin). Allah əsla sizə çətinlik yaratmaq istəmir, *lakin sizi təmizləmək* və Öz nemətini sizə tamamlamaq *istəyir* (ki,) bəlkə şükr**

**edəsiniz**” (Maidə surəsi, 6-cı ayə). Bu ayədə “**lakin sizi təmizləmək... istəyir**” cümləsi təkvini yox, təşrii istəkdir. Bu təmizləmə xüsusidir, ümumi deyildir, yəni, sırf namazla bağlıdır, namaz üçün təmizləmə ilə əlaqəlidir. Habelə bu təmizləmə dəstəmaz və ya təyəmmüm almaqla şərtlənmişdir. Halbuki təthir ayəsindəki təmizləmə istəyi təkvini və ümümidir, hər növ təmizləmə ilə bağlıdır, namaz üçün və ya başqa bir şey üçün təmizləmə ilə bağlı deyildir.

Təthir ayəsi ilə digər ayələr arasındakı mühüm fərqə diqqət yetirilməlidir. Təthir ayəsində çirkinliyin mütləq şəkildə, bütün növlər ilə birgə aradan aparılmasından söhbət açılır. Bu ayədə çirkinliyin aparılması istəyi ümumi şəkildə gəlmiş, hər hansısa bir məsələ ilə şərtlənməmişdir. Buna görə də Əhli-Beyt (əleyhimussəlam) bu ayənin dəlalətinə əsasən, kiçikli-böyüklü bütün növ çirkinliklərdən pak və təmizdirlər. Məsumluğun mənası da budur.

Ayədəki istəyin təkvini istək olduğuna dəlalət edən şeylərdən biri də ayənin həsr ədatı olan “innəma” ədatı ilə başlanmasıdır. Bu ədat həsr ədatları içərisində ən güclü ədatlardandır. Bu ədat özündən sonra deyilən şeyi təsdiq, özündən əvvəl deyiləni isə inkar edir. İbn Mənzur deyir:

““İnnəma” özündən sonra qeyd olunan şeyi təsdiq, həmin şeydən qeyri şeyləri isə inkar edir. Məsələn, “onların şərəflərini yalnız mən və mənim kimisi qoruya bilər” dediyimiz zaman “onların şərəflərini mən və məndən başqa heç kəs qoruya bilməz” mənasını nəzərdə tuturuq.”[144]

Buna əsasən ayə xitab olunan şəxslərdən – əba əhlindən çirkinliklərin aparıldığını və onların tərtəmiz edildiklərini sübut edir, onların məsum olduqlarını çatdırır.

Əgər ayədəki istəyin təşrii istək olduğunu desək, o zaman ayənin mənası: “Ey Əhli-Beyt! Biz şəriət hökmlərini (başqalarından deyil) məhz sizlərdən çirkinlikləri uzaqlaşdırıb sizi tərtəmiz edək deyə təyin etdik” şəklində olacaq. Bu isə batil sözdür. Çünki şəriət hökmlərinin təyin edilməsi ancaq Əhli-Beytdən (əleyhimussəlam) deyil, bütün bəşəriyyətdən çirkinliyin uzaqlaşdırılması üçündür. Bu məsələdə Əhli-Beytin (əleyhimussəlam) bir xüsusiliyi yoxdur. Onların başqalarından fərqli hökmləri yoxdur. Buna əsasən, ayənin təşrii istək mənasında olduğunu desək, ayədəki “innəma” ədatı boş yerə işlənmiş olur. Uca Allahın kəlamı usə boş şeylərdən uzaqdır!

Bu, ayənin Şeyx Osman əl-Xəmisin iddia etdiyi kimi inşa və ya tələb üslubunda deyil, kənarda baş vermiş şeydən xəbər vermə üslubunda olduğuna ən yaxşı şahiddir.[145] Bu üslub da yalnız təkvini iradə ilə uyğun gəlir.

**İkinci:** Onun dediyi “əgər Allah çirkinliyi onlardan uzaqlaşdırmışdısa, bəs nə üçün Peyğəmbər çirkinliyin onlardan uzaqlaşdırılması üçün dua edirdi?” sözünə gəlincə, cavabı belədir ki:

Osman əl-Xəmis bu sözü ilə onu demək istəyir ki, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Əhli-Beyt (əleyhimussəlam) üçün “çirkinliyi onlardan

---

[144] “Lisanul-ərəb”: 13/31.

[145] Başqa sözlə, burada Allah-taala nəyəsə əmr etmir, yaxud nəyisə tələb etmir, burada Allah-taala nədənsə xəbər verir. O xəbər verdiyi şey də Əhli-Beytin (əleyhimussəlam) paklığıdır. Əgər belə olmasaydı, o zaman ayədə “innəma” ədatının işlədilməsi əbəs və yanlış olardır. Allah-taalanın kəlamı isə belə nöqsandan pak və münəzzəhdir. (Tərc.).

uzaqlaşdır" deyə dua etməsi onlarda çirkinliyin olmasına dəlalət edir. Onlarda çirkinlik olduğuna görə Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) onlar üçün belə bir dua etmişdir.

Bu, sözlərlə oynamağın bir növüdür. Bundan məqsəd Əhli-Beytə (əleyhimussəlam) nöqsan yaxmaq, onları da Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) zövcələri kimi çirkinlik (rics) əhlindən etməkdir. Halbuki əgər onun dediyi şey düz olsaydı, o zaman müsəlmanlara namazlarında: "**Bizi doğru yola yönəlt!**" , - demələri qadağan olardı, çünki onlar İslama daxil olmaqla artıq doğru yolda daxil olmuşlar.

Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bu cür etməklə "əhli-beyt"dən məqsədin kim olduğunu çatdırmaq istəmişdir. O Həzrət insanlar təthir ayəsində paklaşdırıldıqları deyilən şəxslərin kim olduğunu bilsinlər deyə Rəbbinə xitab etmiş, xitabında: "Bunlar mənim Əhli-Beytimdirlər", - demişdir. Duadan məqsəd budur.

Həmçinin, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) belə deməsini başqa cür də izah etmək olar. O budur ki, Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) yoxsulluq və fəqirliyi etiraf etmək, ilahi feyz və bəxşişin davamlı olmasına ehtiyaclı olmağı bəyan etmək üçün belə buyurmuşdur. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) hər gün ən azı beş dəfə "**Bizi doğru yola yönəlt**", - deyə buyururdu. Görəsən, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bundan əvvəl doğru yolda deyildimi ki, doğru yola yönəldilməsini istəyirdi?![146]

Üstəlik, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) bu duası bir irad olaraq Osman əl-Xəmisə də yönəlir. Belə ki, əgər ayədəki istəyin təşrii istək olduğunu fərz etsək, o zaman Peyğəmbərin bu duanı yalnız Əhli-Beyti üçün etməsi yanlış bir iş olacaq. Çünki Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) yalnız öz Əhli-Beyti üçün dua edərək "İlahi, Öz şəriətini, əmrini və qadağalarını Əhli-Beytimə şamil et, onları Öz qadağan etdiyin şeylərdən çəkindir" deməsinin heç bir anlamı yoxdur. Şəri vəzifələr, əmrlər, qadağalar, həm Əhli-Beytə aiddir, həm də onlardan qeyrilərinə; şərətə tabe olmaqla paklaşdırmaq istəyi həm onlar üçün keçərlidir, həm də başqaları üçün! Elə isə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) yalnız dörd kimsə üçün (hətta Ümmü-Sələmə üçün belə yox) bu cür bir dua etməsinin nə anlamı var?! Görəsən Osman əl-Xəmis buna nə cavab verəcək?

## Osman əl-Xəmisin ayəni Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımlarına və bütün Bəni-Haşimə aid etmək cəhdinə cavab

---

[146] Burada bu cümlənin izahına dair başqa misallar da göstərmək olar. Belə ki, Qurani-Kərimdə həzrət İbrahim və həzrət İsmayıl (əleyhiməssəlam)-ın: "**İlahi, bizi sənə itaətkar (müsəlman) et**", - deyə dua etdikləri qeyd olunmuşdur. Görəsən, Osman əl-Xəmisin nəzərində həzrət İbrahim və həzrət İsmayıl (əleyhiməssəlam) Allaha itaətkar və müsəlman olmadıqlarına görə belə dua ediblər, yoxsa yoxsulluq və fəqirlik izhar etmək, lütf və bəxşişin davamlı olmasını diləmək üçün belə ediblər?! Habelə biz Peyğəmbər üçün "**İlahi, Muhəmmədə vəsiləni (Cənnətdə yer adıdır) və fəziləti bəxş et, onu ona vəd etdiyin "öyülmüş məqam"a çatdır**" deyə dua edirik. Halbuki Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) artıq ən üstün məqamlara çatmışdır. Buna əsasən, bu növdən olan dualarla yoxsulluq və fəqirliyi etiraf etmək, ilahi feyz və bəxşişin davamlı olmasına ehtiyaclı olmağı bəyan etmək üçündür. (Tərc.).

**Üçüncüsü:** Onun Allah Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımlarından və bütün Bəni-Haşimdən çirkinliyi təmizləmişdir deyə iddia etməsinə gəlincə, buna cavabımız belədir:

1-Allahın Peyğəmbər xanımlarından və bütün Bəni-Haşimdən çirkinliyi təmizlədiyini demək bu şəxslərin məsum olduqları mənasına gəlir. Çünki ərəb dilində "rics" (çirkinlik) sözü bütün növ mənəvi və maddi çirkinliklərə şamil olur. Alusi "Ruhul-məani" kitabında deyir:

"Rics sözü çirk, kir deməkdir... Demişlər ki, bu söz günah, əzab, nəcasət və nöqsanlar mənasına gəlir. Burada – təthir ayəsində – bu söz bu deyilənlərin hamısını özündə ehtiva edir"[147].

Həmçinin Firuzabadi "əl-Qamusul-muhit" kitabında deyir:

"Rics çirk, kir deməkdir. Günahlara, çirkin hesab edilən bütün əməllərə, əzaba aparıb çıxaran əmələ, şəkkə, cəzaya, qəzəbə rics deyilir."[148]

Elə isə "rics" (çirkinlik) sözü günüha da şamil olur. Günah çirkinliyin növlərindən biridir. Osman əl-Xəmisin bu sözünə əsasən, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xanımları və bütün Bəni-Haşim günahdan məsum olmuş olurlar. Bunu isə İslam ümməti arasında hələ heç kəs iddia etməmişdir.

2-Yoldaşımız bu iddiasını isbat edəcək və ya dəstəkləyəcək bircə dəlil belə göstərməmişdir. O, bu iddiasının isbatı üçün təthir ayəsinə əsaslana bilməz. Çünki onun nəzərində ayədəki istək təkvini deyil, təşrii ("sevgiyə bağlı olan") istəkdir. Əgər ayədəki istək təşriidirsə, o zaman ayədə deyilən təmizləmə təkcə xanımlara və Bəni-Haşimə deyil, bütün insanlara aid olur. Elə isə görəsən Osman əl-Xəmis "Allah zövcələrdən və bütün Bəni-Haşimdən çirkinliyi təmizləmişdir" deyərkən hansı dəlilə əsaslanıb?!

**Osman əl-Xəmis ayəni bütün müsəlmanlara aid etməyə çalışır**

Osman əl-Xəmis deyir:

"Beşinci: Allah hər bir şəxsdən və hər bir mömindən çirkinliyi uzaqlaşdırmaq istəyir. Buna görə də, Peyğəmbərə namaza qalxmaq istədikdə çirkli yerlərdən uzaq durmağı əmr etmiş və buyurmuşdur: "**Paltarını təmiz saxla**". Həmçinin, dəstəmaz almağı, cənabət halında qüsul almağı əmr etmişdir."

Sonra deyir:

"Altıncı: Paklaşdırma istəyi təkcə Əliyə, Fatiməyə, Həsənə və Hüseynə - Allah onlardan razı olsun - xas deyildir. Əksinə, onlardan başqaları da paklaşdırılmaq istənmişdir. Allah-taala deyir: "**Onların mallarından sədəqə (zəkat) al. Bununla onları (günahlarından) təmizləmiş, pak etmiş olarsan**" (Tövbə surəsi, 103-cü ayə), həmçinin deyir: "**Allah sizi pak, təmiz etmək və Öz nemətini sizə tamamlamaq istəyir (ki,) bəlkə şükr edəsiniz**" (Maidə surəsi, 6-cı ayə), həmçinin deyir: "**(O zaman) Allah... sizi paklamaq, Şeytanın murdarlığını sizdən təmizləmək... üçün göydən üstünüzə yağış yağdırmışdı**" (Ənfal surəsi, 11-ci ayə)."[149]

---

[147] "Ruhul-məani": 22/12.
[148] "əl-Qamusul-muhit": 2/318.
[149] "Tarixdən bir an": səh.191-192.

**Deyirəm:** Şübhə yoxdur ki, Allah-taala hər bir müsəlman barəsində onun üçün təyin olunan şəri vəzifələrə əməl etməklə özünü maddi və mənəvi çirkinliklərdən təmizləməsini istəmişdir. Allahın hər bir müsəlman üçün istədiyi bu istək təşrii istək növündəndir. Təthir ayəsindəki istəyə gəlincə isə, daha öncə də qeyd etdiyimiz kimi bu istək təkvini istəkdir. Çünki Allah-taala burada çirkinlikdən təmizləmə istəyini bütün müsəlmanlara deyil, xüsusi bir dəstəyə - Əhli-Beytə aid etmişdir, Peyğəmbər də (sallallahu əleyhi və alihi və səlləm) bu şəxslərin kimliyini onların üzərlərinə əba salmaqla müəyyənləşdirmişdir.

Lakin, Osman əl-Xəmis bu sözlərində məsələləri necə bir-birinə qatdığını, məfhumları necə bir-biri ilə səhv saldığını növbəti dəfə isbat etmişdir. Belə ki, o, paklanmanın təkcə kisa əhlinə aid olmayıb başqa şəxslər üçün də keçərli olduğunu göstərməkdən ötrü Qurani-Kərimin ayələrinə üz tutmuş, harada "paklıq" kökündən düzələn bir söz tapmışsa gətirib oxucuya təqdim etmişdir! Sanki şiələr və ayənin Əhli-Beyt (əleyhimussəlam)-a aid olduğunu deyən şəxslər təkcə ayədəki "**tərtəmiz (pak) etmək istər...**" sözünə əsaslanırlar. Bu, çox böyük xətadır. Şiələr ayənin yalnızca Əhli-Beytə aid olduğunu isbat edərkən "**tərtəmiz (pak) etmək istər**" sözünə deyil, ayənin bütünlükdə məzmununa əsaslanırlar.

Bizim ona cavabımız belədir ki, təthir ayəsində qeyd olunan "paklama" (təmizləmə) bu ümmətdən heç bir kəs üçün hasil olmamışdır. (Təkcə həzrət Hüseynin (əleyhissəlam) nəslindən olan doqquz pak İmam (əleyhimussəlam) bundan istisnadır ki, hal-hazırda bunun isbatı bizim mövzumuz deyil.) "**Onların mallarından sədəqə al, bununla onları təmizləmiş, pak etmiş olarsan**" ayəsinə gəlincə, bu ayədə zəkat alınmış şəxsin bütün növ çirkinliklərdən təmizləndiyinə dəlalət edəcək heç bir şey yoxdur. Burada baş tutan təmizləmə və paklama mütləq deyil, nisbi növdəndir. Başqa sözlə, sədəqə insanı büsbütün çirkinliklərdən təmizləmir. Görəsən, zəkat verən, lakin bununla yanaşı başqa haram əməllər görən, yalan danışan, qeybət edən, oğurluq edən, kələk gələn, adam öldürən və s. bu kimi çirkin əməllər görən şəxs bütün çirkinlikdən təmizlənmiş olur? Daha öncə də qeyd olunduğu kimi, təthir ayəsində xitab ünvanlanan şəxslərin bütün növ çirkinliklərdən təmizlədildiyi bildirilir. Təthir ayəsindəki təmizləmə (paklama) mütləq mənadadır. Halbuki, "**Onların mallarından sədəqə al, bununla onları təmizləmiş, pak etmiş olarsan**" ayəsindəki təmizləmə nisbi və şərtlənmiş təmizləmədir. Təthir ayəsinin ifadə etdiyi məna ilə bu ayənin dəlalət etdiyi məna arasında böyük fərq vardır.

"**Lakin sizi pak, təmiz etmək və Öz nemətini sizə tamamlamaq istəyir**" cümləsinə gəlincə isə, bu cümlə Maidə surəsinin 6-cı ayəsinin bir parçasıdır: "**Ey iman gətirənlər, namaza durarkən (dəstəmazınız olmayanda) üzlərinizi və dirsəklərinizə qədər əllərinizi yuyun və başınıza və iki ayaqlarınızın üzərinə hər iki ayağınızın üstündəki qabarıq yerə kimi məsh edin. Əgər cənabətli olsanız yuyunun (qüsl edin). Əgər xəstə və ya səfərdə ikən sizlərdən biri ayaqyolundan gəlmiş, yaxud qadınlarla yaxınlıq etmiş olsa və su tapmasanız, onda pak torpaq axtarın. (Hər iki əlinizin içini ona vurduqdan sonra) həmin**

**torpaqdan üzünüzə və əllərinizə çəkin (təyəmmüm edin). Allah əsla sizə çətinlik yaratmaq istəmir, lakin sizi pak, təmiz etmək və Öz nemətini sizə tamamlamaq istəyir (ki,) bəlkə şükr edəsiniz.**" Bu mübarək ayədə Allah-taala namaz zamanı insanların qüsl, dəstəmaz və ya təyəmmümlə paklanmaları gərəkdiyini bildirir. Bunun ardınca bildirir ki, bu qanunu qoymaqla insanları paklamaq və Öz nemətini onlara tamamlamaq istəyir. Buna əsasən, "**sizi pak etmək istəyir**" sözünün mənası bu olur ki, qüsl, dəstəmaz və təyəmmüm kimi hökmləri qoyulmasından məqsəd insanların *hədəsdən və murdarlıqdan* paklanmalarıdır. Burada bu paklığın artıq həyata keçdiyi bildirilmir. Allah-taala burada təşrii istək növündən istəyir. Başqa sözlə, bu növ paklıq yalnız insan bu əmrlərə itaət etdiyi təqdirdə həyata keçir. Bu cümlədə paklığın mütləq mənada olduğu, insanın dəstəmaz və ya qüsl alacağı təqdirdə bütün növ çirkinliklərdən pak olacağı deyilmir. Kimsə "bir şəxs dəstəmaz aldığı təqdirdə bütün növ çirkinliklərdən pak olar" demir. Çünki hətta Osman əl-Xəmisin belə lənət etdiyi bəzi zalım tağutlar da dəstəmaz alıblar. Görəsən bu cür zalımlar hər növ çirkinlikdən paklanmış olurlar? Yoxsa yalnızca hədəs və murdarlıq halətindən təmizlənmiş olurlar? Deməli bu ayə ilə də təthir ayəsi arasında böyük fərq vardır.

"**O vaxt Öz tərəfindən arxayınlıq əlaməti olaraq, Allah sizi yüngül bir yuxuya daldırmış, sizi təmizləmək, Şeytanın murdarlığını sizdən təmizləmək, ürəklərinizi doldurmaq və ayaqlarınızın altını möhkəm etmək üçün göydən üstünüzə yağış yağdırmışdı**" (Ənfal surəsi, 11-ci ayə) ayəsinə gəlincə, bu ayədə də insanların mütləq şəkildə bütün növ çirkinliklərdən təmizlədildiyi deyilmir. Ayədə Uhudda Allahın əmrinə asi olub döyüşdən qaçanlara və Peyğəmbəri (sallallahu əleyhi və alihi və səlləm) müşriklərin qılıncları qabağında təkbaşına qoyanlara xitab olunur. Bildirilir ki, Allah bu şəxslər içərisində mömin olanlar üçün səmadan yağış göndərmiş, bu yağışla şeytanın murdarlığını və çirkinliyini onlardan təmizləmişdir. (Burada şeytanın murdarlığı deyilərkən şeytanın onlara döyüşdən qaçmalarını əmr etməsi nəzərdə tutulur. Allah yağışla bu qaçma murdarlığı onlardan təmizləmək istəmişdir). Habelə, Allah münafiqlər üçün deyil mömin olanlar üçün yuxu göndərmişdir. Buna əsasən, bu ayədəki paklama Allaha kafir olma dərəcəsində olan döyüşdən qaçma murdarlığına aiddir. Allah-taala buyurmuşdur: "**Ey iman gətirənlər, kafirlərlə - onların izdihamlı qoşunları sizə tərəf irəlilədiyi (ya siz onlara tərəf getdiyiniz) halda qarşılaşan zaman, onlara arxa çevirməyin (meydandan qaçmayın). Həmin gün – döyüşü davam etdirmək üçün başqa bir yer axtaran (yenidən hücum etmək üçün geri çəkilmə fəndi işlədən) və ya (döyüşçü) dəstəyə qoşulmaq üçün yeni bir mövqe seçən şəxs istisna olmaqla – onlara arxa çevirən kəs mütləq, Allahın qəzəbini özünə qoşmuşdur və onun sığınacağı Cəhənnəmdir. Ora pis bir dönüş yeridir**" (Ənfal surəsi, 15-16-cı ayələr). Buna əsasən, ayə ən uzağı döyüşdən qaçan möminlərin döyüşdən qaçma murdarlığından təmizlədildiyindən xəbər verir. Burada bütün döyüşdən qaçanlar deyil, məhz möminlər təmizlədilmişdir. Osman əl-Xəmisin yaxşı tanıdığı münafiqlər bu ayənin hökmünə daxil deyillər.

Elə isə bu ayədəki paklama hara, təthir ayəsində Əhli-Beytin (əleyhimussəlam) hər növ çirkinlikdən paklaşdırılmaları hara?!

Osman əl-Xəmisin iddia etdiyi "kisa əhlindən başqaları da pak edilmişdir" iddiası batil iddiadır. Onun bu iddianın isbatı üçün Qurani-Kərimdən gətirdiyi dəlillərin məsələyə heç bir aiddiyyatı yoxdur.

## Osman əl-Xəmis Allaha iftira ataraq Allahın bütün səhabələri çirkinliklərdən təmizlədiyini deyir

Osman əl-Xəmisin əcaib işlərindən biri də odur ki, o az əvvəl dediyi çirkinlikdən təmizləmənin bütün insanlara aid olması fikrinin ziddinə gedərək öz sözünü batil etmiş, bu dəfə çirkinlikdən təmizlənmənin Əhli-Beytə (əleyhimussəlam), Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımlarına və bütün səhabələrə aid olduğunu iddia etmişdir! Hörmətli oxucunun da gördüyü kimi, o təthir ayəsi barədə qəti bir qərara gələ bilmir, bir sözdən başqa bir sözə tullanır.

Deyir:

"Çirkinliyin təmizlənməsi onların Peyğəmbərdən sonra xəlifə olmaları mənasına gəlmir. Əksinə, biz qəti şəkildə inanırıq ki, Allah çirkinliyi Əlidən təmizləmişdir və buna görə də o, möminlərin mövlası olmuşdur. Eləcə də Həsən, Hüseyn, Fatimə, habelə Peyğəmbərin xanımları belədirlər. Məhz buna görədir ki, Allah Peyğəmbərin xanımlarını "möminlərin anaları" adlandıraraq onlar barəsində "**Peyğəmbərin xanımları möminlərin analarıdırlar**", - demişdir. Peyğəmbərin səhabələri də belədirlər (!). Allah az əvvəl qeyd etdiyimiz ayələrə əsasən, çirkinliyi onlardan da təmizləmişdir"[150].

Bununla Osman əl-Xəmis əvvəlki iddialarına növbəti bir iddia əlavə etmiş, Allahın səhabələri çirkinliklərdən təmizlədiyini iddia etmiş, beləcə səhabələrin məsum olduqlarını vurğulamışdır. Bunu isə nə bir müsəlman, nə də kafir deməmişdir. Bu səhabələrin keçdikləri həyat yolları, onlardan bir çoxunun mürtəkib olduqları günahlar, şəriətə zidd əməllər bu iddianın batilliyinə bir dəlildir. Habelə əhli-sünnə mənbələrində nəql olunan bir çox səhih hədislər sayları heç də az olmayan bir qrup səhabənin Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra əqidələrini dəyişəcəklərini və qiyamət günü Cəhənnəmə daxil olacaqlarını bildirir. Belə rəvayətlərə misal olaraq aşağıdakıları göstərə bilərik:

Buxari "Səhih"ində, Şaşi də "Müsnəd"ində[151] öz sənədləri ilə Əbu Vaildən belə nəql etmişlər (mətn Buxarinindir):

"Abdullah [ibn Məsud] dedi: Allah Rəsulu (sallallahu əleyhi və səlləm) buyurdu: "Mən hovuz başına sizdən tez çatacağam. Sizlərdən bir sıra şəxslər mənə göstəriləcəklər, lakin, ətrafımdan çəkilib aparılacaqlar. Mən "ey Rəbbim, əshabım, əshabım" deyəcəyəm. Bu zaman (mənə) deyiləcək: "Sən bilmirsən onlar səndən sonra nələr etdilər"."[152]

---

[150] "Tarixdən bir dövr": səh.192.
[151] "Müsnədüş-Şaşi": 2/42.
[152] "Səhihül-Buxari": 5/2404, hədis 6205, həmçinin: 6/2587, hədis 6642.

Buxari öz “Səhih”ində Əbu Hureyrədən belə nəql etmişdir:

“Allah Rəsulu (sallallahu əleyhi və səlləm) dedi: Qiyamət günü səhabələrimdən bir dəstə şəxs mənim yanıma gələcək. Lakin onları hovuz başından çəkib aparacaqlar. Bu zaman mən: “Ey Rəbbim! Əshabım!”, - deyəcəyəm. Rəbbim isə deyəcək: “Sən onların səndən sonra nə etdiklərini bilmirsən. Onlar (keçmişlərinə) geri dönüb mürtədd oldular”.”[153]

Həmçinin Əhməd ibn Hənbəl “Müsnəd”də, Əbu Yəla da öz “Müsnəd”ində Abdullah ibn Məsuddan belə nəql etmişlər (mətn Əhmədindir):

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: Mən hovuz başına sizdən tez çatacağam. Mən bir dəstə şəxslə mücadilə edəcəyəm, lakin məğlub olacağam. Bu zaman: “Ey Rəbbim, əshabım!”, - deyəcəyəm. Bu zaman Rəbbim deyəcək: “Sən bilmirsən onlar səndən sonra nələr etdilər”.”[154]

Həmçinin Müslim öz “Səhih”ində Əbu Hureyrədən belə nəql etmişdir:

“Mənim məsəlim od qalayan şəxsin məsəli kimidir. Od qalayan şəxsin qaladığı od ətrafı işıqlandırdığı zaman kəpənəklər və odun içərisində gördüyünüz bu həşəratlar özlərini oda atarlar. Həmin şəxs onları oddan çıxarmaq istəyər, lakin həşəratlar ona qalib gəlib özlərini oda atarlar. Mənim və sizin məsəliniz də belədir. Mən sizin kəmərlərinizdən tutub: “Gəlin, oddan çıxın!”, - deyəcək, siz isə mənə qalib gəlib, oda atılacaqsınız”.[155]

Elə isə bu şəxslər necə çirkinliklərdən təmizlənmiş olurlar? Çirkinlikdən təmizlənmiş olan Cəhənnəmə girər?!

## Təthir ayəsinin imamətə dəlaləti

Onun çirkinliklərin Əhli-Beytdən (əleyhimussəlam) uzaqlaşdırılmasının onların Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra xəlifə olmalarına dəlalət etmədiyini deməsinə gəlincə, buna cavabımız belədir ki:

Biz bu ayəni həzrət Əli ibn Əbu Talib (əleyhissəlam)-ın, habelə həzrət Həsən və həzrət Hüseyn (əleyhiməssəlam)-ın Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra xəlifə və imam olduqlarına dəlil gətirərkən, məhz iltizami dəlil növündən dəlil gətiririk.[156] Çünki bu şəxslər Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) xəlifəsi olduqlarını, ümmət üzərində imam olduqlarını iddia etmişlər. İndi ki, onlar məsumdurlar və belə bir iddia etmişlər, o zaman onların iddialarını təsdiq etməmiz lazım gəlir.

Bundan başqa, Allah tərəfindən pak edilmiş bir şəxs pak edilməmiş bir şəxsdən daha üstündür. Məsum olan şəxs Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) xəlifəsi olmaq məqamına hər kəsdən daha layiq, daha uyğun və daha yararlıdır. Çünki məsum olmayan şəxsə Allah-taalanın əhdi yetişməz, necə ki, Qurani-Kərim bunu açıqca bildirmişdir: “**Və (yadına sal) o zaman(ı) ki, Rəbbi İbrahimi bəzi işlərlə imtahana çəkdi. Beləliklə, o (İbrahim), hər şeyi kamil**

---

[153] “Səhihül-Buxari”: 5/2407.
[154] “Müsnədü-Əhməd”: 1/384, 406, 425, “Müsnədi-Əbu Yəla”: 1/126.
[155] “Səhihü-Müslim”: 4/1789.
[156] Üsuli-fiqh və məntiq elmlərində işlədilən bir termindir. Ətraflı izahla tanış olmaq üçün məntiq və üsuli-fiqh kitablarına müraciət etmək lazımdır. (Tərc.).

**surətdə yerinə yetirdi. Rəbbi dedi: "Həqiqətən, Mən səni insanlara imam və rəhbər təyin etdim." (İbrahim) dedi: "Övladlarımdan necə?" Dedi: "Mənim əhd-peymanım zalımlara nəsib olmaz**" (Bəqərə surəsi, 124-cü ayə). Bu mübarək ayə həyatı boyunca bircə an belə olsun zülmə bulaşan bir şəxsin əsla imam ola bilməyəcəyini bildirir. Ayə imamın məsum olması gərəkdiyinin, ömrü boyu heç vaxt zalım olmaması gərəkdiyinin vacib olduğunu isbat edir.

۞۞۞

# OSMAN ƏL-XƏMİSİN SƏQƏLEYN HƏDİSİ BARƏDƏ SƏSLƏNDİRDİYİ BATİL SÖZLƏRƏ CAVAB

## Osman əl-Xəmis səqəleyn hədisini zəif göstərməyə çalışır

Osman əl-Xəmis deyir:

"Səqəleyn hədisi budur: "Sizin aranızda elə bir şey qoyub gedirəm ki, ondan sarıldığınız müddətcə məndən sonra əsla azmayacaqsınız: Allahın kitabı və itrətim..."

Daha sonra kitabın haşiyəsində deyir:

"“Sünənüt-Tirmizi”, kitabul-mənaqib (fəzilətlər fəsli), babu-mənaqibi-əhlil-beyt (Əhli-Beytin fəzilətləri bölməsi), rəqəm: 3786. Hədisin sənədində Zeyd əl-Ənmati vardır. Hədisin bir neçə təriqi[157] vardır. Bu təriqlərin heç biri iraddan xali deyildir. Üstəlik mətnlər arasında da fərq vardır."

Sonra səhifənin özündə deyir:

"Şiələr bu hədisi dəlil gətirərək deyirlər ki, mömin şəxs Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) itrətinə sarılmalıdır. Sonra da deyirlər ki, əgər onlara sarılmaq vacibdirsə, deməli Peyğəmbərdən sonra xəlifə məhz onlar olmalıdırlar.

Bu fikirə bir neçə cəhətdən cavab verə bilərik".

Sonra deyir:

"Hədisin səhihliyi və həqiqətən də Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) tərəfindən deyilib-deyilməməsi barədə ixtilaf vardır. Müslimin kitabındakı hədisdə Qurandan sarılmaq əmr olunur, Əhli-Beyt barədə isə tövsiyə edilir. Müslimin kitabında gələn və Zeyd ibn Ərqəmdən nəql olunan o hədisdə deyilir ki, "Peyğəmbər Allahın kitabı barədə tövsiyə verib ona sarılmağı tapşırdı. Sonra dedi: Əhli-Beytim barədə sizə Allahı xatırladıram". Göründüyü kimi, sarılması əmr edilən şey Qurani-Kərimdir. Əhli-Beytə gəlincə isə, onlara qarşı diqqətli olmaq və Allahın onlara bəxş etdiyi haqları onlara vermək tapşırılır. Müslimin kitabında Cabirdən nəql olunan bir hədisdə deyilir ki, Peyğəmbər vida həccində xütbə edərkən belə buyurdu: "Sizin aranızda elə bir şey qoyub gedirəm ki, ondan yapışdığınız müddətcə azmayacaqsınız: Allahın kitabı". Göründüyü kimi, Əhli-Beytin adını çəkmir."[158]

**Deyirəm:** Osman əl-Xəmis qısa olaraq demək istəyir ki, səqəleyn hədisinin (Tirmizinin nəql etdiyi formada və Tirmizinin nəqli ilə oxşar formalarda) səhihliyi və onun həqiqətən də Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) tərəfindən deyilib-deyilməməsi barədə ixtilaf vardır. Başqa sözlə, hədisin Tirmizinin nəql etdiyi formada səhihliyi qəti olaraq sübuta yetməmişdir. Buna görə də şiələr bu hədisə əsaslana bilməzlər. Bu hədisin səhih olan şəkli Müslim ibn Həccacın öz "Səhih" kitabında nəql etdiyi şəkildir. Həmin rəvayətdə Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) yalnız Qurandan sarılmağa əmr etmiş, Əhli-Beytindən

---

[157] Təriq: hədisin sənədi, "filankəs filankəsdən, həmin şəxs filankəsdən, o da filankəsdən... nəql etdi" şəklində olan hissə. (Tərc.).

[158] "Tarixdən bir an": səh.202.

sarılmağa isə əmr etməmiş, əksinə ümmətinə onlar barədə tövsiyə edərək onlara ehtiram etmələrini, onların haqlarına riayət etmələrini tapşırmışdır.

Biz bu iddiaya bir neçə yöndən cavab verəcəyik:

## Birinci: Səqəleyn hədisi Tirmizinin və başqalarının nəql etdiyi formada səhihdir

Osman əl-Xəmisin Tirmizidən nəql etdiyi səqəleyn hədisi və habelə onunla oxşar formada olan digər hədislər çoxlu təriqlərlə nəql edilmiş, bir çox əhli-sünnə alimi bu hədisləri səhih hesab etmişlər. Biz bu alimlərin başında vəhhabilərin imamları olan Əlbanini qeyd edirik. Əlbani bir neçə kitabında səqəleyn hədisinin yuxarıda qeyd olunan formasını səhih hesab etmişdir. Belə kitablardan biri onun "Səhihu-sünənit-Tirmizi" kitabıdır. O, bu kitabda hədisi "Sünənüt-Tirmizi"dən nəqlən qeyd edərək demişdir:

"Cabir ibn Abdullah dedi: Vida həccində Ərəfə günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Qəsva adlı dəvəsinin üzərində xütbə etdiyini gördüm. Onun belə dediyini eşitdim: "Ey camaat! Mən sizin aranızda elə bir şey qoymuşam ki, əgər ondan yapışsanız, əsla azmasınız: Allahın kitabı və itrətim – Əhli-Beytim"."

Əlbani bunun ardınca demişdir: "**Səhihdir.** "əl-Mişkat": 6143. İkinci təhqiq."[159]

Həmçinin demişdir:

Həbib ibn Sabit və Zeyd ibn Ərqəm nəql edib dedilər:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: "Mən sizin aranızda elə bir şey qoyub gedirəm ki, ondan sarıldığınız müddətcə əsla azmayacaqsınız. Onların biri digərindən daha böyükdür. (Birincisi) səmadan yerə uzanmış bir ip olan Allahın kitabıdır. (İkincisi isə) İtrətim – Əhli-Beytimdir. Onlar hovuz başında mənim yanıma gələnədək əsla bir-birlərindən ayrılmayacaqlar. Baxın görün məndən sonra onlarla necə davranırsınız"."

Sonra Əlbani hədis barəsində belə demişdir: "**Səhihdir.** "əl-Mişkat": 6144. "ər-Raudun-nadir": 977-878. "əs-Səhihə": 4/356-357".[160]

Həmçinin İbn Həcər əl-Əsqəlani "əl-Mətalibul-aliyə bi-zəvaidil-məsanidis-səmaniyə" kitabında İmam Əli (əleyhissəlam)-ın fəzilətləri bölümündə bu hədisi İmam Əli (əleyhissəlam)-dan nəql etmiş və onu səhih hesab etmişdir:

"Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Xum adlanan yerdə ağaclıq bir məntəqəyə gəlib çatdı. Sonra Əlinin əlini tutaraq dedi: "Allahın sizin Rəbbiniz olduğuna şəhadət verirsiniz?" Camaat dedi: "Bəli". Peyğəmbər buyurdu: "Allah və Onun Rəsulu kimi mövlasıdırsa, bu da onun mövlasıdır. Mən sizin aranızda elə bir şey qoymuşam ki, əgər ondan yapışsanız, əsla azmasınız: bir ucu Allahın, bir ucu da sizin əlinizdə olan Allahın kitabı[161] və Əhli-Beytim"."

---

[159] "Səhihu-sünənit-Tirmizi": 3/543, hədis: 3786.

[160] "Səhihu-sünənit-Tirmizi": 3/544, hədis: 3788.

[161] Daha öncə də qeyd olunduğu kimi Qurani-Kərim səmadan yerə uzadılan bir ipə bənzədilmişdir. Yuxarıdakı cümlə də bu məzmunda gəlmişdir. Yəni bir ucu Allahın (məcazi mənada), bir ucu da sizin əlinizdə olan bir ipə bənzəyən Qurani-Kərimi və Əhli-Beytimi sizin aranızda qoyub gedirəm. (Tərc.).

İbn Həcər bunun ardınca: “**Bu, səhih sənəddir**”, - demişdir.[162]

İbn Həcər bu hədisi “əs-Səvaiqul-muhriqa” kitabında da səhih hesab etmişdir. Belə ki, demişdir:

“Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğu **səhih şəkildə** nəql edilmişdir: Mən sizin aranızda elə bir şey qoyub gedirəm ki, ona sarıldığınız müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və itrətim”.[163]

Həmçinin yenə eyni mənbədə demişdir:

“**Səhih** bir rəvayətdə belə gəlmişdir: Mən sizin aranızda iki şey qoyub gedirəm. Əgər onlara tabe olsanız, əsla azmayacaqsınız. Onlar Allahın kitabı və itrətim – Əhli-Beytimdir”.

Təbərani isə belə əlavə etmişdir:

“Mən onlar üçün (Allahdan belə) istədim. Elə isə onlardan önə keçməyin ki, həlak olarsınız. Onlardan geri qalmayın ki, həlak olarsınız. Onlara öyrətməyə çalışmayın, onlar sizdən daha elmlidirlər...”.[164]

Buseyri də “İthaful-xiyərətil-məhəra bi-zəvaidil-məsanidil-əşəra” kitabında bu hədisi səhih hesab etmişdir:

“Əli ibn Əbu Talibdən belə nəql olunmuşdur ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Xum adlanan yerdə ağaclıq bir məntəqəyə gəlib çatdı. Sonra Əlinin əlini tutaraq dedi: “Allahın sizin Rəbbiniz olduğuna şəhadət verirsiniz?” Camaat dedi: “Bəli”. Peyğəmbər buyurdu: “Allahın və Onun Rəsulunun sizə sizin özünüzdən övla[165] olduğuna və Allahın və Onun Rəsulunun sizin mövlanız olduğuna şəhadət verirsiniz?” Dedilər: “Bəli”. Peyğəmbər buyurdu: “Allah və Onun Rəsulu kimi mövlasıdırsa (kimə onun özündən övladırsa), bu da onun mövlasıdır (ona onun özündən övladır). Mən sizin aranızda elə bir şey qoymuşam ki, əgər ondan yapışsanız, əsla azmasınız: bir ucu Allahın, bir ucu da sizin əlinizdə olan Allahın kitabı və Əhli-Beytim”.

**Bunu İshaq səhih sənədlə nəql etmişdir.**”[166]

Bu hədisi Yaqub ibn Süfyan əl-Fəsəvi də “əl-Mərifətu vət-tarix” kitabında **səhih** sənədlə nəql etmişdir. O demişdir:

Bizə Yəhya nəql edib dedi: bizə Cərir Həsən ibn Ubeydullahdan, o, Əbud-Duhadan, o da Zeyd ibn Ərqəmdən nəql edib dedi:

Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mən sizin aranızda elə bir şey qoyub gedirəm ki, ona sarıldığınız müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və itrətim – Əhli-Beytim. Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar”.[167]

Sənəddəki ravilərin hamısı siqədirlər. “Yəhya”ya gəlincə, o, imam, hafiz Yəhya ibn Yəhya ibn Bukeyr ət-Təmimi əl-Minqəri ən-Nişapuridir. Siqədir

---

162 “əl-Mətalibul-aliyə”: 4/65, hədis: 3972.

163 “əs-Səvaiqul-muhriqa”: 2/428.

164 “əs-Səvaiqul-muhriqa”: 2/439.

165 Üstün, daha çox haqq sahibi. Yəni, “Allahın və Rəsulunun sizin üzərinizdə sizdən daha çox haqq sahibi olduğuna, sizə sizin özünzdən daha üstün olduğuna şəhadət verirsinizmi?”. Övla sözünün mənası barədə Qədir-Xum hədisi ilə bağlı şübhələr cavablandırılarkən ətraflı izah veriləcək.

166 “İthaful-xiyərətil-məhəra”: 9/279.

167 “əl-Mərifətu vət-tarix”: 1/536.

(güvənilir şəxsdir). Altı kitab müəlliflərindən Buxari, Müslim, Nəsai və Tirmizi ondan hədis nəql etmişdir.[168] "Cərir" Cərir ibn Əbdül-Həmid əd-Dabbi ər-Razidir. Siqədir. Altı kitab müəlliflərinin hamısı ondan hədis nəql etmişlər.[169] "Həsən ibn Ubeydullah" Əbu Urvə Həsən ibn Ubeydullah ibn Urvə ən-Nəxəidir. Siqədir. Buxaridən başqa digər beş müəllifin hamısı ondan hədis nəql etmişdir.[170] "Əbud-Duha" Müslim ibn Subeyhdir. Siqədir. Altı müəllifin hamısı ondan hədis nəql etmişdir. [171]

Həmçinin Şeyx Süleyman əl-Qunduzi əl-Hənəfi "Yənabiul-məvəddə" kitabında bu hədisi səhih hesab etmiş və demişdir:

"Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) belə buyurduğu **səhih şəkildə** nəql edilmişdir: "Mən sizin aranızda elə bir şey qoyub gedirəm ki, ona sarıldığınız müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və itrətim"."[172]

Həmçinin, əl-Qunduzi demişdir:

"Təbərani "əl-Kəbir"də raviləri **siqə** olan bir sənədlə belə nəql etmişdir: "Mən sizin aranızda iki xəlifə qoyub gedirəm: Allahın kitabı və Əhli-Beytim. Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar"."[173]

Həmçinin, Əhməd ibn Hənbəl də hədisi bu formada "Müsnəd" kitabında nəql etmişdir. Əhməd özünün "Müsnəd" kitabı barədə belə demişdir:

"Mən bu kitabı 750,000 hədisin içindən seçərək toplamışam. Müsəlmanlar Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) hansı hədisi barədə ixtilaf etsələr, bu kitaba müraciət edin. Əgər (ixtilaf etdikləri) həmin hədis bu kitabda olsa, onda heç, olmasa, deməli höccət deyildir".[174]

İndi ki, səqəleyn hədisi yuxarıda qeyd olunan şəkildə "Müsnəd" kitabında mövcuddur, deməli höccətdir. Həmin hədisdə deyilir:

Bizə İbn Numeyr nəql edib dedi: bizə Əbdül-Məlik ibn Əbu Süleyman Ətiyyə əl-Aufidən, o da Əbu Səid əl-Xudridən nəql edib dedi:

Mən sizin aranızda elə bir şey qoyub gedirəm ki, ona sarıldığınız müddətcə əsla azmayacaqsınız, (qoyub getdiyim həmin şey) iki ağır əmanətdir. Onların biri digərindən daha böyükdür: səmadan yerə uzanmış ip olan Allahın kitabı və itrətim – Əhli-Beytim. Bilin, onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar.[175]

Mahmud Şükri əl-Alusi özünün "Muxtəsərut-tuhfə" kitabında demişdir:

"Burada bir sıra olduqca faydalı məqamlar vardır. O (məqamlar) bundan ibarətdir ki, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm): "Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm, əgər onlardan yapışsanız, əsla azmayacaqsınız. Onların biri digərindən daha böyükdür: Allahın kitabı və itrətim –

---

168 "Təhzibül-kəmal": 8/102, rəqəm: 7538.
169 "Təhzibül-kəmal": 1/447, rəqəm: 901.
170 "Təhzibül-kəmal": 2/138, rəqəm: 1226.
171 "Təhzibül-kəmal": 7/100, rəqəm: 6523.
172 "Yənabiul-məvəddə": 2/432.
173 "Yənabiul-məvəddə": 1/120.
174 "Siyəru-ə`lamin-nubəla", Əhməd ibn Hənbəlin tərcümeyi-halı.
175 "Müsnədü-Əhməd": 3/59, hədis: 11578.

Əhli-Beytim" , - deyə buyurmuşdur. Bu hədis hər iki tərəf yanında: əhli-sünnə və şiələr yanında **sabit** bir hədisdir."[176]

Həmçinin İbn Cərir ət-Təbəri bu rəvayətin səhih olduğunu bildirmişdir. Onun hədisi səhih hesab etməsini Müttəqi əl-Hindi "Kənzul-ummal" kitabında nəql etmişdir. O demişdir:

Muhəmməd ibn Ömər ibn Əli atasından, o da Əli ibn Əbu Talibdən Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğunu nəql etmişdir: "Mən sizin aranızda elə bir şey qoydum ki, ondan sarıldığınız müddətcə əsla azmayacaqsınız: bir ucu Allahın, bir ucu da sizin əlinizdə olan Allahın kitabı və Əhli-Beytim." **Bunu İbn Cərir nəql etmiş və səhih hesab etmişdir**." [177]

Həmçinin Məhamili bu hədisi səhih hesab etmişdir. Bunu Cəlaləddin əs-Suyuti "Müsnədi-Əli" kitabında qeyd etmişdir:

"Əli ibn Əbu Talibdən belə nəql olunmuşdur ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Xum adlanan yerdə ağaclıq bir məntəqədə dayandı. Sonra Əlinin əlini tutaraq dedi: "Ey camaat! Allahın sizin Rəbbiniz olduğuna şəhadət verirsiniz?" Camaat dedi: "Bəli". Peyğəmbər buyurdu: "Allahın və Onun Rəsulunun sizə sizin özünüzdən daha üstün olduğuna və Allahın və Onun Rəsulunun sizin mövlanız olduğuna şəhadət verirsiniz?" Dedilər: "Bəli". Peyğəmbər buyurdu: "Allah və Onun Rəsulu kimi mövlasıdırsa, bu da onun mövlasıdır. Mən sizin aranızda elə bir şey qoymuşam ki, əgər ondan yapışsanız, əsla azmasınız: bir ucu Allahın, bir ucu da sizin əlinizdə olan Allahın kitabı və Əhli-Beytim. İbn Rahəveyh, İbn Cərir, İbn Əbu Asim və əl-Məhamili. **Əl-Məhamili bu hədisi səhih hesab etmişdir**."[178]

Həmçinin, Əllamə Həsən əs-Səqqaf "Səhihu-sifəti-salətin-Nəbi" kitabında bu hədisi səhih hesab etmiş və demişdir:

"Sünənüt-Tirmizi" kitabında (5/663, hədis: 3788) belə gəlmişdir: Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) buyurdu: Mən sizin aranızda elə bir şey qoyub gedirəm ki, ondan sarıldığınız müddətcə əsla azmayacaqsınız. Onların biri digərindən daha böyükdür. (Birincisi) səmadan yerə uzanmış bir ip olan Allahın kitabıdır. (İkincisi isə) İtrətim – Əhli-Beytimdir. Onlar hovuz başında mənim yanıma gələnədək əsla bir-birlərindən ayrılmayacaqlar. Baxın görün məndən sonra onlarla necə davranırsınız".

Bunun ardınca Əllamə Səqqaf demişdir: "**Bu, səhih hədisdir.**"[179]

Bu hədisi Təbərani də "əl-Mücəmül-kəbir" kitabında səhih sənədlə nəql etimişdir:

Bizə Əli ibn Əbdül-Əziz nəql edib dedi: bizə Əmr ibn əl-Aun əl-Vasiti nəql edib dedi: bizə Xalid ibn Abdullah Həsən ibn Ubeydullahdan, o, Əbud-Duhadan, o da Zeyd ibn Ərqəmdən nəql edib dedi:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: Allahın kitabı və itrətim – Əhli-Beytim.

---

[176] "Muxtəsərut-tuhfə": 52.
[177] "Kənzul-ummal": 1/379, hədis: 1650.
[178] "Müsnədi-Əli": 192, hədis: 605.
[179] "Səhihu-sifəti-salətin-Nəbi": səh.29.

Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar.[180]

Bu sənəddəki ravilər əhli-sünnə yanında "siqə" (güvənilir) şəxslərdirlər. "Əli ibn Əbdül-Əziz" həmin Hafiz əl-Bəğəvidir. Siqə və əmin şəxsdir.[181] "Əmr ibn əl-Aun əl-Vasiti" Əbu Osman əs-Suləmi əl-Bəzzardır. Hafizdir, səbtdir[182], siqədir, Buxarinin, Müslimin, Tirmizinin, Nəsainin, İbn Macənin və İbn Davudun ravilərindəndir.[183] "Xalid ibn Abdullah" Xalid ibn Abdullah ibn Əbdür-Rəhman ibn ət-Təhhan əl-Vasitidir. Hafizdir, səbtdir, siqədir. Altı müəllifin hamısı ondan hədis nəql etmişlər.[184] Sənəddəki digər ravilər barəsində də az əvvəl məlumat verildi.

Həmçinin, Təbərani "əl-Mücəmül-kəbir"də səhih sənədlə belə nəql etmişdir:

Bizə Əli ibn Əbdül-Əziz nəql edib dedi: bizə Əbu Ğəssan Malik ibn İsmayıl nəql edib dedi: bizə İsrail, Osman ibn əl-Muğeyrədən, o da Əli ibn Rəbiədən nəql edib dedi:

Zeyd ibn Ərqəm Muxtarın yanına daxil olarkən və ya çıxarkən onunla qarşılaşdım. Ona dedim: "Mənə səndən belə bir hədis çatıb ki, Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm): "Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: Allahın kitabı və itrətim", - dediyini eşitmisən. (Bu doğrudur)?" Dedi: "Bəli".[185]

Bu rəvayətin sənədindəki ravilərin hamısı siqə şəxslərdir. "Əli ibn Əbdül-Əziz" həmin Bəğəvidir ki, onun barəsində az əvvəl məlumat verildi. "Əbu Ğəssan Malik ibn İsmayıl" siqə və mutqindir[186]. Altı müəllifin hamısı ondan hədis nəql etmişlər.[187] "İsrail" İsrail ibn Yunis ibn Əbu İshaq əs-Səbiidir. Siqədir. Altı müəllifin hamısı ondan hədis nəql etmişlər.[188] Osman ibn əl-Muğeyrə siqə şəxsdir, Müslimdən başqa digər müəlliflər ondan hədis nəql etmişlər.[189] Əli ibn Rəbiə siqədir, altı müəllifin hamısı ondan hədis nəqt etmişlər.[190]

Qeyd etdiyimiz kimi, səqəleyn hədisi bir qədər fərqli cümlələrlə də nəql olunmuşdur, lakin bu cümlələrlə nəql olunan hədislər də bu iki ağır əmanətdən yapışmağın vacib olduğu mənasını çatdırır. Əhli-sünnə alimləri bu hədisləri də

---

180 "əl-Mucəmul-kəbir": 5/169, hədis: 4980.
181 "Lisanul-mizan": 4/241, rəqəm: 648.
182 Səbt: hədis nəql etməkdə dəqiq olan şəxs. (Tərc.).
183 "Təzkirətul-huffaz": 2/426, rəqəm: 434.
184 "Təqribüt-təhzib": 1/189, rəqəm: 1648, "Təzkirətul-huffaz": 1/259, rəqəm: 246.
185 "əl-Mucəmul-kəbir": 5/186, hədis: 5040. Bu hədisi Yaqub ibn Süfyan əl-Fəsəvi də İsrail yolu ilə nəql etmişdir ("əl-Mərifətu vət-tarix": 1/295): Bizə Ubeydullah ibn Musa nəql edib dedi: bizə İsrail Osman ibn əl-Muğeyrədən, o da Əli ibn Rəbiədən xəbər verib dedi: Zeyd ibn Ərqəm Muxtarın yanına daxil olmaq istəyərkən onunla qarşılaşdım. Ona dedim: "Mənə səndən bir hədis çatıb". Dedi: "Nədir o?" Dedim: "Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm): "Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: Allahın kitabı və itrətim", - dediyini eşitmisən?" Dedi: "Bəli". Fəsəvinin şeyxi olan Ubeydullah ibn Musa həmin Əbul-Əbsi Ubeydullah ibn Musa ibn Əbul-Muxtar Bazamdır. Siqədir.
186 "Mutqin": hafiz olan, hədisi dəqiq yadda saxlayan və ayıq olan (qəflətə düşməyən, unutmayan) şəxsə mutqin deyilir. (Tərc.).
187 "Təhzibül-kəmal": 27/86, rəqəm: 5727, "Təzkirətul-huffaz": 1/402, rəqəm: 404, "Təqribüt-təhzib": 1/516, rəqəm: 4624.
188 "Təzkirətul-huffaz": 1/214, rəqəm: 201, "Təhzibül-kəmal": 2/515, rəqəm: 402, "Təqribüt-təhzib": 1/104, rəqəm: 401.
189 "Təhzibül-kəmal": 19/497, rəqəm: 3864, "Təqribüt-təhzib": 1/387, rəqəm: 4520.
190 "Təqribüt-təhzib": 1/401, rəqəm: 4733, "Təhzibül-kəmal": 20/431, rəqəm: 4068.

səhih hesab etmişlər. Məsələn, “əl-Müstədrək ələs-sahiheyn” kitabında Hakim ən-Nişapuri belə nəql etmişdir:

Bizə Əbül-Hüseyn Muhəmməd ibn Əhməd ibn Teymim əl-Hənzəli əl-Bağdadi nəql edib dedi: bizə Əbu Qilabə Əbdül-Məlik ibn Muhəmməd əl-Rəqaşi nəql edib dedi: bizə Yəhya ibn Həmmad nəql edib dedi:

Həmçinin, mənə Əbu Bəkr Muhəmməd ibn Baləveyh və Əbu Bəkr Əhməd ibn Cəfər əl-Bəzzar nəql edib dedilər: bizə Abdullah ibn Əhməd ibn Hənbəl nəql edib dedi: mənə atam nəql edib dedi: bizə Yəhya ibn Həmmad nəql edib dedi:

Həmçinin, bizə Əbu Nadr Əhməd ibn Səhl əl-Fəqih nəql edib dedi: bizə Saleh ibn Muhəmməd əl-Hafiz əl-Bağdadi nəql edib dedi: bizə Xələf ibn Salim əl-Muxərrimi nəql edib dedi: bizə Yəhya ibn Həmmad nəql edib dedi: bizə Əbu Əvanə Süleyman əl-Əməşdən nəql edib dedi: bizə Həbib ibn Əbu Sabit Əbut-Tufeyldən, o da Zeyd ibn Ərqəmdən nəql edib dedi:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) həccətul-vidadan qayıdarkən Xum çölünə yetişdi[191]. Orada geniş qol-budaqları olan ağacların altlarının (tikanlardan) təmizlənməsinə göstəriş verdi. Sonra buyurdu: “Sanki çağırılmaq və çağırışa cavab vermək üzrəyəm. Mən sizin aranızda iki ağır əmanət qoydum. Onların biri digərindən daha böyükdür: Allahın kitabı və itrətim. Baxın görün məndən sonra onlar barədə necə davranırsınız. Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar.” Sonra dedi: “Allah (əzzə və cəll) mənim mövlamdır, mən də hər bir möminin mövlasıyam”. Sonra Əlinin əlini tutaraq dedi: “Mən kimin mövlasıyamsa, bu da onun vəlisidir. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.

Bunun ardınca Hakim demişdir: “**Bu, iki şeyxin şərtlərinə əsasən səhih hədisdir, lakin onlar bu hədisi geniş şəkildə nəql etməmişlər**”.[192]

İbn Kəsir demişdir:

Səhih hədisdə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Xum çölündə etdiyi xütbəsində belə dediyi sübuta yetmişdir: “Mən sizin aranızda iki ağır əmanət qoyuram: Allahın kitabı və itrətim.”[193]

İbn Kəsir Zəhəbinin bu hədisi səhih hesab etməsi ilə razılaşmış və demişdir:

Nəsai “Sünən” kitabında Muhəmməd ibn əl-Müsənnadan, o, Yəhya ibn Həmmad, o, Əbu Muaviyədən, o, əl-Əməşdən, o, Həbib ibn Əbu Sabitdən, o, Əbut-Tufeyldən, o da Zeyd ibn Ərqəmdən belə nəql etmişdir:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) həccətul-vidadan qayıdarkən Xum çölünə yetişdi. Orada geniş qol-budaqları olan ağacların altlarının (tikanlardan) təmizlənməsinə göstəriş verdi. Sonra buyurdu: “Sanki, çağırılmaq və çağırışa cavab vermək üzrəyəm. Mən sizin aranızda iki ağır əmanət qoydum. Onların biri digərindən daha böyükdür: Allahın kitabı və itrətim – Əhli-Beytim. Baxın görün məndən sonra onlar barədə necə davranırsınız. Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar.” Sonra dedi:

---

[191] “Xum” ərazinin adıdır. “Qədir” isə lüğəvi mənada seldən sonra yerdə qalan su parçaları, yaxud kiçik çay, yaxud bataqlıq anlamına gəlir. Su olan əraziyə “qədir” deyirlər. (Tərc.).

[192] “Müstədrək”: 3/118, hədis: 4576.

[193] “Təfsirü-İbn Kəsir”: 4/122.

“Allah (əzzə və cəll) mənim mövlamdır, mən də hər bir möminin mövlasıyam”. Sonra Əlinin əlini tutaraq dedi: “Mən kimin mövlasıyamsa, bu da onun vəlisidir. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”. Mən Zeydə dedim: “Sən bunu Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) eşitdin?” Dedi: “Ağacların altında kim var idisə, hamısı Peyğəmbəri öz gözü ilə gördü, qulağı ilə eşitdi”.

Bunun ardınca İbn Kəsir demişdir: “Bu rəvayəti bu şəkildə yalnız Nəsai nəql etmişdir. Şeyximiz Əbu Abdullah əz-Zəhəbi, “**Bu, səhih hədisdir**”, - demişdir.”[194]

Əlbani “Səhihul-camiis-sağir” kitabında demişdir:

“Mən sizin aranızda iki xəlifə qoyub gedirəm: səma ilə yer arasında uzanmış ip olan Allahın kitabı və itrətim – Əhli-Beytim. Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar. **Səhihdir**. Hm və Tb[195], Zeyd ibn Sabitdən nəqlən.”[196]

Cəmaləddin əl-Qasimi demişdir:

“**Səhih hədisdə** Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) xütbəsində buyurduğu sübuta yetmişdir: “Mən sizin aranızda iki ağır əmanət qoyuram: Allahın kitabı və itrətim.”[197]

Heysəmi “Məcməuz-zəvaid” kitabında demişdir:

“Zeyd ibn Sabitdən Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğu nəql edilmişdir: Mən sizin aranızda iki xəlifə qoydum: Allahın kitabı və itrətim – Əhli-Beytim. Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar.”

Sonra demişdir: “Bu hədisi Təbərani “əl-Kəbir”də nəql etmişdir. **Raviləri siqədir**”.[198]

Həmçinin demişdir:

“Zeyd ibn Sabitdən Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğu nəql edilmişdir: Mən sizin aranızda iki xəlifə qoyub gedirəm: səma ilə yer arasında – və ya: səmadan yerə – uzanmış ip olan Allahın kitabı və itrətim – Əhli-Beytim. Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar”. Sonra demişdir: “Bu hədisi Əhməd nəql etmişdir. **İsnadı ceyyiddir (çox yaxşı)**”.[199]

Əs-Səmhudi demişdir:

“Bu hədisi Təbərani “əl-Kəbir”də **siqə ravilər yolu ilə** nəql etmişdir. Onun mətni belədir: Mən sizin aranızda iki xəlifə qoyub gedirəm: Allahın kitabı və itrətim – Əhli-Beytim. Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar”.[200]

Həmçinin Əl-Əzhəri demişdir:

---

194 “əl-Bidayətu vən-nihayə”: 5/228, “əs-Sirətun-nəbəviyyə” (İbn Kəsir): 4/416.
195 “Hm” və “Tb” “Müsnədü-Əhməd” və “əl-Mucəmul-kəbir” kitablarının adlarının qısaldılmış formasıdır. (Tərc.).
196 “Səhihul-camiis-sağir”: 1/842, hədis: 2457.
197 “Məhasinut-təvil”: 4/307.
198 “Məcməuz-zəvaid”: 1/170.
199 “Məcməuz-zəvaid”: 9/256, “Müsnədü-Əhməd”: 8/138, hədis: 21634.
200 “Cəvahirul-iqdeyn”: 236.

“Şərik ər-Rəkindən, o, Qasim ibn Həssandan, o da Zeyd ibn Sabitdən belə nəql etmişdir: Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: Mən özümdən sonra sizin aranızda iki ağır əmanət qoyuram: Allahın kitabı və itrətim. Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar”. Sonra əl-Əzhəri demişdir: “Muhəmməd ibn İshaq demişdir: **Bu, həsən və səhih hədisdir.**”[201]

Əgər səqəleyn hədisinin Tirmizinin nəql etdiyi şəklinin səhihliyi barədə məzhəb alimlərinin bütün sözlərini qeyd etmək istəsək vaxt çox uzanar. Bu, səhihliyi barədə heç bir şübhə olmayan sübuta yetmiş bir hədisdir. Səqəleyn hədisi çoxlu sənədlərlə nəql edilmişdir. Bu sənədlərin bəzisi səhih, bəzisi də həsəndir. Əhli-sünnənin böyük alimləri bu hədisin səhihliyinə hökm vermiş, onu qəbul etmişlər.

Bununla Osman əl-Xəmisin dediyi “hədisin səhihliyi və həqiqətən də Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) tərəfindən deyilib-deyilməməsi barədə ixtilaf vardır” sözünün batilliyi aydın olur.

Osman əl-Xəmis özünün hədis elmindən agah olduğunu, bu sahədə mütəxəssis olduğu iddia edir. Əgər belədirsə, deməli o bu mənbələrin hamısı ilə və ya böyük əksəriyyəti ilə tanışdır, ən azından şeyxi Əlbaninin hədisi səhih hesab etməsi ilə tanış olmalıdır. Əgər tanışdırsa, lakin bu sözləri deyirsə, o zaman aydın olur ki, onun hədisi zəif aldandırması, məhz onun şəxsi qərəzindən və qəlbindəki xəstəlikdən qaynaqlanır.

Habelə onun hədisin həqiqi formasının məhz Müslimin nəql etdiyi forma olduğunu göstərməyə çalışması saxtakarlıqdan başqa bir şey deyil.

Budurmu Osman əl-Xəmisin iddia etdiyi “Əhli-Beyt məhəbbəti”? Budurmu “Əhli-Beytin haqqını kamil şəkildə ödəmək və onların haqlarından heç bir şeyi əskiltməmək”?![202]

Onların fəzilətləri və üstünlükləri barədə gələn səhih və sabit bir hədisin səhihliyini və sabitliyini bilə-bilə onu inkar etmək, onu qeyri-sabit adlandırmaq Əhli-Beytə məhəbbət və onların haqqlarını ödəmək sayılır?!

Əhli-Beytlə (əleyhimussəlam) düşmənçilik edən şəxsdən başqa kim belə bir iş görər?

## İkinci: Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) səqəleyn hədisində Qurandan və Əhli-Beytdən (əleyhimussəlam) sarılmağa əmr etmişdir

Osman əl-Xəmis deyir:

“Müslimin kitabında Cabirdən nəql olunan bir hədisdə deyilir ki, Peyğəmbər vida həccində xütbə edərkən belə buyurdu: “Sizin aranızda elə bir şey qoyub gedirəm ki, ondan yapışdığınız müddətcə azmayacaqsınız: Allahın kitabı”. Göründüyü kimi, Əhli-Beytin adını çəkmir...”

---

201 “Təhzibul-luğə”: 2/264.

202 Osman əl-Xəmis Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) itrətinin ardınca gedənlərin, onların haqqlarını kamil şəkildə ödəyənlərin və onların haqqlarından heç bir şeyi əskiltməyənlərin məhz özləri olduğunu iddia etmişdir! Demişdir: “Xeyr! Bizik Peyğəmbərin itrətinə tabe olanlar. Onların haqqlarını heç bir şeyi artırıb-azaltmadan ödəyənlər bizlərik”. (“Hiqbətun minət-tarix”: səh.240).

**Buna cavabımız:**

*Birinci:* Bu söz saxtakarlıq üzərinə saxtakarlıqdır. Bu sözü İbn Teymiyyədən və Osman əl-Xəmisdən qabaq heç kəs deməmişdir. Çünki səqəleyn hədisini oxuyan və onun müxtəlif formalarına nəzər salan şəxs Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) bu hədisi bir neçə dəfə – bir dəfə Taifin fəthi zamanı, bir dəfə Mədinədə, bir dəfə vida həccində, bir dəfə xəstəliyi zamanı... təkrarladığını və bu zaman hər iki əmanətdən sarılmağa əmr etdiyini başa düşər.

İbn Həcər "əs-Səvaiqul-muhriqa" kitabında səqəleyn hədisi barədə danışarkən deyir: "Bil ki, bu hədisin çoxlu təriqləri vardır. Bu hədis iyirmidən çox səhabədən nəql edilmişdir... Təriqlərin birində Peyğəmbərin bu hədisi vida həccində, Ərəfə günündə dediyi gəlmişdir. Başqa birində o Həzrətin bu hədisi Mədinədə xəstə olarkən və otağı səhabələrlə dolu olarkən dediyi gəlmişdir. Başqa birində isə Qədir-Xumda dediyi gəlmişdir. Başqa birində də Taifdən dönərkən xütbə etdiyi zaman dediyi gəlmişdir. Lakin bu deyilənlər arasında ziddiyyət yoxdur. Çünki Peyğəmbərin Qurani-Kərimin və pak itrətin məqamına diqqət göstərməsi səbəbindən bu sözü bu və digər yerlərdə təkrar etməsində bir maneə yoxdur."[203]

Rafei "ət-Tədvin" adlı kitabında demişdir:

"Əhməd ibn Məymun Muhəmməd ibn Mudandan, həmçinin onun nəvəsi Əbül-Həsən Əhməd ibn Muhəmməd ibn Əhməd ibn Məymun ondan, o, Muhəmməd ibn Həccacdan nəql etmişlər ki, (Muhəmməd ibn Mudan və Muhəmməd ibn Həccac) demişlər: bizə Muhəmməd ibn Mehran nəql edib dedi: *bizə Hatim ibn İsmayıl Cəfər ibn Muhəmməddən, o, atasından, o da Cabirdən nəql edib dedi*:

Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) vida həcci vaxtı öz Qəsva adlı dəvəsinin üzərində, ərəfə günündə belə dedi: "Ey camaat! Mən sizin aranızda elə bir şey qoydum ki, ondan sarıldığınız müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və itrətim – Əhli-Beytim"."[204]

Həmçinin Tirmizinin Zeyd ibn Həsən əl-Ənmati[205] yolu ilə nəql edib "həsən" hesab etdiyi hədis və başqa hədislər də buna misaldır.

---

203 "əs-Səvaiqul-muhriqa": 2/440.

204 "ət-Tədvin": 2/266.

205 İbn Hibban onun adını "əs-Suqat" (güvənilir şəxslər) kitabında qeyd etmişdir. İshaq ibn Rahəveyh, Səid ibn Süleyman və Əl ibn əl-Mədini kimi bir çox əhli-sünnə alimləri ondan hədis nəql etmişlər. Əbu Hatim isə onun barəsində "munkərul-hədisdir" demişdir. Lakin onun bu sözü mötəbər deyildir. Çünki əl-Ənmatinin hədislərindəki münkərlik (münkərlik - bəyənilməzlik, bəyənilməz məqam – müt.) ravinin özündən qaynaqlana bildiyi kimi, onun hədis nəql etdiyi şəxslərdən, habelə ondan hədis nəql edən şəxslərdən də qaynaqlana bilər. Həmçinin, bu sözün mötəbər olmamasının digər bir səbəbi müxaliflərin hədislərə münkərlik hökmü verərkən yanlış meyarlara əsaslanmalarıdır. Onlar öz üsuluddin və ya füruddinləri ilə uyğun gəlməyən bir hədis gördükləri zaman həmin hədisə və ya onun ravisinə münkər hökmü verirlər. Onlar Əhli-Beyt (əleyhimussəlam) barədə nəql olunan bir çox hədislərə, xüsusən də Əhli-Beytin (əleyhimussəlam) başqa şəxslərdən (xüsusilə Əbu Bəkr, Ömər və Osmandan) üstünlüyün çatdıran və ya Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra ümmətin rəhbərliyinin onlara aid olduğunu bildirən hədislərə "münkər" (bəyənilməz, içində bəyənilməzlik olan), həmin hədisi nəql edən şəxsə də "münkərul-hədis" (hədisləri münkər olan şəxs) damğası vururlar. Bəli, Zəhəbi və İbn Həcər onun zəif olduğuna hökm etmişlər. Lakin onların sözləri də mötəbər sayılmaz. Çünki onlar son dövrün alimləridirlər və onların verdikləri hökm ictihaddan başqa bir şey deyildir. Onlar verdikləri hökmün dəlilini və qaynağını göstərməmiş, bu hökmü verdikləri zaman nəyə əsaslandıqlarını bildirməmişlər. Bu səbəbdən onların sözləri də qüvvədən düşmüş salıyır. Buna əsasən, ravi nöqsansız olur və rəvayətləri mötəbər sayılır. Tirmizi onun bu hədisini "**həsən**" hesab etmişdir.

Daha öncə səqəleyn hədisinin bir çox nümunəsi qeyd olundu. Həmin hədislər açıq-aşkar şəkildə həm Qurana, həm də itrətə (əleyhimussəlam) sarılmağa əmr edildiyinə dəlalət edir.

Bununla Osman əl-Xəmisin "Peyğəmbər Əhli-Beytdən deyil, yalnız Qurandan sarılmağa əmr etmişdir" – deyərkən necə yalan dediyi məlum olur.

*İkincisi:* Nəyə görə Müslimin rəvayəti naqis və ya kəsilmiş[206] olmur?

Müslim ibn Həccac bu hədisi Hatim ibn İsmayıl yolu ilə İmam Cəfər ibn Muhəmməd əs-Sadiq (əleyhisssəlam)-dan, o həzrət atası İmam Baqir (əleyhissəlam)-dan, o həzrət də Cabir ibn Abdullah əl-Ənsaridən (Allah ondan razı olsun) nəql edib. Biz Hatim ibn İsmayıl barədə nə deyildiyini bir kənara qoyuruq (hansı ki, onun barəsində deyilənlər onun rəvayətinə önəm verilməməsi üçün kifayət edər. Onun barəsində: "Vəhm (xəta) edirdi"[207], həmçinin: "Onda qəflət var",[208] - deyilmişdir. Həmçinin, Əli ibn əl-Mədininin dediyi kimi, İmam Cəfər əs-Sadiq (əleyhissəlam)-dan mürsəl hədislər nəql edirmiş[209]. Həmçinin, Nəsai onun barəsində: "Güclü deyildir",[210] - demişdir.). Bütün bunları bir kənara qoyaraq deyirik: Az əvvəl səqəleyn hədisini Rafeinin "ət-Tədvin" kitabından nəql etdik. Həmin hədisin sənədi Hatim ibn İsmayıl → Cəfər ibn Muhəmməd (əleyhissəlam) → atası (əleyhissəlam) → Cabir ibn Abdullah (Allah ondan razı olsun) şəklində idi. Orada "*Mən sizin aranızda elə bir şey qoydum ki, ondan sarıldığınız müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və itrətim – Əhli-Beytim*" cümləsi işlənmişdi. Halbuki hədis eyni sənədlə Müslimin kitabında da nəql ediir, lakin cümləri fərqli şəkildədir!

Bununla aydın olur ki, Müslimin hədisi yarımçıq və naqisdir. Hədisin ravilərindən biri Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) Əhli-Beyti (əleyhimussəlam) ilə bağlı vəsiyyətini kəsmişdir.

Hətta biz Müslimin hədisinin naqis olmadığını fərz etsək belə, bu, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) bir yerdə Qurandan sarılmağa əmr edib başqa yerlərdə Qurandan və itrətdən birlikdə sarılmağa əmr etməsi ilə ziddiyyət təşkil etmir. Bu, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) itrətdən sarılmağa əmr etməsinin batilliyinə dəlil sayıla bilməz. Çünki itrətdən sarılmağa əmr edilməsi məsələsi səhih hədislərlə sübuta yetmişdir.

Lakin Osman əl-Xəmis Müslimin hədisindən sui-istifadə edərək qondarma bir iddia ortaya atmış, səqəleyn hədisinin Tirmizinin nəql etdiyi formada və ona yaxın formalarda səhihliyinin şübhəli məsələ olduğunu bildirmişdir. O bununla oxucuda belə bir fikir formalaşdırmağa çalışmışdır ki, güya Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Quranla birgə itrətdən sarılmağa əmr etməmiş, yalnızca Qurandan sarılmağı əmr etmişdir! O bu hərəkəti ilə Əhli-Beyt (əleyhimussəlam) barədə Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) gəlib çatan səhih hədisləri təhrif etməyə çalışan, əhli-sünnə alimlərinin bu hədisləri səhih bildiklərini

---

[206] "Kəslimiş" deyərkən rəvayətin müəyyən hissəsinin bilərəkdən kəsilib çıxarılması, qeyd olunmaması nəzərdə tutulur. (Tərc.).

[207] "Təqribüt-təhzib": 1/144.

[208] "əl-Cərhu vət-tədil": 3/258, "Mizanül-itidal": 1/428.

[209] "Təhzibüt-təhzib": 2/110.

[210] "Mizanül-itidal": 1/428, "Təhzibüt-təhzib": 2/110.

görməzdən gələn nasibilərin (Allah onları zəlil-xar etsin) yolu ilə addımlamışdır. Lakin Allaha həmd olsun ki, məqsədinə çata bilməmişdir.

### Üçüncü: Alimlər hətta Müslimin hədisindən belə itrətdən yapışmağın vacib olduğunu başa düşmüşlər

Hətta Müslimin nəql etdiyi səqəleyn hədisi belə açıq-aşkar şəkildə buna dəlalət edir ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Osman əl-Xəmisin, İbn Teymiyyənin və digər nasibi yolu ilə gedən şəxslərin başa düşdükləri kimi təkcə Qurandan deyil, Quran və itrətdən birlikdə yapışmağı əmr etmişdir. Əhli-sünnə alimləri hədisdən məhz bu mənanı başa düşmüşlər. Onlar bu hədislə digər hədislər arasında dəlalət baxımından fərq görmür, bu hədislərin hər ikisinin Quran və itrətdən sarılmağın vacibliyini çatdırdığını bildirirlər. Onların sözlərindən bəzi misallar qeyd edək:

Təftəzani "Şərhul-məqasid" kitabında demişdir:

"Allah Rəsulu (aleyhis-salətu vəs-səlam) buyurmuşdur: "Mən sizin aranızda elə bir şey qoydum ki, ondan sarıldığınız müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və itrətim – Əhli-Beytim". Həmçinin buyurmuşdur: "Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: (birincisi) Allahın kitabıdır ki, onda hidayət və nur vardır. Elə isə Allahın kitabını götürün və ondan yapışın. (İkincisi) Əhli-Beytimdir. Əhli-Beytim barədə sizə Allahı xatırladıram, Əhli-Beytim barədə sizə Allahı xatırladıram".

Bu cür hədislər Əhli-Beytin alimlər və digər şəxslər üzərində üstünlüklərindən xəbər verir... Çünki onlar elmə, təqvaya və nəsəb şərəfinə sahibdirlər. Məgər görmürsən ki, Peyğəmbər (aleyhis-salətu vəs-səlam) sarılma məsələsində onları Allahın kitabı ilə bir tutmuş, onlardan sarılmanın zəlalətdən qurtulma vasitəsi olduğunu bildirmişdir? Kitabdan yapışmanın mənası onda olan elm və hidayəti götürmək, onlardan istifadə etməkdir. İtrət də belədir.[211] Buna görədir ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) buyurmuşdur: Kimin elmi onu yubatsa, nəsəbi ona sürət verməz.[212]"[213]

Şəvkani "Peyğəmbərin ailəsi bütün ümmətdir" deyən şəxslərə rəddiyyə verərkən demişdir:

"..."Al" (ailə) sözünün bütün ümmətə aid edilə bilməz. Bunun səbəbi "mən sizin aranızda elə bir şey qoydum ki, ondan sarıldığınız müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və itrətim – Əhli-Beytim" hədisidir. Bu hədis "**Səhihü-Müslim**"də və başqa kitablarda gəlmişdir. Əgər "al" sözündən məqsəd bütün ümmət olsaydı, o zaman sarılmaq əmri verilən kəslər də, ona sarılmasına əmr edilən şey də eyni olardı. Bu isə batildir".[214]

Muhibiddin ət-Təbəri özünün "Zəxairul-uqba" əsərində "Əhli-Beytin fəziləti barədə, onlardan və Allahın kitabından sarılmağa, Peyğəmbərdən sonra onlarla yaxşı davranmağa əmr edilməsi barədə bab" adından bir başlıq qeyd etmiş, bu

---

[211] Onlardan da yapışmanın mənası onlarda olan elm və hidayəti götürmək, onlardan istifadə etməkdir. (Tərc.).
[212] Yəni, kimin əməli ona bir fayda verməsə, nəsəbi ona heç bir fayda verməz. (Tərc.).
[213] "Şərhul-məqasid": 5/303.
[214] "Neylul-əvtar": 2/328.

başlıq altında səqəleyn hədisini “Sünənüt-Tirmizi”yə və “Səhihü-Müslim”ə istinadən nəql etmişdir.[215]

Həmçinin, Hafiz əs-Səxavi əş-Şafei demişdir:

“Mən İbn əl-Cəvzinin səqəleyn hədisini “əl-İləlul-mutənahiyə” kitabında gətirməsinə təəccübləndim. Bundan daha da təəccüblüsü onun: “Bu, səhih hədis deyil”, - deməsidir! Halbuki, bu hədisin təriqləri bir qədər sonra qeyd ediləcək, bu təriqlərdən biri “**Səhihü-Müslim**”dədir...”[216]

Şeyx Muhəmməd Əmin Muhəmməd Məin özünün “Dirasətul-ləbib fil-usvəti bil-Həbib” adlı kitabında demişdir:

“Biz Əhli-Beyt barədə - Allah-taalanın salamı olsun onların hamısının üzərinə - məşhur sarılma hədisinin (nəql edildiyini) gördük. Biz bu hədisi nəql edən şəxsləri araşdırdıq, birdən qarşımıza Əbül-Həsən Müslim ibn Həccac əl-Qişri çıxdı. O öz “Səhih” kitabında bu hədisi belə nəql etmişdir...” Bundan sonra səqəleyn hədisini Müslimin nəqli əsasında qeyd etmişdir.

Həmçinin demişdir:

“Biz hədisə nəzər saldıq və onun açıq-aşkar şəkildə Əhli-Beytdən sarılmaqdan bəhs etdiyini, onlara tabe olmanın eyniylə Qurana tabe olmaq kimi olduğunu, bu işin Allah tərəfindən olan qəti bir iş olduğunu; Əhli-Beytin hovuz başına çatana qədər əsla Qurana müxalifət etməyəcəklərini bildirdiyini gördük. Biz bu hədisdə ən bəlağətli şəkildə Qurana və Əhli-Beytə sarılmağa əmr edildiyini gördük.”

Daha sonra Müslimin hədisini şərh edərək demişdir:

“Peyğəmbərin üç dəfə təkrar etdiyi “Əhli-Beytim barədə sizə Allahı xatırladıram” cümləsində Əhli-Beytdən sarılmaq vurğulanmış, onların sözlərinə, əməllərinə, davranışlarına və fətvalarına qarşı etinasızlıq etmək, habelə onların nəzərlərini qəbul etməmək qadağan edilmişdir.” [217]

**Nəticə:** Siz hədisin “Səhihü-Müslim”dən fərqli kitablarda gələn nəqllərinin Quran və itrətdən (əleyhimussəlam) sarılmağın vacibliyini çatdırdığını, həmçinin əhli-sünnə alimlərinin hətta Müslimin hədisindən belə səqəleynin hər ikisindən yapışmanın vacibliyini başa düşdüklərini gördünüz. Bütün bunlardan sonra Osman əl-Xəmis və onun kimilərinin Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) etiraz edib: “Sən bizə itrətdən yapışmağı əmr etməmişdin!”, - demək üçün bir üzürləri qalmır.

## Səqəleyn hədisi hansı məqamlara dəlalət edir?

Səqəleyn hədisi hər bir müsəlman üçün olduqca önəmli olan bir neçə məsələyə dəlalət edir:

### Birinci: Qurani-Kərimdən və pak itrətdən sarılmaq vacibdir

Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) onlara sarılmağı zəlalətdən qurtaran amil hesab etmişdir. Əgər bir şəxsdən yapışmaqla zəlalətdən amanda

[215] “Zəxairul-uqba”: 16.
[216] “İsticlabu-irtiqail-ğərəf”: səh.83.
[217] “Dirasətul-ləbib”: 231-232.

qalınırsa, deməli həmin şəxsə sarılmaq vacibdir. Əhli-Beytə (əleyhimussəlam) sarılmanın mənası İslamı və Quranı onlardan öyrənmək, onlara itaət etmək, onların əmr və qadağalarına tabe olmaqdır. Bunu şiədən qabaq – həva-həvəs əhli olan şəxslər istisna olmaqla – əhli-sünnən alimləri başa düşmüşlər.

Mənavi demişdir:

"Peyğəmbərin "mən sizin aranızda..." sözündə Quran və Əhli-Beytin iki əkiz kimi olduqlarına işarə, hətta açıq-aydın dəlalət vardır. Bu hədis açıqca bildirir ki, Peyğəmbər onları özündən sonra qoyub getmiş, ümmətinə onlarla yaxşı davranmağı, onların hüquqlarını öz hüquqlarından üstün tutmağı və dində onlardan yapışmağı tapşırmışdır".[218]

Taftazani demişdir:

"Məgər görmürsən ki, Peyğəmbər (aleyhis-salətu vəs-səlam) sarılma məsələsində onları Allahın kitabı ilə bir tutmuş, onlardan sarılmanın zəlalətdən qurtulma vasitəsi olduğunu bildirmişdir? Kitabdan yapışmanın mənası onda olan elm və hidayəti götürmək, onlardan istifadə etməkdir. İtrət də belədir".[219]

Molla Əli əl-Qari demişdir:

"Əhli-Beytdən yapışmaqdan məqsəd, onların məhəbbətlərinə sarılmaq, onların ehtiramlarını saxlamaq, onların rəvayətlərinə əməl etmək və onların sözlərinə etimad etməkdir."[220]

Şeyx Muhəmməd Əmin demişdir:

"Peyğəmbərin üç dəfə təkrar etdiyi "Əhli-Beytim barədə sizə Allahı xatırladıram" cümləsində Əhli-Beytdən sarılmaq vurğulanmış, onların sözlərinə, əməllərinə, davranışlarına və fətvalarına qarşı etinasızlıq etmək, habelə onların nəzərlərini qəbul etməmək qadağan edilmişdir".

Həmçinin demişdir:

"Biz hədisə nəzər saldıq və onun açıq-aşkar şəkildə Əhli-Beytdən sarılmaqdan bəhs etdiyini, onlara tabe olmanın eyniylə Qurana tabe olmaq kimi olduğunu, bu işin Allah tərəfindən olan qəti bir iş olduğunu; Əhli-Beytin hovuz başına çatana qədər əsla Qurana müxalifət etməyəcəklərini bildirdiyini gördük. Biz bu hədisdə ən bəlağətli şəkildə Qurana və Əhli-Beytə sarılmağa əmr edildiyini gördük." [221]

İbn əl-Məlik demişdir:

"Kitaba sarılmanın mənası kitabda olanlara əməl etmək, Allahın əmr etdiklərini yerinə yetirib qadağan etdiklərindən çəkinməkdir. İtrətə sarılmanın mənası isə onları sevmək, onların getdikləri yola tabe olmaqdır".[222]

Əllamə Səqqaf demişdir:

"Əhli-Beytdən yapışmaq və onlara sarılmaq dedikdə onları sevmək, onlara ehtiram etmək, onlara qarşı ədəbli olmaq, onların yolu ilə addımlamaq, onların

---

[218] "Feyzul-qədir": 2/174.
[219] "Şərhul-məqasid": 5/303.
[220] "Tuhfətül-əhvəzi": 10/196.
[221] "Dirasətul-ləbib": 231-232.
[222] "əl-Mirqat fi şərhil-mişkat": 5/600.

rəvayətlərinə əməl etmək, onların fikirlərinə, sözlərinə və ictihadlarına etimad etmək, bu məsələdə onları başqalarından önə keçirmək nəzərdə tutulur”.[223]

### İkinci: Nicat tapmağın yeganə yolu Qurana və itrətə sarılmaqdır

Bu, səqəleyn hədisindən açıq-aydın başa düşülür. Qurana və pak itrətə sarılmadığı müddətcə ümmətin heç bir fərdi üçün nicat və qurtuluş yoxdur. Nicat tapan firqə məhz Rəbbinə və Peyğəmbərinə (sallallahu əleyhi və alihi və səlləm) tabe olub bu iki əmanətdən yapışan firqədir.

Əgər onlara sarılmadığı təqdirdə insan zəlalətə düşməsəydi, yaxud zəlalətə düşməmək üçün onlardan başqa birisinə də sarılmaq lazım gəlsəydi, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) mütləq bunu bəyan edərdi. Lakin, Peyğəmbər zəlalətdən qurtulmağın şərti olaraq yalnız bu iki əmanəti qeyd etmişdir! Bu isə ona dəlalət edir ki, bu yoldan başqa bütün yollar zəlalət yoludur.

### Üçüncü: Peyğəmbər itrəti günahdan, səhvdən və xətadan məsumdur

Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) onlara sarılmağa əmr etməsi onların məsum olduqlarını xəbər verir. Çünki Allahın və Rəsulunun günah, səhv və xəta etməsi ehtimal olunan şəxslərdən yapışmağa əmr etməsi mümkün deyil. Əgər onlar məsum olmasaydılar, onda onlara yapışmaq insan üçün azdırıcı ola bilərdi. İndi ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) heç bir qeyd-şərt olmadan mütləq şəkildə onlara sarılmağa əmr edib, başa düşürük ki, onlardan sarılmaq əsla azdırıcı deyil, əksinə mütləq şəkildə hidayətdir. Kimdən sarılmaq daimi və mütləq hidayətdirsə, deməli həmin şəxs məsumdur.

Bundan başqa, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) səqəleyn hədisində Əhli-Beytin (əleyhimussəlam) Qurani-Kərimdən əsla ayrılmayacaqlarını bildirmişdir: “**Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar**”. Əgər onların günah, xəta və səhv edə bilmələrinin mümkün olduğunu desək, o zaman onların Qurandan ayrılmaları mümkün olmasını demiş olarıq. Bu da məlum məsələdir ki, batildir.

Tofiq Əbu Əli səqəleyn hədisini qeyd etdikdən sonra demişdir:

“Səqəleyn hədisi Peyğəmbər hədisləri arasında ən güclü və ən çox yayılmış hədislərdəndir. Alimlər bu hədisə böyük diqqət ayırmışlar. Çünki o, İslam etiqadının mühüm bir hissəsini özündə ehtiva edir. Bu hədis şiələrin imamətin yalnız Əhli-Beytə məxsus olması mövzusunda, habelə Əhli-Beytin xətalardan və yanlışlıqlardan məsum olduqları məsələsində əsaslandıqları ən mühüm dəlillərdəndir. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Əhli-Beyti önündən və arxasından batilin yol tapa bilmədiyi Qurani-Kərimlə bir tutmuşdur. Onların biri digərindən ayrılmır. Təbiidir ki, din hökmlərinə müxalif olan hər hansısa bir iş görmək Qurani-Kərimdən ayrılmaq sayılır. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) də onların hovuz başına çatıncayadək əsla bir-birlərindən ayrılmayacaqlarını bildirmişdir. Buna əsasən, hədis açıq-aşkar şəkildə

[223] “Səhihu-şərhil-əqidətit-təhaviyyə”: səh.654.

məsumluğa dəlalət edir. Peyğəmbər bu hədisi bir çox yerlədə təkrar etmişdir. Çünki bu hədis ümmətin Əhli-Beytə yapışıb nə onlardan önə, nə də arxaya keçmədiyi müddətcə qorunacağından, doğru yolda olacağından, etiqadi və digər sahələrdə azğınlığa düşməyəcəyindən bəhs edir."[224]

**Dördüncü: Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra ən elmli şəxslər onlardırlar**

Səqəleyn hədisi Əhli-Beytin (əleyhimussəlam) Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra ən elmli şəxs olduqlarına dəlalət edir. Çünki Peyğəmbər onları Quranın həmtayı qərar vermiş, onların Qurandan ayrılmayacaqlarını söyləmiş, nə onların, nə də onlara sarılan şəxslərin əsla azğınlığa düşməyəcəyini bildirmişdir. Bu onu göstərir ki, Əhli-Beyt (əleyhimussəlam) heç kəsin sahib olmadığı məsumluğa, ilahi inayətə (diqqət və qayğıya) və elmə sahibdirlər. Onlar Qurana və sünnəyə başqalarından daha agahdırlar. Onlar "**Sonra Biz bu kitabı bəndələrimizdən seçdiklərimizə miras verdik. Onlardan bəzisi (ümmətin günahkarları) özünə zülm edər, bəzisi mötədil, bəzisi isə Allahın izni ilə bütün xeyirlərdə irəli keçənlərdir. (Bəli) bu, böyük lütfdür**" (Fatir surəsi, 32-ci ayə) ayəsindəki "bütün xeyirlərdə irəli keçənlər"dirlər.

Səmhudi demişdir:

"Qurani-Kərim və pak itrətin hər ikisi dini elmlərin, sirlərin və şəri hikmətlərin mədəni və xəzinəsi olduğuna görə Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) onları "səqəleyn"[225] adlandırmışdır. Peyğəmbərin öz Əhli-Beytinin ardınca getməyə, onlara sarılmağa və onlardan öyrənməyə əmr etməsi bunu deməyə əsas verir...".[226]

Həmçinin demişdir:

"Onlar arasında sarılmağa ən çox layiq olan kəs onların imamları və alimləri olan Əli ibn Əbu Talibdir (Allah ondan razı olsun). Bunun səbəbi onun fəziləti, elmi, dəqiq çıxarışları, düşüncəsi, gözəl xüsusiyyətləri və sabitqədəmliyidir".[227]

İbn Həcər "əs-Səvaiq" kitabında demişdir:

"..."Səqəleyn" – çünki bütün dəyərli, önəmli və qorunan şeylər "səql"[228]dirlər. Bunlar da (Quran və Əhli-Beyt) belədirlər. Çünki onların hər biri lədunni[229] elmlərin, uca hikmətlərin, ali sirlərin və şəri elmlərin mədənidirlər".[230]

Sonra demişdir:

"Onlar arasında sarılmağa ən layiq olan kəs onların imamları və alimləri olan Əli ibn Əbu Talibdir (kərrəmallahu vəchəh[231]). Bunun səbəbi onun elmi və dəqiq çıxarışlarıdır".[232]

---

[224] "Əhlul-Beyt": səh.78.
[225] İki ağır yük, əmanət. (Tərc.).
[226] "Cəvahirul-iqdeyn": 243.
[227] "Cəvahirul-iqdeyn": 245.
[228] Ağır və önəmli yük. (Tərc.).
[229] Digər elmlər kimi öyrənməklə hasil edilməyən, Allah dərgahından bəxş edilən elm. (Tərc.).
[230] "əs-Səvaiqul-muhriqa": 2/442.

### Beşinci: Onların Allahın hökmü ilə bu ümmətin imamlarıdırlar

Səqəleyn hədisi Əhli-Beytin (əleyhimussəlam) imamlıqlarına da dəlalət edir. Çünki hidayət yolunda olmaq və azğınlığa düşməmək üçün onlara sarılmaq vacib edilmişdir. Onlara sarılmaq əmr edilməsi isə onlar məsumluqlarına dəlalət edir. Həmçinin, sarılmaq əmr edilən şəxs şəriətə tamamilə agah olmalı, etiqadları və şəri hökmləri ən gözəl şəkildə bilməlidir. İmamət məqamına və Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) xəlifəliyi postuna hamıdan daha layiq olan şəxs bu xüsusiyyətlərə sahib olmayan kəslər yox, məhz bu xüsusiyyətlərə sahib olan şəxslərdir.

### Altıncı: Əhli-Beytin (əleyhimussəlam) imaməti qiyamətə qədər davam edəcək

Hər bir dövrdə və hər bir zamanda pak itrətdən sarılması vacib olan bir şəxs olmalıdır. Bir çox əhli-sünnə alimləri də bu hədisdən bunu başa düşmüşlər.

Səmhudi demişdir:

"Bu o mənaya gəlir ki, qiyamətədək hər bir dövrdə Əhli-Beytdən və pak itrətdən sarılmağa layiq olan bir şəxs olmalıdır. (Bunun belə olması ona görə vacibdir ki,) itrətdən sarılmağa təşviq (əmr) edilməsinin bir anlamı olsun.[233] Qurani-Kərim də belədir (o da qiyamətədək mövcud olacaq və ona sarılmaq vacib olacaq). Buna görə də Əhli-Beyt yer əhli üçün əmin-amanlıq səbəbi olmuşdur. Onlar aradan getdiyi təqdirdə yer əhlinin də aradan gedəcəyi deyilmişdir. Bu, daha sonra qeyd olunacaq".[234]

İbn Həcər demişdir: "Əhli-Beytdən yapışmağa təşviq (əmr) edən hədislərdə buna işarə edilmişdir ki, qiyamətəcən onların içlərində sarılmağa layiq olan şəxslər olacaq. Necə ki, Kitabul-Əziz (Qurani-Kərim) belədir. Məhz buna görə də Əhli-Beyt – daha sonra qeyd olunacağı kimi – yer əhli üçün əmin-amanlıq səbəbi olmuşdur".[235]

Əbu Bəkr əl-Ələvi əş-Şafei demişdir:

"Alimlər demişlər: Peyğəmbər Əhli-Beytindən və pak itrətdən sarılmalarına təşviq (əmr) edilən şəxslər məhz onlar arasındakı Allahın kitabına agah olan şəxslərdir. Çünki Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) onlardan başqasına sarılmağa təşviq etməz. Hovuz başına çatanadək onlarla Quran arasında ayrılıq baş verməyəcək. Buna görədir ki, Peyğəmbər: "Bu iki əmanətdən önə keçməyin ki, həlak olarsınız, onlardan geri də qalmayın ki, həlak olarsınız", - deyə buyurmuşdur. Daha əvvəl qeyd olunan hədislərdən də aydın olduğu kimi, onlar barəsində başqa alimlərdən daha çox təşviq və tövsiyə edilmişdir. Bu, (hər bir dövrdə) onlar arasında sarılmağa layiq olan şəxslərin mövcud olmasını vacib edir.

---

[231] Allah üzünü nurlandırsın, məqamını artırsın. (Tərc.).
[232] "əs-Səvaiqul-muhriqa": 2/442.
[233] Yəni, əgər belə olmasa, (hər bir dövrdə Əhli-Beytdən sarılmağa layiq bir kəs olmasa), o zaman ümmətə Əhli-Beytdən sarılmaq əmri verilməsinin bir mənası olmaz. (Tərc.).
[234] "Cəvahirul-iqdeyn": 244.
[235] "əs-Səvaiqul-muhriqa": 2/422.

Necə ki, Qurani-Kərim belədir (hər bir dövrdə mövcuddur və ona sarılmaq lazımdır). Buna görədir ki, Əhli-Beyt – daha sonra da qeyd olunacağı kimi – ümmət üçün əmin-amanlıq səbəbi olmuşdur. Onlar aradan getdiyi təqdirdə yer əhlinin də aradan gedəcəyi deyilmişdir”.[236] [237]

**Yeddinci: Onlar Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra ən üstün şəxslərdirlər**

Onların ümmətin digər fərdlərindən üstün olmaları bu hədisi-şərifi oxuyub onun üzərində düşünən hər bir kəs üçün gün kimi aydındır. Bu hədislə yanaşı bir çox hədisi-şəriflər də vardır ki, hamısı bu mənaya dəlalət edir.

**Osman əl-Xəmisin “itrət”in əhatə dairəsini genişləndirmək üçün etdiyi uğursuz cəhd**

Osman əl-Xəmis deyir:

“Peyğəmbərin itrəti kimlərdir? Kişinin itrəti onun ailə üzvləridir. Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) itrəti də sədəqə yemələri haram olan şəxslər, yəni Bəni-Haşimdir. Peyğəmbərin itrəti bunlardır”[238].

**Cavab olaraq deyirəm:**

*Birinci:* Bir çox böyük leksikoloklar bildirmişlər ki, ərəb dilində “itrət” sözü şəxsin bütün qohum əqrəbasına deyil, məhz onun övladlarına, yaxınlarına və ən yaxın qohumlarına şamil olur.

Firuzabadi demişdir:

“İtrət sözünün mənaları: 1) Müşkə batırılımış boyunbağı; 2) kişinin nəsli[239], qohumları və yaxın qohumları.”[240]

İbn Mənzur demişdir:

“Əbu Ubeydə və başqaları demişlər: Kişinin itrəti onun ailəsi və nəslidir, yaxın qohumlarıdır...”.[241]

İbn əl-Əsir demişdir: “Kişinin itrəti onun ən xüsusi (ən yaxın) qohumlarıdır...”[242]

Həmçinin demişdir: “İbn əl-Ə`rabi demişdir: İtrət kişinin övladları, zürriyyəsi və öz sülbündən olan nəslidir. Sonra demişdir: Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) itrəti Fatimətul-Bətulun övladlarıdır...”[243]

---

[236] “Rəşfətus-sadi”: 72-73.

[237] Həmçinin, Əl-Mənavi “Feyzul-qədir” kitabında demişdir: (3/14): “Şərif demişdir: Bu xəbər onu göstərir ki, qiyamətədək hər bir dövrdə Əhli-Beytdən və pak itrətdən sarılmağa layiq olan şəxslər olacaq. Buna görə də, onlardan sarılmağa əmr edilmişdir. Eyniylə, Quran da belədir (qiyamətədək mövcud olacaq və ona sarılmaq vacib olacaq). Buna görə də Əhli-Beyt yer əhli üçün əmin-amanlıq səbəbi olmuşdur. Əgər onlar (tamamilə) aradan getsələr, yer əhli də aradan gedər.” (Tərc.).

[238] “Tarixdən bir an”: səh.203.

[239] Kişidən dünyaya gələnlər (övladlar) mənasında. (Tərc.).

[240] “əl-Qamusul-muhit”: 2/120.

[241] “Lisanul-ərəb”: 4/538.

[242] “Lisanul-ərəb”: 4/538.

[243] “Lisanul-ərəb”: 4/538.

*İkinci:* Bir çox əhli-sünnə alimi səqəleyn hədisindən belə başa düşmüşlər ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) "itrətim" deyərkən Bəni-Haşimdən olan bütün qohum-əqrəbalarını deyil, məhz onlar arasından xüsusi bir dəstəni nəzərdə tutmuşdur. Bunlara misal olaraq aşağıdakıları göstərə bilərik:

Şeyx Əbdül-Haqq əd-Dehləvi demişdir:

"...Onun dediyi "itrət kişinin qohum-əqrəbası və yaxın qohumlarıdır" sözünə gəlincə, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) itrət sözünü "Əhli-beytim" sözü ilə təfsir etmişdir. Bununla ona işarə etmək istəmişdir ki, "itrət" deyərkən ən yaxın qohum-əqrəbasını; yaxın babanın övladlarını nəzərdə tutur. Yəni, öz övladlarını və zürriyyəsini nəzərdə tutur."[244]

Mənavi demişdir:

""İrtətim – Əhli-Beytim" sözündə əvvəlcə yığcam mənalı söz işlənmiş, ardınca geniş mənalı söz işlənmişdir.[245] Bu sözlə Allahın çirkinliklərdən təmizləyib pak-pakizə etdiyi əba əhli nəzərdə tutulur..."[246]

Molla Əli əl-Qari demişdir:

"Deyirəm: Ev əhli çox vaxt evin sahibini hamıdan daha yaxşı tanıyırlar və ona hamıdan daha yaxşı bələd olurlar. Hədisdəki "Əhli-Beyt"dən məqsəd onlar arasında elm əhli olan, Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) davranışlarından xəbərdar olan, onun yoluna agah olan və onun hökmlərini və hikmətlərini bilən şəxslərdir. Bununla onlar Allahın kitabının müqabili olmağa layiq olurlar..."[247]

Həkim ət-Tirmizi demişdir:

"Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) "ondan yapışdığınız müddətcə əsla azmayacaqsınız..." sözü Əhli-Beyt arasında imam və seyyid[248] olanlara aiddir, başqalarına deyil..."[249]

Əbu Bəkr əl-Ələvi əş-Şafei demişdir:

"Alimlər demişlər ki, Peyğəmbər Əhli-Beytindən və pak itrətdən sarılmalarına təşviq (əmr) edilən şəxslər məhz onlar arasındakı Allahın kitabına agah olan şəxslərdir. Çünki Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) onlardan başqasına sarılmağa təşviq etməz. Hovuz başına çatanadək onlarla Quran arasında ayrılıq baş verməyəcək."[250]

Əllamə Həsən ibn Əli əs-Səqqaf demişdir:

"Əhli-Beytdən yapışmaq və onlara sarılmaq dedikdə onları sevmək, onlara ehtiram etmək, onlara qarşı ədəbli olmaq, onların yolu ilə addımlamaq, onların rəvayətlərinə əməl etmək, onların fikirlərinə, sözlərinə və ictihadlarına etimad etmək, bu məsələdə onları başqalarından önə keçirmək nəzərdə tutulur. Əba əhlinin vəfatından sonra "Əhli-Beyt"dən məqsəd onların nəsillərindən olub

---

[244] "Əşii`ətul-ləməat": 4/681.

[245] İtrət sözü ümumi mənalı, mücməl bir sözdür, bunun ardınca bu sözü izah edən müfəssəl funksiyalı başqa bir söz – Əhli-Beyt sözü işlənmişdir. (Tərc.).

[246] "Feyzul-qədir": 3/19.

[247] "Mirqatul-məfatih": 10/531.

[248] Müəllif "seyyid" sözü ilə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) nəslindən olan övladları da nəzərdə tutmuş ola bilər, "ağa", "öndər", "rəhbər" kimi ümumi mənaları da nəzərdə tutmuş ola bilər. (Tərc.).

[249] "Nəvadirul-usul": 1/259.

[250] "Rəşfətus-sadi": 72.

Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) davranışlarından xəbərdar olan, onun yoluna agah olan, onun hökmlərini və hikmətlərini bilən təqvalı və vərəli alimlər, müctəhidlərdir. Bununla onlar səhih hədislərdə də gəldiyi kimi Allahın kitabının müqabilində durmuş olurlar".[251]

Bu alimlərin sözlərindən açıq-aydın başa düşülür ki, səqəleyn hədisindəki Əhli-Beytdən (əleyhimussəlam) məqsəd Osman əl-Xəmisin iddia etdiyi kimi Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) bütün qohumları yox, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) qohumları arasında Allahın seçdiyi xüsusi bir dəstə şəxsdir. Bu şəxslər də Əli, Fatimə, Həsən, Hüseyn və Hüseynin nəslindən olan doqquz şəxsdir (əleyhimussəlam əcməin). Çünki təqva, vərə, Allahın kitabına, Peyğəmbərin sünnəsinə və sirəsinə tam agah olma kimi sifət və xüsusiyyətlər məhz onlarda cəm olmuşdur. Qurani-Kərimin həmtayı olmağa layiq olan kəslər məhz onlardır.

*Üçüncü:* Daha öncə səqəleyn hədisinin Əhli-Beytin (əleyhimussəlam) məslumluğuna, onların Quran və sünnəyə başqalarından daha çox agah olmalarına dəlalət etdiyini sübut etdik. Şübhə yoxdur ki, bu sifətlər Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) bütün qohumlarında cəm olmamışdır. Əksinə, bu xüsusiyyət məhz Əhli-Beytdən olan 12 imama (əleyhimussəlam) məxsusdur. Bunun dəlili bizim yanımızda olan səhih və aşkar hədislər[252], həmçinin bu şəxslərin (əleyhimussəlam) həyat yollarıdır.

*Dördüncü:* Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) qohumları arasında cahil, günahkar, üsyankar və xətalara bulaşmış şəxslər var. Görəsən Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) səqəleyn hədisində bu şəxslərdən də yapışmağa əmr edə bilər?!

Özlərini zəlalətdən qoruya bilməyən bu şəxslər başqalarını zəlalətdən necə qoruya bilərlər?!

Səqəleyn hədisindəki itrətdən məqsədin Peyğəmbərin sədəqə haram olan bütün qohumları olduğunu yalnız hədisi başa düşməyən cahil şəxs deyə bilər, ya da haqqı batillə örtmək istəyən, nasibilərin (Allah onları zəlil etsin) havası ilə oturub duran inadkar və təəssübkeş şəxs deyə bilər.

---

[251] "Səhihu-şərhil-əqidətit-təhaviyyə": 654.

[252] Şeyx Səduqun (Allah ona rəhmət etsin) "Məanil-əxbar" kitabında (səh.91) nəql etdiyi səhih bir hədisdə belə gəlmişdir:
Bizə Əli ibn İbrahim ibn Haşim atasından, o, Muhəmməd ibn Əbu Umeyrdən, o, Cəfər ibn Muhəmməd əs-Sadiqdən, o həzrət atası Muhəmməd ibn Əlidən, o həzrət atası Əli ibn Hüseyndən, o həzrət də atası Hüseyndən (salavatullahi əleyhim əcməin) nəql edib dedi: Əmirəlmömінin (əleyhissəlam)-dan Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) "Mən sizin aranızda Allahın kitabını və itrətimi qoyub gedirəm" sözündəki "itrət"in kimlər olduğunu soruşdular. Həzrət buyurdu: Mən, Həsən, Hüseyn və Hüseynin nəslindən gələn doqquz imam. Onların doqquzuncuları Məhdi və Qaimdir. Hovuz başında Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) yanına varıncayadək nə onlar Allahın kitabından ayrılarlar, nə də Allahın kitabı onlardan ayrılar.

**Osman əl-Xəmis səqəleyn hədisini bir kənara qoyub əvəzində uydurma rəvayətlərdən yapışır!**
**1-ci rəvayət: "Sizin aranızda elə bir şey qoyub getdim ki, ondan sarıldığınız müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və sünnətim"!**

Osman əl-Xəmis deyir:

"Səqəleyn hədisi Peyğəmbərin "Sizin aranızda elə bir şey qoyub getdim ki, ondan sarıldığınız müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və sünnətim" hədisi kimidir"[253].

Kitabın haşiyəsində də hədisin mənbəsini qeyd edir: "Müstədrəkul-Hakim": 1/93.

**Cavab:**

Bu rəvayət Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) nisbət verilən uydurma bir rəvayətdir. Bu rəvayət səhih sənədlə gəlməmişdir. O, Əhli-Beytə (əleyhimussəlam) düşmən olan siyasi aparatın qondardığı bir rəvayətdir. Bu rəvayətin gəldiyi bütün təriqlər zəifdir. Biz hədisin təriqlərini qeyd edərək onların zəifliklərini göstəririk:

**Birinci təriq:**

Hakim ən-Nişapuri "əl-Müstədrək" kitabında demişdir:

Bizə Əbu Bəkr Əhməd ibn İshaq əl-Fəqih nəql edib dedi: bizə Abbas ibn Fəzl əl-Əsfati xəbər verib dedi: bizə İsmayıl ibn Əbu Aus nəql edib dedi:

Həmçinin, mənə İsmayıl ibn Muhəmməd ibn Fəzl əş-Şi`rani nəql edib dedi: mənə babam nəql edib dedi: mənə İbn Əbu Aus nəql edib dedi: mənə atam Saur ibn Zeyd əd-Dilidən, o, İkrimədən, o da İbn Abbasdan nəql edib dedi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) vida həccində camaata xütbə edib dedi: ...Ey camaat! Mən sizin aranızda elə bir şey qoydum ki, ondan yapışsanız, əsla azmayacaqsınız: Allahın kitabı və Onun Peyğəmbərinin sünnəti..."[254]

Bu rəvayəti Beyhəqi də "əs-Sünənul-kubra" kitabında nəql etmişdir:

Bizə Əbu Abdullah əl-Hafiz xəbər verib dedi: mənə İsmayıl ibn Muhəmməd ibn Fəzl əş-Şi`rani xəbər verib dedi: bizə babam nəql edib dedi: bizə İbn Əbu Aus nəql edib dedi: bizə atam Saur ibn Yəzid əd-Dilidən, o, İkrimədən, o da İbn Abbasdan nəql edib dedi: ...hədis.[255]

Beyhəqinin sənədi Hakimin sənədi ilə eynidir. Sənəd zəif və batildir. Belə ki, sənəddə İsmayıl ibn Abdullah ibn Əbu Aus və atası vardır. Onların hər ikisi zəifdirlər, hədis oğrularıdırlar. İbn Məin: "Əbu Aus və onun oğlu zəifdirlər", - demişdir.[256] Həmçinin demişdir: "İbn Əbu Aus və atası hədis oğurlayırlar".[257] Həmçinin oğul barədə: "Qarışdıran və yalan danışandır, bir şey deyildir", -

[253] "Tarixdən bir an": səh.204.
[254] "Müstədrək": 1/171, hədis: 318.
[255] "əs-Sünənul-kubra": 10/114, hədis: 20123.
[256] "Təhzibül-kəmal": 1/240, "Təhzibüt-təhzib": 1/197.
[257] "Təhzibül-kəmal": 1/240, "Təhzibüt-təhzib": 1/197, "əd-Duəfa vəl-mətrukin": 1/117.

demişdir.[258] Həmçinin demişdir: "İsmayıl ibn Əbu Aus iki qəpiyə dəyməz!"[259]. Nəsai: "Zəifdir", - demişdir.[260] Mərrə: "Siqə deyil", - demişdir[261]. Nadr ibn Sələmə əl-Mərvəzi: "Yalançıdır", - demişdir.[262] Darəqutni: "Onun olduğu hədisi səhih hesab etmirəm", - demişdir[263]. Əbül-Qasim əl-Lalakai isə demişdir: "Nəsai şiddətlə onun əleyhinə danışmış, nəticədə onun hədisini tərk etmişdir. Bəlkə də onun barəsində Nəsaiyə başqalarına aydın olmayan şeylər aydın olubmuş. Çünki başqalarının sözlərinin hamısı onun zəif olduğuna dəlalət edir[264]".[265] İbn Ədiy demişdir: "Dayısından bir sıra rəvayətlər nəql etmişdir ki, heç kəs bu rəvayətlərə etimad etmir".[266] O özü də hədis qondardığını etiraf etmişdir. Belə ki, onun belə dediyi nəql olunub: "Mədinə camaatı bir şey barədə ixtilaf etdikləri zaman bəzən mən onlar üçün hədis uydururdum!".[267] Əli ibn əl-Mədini isə ata barəsində demişdir: "O, bizim əshabımızın yanında zəif idi".[268] Nəsai onun barəsində: "Güclü deyildir", - demişdir.[269] Əbu Hatim də: "Onun hədisi yazılar, lakin hədisi ilə dəlil gətirilməz. O güclü deyidlir", - demişdir.[270]

Həmçinin, sənəddə İkrimə vardır. Onu İbn Abbasın adından yalan danışmaqda ittiham etmişlər. Səid ibn əl-Müseyyib öz qulamı Burda demişdir: "Ey Burd! Məbadə İkrimə İbn Abbasın adından yalan danışdığı kimi sən də mənim adımdan yalan danışasan!"[271] İbn Abbasın oğlu Əli ibn Abdullah ibn Abbas onu ayaqyolunun qapısına bağlayıb. Əlidən bunun səbəbini soruşduqda o: "O mənim atamın adından yalan danışır!", - demişdir. Səid ibn əl-Müseyyib və İbn Sirin onu təkzib etmiş, onu yalançı hesab etmişlər.[272]

**İkinci təriq:**

Hakim "əl-Müstədrək" kitabında demişdir:

Bizə Əbu Bəkr ibn İshaq əl-Fəqih xəbər verib dedi: bizə Muhəmməd ibn İsa ibn əs-Səkən əl-Vasiti xəbər verib dedi: bizə Davud ibn Ömər əd-Dabbi nəql edib dedi: bizə Saleh ibn Musa ət-Təlhi Əbdül-Əziz ibn Rəfidən, o, Əbu Salehdən, o da Əbu Hüreyrədən nəql edib dedi:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: Mən sizin aranızda iki şey qoydum ki, onlardan sonra əsla azmayacaqsınız: Allahın kitabı və sünnətim. Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar.[273]

---

258 "Təhzibül-kəmal": 1/240, "Təhzibüt-təhzib": 1/197.
259 "Təhzibüt-təhzib": 1/198.
260 "Təhzibül-kəmal": 1/240, "əd-Duəfa vəl-mətrukin": 1/117.
261 "Təhzibül-kəmal": 1/240, "Təhzibüt-təhzib": 1/197, "Siyəru-ə`lamin-nubəla": 9/121.
262 "əd-Duəfa vəl-mətrukin" (İbn əl-Cəvzi): 1/117, "Təhzibüt-təhzib": 1/197.
263 "Təhzibüt-təhzib": 1/198, "Siyəru-ə`lamin-nubəla": 9/121.
264 Başqalarının sözlərindən onun zəif olduğu başa düşülür, Nəsainin sözlərindən isə onun zəiflikdən də aşağı pillədə olduğu başa düşülür. Müəllifin demək istədiyi budur. (Tərc.).
265 "Təhzibül-kəmal": 1/290, "Təhzibüt-təhzib": 1/197.
266 "Təhzibüt-təhzib": 1/197, "Siyər": 9/121.
267 "Təhzibüt-təhzib": 1/197, "Siyər": 9/121.
268 "Təhzibül-kəmal": 15/168.
269 "Təhzibül-kəmal": 15/168.
270 "Təhzibül-kəmal": 15/168.
271 "Təhzibüt-təhzib": 7/238, "Təhzibül-kəmal": 7/213.
272 "Təhzibüt-təhzib": 7/238, "Təhzibül-kəmal": 7/213.
273 "əl-Müstədrək": 1/172, hədis: 319.

Bu hədisi Beyhəqi də “ən-Sünənul-kubra” kitabında aşağıdakı sənədlə nəql etmişdir:

Bizə Əbül-Hüseyn ibn Bəşşəran əl-Ədl Bağdadda xəbər verib dedi: bizə Əbu Əhməd Həmzə ibn Abbas xəbər verib dedi: bizə Əbdül-Kərim ibn əl-Heysəm nəql edib dedi: bizə Abbas ibn Heysəm nəql edib dedi: bizə Saleh ibn Musa ət-Təlhi Əbdül-Əziz ibn Rəfidən, o, Əbu Salehdən, o da Əbu Hüreyrədən nəql edib dedi... hədis.[274]

Həmçinin, İbn Ədiy “əl-Kamil” kitabında hədisi aşağıdakı sənədlə nəql etmişdir:

Bizə Əbu Yə`la nəql edib dedi: bizə Davud ibn Əmr əd-Dabbi nəql edib dedi: bizə Saleh ibn Musa ət-Təlhi Əbdül-Əziz ibn Rəfidən, o, Əbu Salehdən, o da Əbu Hüreyrədən nəql edib dedi... hədis.[275]

Həmçinin, Darəqutni hədisi “Sünən” kitabında aşağıdakı sənədlə nəql etmişdir:

Bizə Əbu Bəkr əş-Şafei nəql edib dedi: bizə Əbu Qubeysə Muhəmməd ibn Əbdür-Rəhman ibn Umarə ibn əl-Qə`qa` nəql edib dedi: bizə Davud ibn Əmr nəql edib dedi: bizə Saleh ibn Musa Əbdül-Əziz ibn Rəfidən, o, Əbu Salehdən, o da Əbu Hüreyrədən nəql edib dedi... hədis.[276]

Həmçinin, Üqeyli “əd-Duəfa” kitabında hədisi aşağıdakı sənədlə nəql etmişdir:

Bizə Musa ibn İshaq nəql edib dedi: bizə Muhəmməd ibn Ubeyd əl-Muharibi nəql edib dedi: bizə Saleh ibn Musa ət-Təlhi Əbdül-Əziz ibn Rəfidən, o, Əbu Salehdən, o da Əbu Hüreyrədən nəql edib dedi... hədis.[277]

Göründüyü kimi, bütün mənbələrdə hədisin sənədi Saleh ibn Musaya və ondan sonra gələnlərə çatır. Bu sənəd də öncəki kimi zəifdir. Çünki sənəddə Saleh ət-Təlhi vardır ki, zəifdir, önəmsizdir, hədisi tərk olunmuş şəxsdir, bir şey deyildir. Zəhəbi onun barəsində: “Vahidir”[278], - demişdir[279]. Həmçinin, “Mizanül-itidal” kitabında: “Zəifdir”, - demişdir.[280] “Siyəru-ə`lamin-nubəla” kitabında: “Höccət deyildir”, - demişdir.[281] Nəsai: “Hədisi tərk olunmuş şəxsdir”, - demişdir.[282] Mərrə: “Hədisi yazılmaz, zəif şəxsdir”, - demişdir.[283] İbn Həcər: “Tərk olunmuş şəxsdir”, - demişdir.[284] İbn Məin: “Siqə deyil”, - demişdir.[285] Mərrə: “Onun hədisi bir şey deyil”, - demişdir.[286] Əbu Nüeym[287] əl-İsfahani: “Əbdül-Məlik ibn Umeyrdən və

---

[274] “əs-Sünənul-kubra”: 10/114, hədis: 20124.
[275] “əl-Kamil fid-duəfa”: 4/69.
[276] “Sünəni-Darəqutni”: 4/245, hədis: 149.
[277] “əd-Duəfa”: 2/250.
[278] Zəifdir. (Tərc.).
[279] “Mən ləhu rivayə fil-kutubis-sittə”: 499.
[280] “Mizanül-itidal”: 3/414.
[281] “Siyəru-ə`lamin-nubəla”: 8/180.
[282] “əd-Duəfa vəl-mətrukin”: 149, “Təhzibül-kəmal”: 13/97, “Siyəru-ə`lamin-nubəla”: 8/181.
[283] “Təhzibül-kəmal”: 13/96.
[284] “Tərqibut-təhzib”: 1/423.
[285] “Təhzibül-kəmal”: 13/96.
[286] “Tarixi-İbn Məin”: 166.
[287] Bəzən yanlışlıqla “Əbu Nəim” deyilir. (Tərc.).

başqalarından münkər hədislər nəql edir, zəifdir”, - demişdir.[288] Buxari: “Munkərul-hədisdir[289]”, - demişdir.[290] Üqeyli sənədində onun olduğu bir rəvayət qeyd etdikdən sonra: “Nə ona, nə də onun nəql etdiyi hədisə etimad olunmaz”, - demişdir.[291] İbn Hibban: “Siqə şəxslərdən səbt şəxslərin hədislərinə oxşamayan hədislər nəql edirdi. (Elə bir həddə ki) hətta dinləyən şəxs həmin hədisin uydurulmuş olduğuna və ya yanlış çatdırıldığına əmin olurdu. Ona etimad etmək olmaz”, - demişdir.[292] Əbdür-Rəhman ibn Əbu Hatim isə demişdir: “Atamdan Saleh ibn Musa ət-Təlhi barədə soruşdum. Atam (İbn Əbu Hatim) dedi: Hədisləri zəifdir. Hədisləri olduqca münkərdir. Siqə şəxslərdən çoxlu münkər hədislər nəql etmişdir. Dedim: Onun nəql etdiyi hədislər yazılar? Dedi: Onun hədisləri mənim xoşuma gəlmir.”[293]

**Üçüncü təriq:**

İbn Hibban demişdir: Bizə Əhməd ibn Səid nəql edib dedi: bizə Əbdül-Vahid nəql edib dedi: bizə Hişam Yəzid ər-Rəqaşidən, o da Ənəs ibn Malikdən nəql edib dedi:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: Sizin aranızda elə bir şey qoydum ki, ondan yapışdığınız müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və Onun Peyğəmbərinin sünnəsi.[294]

Bu təriq də zəifdir. Sənəddə Hişam ibn Salman əl-Mucaşii vardır. İbn Hibban onun barəsində demişdir: “Olduqca munkərul-hədis şəxsdir! Az rəvayət edən şəxs olması ilə yanaşı siqə şəxslərdən çoxlu münkər hədislər nəql etmiş və bu hədisləri ondan başqa heç kəs nəql etməmişdir. Zəif şəxslərdən də məqlub şeylər[295] nəql etmişdir. Onun nəql etdiyi hədislərə – hətta o hədisləri başqaları da nəql etmiş olsa – etimad etmək olmaz, o ki, qala ancaq özünün nəql etdiyi hədislər ola!”.[296] İbn Həcər “Lisanul-mizan” kitabında Musa ibn İsmayıl əl-Minqərinin onu zəif hesab etdiyini demişdir.[297]

Həmçinin, sənəddə Yəzid ibn Əban ər-Rəqaşi varıdır. Nəsai onun barəsində: “Tərk olunmuş şəxsdir”, - demişdir.[298] Zəhəbi: “Zəifdir”, - demişdir.[299] İbn Həcər də “zəifdir” - demişdir.[300] Şubə onun barəsində mənfi danışarmış.[301] Şubə onun barəsində “Yolkəsənlik etmək mənim üçün Yeziddən hədis nəql etməkdən daha sevimlidir!”, - demişdir.[302] Abdullah ibn İdris demişdir: “Şubənin belə dediyini

---

288 “əd-Duəfa” (İsfahani): 93.
289 “Munkərul-hədisdir” sözü “münkər hədislər nəql edir” sözündən daha şiddətli məna ifadə edir. (Tərc.).
290 “Tarixi-kəbir”: 4/291, “Tarixi-sağir”: 2/182, “əd-Duəfaul-kəbir”: 62.
291 “əd-Duəfa” (Üqeyli): 2/203.
292 “əl-Məcruhin”: 1/369.
293 “əl-cərh vət-tədil”: 4/415, “Təhzibül-kəmal”: 13/97.
294 “Tabaqatul-muhəddisin”: 4/67.
295 “Məqlub şeylər” sözü ilə “məqlub hədis”lər mənasını nəzərdə tutub. “Məqlub” hərfi mənada “baş-ayaq”, “tərsə olan” deməkdir. Bununla ravinin səhvən və ya bilərəkdən hədisin sənədində və ya hədisin ravisinin adında və yaxud da hədisin mətnində dəyişiklik etməsi, məlumatları yanlış çatdırması nəzərdə tutulur. (Tərc.).
296 “əl-Məcruhin”: 3/89.
297 “Lisanul-mizan”: 6/194.
298 “əd-Duəfa” (Nəsai): 110.
299 “əl-Kaşif”: 2/380.
300 “Təqribüt-təhzib”: 1/599.
301 “Tarixi-kəbir”: 8/320, “Təhzibüt-təhzib”: 11/271, “Təhzibül-kəmal”: 32/66.
302 “Təhzibüt-təhzib”: 11/271, “Təhzibül-kəmal”: 32/66.

eşitdim: Zina etmək mənim üçün Yəziddən və Əbandan hədis nəql etməkdən daha sevimlidir!”.[303] İbn Səd onun barəsində: “Zəif və qədəri[304] idi”, - demişdir.[305] İbn Məin: “Onun hədisi bir şey deyil”, - demişdir.[306] Mərrə isə: “Zəifdir”, - demişdir.[307] Darəqutni və Bərqani də onu zəif hesab etmişlər.[308]

**Dördüncü təriq:**

Malikin “əl-Muvətta” kitabında belə gəlmişdir:

“Mənə Malikdən belə nəql etdi ki, Malikə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğu çatıbmış: Sizin aranızda iki şey qoydum ki, onlardan yapışdığınız müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və Onun Peyğəmbərinin sünnəsi.[309]

Bu təriq də zəifdir. Çünki mərfudur və sənədi yoxdur. Malikə bu xəbəri çatdıran şəxslərin kimliyi bilinmir.

Buna əsasən, bu rəvayətin bütün təriqləri zəifdir. Bu rəvayət bu qeyd olunan mənbələrdən fərqli mənbələrdə də gəlsə belə, ya İbn Aus və atası yolu ilə, ya Saleh ibn Musa yolu ilə, ya da mərfu şəkildə sənədsiz olaraq nəql edilmişdir.

Əllamə Həsən ibn Əli əs-Səqqaf demişdir:

“Camaatın öz aralarında danışdığı, xətiblərin minbərlər üzərindən söylədikləri “sizin aranızda elə bir şey qoydum ki, ondan yapışdığınız müddətcə əsla azmayacaqsınız: Allahın kitabı və sünnəm” hədisinə gəlincə, bu hədis qondarma və yalan hədisdir. Onu əməvilər və onların ardıcılları qondarmışlar. Onlar bunu etməklə camaatı itrət barədə gələn bu səhih hədisdən[310] uzaqlaşdırmaq istəmişlər. Buna yaxşıca diqqət et! Mən “Səhihu-sifəti-salətin-Nəbi (sallallahu əleyhi və alihi və səlləm)” kitabımın sonunda, 289-cu səhifədə bu hədisin bütün təriqlərini qeyd etmişəm, həmin təriqlərdə adı keçən yalançı və hədis qondaran şəxsləri göstərmişəm. Ətraflı məlumat istəsən həmin kitaba müraciət et”.[311]

## Osman əl-Xəmisin hədis dəyərləndirməsindəki elmi üslubu nədir?

Osman əl-Xəmis və onun kimilərinin hədisin qəbulu və ya rəddi mövzusunda əsaslandıqları elmi bir üslub yoxdur. Əgər hədis onların nəfsi istəklərinə uyğun gəlsə, onların yanında məqbul hesab edilər. Hətta zəif olsa belə həmin rəvayəti götürüb onunla müxaliflərinin əleyhinə dəlil gətirər, onu dəlil olaraq təqdim edərlər. Onların bəziləri zəif rəvayəti səhih çıxarmaqdan ötrü özünü oda-alova yaxar, əhli-sünnə alimlərinin hədisin qəbulu və ya rəddi üçün təyin etdikləri meyarları, qaydaları və prinsipləri bir kənara atmaq bahasına olsa belə, həmin hədisin səhihliyini sübut etməyə çalışarlar.

---

303 “Təhzibüt-təhzib”: 11/271, “Təhzibül-kəmal”: 32/66.
304 Etiqadi məzhəblərdən biri. (Tərc.).
305 “Təhzibüt-təhzib”: 11/271.
306 “Təhzibüt-təhzib”: 11/271, “Təhzibül-kəmal”: 32/66.
307 “Təhzibüt-təhzib”: 11/271, “Təhzibül-kəmal”: 32/66, “əl-Cərhu vət-tə`dil”: 9/252.
308 “Təhzibüt-təhzib”: 11/271, “Təhzibül-kəmal”: 32/66.
309 “Muvətta”: 2/899.
310 “Allahın kitabı və itrətim” hədisini nəzərdə tutur.
311 “Səhihu-şərhil-əqidətit-təhaviyyə”: 654-cü səhifənin haşiyəsi.

Lakin hədis onların nəfsi istəklərinə müxalif oldumu, hətta səhih və sabit olsa belə həmin hədisi sənəd və dəlalət yönündən tənqid etməyə başlar, onu etibardan salmağa çalışarlar.

Bax, ey insaflı oxucu! Gör Osman əl-Xəmis səqəleyn hədisinin səhih və sabit olan "Allahın kitabı və itrətim" formasını necə etibardan salmağa çalışır, bunun müqabilində isə hətta öz alimlərinin belə qondarma və yalan olduğunu etiraf etdikləri bir hədisi dəlil olaraq təqdim edir. Görəsən bu, nəfsi istəklərinə tabe kəslərin rəftarı deyil?

Əlbəttə elədir.. Bu onların şeyxləri İbn Teymiyyənin "Minhacus-sünnə" və başqa kitablarında tutduğu yoldur. Belə ki, o, Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) gəlib çatan neçə-neçə səhih və sabit hədisi rədd etmiş, bunun müqabilində zəif və ya uydurma rəvayətlərə istinad etmişdir.[312]

---

[312] Məsələn, İbn Teymiyyə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) "Əlinin qapısından başqa bütün qapıları bağlayın" hədisini inkar etmişdir ("Minhacus-sünnə": 3/13). O İbn əl-Mütəhhər əl-Hilliyə (Allah ona rəhmət etsin) rəddiyyə verərək demişdir: "*...Onun dediyi "Əlinin qapısından başqa bütün qapıları bağlayın..." sözünü şiələr uydurmuşlar...*". Halbuki, bu hədis səhih, qəvi (güclü) və ya həsən sənədlərlə sünni kitablarında nəql olunmuşdur. "əl-Müstədrək ələs-sahiheyn" kitabında Hakim öz sənədi ilə Zeyd ibn Ərqəmdən belə nəql etmişdir: Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrindən bir neçəsinin evinin qapısı məscidə açılırdı. Bir gün Peyğəmbər: "Əlinin qapısından başqa bu qapıların hamısını bağlayın", - dedi. Lakin camaat (öz aralarında) bu barədə danışmağa başladılar. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) qalxıb Allaha həmd-səna etdi və dedi: "Mən Əlinin qapısından başqa bütün qapıları bağlatdırdım. Lakin sizin aranızda bəzi şəxslər narazılıq etdilər. Allaha and olsun ki, mən heç bir şeyi açıb-bağlamamışam. Mənə əmr olundu, mən də əmrə tabe oldum!". ("Müstədrək": 3/135, hədis: 4631.) Hakim bu hədisi qeyd etdikdən sonra demişdir: "**Bu, səhih sənədli hədisdir, lakin Buxari və Müslim bunu nəql etməmişlər**". Zəhəbi də onunla razılaşaraq "Təlxis"də demişdir: "**Səhihdir**". Həmçinin, yenə "əl-Müstədrək" kitabında (3/143, hədis: 4652) Hakim öz sənədi ilə Əmr ibn Məymundan belə nəql etmişdir: "Mən İbn Abbasın yanında oturmuşdum ki, birdən onun yanına doqquz nəfər şəxs gəlib dedilər: "Ey Abbasın oğlu, ya bizimlə gəl, ya da bu şəxslər qalxsınlar, biz təkbaşına oturaq". İbn Abbas dedi: "Mən sizinlə gələrəm". Həmin vaxt İbn Abbas sağlam idi və gözləri tutulmamışdı. Onlar gedib danışmağa başladılar. Biz onların nə dediklərini bilmirdik. Birdən İbn Abbasın öz paltarını çırpa-çırpa bizim yanımıza gəldiyini gördük. O dedi: "Vay olsun, tfu! Elə bir şəxsi təhqir etdilər ki, onda heç kəsdə olmayan ondan yuxarı fəziləti vardır! Elə bir şəxsi təhqir etdilər ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onun barəsində: "Elə bir şəxsi göndərəcəyəm ki, Allah əsla onu zəlil-xar etməyəcək. O Allahı və Onun Rəsulunu sevir, Allah və Rəsulu da onu sevirlər", - demişdir. Həmin vaxt bəziləri bu şərəfə nail olmaq istədilər. Lakin Peyğəmbər buyurdu: "Əli haradadır?". Dedilər: "Əli (əl) dəyirmanının başında dən üyüdür". Peyğəmbər buyurdu: "Dən üyüdəcək başqa adam yox idi?" Bu zaman Əli gözləri ağrayan və az qala heç bir şey görə bilməyəcək vəziyyətdə gəldi. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) ağzının suyunu onun gözlərinə atdı. Sonra bayrağı üç dəfə yelləyib ona verdi. Sonra İbn Abbas dedi: Sonra Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) filankəsi (Əbu Bəkri) "Tövbə" surəsi ilə birgə göndərdi. Lakin onun ardınca Əlini göndərib surəni ondan aldırdı və "bu surəni yalnız elə bir şəxs apara bilər ki, o məndən olsun, mən də ondan olum!", - deyə buyurdu. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) əmisi oğlanlarına dedi: "Sizlərdən hansı biriniz dünya və axirətdə mənim vəlim olar?" Bu zaman Əli də onlarla birgə əyləşmişdi. Sonra Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) yenidən onlara üz tutub dedi: "Sizlərdən hansı biriniz dünya və axirətdə mənim vəlim olar?" Onlar imtina etdilər. Peyğəmbər Əliyə dedi: "Sən dünya və axirətdə mənim vəlimsən". Əli Xədicədən (Allah ondan razı olsun) sonra iman gətirən ilk şəxs idi. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) libasını götürüb Əlinin, Fatimənin, Həsənin və Hüseynin üzərinə saldı və buyurdu: "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**". Sonra İbn Abbas dedi: Əli öz canını (Allahın razılığı müqabilində) sataraq Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) paltarını geyindi və onun yerində yatdı. Müşriklər Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) daş atardılar. Bu vaxt Əbu Bəkr gəldi. Həmin vaxt Əli Peyğəmbərin yerində uzanmışdı. Əbu Bəkr onun Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) olduğunu zənn etdi, odur ki, dedi: "Ey Allahın Peyğəmbəri!" Bu vaxt Əli dedi: "Allahın Peyğəmbəri (sallallahu əleyhi [və alihi] və səlləm) Məymun quyusuna tərəf yollandı. Get ona yetiş". Bundan sonra Əbu Bəkr yola düşdü və Peyğəmbərlə birgə mağaraya daxil oldu. Sonra İbn Abbas dedi: Müşriklər Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) atdıqları kimi Əli yə daş atmağa başladılar. Bu zaman Əli qıvrılıb qarnına tərəf yığılırdı. O başını örtmüş, başını çölə çıxarmırdı. Nəhayət sübh olunca başını çıxardı. Müşriklər onu görüb dedilər: "Sən dəyərsiz və zəif adamsan. Biz sənin yoldaşını daşlayırdıq, lakin o qıvrılmırdı. Sən isə qıvrılırdın. Biz burada nəsə bir iş olduğunu sezmişdik". Sonra İbn Abbas dedi: Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) camaatla birgə Təbuk döyüşünə getdi. Əli ona: "Mən də səninlə gəlimmi?", - dedi. Peyğəmbər: "Xeyr", - dedi. Bu zaman Əli

ağladı. Peyğəmbər ona dedi: "Məgər razı olmazsan ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur? Mən getdiyim təqdirdə məhz sən mənim xəlifəm olmalısan". (Sonra) İbn Abbas dedi: Peyğəmbər ona: "Sən məndən sonra hər bir möminin və mömin ənin vəlisisən", - dedi. Həmçinin, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlinin qapısından başqa məscidə açılan bütün qapıları bağlatdırdı. O, cənabətli olduğu halda məscidə daxil olurdu. Onun evinə gedən yeganə yolu məsciddən keçirdi, başqa yolu yox idi. (Sonra) İbn Abbas dedi: Peyğəmbər onun barəsində: "Mən kimin mövlasıyamsa, həmin şəxsin mövlası Əlidir", - dedi... hədis". Hakim bu hədisi nəql etdikdən sonra demişdir: "**Bu, səhih sənədli hədisdir. İki şeyx bu hədisi bu şəkildə nəql etməmişlər.**" Zəhəbi də "Təlxis"də: "**Səhihdir**", - demişdir. Bu hədisi Nəsai də "Xəsais" kitabında (səh.44) nəql etmişdir. Kitabın mühəqqiqi Əbu İshaq əl-Huveyni əl-Əsri həmin hədis barədə "**İsnadı həsəndir**", - demişdir.

Həmçinin, Heysəmi "Məcməuz-zəvaid" kitabında (9/119) belə demişdir:

Abdullah ibn ər-Rəqim əl-Kinanidən belə nəql olunmuşdur: "Cəməl (döyüşü) zamanında Mədinəyə getdik. Mədinədə Səd ibn Maliklə qarşılaşdıq. Səd dedi: Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) məscidə açılan qapıların bağlanmasını əmr etdi. Təkcə Əlinin qapısına dəymədi". Bunu Əhməd, Əbu Yəla, Bəzzar və Təbərani nəql etmişdir. Təbərani isə "əl-Əvsət"də belə bir əlavə ilə nəql etmişdir: "...Dedilər: "Ey Allahın Rəsulu, Əlinin qapısından başqa bizim hamımızın qapısını bağlatdırdın?!" Peyğəmbər dedi: "Sizin qapılarınızı mən bağlatdırmadım, sizin qapılarınızı Allah bağlatdırdı".

Sonra Heysəmi bu hədis üçün belə demişdir: "**Əhmədin sənədi həsəndir**".

"Fəthul-Bari" kitabında (7/14) İbn Həcər əl-Əsqəlani belə demişdir: "...Belə hədislərdən biri də Səd ibn Əbu Vəqqasın hədisidir. Səd demişdir: "Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizə məscidə açılan qapıları bağlamamızı əmr etdi. Təkcə Əlinin qapısına dəymədi." Bunu Əhməd və Nəsai nəql etmişlər. **İsnadı "qəvi"dir (güclüdür)**. Təbəraninin "əl-Əvsət"də **siqə ravilər** yolu ilə nəql etdiyi rəvayətdə isə belə bir əlavə vardır: "Dedilər: "Ey Allahın Rəsulu, Əlinin qapısından başqa bizim hamımızın qapısını bağlatdırdın?!" Peyğəmbər dedi: "Sizin qapılarınızı mən bağlatdırmadım, sizin qapılarınızı Allah bağlatdırdı". Həmçinin, Zeyd ibn Ərqəmdən belə dediyi nəql olunub: "Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrindən bir neçəsinin evinin qapısı məscidə açılırdı. Bir gün Peyğəmbər: "Əlinin qapısından başqa bu qapıların hamısını bağlayın", - dedi. Lakin camaat (öz aralarında) bu barədə danışmağa başladı. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) qalxıb Allaha həmd-səna etdi və dedi: "Mən Əlinin qapısından başqa bütün qapıları bağlatdırdım. Lakin sizin aranızda bəzi şəxslər narazılıq etdilər. Allaha and olsun ki, mən heç bir şeyi açıb-bağlamamışam. Mənə əmr olundu, mən də əmrə tabe oldum". Bu hədisi Əhməd, Nəsai və Hakim nəql etmişdir. **Raviləri siqə şəxslərdir**. Həmçinin, İbn Abbasdan belə nəql olunub: "Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlinin qapısından başqa məscidə (açılan) bütün qapıların bağlanmasını əmr etdi". Başqa bir rəvayətdə isə belə dediyi nəql olunur: "Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlinin qapısından başqa məscidə açılan bütün qapıları bağlatdırdı. O, cənabətli olduğu halda məscidə daxil olurdu. Onun evinə gedən yeganə yolu məsciddən keçirdi, başqa yolu yox idi." Bu hədisləri Əhməd və Nəsai nəql etmişlər. **Raviləri siqədirlər.** Həmçinin, Cabir ibn Səmurədən belə nəql edilmişdir: "Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizə bütün qapıları bağlamağı əmr etdi. Təkcə Əlinin qapısına dəymədi. Bəzən Əli cənabətli halda məsciddən keçib gedirdi". Bu hədisi Təbərani nəql etmişdir. Həmçinin, İbn Ömərdən belə nəql olunmuşdur: "Bir vaxtlar biz belə deyirdik: İnsanların ən xeyirlisi Allah Rəsuludur (sallallahu əleyhi [və alihi] və səlləm), sonra Əbu Bəkrdir, sonra da Ömərdir. Əli ibn Əbu Talibə üç xüsusiyyət verilmişdir ki, onlardan birinin məndə olması mənim üçün qırmızı tüklü dəvə sürüsündən daha sevimlidir. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) öz qızını ona ərə verdi və qızı ondan övlad dünyaya gətirdi. Məsciddə onun qapısından başqa bütün qapıları bağlatdırdı. Xeybər günü bayrağı ona verdi". Bunu Əhməd nəql etmişdir. **Sənədi həsəndir**. Həmçinin, Nəsai Əla ibn Ərar yolu ilə belə nəql etmişdir: "İbn Ömərə: "Mənə Əli və Osman barədə danış", - dedim..." Bundan sonra hədisin ardını qeyd etmişdir. Hədisdə deyilir: "...Əliyə gəlincə isə, onun barəsində heç kəsdən bir şey soruşma. Onun Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) yanında olan məqamına bax! O bizim məscidə açılan qapılarımızı bağlatdırdı, lakin Əlinin qapısını saxladı". **Əladan başqa bu hədisin ravilərinin hamısı "Səhih"in raviləridir. Əlanı da Yəhya ibn Məin və başqaları siqə hesab etmişlər. Bu hədislər bir-birlərini gücləndirirlər. Bu hədislərin toplusu bir yana, tək-təki belə dəlil gətirmək üçün yararlıdır!**" Sitatın sonu.

"Tuhfətül-əhvəzi" kitabında (10/122) isə belə gəlmişdir: "Əhməd və Nəsai güclü sənədlə Səd ibn Əbu Vəqqasdan belə nəql etmişlər: "Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizə məscidə açılan qapıları bağlamamızı əmr etdi. Təkcə Əlinin qapısına dəymədi". Əlinin qapısından başqa bütün qapıların bağlanması əmr ilə bağlı başqa hədislər də gəlmişdir. Hafiz (İbn Həcər) bu hədisləri "Fəthul-Bari" kitabında nəql etmiş, nəql etdikdən sonra isə demişdir: Bu hədislər bir-birlərini gücləndirirlər. Bu hədislərin toplusu bir yana, tək-təki belə dəlil gətirmək üçün yararlıdır". Sitatın sonu.

Elə isə, birincisi: İbn Teymiyyə nə cürətlə səhih, qəvi və həsən sənədlərlə nəql edilən belə bir hədisə "qondarma" hökmü verir?! İkincisi: Nə cürətlə şiələrə iftira ataraq bu hədisi şiələrin qondardığını iddia edir?!

İbn Teymiyyə bir tərəfdən səhih Peyğəmbər hədislərini inkar edir, başqalarına iftira ataraq bu hədisləri onların qondardıqlarını iddia edir, digər tərəfdən də heç bir əsli olmayan zəif hədisləri hamı yanında məqbulmuş kimi göstərməyə çalışır. Məsələn, "Minhacus-sünnə" kitabında (6/138) Əmirəlmöminin (əleyhissəlam)-a nisbət verilən "Mənim yanıma məni Əbu Bəkr və Ömərdən üstün hesab edən bir şəxs gətirsələr, iftira atdığı üçün ona şallaq

**Osman əl-Xəmisin təzadlarından başqa biri!**

Osman əl-Xəmis daha öncə belə iddia etmişdi ki, Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) yalnız və yalnız Qurandan yapışmağa əmr edib. Burada isə əvvəlki sözünü çeynəyərək həm Qurandan, həm də sünnədən yapışmağa əmr edən "Allahın kitabı və sünnəm" hədisini şahid gətirib. Buna əsasən, ya əvvəlki iddiasında qalmalıdır, ya da bu iddiasında. Əgər əvvəlki iddiasında qalsa və Peyğəmbərin yalnız Qurandan sarılmağa əmr etdiyini desə, o zaman bu hədisi dəlil gətirməsi batil olacaq. Yox əgər bu rəvayəti əsas hesab etsə, o zaman əvvəlki iddiası batil olacaq.

**Əgər "Allahın kitabı və sünnəm" hədisi səhih olsa belə yenə də Osman əl-Xəmisə fayda vermir**

Çünki Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) müsəlmanlara öz pak itrətinə sarılmaq əmri verdikdə məhz sünnəsinin ən güvənilir qaynaqdan – Əhli-Beyt (əleyhimussəlam) qaynağından əxz edilməsini istədiyi üçün belə etmişdir. Məsumluqları səbəbindən sünnəni heç bir təhrif və dəyişiklik olmadan olduğu kimi çatdıracaq yeganə qaynaq məhz Əhli-Beytdir (əleyhimussəlam). Əgər Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) "...Allahın kitabı və sünnəm" deməsi səhih hesab edilərsə, görəsən bu sünnə itrətdən başqa kimdən əxz edilə bilər?!

**2-ci rəvayət: "Mənim sünnəmə və məndən sonrakı raşidi xəlifələrin sünnəsinə sarılın"**

Osman əl-Xəmis deyir:

"Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) buyurmuşdur: **"Mənim sünnəmə və məndən sonrakı raşidi xəlifələrin sünnəsinə sarılın. Onların sünnəsindən azı dişlərinizlə yapışın."** Peyğəmbər onların sünnəsinə azı dişlə sarılmağı əmr etmişdir.

Həmçinin, demişdir: "Məndən sonra gələn iki şəxsin: Əbu Bəkrə və Ömərin ardınca gedin."

Həmçinin, demişdir: "Əmmarın yolu ilə gedin, İbn Məsudun "əhd"inə sarılın".

Lakin, bu kəlamlar əsla imamətə dəlalət etməmiş, əksinə, yalnız adı çəkilən şəxslərin Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) yolunda olduqlarına dəlalət etmişdir. Biz deyirik ki, Peyğəmbərin itrəti əsla zəlalət yolunda olmaz. Lakin, Peyğəmbərin itrəti kimlərdən ibarətdir?! Bu barədə daha əvvəl ətraflı danışdıq."

**Deyirəm:**

---

vuraram!" sözünü sanki hər kəs tərəfindən 100% qəbul edilirmiş kimi təqdim etmişdir. Halbuki bu rəvayət əsla səhih sənədlə sübuta yetməmişdir. Əksinə, İmam Əli (əleyhissəlam)-ın adından uydurulan yalanlardandır.

**Birinci:** Bəzilərinin səhih göstərmə cəhdlərinə baxmayaraq, birinci hədis sənəd baxımından zəifdir. Onların belə bir işə cəhd etməsi ya onların məlumatsızlıqlarından qaynaqlanır, ya da bilərəkdən əhli-sünnə alimlərinin hədis qəbulu üçün şərt hesab etdikləri qayda-qanunlara müxalifət etmək istəyirlər!

Rəvayətin bütün sənədləri İrbad ibn Sariyəyə çatır. "Bu rəvayəti nəql edən yeganə şəxs məhz İrbad ibn Sariyədir. Bu isə rəvayətin həqiqətən də Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) tərəfindən deyilib-deyilməməsi barədə şəkk ortaya salır. Çünki hədis məsciddə, namazdan sonra deyilib. Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) çox bəlağətli bir xütbə edibmiş. Elə bir xütbə edibmiş ki, gözlər yaşla dolub, qəlblər riqqətə gəlib. Daha sonra ondan ümmətə vəsiyyət etməsi istənilib, Peyğəmbər də bu hədisi deyib... Elə isə necə olur ki, bu hədisi ancaq İrbad nəql edir?! Və bu hədisi ancaq İrbaddan nəql edirlər?!".

"Bu hədis məhz Şamda nəql edilib. Onu nəql edib yayanlar da məhz Şam camaatıdır. Bu rəvayəti nəql edənlərin əksəriyyəti Homs şəhərindəndirlər. Homslular Müaviyənin tərəfdarları, İmam Əlinin (əleyhissəlam) ən qatı düşmənləridirlər. Hədisin mətni ilə yanaşı bu məqama diqqət yetirdikdə, hədisin həqiqətən də Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sadir olması barədə güvən qalmır. Homsulunun homsludan, o homslunun da başqa bir homsludan nəql etdiyi və başqa hədis nəql edənlərin xəbərdar olmadığı bir hədisə necə güvənmək olar?! Şamlılar üçün Müaviyənin hakimiyyətini gücləndirəcək və ya ona müxalif olan şəxsin məqamını aşağı salacaq şeylər uydurmaq elə də çətin deyil!".[313]

Əllamə Həssan ibn Əbdül-Mənnan özünün "Hivarun məə əş-Şeyx əl-Əlbani fi munaqəşəti-hədisil-İrbad ibn Sariyə" kitabında adıçəkilən hədisin bütün sənədlərini qeyd edib onları müzakirə etdikdən sonra deyir:

"...Deməli hədisin mehvəri – Allah daha yaxşı bilər – Əbdür-Rəhman ibn Əmr əs-Suləmi ətrafında dönür".[314]

Əbdür-Rəhman ibn Əmr əs-Suləmi isə kimliyi məchul bir şəxsdir. Onun barəsində İbn Hibbandan başqa heç kəs tərəfindən tövsiq[315] gəlməmişdir. Əhli-sünnə yanında da məlumdur ki, İbn Hibban "əs-Siqat" kitabında tez-tez məchul şəxsləri siqə hesab edir. 628-ci hicri ilində fəvat edən İbnul-Qəttan əl-Fasi özünün "əl-Vəhm vəl-iyham" kitabında (2/35) bu hədisin zəif olduğunu, Əbdür-Rəhman ibn Əmrin isə məchul şəxs olduğunu bildirmişdir. O, öz kitabında Əbdül-Haqq əl-İşbiliyə etiraz etmişdir. Belə ki, kitabındakı "Əbdül-Haqq əl-İşbilinin sükut edərək səhih bildiyi, lakin səhih olmayan hədislər" adlı başlıqda demişdir:

"Əbdül-Haqq əl-İşbili Əbu Davud yolu ilə İrbad ibn Sariyədən belə nəql etmişdir: "Bir gün Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizə namaz qıldırdı..." Sonra hədisi qeyd etmişdir. O, hədisi qeyd etdikdən sonra sükut etmişdir, (bununla hədisin səhih olduğuna işarə etmişdir). Halbuki hədis səhih deyildir. Belə ki, Əbu Davud hədisi bu sənədlə qeyd etmişdir: "Bizə Əhməd ibn

---

313 "ər-Rəsailul-əşər" (Seyyid Milani): 3-cü risalə, səh.16-17, həmçinin bax: 18-20, burada İrbad ibn Sariyənin nə dərəcədə etimadlı şəxs olub-olmadığını araşdırmışdır.

314 "Hivarun məəş-Şeyx əl-Əlbani": səh.81.

315 Tövsiq: bir şəxsi siqə (güvənilir) bilmək. "Filankəs barəsində tövsiq gəlib", yəni filankəs barəsində siqə (güvənilir) olduğu deyilib. (Tərc.).

Hənbəl nəql edib dedi: bizə Vəlid ibn Müslim nəql edib dedi: bizə Səvr ibn Yəzid nəql edib dedi: bizə Xalid ibn Mədan (مَعْدان) nəql edib dedi: mənə Əbdür-Rəhman ibn Əmr əs-Suləmi və Hucr ibn Hucr nəql edib dedilər: Biz İrbad ibn Sariyənin yanına gəldik... hədis."

Sənəddə qeyd olunan Hucrin kimliyi bilinmir. Mən onun barəsində bir söz deyən bir kəs tanımıram. Əbdür-Rəhman ibn Əmr əs-Suləmiyə gəlincə isə, Buxari və İbn Əbu Hatim onun adını qeyd etmişlər. İbn Əbu Hatim onun barəsində heç bir şey deməmişdir. Buxari isə onun İrbaddan hədis nəql etdiyini, Xalid ibn Mədan, Damrə ibn Həbib və Əbdül-Əla ibn Hilalın da ondan hədis nəql etdiklərini qeyd etmişdir. Bundan başqa bir söz deməmişdir. **Bu şəxs məchul şəxsdir.** Onun səbəbilə hədis səhih sayılmır. Bu hədisi Vəlid ibn Müslim başqa bir sənədlə də nəql etmiş və demişdir: "Bizə Abdullah ibn Əla ibn Zubər Yəhya ibn Əbul-Muta\`dan, o da İrbad ibn Sariyədən belə nəql etmişdir... hədis." Bəzzar da bu hədisi nəql etmişdir. Bu hədis də həmçinin, səhih deyil. Çünki Yəhya ibn Əbul-Muta\`ın kimliyi bilinmir. **Bu hədis Şam camaatının işlərindəndir!**"[316]

Sonra Şeyx Həssan Əbdül-Mənnan deyir:

"Mənim üçün İrbad ibn Sariyənin hədisi barədə aydın oldu ki, bu hədis səhih deyil...".[317]

Səqəleyn hədisinə qarşı uydurulmuş bu qondarma hədisin sənədi barədə bu qədərlə kifayətlənirik. Əgər bu rəvayətin səhih olduğunu fərz etsək, o zaman o, yalnızca Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) itrətindən olan imamlara (əleyhimussəlam) uyğun gələcək. Bunun səbəbi də Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) onlara sarılmağa əmr etməsi, onların Qurandan, Quranın da onlardan ayrılmayacağını bildirməsidir. Kimdə bu xüsusiyyət olsa, onun sünnəsi Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) sünnəsi kimi olar.

**İkinci:** Yoldaşımız Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) nisbət verilən bu sözləri məhz ona görə qeyd edir ki, Peyğəmbərin səqəleyn hədisində itrətə sarılmaq əmri verməsinin pak itrətin (əleyhimussəlam) imamlığına dəlalət etmədiyini desin, hədisin yalnızca itrətin hidayət yolunda olmasına dəlalət etdiyini, onlardan başqa da hidayət yolunda olan şəxslər olduğunu ("raşidi xəlifələr", Əbu Bəkr, Ömər, Əmmar və İbn Məsud kimi) bildirsin. Osman əl-Xəmis bu hədislərin hamısının qondarma olduğunu bildiyi halda bu sözləri deyir.

**Üçünücü:** Bu rəvayətin səhih olduğunu fərz etsək belə, heç şübhəsiz ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) "raşidi xəlifələr" sözü ilə özünün ümmət arasında xəlifə təyin etdiyi on iki İmamı (əleyhimussəlam) nəzərdə tutuv. Bu hədis səqəleyn hədisini dəstəkləyir və heç bir vəchlə onunla ziddiyyət təşkil etmir.

Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm): "**Hamısı Qüreyşdən olan on iki xəlifə olduğu müddətcə bu iş (İslam) aradan getməyəcək**",[318] - deyə buyurması səhih şəkildə sübuta yetmişdir. Başqa bir rəvayətdə: "**Məndən sonra**

---

[316] "Hivarun məəş-Şeyx əl-Əlbani": səh.115-116.
[317] "Hivarun məəş-Şeyx əl-Əlbani": səh.161-162.
[318] "Səhihü-Müslim": 3/1453, hədis: 1821.

**hamısı Qüreyşdən olan on iki xəlifə olacaq**”[319], - deyə buyurduğu, bir başqa rəvayətdə də: “**Qiyamət qopanadək, yaxud sizin üzərinizdə hamısı Qüreyşdən olan on iki xəlifə mövcud olduğu müddətcə, din ayaqda duracaq**”[320], - deyə buyurduğu qeyd olunmuşdur.

On iki xəlifə hədisi əhli-sünnəni çaşbaş qoyan hədislərdən biridir. Onlar bu on iki xəlifənin kimliyini təyin etməkdən ötrü gah şərqə, gah qərbə üz tutmuşlar. On iki xəlifəni Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra hakimiyyətə gələn şəxslər arasında axtarmağa başlamışlar. Onlardan bəzisi on iki nəfər şəxs üçün bir siyahı hazırlamış, lakin digərləri onu qəbul etməmişlər!

Həqiqət isə budur ki, bu hədis Əhli-Beytdən olan on iki pak İmamdan (əleyhimussəlam) başqa heç kəsə uyğun gəlmir.[321]

**Dördüncü:** “Səhabələr arasında real həyatda baş verənlər bu hədisi təkzib edir. Məlumdur ki, əhli-sünnənin nəzərində Əbu Bəkr və Ömər “raşidi xəlifələr”dən sayılırlar. Lakin biz səhabələrin çox vaxt Əbu Bəkrin və Ömərin sünnəsi ilə müxalifət etdiklərini görürük. Hətta, Ömər bir çox yerdə Əbu Bəkrə müxalifət etmişdir!

Əgər həqiqətən də Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) belə bir hədis buyurmuş olsaydı, bütün bu ixtilaflar və münaqişələr baş verməzdi... Buna görə də onlar hədisi təvil etmiş, onu başqa mənaya yozmuşlar. “Musəlləmus-subut” kitabının müəllifi bu hədisin təvil edilməsinin zəruri olduğunu bildirmişdir (“Fəvatihur-rəhəmut fi musəlləmis-subut”: 2/231).”[322]

### 3-cü rəvayət: “Məndən sonra gələcək iki şəxsin; Əbu Bəkr və Ömərin ardınca gedin”

Bu rəvayətə cavabımız belədir:

**Birinci:** Bu rəvayət sübut yetməmişdir. Onun bütün təriqləri zəifdir. Bu rəvayət İbn Məsuddan, Ənəs ibn Malikdən, Abdullah ibn Ömərdən, Hüzeyfə ibn əl-Yəmandan, Əbud-Dərdadan və Abdullah ibn Əbu Huzeylin nənəsindən nəql edilmişdir.

Abdullah ibn Məsudun rəvayətinə gəlincə, onu Tirmizi “əs-Sünən” kitabında (5/672, hədis: 3905), Hakim ən-Nişapuri “əl-Müstədrək ələs-səhiheyn” kitabında (3/80, hədis: 4456) və Təbərani “əl-Mücəmül-kəbir” kitabında (9/72, hədis: 8426) aşağıdakı sənədlə nəql etmişlər:

İbrahim ibn İsmayıl ibn Yəhya ibn Sələmə ibn Kuheyl nəql edib dedi: mənə atam öz atasından, o, Sələmə ibn Kuheyldən, o, Əbuz-Zəradan (أَبُو الزَّعْرَاء), o da İbn Məsudduan nəql edib dedi:

---

319 “Səhihü-İbn Hibban”: 15/43, hədis: 6661.

320 “Müsnədü-Əhməd”: 5/89, hədis: 20862.

321 Bu hədis barədə daha geniş məlumat almaq istəyənlər Şeyx Əli Ali-Muhsinin “Məsailun xilafiyyə harə fiha əhlus-sunnə” kitabına (səh.5), həmçinin Ayətullah əl-Uzma Seyyid Əli Hüseyni Sistaninin (Allah ömrünü uzun etsin) tabeçiliyində olan “ər-Risalət” mərkəzinin hazırladığı “Mutarahat fil-fikr vəl-əqidə” kitabın (səh.61) müraciət etsinlər.

322 “ər-Rəsailul-əşər” (“On risalə”, Ayətullah Seyyid Əli Hüseyni Milani (Allah ömrünü uzun etsin)): 3-cü risalə, səh.16.

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Məndən sonra mənim əshabımdan olan iki şəxsin: Əbu Bəkrin və Ömərin ardınca gedin. Əmmarın tutduğu yolla gedin, İbn Məsudun əhdinə sarılın”.

Bu təriq onda olan bir neçə zəif raviyə görə zəifdir. Sənəddə İbrahim ibn İsmayıl ibn Yəhya vardır ki, Əbu Zəra (زَرْعَة) onu ittiham etmişdir.[323] Həmçinin, İbn Həcər onun barəsində: “Zəifdir”, - demişdir.[324] Əbu Cəfər əl-Üqeyli isə: “Muhəmməd ibn Abdullah əl-Hadrami bizə nəql edib dedi: İbn Numeyr İbrahim ibn İsmayıldan razı deyildi və onu zəif hesab edirdi. Həmçinin, dedi: İbrahim münkər hədislər nəql etmişdir”, - demişdir.[325] Həmçinin, Üqeyli onun barəsində: “İbrahim hədisləri düzgün nəql edə bilmirdi”[326], - demişdir.[327] Zəhəbi isə: “Əbu Zəra onu leyyin[328] hesab etmiş, Əbu Hatim də onu tərk etmişdir”, - demişdir.[329]

Həmçinin, sənəddə İsmayıl ibn Yəhya ibn Sələmə vardır. Darəqutni onun barəsində: “Tərk olunmuş şəxsdir”, - demişdir.[330] İbn Həcər də onun barəsində belə demişdir.[331] Zəhəbi isə “əl-Kaşif”də onun barəsində: “Vahidir[332]”, - demişdir.[333]

Həmçinin, sənəddə Yəhya ibn Sələmə ibn Kuheyl vardır. Buxari onun barəsində: “Onun hədisləri arasında münkər hədislər var”, - demişdir.[334] Həmçinin: “Munkərul-hədisdir”, - demişdir.[335] Tirmizi: “Hədis mövzusunda zəif hesab edilir”, - demişdir.[336] Əbu Hatim: “Munkərul-hədisdir, güclü deyildir”, - demişdir.[337] İcli: “Hədisləri zəifdir”, - demişdir.[338] Yəhya ibn Məin də belə demişdir.[339] Əbu Davud: “Bir şey deyildir”, - demişdir.[340] Yəhya ibn Məin də belə demişdir.[341] Nəsai: “Hədisi tərk olunmuş şəxsdir”, - demişdir.[342] Həmçinin: “Siqə deyildir”, - demişdir.[343] Zəhəbi: “Zəifdir”, - demişdir.[344] İbn Həcər isə: “Tərk olunmuş şəxsdir”, - demişdir.[345]

Həmçinin, sənəddə Əbuz-Zəra var. O, Abdullah ibn Hani əl-Kindidir. Bəziləri onu siqə bilsələr də Buxari onun barəsində: “Onun hədisinə tabe olunmaz”, -

---

323 “əl-Kaşif”: 1/34, rəqəm: 116, “Xulasətu-təhzibi-təhzibil-kəmal”: 1/40, rəqəm: 179.
324 “Təqribüt-təhzib”: 1/47, rəqəm: 171.
325 “Təhzibül-kəmal”: 1/101, rəqəm: 145.
326 Yaxud: İbrahim doğru-düzgün hədis nəql edə bilmirdi. (Tərc.).
327 “Təhzibül-kəmal”: 1/101, rəqəm: 145.
328 Zəif. (Tərc.).
329 “Mizanül-itidal”: 1/20.
330 “Camiul-cərh vət-tə`dil”: 1/80, rəqəm: 394, “Təhzibül-kəmal”: 1/259, rəqəm: 562.
331 “Təqribüt-təhzib”: 1/86, rəqəm: 562.
332 Zəifdir. “Vahi”, “leyyin” və s. bu kimi sözlər sinonim mənalarda olan sözlərdir. Hamısı zəifliyə dəlalət edir. Aralarındakı yeganə fərq dərəcə fərqliliyi ola bilər. (Tərc.).
333 “əl-Kaşif”: 1/82, rəqəm: 415.
334 “Camiul-cərh vət-tə`dil”: 3/292, rəqəm: 4906, “Təhzibül-kəmal”: 8/47.
335 “Camiul-cərh vət-tə`dil”: 3/292, rəqəm: 4906.
336 “Təhzibül-kəmal”: 8/247.
337 “Təhzibül-kəmal”: 8/247.
338 “Camiul-cərh vət-tə`dil”: 3/292.
339 “Təhzibül-kəmal”: 8/47.
340 “Camiul-cərh vət-tə`dil”: 3/292.
341 “Təhzibül-kəmal”: 8/47.
342 “Camiul-cərh vət-tə`dil”: 3/292.
343 “Təhzibül-kəmal”: 8/47.
344 “əl-Kaşif”: 3/244, rəqəm: 6261.
345 “Təqirbut-təhzib”: 2/356, rəqəm: 8515.

demişdir.[346] Həmçinin, Üqeyli onu "əd-Duəfa" ("Zəif şəxslər") kitabında qeyd etmişdir.[347] Zəhəbi "Təlxisul-mustədrək"də bu hədis üçün: "Deyirəm: Sənədi vahidir (zəifdir)", - demişdir.[348]

Bu hədisin başqa bir təriqi də vardır ki, onu Təbərani "əl-Mücəmül-əvsət"də qeyd etmişdir. Təriq belədir:

Bizə Muhəmməd ibn Əhməd ibn ər-Rəqqam nəql edib dedi: bizə İbrahim ibn Səlm ibn Ruşeyd əl-Huceymi xəbər verib dedi: bizə Əmr ibn Ziyad əl-Bahili nəql edib dedi: bizə Abdullah ibn Mubarək Süfyandan, o, Sələmə ibn Kuheyldən, o, Əbuz-Zəradan, o da Abdullah ibn Məsuddan nəql edib dedi:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: "Məndən sonra gələn iki şəxsin: Əbu Bəkrin və Ömərin ardınca gedin.[349]

Bu təriq də həmçinin zəifdir. Belə ki, sənəddə İbrahim ibn Səlm (Salim) ibn Ruşeyd əl-Huceymi vardır ki, kimliyi məlum deyil. Heysəmi "Məcməuz-zəvaid" kitabında sənədində İbrahim ibn Səlmin olduğu bir hədisə hökm verərkən belə demişdir: "Hədisin sənəddə İbrahim ibn Səlm (Salim) əl-Huceymi vardır. Mən onu tanımıram".[350]

Həmçinin sənəddə Əmr ibn Ziyad əl-Bahili vardır ki, Əbu Hatim ər-Razi onun barəsində: "Yalançı və böhtançı idi, hədis qondarırdı!", - demişdir.[351] Darəqutni: "Hədis qondarır", - demişdir.[352] İbn Ədiy: "Hədis oğurlayır və batil şeylər nəql edir", - demişdir.[353] Üqeyli onun tərcümeyi-halında demişdir: "Muhəmməd ibn Yusif bizə dedi: Bu şeyx Reydən bizim yanımıza gəldi. O, Bağdadda olduğunu bizə dedi. O, Əhməd ibn Hənbəldən danışır, onu tanıdığını deyirdi[354]. O, Əbu Zəradan da danışdı. Sonra bizə bir sıra hədislər söylədi. Bizimlə birgə əshabımızdan olan şəxslərdən biri bu hədisləri münkər hesab etdi. Bu səbəbdən də biz Əbu Zəraya məktub yazıb onun hədislərini Əbu Zəraya göndərdik. Əbu Zəra bizə belə cavab yazdı: "Bu hədislər qondarmadır. Həmin şəxs yalançıdır".[355]

Həmçinin sənəddə Əbuz-Zəra vardır ki, onun barəsində məlumat verildi.

Ənəs ibn Malikin hədisinə gəlincə, onun rəvayətini İbn Ədiy Həmmad ibn Dəlilin tərcümeyi-halını qeyd edərkən nəql etmişdir:

Bizə Əli ibn Həsən ibn Süleyman nəql edib dedi: bizə Əhməd ibn Muhəmməd ibn Muəlla əl-Adəmi nəql edib dedi: bizə Müslim ibn Saleh Əbu Rəca nəql edib dedi: bizə Həmmad ibn Dəlil Ömər ibn Nafedən, o da Əmr ibn Hərəmdən nəql edib dedi:

Mən və Cabir ibn Zeyd Ənəs ibn Malikin yanına getdik. Malik dedi:

---

[346] "ət-Tarixul-kəbir": 5/720.
[347] "əd-Duəfa": 2/314.
[348] "Təlxisul-müstədrək": 3/76.
[349] "əl-Mucəmul-əvsət": 7/128, hədis: 7177.
[350] "Məcməuz-zəvaid": 10/163.
[351] "Mizanül-itidal": 3/260, "əl-Kəşful-həsis": 1/201, "Lisanul-mizan": 4/364.
[352] "əl-Cami fil-cərh vət-tədil" 2/288, "Mizanül-itidal": 3/261, "əl-Kəşful-həsis": 1/202.
[353] "Mizanül-itidal": 3/261, "Lisanul-mizan": 4/364.
[354] "Onu tanıdığını deyirdi" sözündə əvəzliyin Əmrə ibn Ziyada, yoxsa Əhməd ibn Hənbələ aid olduğunu dəqiqləşdirmək çətindir. Cümlədən "özünün Əhməd ibn Hənbəli tanıdığını deyirdi" mənası başa düşüldüyü kimi "Əhməd ibn Hənbəl onu tanıdığını deyirdi" mənası da başa düşülə bilər. (Tərc.).
[355] "əd-Duəfaul-kəbir" (Üqeyli): 3/275.

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Məndən sonra gələn iki şəxsin: Əbu Bəkrin və Ömərin ardınca gedin. Ümmü-Abdullahın oğlunun əhdindən yapışın, Əmmarın getdiyi yolla gedin”.

Bizə Muhəmməd ibn Əbdül-Məcid əl-Fərğani nəql edib dedi: bizə Saleh ibn Həkim əl-Bəsri nəql edib dedi: bizə Əbu Rəca Müslim ibn Saleh nəql edib dedi: bizə Mədainin qazısı Əbu Zeyd Həmmad ibn Dəlil Ömər ibn Nafedən nəql edib dedi... hədis.

Bizə Muhəmməd ibn Səid əl-Hərrani nəql edib dedi: bizə Cəfər ibn Muhəmməd ibn Səbbah nəql edib dedi: bizə Müslim ibn Saleh əl-Bəsri nəql edib dedi... Daha sonra əvvəlki sənədi qeyd etmişdir.[356]

Bütün sənədlərdə Müslim ibn Saleh, Həmmad ibn Dəlil, Ömər ibn Nafe və Əmr ibn Hərəm var. Müslim ibn Salehə gəlincə, əldə etdiyim rical kitablarının heç birində onun tərcümeyi-halına rast gəlmədim. Həmmad ibn Dəlilə gəlincə, Əbul-Fəth əl-Əzdi onu zəif hesab etmişdir.[357] Ömər ibn Nafeyə gəlincə, onun kim olduğu dəqiq şəkildə bilinmir.[358] Əmr ibn Hərəmə gəlincə də, Qəttan və başqaları onu zəif bilmişlər.[359]

Abdullah ibn Ömərin hədisinə gəlincə, Üqeyli onu “əd-Duəfa” kitabında Muhəmməd ibn Abdullah ibn Ömər ibn Qasim əl-Umərinin tərcümeyi-halını qeyd edərkən nəql etmişdir:

Bizə bu hədisi Əhməd ibn Xəlil əl-Xureybi İbrahim ibn Muhəmməd əl-Hələbidən, o, Muhəmməd ibn Abdullah ibn Ömər ibn Qasim ibn Abdullah ibn Ubeydullah ibn İbrahim ibn Ömər ibn əl-Xəttabdan, o, Malikdən, o Nafedən, o da İbn Ömərdən nəql edib dedi:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Məndən sonra gələn iki şəxsin: Əbu Bəkrin və Ömərin ardınca gedin”.

Bunun ardınca Üqeyli demişdir: “Münkər hədisdir. Malik belə bir hədis nəql etməmişdir!”[360]

Zəhəbi və İbn Həcər əl-Əsqəlani Muhəmməd ibn Abdullah ibn Ömər əl-Ədvinin tərcümeyi-halını qeyd edərkən belə demişlər:

“Muhəmməd ibn Abdullah ibn Ömər ibn Qasim ibn Abdullah ibn Ubeydullah ibn Asim ibn Ömər ibn əl-Xəttab əl-Ədvi əl-Uməri. Üqeyli onu qeyd edərək: “Onun hədisi səhih hesab olunmur, o, hədis nəql etməsi ilə tanınmır”, - demişdir.

Bizə Əhməd ibn Xəlil nəql edib dedi: bizə İbrahim ibn Muhəmməd əl-Hələbi nəql edib dedi: mənə Muhəmməd ibn Abdullah ibn Ömər ibn Qasim nəql edib dedi: bizə Malik Nafedən, o da İbn Ömərdən mərfu şəkildə[361] xəbər verib dedi: “Məndən sonra gələn iki şəxsin: Əbu Bəkrin və Ömərin ardınca gedin”.

Malik belə bir hədis nəql etməmişdir. Əksinə, bu hədis Hüzeyfə ibn əl-Yəmandan nəql edilmişdir.[362]

---

[356] “əl-Kamil fid-duəfa”: 2/249.

[357] “Mizanül-itidal”: 1/590, “Təhzibüt-təhzib”: 3/8.

[358] “əl-Kamil fid-duəfa”: 5/46.

[359] “Mizanül-itidal”: 3/291.

[360] “əd-Duəfa”: 4/94.

[361] “Mərfu hədis” sənəd silsiləsi Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) çatan hədis. (Tərc.).

[362] **Deyirəm: Hüzeyfənin hədisi də zəifdir. Bir qədər sonra qeyd olunacaq.**

Darəqutni demişdir: “Bu Uməri Malikdən batil şeylər nəql edir”.

İbn Mundə isə demişdir: “Onun münkər hədisləri var”.”[363]

İbn Həcər isə əlavə edərək demişdir:

“Üqeyli hədisi qeyd etdikdən sonra demişdir: “Bu, əsli olmayan münkər bir hədisdir”. Bu hədisi Darəqutni də Əhməd əl-Xəlili əd-Damri yolu ilə eyni sənədlə nəql etmiş, sonra demişdir: “Bu hədis sübuta yetmir. Öməri zəifdir”.”[364]

Zəhəbi və İbn Həcər Əhməd ibn Muhəmməd ibn Ğalib əl-Bahilinin tərcümeyi-halında demişlər:

“Onun müsibətli (hədislərindən) biri də budur ki, belə demişdir: Bizə Muhəmməd ibn Abdullah əl-Uməri nəql edib dedi: bizə Malik Nafedən, o da İbn Ömərdən nəql edib dedi: Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Məndən sonra gələn iki şəxsin: Əbu Bəkrin və Ömərin ardınca gedin”. Bu, Malikə nisbət verilmiş bir hədisdir. Əbu Bəkr ən-Nəqqaş: “O, vahidir”[365], - demişdir.”[366]

Buna əsasən, İbn Ömərin rəvayəti də zəif olmuş olur. Üqeylinin, Zəhəbinin və İbn Həcərin sözlərindən belə başa düşülür ki, rəvayət İbn Ömərin adından uydurulmuşdur və İbn Ömər belə bir şey nəql etməmişdir!

Hüzeyfə ibn əl-Yəmanın hədisinə gəlincə, onu Əhməd “Müsnəd”də[367], həmçinin, “Fadailus-səhabə”də[368], İbn Əbu Şeybə “əl-Müsənnəf”də[369], Hakim “Müstədrək”də[370], İbn Macə “Sünən”də[371], Beyhəqi “əs-Sünənul-kubra”da[372], Təbərani “əl-Mücəmül-əvsət”də[373], Təhavi də “Şərhu-muşkilil-asar”da[374] aşağıdakı təriqlə nəql etmişlər:

Süfya əs-Səvri, Əbdül-Məlik ibn Umeyrdən, o, Rəb`i ibn Hiraşın azad etdiyi bir quldan, o da Hüzeyfə ibn Yəmandan... hədis.

Bu təriq də zəifdir. Çünki orda Əbdül-Məlik ibn Umeyr var. Əhməd onun barəsində: “Az rəvayət nəql etməsinə rəğmən olduqca “muztəribul-hədis”[375] şəxsdir. Onun beş yüz hədisini görmüşəm. Bu hədislərin bir çoxunda səhv edib”, - demişdir[376]. İshaq ibn Mənsur demişdir: “Əhməd onu olduqca zəif hesab etmişdir”.[377]

---

363 “Mizanül-itidal”: 3/610, “Lisanul-mizan”: 5/237.

364 “Lisanul-mizan”: 5/237.

365 Böyük ehtimalla “o, vahidir” sözü ilə Əhməd ibn Muhəmməd ibn Ğalib nəzərdə tutulur. Hədis də nəzərdə tutula bilər. (Tərc.).

366 “Mizanül-itidal”: 1/142, “Lisanul-mizan”: 1/273.

367 “Müsnədü-Əhməd”: 5/402, hədis: 23467; 5/382, hədis: 23293.

368 “Fadailus-səhabə”: 1/332, hədis: 478; 1/426, hədis: 670.

369 “Müsənnəf”: 7/433, hədis: 37049; 6/350, hədis: 31942.

370 “Müstədrək ələs-səhiheyn”: 3/79, hədis: 4454.

371 “Sünəni-İbn Macə”: 1/37, hədis: 97.

372 “əs-Sünənul-kubra”: 8/153, hədis: 16367 və 16368.

373 “əl-Mucəmul-əvsət”: 5/344, hədis: 5503.

374 “Tuhfətul-əxyar bi-tərtibi-şərhi-muşkilil-asar”: 9/213, hədis: 6528.

375 “Muztəribul-hədis” hədisləri qarışdıran, hədislərin mətnini yanlış şəkildə nəql edən şəxs. Belə ravi zəif ravi sayılır. (Tərc.).

376 “əl-Cərh vət-tədil”: 5/360, “Məvsuatu-əqvali Əhməd ibn Hənbəl fi ricalil-hədis və iləlih”: 2/389.

377 “Təhzibüt-təhzib”: 3/506, “Məvsuatu-əqvali Əhməd ibn Hənbəl fi ricalil-hədis və iləlih”: 2/389, “Mizanül-itidal”: 2/660.

Mərvəzi demişdir: “Əbu Əbdillahdan Əbdül-Məlik ibn Umeyr barədə soruşdular, dedi: Müztəribul-hədisdir. Çox az adam var ki, ondan hədis nəql edib (hədisi) üzərində ixtilaf etməmiş olsun”.[378]

Əbu Davud demişdir: “Əhmədin belə dediyini eşitdim: Əbül-Məlik ibn Umeyr hədisdə olduqca müztəribdir. Hafizlər onun üzərində – yəni, ondan nəql etdikləri hədislər üzərində – ixtilaf etmişlər.”[379]

Zəhəbi demişdir: “Əhməd demişdir ki, zəifdir və hədisləri qarışdırır”.[380]

İbn Məin demişdir: “Qarışdırandır”.[381]

Əbu Hatim demişdir: “Hafiz deyil. Yaddaşı dəyişmişdir.[382]”[383]

İbn Hiraş demişdir: “Şubə ondan razı deyildi (və ya: Şubənin ondan xoşu gəlmirdi)”.[384]

Əbdül-Məlik müdəllis olmuş[385] və bu xüsusiyyətlə məşhurlaşmışdır.[386] Bunu Darəqutni, İbn Hibban və başqaları demişdir.[387] Bundan əlavə, o, Bəni-Üməyyənin qazısı olmuşdur.

Həmçinin sənəddə Rəbii ibn Hiraşın azad etdiyi qul vardır. Bəzi təriqlərdə bu qulun adı Hilal kimi qeyd olunub. Bu şəxs də kimliyi məchul şəxsdir. İbn Həzm demişdir:

“Bəziləri azad edilmiş qulun adının Hilal olduğunu söyləmişlər. Bu şəxs kimliyi məchul olan bir şəxsdir, kim olduğu əsla bilinmir”.[388]

Bu hədisi Tirmizi “Sünən”də[389], Əhməd ibn Hənbəl “Müsnəd”[390] və “Fadailus-səhabə”də[391], Hakim “əl-Müstədrək”də[392], Təbərani “əl-Mücəmül-əvsət”də[393], Təhavi də “Şərhu-muşkilil-asar”[394] kitabında aşağıdakı təriqlə nəql etmişlər:

Əbdül-Məlik ibn Umeyr Rəbii ibn Hiraşdan, o da Hüzeyfədən... hədis.

Bu təriq də zəifdir. Birincisi Əbdül-Məlik ibn Umeyrə görə (onun barəsidə məlumat verildi). İkincisi ona görə ki, Əbdül-Məlik ibn Umeyr hədisi Rəbii ibn Hiraşdan birbaşa şəkildə eşitməmişdir. O, hədisi məhz Rəbiinin azad etdiyi bir qul vasitəsilə eşitmişdir ki, o qulun da kimliyi məchuldur.

İbn Əbu-Hatimin “əl-İləl” kitabında belə deyilir:

---

378 “Məvsuatu-əqvali Əhməd ibn Hənbəl fi ricalil-hədis və iləlih”: 2/388-389.
379 “Məvsuatu-əqvali Əhməd ibn Hənbəl fi ricalil-hədis və iləlih”: 2/389.
380 “Mizanül-itidal”: 2/660.
381 “Təhzibüt-təhzib”: 3/505, “Mizanül-itidal”: 2/660, “Təhzibül-kəmal”: 5/567.
382 “Yaddaşı dəyişmişdir” sözü “yaddaşı zəifdir” sözü ilə eyni qüvvədədir. Bax: “Mucəmul-mustalahatil-hədisiyyə”: səh.256. (Tərc.).
383 “Mizanül-itidal”: 2/660.
384 “Mizanül-itidal”: 2/660.
385 “Təhzibüt-təhzib”: 3/507.
386 “ət-Təhsil fi əhkamil-mərasil”: səh.108, “Əsmaul-mudəllisin”: 1/142.
387 “Tabaqatul-mudəllisin”: 1/41.
388 “əl-İhkam fi usulil-əhkam”: 6/809.
389 “Sünənüt-Tirmizi”: 5/609, hədis: 3662.
390 “Müsnədü-Əhməd”: 5/382, hədis: 23293.
391 “Fadailus-səhabə”: 1/609, hədis: 3662; 1/332, hədis: 479.
392 “Müstədrək”: 3/79, hədis: 4451, 4452, 4453; 3/80, hədis: 4455.
393 “əl-Mucəmul-əvsət”: 6/76, hədis: 5840.
394 “Tuhfətul-əxyar”: 9/213, hədis: 6529, 6530, 6531, 6532, 6533.

“Atamdan İbrahim ibn Sədin Səvridən, onun Əbdül-Məlik ibn Umeyrdən, *onun Rəbii ibn Hiraşın azad etdiyi qul olan Hilaldan*, onun Rəbiidən, onun Hüzeyfədən, onun da Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) nəql etdiyi “məndən sonra gələn iki şəxsin ardınca gedin” hədis barədə soruşdum. Bu hədisi Zaidə və başqaları da Əbdül-Məlik ibn Umeyr, Rəbii, Hüzeyfə və Peyğəmbər təriqi ilə nəql etmişlər. Mən sual verib dedim: “Bu iki təriqdən hansı biri daha səhihdir?” Atam dedi: “Bizə (bu hədisi) İbn Kəsir Səvridən, o, Əbdül-Məlik ibn Umeyrdən, o, *Rəbiinin azad etdiyi quldan*, o, Rəbiidən, o, Hüzeyfdən nəql etdi. Mən: “Hansı biri səhihdir?”, - dediyimdə, İbn Kəsir: “Səvrinin dediyi”, - dedi”...”[395]

Əllamə Həssan ibn Əbdül-Mənnan Hüzeyfənin hədisinin bəzi təriqlərinə işarə etdikdən sonra demişdir:

“Deyirəm: Bu rəvayətlərdə güclü iztirab[396] vardır. Hədislərin mehvəri Rəbii ibn Hiraşın azad etdiyi qul olan Hilal ətrafında dönür. Onun kimliyi isə məlum deyil. **Bəziləri onun adını Əbdül-Məliklə Rəbbi arasından çıxarmışlar. Bu, səhvdir**”.[397]

Hüzeyfənin hədisini həmçinin, Əhməd “əl-Müsnəd”də [398], Tirmizi “Sünən”də[399], İbn Hibban “Səhih”də[400], Təhavi də “Şərhu-muşkilil-asar”[401] da aşağıdakı sənədlə nəql etmişlər:

Salim əl-Muradi Əmr ibn Hərəm əl-Əzdidən, o Rəbii ibn Hiraşdan, o da Hüzeyfədən nəql edib dedi... hədis.

Bu təriq də zəifdir. Çünki təriqdə Salim əl-Muradi var.

Nəsai onun barəsində: “Zəifdir”, - demişdir.[402]

Duri Yəhya ibn Məinə istinadən: “Hədisləri zəifdir”, - demişdir.[403]

İbn Həzm: “Zəifdir”, - demişdir.[404]

“Lisanul-mizan” kitabında: “İbnul-Carud onu zəif bilmişdir”, - deyilmişdir.[405]

Əllamə Həssan ibn Əbdül-Mənnan demişdir:

“Əmr ibn Hərəmin rəvayətinə gəlincə, onun mehvəri Salim Əbul-Əla əl-Muradi ətrafında dönür. Salim isə zəifdir. Bəlkə də Əmr ibn Hərəm hədisi heç Rəbiidən eşitməmişdir. Çünki onun Rəbiidən hədis eşitdiyini bildirən bir rəvayət yoxdur”.[406]

---

[395] “əl-İləl”: 2/381.

[396] Bir hədis bir neçə fərqli şəkillərdə nəql olunar və bu şəkillərin hansı birinin əsas olduğu ayrıd edilə bilməzsə, belə bir hədis müztərib hədis adlanar. Belə hədislər üçün: “Hədisdə iztirab var”, - deyilər. İztirab iki şəkildə ola bilər: 1) Hədisin sənədində; 2) Hədisin mətnində. Birinci halda hədisin sənədi müxtəlif şəkillərdə nəql olunar, ikinci halda isə hədisin mətni müxtəlif şəkillərdə nəql olunar. İztirab olan hədis zəif hədis sayılır. (Tərc.).

[397] “Hivarun məəş-şeyx əl-Əlbani”: 152.

[398] “Müsnədü-Əhməd”: 5/399, hədis: 23434.

[399] “Sünənüt-Tirmizi”: 5/610, hədis: 3663.

[400] “Səhihü-İbn Hibban”: 15/327, hədis: 6902.

[401] “Tuhfətul-əxyar”: 9/215, hədis: 6537.

[402] “əl-Cami fil-cərh vət-tədil”: 2/282.

[403] “Təhzibül-kəmal”: 3/99, “Dufəaul-Üqeyli”: 2/150.

[404] “əl-İhkam”: 6/809.

[405] “Lisanul-mizan”: 3/7.

[406] “Hivarun məəş-şeyx əl-Əlbani”: 152.

Həmçinin sənəddə Əmr ibn Hərəm vardır ki, Zəhəbi onun barəsində: “Qəttani və başqaları onu zəif bilmişlər”, - demişdir.[407]

Əbud-Dərdanın hədisinə gəlincə isə, bu hədisi Heysəmi “Məcməuz-zəvaid” kitabında Təbəraniyə istinadən nəql etmiş və demişdir:

“Əbud-Dərdadan belə nəql olunub:

Allah Rəsulu dedi: “Məndən sonra gələcək iki şəxsin: Əbu Bəkrin və Ömərin ardınca gedin. Onlar Allahın uzanmış ipidirlər. Kim onlardan yapışsa, qırılmaz ip olan “ürvətul-vusqa”dan (Allahın möhkəm ipindən) yapışmışdır!”.

Bunun ardınca Heysəmi demişdir: “Bunu Təbərani nəql etmişdir. Sənəddə tanımadığım şəxslər var”.[408]

Buna əsasən, rəvayət bu təriqlə də zəifdir.

Abdullah ibn Əbu Huzeylin nənəsinin hədisinə gəlincə isə, onu da İbn Həzm “əl-İhkam” kitabında aşağıdakı şəkildə nəql etmişdir:

Bizə Əhməd ibn Muhəmməd ibn əl-Cəsur nəql edib dedi: bizə Əhməd ibn Fəzl əd-Dinəvəri nəql edib dedi: bizə Muhəmməd ibn Cubeyr nəql edib dedi: bizə Əbdür-Rəhman ibn əl-Əsvəd ət-Təfavi nəql edib dedi: bizə Muhəmməd ibn Kəsir əl-Məlai nəql edib dedi: bizə Mufəzzəl əd-Dabbi Dirar ibn Murrədən, o, Abdullah ibn Əbu Huzeyl əl-Ənəzidən, o, nənəsindən, o da Allah Rəsuludan (sallallahu əleyhi [və alihi] və səlləm) nəql edib dedi:

“Məndən sonra gələcək olan iki şəxsin: Əbu Bəkrin və Ömərin ardınca gedin. Əmmarın tutduğu yolla addımlayın, İbn Məsudun əhdinə sarılın”.[409]

İbn Həzm bu rəvayəti Müfəzzəl əd-Dabbiyə görə zəif hesab etmişdir və Müfəzzəl barəsində: “Höccət deyildir”, - demişdir.[410] [411]

## Əhli-sünnə alimləri Osman əl-Xəmisin dəlil gətirdiyi rəvayəti zəif hesab edirlər!

Bir sıra alimlər bu hədisi zəif hesab etmiş, onun səhih olmadığını bildirmişlər. Məsələn, Əbu Hatim bu hədisi illətli (nöqsanlı) hesab etmiş, Bəzzar və İbn Həzm

---

407 “Mizanül-itidal”: 3/291.

408 “Məcməuz-zəvaid”: 9/53.

409 “əl-İhkam”: 4/242.

410 Həmin mənbə.

411 Bütün bunlarla yanaşı onu da qeyd etmək lazımdır ki, Osman əl-Xəmisin bu və bunun kimi daha öncə qeyd olunan və daha sonradan qeyd olunacaq rəvayətləri dəlil gətirməsi elmi qaydalara tamamilə ziddir. Belə ki münazirə zamanı, yaxud qarşı tərəfə dəlil gətirmə zamanı özün üçün höccət olan dəlilləri deyil, qarşı tərəf üçün höccət sayıla biləcək dəlilləri qeyd etmək lazımdır. Bu, ilkin İslam dövrlərindən bilinən və aksiom kimi qəbul edilən bir qaydadır. Bəhs zamanı bu qaydaya riayət etməmək ciddi nöqsandır. Osman əl-Xəmis bu kimi mövzuları öz mənbələrində gələn və özü üçün höccət olan rəvayətlərlə deyil, qarşı tərəf üçün höccət sayılacaq rəvayətlərlə müzakirə etməlidir. Burada əhli-sünnə alimlərindən birinin, İbn Həzm əl-Əndəlusinin fikrini qeyd etmək yerinə düşər:

**لا معنى لاحتجاجنا عليهم برواياتنا ، فهم لا يصدّقونها ، ولا معنى لاحتجاجهم علينا برواياتهم فنحن لا نصدّقها ، وإنّما يجب أن يحتجّ الخصوم بعضهم على بعض بما يصدقّه الذي تقام عليه الحجّة به**

“Şiələrə qarşı öz hədislərimizdən dəlil gətirməyin mənası yoxdur, çünkü şiələr bu hədisləri qəbul etmirlər. Şiələrin də bizə qarşı öz hədislərini dəlil gətirmələrinin mənası yoxdur, çünkü biz də o hədisləri qəbul etmirik. Buna görə də, mübahisə tərəfləri (münazirə edərkən) qarşı tərəfin qəbul etdiyi və onun üçün höccət sayılan şeyləri dəlil gətirməlidir”. (İbn Həzm, “əl-Fasl fi əl-əhva”, 4/159). (Tərc.).

onun səhih olmadığına hökm vermişlər. Əllamə Mənavi "Feyzul-qədir" kitabında demişdir:

"Əbu Hatim bu hədisi illətli hesab etmiş, İbn Həzm kimi Bəzzar da onun səhih olmadığını demişdir. Çünki Əbdül-Məlik hədisi Rəbiidən eşitməmişdir. Rəbii də onu Hüzeyfədən eşitməmişdir. Lakin hədisin bir şahidi[412] var."[413]

İbn Həzm əl-Əndəlusi demişdir:

""Məndən sonra gələcək iki şəxsə iqtida edin" hədisinə gəlincə, bu hədis səhih deyil. Çünki o, Rəbiinin azad etdiyi kimliyi məchul olan bir qul vasitəsilə nəql edilmişdir. Həmçinin, Müfəzzəl əd-Dabbi vasitəsilə nəql edilmişdir ki, Müfəzzəl də höccət deyil."[414]

Həmçinin demişdir:

"Əgər biz tədlisi caiz bilsəydik... , o zaman "məndən sonra gələcək iki şəxsin: Əbu Bəkr və Ömərin ardınca gedin" hədisi ilə dəlil gətirərdik... ! Lakin, bu hədis səhih deyil. Allah bizi səhih olmayan şeylə dəlil gətirməkdən qorusun!"[415]

Həmçinin, Şeyxul-İslam Əhməd ibn Yəhya əl-Hərəvi əş-Şafei bu hədisin batil olduğunu bildirmişdir:

""Məndən sonra gələcək iki şəxsin: Əbu Bəkr və Ömərin ardınca gedin". Batildir".[416]

Həmçinin, Burhanəddin əl-Fərani (الفَرْغانِيُّ) hədisin uydurma olduğunu bildirmişdir:

"(Həmçinin) demişlər ki, iki şeyxin (Əbu Bəkr və Ömərin) icması höccətdir, çünki Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm): "Məndən sonra gələcək iki şəxsin: Əbu Bəkrin və Ömərin ardınca gedin", - demişdir. Peyğəmbər bizə onların ardınca getməyə əmr etmişdir. Əmr də vacibliyi çatdırır. Belə olunca, onlara müxalifət etmək haram sayılır, biz onların icması höccətdir dedikdə bundan başqa bir şey nəzərdə tutmuruq.

Cavab: Hədis uydurmadır. Biz bunun (səbəbini) "ət-Təvaliy"in şərhində bəyan etmişik."[417]

Bundan başqa, biz bu şəxslərə deyirik: məgər görmüsünüz ki, Buxari və Müslim – Əbu Bəkr və Ömər üçün fəzilət sayıla biləcək rəvayətləri nəql etməyə həris olmalarına rəğmən – bu rəvayəti öz kitablarında nəql etməmişlər? Bunun özü

---

[412] "Şahid": müəyyən bir hədislə eyni mənada və ya eyni ləfzdə olan və başqa bir səhabə yolu ilə nəql edilən hədisdir. (Bax: "Mucəmul-mustalahatil-hədisiyyə": səh.416.) Əgər şahid olaraq gətirilən hədisində yüngül zəiflik (ravinin yaddaşının zəif olması kimi) yox, güclü zəiflik olarsa (ravinin ittiham olunmuş və ya tərk olunmuş şəxs olması kimi), o zaman həmin hədis şahid olaraq gətirilə bilməz. Daha öncə də aydın olduğu kimi, nəql edilən bu hədislərin sənədlərindəki zəiflik yüngül zəiflik növdən deyil, güclü zəiflik növdəndir. Elə isə şahid olaraq istifadə edilə bilməzlər. (Tərc.).

[413] **Deyirəm: Biz bu rəvayətin bütün təriqlərini qeyd etdik. Bütün təriqlər olduqca zəif və müztəribdir. Onların heç biri digərinə şahid olmağa yaramır. Bu rəvayəti səhih hesab edən şəxs, yaxud zəif olsalar belə başqa təriqləri ona şahid gətirməklə bu rəvayəti səhih hesab edən şəxs, bu üsulla onlarla digər zəif hədisi də səhih hesab etməlidir. Halbuki müxaliflər bunu əsla qəbul etmirlər. Xüsusən də, Əhli-Beytin (əleyhimussəlam) fəzilətləri və üstünlükləri ilə bağlı olan bəzi hədislər barədə. Belə məqamlarda onların tərəziləri başqa ölçü ilə çəkir..**

[414] "əl-İhkam": 6/242.

[415] "əl-Fasl": 4/88.

[416] "əd-Durrun-nadid": 97.

[417] "ər-Rəsailul-əşər" (Ayətullah Milani): 3-cü risalə, səh.31, "Şərhul-minhac" kitabının əlyazma nüsxəsindən nəqlən.

rəvayətdə ciddi nöqsan olduğuna bir dəlildir! Bu səbəbdən də onlar hədisi öz kitablarında nəql edə bilməmişlər.

### Məzmun cəhətdən hədisin batilliyi

**İkincisi:** Hədis məna və dəlalət yönündən baxdığımız zaman da batildir. Çünki Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) belə mütləq şəkildə o iki şəxsə tabe olmağa əmr etməsi, onların xəta etməkdən məsum olduqları anlamına gəlir. Bunu isə heç kəs qəbul etmir.

Onlar bir çox hökmlərdə və məsələlərdə bir-birləri ilə ixtilaf etmişlər, buna əsasən, onların ardınca getməyə əmr olunması qeyri-mümkün bir işdir. Çünki, belə olunca iki zidd şeyə əmr edilmiş olur. Həmçinin, onlar üsuliddin və füruiddinin bir çox məsələlərindən bixəbər olmuşlar, buna əsasən, Allahın və ya Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) bixəbər şəxslərin ardınca getməyə əmr etməsi mümkünsüzdür.

Habelə, əgər bu söz həqiqətən də Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) tərəfindən deyilmiş olsaydı, onda Əbu Bəkr və ya Ömər Bəni-Saidə səqifəsində[418] bu sözlə dəlil gətirərdilər. Bizə onların nəinki Bəni-Saidə günündə, ümumiyyətlə nə vaxtsa bu sözlə dəlil gətirdikləri gəlib çatmamışdır. Əksinə, Əbu Bəkr Bəni-Saidə səqifəsində iştirak edən şəxslərə belə müraciət edirdi: "**Bu iki şəxsdən hansı birinə istəsəniz beyət edin**".[419] Bununla Ömər və Əbu Ubeydə əl-Cərrahı nəzərdə tuturdu. Həmçinin, Əbu Ubeydəyə üzünü tutaraq: "**Əlini uzat, sənə beyət edim!**", - deyirdi.[420]

Buna əsasən, onların ardınca getməklə bağlı olan rəvayət Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) adına uydurulmuş qondarma rəvayətdir. Osman əl-Xəmisin bu rəvayəti dəlil gətirməsi, zəif, batil və uydurma olan bir rəvayəti dəlil gətirməkdir. Osman əl-Xəmis bunu mütləq bilməlidir, axı hədis elmində müctəhdiddir!

Onun "Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələr haqqında dediyi bu sözlər onların imam olduqlarına dəlalət etmir" - deməsinə gəlincə, onun bu sözü bu rəvayətin Əbu Bəkrin xilafəti barədə nəss olduğunu iddia edən bəzi əhli-sünnə alimlərinə rəddiyyədir. Bu rəvayəti Əbu Bəkr və Ömərin imamətinə və onların "sünnə"lərinin höccət olmasına dəlil gətirənlər onun uydurma və qondarma olduğuna qəti şəkildə əmin olan şiələr deyil, məhz onlardırlar! Hadisələr və faktlar onu göstərir ki, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) vəfatından sonrakı dövrlərdə bu və bunun kimi digər rəvayətlərdən əsər-əlamət olmamışdır. Belə rəvayətlər məhz sonrakı dövrlərdə uydurulmuşdur.

Osman əl-Xəmis bu rəvayəti dəlil gətirməklə bu rəvayətin səqleyn hədisinin müqabilində durduğunu demək istəyir. Demək istəyir ki, əgər səqəleyn hədisinin imamətə dəlalət etdiyini desəniz, onda bu rəvayət də imamətə dəlalət edir, yox əgər Əbu Bəkrin və Ömərin ardınca getməyə əmr edən rəvayətin imamətə dəlalət

---

[418] Səqifə: kölgəlik yer. (Tərc.).
[419] "Müsnədü-Əhməd": 1/56, "Tarixut-Təbəri": 3/309, "Səhihül-Buxari": 6/2503, "əs-Sirətul-hələbiyyə": 3/386.
[420] "ət-Tabaqatul-kubra": 3/128, "Müsnədü-Əhməd": 1/35, "əs-Sirətul-hələbiyyə": 3/386.

etmədiyini desəniz, onda Əhli-Beytə (əleyhimussəlam) sarılmağa əmr edən səqəleyn hədisi də imamətə dəlalət etmir.

Biz bu şəxslərə məşhur ərəb zərbi-məsəlindəki kimi cavab veririk: "Əvvəl kürsünü ortaya qoy, sonra üzərinə naxış çəkərsən". Siz bu rəvayəti dəlil gətirə bilməniz üçün əvvəlcə onun səhihliyini sübuta yetirməlisiniz. Onun üçün bircə dənə də olsun nöqsandan və iztirabdan uzaq olan bir təriq göstərməlisiniz. Bunu sübut etdikdən sonra isə dəlalət və məna baxımından rəvayətə ünvanlanan iradlara cavab verməlisiniz.

Lakin, haradadır bunu edən?![421]

"Əmmarın yolu ilə addımlayın" sözünə gəlincə, buna cavab olaraq deyirik:

Bəli, Əmmar (Allah ondan razı olsun) barədə bu məzmunda hədis sübuta yetmişdir; Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Əmmarı ümmət üçün nişanə qərar vermiş, ümmətin azğınlığa düşdüyü vaxt Əmmarın (Allah ondan razı olsun) haqq dəstənin tərəfində olacağını bildirmiş, Əmmarın azğın dəstəyə qarşı vuruşacağını xəbər vermişdir.

Lakin görəsən Osman əl-Xəmis "bu hədis Əmmarın imam olduğuna dəlalət etmir" deyərkən başa düşmürmü ki, "Əmmarın yolu ilə addımlayın" cümləsi ilə "Mən sizin aranızda elə bir şey qoyub gedirəm ki, ona sarıldığınız müddətcə əsla azmayacaqsınız. Onların biri digərindən daha böyükdür: səmadan yerə uzanmış ip olan Allahın kitabı və itrətim – Əhli-Beytim. Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar. Baxın görün məndən sonra onlarla necə davranırsınız" cümləsi arasında böyük fərq var? Birinci cümlədə Əmmarın yolu ilə addımlamaq barədə göstəriş verilir, ikinci cümlədə isə Allahın

---

[421] Burada Muhəmməd Muhəmməd Nasiruddin əl-Əlbaninin bir fətvasında dediyi sözləri qeyd etmək yerinə düşər. Belə ki, Əlbani Ömərin Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) sünnəsinə müxalifət etdiyini etiraf etmiş, bu səbəbdən də "mütləq şəkildə Ömərin və ya digər səhabələrin ardınca gedə bilmərik", - deyə bildirmişdir. Əlbani "Əbu Bəkr və Ömərin uzun müddət həcci ifrad şəkildə yerinə yetirmələrinə nəzərən, ifrad həccinin daha fəzilətli olduğunu deyə bilərikmi?" məzmunlu bir suala cavab verərkən bildimişdir, bu, düzgün deyildir. Çünki əvvəla onların uzun müddət həcci ifrad şəkildə yerinə yetirmələri sübuta yetməmişdir, ikincisi də Əbu Bəkr və ya Ömərin bir işi yerinə yetirmiş olmaları hələ həmin işin səhih olması anlamına gəlmir! Əlbani deyir:

**"...Ömər ibn əl-Xəttaba gəlincə isə, məsələ təkcə onun həcci ifrad şəkildə yerinə yetirməsi deyil. Məsələ, bundan daha mühümdür, belə ki, Ömər təməttö həccini qadağan etmişdir!! İndi biz bu sual verəndən və səhabənin qeyrətini çəkdiyini iddia edən kəsdən soruşuruq: görəsən o, Ömər ibn əl-Xəttabın təməttö həccini qadağan etməsi ilə razılaşır?!! Zənn etmirəm..**

***Gərək biz mövzunu elmi şəkildə araşdıraq. Ömər ibn əl-Xəttab təməttönü qadağan etmişdir, lakin, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) bunu əmr etmişdir!!***

***Görəsən bir müsəlman – Ömər ibn əl-Xəttabı nə qədər sevirsə-sevsin – özünü hər məsələdə "ömərçi" edə bilərmi? Bu, qeyri-mümkündür. Çünki o görəcək ki, Ömər bir söz deyir, halbuki, doğru olan onun əksidir (!!)***

**Məsələn, Ömər ibn əl-Xəttab öz xilafəti zamanında su tapmayan müsafirə namaz qılmaq üçün təyəmmüm etməyi qadağan edir!! Və deyir ki, su tapıncayadək aylarla namaz qılmadan qala bilər. O zaman Əmmar ibn Yasir başqa bir şeyə fətva verirdi. Onun fətvası Ömərin qulağına çatır. Ömər adam göndərib onu öz yanına çağıtdırır. Əmmar ona deyir: "Ey möminlərin əmiri, məgər xatırlamırsan ki, biz səfərdə idik və bizim boynumuza qüsul gəldi, lakin biz su tapmadıq? Beləliklə dəvə özünü torpağa bulaşdırdığı (torpağa bələşdiyi) kimi, biz də özümüzü torpağa bulaşdırdıq. Sonra Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) yanına gəldikdə hadisəni ona danışdıq. O da buyurdu ki: "Sənə əllərinin içini torpağa vurmağın, sonra da əllərini üzünə və əllərinə çəkməyin kifayət edərdi." Ömər deyir: "Xatırlamıram." Əmmar deyir: "Onda saxlayım? – yəni, bu fətvanı danışmağı saxlayım?" Ömər dedi: "Yox. Lakin səni öz rəyinlə baş-başa buraxıram."**

("əl-Məsail əl-ilmiyyə vəl-fətava əş-şəriyyə, Fətava əş-Şeyx Muhəmməd Nasiruddun əl-Əlbani, səh.125-127).

Əlbani özü etiraf edir ki, insan özünü ömərçi edə bilməz. Çünki Ömər bir sıra yerlərdə Allahın və Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) hökmünə zidd davranmışdır. Bütün bunlar onu göstərir ki, "Məndən sonra gələcək iki şəxsin: Əbu Bəkr və Ömərin yolu ilə gedin" hədisi uydurma və qondarma hədisdir. (Tərc.).

kitabı ilə birgə Əhli-Beytə (əleyhimussəlam) sarılmaq barədə əmr verilir. Səbəb olaraq da Allahın kitabının və Əhli-Beytin özlərinə yapışan şəxsləri zəlalətdən qoruyacaqları göstərilir. Bu iki cümlənin eyni mənada olduğunu göstərməyə çalışan şəxs böyük xəta edir.

Məgər Osman əl-Xəmis bilmir ki, Əmmarın (Allah ondan razı olsun) hidayət yolunda olmasının səbəbi məhz onun Qurani-Kərimə tabe olması və pak itrətdən (əleyhimussəlam) sarılması idi? Əgər Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Əmmarın getdiyi yolla addımlamaq əmri vermişdisə, bunu Əmmar səqəleyndən yapışdığı və onların yolu ilə addımladığı üçün etmişdi. Əmmar ibn Yasir (Allah ondan razı olsun) Allah Rəsulunun "*Ey Əmmar! Əgər görsən ki, Əli bir yolla gedir, bütün camaat isə başqa bir yolla gedir, o zaman Əli ilə birgə get! Əli səni bədbəxtliyə sürükləməyəcək, səni hidayətdən çıxarmayacaq... Ey Əmmar! Əliyə itaət etmək mənə itaət etməkdir, mənə itaət etmək də Allaha itaət etmək sayılır*"[422] sözünə əməl edərək əvvəl gündən ta Siffeyn döyüşündə şəhid olanadək Əmirəlmöminin (əleyhissəlam)-ın yanından ayrılmadı. Əmmar (Allah ondan razı olsun) Səqifə günündən camaatı İmam Əliyə (əleyhissəlam) beyət etməyə çağırır, imaməti Peyğəmbər Əhli-Beytinə (əleyhimussəlam) verməyə səsləyirdi. O, Əbu Bəkrə beyət etməkdən imtina edən şəxslərdən idi.[423] Şura məsələsində Əbdür-Rəhman ibn Auf camaatdan ona məsləhət vermələrini istəyərkən Əmmar ona: "**Əgər müsəlmanların ixtilaf etməmələrini istəyirsənsə, Əliyə beyət et**", - demişdi.[424] Həmçinin, Osman ibn Əffana beyət edildikən sonra Əmmar belə demişdi: "**Ey Qüreyş camaatı! Siz bu işi növbəti dəfə Peyğəmbərinizin Əhli-Beytindən uzaqlaşdırdınız. Mən sizin bu işi öz əhlindən uzaqlaşdırıb onu əhli olmayan şəxslərin arasına qoyduğunuz kimi Allahın da bu işi sizin aranızdan götürüb başqalarının arasına qoymayacağına əmin deyiləm!**"[425] Əmmar (Allah ondan razı olsun) Siffeyn döyüşündə Əli (əleyhissəlam) ilə birgə Müaviyə ibn Əbu Süfyana və onun qoşununa qarşı döyüşərkən şəhid oldu. Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) onun barəsində: "**Ey vay Əmmara! Onu azğın dəstə öldürəcək. Əmmar onları Cənnətə çağıracaq, onlar isə onu Cəhənnəmə çağıracaqlar**", - deyə buyurmuş,[426] həmçinin: "**Kim Əmmarla düşmənçilik edərsə, Allah da onunla düşmənçilik edər, kim Əmmara nifrət edərsə, Allah da ona nifrət edər**",[427] - demişdi.

Əgər Osman əl-Xəmis Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) səhabələrə Əmmarın yolu ilə addımlamaq göstərişi verdiyini qəbul edirsə, o zaman Əmmarın olduğu cəbhədə deyil, ona müxalif olan cəbhədə duran hər bir kəs Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) əmrinə müxalifət etmiş, İslamdan uzaqlaşmışdır.

---

[422] "Mənaqibul-Xarəzmi": 194/332, "Buğyətut-tələb fi tarixi Hələb": 7/330, "Fəvaidus-simteyn": 1/178.
[423] "ər-Riyadun-nadira" (Təbəri): 1/115, "əl-Muxtəsər fi əxbaril-bəşər" (Əbul-Fida): 1/156, "Səmtun-nucumil-əvali" (əl-Asimi əl-Məkki): 2/332.
[424] "Tarixut-Təbəri": 3/297.
[425] "Murucuz-zəhəb": 2/342.
[426] "Səhihül-Buxari": 1/172, hədis: 436; 3/1035, hədis: 2657, "Səhihü-İbn Hibban": 15/553, hədis: 7078; 15/554: 7079.
[427] "Səhihü-İbn Hibban": 15/556, hədis: 7081, "Müstədrək": 3/441, hədis: 5674, "Müsnədü-Əhməd": 4/89, hədis: 16760, "Müsənnəfü-İbn Əbi Şeybə": 6/386, hədis: 32252.

“İbn Məsudun əhdindən yapışın” sözünə gəlincə, deyirik:

*Əvvəla:* Bu rəvayət də Əbu Bəkr və Ömərin ardınca getməklə bağlı olan rəvayət kimi səhih sənədlə nəql edilməmişdir. Buna əsasən, onunla dəlil gətirmək, onu səhih və sabit olan səqəleyn hədisi ilə bir tutmaq batildir.

*İkincisi:* Fərz edək ki, bu rəvayət səhihdir, belə olunca biz də Osman əl-Xəmis kimi bu rəvayətin İbn Məsudun imamətinə dəlalət etmədiyini deyirik. Çünki bu rəvayətin məzmununa əsasən, Peyğəmbər İbn Məsudun “əhd”inə yapışmaq göstərişi vermişdir, daha İbn Məsudun özünə və ya onun getdiyi yola yapımaq göstərişi verməmişdir. Görəsən bu rəvayət səqəleyn hədisinin səviyyəsinə çata bilərmi?! Səqəleyn hədisində ümmətin iki böyük əmanətə sarılması əmr edilir, ona sarılmadığı təqdirdə bu ümmətin də digər keçmiş ümmətlər kimi azğınlığa və sapqınlığa düçar olacaqları bildirilir. Görəsən, İbn Məsudun “əhd”indən yapışmağa əmr edən rəvayət səqəleyn hədisinin səviyyəsindədir?

Bundan başqa, biz Osman əl-Xəmisə sual veririk: görəsən Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) sarılmaq əmr etdiyi İbn Məsudun “əhdi” nə olan şeydir? “Əhd” sözü ilə müəyyən xüsusi bir şeyə işarə edilib, yoxsa nəyə?

Olmaya, bununla İbn Məsudun təhrif olunmuş, iki surəsi əskik olan (özləri belə nəql ediblər) Quranına sarılmaq əmr edilib?!

Osman əl-Xəmisdən bu suala cavab verməsini gözləyirik.

**Şiələrdə hədislərin isnadı ilə bağlı Osman əl-Xəmisin iftirasına cavab**

Osman əl-Xəmis səqəleyn hədisi barədə danışarkən şiələrə bir neçə iftira atmış, onlar barədə ən çirkin şəkildə yalan danışmışdır. Biz bu iftiraları qeyd edərək onlara müxtəsər şəkildə cavab veririk, çünki onların mövzumuzla bir əlaqəsi yoxdur.

Osman əl-Xəmis deyir:

“Şiələrin Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) çatan sənədləri yoxdur. Onlar özləri də etiraf edirlər ki, öz kitablarının və rəvayətlərinin nəqli sənədə əsaslanmır. Onlar məhz bir sıra kitablar tapmış, sonra da demişlər ki: “bunların hamısı haqqdır, bunları nəql edin”. Sənədlərə gəlincə isə, Hürr əl-Amuli və başqa böyük şiə alimlərinin də dediyi kimi, şiələrdə ümumiyyətlə sənəd yoxdur və onlar sənədə etimad etmirlər. Elə isə, onlar necə deyə bilərlər ki, nəql etdikləri hədislər həqiqətən də Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) itrəti tərəfindən deyilmişdir?!”[428]

**Deyirəm:** Bu, açıq-aşkar yalandır! Kaş Osman əl-Xəmisin dili və qələmi bu günaha batmayaydı.

Şiələrin sayları onlarla, hətta yüzlərlə olan hədis mənbələri və kitabları Osman əl-Xəmisin “şiələrin Peyğəmbərə gedib çatan sənədləri yoxdur” sözünün yalan olmasına şahidlik edir.

Bəlkə də Osman əl-Xəmisi qorxuya salan amil bu olmuşdur ki, o, şiələrin Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) itrətindən yapışdıqlarını, şiələrin

[428] “Tarixdən bir an”: 203.

Peyğəmbər sünnəsi ilə bağlı hədisləri pak itrət (əleyhimussəlam) yolu ilə əldə etdiklərini və şiələr yanında sənədləri pak itrətə (əleyhimussəlam) çatan rəvayətlərin sənədləri səhabələrə çatan rəvayətlərdən daha çox olduğunu görmüşdür.

Sanki o bizə Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) itaət edib Allahın kitabına və Əhli-Beytdən olan pak imamlara (əleyhimussəlam) sarıldığımız üçün irad tutur. Əhli-Beyt (əleyhimussəlam) özü buyurmuşdur ki, onların dedikləri hədislər Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) hədisləridir. Bu, şiələr yanında sübuta yetmiş səhih məsələdir.

Maraqlıdır ki, Osman əl-Xəmis bizə irad tutaraq bizdə Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) gedib çatan hədis olmadığını bildirir. Halbuki özü Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) sünnəsinin yazılmasını, hətta nəql edilməsini belə qadağan edən şəxslərin ardınca gedir. Əbu Səid əl-Xudridən nəql etdikləri bir rəvayətdə Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) belə dediyini nisbət vermişlər: “Məndən Qurandan savayı bir şey yazmayın, kim məndən Qurandan savayı bir şey yazsa, onu silsin”.[429]

Şiələr pak itrətdən olan hidayət İmamlarına (əleyhimussəlam) tabe olaraq bu qərara boyun əyməmişlər. Onlar hakimiyyətin və onun əlaltılarının Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) adından uydurduqları bu rəvayətləri təkzib etmişlər. Onlar: “Haşa! Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) əsla müsəlmanlara öz sünnəsini yazmağı qadağan etməz”, - deyərək özlərinə tabe olan səhabələrlə birgə Peyğəmbər sünnəsinə qarşı cızılmış bu zalım plana qarşı çıxmışalar.

Gərək Osman əl-Xəmis Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) sünnəsini nəql etməyi və ya yazmağı qadağan edən, hətta bəzi müsəlmanların topladığı hədisləri yandıran o şəxslərə tənə edəydi, onları tənqid edəydi.

Gərək Osman əl-Xəmis gecə-gündüz Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) sünnəsinə müxalifət edib xəstə yatağında ikən onun üzünə: “Allahın kitabı bizə yetər!”, - deyə qışqıran şəxsləri tənqid edəydi.

Osman əl-Xəmis Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) şəriətini və sünnəsini dəyişib təhrif edənlərə tənə etməli, məhz onları tənqid etməliydi. Peyğəmbərin vəfatından çox az müddət sonra iş o yerə çatmışdı ki, Ənəs ibn Malik ağlayaraq belə deyirdi: “Peyğəmbər zamanında gördüyüm şeylər içində bircə bu namazın (salamat qaldığını) görürdüm, bu namaz da zay olub!”[430]. Əbud-Dərda isə

---

[429] “əl-Müstədrək”: 1/216, hədis: 437. Hakim demişdir: “**Bu, iki şeyxin şərtinə əsasən səhih hədisdir, lakin onlar bunu nəql etməmişlər**”. “Sünənüd-Darəmi”: 1/130, hədis: 450, Şeyx Hüseyn Əsəd: “**İsnadı səhihdir**”, - demişdir. “Müsnədü-Əhməd”: 3/12, hədis: 11100, Şüeyb əl-Arnaut: “**İsnadı iki şeyxin şərtinə əsasən səhihdir**”, - demişdir. Həmin mənbə: 3/12, hədis: 11102, Şüeyb əl-Arnaut: “**İsnadı Buxarinin şərtinə əsasən səhihdir**”,- demişdir. Həmin mənbə: 3/21, hədis: 11174, Şüeyb əl-Arnaut: “**İsnadı iki şeyxin şərtinə əsasən səhihdir**”, - demişdir. “Səhihü-İbn Hibban”: 1/256, hədis: 64, “Müsnədü-Əbi Yəla”: 2/466, hədis: 1288, Hüseyn Səlim Əsəd: “**İsnadı səhihdir**”, - demişdir.

[430] Bax: “Səhihül-Buxari”: 1/198, hədis: 507, “Sünənüt-Tirmizi”: 4/632, hədis: 2447, “Muvətta” (Malik): 1/72, hədis: 155, “Müsnədü-Əhməd”: 3/101, hədis: 11996.

qəzəbli şəkildə: "Allaha and olsun! Muhəmmədin işindən (müsəlmanlığın əlamətindən) bunlarda təkcə bir yerdə namaz qılmaq qalıb!", - deyirdi[431].

Görəsən Osman əl-Xəmis bunu edər?! Şəxsən zənn etmirəm. Çünki məhəbbət kor və kar edir:

Razılıq gözü eyb və nöqsanlar qarşısında çox zəif olar
Qəzəb və narazılıq gözü isə bütün nöqsanları aşkara çıxarar

Şiələr insanlar içərisində Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) sünnəsini qorumağa, ona sarılmağa, ona əməl etməyə hamıdan çox diqqətli, hamıdan çox meyillidirlər. Lakin onlar Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) nisbət verilən hədislərin qəbulu zamanı olduqca ehtiyatlı davranırlar. Yalnız sənədi səhih olan və raviləri siqə olan hədisləri qəbul edirlər. Mətnində Allah kitabına, yaxud sabit, qəti və mütəvatir sünnəyə, yaxud da ağılın qəti hökmünə müxalif bir şey olan hədisləri qəbul etmirlər.

Görəsən şiələrin nə günahı var ki, hər gəlib-gedəndən hədis qəbul etmirlər, yalnız Qurana, sabit sünnəyə və ağlın qəti hökmünə müvafiq olan hədisləri qəbul edirlər?

Onun dediyi "*onlar özləri də etiraf edirlər ki, onların kitablarının və rəvayətlərinin nəqli sənədə əsaslanmır. Sadəcə olaraq onlar kitablar tapmış və demişlər: bunların hamısı haqqdır, onları rəvayət edin*" sözünə gəlincə, bu söz də şiəyə atılmış iftira və yalandır; kimdir bunu etiraf edən şəxs?! Harada tapıblar bu etirafı?! Osman əl-Xəmis rəvayətlərin nəqlində şiələrin sənədlərə əsaslanmadıqlarını təsdiq və ya etiraf edən bircə şiə alimi göstərsin!

Bizim sözümüzün – bu şəxsin yalançı və iftiraçı olduğu fikrinin – doğru olub-olmamağını yoxlamaq istəyən kəslər, şiələrin "əl-Kafi" (Siqətul-İslam əl-Kuleyni), "İstibsar", "Təhzib" (hər ikisi Şeyx Tusinindir) və "Mən la yəhduruhul-fəqih" (Şeyx Səduq – Allah hamısına rəhmət etsin) kimi hədis kitablarına, həmçinin digər hədis kitablarına müraciət etsinlər. Bu kitablara müraciət edən şəxslər buradakı hədislərin silsiləvi şəkildə ya Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) dayanır, ya da pak imamlara (əleyhimussəlam) dayandığını görəcəklər.[432]

Bəlkə də Osman əl-Xəmis bizim bəzi hədis mənbələrimizə baxıb, lakin orada Əbu Hüreyrə, Muğeyrə ibn Şubə, İkrimə əl-Bərbəri, Kəbul-Əhbar və s. bu kimi sevdiyi, rəvayət nəql edib siqə hesab etdiyi (halbuki, aralarında nə çox fasiq və İslam adına bürünmüş yəhudi və xristianı var) şəxslərdən hədislər görməyib. Görəsən, şiə kitablarında bu kimi şəxslərin yoxluğuna görə Osman əl-Xəmisin qəzəblənib özündən çıxması və şiələri hədis kitablarının olmaması ilə ittiham etməsi doğrudurmu?

Osman əl-Xəmisin qeyd etdiyi, iftirasını əsaslandırıb kitabın haşiyəsində nəql etdiyi rəvayətə gəlincə, onun sənədi və mətni belədir:

---

[431] "Müsnədü-Əhməd": 5/195, hədis: 21747. Şüeyb əl-Arnaut: "**İsnadı iki şeyxin şərtinə əsasən səhihdir**", - demişdir.

[432] Məsum İmamlar da (əleyhimussəlam) nə deyirlərsə, Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) deyirlər. Bu barədə müəllifin "İmamların elmi" kitabına müraciət edə bilərsiniz. (Tərc.).

“Əshabımızdan olan bir dəstə şəxs Əhməd ibn Muhəmməddən, o da Muhəmməd ibn Həsən ibn Əbu Xalid əş-Şənyulədən nəql edib dedi:

İkinci Əbu Cəfərə (əleyhissəlam) dedim: “Sizə fəda olum, bizim şeyxlərimiz Əbu Cəfərdən və Əba Əbdillahdan (əleyhiməssəlam) hədislər nəql etmişlər. O zamanlar təqiyyə güclü olmuşdur deyə öz kitablarını gizləmiş, kitabları nəql etməmişlər. Onlar öldükdən sonra həmin kitablar bizə keçmişdir.” İmam buyurdu: “Onları nəql edin, həqiqətən də onlar haqqdır”.”

Bu rəvayətdə Osman əl-Xəmisin dediyi şeyə dəlalət edən heç bir şey yoxdur. Əksinə, rəvayətdə deyilir ki, şiələrin şeyxlərindən bir dəstə şəxs İmam Baqir və İmam Sadiqdən (əleyhiməssəlam) hədislər eşitmiş, sonra bu hədisləri kitablarda toplamışlar. Həmin dövrdə zalım əməvi xəlifələri və onların azğın və fasiq valiləri tərəfindən Əhli-Beytə və onların şiələrinə qarşı zülm və tüğyan şiddətli olduğundan, həmin şəxslər həmin hədisləri camaat arasında yaya bilməmişlər. Bu səbəbdən də təqiyyə edərək həmin kitabları gizləmişlər. Dünyalarını dəyişənədək zalımların zülmü onların başlarının üstündən əskik olmamışdır. Bu səbəbdən də həmin hədislər o kitabların içində qalmışdır. Sonra bu kitablar İmamların (əleyhimussəlam) səhabələrindən olan bəzi şiələrə çatmışdır. Ravi Muhəmməd ibn Həsən əş-Şənyulə İmam Cavad (əleyhissəlam)-dan həmin kitablarda olan hədisləri nəql etmək üçün izin istəyir, İmam (əleyhissəlam) da buna icazə verir. Və bildirir ki, həmin kitablarda olan hədislər haqqdır. Əgər o kitabları toplayan şəxslər siqə şəxslər olmasaydılar, həmçinin oradakı hədislər İmam Baqir və İmam Sadiq (əleyhiməssəlam)-dan nəql olunmamış olsaydı, o zaman İmam Cavad (əleyhissəlam) bu kitablardan hədis nəql etməyə icazə verməzdi!

Allaha həmd olsun ki, elə rəvayətin özü Osman əl-Xəmisin “şiələrdə sənədli hədislər yoxdur” iftirasına tutarlı cavabdır. Çünki bu rəvayət hicrətin 114-cü ilində vəfat edən İmam Baqir (əleyhissəlam)-ın və hicrətin 148-ci ilində vəfat edən İmam Sadiq (əleyhissəlam)-ın səhabələri arasında kitab müəllifi olan şəxslərin olduğunu göstərir. Həmin vaxt əməvi hakimiyyəti Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) hədislərinin qələmə alınmasının qarşısını şiddətlə alırdı. Buna rəğmən İmam Baqir və İmam Sadiq (əleyhiməssəlam) bu qərara əhəmiyyət verməmiş, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) hədislərini müsəlmanlara nəql etmiş, onların səhabələri də bu hədisləri qələmə alıb kitab halına salmışlar. Lakin onlar zalım əməvi hakimiyyətinin qorxusundan bu hədisləri yaya bilmirdilər. Bütün bunlar Buxari, Müslim və digər altı kitab müəlliflərindən xeyli əvvəllər baş vermişdir.

Sual verənin barəsində sual verdiyi kitabların müəllifləri həmin kitablardakı hədisləri heç bir vasitə olmadan nəql etmişlər. Yəni, onlar nəql etdikləri rəvayətləri birbaşa İmam Baqir və İmam Sadiq (əleyhiməssəlam)-dan nəql etmişlər, bu rəvayətlərin sənədində irsal yoxdur! Onlar bu hədisləri birbaşa İmamlardan eşitmiş, ardınca kitab halına salmışlar. Başqalarının bu hədisləri həmin kitablardan nəql etməsinə gəlincə isə, bu, eyninlə bizim keçmiş zamanda yazılmış müəyyən bir kitabdan hər hansısa bir hədisi nəql etməyimizə bənzəyir. Məsələn, biz: “Şeyx Kuleyni “əl-Kafi” kitabında demişdir...”, yaxud: “Buxari “Səhih” kitabında

demişdir...”, - deyirik. Bu o mənaya gəlmir ki, “əl-Kafi”dəki və ya “Səhihül-Buxari”dəki hədislər mürsəldir və onların heç bir sənədi yoxdur.

Elə isə Osman əl-Xəmis bu rəvayətin harasından belə nəticə çıxardı kı, rəvayət şiələrin hədis nəql edərkən sənədə əsaslanmadıqlarına dəlalət edir?! Həqiqətən də, başqasını rüsvay etmək istədi, amma özü rüsvay oldu.

## Bizim kitablarımız səhihdir, yoxsa Buxarinin kitabı?

Osman əl-Xəmisə onun öz üslubu ilə cavab vermək istəsək belə deyə bilərik: zəhmət olmasa Osman əl-Xəmis əhli-sünnənin Allahın kitabından sonra ən səhih kitab hesab etdikləri “Səhihül-Buxari” kitabına bir nəzər salsın. Bu kitabın müəllifi Muhəmməd ibn İsmayıl əl-Buxari bu kitabı sona çatdırmadan, onu nizama salmadan dünyadan köçmüşdür. Ondan sonra başqaları bu kitabı sona çatdırıb onu tərtib etməyə başlamışlar. Bilinmir onu sona çatdırıb tərtibləyən şəxslər kitaba nə əlavə edib, nə azaltmışlar! Görəsən kitabın hamısı Buxarinin öz şeyxlərindən nəql etdiyi rəvayətlərdən ibarətdir, yoxsa tamamlayıcılar özlərindən nələrsə əlavə etmişlər?!

İbn Həcər “Fəthul-Bari” kitabının müqəddiməsində demişdir:

“Əbu İshaq İbrahim ibn Əhməd əl-Mustəmli belə demişdir: Buxarinin kitabını onun yoldaşı olan Muhəmməd ibn Yusif əl-Firəbrinin yanındakı orijinal nüsxədən köçürdüm. Lakin onun hələ tamamlanmadığını gördüm. Orada çoxlu ağ hissələr var idi. Bu ağ hissələrin bəzisi ardınca heç bir şey yazılmayan tərcümeyi-hallar idi. Bəziləri də hədislər idi ki, tərcümeyi-halları yazılmamışdı. Bunların bəzilərini bəzilərinə əlavə etdik.”[433]

Əbu Vəlid əl-Baci demişdir: “Bu sözün səhihliyinə dəlalət edən şeylərdən biri də budur ki, Əbu İshaq əl-Mustəmlinin rəvayəti, Əbu Muhəmməd əs-Sərəxsinin rəvayəti, Əbul-Heysəm əl-Kəşmihəninin rəvayəti və Əbu Zeyd əl-Mərvəzinin rəvayəti təqdim və təxir[434] baxımından bir-birlərindən fərqlənirlər, halbuki, onlar bir mənbədən köçürmüşlər. Bunun səbəbi odur ki, onların hər biri elə zənn etmişlər ki, hansısa əlavə bir vərəqdə və ya kağız parçasında olan (bir hədis) bu kitabın hansısa bir yerindəndir. Ona görə də onu kitaba əlavə etmişlər. Buna dəlalət edən şeylərdən biri də budur ki, siz iki və daha artıq tərcümeyi-halın birləşik olduğunu və aralarında heç bir hədis olmadığını görə bilirsiniz.”[435]

Şeyx Muhəmməd Əbu Riyyə özünün “Ədva aləs-sunnətil-muhəmmədiyyə” kitabında “Buxarinin rəvayətləri say baxımından fərqlənir” başlığı altında belə demişdir:

“Firəbrinin nəql etdiyi “Səhihül-Buxari”dəki hədislər İbn Məqil (مَعْقِل) ən-Nəsfinin nəql etdiyi “Səhihül-Buxari”dəki hədislərdən iki yüz ədəd çoxdur. İbn Məqil ən-Nəsfinin nəql etdiyi “Səhihül-Buxari”dəki hədislər də Həmmad ibn Şakir

---

[433] “Fəthul-Bari”nin müqəddiməsi: səh.6.

[434] Yəni, bu şəxslərin nəql etdikləri nüsxələrin bəzilərində müəyyən bir hədis öndə gəldiyi halda, digər nüsxədə arxada gəlmişdir. Təqdim: önə çəkmək, təxir: geriyə çəkmək. (Tərc.).

[435] Həmin mənbə.

ən-Nəsfinin nəql etdiyi "Səhihül-Buxari"dəki hədislərdən yüz ədəd çoxdur. Necə ki, əl-İraqi belə demişdir".[436]

Vəziyyəti bu cür olan bir kitab "Allahın kitabından sonra ən səhih kitab" olmaq bir yana, ümumiyyətlə səhih kitab necə olur?!

## Osman əl-Xəmis şiə alimlərinin fiqhə dair bəhslərini və rical kitablarını oxumayıb?

Osman əl-Xəmis deyir:

"Sənədlərə gəlincə isə, Hürr əl-Amuli və başqa böyük şiə alimlərinin də dediyi kimi, şiələrdə ümumiyyətlə sənəd yoxdur və onlar sənədə etimad etmirlər. Elə isə, onlar necə deyə bilərlər ki, nəql etdikləri hədislər həqiqətən də Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) itrəti tərəfindən deyilmişdir?!..."

Sonra haşiyədə deyir:

"Hürr əl-Amulinin "Xatimətul-müstədrək" kitabına bax. O bu kitabda bildirir ki, şiələrdə – əsasında hədislərin səhih hesab edildiyi – sənədlər yoxdur və sənəd məsələsi sonradan ortaya çıxmış bir şeydir. Bax: "Doqquzuncu fayda" fəsli."

**Cavab:**

Şeyx Hürr Amuli (Allah ona rəhmət etsin) "Vəsailuş-şiə" kitabının "doqquzuncu fayda" adlı bölməsini dörd mötəbər kitab və onun kimi digər kitablarda gələn hədislərin səhih olduğu isbat etmək üçün ayırmışdır. Əlbəttə, bu onun əxbari olmasından qaynaqlanırdı. O, bu bölmədə Osman əl-Xəmisin uydurub iftira atdığı kimi şiələrdə sənədli hədislərin olmadığını deməmişdir. O, bu rəvayətlərin sənədlərinin olmadığını iddia etməmişdir. O bu bölmədə yalnız və yalnız bu rəvayətlərin hamısının səhih olduğunu isbat etməyə çalışmışdır, eyniylə əhli-sünnənin "Səhihül-Buxari" və "Səhihü-Müslim" kitablarında gələn rəvayətlərin hamısının səhih olduğunu isbat etməyə çalışdığı kimi.

Bu kitablarda gələn hədislərin hamısının səhih olması fikri bütün şiə alimlərinin və ya fəqihlərin nəzəri deyil. Əksinə, bu fikir onlar arasında "əxbarilər" kimi tanınan xüsusi bir dəstəyə məxsusdur (Allah onlara rəhmət etsin). Şiə alimlərinin böyük əksəriyyəti üsulidirlər. Onlar Hürr Amuli və başqa əxbarilərinin dedikləri bu fikirləri qəbul etmirlər. Onlar bildirirlər ki, hədislərin sənədlərinə nəzər salmaq, onlara sənəd yönündən hökm vermək lazımdır.

Məgər Osman əl-Xəmis ravilərin tərcümeyi-halları ilə bağlı yazılan bu qədər kitabları görmür? Məgər şiə alimlərinin və fəqihlərinin üsuliddin və füruddinlə bağlı bəhslərini, əsərlərini görmür? Onların hədisin qəbulu üçün sənədin səhihliyini şərt bildiklərini, sənəd mötəbərliyi sübuta yetmədiyi müddətcə, yaxud hədisin mətninin səhihliyinə dəlalət edən başqa şahidlər olmadığı müddətcə hədisi qəbul etmədiklərini görmür?

Bütün bunlar bizim dediklərimizin doğruluğuna, Osman əl-Xəmisin iddia etdiklərinin isə batilliyinə dəlalət edir.

---

[436] "Ədva aləs-sunnətil-muhəmmədiyyə": səh.307.

## Osman əl-Xəmisin yeni iddiası: Osman əl-Xəmis Əhli-Beyti şiələrin zülmündən müdafiə edir

Osman əl-Xəmis deyir:

"Şiələr Abbasa tənə vururlar, Abbasın oğlu Abdullaha tənə vururlar, Həsənin övladlarına tənə vurub "onlar Hüseynin övladlarına həsəd aparırlar", - deyirlər. Həmçinin, Hüseynin öz aləmlərində "imam" olmayan övladlarına, məsələn Zeyd ibn Əli, Həsən əl-Əskərinin qardaşı İbrahim və başqaları kimi şəxslərə tənə vururlar. Buna görə də, şiələr Peyğəmbərin və onun itrətinin dostları deyillər, Peyğəmbərin və onun itrətinin dostları onları mədh edib öyənlər və onların haqlarını kamil şəkildə onlara verənlərdirlər"[437].

**Cavab:**

*Əvvəla:* On iki imam şiələri insanları dəyərləndirərkən, onları sevərkən, onları mədh və ya məzəmmət edərkən hiss, duyğu və ya simpatiya əsasında davranmırlar, onlar insanları dəyərləndirərkən məhz həmin şəxslərin İslamın təlim və göstərişlərinə nə dərəcə bağlı olmalarına nəzər salırlar. Əgər onların yanında bir şəxsin müsəlman, mömin, şəriətə sadiq birisi olması sübuta yetərsə, şiələr həmin şəxsə məhəbbət və ehtiram bəsləyərlər, yox əgər sübuta yetməzsə, onda vəziyyət fərqli olar.

Əgər bir şəxs şəriətə bağlı birisi olmasa, onda o şəxsin nəsəbinin Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) yetişməsi, həmin şəxsə məhəbbət və ehtiram bəslənməsini vacib etməz. Əhli-sünnə arasında kiminsə bu məsələdə bizimlə müxalifət edəcəyini düşünmürəm. Elə isə fasiqliyi və haqq yoldan azmış olması məşhur olan şəxslərə tənə etmələrinə görə şiələrə irad tutula bilməz.

*İkinci:* Abbas ibn Əbdül-Müttəlibə (Allah ondan razı olsun) gəlincə, onun barəsində bəzi mənfi məzmun ehtiva edən rəvayətlər gəlsə də, bəzi şiə alimləri bu rəvayətlərə və onlarda gələn mənfi məzmuna fikir verməmiş, əvəzində Abbası tərif etmişlər. Məsələn, Əllamə Hilli (Allah ona rəhmət etsin) Abbası özünün "Xulasətul-əqval" kitabının birinci qismində qeyd etmişdir. (Bu kitabın "birinci qism"ində nəql etdiyi rəvayətlər Əllamənin nəzərində etimadlı olan şəxslərin adları qeyd olunmuşdur.). O, Abbasın tərcümeyi-halında demişdir:

"Abbas ibn Əbdül-Müttəlib: Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) əmisidir, Peyğəmbəri-Əkrəmin səhabələrinin ağalarından biridir. O, Əlinin (əleyhissəlam) də səhabələrindəndir".[438]

Həmçinin, Seyyid Əli əş-Şəhristani onun və onun oğlu Abdullah ibn Abbasın barəsində demişdir:

"Tarixdə sübuta yetmiş həqiqət budur ki, Abbas ibn Əbdül-Müttəlib və onun oğlu Abdullah bütün vəziyyətlərdə və hallarda Əli ibn Əbu Talibi müdafiə edən, onu qoruyan şəxslərdən olmuşlar. Onların tarixin yaddaşına həkk olunmuş sözləri onların İmam Əli (əleyhissəlam)-ın xilafətinə etiqad bəslədiklərini, hətta Peyğəmbərin Əliyə vəsiyyət etməsini açıq-aşkar qeyd edib vurğuladıqlarını təsdiqləyir. Tarixi mənbələr Abbas ibn Əbdül-Müttəlibin Əbu Bəkrə beyət

---

[437] "Tarixdən bir an": səh.204.

[438] "Xulasətul-əqval": səh.209.

etməkdən imtina etdiyini, Səqifədə iştirak etmədiyini, əksinə həzrət Əlinin (əleyhissəlam) yanında olub ona yardım etdiyini, Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) dəfn işi ilə məşğul olduğunu nəql etmişdir. Onun Ömərin ölümündən sonrakı "şura" məsələsi zamanındakı mövqeyi bir daha bunu təsdiqləyir. Abdullah ibn Abbas da belədir. O da Əli ibn Əbu Talibi dəstəkləyən, onu müdafiə edən, onun haqqını və fəzilətini təsdiq edən, onun və övladlarının xilafətə hamıdan daha layiq olduqlarına etiqad edən şəxslərdən olmuşdur. Mənbələr İbn Abbasın bu həqiqəti birdən çox yerdə aşkar və ya üstüörtülü şəkildə çatdırdığını nəql etmişdir".[439]

Bir çox şiə alimləri İbn Abbasın tərcümeyi-halını qeyd edərkən onu mədh edib tərifləmiş, onun barəsində gələn mənfi məzmunlu rəvayətləri rədd etmişlər.

Əgər mən bu rəddiyyəni müxtəsər etmək istəməsəydim, şiə alimlərinin bu sözlərini nəql edərdim. Onda möhtərəm oxucu Osman əl-Xəmisin "şiələr Abdullah ibn Abbasa tənə edirlər", - deyərkən şiələrə necə iftira atdığını görərdilər. Mən burada sadəcə Şeyx Həsən ibn Zeynuddinin və Əllamə Hillinin onun tərcümeyi-halında dedikləri sözlərin bir hissəsini nəql etməklə kifayətlənirəm.

Əllamə Şeyx Həsən Zeynuddin demişdir:

"Abdullah ibn Abbas – Allah ondan razı olsun: Onun mövlamız Əmirəlmömininə (əleyhissəlam) olan məhəbbəti, ixlası, dostluğu, onu müdafiə etməsi, onun razılığı üçün çalışması və ona arxa-dayaq olması şübhə edilməyəcək məsələlərdəndir".

Daha sonra onun fəzilət və uca məqam sahibi olması barədə, məqamına xələl gətirəcək şeylərdən uzaq olması barədə, həmçinin onun barəsində gələn mənfi məzmunlu rəvayətlərin zəifliyi barədə uzunca danışmış, bunun ardınca demişdir:

"Əgər İbn Abbas kimi birisi barədə min nəqlediləsi[440] hədis nəql olunsaydı, yenə də ona töhmət vurmaq olmazdı. O ki qala bu cür zəif, batil və əsassız rəvayətlər nəql edilə!"[441]

Əllamə Hilli demişdir:

"Abdullah ibn Abbas: Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) səhabələrindəndir. Həzrət Əlini (əleyhissəlam) sevirdi, onun tələbəsi idi. Onun uca məqamı və Əmirəlmömininə (əleyhissəlam) olan məhəbbəti gizli qalmaycaq qədər məşhurdur. Kəşşi onun barəsində məzəmmət ehtiva edən bir sıra hədislər nəql etmişdir. İbn Abbasın məqamın bundan çox-çox ucadır. Biz "əl-Kəbir" adlı kitabımızda bu rəvayətləri qeyd edib onlara cavab vermişik. Allah ondan razı olsun".[442]

Osman əl-Xəmisin "**həmçinin, Hüseynin öz aləmlərində "imam" olmayan övladlarına, məsələn Zeyd ibn Əli, Həsən əl-Əskərinin qardaşı İbrahim və başqaları kimi şəxslərə tənə vururlar**" sözünə gəlincə, bu da onun yalanlarından biridir. O yalnız iki şəxsin adını çəkmişdir: Zeyd ibn Əli və İbrahim ibn Həsən əl-Əsgəri. Sonra da "və başqaları" sözünü işlətmişdir. Maraqlıdır, görəsən kimdir o

---

439 "Vuduun-Nəbi": 1/339.
440 Çox güman ki, "nəqlediləsi" sözü ilə zəif olmayan rəvayətlər nəzərdə tutulur. (Tərc.).
441 "ət-Təhrirut-tavusi": səh.312-317.
442 "Xulasətul-əqval": səh.190.

“başqaları”? Nə üçün Osman əl-Xəmis onların adlarını çəkib sözünü dəlillə əsaslandırmayıb?!

Həzrət imam Əli ibn Hüseynin oğlu Zeydə gəlincə, Osman əl-Xəmis kitabının haşiyəsində şiələrin onu şərab içməkdə ittiham etdiklərini demişdir. Bunu dedikdən sonra Əllamə Məclisinin (Allah ona rəhmət etsin) “Biharul-ənvar” kitabında nəql etdiyi bir rəvayəti qeyd etmişdir. Rəvayət və onun sənədi belədir:

Həmdəveyh Əyyubdan, o da Hənnan ibn Sudeyrdən nəql edib dedi:

“Mən Həsən ibn Hüseynin hüzurunda əyləşmişdim. Bu zaman zeydilərin başçılarından olan Səid ibn Mənsur gəlib dedi: “Nəbiz barədə fikrin nədir? Zeyd bizim yanımızda nəbiz içirdi.” Həsən dedi: “Mən Zeydin məstedici içki içdiyinə inanmıram”. Səid dedi: “Xeyr, içib”. Həsən dedi: “Əgər edibsə, onda bil ki, Zeyd nə peyğəmbərdir, nə də vəsi. O, bəzən yanlış, bəzən də doğru iş görən bir insandır”.[443]

Gördüyünüz kimi Zeydi nəbiz içməkdə ittiham edən şəxs on iki imamçı şiə deyil, zeydilərin başçılarından biridir. Onun sözünün isə heç bir önəmi yoxdur. Çünki barəsində nə siqə olduğu deyilib, nə də ki, mədh gəlib.

Bax, ey hörmətli oxucu! Gör Osman əl-Xəmis kor təəssübkeşlik üzündən şiələrə necə iftira atır. O, on iki imam şiələrinə iftira ataraq onların Zeydi (Allah ondan razı olsun) şərab içməkdə (Allaha pənah) ittiham etdiklərini deyir. Halbuki Zeydi bu işdə ittiham edən şəxs on iki imam şiəsi deyil, başqa məzhəbdən olan birisidir. Həzrət Zeyd belə bir işi etməkdən çox-çox uca, çox-çox təqvalıdır. On iki imam şiələri həzrət Zeyd barədə yaxşılıqdan başqa heç bir şey demirlər. Onlar Zeydə məhəbbət, sevgi, hörmət və ehtiram bəsləyirlər. Şiələrin İmamlarının və alimlərinin sözləri buna şahiddir. Biz burada Əllamə Əmininin “əl-Ğədir” kitabında “Şəhid Zeyd və on iki imam şiələri” başlığı altında dediyi sözləri nəql edirik:

“O, zülm və haqsızlığa qarşı çıxanlardan biridir. Əhli-Beyt (əleyhimussəlam) alimlərinin öndə gedənlərindəndir. Fəzilətlər hər bir tərəfdən onu əhatə etmişdir. Bol elm, böyük təqva, böyük igidlik, çətinliklər zamanı dözüm və s. bu kimi ali keyfiyyətlər sahibidir. Şərafətini Peyğəmbərdən, şanını Əlidən, rəhbərliyini Fatimədən, ruhiyyəsini Hüseyndən almışdır.

Şiələr ilk gündən etibarən onu müqəddəsliklə yad edirlər. Onun etdiyi cihada, zülmə qarşı etiraza, “Ali-Muhəmmədin razılığına” tərəf[444] dəvət etməsinə haqq qazandırmağı özlərinə borc bilirlər. Bütün bu deyilənlərə şiələrin sənədli şəkildə Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) və imamlarından (əleyhimussəlam) nəql etdikləri hədislər, habelə onların alimlərinin sözləri, şairlərinin mədhiyyələri, yazıçılarının kitabları şahidlik edir.

Hədislərə gəlincə, belə hədislərdən biri Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) nəvəsi həzrət Hüseynə buyurduğu bu sözdür:

---

[443] “Biharul-ənvar”: 46/194.

[444] Orijinalda adətən “ilər-rida min ali-Muhəmməd..” deyə təbir olunan bu cümləni, yaxud tarixi şüarı iki cür başa düşmək olar: 1) Muhəmməd ailəsinin razılığına tərəf; 2) Muhəmməd ailəsindən olan razı qalınmış şəxsə tərəf. (Tərc.).

“Sənin sülbündən Zeyd adlı bir şəxs çıxacaq. (Qiyamət günü) o və onun yoldaşları camaatın arasından (sürətlə) çıxıb hesab-kitabsız Cənnətə daxil olacaqlar”.[445]

Həmçinin Peyğəmbəri-Əkrəm (sallallahu əleyhi və alihi və səlləm) buyurmuşdur:

“O qiyam edəcək və Kufədə qətlə yetiriləcək. Kinasədə[446] dar ağacından asılacaq. (Dəfn edildikdən sonra) qəbrini qazıb nəşini qəbirdən çıxaracaqlar. Səmanın qapıları onun ruhu üçün açılacaq, səmaların və yerin əhli ona görə şadlanacaqlar”.[447]

Əmirəlmöminin (əleyhissəlam) Kufədə onun asıldığı yerdən keçərkən ağlamış, bu zaman onun yoldaşları da ağlamışlar. Onlar sual verib, “Sizi nə ağladan nədir?”, - deyə soruşduqda, Həzrət (əleyhissəlam) buyurmuşdur:

“Mənim sülbümdən olan bir kişi burada asılacaq. Kim onun övrətinə baxmağa razı olsa, Allah onu üzü üstə Cəhənnəmə atacaq”.[448]

İmam Baqir (əleyhissəlam) onun barəsində “İlahi, Zeyd vasitəsilə mənim gücümü artır”, - deyə dua etmişdir...

Həmçinin, bir gün Zeyd o Həzrətin yanına gəldiyində Həzrət “**Ey iman gətirənlər! Allah qarşısında (borcunuzu yerinə yetirməkdə) sabitqədəm və ədalətli şahidlər olun**”[449] ayəsini tilavət etdi. Sonra buyurdu: “Ey Zeyd, Allaha and olsun ki, sən belə kəslərdənsən”.[450]

Həmçinin, Sadiq (əleyhissəlam) onun barəsində belə buyurmuşdur:

“O, mömin idi, arif idi, alim idi, doğru danışan idi. Məlum olsun, əgər qələbə çalsaydı, vəfa edəcəkdi. Əgər hakimiyyətə gəlsəydi, hakimiyyətlə necə davranacağını biləcəkdi”.[451]

Həzrət Sadiq (əleyhissəlam) onun qətlə yetirilmə xəbərini eşitdiyi zaman belə buyurmuşdur:

“Biz Allahdanıq və Ona tərəf qayıdacağıq. Əmimin savabını Allahdan istəyirəm. Həqiqətən də o çox gözəl əmi idi. Mənim əmim həm bizim dünyamız, həm də axirətimiz üçün (çalışan) bir şəxs idi. Allaha and olsun ki, əmim Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm), Əlinin, Həsənin və Hüseynin (əleyhimussəlam) yanında şəhid olan kəslər kimi şəhid olaraq dünyadan köçdü. Allaha and olsun ki, şəhid olaraq dünyadan köçdü”.[452]

Həmçinin, buyurmuşdur:

“Həqiqətən də Zeyd alim idi, doğru danışan idi. O sizi özünə tərəf çağırmadı, o sizi məhz Muhəmməd ailəsinin razılığına tərəf çağırdı[453]. Əgər qələbə çalsaydı,

---

445 “Uyunu-əxbarir-Riza (əleyhissəlam)”: 25-ci bab, “Kifayətul-əsər”.
446 Kinasə Kufə şəhərində yer adıdır. Hərfi mənada “zir-zibil toplanan yer”, “zibillik” mənasına gəlir. (Tərc.).
447 “Uyunu-əxbarir-Riza (əleyhissəlam)”.
448 “əl-Məlahim” (Seyyid İbn Tavus): 31-ci bab.
449 Maidə surəsi, 8-ci ayə.
450 “ər-Raudun-nadir”: 1/55.
451 “Ricalul-Kəşşi”: səh.184.
452 “Uyunu-əxbarir-Rza (əleyhissəlam)”.
453 Əllamə Məclisi (Allah ona rəhmət etsin) demişdir: “Yəni, bütün Muhəmməd ailəsini razı salacaq işlər görməyə dəvət edirdi, yaxud, Muhəmməd ailəsindən olan seçilmiş və razı qalınmış şəxsə tərəf dəvət edirdi”. (“Miratul-uqul”: 26/285). (Müt.)

sizi çağırdığı şey (mövzusunda əhdinə) vəfa edəcəkdi. O, (ətrafına xeyli sayda adam) toplaşmış bir sultanı aradan aparmaq üçün qiyam etdi...”[454]

Başqa bir hədisdə buyurmuşdur:

“Zeydə ağlayan şəxs Cənnətdə onunla birgə olacaq, ona tənə vuran şəxs isə onun (nahaq tökülən) qanında şərikdir”.

Həmçinin İmam Rza (əleyhissəlam) buyurmuşdur: “O, Muhəmməd ailəsinin alimlərindən idi. Allah üçün qəzəbləndi və Onun düşmənləri ilə cihad etdi”.

Bu mövzuda çoxlu hədislər vardır. Biz yığcam olsun deyə bu qədərini qeyd etdik.

Alimlərin sözlərinə gəlincə, Şeyx Müfidin “əl-İrşad” kitabına, Xəzzar əl-Qumminin “Kifayətul-əsər” kitabına, nəsəb alimi əl-Umərinin “əl-Məcdi” kitabına, İbn Davudun “Rical” kitabına, Şəhidi-Əvvəlin “Qəvaid” kitabına, “Məalim” kitabının müəllifinin oğlu Şeyx Muhəmmədin “Şərhul-istibsar” kitabına, Əstərabadinin “Rical” kitabına, İbn Əbu Caminin “Rical” kitabına, Əllamə Məclisinin “Miratul-uqul” kitabına, Mirzə Abdullah İsfahaninin “Riyadul-uləma” kitabına, Şeyx Əbdün-Nəbi əl-Kaziminin “Təkmilətur-rical” kitabına, Şeyx Hürr Amulinin “Xatimətul-vəsail” kitabına, Ayətullah Bəhrul-ulumun babası Seyyid Muhəmmədin “Risalə” əsərinə, Şeyx Əbu Əlinin “Rical” kitabına, şeyximiz Nurinin “Xatimətul-müstədrək” kitabına, şeyximiz Mamaqaninin “Tənqihul-məqal” kitabına və digər alimlərin kitablarına müraciət edin. Onlar hamılıqla bir şeyin üzərində - həzrət Zeydin hər növ eyb və ləkədən uzaq olması, onun çağırışının ilahi çağırış olması və cihadının Allah yolunda olması üzərində icma etmişlər.

Bütün şiələrin bu mövzudakı fikrini xülasə şəkildə çatdırmaq istəsək Bəhaul-milləti vəddin Amulinin (Bəhaəddin Amulinin) İmam Müntəzər (əleyhissəlam)-ın varlığı ilə bağlı yazdığı risaləsində dediyi aşağıdakı sözləri göstərə bilərik:

“Biz on iki imam şiələri Zeyd ibn Əli barəsində xeyirdən başqa heç nə demirik. Bu mövzuda bizim İmamlarımızdan çoxlu hədislər gəlib çatıb”.

Əllamə Kazimi “Təkmilə” kitabında demişdir: “İslam alimləri Zeydin uca məqamlı, təqvalı və fəzilətli şəxs olması barədə ittifaq ediblər”.[455]

Bundan sonra Əllamə Əmini (Allah ona rəhmət etsin) şiə şairlərin Zeydi-şəhid barədə dedikləri tərif dolu şerlərdən nümunələr qeyd etmişdir. Sonra demişdir:

“Bir sıra şiə alimləri Zeyd barəsində, onun fəzilətləri və nəql etdiyi hədislər barəsində ayrıca əsərlər yazıblar. Onlara misal olaraq aşağıdakıları göstərə bilərik:

1-İbrahim ibn Səid ibn Hilal əs-Səqəfi, vəf. 283 h., onun “Əxbaru-Zeyd” adında bir kitabı var.

2-Muhəmməd ibn Zəkəriyya Mövla-Bəni-Ğilab, vəf. 298 h., onun “Əxbaru-Zeyd” adında bir kitabı var.

3-Hafiz Əhməd ibn Üqdə, vəf. 333 h., onun “Mən rəva əxbarəz-Zeyd və musnədəhu” adına bir kitabı vardır.

---

[454] “əl-Kafi”.

[455] “əl-Ğədir”: c.3, səh.71.

4-Əbdül-Əziz ibn Yəhya əl-Cəludi, vəf. 368 h., onun "Əxbaru-Zeyd" adında kitabı vardır.

5-Muhəmməd ibn Abdullah əş-Şeybani, vəf.372 h., onun "Fadailu-Zeyd" adında bir kitabı vardır.

6-Şeyx Səduq Əbu Cəfər əl-Qummu, vəf.381 h., onun da Zeydin xəbərlərinə dair bir kitabı vardır.

7-"ər-Ricalul-kəbir" kitabının müəllifi Mirzə Muhəmməd əl-Əstərabadi.

8-Seyyid Əbdür-Rəzzaq əl-Muqərrim. Seyyid Əbdür-Rəzzaq dövrümüzün böyük alimlərindəndir. Şiəliklə bağlı çoxlu gözəl kitablar yazan şəxsiyyətlərdəndir. Geniş elmə, böyük şərəfə, ali keyfiyyətlərə sahibdir. Onun ən mühüm və ən faydalı kitablarına misal olaraq İmam Həsən Müctəba (əleyhissəlam)-ın həyatına dair yazdığı kitabı, İmam Hüseyn (əleyhissəlam)-ın həyatına və şəhadətinə dair yazdığı kitabı, "Xanım Səkinə" kitabını, Əli ibn Hüseyn əl-Əkbərin (həzrət Əli Əkbər) həyatına dair yazdığı risaləni, "Zeyduş-şəhid" kitabını, Muxtar ibn Əbu Ubeyd əs-Səqəfiyə atılan ittihamlara cavabla bağlı yazdığı kitabı (bu kitab həzrət Zeydlə bağlı yazdığı kitabla birgə çap edilmişdir), "Əbül-Fəzl Abbas ibn Əmirəlmöminin" kitabını və s. bu kimi kitab və risalələri göstərmək olar. O, bu əsərlərdə olduqca faydalı məqamlar qeyd etmişdir, Allah onu salamat etsin, onu bütün xeyir işlərə müvəffəq etsin."

Sonra demişdir:

"Son söz: Zeydin bütün şiələr yanında məqamı və müqəddəsliyi bax bu cürdür".[456]

Osman əl-Xəmisin İmam Həsən əl-Əsgərinin (əleyhissəlam) qardaşı olduğunu iddia etdiyi İbrahim adlı şəxsə gəlincə isə, bu şəxs Osman əl-Xəmisin uydurduğu bir şəxsiyyətdir. Nə İmam Hadi (əleyhissəlam)-ın İbrahim adında bir övladı olmuşdur, nə də İmam Həsən əl-Əsgərinin (əleyhissəlam) İbrahim adında bir qardaşı olmuşdur.

## BAXAQ GÖRƏK ƏHLİ-BEYTƏ (əleyhimussəlam) TƏNƏ VURAN KİMLƏRDİR!

İndi isə, ey hörmətli oxucu, gəl birlikdə baxaq görək Əhli-Beyt üzvlərinə tənə vuranlar kimlərdir; şiələrdir, yoxsa başqaları?

Biz Osman əl-Xəmisi başqa nasibilərin səsləndirdiyi fikirlərə görə mühakimə etməyəcəyik. Biz onu elə onun öz sözləri ilə mühakimə edəcəyik. Biz onun şiələrə iftiralar atdığı "Hiqbətun minət-tarix" ("Tarixdən bir dövr") kitabında səsləndirdiyi fikirlərdən birini sizə təqdim edəcəyik. Osman əl-Xəmis öz imamı İbn Teymiyyə kimi İmam Hüseynə (əleyhissəlam) və onun inqilabına tənə vuraraq demişdir:

**"Hüseynin – Allah ondan razı olsun – qiyamında nə din, nə də dünya faydası var idi. Buna görə də o dövrün ən böyük səhabəsi onu bu işdən çəkindirmişdi... Əgər o öz yerində otursaydı, onda onun qiyamı və qətlə yetirilməsi ilə meydana gələn fəsad meydana gəlməzdi...".**

---

456 "əl-Ğədir": c.3, səh.69-74.

Görəsən, Allaha, Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) və Peyğəmbərin nəvəsi həzrət Hüseynə (əleyhissəlam) qarşı bundan böyük necə cürət edilə bilər?! Osman əl-Xəmis Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) nəvəsinin yaxşılığa dəvət, pislikdən, zülmdən və tüğyandan çəkindirmək üçün etdiyi qiyamı fəsad adlandırır, onda nə dini, nə də dünyəvi bir faydanın olmadığını deyir! Görəsən bu İmam Hüseynə (əleyhissəlam) qarşı düşmənçilik deyil?!

İmam Hüseyn (əleyhissəlam) qardaşı Muhəmməd əl-Hənəfiyyəyə etdiyi vəsiyyətində islah üçün, yaxşılığa dəvət, pislikdən çəkindirmək üçün qiyam etdiyini bildirmişdir. Sünnilərin və şiələrin nəql etdikləri rəvayətdə o Həzrətin belə buyurduğu qeyd olunur:

"Mən (Mədinədən) təkəbbür və tüğyan xatirinə, yaxud fəsad çıxarmaq və zülm etmək xatirinə çıxmadım. Mən babamın ümmətini islah etmək üçün çıxdım. Yaxşılığa əmr edib, pislikdən çəkindirmək, babam Muhəmmədin (sallallahu əleyhi və alihi və səlləm) və atam Əli ibn Əbu Talibin (əleyhissəlam) getdiyi yolla getmək istəyirəm. Kim haqq tabe olub məni qəbul etsə, bilsin ki, Allah haqqa daha layiqdir.[457] Kim mənim qarşımda dursa, onda Allah mənimlə (həmin) tayfa arasında hökm verənədək səbr edəcəyəm. Allah hökm verənlərin ən yaxşısıdır".[458]

Məgər Osman əl-Xəmis öz mənbələrində gələn və Cəbrailin (əleyhissəlam) həzrət Peyğəmbərə: "Hüseyni sənin ümmətin öldürəcək", - deyə xəbər verdiyini bildirən səhih hədisləri oxumayıb?!

Məgər Osman əl-Xəmis Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) öz sağlığında həzrət Hüseynə ağladığını bildirən hədisləri oxumayıb?!

Əgər Osman əl-Xəmisin iddia etdiyi kimi həzrət Hüseynin (əleyhissəlam) qiyamında fəsad olsaydı, onda Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) onu bu işdən çəkindirər, müsəlmanlara ona yardım etməyi əmr etməzdi! Böyük səhabə Ənəs ibn Harisin (Allah ondan razı olsun) belə dediyi nəql olunmuşdur:

"Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğunu eşitdim: "Bu oğlum – yəni, Hüseyn – Kərbəla deyilən bir yerdə qətlə yetiriləcək. Sizdən kim bu hadisənin şahidi olsa, Hüseynə kömək etsin"."[459]

Bu səhabə İmam Hüseyn (əleyhissəlam)-la birgə yola düşərək Kərbəla hadisəsində şəhadətə çatdı.

Məgər İmam Hüseyni (əleyhissəlam) xətakar bilmək Peyğəmbəri-Əkrəmi (sallallahu əleyhi və alihi və səlləm) xətakar bilmək deyil? Bəli, Osman əl-Xəmis öz ağaları Yəzid və Bəni-Üməyyəni müdafiə etməkdən ötrü belə işlərə əl atmışdır.

Osman əl-Xəmis bu mövzunun sonunda şiələrə başqa yalanlar da nisbət vermişdir. Məsələn, şiələri qövmpərəstlikdə ittiham etmiş, şiələrin Salmana vəhy gəldiyini dediklərini[460], həmçinin Kəsranın odda olduğunu, lakin odun ona haram

---

[457] Bəlkə də cümlənin mənası belədir: "Kim haqqa tabe olub mənim tərəfimdə olsa, bilsin ki, əslində Allahın tərəfində olmuşdur, çünki mənim məqsədim haqqı icra etməkdir, haqqın icra olunmasını da hər kəsdən qabaq Allah istəyir". (Tərc.).

[458] "Məqtəlul-Hüseyn" (Xarəzmi): 1/189.

[459] "əl-Bidayə vən-nihayə" (İbn Kəsir): 8/301, "əl-Xasaisul-kubra" (Suyuti): 2/213, "Kənzul-ummal" (Müttəqi Hindi): 12/71, hədis: 3414.

[460] Bəli, bizim bəzi hədislərimizdə Salman əl-Farisinin (əl-Muhəmmədinin) "mühəddəs" (mələklərin danışdığı şəxs) olduğu bildirilmişdir. Lakin, Osman əl-Xəmis özü "Hiqbətun minət-tarix" kitabında (səh.57) Əbu Hüreyrənin Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) nisbət verdiyi bir hədisi nəql etmişdir ki, həmin hədisin

olduğunu dediklərini iddia etmişdir. Bu sözlərin batilliyi gün kimi aşkar olduğu üçün biz bu sözlərə cavab vermirik. Bizim onun bu cür iftiraları ilə bağlı ayrıca bəhsimiz olacaq, inşəallah.

# OSMAN ƏL-XƏMİSİN "QƏDİR-XUM HƏDİSİ" BARƏDƏ BATİL FİKİRLƏRİNƏ CAVAB

məzmunundan Ömərin də mühəddəs olduğu anlaşılır. Elə isə Osman əl-Xəmis Salmanın da mühəddəs ola bilməsinə niyə təəccüblənir?

**Osman əl-Xəmisin "Qədir-xum" hədisi barədə iddiaları**

Osman əl-Xəmis demişdir:

""Qədir-Xum" hədisi şiələrin ən mühüm dəlili hesab olunur. Belə ki, hətta bu hədislə bağlı "Əl-Qədir" adlı 11 cildlik bir kitab yazılıb.

Bu hədisi İmam Müslim öz "Səhih" kitabında Zeyd ibn Ərqəmdən nəql etmişdir. Hədisdə deyilir:

Bir gün Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Məkkə ilə Mədinə arasındakı "Xum" deyilən sulu bir ərazidə bizim üçün xütbə etdi. Allaha həmd və səna etdi, sonra moizə və nəsihət etdi. Sonra dedi: "Bilin, ey camaat! Mən sadəcə bir bəşərəm. Az qalır ki, Rəbbimin elçisi gəlsin və mən (Rəbbimin dəvətinə) cavab verim. Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm. Onların birincisi Allahın kitabıdır, onda hidayət və nur vardır. Elə isə Allahın kitabını götürün və ondan yapışın. (İkincisi) Əhli-Beytimdir. Əhli-Beytim barədə sizə Allahı xatırladıram, Əhli-Beytim barədə sizə Allahı xatırladıram, Əhli-Beytim barədə sizə Allahı xatırladıram"."

Huseyn – hədisi Zeyddən nəql edən – dedi: "Onun Əhli-beyti kimdir, ey Zeyd? Peyğəmbərin xanımları onun Əhli-Beytindən deyillər?".

Zeyd dedi: "Bəli (Əhli-Beytindəndirlər). Amma onun Əhli-Beyti ondan sonra sədəqə (almaları) haram olan kəslərdir".

Huseyn dedi: "Onlar kimlərdir?"

Zeyd dedi: "Əlinin ailəsi, Əqilin ailəsi, Cəfərin ailəsi, Abbasın ailəsi".

Huseyn dedi: "Bütün bu şəxslərə sədəqə almaq haram edilib?".

Zeyd dedi: "Bəli".".

Müslimdən başqalarının, məsələn Tirmizinin kitabında, Əhmədin kitabında, Nəsainin "Xəsais" kitabında, Hakimin kitabında və başqalarının kitablarında hədisdə bir əlavə də gəlmişdir. Həmin əlavədə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyi bildirilir: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır". Eləcə də, hədisdə "İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy, o hara getsə, haqqı da onunla birgə et" – kimi başqa əlavələr də gəlmişdir. Həmçinin bunlardan başqa əlavələr də gəlmişdir ki, hal-hazırda onları qeyd etməyə lüzum yoxdur.

Mühüm olan odur ki, Müslimin nəql etdiyi hədisdə "mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözü yoxdur. Lakin bu əlavə Tirmizinin, Əhmədin, Nəsainin, Hakimin və başqalarının kitablarında səhih sənədlərlə nəql olunmuşdur.

"İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol" kimi digər əlavələrə gəlincə, bu əlavələri bəzi alimlər səhih hesab etsələr də, doğru olan bu əlavələrin səhih olmamasıdır. "Ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy" əlavəsinə gəlincə isə, bu əlavə Peyğəmbərin adından uydurulmuş bir yalandır." Sitatın sonu[461].

---

[461] "Tarixdən bir an": səh.180-182.

**Birinci: Qədir-xum hədisi Əli (əleyhissəlam)-ın imamətinə dəlalət edən mühüm dəlillərdəndir**

**Deyirəm:** Qədir-xum hədisi şiələrin İmam Əli (əleyhissəlam)-ın Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra xəlifə, imam və müsəlmanların vəlisi olduğunu isbat etməkdən ötrü əsaslandıqları dəlillərdən biridir. Bir çox alimlər bu hədislə bağlı müstəqil kitablar yazmışlar. Belə alimlərdən biri Əllamə Əminidir (Allah ona rəhmət etsin). Mərhum Əllamə "əl-Ğədir fil-kitab vəs-sunnə vəl-ədəb" adında 11 cildlik böyük bir kitab yazmışdır.

Kaş Osman əl-Xəmis şiələrin bu hədisi dəlil gətirmələrinin batil olduğunu söyləyərkən şiə alimlərinin bu hədisi necə dəlil gətirdiklərini qeyd edəydi, sonra da ona cavab verəydi, məsələn, elə Əllamə Əminidən bir neçə sitat qeyd edəydi, sonra da cavab verəydi. Lakin, belə etməmişdir, əvəzində, bir neçə bəsit irad qeyd etməklə kifayətlənmişdir. Bu iradlara isə şiə alimləri çoxdan cavab vermişlər. Həmçinin Osman əl-Xəmis Qədir-xum hədisi ilə bağlı səsləndirdiyi fikirlərdə çoxlu xətalara və saxtakarlıqlara yol vermişdir. Bunun nəticəsində də dediyi fikirlər hörümçək torundan da zəif hala düşmüşdür. İnşəallah növbəti səhifələrdə bunun şahidi olacaqsınız.

**İkinci: Osman əl-Xəmis kimi Müslim də Qədir-xum hədisini kəsmişdir!**

Osman əl-Xəmis Qədir-xum hədisiylə tanış olduğu üçün Müslimin öz "Səhih" adlı kitabında Qədir-xum hadisəsiylə bağlı nəql etdiyi rəvayətin yarımçıq və kəsilmiş olduğunu bilir. Müslimin bu hadisəni başqa səhih, müsnəd və sünən kitablarının müəlliflərinin nəql etdiyi şəkildə nəql etməməsi, haqqa qarşı inadkarlıq etməyin bir növüdür. Qədir-xum hədisi böyük sayda şəxsin nəql etdiyi mütəvatir bir hədisdir. Onun mütəvatir olmasını bir çox əhli-sünnə alimi etiraf edib. Bu hədis Hakim ən-Nisapurinin, həmçinin Əlbaninin və digərlərinin də dediyi kimi Müslimin və Buxarinin şərtinə əsasən səhihdir[462].

Bundan başqa, Buxarinin və ya Müslimin bu hədisi nəql etməməsi onun zəif və ya uydurma olması mənasına gəlmir, hədisin səhihliyinə heç bir xələl gətirmir. Necə ki, bir çox əhli-sünnə alimləri bunu etiraf etmişlər. Onlar səhih hədislərin Buxari və Müslimin nəql etdiyi rəvayətlərlə məhdudlaşmadığını bildirmiş, Buxari və Müslimin "səhih" kitablarının bütün səhih hədisləri əhatə etmədiyini demişlər.

**Üçüncü: Osman əl-Xəmisin Müslimin rəvayətini təhrif etməsi**

Bu şeyx Müslimin nəql etdiyi rəvayəti təhrif edərək Zeyd ibn Ərqəmin dediyi "*Xanımları onun əhli-beytindəndir?!*" cümləsini çıxarmış, əvəzində "*Bəli!*" sözünü yazmışdır!

Müslimin nəql etdiyi rəvayətin mətni belədir:

"Zeyd ibn Həyyan mənə nəql edib dedi: Mən, Huseyn ibn Səbrə və Ömər ibn Müslim Zeyd ibn Ərqəmin yanına getdik. Onun yanına əyləşdikdən sonra Huseyn ona dedi: "Sən Allah Rəsulunu (sallallahu əleyhi [və alihi] və səlləm) görmüş,

---

[462] Bax: "Silsilətul-əhadisis-səhihə" (Əlbani): 4/330 və sonrakı səhifələr.

onun hədisini eşitmiş, onunla birgə döyüşə getmiş, onun arxasında namaz qılmısan. Sən çox böyük bir xeyrə nail olmusan, ey Zeyd. Ey Zeyd, bizə Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) eşitdiyin bir şey danış". Zeyd dedi: "Qardaş oğlu, Allaha and olsu ki, yaşım artım, əcəlim yaxınlaşıb, Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) eşitdiyim şeylərin bəzisini unutmuşam. Sizə nəyi danışsam, qəbul edin, nəyi danışmasam, məni çətinliyə salmayın." Sonra dedi: "Bir gün Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Məkkə ilə Mədinə arasındakı "Xum" deyilən sulu bir ərazidə bizim üçün xütbə etdi. Allaha həmd və səna etdi, sonra moizə və nəsihət etdi. Sonra dedi: "Bilin, ey camaat! Mən sadəcə bir bəşərəm. Az qalır ki, Rəbbimin elçisi gəlsin və mən (Rəbbimin dəvətinə) cavab verim. Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm. Onların birincisi Allahın kitabıdır ki, onda hidayət və nur vardır. Elə isə Allahın kitabını götürün və ondan yapışın. (İkincisi) Əhli-Beytimdir. Əhli-Beytim barədə sizə Allahı xatırladıram, Əhli-Beytim barədə sizə Allahı xatırladıram, Əhli-Beytim barədə sizə Allahı xatırladıram"."

Huseyn dedi: "Onun Əhli-beyti kimdir, ey Zeyd? Peyğəmbərin xanımları onun Əhli-Beytindən deyillər?".

Zeyd dedi: "Xanımları onun Əhli-Beytindəndirlər?! Onun Əhli-Beyti ondan sonra sədəqə (almaları) haram olan kəslərdir".

Huseyn dedi: "Onlar kimlərdir?"

Zeyd dedi: "Əlinin ailəsi, Əqilin ailəsi, Cəfərin ailəsi, Abbasın ailəsi".

Huseyn dedi: "Bütün bu şəxslərə sədəqə almaq haram edilib?".

Zeyd dedi: "Bəli".[463] Hədisin sonu.

Mən insaflı oxucudan Huseynin Zeydə verdiyi suala – "*Onun Əhli-beyti kimdir, ey Zeyd? Peyğəmbərin xanımları onun Əhli-Beytindən deyillər?*" sualına diqqət yetirməsini xahiş edirəm. Bu zaman Zeyd deyir: "Xanımları onun Əhli-Beytindəndirlər?! Onun Əhli-Beyti ondan sonra sədəqə (almaları) haram olan kəslərdir...".

Osman əl-Xəmis Zeydin dediyi "Xanımları onun Əhli-Beytindəndirlər?!" sözünü kəsmişdir. Çünki bu cümlə Peyğəmbər xanımlarının Əhli-Beytdən olduğunu zənn edən Huseynə verilən inkar mənalı sual cümləsidir! Məhz bu səbəbdən Osman əl-Xəmis bu cümləni kəsib.

Hətta bununla da kifayətlənməyərək, cümlənin yerinə "**bəli**" sözünü qoyub, beləcə cümlə inkar mənalı sual cümləsi olmaqdan çıxıb təsdiq mənalı nəqli cümləyə çevrilib, nəticədə Zeyd Huseynin dediyi sözü təsdiq edib!! Heç belə təhrif görmüşdünüz?!

Öz iddiasına əsasən hədis elmində mütəxəssis olan Osman əl-Xəmis Zeyd ibn Ərqəmin Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımlarının Əhli-Beytdən olmasını inkar etdiyini bilmiş olmalıdır. Osman əl-Xəmis "Səhihü-Müslim" kitabını oxuyub. Orada Zeyd barədə deyilən bu rəvayəti də oxuyub (c.3, səh.1874):

---

[463] "Səhihü-Müslim": 4/1873, hədis: 2408.

“Biz dedik: “(Ey Zeyd), Peyğəmbərin Əhli-Beyti kimlərdir? Xanımlarıdır?” Zeyd dedi: “Xeyr! Allaha and olsun, qadın bir müddət kişi ilə birgə olar, sonra kişi ona talaq verər, beləcə qadın öz atasının və tayfasının yanına qayıdar. Peyğəmbərin Əhli-Beyti onun özündən sonra sədəqə almaları haram olan əsli və qan qohumlarıdır”.

Əgər iyirmi birinci əsrdə Osman əl-Xəmis “Səhihü-Müslim”dən nəql etdiyi bir rəvayətdə utanıb xəcalət çəkmədən bu cür təhrif, yalan və saxtakarlıq edirsə (özü də “Səhihü-Müslim” çap edilib, insanlar arasında kifayət qədər yayılıb), siz onun Əhli-Beytə (əleyhimussəlam) müxalif olan sələflərinin bu işi görməkdən utanmalarını necə gözləyirsiniz?!

Bütün bunlarla yanaşı bizim Zeydin rəvayətinə müəyyən iradlarımız da var:

1-Rəvayətdə “ondan sonra sədəqə almaları haram olan şəxslər” sözü işlənmişdir. Bu söz yanlışdır. Çünki bu şəxslərə sədəqə almaq həm Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) həyatında, həm də onun vəfatından sonra haramdır. Bəlkə də Zeydin sözü Osman əl-Xəmisin sələfləri tərəfindən təhrif edilmişdir.

2-Bu rəvayət sədəqə yemələri haram olan şəxslərin Əlinin, Əqilin, Cəfərin və Abbasın ailələrindən ibarət olduğunu bildirmişdir. Bu da həmçinin, yanlışdır. Belə ki, Əbdül-Müttəlib ailəsi də bu cərgəyə daxil olur. Hal-hazırda mövzumuz bu olmadığına görə bu qədərini qeyd etməklə ilə kifayətlənirik.

### Dördüncü: Qədir-xum hədisi mütəvatir hədislərdəndir

Qədir-xum hədisi çoxlu səhabə nəql etmişdir. Onlar Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Qədir-xum adlanan yerdə Əli ibn Əbu Talib (əleyhissəlam) barədə məlum sözləri buyurmasına şahidlik etmişlər.

Bu hədisin sənədlərinin bir çoxu səhih[464], güclü[465] və həsəndir[466]. Mən əlimdə olan mənbələr əsasında bu hədisi nəql edən ravilərdən bir neçəsini qeyd edəyəcəm. Raviləri qeyd etməzdən qabaq giriş kimi hadisənin Pak və məsum Əhli-Beyt İmamlarının (əleyhimussəlam) rəvayətləri və eləcə də əhli-sünnə rəvayətləri əsasında xülasəsini təqdim edirəm. Deyirəm:

Peyğəmbəri-Əkrəm (sallallahu əleyhi və alihi və səlləm) hicrətin 10-cu ilində Allahın evinə həccə getməyi qərara aldı. Bu xəbər Mədinəyə, Mədinə ətrafı bölgələrə, eləcə də digər məntəqələrə yayıldı. İnsanlar axın-axın Mədineyi-Münəvvərəyə gəlib Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) karvanına qoşulmağa başladılar. Yol əsnasında və Məkkədə qoşulanlardan əlavə minlərlə insan Peyğəmbərin karvanına daxil oldu. Peyğəmbəri-Əkrəm (sallallahu əleyhi və alihi və səlləm) Məkkədə, Ərəfatda və Minada etdiyi beş xütbədə

---

[464] Sənədi bitişik olan, raviləri ədalətli və yaxşı yaddaşlı olan, illəti (nöqsanı) olmayan və şazz (məşhurun ziddinə olan) olmayan hədisə “səhih hədis” deyilir. Bax: “Mucəmul-mustalahatul-hədisiyyə”: səh.437-438. (Tərc.).

[465] Səhihdən daha aşağı, həsəndən daha yuxarı olan hədisdir. Sənədində barəsində müəyyən mənfi sözlər deyilən, lakin “Səhihül-Buxari” və ya “Səhihü-Müslim”in ravilərindən olan bir şəxs olan hədisə “qəviyy hədis” (güclü hədis) deyilər. Bax: “Mucəmul-mustalahatul-hədisiyyə”: səh.562. (Tərc.).

[466] Sənədi bitişik olan, illətli və şazz olmayan, raviləri ədalətli olan, lakin aralarında yaddaşı bir qədər zəif şəxs olan hədisə “həsən hədis” deyilir. Bu qeyd olunan 3 hədis növünün hər üçü mötəbər hədis növləri sayılır. “Mucəmul-mustalahatul-hədisiyyə”: səh. 312. (Tərc.).

müsəlmanlara dinlərinin hökmlərini, xüsusən həcclə bağlı hökmləri bəyan etdi, onlara pak itrətin məqamını açıqladı.

Həcc əməllərini bitirdikdən sonra Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) Mədineyi-Münəvvərəyə dönməyi qərar aldı. Yol əsnasında ikən həzrət Cəbrail (əleyhissəlam) ona nazil olub o Həzrətə bu ayəni çatdırdı: "**Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı çatdır! Əgər (bunu) etməsən, (elə bil ki,) Onun (heç bir) tapşırığını çatdırmamısan. Allah səni insanlardan (onların fitnə və şərindən) qoruyacaq. Şübhəsiz, Allah kafirlərin dəstəsini hidayət etməz**"[467]. Həzrət Cəbrail xəbər verib bildirdi ki, Allah-taala ona Əli ibn Əbu Talibi (əleyhissəlam) müsəlmanlar üzərində xəlifə, imam və vəsi təyin etməsini, camaata onun vilayətini çatdırmasını, ona itaət etməyin hər bir müsəlmana vacib olduğunu deməsini əmr edir.

Bu hadisə zil-hiccə ayının 18-ci günündə, cümə axşamı günündə, Xum adlanan ərazinin yaxınlığında yerləşən Cuhfə adlı məntəqədə, səhər gün çıxdığı vaxtı baş verdi. Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) irəliləməyi dayandırdı. Öndə gedənlərin geri qaytarılmasını, arxada gedənlərin də gəlib çatmalarını gözləməyi əmr etdi. Beləcə bütün hacılar bir yerə cəm oldular. Zöhr azanının vaxtı gəldi. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) müsəlmanlara namaz qıldırdı. Həmin gün hava olduqca isti idi. Namazdan sonra Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) üçün dəvələrin yüklərindən bir minbər düzəltdilər. Allah Rəsulu həmin minbərə çıxıb uzun və bəlağətli bir xütbə söylədi. Xütbəsini Allaha həmd-səna ilə başladı, sonra oraya toplaşan şəxslərə moizə və nəsihətlər etdi, bunun ardınca həzrət Əlini (əleyhissəlam) özündən sonra ümmət üzərində imam, xəlifə və vəsi təyin etdi.

Şeyx Səduqun (Allah ona rəhmət etsin) öz sənədi ilə Məruf ibn Xərrəbuzdan, onun Əbut-Tufeyl Amir ibn Vasilədən, onun da Hüzeyfə ibn Useyd əl-Ğifaridən nəql etdiyi səhih bir hədisdə deyilir:

"Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) vida həccindən qayıdarkən – bu vaxt biz də onunla idik – Cuhfə adlanan yerə çatdı. Ora çatınca səhabələrinə dayanmalarını əmr etdi. Camaat da dayandı. Sonra namaz üçün çağırış edildi. Peyğəmbər səhabələrinə iki rəkət namaz qıldırdı, sonra üzünü onlara tutub buyurdu:

Hər şeyi incəliyinə qədər bilən və hər şeydən xəbərdar olan Allah mənə xəbər verdi ki, mən öləcəyəm, siz də öləcəksiniz. Sanki çağırılmaq və çağırışa cavab vermək üzərəyəm. Mən sizə çatdırdığım şeydən, sizin aranızda qoyduğum Allahın kitabı və Onun höccətindən məsulam, siz də (bunlardan) məsulsunuz[468]. Rəbbinizə nə deyirsiniz?[469]". Dedilər: "Deyirik ki, sən (sənə tapşırılanları) çatdırdın, nəsihət etdin, cihad etdin. Allah sənə ən xeyirli mükafatı versin". Sonra Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) onlara dedi: "Allahdan başqa ilah olmadığına, mənim Allahın sizə göndərdiyi elçi olduğuma, Cənnətin, Cəhənnəmin və öldükdən sonra dirilmənin haqq olduğuna şəhadət verirsiniz?" Dedilər: "Şəhadət veririk".

---

[467] Maidə surəsi, 67-ci ayə.
[468] Bunlara görə sorğu-sual olunacaqsınız. (Tərc.).
[469] Mənim barəmdə Rəbbiniz yanında necə şəhadət verirsiniz? (Tərc.).

Buyurdu: "İlahi, onların dediklərinə şahid ol. Bilin, mən sizi şahid tuturam ki, mən Allahın mənim mövlam olduğuna, özümün hər bir müsəlmanın mövlası olduğuma, özümün möminlərə onların özlərindən övla olduğuma şəhadət verirəm. Siz də mənim bu sözləri təsdiq edir və mənim bu sözlərimə şahid durursunuz?"

Dedilər: "Bəli, şahid dururuq".

Buyurdu: "Elə isə, bilin! Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). Budur o." Bunu deyib Əlinin (əleyhissəlam) əlini tutdu, öz əli ilə birgə onun əlini qoltuqları görünənə qədər qaldırdı. Sonra buyurdu: "İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona yardım edənə yardım et, onu köməksiz qoyanı köməksiz qoy. Bilin! Mən sizdən qabaq dünyadan köçəcəyəm. Siz sabah hovuz başında mənim yanıma gələcəksiniz. O, genişliyi Busra və Səna [470] arası qədər olan bir hovuzdur. O hovzuda sayları səmanın ulduzlarının sayları qədər olan gümüş qədəhlər vardır. Bilin! Sabah hovuz başında mənim yanıma gəldiyiniz vaxt mən sizdən bu gün sizi şahid tutuduğum şeylər barədə necə davrandığınızı, məndən sonra "səqəleyn" (iki ağır əmanət) barədə necə davrandığınızı soruşacağam. Baxın görün məndən sonra bu iki əmanətlə necə davranırsınız."

Dedilər: "O iki ağır əmanət nədir, ey Allahın Rəsulu?".

Buyurdu: "Böyük əmanətə gəlincə, o, Allahın (əzzə və cəll) kitabıdır. O, Allah və mənim tərəfimdən sizə uzanmış bir ipdir. Onun bir ucu Allahın əlindədir, biri ucu da sizin əlinizdədir. Onda keçmişdə baş verənlər və qiyamətədək gələcəkdə baş verəcəklər barədə məlumat vardır. Kiçik əmanətə gəlincə, o, Quranın ayrılmaz yodaşıdır; o, Əli ibn Əbu Talib və onun itrətidir. Onlar hovuz başında mənim yanıma gəlincəyədək, əsla bir-birlərindən ayrılmayacaqlar".

Məruf deyir: Mən bu hədisi Əbu Cəfər (əleyhissəlam) üçün nəql etdim. Həzrət buyurdu: "Əbut-Tufeyl düz deyib. Biz bunu Əlinin (əleyhissəlam) kitabında görmüşük". [471]

Peyğəmbəri-Əkrəm (sallallahu əleyhi və alihi və səlləm) Əmirəlmöminin Əli ibn Əbu Talibi (əleyhissəlam) müsəlmanlar üzərində vəli təyin etdikdən sonra Allah-taala bu ayəni nazil etdi: "**Bu gün dininizi sizin üçün kamilləşdirdim, sizə Öz nemətimi tamamladım və (möhkəm və sabit) bir din kimi sizin üçün İslamı qəbul etdim**"[472].

Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) müsəlmanlara Əliyə (əleyhissəlam) beyət etməyi, ona "əmirəlmöminin" kimi salam verməyi əmr etdi. Camaat da onun üzərinə axışıb onu təbrik etməyə başladılar. Belə şəxslər arasında Əbu Bəkr və Ömər də var idi. Həmin vaxt Ömər ibn əl-Xəttab, "Bəh-bəh, ey Əbu Talibin oğlu! Sən mənim və bütün mömin və möminələrin vəlisi oldun!", - deyirdi.

Bu vaxt Həssan ibn Sabit ayağa qalxıb bu münasibətlə bir şey söylədi. Şerdə dedi:

Peyğəmbərləri Qədir-xum günündə onlara səsləndi,

---

[470] Busra: Suriyada yer adıdır, Səna: Yəmənin paytaxtıdır. (Tərc.).
[471] "əl-Xisal": səh.65-66.
[472] Maidə surəsi, 3-cü ayə.

Onlar da Peyğəmbərin nidasını eşitdilər!

Dedi ki: “Sizin mövlanız və vəliniz kimdir?”
Bu zaman onlar bildirdilər ki:

“Bizim mövlamız sənin Allahındır, sən də bizim vəlimizsən,
bizdən heç bir kəs sənin vilayətinə üsyankar deyil”.

Bu vaxt Peyğəmbər Əliyə dedi ki: “Ey Əli, qalx,
mən özümdən sonra sənin imam və hidayətçi olmağını istəyirəm”.

“Mən kimi mövlasıyamsa, bu da onun vəlisidir,
ona xeyirxah yardımçılar və dostlar olun!”

Bu zaman Peyğəmbər dua edərək dedi ki: “İlahi, Əliyə dost olana dost ol,
ona düşmən olana düşmən ol!”

Şeyx Kuleyninin (Allah ona rəhmət etsin) “əl-Kafi” kitabında öz sənədi ilə Zürarədən, Fuzeyl ibn Yəsardan, Bukeyr ibn Əyəndən (أعين),Muhəmməd ibn Müslimdən, Bureyd ibn Muaviyədən və Əbul-Caruddan nəql etdiyi, onların da İmam Baqir (əleyhissəlam)-dan nəql etdikləri səhih bir hədisdə belə deyilir:

“Allah (əzzə və cəll) öz Peyğəmbərinə Əlinin vilayətini (çatdırmağı) əmr edib ona “**Həqiqətən sizin vəliniz (başçınız və işlərinizin ixtiyar sahibi) yalnız Allah, Onun peyğəmbəri və iman gətirənlər – namaz qılıb rüku halında zəkat verən kəslərdir**”[473] ayəsini nazil etdi. Bununla “əmr sahibləri”nin vilayətini vacib etdi. Lakin camaat bu vilayətin nə olduğunu başa düşmədilər. Bu zaman Allah həzrət Muhəmmədə (sallallahu əleyhi və alihi və səlləm) namazı, zəkatı, orucu və həcci insanlara açıqladığı kimi vilayəti də açıqlamağı əmr etdi. Allahın bu əmri gəldiyi zaman Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) mübarək qəlbi narahat oldu, camaatın dindən dönüb onu təkzib etmələrindən qorxdu. Buna görə də narahat olub Rəbbinə müraciət etdi. Lakin, Allah-taala ona belə vəhy etdi: “**Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı çatdır! Əgər (bunu) etməsən, (bil ki,) Onun tapşırığını çatdırmamısan. Allah səni insanlardan (onların fitnə və şərindən) qoruyacaq. Şübhəsiz, Allah kafirlərin dəstəsini hidayət etməz**”. Bundan sonra Peyğəmbər Allahın əmrini icra edib Xum çölündə Əlinin (əleyhissəlam) vilayətini elan etdi. Camaat namazı təşkil olunmasını əmr etdi. Camaata əmr etdi ki, orada iştirak edən şəxslər onun sözünü iştirak etməyən kəslərə çatdırsınlar...”.

Ömər ibn Uzeynə deyir: Əbul-Caruddan başqa bütün ravilər Əbu Cəfərin (əleyhissəlam) ardınca belə buyurduğunu nəql etdilər:

“Vacibatlar bir-birinin ardınca nazil olurdu. Vilayət ən sonuncu vacibat idi. Buna görə də (vilayət vacibi çatdırıldıqdan sonra) Allah (əzzə və cəll) “**Bu gün**

---

[473] Maidə surəsi, 55-ci ayə.

**dininizi sizin üçün kamilləşdirdim, sizə Öz nemətimi tamamladım və (möhkəm və sabit) bir din kimi sizin üçün İslamı qəbul etdim**" ayəsini nazil etdi." Sonra Əbu Cəfər (əleyhissəlam) buyurdu: "Allah deyir ki, bu vacib əmrdən sonra sizə başqa bir vacib əmr nazil etməyəcəyəm, vacibatların hamısını sizin üçün tamam etdim".[474]

## Qədir-xum hədisini nəql edən əlli səhabə

### 1-ci səhabə: Zeyd ibn Ərqəm

Bu hədisi Zeyddən bir çox şəxslər nəql etmişlər. Ondan nəql edilən rəvayətlər mütəvatir olmasalar belə, ən azı müstəfiz həddədir. Bu hədisi ondan nəql edən şəxslərə misal olaraq aşağıdakıları göstərə bilərik:

**1-Əbut-Tufeyl Amir ibn Vasilə:**

Onun hədisini Hakim ən-Nişapuri "əl-Müstədrək ələs-səhiheyn" kitabında nəql etmişdir:

Bizə Əbül-Hüseyn Muhəmməd ibn Əhməd ibn Təmim əl-Hənzəli Bağdadda nəql edib dedi: bizə Əbu Qilabə Əbdül-Məlik ibn Muhəmməd ər-Rəqaşi nəql edib dedi: bizə Yəhya ibn Həmmad nəql edib dedi:

Həmçinin, mənə Əbu Bəkr Muhəmməd ibn Baləveyh və Əbu Bəkr Əhməd ibn Cəfər əl-Bəzzar nəql edib dedilər: bizə Abdullah ibn Əhməd ibn Hənbəl nəql edib dedi: mənə atam nəql edib dedi: mənə Yəhya ibn Həmmad nəql edib dedi:

Həmçinin, bizə Əbu Nəsr Əhməd ibn Səhl əl-Fəqih Buxarada nəql edib dedi: bizə Saleh ibn Muhəmməd əl-Hafiz əl-Bağdadi nəql edib dedi: bizə Xələf ibn Salim əl-Məxrəmi nəql edib dedi: bizə Yəhya ibn Həmmad nəql edib dedi: bizə Əbu Əvanə Süleyman əl-Əməşdən nəql edib dedi: bizə Həbib ibn Əbu Sabit Əbut-Tufeyldən, o da Zeyd ibn Ərqəmdən nəql edib dedi:

"Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) vida həccindən qayıtdığı zaman Xum adlanan yerdə dayandı. Orada olan geniş qol-budaqlı ağacların altlarının tikanlardan təmizlənməsini əmr etdi. Sonra buyurdu: "Sanki çağırılmaq və çağırışa cavab vermək üzrəyəm. Mən sizin aranızda iki ağır əmanət qoyuram. Onların biri digərindən daha böyükdür: Allahın kitabı və itrətim – Əhli-Beytim. Baxın, məndən sonra onlarla necə davranırsınız. Onlar hovuz başında mənim yanıma gəlincəyədək, əsla bir-birlərindən ayrılmayacaqlar."

Sonra buyurdu: "Allah (əzzə və cəll) mənim mövlamdır, mən də hər bir möminin mövlasıyam." Sonra Əlinin əlini tutub dedi: "Mən kimin mövlasıyamsa, bu da onun vəlisidir. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol"..." hədis.

Hakim ən-Nişapuri hədisi qeyd etdikdən sonra demişdir: "Bu, iki şeyxin şərtinə əsasən səhih hədisdir, lakin onlar bu hədisi bu cür sona qədər qeyd

[474] "əl-Kafi": 1/289.

etməmişlər. Bu hədisin şahidi olan Sələmə ibn Kuheylin Əbut-Tufeyldən nəql etdiyi hədis də həmçinin, iki şeyxin şərtinə əsasən səhihdir”.[475]

Bu hədisi[476] Tirmizi “Sünən” kitabında[477], Təbərani “əl-Mücəmül-kəbir”[478] və “əl-Mücəmül-əvsət”[479] kitablarında, İbn Əsakir “Tarixu-Diməşq”[480] kitabında, Gənci əş-Şafei “Kifayətut-talib”[481] kitabında, Nəsai “Xəsasisul-imam Əli”[482] və “əs-Sunənul-kubra”[483] kitablarında, Bəlazuri “Ənsabul-əşraf”[484] kitabında, Təhavi “Şərhu-muşkilil-asar”[485] kitabında, Nəsai “Fadailus-səhabə”[486] kitabında, Əl-Acurri “əş-Şəriə”[487] kitabında, İbn Əbu Asim də “Sünnə”[488] kitabında nəql etmişlər.

Əbut-Tufeyldən nəql edilən başqa bir hədisdə deyilir ki, Əbut-Tufeyl İmam Əli (əleyhissəlam)-ın Rəhbə adlanan yerdə camaata and verib bu hədisi Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) eşitdikləri təqdirdə ona şəhadət vermələrini istəyir. Sonra Əbut-Tufeyl bu hadisəni Zeyd ibn Ərqəmə danışır. Zeyd də bu hadisəni təsdiq edir.

Bu hədisi İbn Hibban “Səhih” kitabında nəql etmişdir:

Bizə Abdullah ibn Muhəmməd əl-Əzdi xəbər verib dedi: bizə İshaq ibn İbrahim nəql edib dedi: bizə Əbu Nueym və Yəhya ibn Adəm nəql edib dedilər: bizə Fitr ibn Xəlifə Əbut-Tufeyldən nəql edib dedi:

“Əli dedi: Qədir-xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) dediyi sözü eşidən hər bir kəsi Allaha and verirəm (ki, o sözə şahid dursun).” Bu zaman bir dəstə şəxs ayağa qalxıb Peyğəmbərin belə buyurduğunu eşitdiklərinə şəhadət verdilər: “Məgər bilmirsiniz ki, mən möminlərə onların özlərindən övlayam?” Dedilər: “Bilirik, ey Allahın Rəsulu”. Buyurdu: “Elə isə mən kimi mövlasıyamsa (kimə onun özündən övlayamsa), bu da onun mövlasıdır (ona onun özündən övladır)! İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.”

---

475 “əl-Müstədrək ələs-səhiheyn”: 3/118, hədis: 4576, 3/118, hədis: 4577.

476 Qeyd etmək lazımdır ki, mətnlərini qeyd etməyib sadəcə mənbəsinə işarə etdiyimiz bu hədislər mətnini kitabda qeyd etdiyimiz hədislə sözbəsöz eyni də ola bilərlər, bəzi sözlərdə aralarında fərqliliklər də ola bilər. Buna görə də bu mənbələrdə qeyd olunan hədislərin mətnlərinə sözbəsöz nəzər salmaq istəyən şəxslər, qeyd olunan mənbələrə müraciət etməlidirlər.

477 “əl-Camius-səhih” (Tirmizi): 5/633, hədis: 3713.

478 “əl-Mucəmul-kəbir”: 3/179, hədis: 3049; 5/166, hədis: 4969, həmçinin 5/165, hədis: 4968-də bu hədisi olduqca müxtəsər şəkildə nəql etmişdir.

479 “əl-Mucəmul-əvsət”: 2/275, hədis: 1966.

480 “Tarixu-Diməşq”: 42/216.

481 “Kifayətut-talib”: səh.56.

482 “Xəsaisul-imam Əli”: səh.96, hədis: 79.

483 “əs-Sunənul-kubra”: 5/45, hədis: 8148; 5/130, hədis: 8464.

484 “Ənsabul-əşraf”: 2/357.

485 “Tuhfətul-əxyar bi-tərtibi-şərhi-muşkilil-asar”: 9/180, hədis: 6490, “Muşkilul-asar”: 5/18-19. Kitabda deyilir: “**Əbu Cəfər dedi: Bu hədis səhih sənədli hədisdir. Onun ravilərinin heç birində nöqsan yoxdur**”. Şüeyb əl-Arnaut demişdir: “**Hədisin raviləri siqə şəxslərdir, Buxari və Müslimin raviləridir. Lakin, Həbib ibn Əbu Sabit müdəllisdir, burada da “ən`ənə” edib. Lakin müəllif bu hədisi Fitr ibn Xəlifədən də nəql etmişdir [1762], buna görə də hədis səhihdir**”.

486 “Fadailus-səhabə” (Nəsai): səh.15, hədis: 44.

487 “əş-Şəriə”: 5/2221, hədis: 1706.

488 “əs-Sünnə”: 2/644, hədis: 1555.

Əbut-Tufeyl deyir: "Mən içimdə bir qədər tərəddüd olduğu halda oradan uzaqlaşdım. Bu zaman Zeyd ibn Ərqəmlə qarşılaşdım. Hadisəni ona danışdım. Zeyd dedi: "Biz Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) bu sözü Əliyə dediyini eşitmişik"."[489]

Bu hədisi Nəsai "əs-Sunənul-kubra" kitabında[490], Əhməd ibn Hənbəl "Müsnəd" kitabında[491], İbn Əsakir "Tarixu-Diməşq" kitabında[492], Gənci "Kifayətut-talib" kitabında[493], Təhavi "Şərhu-muşkilil-asar" kitabında[494], Məqdisi əl-Hənbəli də "əl-Əhadisul-muxtarə"[495] kitabında nəql etmişdir.

**2-Məymun ibn Əbu Abdullah:**

Onun Zeyddən nəql etdiyi hədisi Nəsai "Sünən" kitabında nəql etmişdir:

Bizə Quteybə ibn Səid xəbər verib dedi: bizə İbn Əbu Udey Aufdan, o, Məymun ibn Əbu Abdullahdan, o da Zeyd ibn Ərqəmdən nəql edib dedi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) xütbə edib Allaha həmd-səna dedi, sonra buyurudu: "Məgər bilmirsiniz ki, mən hər bir möminə onun özündən övlayam?" Camaat dedi: "Bəli, bilirik. Biz sənin hər bir möminə onun özündən övla olduğuna şəhadət veririk." Peyğəmbər buyurdu: "Elə isə mən kimi mövlasıyamsa (kimə onun özündən övlayamsa), bu da onun mövlasıdır (ona onun özündən övladır)." Bunu deyib Əlinin əlini tutdu".[496]

Bu hədisi Nəsai "Xəsais" kitabında[497], İbn Əsakir bir neçə sənədlə və "İlahi, ona dost olana dost, düşmən olana düşmən ol" əlavəsi ilə "Tarixu-Diməşq"[498] kitabında, Gənci əş-Şafei "Kifayətut-talib"[499] kitabında, Əhməd ibn Hənbəl "Müsnəd"[500] və "Fadailus-səhabə"[501] kitablarında, Təbərani də "əl-Mücəmül-kəbir"[502] kitabında nəql etmişdir.

**3-Yəhya ibn Cədə (جعدة)**

Onun hədisini Hakim ən-Nişapuri "əl-Müstədrək" kitabında nəql etmişdir:

---

[489] "Səhihü-İbn Hibban": 15/375-376, hədis: 6931, Şüeyb əl-Arnaut demişdir: "**İsnadı həsəndir. raviləri siqə şəxslərdir, Buxari və Müslimin raviləridir. Təkcə Fitr ibn Xəlifədən başqa. O da səduqdur (doğru danışandır). Buxari məqrun şəkildə (hədis terminidir – müt.) ondan bir hədis nəql etmişdir. Sünən sahibləri ona etimad etmişlər**".

[490] "əs-Sunənul-kubra": 5/134, hədis: 8478.

[491] "Müsnədü-Əhməd": 4/370, hədis: 19321, Şüeyb əl-Arnaut demişdir: "**İsnadı səhihdir**". Həmçinin, Əhməd Həmzə əz-Zeyn "**İsnadı səhihdir**", - demişdir. Bax: "Müsnədü-Əhməd": 14/436, hədis: 19198, "Darul-hədis" çapı, Qahirə. Heysəmi də bu hədisi "Məcməuz-zəvaid" kitabında "Müsnədü-Əhməd" kitabından nəqlən qeyd etmiş, ardınca, "**Bunu Əhməd nəql etmişdir, raviləri "Səhih"in raviləridir, təkcə Fitr ibn Xəlifədən başqa, o da siqədir**", - demişdir. ("Məcməuz-zəvaid": 9/104).

[492] "Tarixu-mədinəti-Diməşq": 42/205.

[493] "Kifayətut-talib": səh.55.

[494] "Şərhu-muşkilil-asar": 5/15, hədis: 1762, Şüeyb əl-Arnaut hədis üçün, "**İsnadı həsəndir**", - demişdir.

[495] "əl-Əhadisul-muxtarə": 2/174, hədis: 553, kitabın mühəqqiqi Şeyx Əbdül-Məlik ibn Abdullah ibn Duheyş hədis üçün, "**İsnadı həsəndir**", - demişdir.

[496] "əs-Sünənul-kubra": 5/131, hədis: 8469.

[497] "Xəsaisul-imam Əli": səh.88.

[498] "Tarixu-Diməşq": 42/218.

[499] "Kifayətut-talib": səh.52-53.

[500] "Müsnədü-Əhməd": 4/372, hədis: 19344.

[501] "Fadailus-səhabə": 2/598, hədis: 1017.

[502] "əl-Mucəmul-kəbir": 5/202, hədis: 5092.

Mənə Muhəmməd ibn Əli əş-Şeybani Kufədə xəbər verib dedi: bizə Əhməd ibn Hazim əl-Ğifari nəql edib dedi: bizə Əbu Nueym nəql edib dedi: bizə Əbul-Əla Kamil nəql edib dedi: Həbib ibn Əbu Sabitin belə dediyini eşitdim: Yəhya ibn Cədə Zeyd ibn Ərqəmdən belə nəql etdi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birgə səfər çıxdıq. Gəlib Xum adlanan əraziyə çatdıq. Peyğəmbər geniş qol-budaqlı ağacların altlarının tikanlardan təmizlənməsini əmr etdi. Biz həmin gündən daha isti bir gün görməmişdik. Peyğəmbər Allaha həmd-səna edib buyurdu: "Ey camaat, həqiqətən də hansı peyğəmbər göndərilmişsə, özündən əvvəlki peyğəmbərin yaşadığı müddətin yarısı qədər yaşamışdır. Mənim çağırlmağıma və çağırışa cavab verməyimə az qalır. Mən sizin aranızda ondan sonra əsla azmayacağınız bir şey qoyub gedirəm: Allahın (əzzə və cəll) kitabı." Sonra qalxıb Əlinin əlini tutdu və dedi: "Ey camaat! Sizə sizin özünüzdən daha üstün olan kimdir?" Dedilər: "Allah və Onun Peyğəmbəri daha yaxşı bilər". Peyğəmbər dedi: "Məgər mən sizə sizin özünüzdən övla deyiləm?" Dedilər: "Bəli, eləsən". Bu zaman Peyğəmbər buyurdu: "Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır)".

Hakim ən-Nişapuri bu hədisi qeyd etdikdən sonra demişdir: "Bu, səhih sənədli hədisdir, lakin Buxari və Müslim bunu nəql etməmişlər".[503]

Zəhəbi də "Təlxis" kitabında, "Səhihdir", - demişdir.

Bu hədisi, həmçinin, Təbərani "əl-Mücəmül-kəbir" kitabında[504], İbn Əsakir də "Tarixu-mədinəti-Diməşq"[505] kitabında nəql etmişdir.

**4-Əbud-Duha:**

Onun hədisini Təbərani "əl-Mücəmül-kəbir" kitabında nəql etmişdir:

Bizə Muhəmməd ibn Abdullah əl-Həzrəmi nəql edib dedi: bizə İsmayıl ibn Musa əs-Suddiy nəql edib dedi: bizə Əli ibn Abbas Hüseyn ibn Ubeydullahdan, o, Əbud-Duhadan, o da Zeyd ibn Ərqəmdən nəql edib dedi:

"Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-xum günündə belə dediyini eşitdim: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi! Ona dost olana dost ol, ona düşmən olana düşmən ol"."[506]

Bu hədisi İbnəl-Məğazili əş-Şafei də "Mənaqibil-imam Əli"[507] kitabında nəql etmişdir.

**5-Zeyd ibn Vəhb:**

Onun hədisini Təbərani "əl-Mücəmül-kəbir" kitabında nəql etmişdir:

Bizə İbrahim ibn Nailə əl-İsfahani nəql edib dedi: bizə İsmayıl ibn Əmr əl-Bəcli nəql edib dedi: bizə Əbu İsrail əl-Mulai Həkəmdən, o, Əbu Süleyman Zeyd ibn Vəhbdən, o da Zeyd ibn Ərqəmdən nəql edib dedi:

---

503 "əl-Müstədrək ələs-səhiheyn": 3/613, hədis: 6272.

504 "əl-Mucəmul-kəbir": 5/171, hədis: 4886. Əlbani "Silsilətul-əhadisis-səhihə" kitabında (4/325) bu hədis barəsində demişdir: "**Onu Təbərani nəql etmişdir. Raviləri siqədir**".

505 "Tarixu-mədinəti-Diməşq": 42/218.

506 "əl-Mucəmul-kəbir": 5/170, hədis: 4983.

507 "Mənaqibul-imam Əli": səh.19.

“Əli Rəhbədə camaatı Allaha and verdi ki, kim Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) (Qədir-xum günündə) ona dediyi sözü eşitmişsə, (şəhadət versin). On altı nəfər ayağa qalxıb şəhadət verdi və Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğunu eşitdiklərini dedilər: “İlahi, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, düşmən olana düşmən ol”. Zeyd dedi: “Mən (şəhadət verməyib həqiqəti) gizlədənlərdən idim. Buna görə də gözlərim kor oldu. Çünki Əli həqiqəti gizlədənlərə qarğış etmişdi”.”[508]

**6-Əbu Salman əl-Muəzzin:**

Onun hədisini Təbərani “əl-Mücəmül-kəbir” kitabında nəql etmişdir:

Bizə Əbu Huseyn əl-Qazı nəql edib dedi: bizə Yəhya əl-Himmani nəql edib dedi: bizə Əbu İsrail əl-Mulai Həkəmdən, o, Əbu Süleyman əl-Muəzzindən, o da Zeyd ibn Ərqəmdən nəql edib dedi:

“Əli camaata and verdi. Camaatı Allaha and verdi ki, hər kəs Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, düşmən olana düşmən ol” sözünü eşidibsə, (qalxıb şəhadət versin). Bu vaxt Bədr döyüşçülərindən olan on iki nəfər ayağa qalxıb şəhadət verdilər. Mən həqiqəti gizlədənlərdən idim, buna görə də gözlərim kor oldu”.[509]

Bu hədisi İbn Əsakir “Tarixu-Diməşq”[510] kitabında nəql etmişdir.

**7-Əbu Abdullah əş-Şeybani:**

Onun hədisini Təbərani “əl-Mücəmül-kəbir” kitabında nəql etmişdir:

Bizə İbrahim ibn Nailə əl-İsfahani nəql edib dedi: bizə İsmayıl ibn Əmr əl-Bəcli nəql edib dedi: bizə Yəhya ibn Sələmə ibn Kuheyl atasından, o da Əbu Abdullah əş-Şeybanidən nəql edib dedi:

“Ərqəm övladlarının məclisində əyləşmişdim. Bu zaman Murad (qəbiləsindən) olan bir nəfər miniyinin üstündə bizə tərəf gəldi və dedi: “Zeyd sizin aranızdadır?” Dedilər: “Bəli. Bu, Zeyddir”. Həmin şəxs dedi: “Səni Özündən başqa ilah olmayan Allaha and verirəm, ey Zeyd, Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Əliyə “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, düşmən olana düşmən ol”, - dediyini eşitmisən?” Zeyd dedi: “Bəli”. Bundan sonra həmin şəxs çıxıb getdi”[511].

**8-Suveyr ibn Əbu Faxitə:**

Onun hədisini Təbərani “əl-Mücəmül-kəbir” kitabında nəql etmişdir:

Bizə Həsən ibn Əli əl-Məməri (المعمري) nəql edib dedi: bizə Əli ibn İbrahim əl-Bahili nəql edib dedi: bizə Əbul-Cəvvab nəql edib dedi: bizə Süleyman ibn Qərm

---

[508] “əl-Mucəmul-kəbir”: 5/171, hədis: 4985.
[509] “əl-Mucəmul-kəbir”: 5/175, hədis: 4996.
[510] “Tarixu-Diməşq”: 42/205.
[511] “əl-Mucəmul-kəbir”: 5/193, hədis: 5065.

Harun ibn Səddən, o, Suveyr ibn Əbu Faxitədən, o da Zeyd ibn Ərqəmdən nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-xum günündə bizə xütbə edib buyurdu: “Məgər mən möminlərə onların özlərindən övla deyiləm?” Dedilər: “Bəli, övlasan”. Bu zaman Peyğəmbər Əlinin əlini tutub buyurdu: “Mən kimi mövlasıyamsa (kimə onun özündən övlayamsa), bu da onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, düşmən olana düşmən ol”.”[512]

**9-Əbu Leyla əl-Həzrəmi:**

Onun hədisini Təbərani “əl-Mücəmül-kəbir” kitabında nəql etmişdir:

Bizə Abdullah ibn Muhəmməd ibn Abbas əl-İsfahani nəql edib dedi: bizə Əbu Məsud Əhməd ibn Furat nəql edib dedi: bizə Asim ibn Məhcə nəql edib dedi: bizə Yunis ibn Ərqəm Əməşdən, o, Əbu Leyla əl-Həzrəmidən, o da Zeyd ibn Ərqəmdən nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizə xütbə edib buyurdu: “Məgər mən sizə sizin özünüzdən övla deyiləm?” Dedilər: “Bəli, övlasan”. Peyğəmbər buyurdu: “Mən kimi mövlasıyamsa (kimə onun özündən övlayamsa), bu da onun mövlasıdır (ona onun özündən övladır)”.”[513]

**10-Ətiyyə ibn Səid əl-Aufi (العوْفي)**

Onun hədisini Təbərani “əl-Mücəmül-kəbir” kitabında nəql etmişdir:

Bizə Zəkəriyya ibn Yəhya əs-Saci nəql edib dedi: bizə Muhəmməd ibn Musa əl-Hərəşi nəql edib dedi: bizə Ğənam ibn Əli nəql edib dedi: bizə Əbdül-Məlik ibn Əbu Süleyman Ətiyyədən, o da Zeyddən nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, düşmən olana düşmən ol”.

Ətiyyə deyir: Mən ondan daha artığını deməsini xahiş etdim, o isə dedi: “Mənə nə qədər deyilibsə, o qədər deyirəm”.[514]

Bu hədisi Əhməd “Müsnəd”[515] və “Fadailus-səhabə”[516] kitablarında, İbn Əsakir də “Tarixu-Diməşq”[517] kitabında nəql etmişdir.

**12-Əmr:**

Onun hədisini hafiz Əhməd ibn Muhəmməd ibn Əli ibn Əhməd əl-Asimi özünün “Zeynul-fəta” kitabında nəql etmişdir:

Mənə şeyxim Əhməd ibn Muhəmməd ibn İshaq ibn Cuməh xəbər verib dedi: bizə Əli ibn Hüseyn ibn Əli əd-Dərsəki ər-Rami Muhəmməd ibn Hüseyn ibn Qasimdən, o, İmam Muhəmməd ibn Kiramdan, o da Əli ibn İshaqdan xəbər verib

---

[512] “əl-Mucəmul-kəbir”: 5/194, hədis: 5066.
[513] “əl-Mucəmul-kəbir”: 5/195, hədis: 5067.
[514] “əl-Mucəmul-kəbir”: 5/195, hədis: 5069; 5/195, hədis: 5071.
[515] “Müsnədü-Əhməd”: 4/368, hədis: 19298.
[516] “Fadailus-səhabə”: 2/586, hədis: 992.
[517] “Tarixu-mədinəti-Diməşq”: 42/217.

dedi: bizə Həmzə əz-Zəyyatın qardaşı Həbib ibn Həbib Əbu İshaq əl-Həmədanidən, o, Əmrdən, o da Zeyd ibn Ərqəmdən nəql edib dedi:

“Allahın Peyğəmbəri Xum çölünə gəlib camaata xütbə etdi. Allaha həmd-səna etdi. Xütbəsini bitirdikdən sonra Əlinin əlindən tutdu. (Onun əlini o qədər qaldırdı ki) qoltuğunun altı görsəndi. Və dedi: “Ey camaat, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, düşmən olana düşmən ol. Ona yardım edənə yardım et, ona kömək edənə kömək et, onu sevəni sev”.”[518]

**13-Həbib əl-İskafi:**

Onun hədisini İbn Əsakir “Tarixu-Diməşq” kitabında nəql etmişdir:

Bizə Əbül-Qasim əs-Səmərqəndi xəbər verib dedi: bizə Əbül-Hüseyn Asim ibn Həsən xəbər verib dedi: bizə Əbu Əmr ibn Məhdi xəbər verib dedi: bizə Əbül-Abbas ibn Üqdə xəbər verib dedi: bizə Həsən ibn Cəfər ibn Midrar xəbər verib dedi: bizə əmim Tahir ibn Midrar xəbər verib dedi: bizə Müaviyə ibn Meysərə ibn Şureyh xəbər verib dedi: mənə Həkəm ibn Uteybə və Sələmə ibn Kuheyl nəql edib dedilər: bizə Bəni-Bədiy qəbiləsi arasında çəkməçilik edən Həbib – onun barəsində yaxşı sözlər deyib tərifləndilər – nəql edib dedi ki, Zeyd ibn Ərqəmin belə dediyini eşidib:

“Qədir-xum günündə Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizə xütbə edib buyurdu: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, düşmən olana düşmən ol”.”[519]

**14-Əbu İshaq:**

Onun hədisini İbn Əsakir “Tarixu-Diməşq” kitabında nəql etmişdir:

Bizə Əbül-Qasim Əbdüs-Saməd ibn Muhəmməd ibn Abdullah xəbər verib dedi: bizə Əbül-Həsən Əli ibn Muhəmməd ibn Əhməd xəbər verib dedi: bizə Əhməd ibn Muhəmməd ibn Musa xəbər verib dedi: bizə Əbül-Abbas Əhməd ibn Muhəmməd ibn Səid xəbər verib dedi: bizə Həsən ibn Əli ibn Bəziğ xəbər verib dedi: bizə İsmayıl ibn Səbih xəbər verib dedi: bizə Xəbbab ibn Nəstas Fitr ibn Xəlifə əl-Xəyyatdan, o, Əbu İshaqdan, o da Zeyd ibn Ərqəmdən xəbər verib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əli barəsində dedi: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, düşmən olana düşmən ol. Onu sevəni sev, ona nifrət edənə nifrət et. Ona yardım edənə yardım et, onu köməksiz qoyanı köməksiz qoy”.”[520]

### İkinci səhabə: Səd ibn Əbu Vəqqas

Bu hədisi ondan bir neçə şəxs nəql etmişdir:

**1-Əbdür-Rəhman ibn Sabit:**

Onun hədisini İbn Macə “Sünən” kitabında nəql etmişdir:

---

518 “Zeynul-fəta”: 2/200, hədis: 430.

519 “Tarixu-Diməşq”: 42/217.

520 “Tarixu-mədinəti-Diməşq”: 42/219.

Bizə Əli ibn Muhəmməd nəql edib dedi: bizə Əbu Müaviyə nəql edib dedi: bizə Musa ibn Müslim Sabitin oğlundan, yəni Əbdür-Rəhmandan, o da Səd ibn Əbu Vəqqasdan nəql edib dedi:

(Əbdür-Rəhman deyir: ) "Müaviyə Həcc səfərlərinin birində (Mədinəyə) gəldi. Səd onun yanına getdi. Məclisdə Əlidən danışdılar. Müaviyə Əlini təhqir etdi. Bu zaman Səd qəzəblənib dedi: "Sən barəsində Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) "*Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır*", - dediyini, həmçinin, "*Sənin mənə olan nisbətin, Harunun Musaya olan nisbəti kimidir, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur*", - dediyini, həmçinin, "*bu gün bayrağı Allahı və Onun Peyğəmbərini sevən bir şəxsə verəcəyəm*", - dediyini eşitdiyim bir kəs barəsində bu sözləri deyirsən?!".[521]

Bu hədisi İbn Əbu Şeybə də "əl-Müsənnəf" kitabında nəql etmişdir[522].

**2-Səd ibn Əbu Vəqqasın qızı Aişə:**

Onun hədisini Nəsai "əs-Sünənul-kubra" kitabında nəql etmişdir:

Mənə Hilal ibn Bişr xəbər verib dedi: bizə Muhəmməd ibn Xalid ibn Əsmə nəql edib dedi: bizə Musa ibn Yaqub nəql edib dedi: mənə Mühacir ibn Mismar Aişə binti Səddən nəql edib dedi:

"Atamın belə dediyini eşitdim: Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Cuhfə günündə Əlinin əlini əlini tutaraq xütbə etdiyini, Allaha həmd-səna etdikdən sonra belə buyurduğunu eşitdim: "Ey camaat, mən sizin vəlinizəm". Dedilər: "Doğru dedin, ey Allahın Rəsulu". Bundan sonra Peyğəmbər Əlinin əlini tutaraq qaldırdı və belə dedi: "Bu da mənim vəlimdir, o, mənim adımdan çatdıran şəxsdir. Allah ona dost olana dost, düşmən olana düşməndir".[523]

Nəsai bu hədisi "Xəsais"[524] kitabında da nəql etmişdir. Həmçinin, onu Təhavi "Şərhu-muşkilil-asar"[525] kitabında, İbn Əbu Asim də "Sünnə"[526] kitabında nəql etmişdir.

İbn Kəsir "əl-Bidayə vən-nihayə" kitabında demişdir:

"İbn Cərir demişdir: Bizə Əhməd ibn Osman Əbul-Cəvza nəql edib dedi: bizə Muhəmməd ibn Xalid ibn Əsmə nəql edib dedi: bizə Musa ibn Yaqub əz-Zəmi (الزَّمْعِيُّ) – o, doğrudanışan şəxsdir – nəql edib dedi: mənə Mühacir ibn Mismar Aişə binti Səddən nəql edib dedi ki, Aişə atasının belə dediyini eşidib:

Allah Rəsulu Cuhfə günündə Əlinin əlindən tutaraq xütbə etmiş, sonra demişdir: "Ey camaat, mən sizin vəlinizəm". Demişlər: "Doğru dedin". Bu zaman Peyğəmbər Əlinin əlini qaldıraraq deyib: "Bu da mənim vəlim və mənim adımdan çatdıran şəxsdir. Allah ona dost olana dost, düşmən olana düşməndir".

İbn Kəsir bunun ardınca demişdir: "Şeyximiz Zəhəbi demişdir: "**Bu, həsən və qərib hədisdir**"."[527]

---

[521] "Sünəni-İbn Macə": 1/45, hədis: 121. Əlbani "Səhihu-sünəni-İbn Macə" adlı kitabında (1/58) bu hədis barəsində "**Səhihdir. "əs-Səhihə": 4/335**", - demişdir.

[522] "Musənnəfu-İbn Əbu Şeybə": 6/366, hədis: 32078.

[523] "əs-Sünənul-kubra": 5/107, hədis: 8397.

[524] "Xəsaisul-imam Əli": səh.28, hədis: 9.

[525] "Şərhu-muşkilil-asar": 5/20, hədis: 1766; 5/21, hədis: 1767.

[526] "Sünnə": 2/565, hədis: 1189.

**3-Hərs ibn Malik:**

Onun hədisini Gənci əş-Şafei “Kifayətut-talib” kitabında nəql etmişdir:

Bizə şeyxlərin şeyxi Abdullah ibn Ömər ibn Həmveyh Dəməşqdə xəbər verib dedi: bizə hafiz Əbül-Qasim Əli ibn Həsən ibn Hibətullah əş-Şafei xəbər verib dedi: bizə Əbül-Fəzl əl-Fuzeyli xəbər verib dedi: bizə Əbül-Qasim əl-Xəlili xəbər verib dedi: bizə Əbül-Qasim əl-Xuzai xəbər verib dedi: bizə Heysəm ibn Kuleyb əş-Şaşi xəbər verib dedi: bizə Əhməd ibn Şəddad ət-Tirmizi xəbər verib dedi: bizə Əli ibn Qadim xəbər verib dedi: bizə İsrail Abdullah ibn Şərikdən, o da Hərs ibn Malikdən xəbər verib dedi:

“Məkkəyə getdim. Orada Səd ibn Əbu Vəqqasla görüşdüm. Ona dedim: “Əli barədə bir fəzilət eşitmisən?” Səd dedi: “Əli barədə dörd şey eşitmişəm ki, onlardan birinin məndə olması, mənim üçün dünyadan (və) Nuhun ömrü qədər bu dünyada yaşamaqdan daha sevimlidir. (Birincisi budur ki,) Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) “Bəraət” surəsini Əbu Bəkrlə Qüreyş müşrikləri üçün göndərdi. Əbu Bəkr surə ilə bir gün, bir gecə yol getdi. Sonra Peyğəmbər Əliyə dedi: “Əbu Bəkrin ardınca get, surəni ondan al və onu özün çatdır”. Əli Əbu Bəkri geri qaytardı. Əbu Bəkr ağlaya-ağlaya geri dönüb dedi: “Ey Allahın Rəsulu, məgər mənim barəmdə bir şey nazil oldu?” Peyğəmbər dedi: “Xeyr, sənin barəndə yalnız xeyir (deyilib). Lakin mənim adımdan yalnız mən və məndən – yaxud dedi: mənim Əhli-Beytimdən – olan bir şəxs çatdıra (təbliğ edə) bilər”. (İkincisi budur ki,) biz Peyğəmbərlə birgə məsciddə idik. Birdən gecə vaxtı bizə elan etdilər ki, Peyğəmbərin və Əlinin ailəsindən başqa hamı məsciddən çölə çıxsın. Biz başmaqlarımızı sürüyə-sürüyə məsciddən çıxdıq. Səhər olunca Abbas Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) yanına gəlib dedi: “Ey Allahın Rəsulu, əmilərini məsciddən çıxardib bu uşağı saxladın?!” Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Sizin çıxmanıza və bu uşağın qalmasına əmr edən mən deyiləm, buna əmr edən Allahdır”. Üçüncüsü budur ki, Allahın Peyğəmbəri Ömərі və Sədi Xeybərə göndərdi. Səd yaralandı, Ömər də qayıtdı. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: “Mən bayrağı elə bir şəxsə verəcəyəm ki, Allahı və Onun Rəsulunu sevir, Allah və Onun Rəsulu da onu sevir.” Bunu deyib həmin şəxs barəsində sadalamaqdan qorxduğum çoxlu təriflər etdi.[528] Və Əlini istədi. Camaat onun gözlərinin ağrıdığını dedi. Əlini bir nəfər onun önündə gedən bir vəziyyətdə Peyğəmbərin yanına gətirdilər. Peyğəmbər ona dedi: “Aç gözlərini”. Əli dedi: “Aça bilmirəm”. Peyğəmbər ağzının suyunu onun gözlərinə atdı, sonra baş barmağı ilə suyu onun gözlərinə çəkdi. Sonra da bayrağı ona verdi. Dördüncüsü budur ki, Qədir-xum günündə Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) xütbə edib buyurdu: “Ey camaat, məgər mən möminlərə onların özlərindən övla deyiləmmi?” Peyğəmbər bunu üç dəfə dedi. Camaat: “Bəli, eləsən”, - dedi. Peyğəmbər dedi: “Yaxınlaş, ey Əli”. Bundan sonra Əlinin əlini

---

527 “əl-Bidayə vən-nihayə”: 5/212.

528 Bəlkə də cümlə “Bunu deyib həmin şəxs barəsində çoxlu təriflər etdi ki, (bu tərifləri saymaq istəsəm) bitirə bilməyəcəyimdən qorxuram” şəklindədir. Başqa sözlə, bəlkə də hədisin ərəbcəsində “uhsiyə” felindən qabaq “la” inkar ədatı vardır, lakin ədat müəyyən səbəblərdən düşmüşdür. Müt.

tutub yuxarı qaldırdı. Bu zaman mən Peyğəmbərin qoltuğunun altını gördüm. Və dedi: “Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır)”. O, bunu üç dəfə dedi.”

Hədisi qeyd etdikdən sonra hafiz Gənci əş-Şafei demişdir:

“Bu, həsən hədisdir. Onda qeyd olunan hissələr [529] (öz-özlüklərində) səhihdirlər”.[530]

**4-Əbdül-Vahid ibn Əymənin atası:**

Onun hədisini Nəsai “əs-Sünənul-kubra” kitabında nəql etmişdir:

Mənə Zəkəriyya ibn Yəhya xəbər verib dedi: bizə Nəsr ibn Əli xəbər verib dedi: bizə Abdullah ibn Davud Əbdül-Vahid ibn Əyməndən, o, atasından, o da Səddən xəbər verib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”.”[531]

**5-Rəbiə əl-Curəşi:**

Onun hədisini Əhməd ibn Hənbəl “Fadailus-səhabə” kitabında nəql etmişdir:

Bizə Abdullah ibn Səqr 299-cu ildə nəql edib dedi: bizə Yaqub ibn Humeyd ibn Kasib nəql edib dedi: bizə Süfyan İbn Əbu Nuceyhdən, o, atasından, o da Rəbiə əl-Curəşidən nəql edib dedi:

Bir nəfərin yanında Əli barəsində (pis) danışıldı. Səd ibn Əbu Vəqqas da o şəxsin yanında idi. Səd o şəxsə dedi: “Sən Əli barədə (pis) danışırsan?! Onun dörd fəziləti vardır ki, onlardan birinin məndə olması, mənim üçün filan-filan şeylərdən daha sevimlidir.” – Qırmızı tüklü dəvə sürüsünü qeyd etdi. – “(O dörd fəzilət bunlardır: ) Peyğəmbər onun üçün “Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki...”, - demişdir, həmçinin, “Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir...”, - demişdir, həmçinin, “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”, - demişdir.” Süfyan dördüncü şeyi unudub.”[532]

Bu hədisi Ziya əl-Məqdisi də “əl-Əhadisul-muxtarə” kitabında nəql etmişdir. Kitabın mühəqqiqi Şeyx Əbdül-Məlik ibn Abdullah ibn Duheyş hədis üçün, “**İsnadı həsəndir**”, - demişdir[533].

**6-Amir ibn Səd ibn Əbu Vəqqas:**

Onun hədisini əş-Şaşi “Müsnəd” kitabında nəql etmişdir:

---

[529] Bununla təbliğ hadisəsini, məscidə açılan qapıların bağlanması hadisəsini, Xeybər günündə bayrağın verilməsi hadisəsini və Qədir-xum hadisəsini nəzərdə tutur. Müt.

[530] “Kifayətut-talib”: səh.287.

[531] “əs-Sünənul-kubra”: 5/131, hədis: 8468. Nəsai bu hədisi “Xəsaisul-imam Əli” kitabında da nəql etmişdir (səh.99, hədis: 83). Şeyx Nasiruddin Əlbani “Silsilətul-əhadisis-səhihə” kitabında (4/335) demişdir: “**Bu hədisi Nəsai “Xəsais” kitabında da nəql etmişdir (16), bunun da sənədi səhihdir. Raviləri siqədir, Əbdül-Vahidin atası Əyməndən başqa bütün ravilər Buxarininin raviləridir. Əymən isə “Təqrib” kitabında da bildirildiyi kimi, siqədir**”.

[532] “Fadailus-səhabə”: 2/643, hədis: 1093.

[533] “əl-Əhadisul-muxtarə”: 3/151, hədis: 948.

Bizə İbnul-Munada nəql edib dedi: bizə İbrahim ibn Münzir nəql edib dedi: bizə İbrahim ibn Mühacir ibn Mismar atasından, o da Amir ibn Səd ibn Əbu Vəqqasdan nəql edib dedi:

"Səd dedi: Mən Əlini tanıyıram və Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) ona nə dediyini bilirəm. Şəhadət verirəm ki, Qədir-xum günündə biz Əli ilə birgə oturduğumuz vaxt, Peyğəmbər onun əlindən tutub onu qaldırdı, sonra dedi: "Ey camaat, sizin mövlanız kimdir?" Dedilər: "Allah və Onun Rəsulu daha yaxşı bilər". Peyğəmbər buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona düşmən olana düşmən ol,onu dost tutana dost ol".

Bir hərbi yürüş zamanı Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onu Mədinədə qoymaq istəyərkən Əli "Məni qadınlar və uşaqlarlamı qoyursan?", - dedi. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: "Məgər razı olmazsan ki, sənin mənə olan nisbətin Harununun Musaya olan nisbəti kimi olsun, bir fərqlə ki, məndən sonra peyğəmbərlik yoxdur?".

Həmçinin, Xeybər günündə buyurdu: "Bu bayrağı – bayrağı əlində tutub göstərdi – elə bir şəxsə verəcəyəm ki, Allahın və Onun Rəsulunu sevir, Allah və Onun Rəsulu da onu sevirlər. Allah onun əli ilə zəfər bəxş edəcək. O, döyüşdən qaçan deyil!". Camaat hamı yerində donub baxdı. Peyğəmbər Əli üçün baxdı, lakin onu görmədi. Odur dedi: "Əli haradadır?" Ona Əlinin gözlərinin ağradığını dedilər. Peyğəmbər onun yanına getdi. Ağzının suyunu onun gözünə atıb əlini onun gözlərinə çəkdi. Sonra onu (camaatın qarışısına) çıxarıb bayrağı ona verdi".[534]

Bu hədisi İbn Əsakir də "Tarixu-Diməşq" kitabında nəql etmişdir.[535]

**7-Xeysəmə ibn Əbdür-Rəhman:**

Onun hədisini Hakim ən-Nişapuri "əl-Müstədrək ələs-səhiheyn" kitabında nəql etmişdir:

Bizə Əbu Zəkəriyya Yəhya ibn Muhəmməd əl-Ənbəri nəql edib dedi: bizə İbrahim ibn Əbu Talib nəql edib dedi: bizə Əli ibn Münzir nəql edib dedi: bizə İbn Fuzeyl nəql edib dedi: bizə Müslim əl-Mulai Xeysəmə ibn Əbdür-Rəhmandan nəql edib dedi:

"Bir nəfər şəxs Səd ibn Malikə (Səd ibn Əbu Vəqqasa) "Əli sənin barəndə pis danışıb sənin ona beyətdən imtina etdiyini deyir", - dedi, Sədin isə ona belə dedi:

"Allaha and olsun ki, bu, bir şəxsi fikir idi və mən fikrimdə yanıldım. Əli ibn Əbu Talibə üç (fəzilət) verilmişdir ki, əgər onlardan biri mənə verilsəydi, bu, mənim üçün dünyadan və dünyada olanlardan daha sevimli olardı. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-xum günündə Allaha həmd-səna etdikdən sonra dedi: "Bilirsiniz ki, mən möminlərə (onların özlərindən) övlayam?" Biz dedik: "Bəli". Buyurdu: "İlahi, mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır), elə isə ona dost olana dost ol, ona düşmən olana düşmən ol"..."[536]

---

[534] "Müsnədüş-Şaşi": 1/166, hədis: 106.
[535] "Tarixu-Diməşq": 42/114.
[536] "əl-Müstədrək": 3/126, hədis: 4601.

## Üçüncü səhabə: Abdullah ibn Abbas

Bu hədisi ondan aşağıdakılar nəql etmişlər:

**1-Əmr ibn Məymun:**

Onun hədisini Hakim ən-Nişapuri "əl-Müstədrək ələs-səhiheyn" kitabında nəql etmişdir:

Bizə Əbu Bəkr Əhməd ibn Cəfər ibn Həmdan əl-Qətii Bağdadda öz kitabından nəql edib dedi: bizə Abdullah ibn Əhməd ibn Hənbəl nəql edib dedi: mənə atam nəql edib dedi: bizə Yəhya ibn Həmmad nəql edib dedi: bizə Əbu Əvanə nəql edib dedi: bizə Əbu Bəlc nəql edib dedi: bizə Əmr ibn Məymun nəql edib dedi:

"Mən İbn Abbasın yanında oturmuşdum. Bu zaman onun yanına doqquz nəfər şəxs gəlib dedi: "Ey Abbasın oğlu, ya bizimlə gəl, ya da bu şəxslər qalxsınlar, biz təkbaşına oturaq". İbn Abbas dedi: "Mən sizinlə gələrəm". Həmin vaxt İbn Abbas sağlam idi və gözləri tutulmamışdı. Onlar gedib danışmağa başladılar. Biz onların nə dediklərini bilmirdik. Birdən İbn Abbasın öz paltarını çırpa-çırpa bizim yanımıza gəldiyini gördük. O dedi: "Vay olsun, tfu! Elə bir şəxsi təhqir etdilər ki, onda heç kəsdə olmayan ondan yuxarı fəziləti vardır! Elə bir şəxsi təhqir etdilər ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onun barəsində "elə bir şəxsi göndərəcəyəm ki, Allah əsla onu zəlil-xar etməyəcək. O Allahı və Onun Rəsulunu sevir, Allah və Rəsulu da onu sevirlər", - demişdir. Həmin vaxt bəziləri bu şərəfə nail olmaq istədilər. Lakin Peyğəmbər buyurdu: "Əli haradadır?" Dedilər: "Əli (əl) dəyirmanının başında dən üyüdür". Peyğəmbər buyurdu: "Dən üyüdəcək başqa adam yox idi?" (və ya İbn Abbas dedi: "O vaxt dən üyüdəcək başqa bir adam yox idi). Bu zaman Əli gözləri ağrayan və az qala heç bir şey görə bilməyəcək vəziyyətdə gəldi. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) ağzının suyunu onun gözlərinə atdı. Sonra bayrağı üç dəfə yelləyib ona verdi.

Sonra İbn Abbas dedi: Sonra Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) filankəsi[537] "Tövbə" surəsi ilə birgə göndərdi. Lakin onun ardınca Əlini göndərib surəni ondan aldırdı və "bu surəni yalnız elə bir şəxs apara bilər ki, o məndən olsun, mən də ondan olum!", - deyə buyurdu.

Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) əmisi oğlanlarına dedi: "Sizlərdən hansı biriniz dünya və axirətdə mənim vəlim olar?" Bu zaman Əli də onlarla birgə əyləşmişdi. Sonra Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) yenidən onlara üz tutub dedi: "Sizlərdən hansı biriniz dünya və axirətdə mənim vəlim olar?" Onlar imtina etdilər. Peyğəmbər Əliyə dedi: "Sən dünya və axirətdə mənim vəlimsən".

Əli Xədicədən (Allah ondan razı olsun) sonra iman gətirən ilk şəxs idi.

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) libasını götürüb Əlinin, Fatimənin, Həsənin və Hüseynin üzərinə saldı və buyurdu: "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**".

[537] Əbu Bəkr ibn Əbu Qufahəni.

Sonra İbn Abbas dedi: Əli öz canını (Allahın razılığı müqabilində) sataraq Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) paltarını geyindi və onun yerində yatdı. Müşriklər Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) daş atırdılar. Bu vaxt Əbu Bəkr gəldi. Həmin vaxt Əli Peyğəmbərin yerində uzanmışdı. Əbu Bəkr onun Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) olduğunu zənn edib dedi: "Ey Allahın Peyğəmbəri!" Bu vaxt Əli dedi: "Allahın Peyğəmbəri (sallallahu əleyhi [və alihi] və səlləm) Məymun quyusuna tərəf yollandı. Get ona yetiş". Bundan sonra Əbu Bəkr yola düşdü və Peyğəmbərlə birgə mağaraya daxil oldu. Sonra İbn Abbas dedi: Müşriklər Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) atdıqları kimi Əli yə daş atmağa başladılar. Bu zaman Əli qıvrılıb qarnına tərəf yığılırdı. O başını örtmüş, başını çölə çıxarmırdı. Nəhayət sübh olunca başını çıxardı. Müşriklər onu görüb dedilər: "Sən dəyərsiz və zəif adamsan. Biz sənin yoldaşını daşlayırdıq, lakin o qıvrılmırdı. Sən isə qıvrılırdın. Biz burada nəsə bir iş olduğunu sezmişdik". Sonra İbn Abbas dedi: Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) camaatla birgə Təbuk döyüşünə getdi. Əli ona: "Mən də səninlə gəlimmi?", - dedi. Peyğəmbər: "Xeyr", - dedi. Bu zaman Əli ağladı. Peyğəmbər ona dedi: "Məgər razı olmazsan ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur? Mən getdiyim təqdirdə məhz sən mənim xəlifəm olmalısan". (Sonra) İbn Abbas dedi: Peyğəmbər ona: "Sən məndən sonra hər bir möminin və mömininin vəlisisən", - dedi. Həmçinin, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlinin qapısından başqa məscidə açılan bütün qapıları bağlatdırdı. O, cənabətli olduğu halda məscidə daxil olurdu. Onun evinə gedən yeganə yolu məsciddən keçirdi, başqa yolu yox idi. (Sonra) İbn Abbas dedi: Peyğəmbər onun barəsində: "**Mən kimin mövlasıyamsa, Əli də həmin şəxsin mövlasıdır**", - dedi...

Hakim bu hədisi qeyd etdikdən sonra demişdir: "**Bu, səhih sənədli hədisdir, lakin iki şeyx bu hədisi nəql etməmişlər**"[538]. Zəhəbi də "Təlxis"də "**Səhihdir**", - demişdir.

Bu hədisi Bəlazuri "Ənsabul-əşraf" kitabında[539], Təbərani "əl-Mücəmül-kəbir" kitabında[540], Xarəzmi "Mənaqib" kitabında[541], Nəsai "əs-Sünənul-kubra"[542] və "Xasais" kitablarında[543], İbn Əsakir "Tarixu-mədinəti-Diməşq" kitabında, Əhməd ibn Hənbəl "Müsnəd"[544] və "Fadailus-səhabə" kitablarında[545], əl-Acurri də "əş-Şəriət"[546] kitabında nəql etmişdir.

**2-Mənsurun babası:**

Onun hədisini İbn Əsakir "Tarixu-Diməşq" kitabında nəql etmişdir:

---

538 "əl-Müstədrək ələs-sahiheyn": 3/143, hədis: 4652.

539 "Ənsabul-əşraf": 2/355.

540 "əl-Mucəmul-kəbir": 12/682, hədis: 12593.

541 "əl-Mənaqib": səh.125, hədis: 140.

542 "əs-Sünənul-kubra": 5/112, hədis: 8409.

543 "Xasaisul-İmam Əli": səh.44, hədis: 23.

544 "Müsnəd": 1/330-331, hədis: 3062. Kitabın mühəqqiqi Şeyx Əhməd Muhəmməd Şakir demişdir: "**İsnadı səhihdir**".

545 "Fadailus-səhabə": 2/682, hədis: 1168.

546 "əş-Şəriə": 4/2021, hədis: 1488.

Bizə Əbül-Həsən ibn Qubeys və Əbul-Mənsur ibn Xeyrun xəbər verib dedilər: bizə Əbu Bəkr əl-Xətib xəbər verib dedi: mənə Əbu Bəkr Əhməd ibn Muhəmməd ibn Əhməd ibn Cəfər əl-Yəzdi İsfahanda xəbər verib dedi: bizə Həsən ibn Muhəmməd əz-Zəfərani nəql edib dedi: bizə Ubeydullah ibn Cəfər ibn Muhəmməd ər-Razi xəbər verib dedi: bizə Amir ibn Bişr nəql edib dedi: bizə Əbu Həssan əz-Ziyadi nəql edib dedi: bizə Fəzl ibn Rəbi atasından, o, Mənsurdan, o, atasından, o öz atasından, o da İbn Abbasdan nəql edib dedi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurmuşdur: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"."[547]

Bu hədisi Xətib Bağdadi də "Tarixi-Bağdad"[548] kitabında nəql etmişdir.

**3-Səid ibn Cübeyr:**

Onun hədisi əl-Məhamilinin "Əmali" kitabında nəql olunmuşdur:

Bizə Muhəmməd ibn Cəfər nəql edib dedi: bizə Şubə Sələmə ibn Kuheyldən nəql edib dedi: Əbut-Tufeylin Əbu Sərihədən və ya Zeyd ibn Ərqəmdən – şəkk Şubədəndir – belə nəql etdiyini eşitdim:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurmuşdur: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".

Səid ibn Cübeyr dedi: "Mən bu hədisi İbn Abbasdan da eşitmişəm."[549]

Bu hədisi Əhməd ibn Hənbəl "Fadailus-səhabə"[550] kitabında, İbn Əsakir də "Tarixu-Diməşq"[551] kitabında nəql etmişdir.

**4-Əbu Saleh:**

Onun hədisini Hakim əl-Həskani "Şəvahidüt-tənzil" kitabında nəql etmişdir:

Bizə Hakim Əbu Abdullah əl-Hafiz xəbər verib dedi: bizə Əli ibn Abdullah ibn Əbdür-Rəhman ibn İsa əd-Dehqan Kufədə xəbər verib dedi: bizə Hüseyn ibn Həkəm əl-Həbri nəql edib dedi: bizə Həsən ibn Hüseyn əl-Ərani nəql edib dedi: bizə Hibban ibn Əli əl-Ənəzi nəql edib dedi: bizə Kəlbi Əbu Salehdən, o da İbn Abbasdan "**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır**" ayəsinin izahında belə nəql etdi:

"Bu ayə Əli barəsində nazil olmuşdur. Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) Əli barəsində (əmr edilən şeyi) çatdırması əmr olundu. Allah Rəsulu Əlinin əlindən tutub buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol".[552]

---

[547] "Tarixu-Diməşq": 42/188.

[548] "Tarixi-Bağdad": 12/343.

[549] "Əmalil-Məhamili": səh.85. **Bu hədisin sənədi səhihdir. Belə ki, Məhamili imam, hafiz, Bağdadın şeyxi və Bağdadın hədis alimidir. Muhəmməd ibn Cəfər hafizdir, mutqindir, siqədir, altı kitab müəlliflərinin hamısı ondan hədis nəql etmişdir. Şubə həmin Şubə ibn Həccac ibn Vərddir, höccətdir, siqədir, hafizdir, şeyxul-İslamdır, altı kitab müəlliflərinin hamısı ondan hədis nəql etmişdir. Sələmə ibn Kuheyl imamdır, səbtdir, siqədir, altı kitab müəlliflərinin hamısı ondan hədis nəql etmişdir. "Səid ibn Cübeyr dedi..." sözünü deyən şəxs də məhz Sələmə ibn Kuheyldir. Səid ibn Cübeyr də imamdır, hafizdir, siqədir, altı kitab müəlliflərinin hamısı ondan hədis nəql etmişdir.**

[550] "Fadailus-səhabə": 2/569, hədis: 959.

[551] "Tarixu-Diməşq": 42/215.

[552] "Şəvahidut-tənzil": 1/251, hədis: 245.

**5-Əbayə ibn Ribi (رِبْعِيّ)**

Onun hədisini Hakim əl-Həskani "Şəvahidüt-tənzil" kitabında nəql etmişdir.

Mənə Muhəmməd ibn Qasim ibn Əhməd öz təfsirindən nəql edib dedi: bizə Əbu Cəfər Muhəmməd ibn Əli əl-Fəqih nəql edib dedi: bizə atam nəql edib dedi: bizə Səd ibn Abdullah nəql edib dedi: bizə Əhməd ibn Abdullah əl-Bərqi atasından, o, Xələf ibn Əmmar əl-Əsədidən, o, Əbül-Həsən əl-Əbdidən, o, Əməşdən, o, Əbayə ibn Ribidən, o da İbn Abbasdan nəql edib dedi:

(İbn Abbas merac hədisini nəql edir və gəlib buraya çatır: ) Allah dedi: "Mən nə peyğəmbər göndərmişəmsə, onun üçün bir vəzir qərar vermişəm. Həqiqətən də sən Allahın rəsulusan, Əli də sənin vəzirindir."

İbn Abbas deyir: "Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) meracdan endi. Lakin, camaata bu barədə bir söz demək istəmədi. Çünki insanlar cahiliyyət dövründən təzə çıxmışdılar. Bu hadisənin üzərindən altı gün keçdi. Allah-taala "**Bəlkə də sənə nazil olanların bəzisini tərk etməli (onların təbliğini təxirə salmalı) olacaqsan**"[553] ayəsini nazil etdi. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) gözləməyə başladı, nəhayət on səkkizinci gün oldu. Allah "**Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı çatdır**" ayəsini nazil etdi. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Bilala camaata belə səslənməsini əmr etdi: Sabah hər kəs Xum çölünə gəlsin. Səhəri gün Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) və camaat Xum çölünə gəldilər. Peyğəmbər buyurdu: "Ey camaat, Allah məni bir tapşırıqla sizə tərəf göndərdi. Lakin sizin məni ittiham və təkzib etməyinizdən qorxduğum üçün buna görə köksüm daraldı. Lakin Rəbbim məni danlayaraq məni təhdid etdi." Sonra Peyğəmbər Əli ibn Əbu Talibin əlini tutub onu qaldırdı. Camaat onların qollarının altını gördü. Sonra dedi: "Ey camaat, Allah mənim mövlamdır, mən də sizin mövlanızam, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona yardım edənə yardım et, onu köməksiz qoyanı köməksiz qoy." Bu vaxt Allah "**Bu gün dininizi sizin üçün kamil etdim**" ayəsini nazil etdi."[554]

### Dördüncü səhabə: Cabir ibn Abdullah əl-Ənsari

Hədisi ondan nəql edənlər aşağıdakılardır:

**1-Qəbisə ibn Zueyb:**

**2-Əbu Sələmə ibn Əbdür-Rəhman:**

Onların hədislərini Təbərani "Mucəmuş-şamiyyin" kitabında nəql etmişdir:

Bizə Mətləb ibn Şüeyb nəql edib dedi: bizə Abdullah ibn Saleh nəql edib dedi: mənə İbn Ləhiə Abdullah ibn Hubeyrə və Bəkr ibn Səvadədən, onlar Qəbisə ibn Zueyb və Əbu Sələmə ibn Əbdür-Rəhmandan, onlar da Cabir ibn Abdullah əl-Ənsaridən nəql edib dedilər:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Xum adlanan yerdə dayandı. Lakin, camaat ondan geri qaldı. Lakin, Əli ibn Əbu Talib onun yanında idi. Camaatın ondan geri qalması Peyğəmbəri (sallallahu əleyhi [və alihi] və

---

553 Hud surəsi, 12-ci ayə.

554 "Şəvahidut-tənzil": 1/256, hədis: 250.

səlləm) narahat etdi. Ona görə də Əliyə onları bir araya toplamağı əmr etdi. Əli də onları bir yerə topladı. Onlar toplandıqdan sonra Peyğəmbər ayağa qalxıb Əliyə söykənmiş halda xütbə etdi. Allaha həmd-səna edib dedi: "Ey camaat, sizin məndən geri qalmanız və uzaq durmanız mənim xoşuma gəlmədi. Hətta elə zənn etdim ki, sizin mənim arxamda duran ağac qədər nifrət etdiyiniz başqa bir ağac yoxdur.[555] Lakin (Allah) Əli ibn Əbu Talibin mənə olan nisbətini mənim Allaha olan nisbətim kimi qərar vermişdir[556]. Mən ondan razıyam, Allah da ondan razı olsun. O, mənə yaxın olmağı və mənimlə yoldaşlıq etməyi heç nəyə dəyişmir." Sonra onun əlini qaldırıb dedi: "İlahi, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır, ona dost olana dost ol, düşmən olana düşmən ol".[557]

Bu hədisi həmçinin, İbnəl-Məğazili əş-Şafei "Mənaqibul-imam Əli" [558] kitabında, Gənci əş-Şafei "Kifayətut-talib" kitabında[559], İbn Əsakir də "Tarixu-Diməşq"[560] kitabında nəql etmişdir.

**3-Abdullah ibn Muhəmməd ibn Əqil:**

Onun hədisini İbn Kəsir "əl-Bidayə vən-nihayə" kitabında nəql etmişdir:

Mətləb ibn Ziyad dedi: Abdullah ibn Muhəmməd ibn Əqildən nəql edilir ki, Cabir ibn Abdullahın belə dediyini eşidib:

"Biz Xum çölündə, Cuhfə məntəqəsində idik. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) çadırından çıxıb bizim yanımıza gəldi, Əlinin əlini tutub dedi: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".

İbn Kəsir deyir:

"Şeyximiz Zəhəbi demişdir: **Bu, həsən hədisdir.**"[561]

Zəhəbi "Siyəru-ə`lamin-nubəla" kitabında demişdir: "**Bu, həsən və çox ali hədisdir. Mətni mütəvatirdir**".[562]

Bu hədisi həmçinin, İbn Əbu Şeybə "əl-Müsənnəf"[563] kitabında, İbn Əsakir "Tarixu-Diməşq"[564] kitabında, İbn Əbu Asim "əs-Sünnə"[565] kitabında, Cuveyni "Fəraidus-simteyn"[566] kitabında, əl-Acurri də "əş-Şəriə"[567] kitabında nəql etmişdir.

---

[555] Məlum olduğu üzrə, Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) geniş qol-budağı olan bir ağacın altında xütbə etmişdir. Buna əsasən, cümlənin mənasının "nə olub ki, məndən bu qədər uzaqlaşırsınız? Siz məndən o qədər uzaqlaşdınız ki, arxamda duran bu ağacın sizin nəzərinizdə ən pis ağac olduğunu zənn etdim", - şəklində olmasını ehtimal etmək olar. (Tərc.).

[556] Başqa sözlə: Görəsən, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Allaha olan nisbəti necədir? Şübhəsiz ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Allahın yer üzərindəki xəlifəsidir, möminlərə onların özlərindən daha üstündür. Buna əsasən, Əli ibn Əbu Talib də (əleyhissəlam) Allahın yer üzərindəki xəlifəsi olmuş olur, möminlərə onların özlərindən daha üstün olur. Çünki onun Peyğəmbərə olan nisbəti, Peyğəmbərin Allaha olan nisbəti kimidir. (Tərc.).

[557] "Müsnədi-şamiyyin": 3/222, hədis: 2128.

[558] "Mənaqibul-imam Əli": səh.25.

[559] "Kifayətut-talib": səh.56.

[560] "Tarixu-Diməşq": 42/226-227.

[561] "əl-Bidayə vən-nihayə": 5/232.

[562] "Siyəru-ə`lamin-nubəla": 7/571.

[563] "əl-Müsənnəf": 6/336, hədis: 3272.

[564] "Tarixu-Diməşq": 42/224.

[565] "əs-Sünnə": səh.590, hədis: 1356.

[566] "Fəraidus-simteyn": 1/62.

[567] "əş-Şəriə": 4/2047, hədis: 1519.

**4-Muhəmməd ibn Münkədir:**

Onun hədisini İbn Əsakir “Tarixu-Diməşq” kitabında nəql etmişdir:

Bizə Əbül-Qasim Zahir ibn Tahir xəbər verib dedi: bizə Əbu Səid Muhəmməd ibn Əbdür-Rəhman xəbər verib dedi: bizə Seyyid Əbül-Həsən Muhəmməd ibn Əli ibn Hüseyn xəbər verib dedi: bizə Süleyman ibn Əhməd əl-Hafiz xəbər verib dedi: bizə Muhəmməd ibn İshaq əl-Hafiz xəbər verib dedi: bizə İsmayıl ibn Əbu Uveys xəbər verib dedi: bizə Cəfər ibn İbrahim əl-Cəfəri xəbər verib dedi:

“Mən Zührinin yanında əyləşib ondan hədis dinləyirdim. Bu zaman bir qoca qadın gəlib dedi: “Ey Cəfəri! Ondan hədis yazma. O, Bəni-Üməyyəyə meyl edib, onlardan hədiyyələr alıb.” Mən dedim: “Bu kimdir?” Zühri dedi: “Bacım Rüqəyyədir, qocalıb ağlını itirib”. Qadın dedi: “Sən ağlını itirmisən, Ali-Muhəmmədin fəzilətlərini gizlədirsən!”.

Qadın dedi: “Muhəmməd ibn Münkədir mənə Cabir ibn Abdullahdan belə nəql etdi:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlinin əlini tutub dedi: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, düşmən olana düşmən ol, ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy”.”[568]

## Beşinci səhabə: Əbu Səid əl-Xudri

Hədisi ondan nəql etmişdir:

**1-Ətiyyə ibn Səid:**

Onun hədisini Təbərani “əl-Mücəmül-əvsət” kitabında nəql etmişdir:

Bizə Həfs ibn Raşid nəql edib dedi: bizə Fuzeyl ibn Mərzuq Ətiyyədən, o da Əbu Səiddən nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”.”[569]

Bu hədisi İbn Əbu Asim “əs-Sünnə”[570] kitabında, Bəlazuri də “Ənsabul-əşraf”[571] kitabında nəql etmişdir.

**2-Ümeyrə ibn Səd:**

Onun hədisini Təbərani “əl-Mücəmül-əvsət” kitabında nəql etmişdir. Bu hədisdə Ümeyrə bildirir ki, Əmirəlmöminin (əleyhissəlam) Rəhbədə səhabələrə Qədir-xum hədisi ilə bağlı and verdiyi zaman şəhadət verən səhabələr arasında Əbu Səid əl-Xudri də olmuşdur:

Bizə Əhməd ibn İbrahim ibn Abdullah ibn Keysan əs-Səqəfi əl-İsfahani nəql edib dedi: bizə İsmayıl ibn Əmr əl-Bəcli nəql edib dedi: bizə Misər (مسعر) ibn Kidam Təlhə ibn Müsərrifdən, o da Ümeyrə ibn Səddən nəql edib dedi:

---

568 “Tarixu-Diməşq”: 42/228.
569 “əl-Mucəmul-əvsət”: 8/213, hədis: 8434.
570 “əs-Sünnə”: səh.592, hədis: 1366.
571 “Ənsabul-əşraf”: 2/357.

“Əlinin minbər üzərindən Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrinə and verib “Hər kim Peyğəmbərin Qədir-xum günündə dediyi sözləri eşdibsə, şəhadət versin”, - dediyini gördüm. Bu zaman on iki nəfər şəxs ayağa qalxdı. Onların arasında Əbu Səid, Əbu Hüreyrə və Ənəs ibn Malik də var idi. Onlar Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”, - dediyini eşitdiklərinə şəhadət verdilər.”[572]

Bu hədisi Əbu Nəim əl-İsfahani də “Hilyətul-əvliya” kitabında nəql etmişdir.[573]

**3-Əbu Harun əl-Əbdi:**

Onun hədisini Cuveyni “Fəraidus-simteyn” kitabında nəql etmişdir:

Bizə Şeyx Tacəddin Əbu Talib Əli ibn Əncəb ibn Osman ibn Ubeydullah əl-Xazin xəbər verib dedi: bizə İmam Burhanəddin Nasir ibn Əbul-Məkarim əl-Mutərrizi xəbər verib dedi: bizə bizə İmam Əxtəbu-Xarəzm Əbul-Müəyyəd Müvəffəq ibn Əhməd əl-Məkki əl-Xarəzmi xəbər verib dedi: mənə hafizlərin ağası Həmədandan yazdığı məktublarda belə xəbər verdi: bizə Rəis Əbul-Fəth Əbdus ibn Abdullah ibn Əbdus əl-Həmədani xəbər verib dedi: bizə Abdullah ibn İshaq əl-Bəğəvi xəbər verib dedi: bizə Həsən ibn Əlil əl-Ənəzi xəbər verib dedi: bizə Muhəmməd ibn Abdullah əz-Zira xəbər verib dedi: bizə Qeys ibn Həfs xəbər verib dedi: mənə Əli ibn Həsən əl-Əbdi Əbu Harun əl-Əbdidən, o da Əbu Səid əl-Xudridən nəql edib dedi:

“Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) camaatı Əliyə tərəf çağırdığı gün ağacın altındakı tikanların təmizlənməsini əmr etdi. Həmin vaxt günlərdən cümə axşamı günü idi. Sonra camaatı Əliyə tərəf çağırdı. Əlinin əlini tutub o qədər qaldırdı ki, camaat onun qolunun altını gördülər. Sonra bir-birlərindən ayrılmamışdılar ki, “**Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim**”[574] ayəsi nazil oldu. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Din kamil olmasına, nemətin tamam olmasına, Rəbbimin mənim peyğəmbərliyimdən razı olmasına və Əliyə vilayət verilməsinə görə Allahu əkbər!” Sonra buyurdu: “İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy”.

Bu zaman Həssan ibn Sabit dedi: “Ey Allahın Rəsulu, icazə verirsənmi bir neçə beyt şer söyləyim?” Peyğəmbər buyurdu: “Allahın bərəkəti ilə söylə!” Həssan ibn Sabit dedi: “Ey Qüreyş şeyxləri! Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) şəhadətini eşidin.” Sonra şer söyləyib dedi:

Peyğəmbərləri Qədir-xum günündə onlara səsləndi,
Onlar da Peyğəmbərin nidasını eşitdilər.

---

[572] “əl-Mucəmul-əvsət”: 2/368-369, hədis: 2254.
[573] “Hilyətul-əvliya”: 5/27.
[574] Maidə surəsi, 3-cü ayə.

Dedi ki: “Sizin mövlanız və vəliniz kimdir?”
Bu zaman onlar bildirdilər ki:

“Bizim mövlamız sənin Allahındır, sən də bizim vəlimizsən,
bizdən heç bir kəs sənin vilayətinə üsyankar deyil”.

Bu vaxt Peyğəmbər Əliyə dedi ki: “Ey Əli, qalx,
mən özümdən sonra sənin imam və hidayətçi olmağını istəyirəm”.[575]

Bu hədisi Müvəffəq ibn Əhməd əl-Xarəzmi “Mənaqib”[576] kitabında, Hakim əl-Həskani də “Şəvahidüt-tənzil”[577] kitabında nəql etmişdir.

**Altıncı səhabə: Əbu Hüreyrə əd-Dəvsi**

Ondan nəql etmişdir:

**1-Əbu Yəzid əl-Əzdinin atası:**

Onun hədisini İbn Əbu Şeybə “əl-Müsənnəf” kitabında nəql etmişdir:

Bizə Şərik Əbu Yəzid əl-Əzdidən, o da atasından nəql edib dedi:

“Əbu Hüreyrə məscidə daxil oldu. Biz onun başına cəm olduq. Bir cavan ona müraciət edib dedi: “Sən and verirəm Allaha, Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) “*Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır, İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol*”, - dediyini eşitmisən?” Əbu Hüreyrə dedi: “Bəli”. Cavan dedi: “Onda mən səndən uzağam! Mən şəhadət verirəm ki, sən Allahın dost tutduğu şəxslə düşmənçilik etdin, Onun düşmən tutduğu şəxslə isə dostluq etdin!” Bu zaman camaat o cavanı daşa basdı.”[578]

Bu hədisi həmçinin, Təbərani “əl-Mücəmül-əvsət”[579] kitabında, İbn Əsakir “Tarixu-Diməşq”[580] kitabında, Əbu Yəla da “Müsnəd”[581] kitabında nəql etmişdir.

**2-Şəhr ibn Həvşəb:**

Onun hədisini əl-Asimi “Zeynul-fəta” kitabında nəql etmişdir:

Bizə Muhəmməd ibn Əbu Zəkəriyya nəql edib dedi: bizə Əbu İsmayıl Muhəmməd ibn Əhməd əl-Fəqih xəbər verib dedi: bizə Əbu Muhəmməd Yəhya ibn Muhəmməd əl-Ələvi əl-Hüseyni xəbər verib dedi: bizə İbrahim ibn Muhəmməd əl-Ammi xəbər verib dedi: bizə Həbşun ibn Musa ibn Əyyub əl-Bağdadi xəbər verib dedi: bizə Əli ibn Səid əş-Şami ər-Ramli nəql edib dedi: Bizə Zəmrə İbn Şəvzəbdən, o, Mətərdən, o, Şəhr ibn Həvşəbdən, o da Əbu Hüreyrədən nəql edib dedi:

---

575 “Fəraidus-simteyn”: 1/72, hədis: 39, həmin mənbə: 1/74, hədis: 40.
576 “Mənaqibul-Xarəzmi”: səh.135, hədis: 152.
577 “Şəvahidut-tənzil”: 1/201, hədis: 211; 1/202, hədis: 212.
578 “Müsnənnəfu-İbn Əbi Şeybə”: 6/369, hədis: 32029.
579 “əl-Mucəmul-əvsət”: 2/24, hədis: 231.
580 “Tarixu-Diməşq”: 42/231.
581 “Müsnədi-Əbu Yəla”: 11/307, hədis: 6423.

“Kim zil-hiccə ayının 18-ci günü oruc tutsa, ona altımış ayın orucunun savabı yazılar. O, Qədir-xum günüdür. Həmin gün Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlinin əlini tutaraq buyurdu: “Məgər mən möminlərə onların özlərindən övla deyiləm?” Camaat: “Bəli, övlasan, ey Allahın Rəsulu”, - dedi. Peyğəmbər buyurdu: “Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır)”. Bu zaman Ömər Əliyə dedi: “Bəh-bəh, ey Əli! Sən mənim və hər bir müsəlmanın mövlası oldun.” Bu vaxt Allah “**Bu gün dininizi sizin üçün kamil etdim...**” ayəsini nazil etdi.”[582]

Bu hədisi həmçinin, İbnəl-Məğazili “Mənaqibul-imam Əli”[583] kitabında, İbn Əsakir “Tarixu-Diməşq”[584] kitabında, Xətib Bağdadi “Tarixi-Bağdad”[585] kitabında, Hakim əl-Həskani “Şəvahidüt-tənzil”[586] kitabında, Xarəzmi də “Mənqaib”[587] kitabında nəql etmişdir.

**3-Umeyrə ibn Səd:**

Onun hədisini Təbərani “əl-Mücəmül-əvsət” kitabında nəql etmişdir. Bu hədisdə Ümeyrə bildirir ki, Əmirəlmöminin (əleyhissəlam) Rəhbədə səhabələrə Qədir-xum hədisi ilə bağlı and verdiyi zaman şəhadət verən səhabələr arasında Əbu Hüreyrə də olmuşdur:

Bizə Əhməd ibn İbrahim ibn Abdullah ibn Keysan əs-Səqəfi əl-İsfahani nəql edib dedi: bizə İsmayıl ibn Əmr əl-Bəcli nəql edib dedi: bizə Misər (مسعر) ibn Kidam Təlhə ibn Müsərrifdən, o da Ümeyrə ibn Səddən nəql edib dedi:

“Əlinin minbər üzərindən Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrinə and verib “Hər kim Peyğəmbərin Qədir-xum günündə dediyi sözləri eşdibsə, şəhadət versin”, - dediyini gördüm. Bu zaman on iki nəfər şəxs ayağa qalxdı. Onların arasında Əbu Səid, Əbu Hüreyrə və Ənəs ibn Malik də var idi. Onlar Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”, - dediyini eşitdiklərinə şəhadət verdilər.”[588]

Bu hədisi həmçinin, Təbərani “əl-Mucəmus-sağir”[589] kitabında, Əbu Nəim əl-İsfahani də “Hilyətul-əvliya”[590] kitabında nəql etmişdir.

### Yeddinci səhabə: Həbəşi ibn Cünadə

Onun hədisini Təbərani “əl-Mücəmül-kəbir” kitabında nəql etmişdir:

Bizə Hüseyn ibn İshaq ət-Tüstəri nəql edib dedi: bizə Əli ibn Bəhr nəql edib dedi: bizə Sələmə ibn Fəzl Salman (Süleyman) ibn Qərm əd-Dabbidən, o da Əbu İshaq əl-Həmədanidən nəql edib dedi:

“Mən Həbəşi ibn Cünadənin belə dediyini eşitdim:

---

582 “Zeynul-fəta”: 2/474.
583 “Mənaqibul-imam Əli”: səh.18.
584 “Tarixu-Diməşq”: 42/233-234.
585 “Tarixi-Bağdad”: 8/289.
586 “Şəvahidut-tənzil”: 1/200, hədis: 210; 1/203, hədis: 213.
587 “Mənaqib”: səh.156, hədis: 184.
588 “əl-Mucəmul-əvsət”: 2/368-369, hədis: 2254.
589 “əl-Mucəmus-sağir”: 1/64.
590 “Hilyətul-əvliya”: 5/27.

Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-xum günü belə dediyini eşitdim: "İlahi, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy"."[591]

Heysəmi demişdir: "**Bunu Təbərani nəql etmişdir. Raviləri siqədir**".[592]

Bu hədisi İbn Əbu Asim "əs-Sünnə"[593] kitabında, İbn Əsakir "Tarixu-Diməşq"[594] kitabında, İbn Qani "Mucəmus-səhabə"[595] kitabında, İbn Kəsir də "əl-Bidayə vən-nihayə"[596] kitabında nəql etmişdir.

İbnul-Əsirin "Usudul-ğabə" kitabında hafiz İbn Üqdə yolu ilə Əsbəğ ibn Nəbatədən nəql etdiyi hədisdə bildirilir ki, Rəhbədə İmam Əmirəlmöminin (əleyhissəlam) üçün şəhadət verən kəslərdən biri də Həbəşi ibn Cünadə olmuşdur.[597]

## Səkkizinci səhabə: Bəra ibn Azib

Onun hədisini İbn Əbu Şeybə "əl-Müsənnəf" kitabında nəql etmişdir:

Bizə Əffan nəql edib dedi: bizə Həmmad ibn Sələmə nəql edib dedi: bizə Əli ibn Zeyd Ədiy ibn Sabitddən, o da Bəradan xəbər verib dedi:

"Bir səfərdə Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birgə idik. Xum çölündə dayandıq. Camaat namazı üçün çağırış edildi. Bir ağacın altını Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) üçün təmizlədilər. Peyğəmbər zöhr namazını qıldı. Sonra Əlinin əlini tutub dedi: "Məgər bilmirsiniz ki, mən möminlərə onların özlərindən övlayam?" Dedilər: "Bəli, bilirik". Buyurdu: "Məgər bilmirsiniz ki, mən hər bir möminə onun özündən övlayam?" Dedilər: "Bəli, bilirik". Bu zaman Əlinin əlindən tutub dedi: "İlahi, mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol." Bundan sonra Ömər Əlinin yanına gəlib dedi: "Xoş halına, ey Əbu Talibin oğlu! Sən hər bir mömin və mömininin mövlası oldun!"."[598]

Bu hədisi həmçinin, İbn Əbu Asim "əs-Sünnə"[599] kitabında, İbn Əsakir "Tarixu-Diməşq"[600] kitabında, Zəhəbi "Siyəru-əlamin-nubəla"[601] kitabında, Əhməd ibn Hənbəl "Müsnəd"[602] və "Fadailus-səhabə"[603] kitablarında, Bəlazuri "Ənsabul-

---

591 "əl-Mucəmul-kəbir": 4/16, hədis: 3514.
592 "Məcməuz-zəvaid": 9/106.
593 "əs-Sünnə": səh.591, hədis: 1360.
594 "Tarixu-Diməşq": 42/230.
595 "Mucəmus-səhabə": 1/199.
596 "əl-Bidayə vən-nihayə": 5/213.
597 "Usudul-ğabə": 3/307.
598 "Müsənnəfu-İbn Əbi Şeybə": 6/372, hədis: 32118.
599 "əs-Sünnə": səh.591, hədis: 1363.
600 "Tarixu-Diməşq": 42/220.
601 "Siyəru-əlamin-nubəla": 2/632.
602 "Müsnədü-Əhməd": 4/281, hədis: 18502, Şeyx Əhməd Həmzə əz-Zeyn demişdir: "**İsnadı Əli ibn Zeydə görə həsəndir**". Bax: "Müsnədü-Əhməd": 14/186, hədis: 18391, çap: "Darul-hədis", Qahirə.
603 "Fadailus-səhabə": 2/596, hədis: 1016.

əşraf”[604] kitabında, əl-Acurri “əş-Şəriə”[605] kitabında, Sələbi də “Təfsir”[606] kitabında nəql etmişdir.

İbn Macə “Sünən” kitabında ondan belə nəql etmişdir:

Bizə Əli ibn Muhəmməd nəql edib dedi: bizə Əbül-Hüseyn nəql edib dedi: mənə Həmmad ibn Sələmə Əli ibn Zeyd ibn Cudandan (جدعان), o, Ədiy ibn Sabitdən, o da Bəra ibn Azibdən nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birgə həccdən qayıtdıq. Peyğəmbər Yolların (mənzillərin) birində dayandı. Cəmiyyət namazı təşkil olunmasını əmr etdi. (Namazdan sonra) Əlinin əlini tutub dedi: “Məgər mən möminlərə onların özlərindən övla deyiləmmi?” Dedilər: “Övlasan”. Buyurdu: “Məgər mən hər bir möminə onun özündən daha övla deyiləmmi?” Dedilər: “Üstünsən”. Buyurdu: “Mən kimin mövlasıyamsa, bu da onun vəlisidir. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.”[607]

**Doqquzuncu səhabə: Hüzeyfə ibn Useyd**

Onun hədisini Təbərani “əl-Mücəmül-kəbir” kitabında nəql etmişdir:

Bizə Muhəmməd ibn Abdullah əl-Hadrami və Zəkəriyya ibn Yəhya əs-Saci nəql edib dedilər: bizə Nəsr ibn Əbdür-Rəhman əl-Vəşşa nəql edib dedi:

Həmçinin, bizə Əhməd ibn Qasim ibn Musavir əl-Cəvhəri nəql edib dedi: bizə Səid ibn Süleyman əl-Vasiti nəql edib dedi:

Bizə Zeyd ibn Həsən əl-Ənmati nəql edib dedi: bizə Məruf ibn Xərrəbuz Əbut-Tufeyldən, o da Hüzeyfə ibn Useyd əl-Ğifaridən nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) vida həccindən qayıdan zaman səhabələrinə Bətha məntəqəsindəki bir-birinə yaxın ağacların altında dayanmağı qadağan etdi. Sonra adam göndərib o ağacların altındakı tikanları təmizlətdirdi. Sonra oraya gedib ağacların altında namaz qıldı. Sonra xütbə edib dedi: “Ey camaat! Həqiqətən də hər şeyi incəliyinə qədər bilən və hər şeydən xəbərdar olan Allah mənə xəbər vermişdir ki, hər bir peyğəmbər özündən qabaqkı peyğəmbərin yaşadığı müddətin yarısı qədər yaşamışdır. Mən elə düşünürəm ki, artıq çağrılmaq və çağırışa cavab vermək üzrəyəm. Mən məsulam, siz də məsulsunuz. Elə isə nə deyəcəksiniz?” Camaat dedi: “Biz sənin çatdırdığına, nəsihət etdiyinə və cihad etdiyinə şəhadət veririk. Allah sənə ən yaxşı mükafatı versin”. Peyğəmbər buyurdu: “Allahdan başqa ilah olmadığına, Muhəmmədin Onun bəndəsi və elçisi olduğuna, Cənnətin, Cəhənnəmin, ölümün və ölümdən sonra dirilmənin haqq olduğuna, Qiyamət gününün mütləq baş verəcəyinə və Allahın qəbirlərdən olanları qəbirlərdən qaldıracağına şəhadət verirsiniz?” Dedilər: “Bəli, şəhadət veririk”. Peyğəmbər buyurdu: “İlahi, mən də şahidəm”[608]. Sonra dedi: “Ey camaat, Allah mənim mövlamdır, mən də möminlərin mövlasıyam; mən möminlərə onların özlərindən övlayam. Elə isə mən kimin mövlasıyamsa (kimə

---

604 “Ənsabul-əşraf”: 2/356.

605 “əş-Şəriə”: 4/2051, hədis: 1524.

606 “Təfsiri-Sələbi”: 4/92.

607 “Sünəni-İbn Macə”: 1/42, hədis: 116. Əlbani “Səhihu-sünəni-İbn Macə” kitabında (1/56) hədis üçün “**Səhihdir**”, - demişdir.

608 Yaxud: İlahi, şahid ol. Müt.

onun özündən övlayamsa), bu da – yəni, Əli də – onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol". Sonra buyurdu: "Ey camaat, mən (hovuz başına) sizdən qabaq çatacağam və siz hovuz başında mənim yanıma gələcəksiniz. O, genişliyi Busra və Səna arasından daha böyük olan bir hovuzdur. Orada ulduzların sayı qədər gümüş qədəhlər vardır. Siz mənim yanıma gəldiyiniz zaman mən sizdən iki ağır əmanət (səqəleyn) barədə soruşacağam. Elə isə baxın məndən sonra onlarla necə davranırsınız. (O iki əmanət arasında) daha böyük olan əmanət Allahın kitabıdır. O, bir ucu Allahın, bir ucu da sizin əlinizdə olan bir ipdir. Ondan bərk yapışın ki, azıb (dininizi) dəyişməyəsiniz. (Digər əmanət isə) itrətim olan Əhli-Beytimdir. Hər şeydən incəliyinə qədər xəbərdar olan Allah mənə bildirmişdir ki, o ikisi hovuz başında mənim yanıma varıncayadək əsla bir-birlərindən ayrılmayacaqlar"."[609]

Bu hədisi həmçinin, İbn Əsakir "Tarixu-Diməşq" kitabında[610], Cüveyni "Fəraidus-simteyn" kitabında[611] nəql etmişdir. Həmçinin, Tirmizi olduqca yığcam şəkildə "Sünən" kitabında nəql etmiş və hədis barəsində, "**Bu, həsən və səhih hədisdir**", - demişdir[612]. Əhməd ibn Hənbəl də "Fadailus-səhabə" kitabında[613] hədisi yığcam şəkildə qeyd etmişdir.

### Onuncu səhabə: Hüzeyfə ibn əl-Yəman

Onun hədisini Hafiz əl-Həskani "Şəvahidüt-tənzil" kitabında nəql etmişdir:

Furat dedi: mənə İshaq ibn Muhəmməd ibn Qasim ibn Saleh ibn Xalid əl-Haşimi dedi: bizə Əbu Bəkr ər-Razi Muhəmməd ibn Yusif ibn Yaqub ibn İbrahim ibn Nəbəhan ibn Asim ibn Zeyd ibn Türeyd mövla-Əli ibn Əbu Talib nəql edib dedi: bizə Muhəmməd ibn İsa əd-Damağani nəql edib dedi: bizə Sələmə ibn Fəzl Əbu Məryəmdən, o, Yunis ibn Həssandan, o, Ətiyyədən, o da Hüzeyfə ibn əl-Yəmandan nəql edib dedi:

"Allaha and olsun ki, biz Xum çölündə olduğumuz vaxt mən Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) önündə əyləşmişdim. Peyğəmbərin ətrafı mühacir və ənsarlarla dolu idi. Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) ayağa qalxıb dedi: "Ey camaat, Allah mənə bir əmr verərək buyurdu: "**Ey Peyğəmbər! Rəbbindən sənə nazil olanı çatdır**"." Bunu deyib Əlini çağırdı. Onu öz sağında dayandırdı. Sonra dedi: "Ey camaat, məgər bilmirsiniz ki, mən sizə sizin özünüzdən övlayam?" Dedilər: "Allah şahiddir ki, bilirik". Dedi: "Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onunun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona yardım edənə yardım et, onu köməksiz qoyanı köməksiz qoy"...".[614]

### On birinci səhabə: Malik ibn Hüveyris

---

[609] "əl-Mucəmul-kəbir": 3/180, səh.3052.
[610] "Tarixu-Diməşq": 12/226.
[611] "Fəraidus-simteyn": 2/274.
[612] "əl-Camius-səhih" ("Sünənüt-Tirmizi"): 5/633, hədis: 3713, Əlbani "Səhihu-sünənit-Tirmizi" kitabında (3/521-522) hədis barəsində demişdir: "**Səhihdir**".
[613] "Fadailus-səhabə": 2/569, hədis: 959.
[614] "Şəvahidut-tənzil": 2/392, hədis: 1041.

Onun hədisini Təbərani "əl-Mücəmül-kəbir" kitabında nəql etmişdir:

Bizə Übeyd əl-İcli nəql edib dedi: bizə Həsən ibn Əli əl-Həlvani nəql edib dedi: bizə Ömər ibn Əban nəql edib dedi: bizə Malik ibn Hüseyn ibn Malik ibn Hüveyris nəql edib dedi: mənə atam babam Malik ibn Hüveyrisdən nəql edib dedi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurmuşdur: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"."[615]

Bu hədisi həmçinin, Əhməd ibn Hənbəl "Mənaqibu-Əli" kitabında[616], İbn Əsakir də "Tarixu-Diməşq" kitabında nəql etmişdir.[617]

## On ikinci səhabə: Əbu Əyyub əl-Ənsari

Aşağıdakı şəxslər Qədir-Xum hədisini ondan nəql etmişlər:

**1-Riyah ibn Haris:**

Onun hədisini Əhməd ibn Hənbəl "Müsnəd" kitabında nəql etmişdir:

Bizə Yəhya ibn Adəm nəql edib dedi: bizə Hənəş ibn Haris ibn Ləqit ən-Nəxəi əş-Əşcəi Riyah ibn Harisdən nəql edib dedi:

"Rəhbədə bir dəstə şəxs Əlinin yanına gəlib dedi: "Salam olsun sənə, ey bizim mövlamız". Əli dedi: "Mən necə sizin mövlanız ola bilərəm ki, siz ərəbsiniz?" Dedilər: "Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitdik: "Mən kimi mövlasıyamsa, bu da onun mövlasıdır"."

Riyah deyir: "Onlar getdikdən sonra mən onların ardınca düşdüm. Onların kim olduğunu soruşdum, cavabında "Ənsardan olan bir dəstə şəxsdirlər, Əbu Əyyub əl-Ənsari də onların arasındadır", - dedilər."[618]

Şeyx Şüeyb əl-Arnaut hədis üçün: "İsnadı səhihdir", - demişdir. Şeyx Muhəmməd Nasiruddin əl-Əlbani də: "Bu, ceyyid sənəddir, sənədin raviləri siqədirlər", - demişdir[619]. Heysəmi də "Məcməuz-zəvaid" kitabında demişdir: "Bunu Əhməd və Təbərani nəql etmişlər... Əhmədin raviləri siqədirlər"[620].

Bu hədisi həmçinin, İbn Əsakir "Tarixu-Diməşq" kitabında[621], Əhməd ibn Hənbəl "Fadailus-səhabə" kitabında[622], İbn Əbu Asim "əs-Sünnə" kitabında[623], Təbərani "əl-Mücəmül-kəbir" kitabında[624], İbn Əbu Şeybə də "əl-Müsənnəf"[625] kitabında nəql etmişdir.

**2-Əsbəğ ibn Nübatə[626]:**

Onun hədisini İbn Qüdamə əl-Məqdisi "əl-Mütəhabbinə fillah" kitabında nəql etmişdir:

---

615 "əl-Mucəmul-kəbir": 19/291, hədis: 646.
616 "Mənaqibu-Əli": səh.111, hədis: 164.
617 "Tarixu-Diməşq": 42/235.
618 "Musnədu-Əhməd ibn Hənbəl": 5/419, hədis: 23609.
619 "Silsilətul-əhadisis-səhihə": 4/340.
620 "Məcməuz-zəvaid": 9/104.
621 "Tarixu-Diməşq": 42/212.
622 "Fadailus-səhabə": 2/572, hədis: 967.
623 "əs-Sünnə": səh.590, hədis: 1355.
624 "əl-Mucəmul-kəbir": 4/173, hədis: 4052.
625 "əl-Müsənnəf": 6/366, hədis: 32073.
626 Bəzən yanlışlıqla "Nəbatə" də deyilir. (Tərc.).

Şeyx Əbu Tahir Əbdül-Cabbar ibn Hibətullah ibn Qasim Bağdadın qərbində (tələbələrinə) belə nəql etdi: Əbu Ğalib əl-Qəzzaz demişdir: bizə Əbül-Hüseyn ibn ən-Nəqur xəbər verib dedi: bizə Hüseyn ibn Harun əd-Dabbi xəbər verib dedi: bizə Əbu Abbas Əhməd ibn Muhəmməd ibn Səid əl-Kufi xəbər verib dedi: bizə Muhəmməd ibn İsmayıl ər-Raşidi xəbər verib dedi: bizə Muhəmməd ibn Xələf ən-Nəmiri xəbər verib dedi: bizə Əli ibn Hüseyn əl-Əbdi Əsbəğ ibn Nübatədən xəbər verib dedi:

"Əli Rəhbədə camaata and verdi ki, kim Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) dediyi sözləri eşidibsə, ayağa qalxsın. Bu zaman içlərində Əbu Əyyub əl-Ənsarinin də olduğu on neçə nəfər şəxs ayağa qalxdı. Biz şəhadət veririk ki, Qədir-Xum günündə Allah Rəsulunun sənin əlini tutub belə dedi: "Şəhadət verirsiniz ki, mən çatdırıb nəsihət etdim?" Camaat dedi: "Biz sənin çatdırıb nəsihət etdiyinə şəhadət veririk". Dedi: "Bilin və agah olun! Allah mənim mənim vəlimdir, mən də möminlərin vəlisiyəm. Bilin və agah olun, mən kimin mövlasıyamsa, bu da onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, onu sevəni sev, ona nifrət edənə nifrət et, ona yardım edənə yardım et"."[627]

**On üçüncü səhabə: Cundə ibn Əmr ibn Mazin əl-Ənsari**

Onun hədisini İbn əl-Əsir "Usdul-ğabə" kitabında nəql etmişdir:

Əbu Əhməd əl-Əskəri öz sənədi ilə Ümarə ibn Yəziddən, o, Abdullah ibn Əladan, o da Zühridən belə nəql etmişdir:

Əbu Cüneydə Cundə ibn Əmr ibn Mazinin belə dediyini eşitdim:

"Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitdim: Kim bilərəkdən mənim adımdan yalan danışsa, Cəhənnəmdə öz yerini hazır bilsin. Onun vida həccindən qayıdan zaman, Xum adlanan çöldə, Əlinin əlindən tutub camaata xütbə edərək belə dediyini eşitdim – əgər yalan deyirəmsə, bu qulaqlarım kar olsun! –: "Mən kimin vəlisiyəmsə, bu da onun vəlisidir. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşəm ol".

Übeydullah deyir: "Zühriyə dedim: "Bu hədisi Şamda danışma, sən özün Əlinin hər tərəfdən necə söyüldüyünü eşidirsən." Zühri dedi: "Allaha and olsun ki, mənim yanımda Əlinin fəzilətlərinə dair elə şeylər var ki, əgər nəql etsəm, məni öldürərlər"..."[628].

**On dördüncü səhabə: Cərir ibn Abdullah əl-Bəcli**

Onun hədisini Təbərani "əl-Mücəmül-kəbir" kitabında nəql etmişdir:

Bizə Əli ibn Səid ər-Razi nəql edib dedi: bizə Həsən ibn Saleh ibn Rəziq əl-Əttar nəql edib dedi: bizə Muhəmməd ibn Əvn Əbu Əvn əz-Ziyadi nəql edib dedi: bizə Hərb ibn Sureyc Bişr ibn Hərbdən, o da Cərirdən nəql edib dedi:

"Bir həcc mövsümündə Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birgə həccdə iştirak etdik. Bu, vida həcci idi. (Həmin həccdən qayıdarkən) Qədir-Xum adlanan bir yerə çatdıq. Peyğəmbər cəmiyyət namazı təşkil olunmasına

---

[627] "əl-Mütəhabbinə fillah": 1/73, hədis: 92.
[628] "Usdul-ğabə fi mərifətis-səhabə": 1/308.

əmr verdi. Biz mühacir və ənsarlar bir yerə cəm olduq. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizim aramızda ayağa qalxaraq buyurdu: “Ey camaat, nəyə şəhadət verirsiniz?” Dedilər: “Allahdan başqa ilah olmadığına şəhadət veririk”. Buyurdu: “Sonra nəyə?” Dedilər: “Muhəmmədin Onun qulu və elçisi olduğuna şəhadət veririk”. Buyurdu: “Sizin vəliniz kimdir?” Dedilər: “Allah və Onun Rəsulu bizim mövlamızdır”. Buyurdu: “Sizin vəliniz kimdir?” Sonra əlini Əlinin biləyinə vurub onu ayağa qaldırdı. Sonra onun biləyindən tutub yuxarı qaldırdı və dedi: “Allah və Onun Rəsulu kimi mövlasıdırlarsa, bu da o şəxsin mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol. İlahi, kim onu sevsə, Sən də onu sev, kim ona nifrət bəsləsə, Sən də ona nifrət bəslə”...”[629].

Bu hədisi həmçinin, İbn Əsakir “Tarixu-Diməşq” kitabında nəql etmişdir[630].

### On beşinci səhabə: Təlhə ibn Übeydullah

Aşağıdakı şəxslər Qədir-Xum hədisini ondan nəql etmişlər:

**1-İyas əd-Dabbinin atası:**

Onun hədisini İbn Əbu Asim “əs-Sünnə” kitabında nəql etmişdir:

Bizə Əhməd ibn Əbdə nəql edib dedi: bizə Hüseyn ibn Həsən nəql edib dedi: bizə Rufaə ibn İyas əd-Dabbi atasından, o da öz atasından nəql edib dedi:

“Əli Təlhəyə dedi: “Səni and verirəm Allaha, Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”, - dediyini eştimisən?” Təlhə dedi: “Bəli”.”[631]

Bu hədisi həmçinin, İbn Əsakir “Tarixu-Diməşq” kitabında[632] nəql etmişdir.

**2-İsa ibn Təlhə:**

Onun hədisini İbn Əsakir “Tarixu-Diməşq” kitabında nəql etmişdir:

Bizə Əbül-Qasim Zahir ibn Tahir xəbər verib dedi: bizə Əbu Səid əl-Cənzuri xəbər verib dedi: bizə Seyyid Əbül-Həsən Muhəmməd ibn Əli xəbər verib dedi: bizə Muhəmməd ibn Ömər əl-Bəzzar xəbər verib dedi: bizə Abdullah ibn Ziyad əl-Məqbəri xəbər verib dedi: bizə atam xəbər verib dedi: bizə Həfs ibn Ömər əl-Əmri xəbər verib dedi: bizə Ğiyas ibn İbrahim Təlhə ibn Yəhyadan, o, əmisi İsa ibn Təlhədən, o, Təlhə ibn Übeydullahdan, o da Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) nəql edib dedi:

“Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”[633].

### On altıncı səhabə: Ömər ibn əl-Xəttab

Onun hədisini İbn Əsakir “Tarixu-Diməşq” kitabında nəql etmişdir:

Bizə Əbül-Qasim Zahir ibn Tahir xəbər verib dedi: Əbu Osman əl-Buheyri nəql edib dedi: bizə Əbu Səid Əhməd ibn İbrahim ibn Əbül-Abbas əd-Dəndaqani xəbər verib dedi: bizə Muhəmməd ibn Abdullah ibn İbrahim xəbər verib dedi: bizə Əhməd ibn Ruh əl-Hafiz xəbər verib dedi: bizə Əhməd ibn Yəhya əs-Sufi xəbər

---

629 “əl-Mucəmul-kəbir”: 2/357, hədis: 2505.
630 “Tarixu-Diməşq”: 42/236.
631 “əs-Sünnə”: səh.590, hədis: 108.
632 “Tarixu-Diməşq”: 25/108.
633 “Tarixu-Diməşq”: 42/223.

verib dedi: bizə İsmayıl ibn Əbul-Həkəm əs-Səqəfi xəbər verib dedi: bizə Şazan xəbər verib dedi: bizə İmran ibn Müslim Süheyldən, o, atasından, o, Əbu Hüreyrədən, o da Ömər ibn əl-Xəttabdan nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”.”[634]

Bu hədisi həmçinin, İbn əl-Məğazili əş-Şafei “Mənaqibul-imam Əli ibn Əbu Talib” kitabında[635] nəql etmişdir.

### On yeddinci səhabə: Abdullah ibn Ömər ibn əl-Xəttab

Aşağıdakı şəxslər Qədir-Xum hədisini ondan nəql etmişlər:

**1-Salim ibn Abdullah ibn Ömər:**

Onun hədisini İbn Əbu Asim “əs-Sünnə” kitabında nəql etmişdir:

Bizə Muhəmməd ibn Avf nəql edib dedi: bizə Übeydullah ibn Musa nəql edib dedi: bizə İsmayıl ibn Nəşit Cəmil ibn Ümarə əl-Valibidən, o, Salim ibn Abdullah ibn Ömərdən, o da Abdullah ibn Ömərdən nəql edib dedi:

“Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Əlinin əlini tutmuş vəziyyətdə belə dediyini eşitdim: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”.”[636]

**2-Ətiyyə:**

Onun hədisini İbn Əsakir “Tarixu-Diməşq” kitabında nəql etmişdir:

Bizə Əbül-Qasim İsmayıl ibn Əhməd nəql edib dedi: bizə Əbül-Qasim İsmayıl ibn Məsədə nəql edib dedi: bizə Əbu Əmr Əbdür-Rəhman ibn Muhəmməd əl-Farisi nəql edib dedi: bizə Əbu Əhməd ibn Abdullah ibn Ədiy əl-Cürcani nəql edib dedi: bizə Abbas ibn İbrahim ibn Mənsur əl-Qəratisi nəql edib dedi: bizə Hüseyn ibn Əmr əl-Ənqəri nəql edib dedi: bizə Ömər ibn Şəbib Abdullah ibn İsadan, o, Ətiyyədən, o da İbn Ömərdən nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.”[637]

### On səkkizinci səhabə: Abdullah ibn Əbi Əvfa

Aşağıdakı şəxslər Qədir-Xum hədisini ondan nəql etmişlər:

**1-Ömər ibn Nueym əl-Masirin babası:**

Onun hədisini Hakim əl-Həskani “Şəvahidüt-tənzil” kitabında nəql etmişdir:

Bizə Əbu Bəkr əs-Sukkəri xəbər verib dedi: bizə Əbu Əmr əl-Muqri xəbər verib dedi: bizə Həsən ibn Süfyan xəbər verib dedi: mənə Əhməd ibn Zahir xəbər nəql edib dedi: bizə Əbdür-Rəhman ibn Əmr ibn Cəbələ nəql edib dedi: bizə Ömər ibn Nüeym ibn Ömər ibn Qeys əl-Masir nəql edib dedi: babamın belə dediyini eşitdim:

---

634 “Tarixu-Diməşq”: 42/234.

635 “Mənaqibul-imam Əli ibn Əbi Talib”: səh.22.

636 “əs-Sünnə”: səh.590, hədis: 1357.

637 “Tarixu-Diməşq”: 42/236.

“Abdullah ibn Əbi Əvfa bizə nəql edib dedi: “Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xum günündə belə buyurduğunu eşitdim: “**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır, əgər bunu etməsən, (bil ki,) Rəbbinin (heç bir) risalətini çatdırmamısan!**”. Bunu deyib əllərini qaldırdı. O qədər qaldırdı ki, qoltuğunun ağlığı göründü. Sonra dedi: “Bilin və agah olun! Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”. Sonra dedi: “İlahi, şahid ol”.”[638]

**2-Ətiyyə əl-Əvfi:**

Onun hədisini İbn əl-Məğazili əş-Şafei “Mənaqibul-imam Əli” kitabında nəql etmişdir:

Bizə Əhməd ibn Muhəmməd ibn Tavan xəbər verib dedi: bizə Hüseyn ibn Muhəmməd əl-Ələvi əl-Ədl əl-Vasiti nəql edib dedi: bizə İbn Mübəşşir nəql edib dedi: bizə Əmmar ibn Xalid nəql edib dedi: bizə İshaq əl-Əzrəq Əbdül-Məlikdən, o da Ətiyyə əl-Əvfidən nəql edib dedi:

“Gözləri tutulduqdan sonra, İbn Əbu Əvfanı (evinin) dəhlizlərinin birində gördüm. Ondan bir hədis barəsində soruşdum. O dedi: “Sizin aranızda yaxşı hədis biliciləri var, ey Kufə əhli.” Sonra dedi: “Nədir o hədis?” Dedim: “Əlinin Qədir-Xum günü ilə bağlı hədisi. Dedi: “Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) vida həccində(n qayıtdığımız zaman) Qədir-Xum günündə Əlinin əlini tutaraq belə dedi: “Ey camaat, bilirsiniz ki, mən möminlərə onların özlərindən övlayam?” Dedilər: “Bəli, bilirik, ey Allahın Rəsulu”. Dedi: “(Elə isə bilin ki,) mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır)”.”[639]

## On doqquzuncu səhabə: Bureydə əl-Əsləmi

Aşağıdakı şəxslər Qədir-Xum hədisini ondan nəql etmişlər:

**1-Oğlu:**

Onun hədisini İbn Hibban öz “Səhih” kitabında nəql etmişdir:

Bizə Muhəmməd ibn Tahir ibn Əbud-Dumeyk nəql edib dedi: bizə İbrahim ibn Ziyad nəql edib dedi: bizə Əbu Müaviyə nəql edib dedi: bizə Əməş Səd ibn Übeydədən, o, Büreydənin oğlundan, o da atasından nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mən kimin vəlisiyəmsə, Əli də onun vəlisidir”.”[640]

Bu hədisi həmçinin, İbn Əbu Şeybə “əl-Müsənnəf” kitabında[641], İbn Əbu Asim “əs-Sünnə” kitabında[642], Nəsai “əs-Sünənul-kubra”[643] və “Fadailus-

[638] “Şəvahidut-tənzil”: 1/252.
[639] “Mənaqibul-imam Əli ibn Əbi Talib”: səh.24
[640] “Səhihu-İbn Hibban”: 15/375, hədis: 6930. Kitabın mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut demişdir: “**İsnadı səhihdir. Raviləri siqə və iki şeyxin raviləridir, təkcə İbrahim ibn Ziyaddan başqa; o, yalnız Müslimin ravisidir**”.
[641] “əl-Müsənnəf”: 7/494.
[642] “əs-Sünnə”: səh.590.
[643] “əs-Sünənul-kubra”: 5/45, hədis: 8144.

səhabə”[644] kitablarında, Əbül-Həsən əl-Heysəmi də “Məvariduz-zəman” kitabında[645] nəql etmişdir.

**2-Tavus:**

Onun hədisini Təbərani “əl-Mücəmül-kəbir” kitabında nəql etmişdir:

Bizə Əhməd ibn Ruşdeyn nəql edib dedi: bizə Muhəmməd ibn Əbus-Səriy əl-Əsqəlani nəql edib dedi: bizə Əbdür-Rəzzaq Məmərdən, o, İbn Tavusdan, o, atasından, o da Bureydədən nəql edib dedi:

“Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Əli barəsində dedi: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”.”[646]

Təbərani bu hədisi “əl-Mucəmus-sağir” kitabında[647] da nəql etmişdir.

### İyirminci səhabə: Əsəd (أسعد) ibn Zürarə

Onun hədisini Xətib əl-Bağdadi “Muvaddihu-əvhamil-cəm vət-təfriq” kitabında hafiz İbn Üqdə yolu ilə nəql etmişdir:

İbn Cumeyin İbn Üqdədən nəql etdiyi hədisə gəlincə, bu hədisi bizə Surda qazı olan Əbu Muhəmməd Abdullah ibn Əli ibn İyad ibn Əhməd ibn Əbu Əqil, Muhəmməd Əhməd ibn Cumey əl-Ğəssani əs-Seydavidən, o, Əhməd ibn Muhəmməd ibn Üqdədən, o, Muhəmməd ibn Müfəzzəl ibn İbrahim əl-Əşəridən, o, atasından, o, Müsənna ibn Qasim əl-Həzrəmidən, o, Hilal Əbu Əyyub Miqlas əs-Seyrəfidən, o, Əbu Kəsir əl-Ənsaridən, o, Abdullah ibn Əsəd ibn Zürarədən, o da atasından nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”. Həmçinin, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mənə belə vəhy edilib ki, Əli möminlərin əmiri, müsəlmanların ağası və (qiyamət günü) dəstəmaz üzləri nurlu olan şəxslərin rəhbəridir”.”[648]

### İyirmi birinci səhabə: Yəla (يَعْلَى) ibn Murrə

Onun hədisini İbn əl-Əsir “Usdul-ğabə” kitabında Naciyə ibn Əmrin tərcümeyi-halında qeyd etmişdir:

Bizə Əbu Musa xəbər verib dedi: bizə Şərif Əbu Muhəmməd Həmzə ibn Abbas əl-Ələvi xəbər verib dedi: bizə Əhməd ibn Fəzl əl-Muqri xəbər verib dedi: bizə Əbu Müslim ibn Şəhdəl xəbər verib dedi: bizə Əbül-Abbas ibn Üqdə nəql edib dedi: bizə Abdullah ibn İbrahim ibn Qüteybə nəql edib dedi: bizə Həsən ibn Ziyad Əmr ibn Səd ən-Nəsridən, o, Əmr ibn Abdullah ibn Yəla ibn Murrədən, o, atasından, o da babası Yəladan nəql edib dedi:

“Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitdim: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol.” Əli Kufəyə gəldiyi zaman camaatdan (bu

---

[644] “Fadailus-səhabə” (Nəsai): səh.14

[645] “Məvariduz-zəman” (موارد الظمآن): 1/543, hədis: 2204.

[646] “əl-Mucəmul-kəbir”: 1/111, hədis: 346.

[647] “əl-Mucəmus-sağir”: 1/129, hədis: 191.

[648] “Muvaddihu-əvhamil-cəm vət-təfriq”: səh.185.

hədisi eşidib-eşitmədiklərini) soruşdu. İçlərində Peyğəmbəri öz evində qonaq saxlayan Əbu Əyyub əl-Ənsarinin və Naciyə ibn Əmr əl-Xuzainin də olduğu on neçə nəfər şəxs hədisi eşitdiklərini dedilər.” Bunu Əbu Nueym və Əbu Musa da nəql etmişlər.[649]

### İyirmi ikinci səhabə: Amir ibn Leyla ibn Damrə

Onun hədisini İbn əl-Əsir “Usdul-ğabə” kitabında İbn Üqdə yolu ilə nəql etmişdir:

Bu hədisi Əbül-Abbas ibn Üqdə nəql etmişdir: Abdullah ibn Sinan Əbut-Tufeyl Amir ibn Vasilədən, o, Hüzeyfə ibn Useyd əl-Ğifaridən və Amir ibn Leyla ibn Damrədən belə nəql etmişdir:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) vida həccindən – bu, onun ilk və son həcci idi – qayıtdığı zaman Cuhfə məntəqəsinə gəlidi. Cuhfədə olduğu vaxt Qədir-Xum günündə belə buyurdu: “Ey camaat, həqiqətən də hər şeydən incəliyinə qədər xəbərdar olan Allah mənə xəbər vermişdir ki, hər bir peyğəmbər özündən əvvəlki peyğəmbərin yaşadığı müddətin yarısı qədər yaşamışdır. Mənim çağrılmağıma və çağırışa cavab verməyimə az qalır”. Sonra hədisin ardını qeyd edir və deyir: “Sonra Əlinin əlini tutub qaldırdı və dedi: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”...”[650]

### İyirmi üçüncü səhabə: Əmmar ibn Yasir

Onun hədisini əl-Mizzi “Təhzibül-kəmal” kitabında Əbul-Xəttab əl-Hicrinin tərcümeyi-halını qeyd edərkən nəql etmişdir:

Mavərdinin kitabında Əbül-Abbas ibn Üqdə ondan bir hədis nəql etmişdir. Hədisin sənədi belədir: Əbül-Abbas ibn Üqdə Hüseyn ibn Əbdür-Rəhman ibn Muhəmməd əl-Əzdidən, o, atasından, o, Əli ibn Abbasdan, o, Əmr ibn Umeyr Əbul-Xəttab əl-Hicridən, o, Zeyd ibn Vəhb əl-Hicridən, o, Əbu Nuh əl-Himyəridən, o da Əmmar ibn Yasirdən belə nəql etmişdir:

“Allah Rəsulunun Qədir-Xum günündə belə dediyini eşitdim: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.”[651]

### İyirmi dördüncü səhabə: Əbu Qudamə əl-Ənsari

Onun hədisini İbn əl-Əsir “Usdul-ğabə” kitabında nəql etmişdir:

Bizə Əbu Musa xəbər verib dedi: bizə Şərif Əbu Muhəmməd Həmzə ibn Abbas əl-Ələvi xəbər verib dedi: bizə Əhməd ibn Fəzl əl-Batirqani xəbər verib dedi: bizə Əbu Müslim ibn Şəhdəl xəbər verib dedi: bizə Əbül-Abbas Əhməd ibn Muhəmməd ibn Səid xəbər verib dedi: bizə Muhəmməd ibn Müfəzzəl ibn İbrahim əl-Əşəri nəql edib dedi: bizə Rəca ibn Abdullah nəql edib dedi: bizə Muhəmməd ibn Kəsir Fitrdən və İbnul-Caruddan, onlar da Əbut-Tüfeyldən nəql edib dedi:

---

[649] “Usdul-ğabə”: 5/6.
[650] “Usdul-ğabə”: 3/92.
[651] “Təhzibül-kəmal”: 33/283.

“Biz Əlinin yanında idik. Əli camaatı Allaha and verdi ki, hər kim Qədir-Xum günündə iştirak edibsə, ayağa qalxsın. Aralarında Əbu Qudamə əl-Ənsarinin də olduğu on yeddi nəfər şəxs ayağa qalxıb dedilər: “Şəhadət veririk ki, biz Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birlikdə vida həccindən qayıdırdıq. Zöhr vaxtı olunca Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) bir neçə ağacın əlavə qol budaqlarının kəsilməsini əmr etdi, (bunu etdikdən sonra) həmin ağacların üzərinə bir parça atdılar. Sonra cəmiyyət namazı üçün çağırış edildi. Biz qalxıb namaz qıldıq. Namazdan sonra Peyğəmbər qalxıb Allaha həmd-səna etdi və dedi: “Ey camaat! Bilirsinizmi ki, Allah mənim mövlamdır, mən hər bir möminin mövlasıyam və mən sizə sizin özünüzdən övlayam?” Peyğəmbər bunu bir neçə dəfə təkrar etdi. Biz dedik: “Bəli, (bilirik)”. Bu zaman o sənin əlini tutmuş vəziyyətdə dedi: “Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”. O bunu üç dəfə dedi”.”[652]

### İyirmi beşinci səhabə: Abdullah ibn Məsud

Onun hədisini İbn əl-Məğazili “Mənaqibul-imam Əli” kitabında nəql etmişdir:

Bizə Əbu Talib Muhəmməd ibn Əhməd ibn Osman xəbər verib dedi: bizə Əbül-Hüseyn Muhəmməd ibn Müzəffər ibn Musa ibn İsa əl-Hafiz nəql edib dedi: bizə Muhəmməd ibn Əli ibn İsmayıl nəql edib dedi: bizə Muhəmməd ibn Nəhar ibn Əmmar nəql edib dedi: bizə Əbu Məsud Əhməd ibn Furat nəql edib dedi: bizə Yəyha əl-Himmani nəql edib dedi: bizə Əbu Muhəmməd ibn Qeys ibn Rəbi Əməşdən, o, İbrahimdən, o, Əlqəmədən, o da Abdullah ibn Məsuddan nəql edib dedi:

“Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”.”[653]

### İyirmi altıncı səhabə: Səmurə ibn Cündəb

Onun hədisini hafiz İbn Əsakir “Tarixu-Diməşq” kitabında nəql etmişdir:

Bizə Əbül-Qasim əl-Vasiti xəbər verib dedi: bizə Əbu Bəkr əl-Xətib xəbər verib dedi: bizə Əbu Abdullah Hüseyn ibn Muhəmməd ibn Osman əl-Nəsibi xəbər verib dedi: bizə qazı Hüseyn ibn Harun əd-Dabbi xəbər verib dedi: bizə Əbül-Abbas Əhməd ibn Muhəmməd ibn Səid xəbər verib dedi: mənə Həsən ibn Əli əl-Əşəri əl-Lului (اللؤلؤي) nəql edib dedi: mənə Əbul-Müsənna Ğiyas ibn Kəlub öz kitabından nəql edib dedi: bizə Mütərrif ibn Səmurə ibn Cündəb öz atasından nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xum günündə buyurdu: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.”[654]

---

652 “Usdul-ğabə”: 5/275-276.
653 “Mənaqibul-imam Əli ibn Əbi Talib”: səh.23.
654 “Tarixu-Diməşq”: 42/230.

## İyirmi yeddinci səhabə: Ənəs ibn Malik

Onun hədisini İbn Əsakir "Tarixu-Diməşq" kitabında nəql etmişdir:

Bizə Əbun-Nəcm Bədr ibn Abdullah əş-Şihi ət-Tacir nəql edib dedi: bizə Əbu Bəkr əl-Xətib nəql edib dedi: bizə Əbul-Fəth Muhəmməd ibn Hüseyn əl-Əttar xəbər verib dedi: bizə Muhəmməd ibn Əhməd ibn Əbdür-Rəhman əl-Mudil İsfahanda xəbər verib dedi: bizə Muhəmməd ibn Ömər ət-Təmimi əl-Hafiz xəbər verib dedi: bizə Həfs ibn Übeydullah ibn Ömər Süfyan əs-Səvridən, o, Əli ibn Zeyddən, o da Ənəsdən nəql edib dedi:

"Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitdim: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol"."[655]

Bu hədisi Xətib əl-Bağdadi də "Tarixu-Bağdad" kitabında[656] nəql etmişdir.

Həmçinin, aşağıdakı səhabələr Qədir-Xum hədisini nəql etmişlər:

**28-Əbdür-Rəhman ibn Əbdür-Rəbb əl-Ənsari.**
**29-Əbu Əmrə ibn Əmr ibn Mihsən.**
**30-Əbu Zeynəb.**
**31-Səhl ibn Hüneyf.**
**32-Xüzeymə ibn Sabit.**
**33-Abdullah ibn Sabit əl-Ənsari.**
**34-Übeyd ibn Azib əl-Ənsari.**
**35-Numan ibn Əclan əl-Ənsari.**
**36-Sabit ibn Vədiə əl-Ənsari.**
**37-Əbu Fuzalə əl-Ənsari.**

İbn əl-Əsir hafiz İbn Üqdə yolu ilə Əsbəğ ibn Nübatədən belə nəql etmişdir ki, bu şəxslər Rəhbə günündə Qədir-Xum hədisinə şahidlik edən şəxslərdən olmuşlar:

Bizə Əbu Musa xəbər verib dedi: bizə Seyyid Əbu Muhəmməd Həmzə ibn Abbas nəql edib dedi: bizə Əhməd ibn Fəzl əl-Misri nəql edib dedi: bizə Əbdür-Rəhman ibn Muhəmməd əl-Mədəni nəql edib dedi: bizə Əhməd ibn Muhəmməd ibn Səid nəql edib dedi: bizə Muhəmməd ibn İsmayıl ibn İshaq ər-Raşidi nəql edib dedi: bizə Muhəmməd ibn Xələf ən-Nəmiri nəql edib dedi: bizə Əli ibn Həsən əl-Əbdi Əsbəğ ibn Nübatədən nəql edib dedi:

"Əli Rəhbədə camaata and verdi ki, kim Qədir-Xum günündə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) dediklərini eşibsə, ayağa qalxsın; Peyğəmbərin dediklərini eşitməyən qalxmasın. Bu zaman aralarında Əbu Əyyub əl-Ənsarinin, Əbu Əmrə ibn Əmr ibn Mihsənin, Əbu Zeynəbin, Səhl ibn Hüneyfin, Xüzeymə ibn Sabitin, Abdullah ibn Sabit əl-Ənsarinin, Həbəşi ibn Cünadə əs-Səlulinin, Übeyd ibn Azib əl-Ənsarinin, Numan ibn Əclan əl-Ənsarinin, Sabit ibn Vədiə əl-Ənsarinin, Əbu Füzalə əl-Ənsarinin və Əbdür-Rəhman ibn Əbdür-Rəbb əl-Ənsarinin olduğu on neçə nəfər şəxs ayağa qalxıb dedilər: "Şəhadət veririk ki, Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitmişik:

---

655 "Tarixu-Diməşq": 42/235.
656 "Tarixu-Bağdad": 7/377.

Allah (əzzə və cəll) mənim vəlimdir, mən də möminlərin vəlisiyəm. Agah olun, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol. Onu sevəni sev, ona nifrət bəsləyənə nifrət bəslə, ona yardım edənə yardım et.” Bunu Əbu Musa da nəql etmişdir.[657]

Həmçinin, aşağıdakı səhabələr bu hədisi nəql etmişlər:

**38-Səhl ibn Səd.**

**39-Ədiy ibn Hatim.**

**40-Üqbə ibn Amir.**

**41-Əbu Şüreyh əl-Xuzai.**

**42-Əbul-Heysəm ibn Teyyihan.**

**43-Əbu Leyla.**

Hafiz əs-Səxavi əş-Şafei özünün “İsticlabu-irtiqail-ğurəf” kitabında deyir:

“Xüzeymənin hədisinə gəlincə, onu İbn Üqdə İbn Kəsirdən, o Fitr və Əbul-Caruddan, onlar da Əbut-Tufeyldən belə nəql etmişlər:

“Əli ayağa qalxıb Allaha həmd-səna etdi, sonra dedi: “Sizi Allaha and verirəm, kim Qədir-Xum günündə iştirak edibsə, ayağa qalxsın. “Mənə xəbər veriblər”, “mənə xəbər çatıb”, - deyən heç bir kəs ayağa qalxmasın. Yalnız öz qulaqları ilə eşidən və qəlbi ilə duyan kəslər ayağa qalxsın. Bu zaman içlərində Xüzeymə ibn Sabitin, Səhl ibn Sədin, Ədiy ibn Hatimin, Üqbə ibn Amirin, Əbu Əyyub əl-Ənsarinin, Əbu Səid əl-Xudrinin, Əbu Şüreyh əl-Xuzainin, Əbu Qudamə əl-Ənsarinin, Əbu Leylanın, Əbul-Heysəm ibn Teyyihanın və Qüreyşdən olan bir neçə şəxsin olduğu on yeddi nəfər şəxs ayağa qalxdı. Əli onlara dedi: “Eşitdiklərinizi deyin”.

Onlar dedilər: “Biz şəhadət veririk ki, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birgə vida həccindən qayıdırdıq. Zöhr vaxtı olunca Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) (çadırından) çıxıb (oralıqda olan) bir neçə ağacın altına su səpilməsini əmr etdi. Ardınca həmin ağacların üzərinə bir parça saldılar. Sonra namaza səslədilər. Bizlər (çadırlarımızdan) çıxıb namaz qıldıq. Sonra Peyğəmbər qalxıb Allaha həmd-səna edib dedi: “Ey camaat, (mənim barəmdə) nə deyirsiniz?” Dedilər: “Sən təbliğ edib çatdırdın”. Peyğəmbər üç dəfə buyurdu: “İlahi, şahid ol”. Sonra dedi: “Mənim çağırılmağıma və çağırışa cavab verməyimə az qalır. Mən də, sizlər də məsulsunuz”. Sonra dedi: “Bilin, sizin qanlarınız və mallarınız bu gününüz və bu ayınız kimi haramdır (toxunulmazdır). Sizə qadınları tapşırıram, sizə qonşuları tapşırıram, sizə kölələrinizi tapşırıram, sizə ədalətli olmağı və yaxşılıq etməyi tapşırıram”. Sonra dedi: “Ey camaat, mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: Allahın kitabı və itrətim – Əhli-Beytim. Onlar hovuz kənarında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar. Bunu mənə hər şeydən incəliyinə qədər xəbərdar olan Allah xəbər vermişdir.” Sonra dedi: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”. Əli dedi: “Doğru dediniz, mən də buna şəhadət verirəm”.”[658]

Bu hədisi həmçinin, aşağıdakılar nəql etmişlər:

**44-Həbib ibn Bədil ibn Vərqa.**

---

[657] “Usdul-ğabə”: 3/307.

[658] “İsticlabu-irtiqail-ğurəf bi-hubbi-əqribair-Rəsul və zəviş-şərəf”: səh.100-101.

**45-Qeys ibn Sabit ibn Şəmmas.**

**46-Haşim ibn Ütbə.**

İbn əl-Əsir “Usdul-ğabə” kitabında demişdir:

“Həbib ibn Bədil ibn Vərqa. Əbül-Abbas ibn Üqdə və başqaları onu səhabələrin cərgəsində qeyd etmişlər. Onun hədisini Zərr ibn Hubeyş nəql etmişdir:

Əli qəsrdən çıxdı. Bu zaman bir dəstə qılınclarına sarılmış atlı onu qarşılayıb dedilər: “Salam olsun sənə, ey möminlərin əmiri, salam olsun sənə, ey bizim mövlamız! Allahın rəhməti və bərəkəti üzərinə olsun!” Əli dedi: “Burada Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrindən kim var?” Bu zaman içlərində Qeys ibn Sabit ibn Şəmmasın, Haşim ibn Ütbənin və Həbib ibn Bədil ibn Vərqanın da olduğu on iki nəfər şəxs ayağa qalxıb şəhadət verdilər ki, Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğunu eşidiblər: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”. Bu hədisi Əbu Musa nəql etmişdir”.[659]

### Qırx yeddinci səhabə: Ümmü Sələmə

Onun hədisini Şeyx Süleyman əl-Qunduzi əl-Hənəfi “Yənabiul-məvəddə” kitabında İbn Üqdədən nəqlən qeyd etmişdir:

İbn Üqdə Əmr ibn Səid ibn Əmr ibn Cudə (جعدة) ibn Hübeyrədən, o, atasından, o, babasından, o da Ümmü-Sələmədən belə nəql etmişdir:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xumda Əlinin əlini tutub qaldırdı – o qədər qaldırdı ki, qolunun altının ağlığı göründü – və buyurdu: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”.”[660]

### Qırx səkkizinci səhabə: Zeyd ibn Ərqəmin həyat yoldaşı

Onun hədisini İbn əl-Məğazili əş-Şafei “Mənaqibul-imam Əli” kitabında nəql etmişdir:

Bizə Əbu Yəla Əli ibn Übeydullah ibn əl-Əllaf əl-Bəzzar nəql edib dedi: bizə Əbdüs-Səlam ibn Əbdül-Məlik ibn Həbib əl-Bəzzar xəbər verib dedi: bizə Abdullah ibn Muhəmməd ibn Osman xəbər verib dedi: bizə Muhəmməd ibn Bəkr ibn Əbdür-Rəzzaq nəql edib dedi: bizə Əbu Hatim Müğeyrə ibn Muhəmməd əl-Məhləbi nəql edib dedi: bizə Müslim ibn İbrahim nəql edib dedi: bizə Nuh ibn Qeys əl-Həddani nəql edib dedi: bizə Vəlid ibn Saleh Zeyd ibn Ərqəmin xanımından nəql edib dedi:

“Allahın Peyğəmbəri vida həccini yerinə yetirdikdən sonra Məkkədən qayıtdı. Məkkə ilə Mədinə arasındakı Cuhfə çölünə çatdıqda dayandı. Oralıqda olan bir neçə iri ağacın altının tikanlardan təmizlənməsini əmr etdi. Sonra cəmiyyət namazı üçün çağırış etdi. Biz çox isti bir gündə (çadırlarımızdan) çıxıb Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) yanına getdik. Hava o qədər isti idi ki, bizim bəzilərimiz əbasını başına atır, bəziləri isə ayaqlarının üstünə salırdı. Nəhayət gəlib

---

[659] “Usdul-ğabə fi mərifətis-səhabə”: 1/368.

[660] “Yənabiul-məvəddə”: 1/123, hədis: 55.

Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) yanına çatdıq. Peyğəmbər bizə zöhr namazını qıldırdı. Sonra bizə tərəf dönüb dedi:

"Həmd Allaha məxsusdur. Biz Ona həmd edir, Ondan yardım istəyir, Ona iman gətirir, Ona təvəkkül edir və nəfslərimizin şərrindən və pis əməllərimizdən Ona pənah aparırıq. Onun azdırdığını heç kəs hidayət edə bilməz, onun hidayət etdiyini heç kəs azdıra bilməz. Mən şəhadət verirəm ki, Allahdan başqa ilah yoxdur və Muhəmməd onun qulu və elçisidir.

Ey camaat! Hər bir peyğəmbər özündən əvvəlki peyğəmbərin ömrünün yarısı qədər yaşamışdır. İsa ibn Məryəm öz tayfası arasında qırx il qaldı, mən də artıq iyirmi ilə çatmışam. Bilin və agah olun! Mənim sizdən ayrılmağıma az qalır. Mən məsulam; elə isə (deyin görüm Rəbbimin tapşırıqlarını) sizə çatdırdımmı? Nə deyirsiniz?".

Bu zaman camaat arasından bir dəstə şəxs ayağa qalxıb dedilər: "Biz şəhadət veririk ki, sən Allahın qulu və elçisisən. Sən Onun tapşırıqlarını çatdırdın, Onun yolunda cihad etdin. Sənə ölüm gəlincəyədək Onun əmrinə tabe olub Ona ibadət etdin. Allah biz sarıda sənə bir peyğəmbərə öz ümməti sarıdan verdiyi mükafatların ən yaxşısını versin."

Peyğəmbər buyurdu: "Siz şəhadət verirsiniz ki, Allahdan başqa ilah yoxdur, Onun heç bir şəriki yoxdur, Muhəmməd onun qulu və elçisidir, Cənnət və Cəhənnəm haqqdır? Və Quranın hamısına inanırsınız?" Dedilər: "Bəli". Peyğəmbər buyurdu: "Mən də şəhadət verirəm ki, mən sizi təsdiq etdim, siz də məni təsdiq etdiniz. Bilin və agah olun! Mən (hovuz başına) sizdən tez çatacağam, siz isə mənim ardımca gələcəksiniz. Sizin hovuz başında mənə çatmağınıza və mənim sizdən iki ağır əmanətim barədə; məndən sonra onlarla necə davrandığınız barədə soruşmağıma az qalır." Bu zaman biz "iki ağır əmanət" dedikdə nəyi nəzərdə tutduğunu anlamadıq. Mühacirlərdən bir nəfər ayağa qalxıb dedi: "Atam-anam sənə qurban olsun, ey Allahın Rəsulu, iki ağır əmanət nədir?"

Peyğəmbər buyurdu: "Onlardan daha böyüyü Allah-taalanın kitabıdır. O, bir ucu Allahın, bir ucu da sizin əlinizdə olan bir ipdir. Ondan yapışın və azmayın. Daha kiçik olan isə mənim itrətim – mənim qibləmə yönələn və mənim dəvətimə cavab verən şəxslərdir. Onları öldürməyin, onlara zülm etməyin, onlar barədə nöqsana yol verməyin. Mən hər şeydən incəliyinə qədər xəbərdar olan Allahdan istədim ki, onlara yardım edənə yardım etsin, onları köməksiz qoyanı köməksiz qoysun, onlara dost olana dost olsun, onlara düşmən olana düşmən olsun, Allah da bu istəyimi qəbul etdi.

Bilin və agah olun! Sizdən əvvəlki ümmətlər məhz öz nəfsi istəklərinə uyduqlarına, peyğəmbərlərinin əmrlərinə qarşı çıxdıqlarına və ədaləti bərpa edən şəxsləri öldürdüklərinə görə həlak oldular." Sonra Əli ibn Əbu Talibin əlini tutub qaldırdı və belə dedi: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. Mən kimin vəlisiyəmsə, bu da onun vəlisidir. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol." Peyğəmbər bunu üç dəfə dedi".[661]

---

[661] "Mənaqibul-imam Əli": səh.16.

## Qırx doqquzuncu səhabə: Siddiqətul-kübra, Fatimətuz-Zəhra (əleyhəssəlam)

Aşağıdakı şəxslər Qədir-Xum hədisini o xanımdan nəql etmişlər:

**1-İmam Hüseyn ibn Əli (əleyhiməssəlam):**

Onun hədisini İbn Əsakir "Tarixu-Diməşq" kitabında nəql etmişdir:

Bizə Əbül-Qasim Zahir ibn Tahir xəbər verib dedi: bizə Əbu Səid əl-Cənzuri xəbər verib dedi: bizə Seyyid Əbül-Həsən Muhəmməd ibn Əli ibn Hüseyn xəbər verib dedi: bizə Muhəmməd ibn Abdullah ibn Ömər əl-Muqri əl-Hafiz xəbər verib dedi: bizə Həsən ibn Abdullah ibn Abbas ət-Təmimi xəbər verib dedi: bizə mənə atam nəql edib dedi: mənə Əli ibn Musa ər-Rza atasından, o, babası Cəfərdən, o, atasından, o, babası Əli ibn Hüseyn ibn Əlidən, o, atasından, o da anası Fatimədən nəql edib dedi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əli üçün belə dedi: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"."[662]

**2-Ümmü-Külsum binti Əli:**

Onun hədisini İbn əl-Cəzəri "Əsnal-mətalib fi mənaqibi-Əliyyibni-Əbi Talib (əleyhissəlam)" kitabında nəql etmişdir:

"Bu hədisin nəql olunduğu təriqlər içərisində ən maraqlısı və ən qəribəsi hafizlərin sonuncusu, şeyximiz Əbu Bəkr Muhəmməd ibn Abdullah ibn əl-Muhibb əl-Məqdisinin şifahi şəkildə bizə nəql etdiyi bu təriqdir: (əl-Məqdisi deyir: ) bizə şeyxə Ümmü-Muhəmməd Zeynəb binti Əhməd ibn Əbdür-Rəhim əl-Məqdisiyyə Əbul-Müzəffər Muhəmməd ibn Fityan ibn əl-Museynidən nəql edib dedi: bizə Əbu Musa Muhəmməd ibn Əbu Bərk əl-Hafiz xəbər verib dedi: bizə atamın bibisi oğlu qazı Əbül-Qasim Əbdül-Vahid ibn Muhəmməd ibn Əbdül-Vahid əl-Mədəni xəbər verib dedi: bizə Zəfər ibn Dai əl-Ələvi Əstərabadda xəbər verib dedi: bizə atam və Əbu Əhməd Mutərrif əl-Mətrəfi xəbər verib dedilər: bizə Əbu Səid əl-İdrisi "Tarixu-Əstərabad" kitabından xəbər verib dedi: mənə Harun ər-Rəşidin övladlarından olan Muhəmməd ibn Muhəmməd ibn Həsən Əbül-Abbas ər-Rəşidi Səmərqənddə nəql edib dedi: bizə Əbül-Həsən Muhəmməd ibn Cəfər əl-Həlvani nəql edib dedi: bizə Əli ibn Muhəmməd ibn Cəfər əl-Əhvazi mövlar-Rəşid nəql edib dedi: bizə Fatimə binti Əli ibn Musa ər-Rza nəql edib dedi: mənə Musa ibn Cəfərin qızları Fatimə, Ümmü-Külsüm və Zeynəb nəql edib dedilər: bizə Fatimə binti Cəfər ibn Muhəmməd əs-Sadiq nəql edib dedi: mənə Fatimə binti Muhəmməd ibn Əli nəql edib dedi: mənə Fatimə binti Əli ibn Hüseyn nəql edib dedi: mənə Hüseyn ibn Əlinin qızları Fatimə və Səkinə Ümmü-Külsüm binti Fatimə binti Rəsulullahdan (sallallahu əleyhi [və alihi] və səlləm), o da Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) qızı Fatimətüz-Zəhradan nəql edib dedi:

"Məgər Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xum günündə dediyi: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözünü, həmçinin: "Sənin mənə olan nisbətin, Harunun Musaya olan nisbəti kimidir" sözünü unutmusunuz?".

---

[662] "Tarixu-Diməşq": 42/187.

İbn əl-Cəzəri deyir:

"Böyük hafiz Əbu Musa əl-Mədəni də bu hədisi özünün "əl-Musəlsəl bil-əsma" kitabında nəql etmiş və demişdir: "Bu hədis müsəlsəldir[663]. Belə ki, sənəddəki Fatimələrin hər biri öz bibisindən nəql edir. Bu hədisi bir qardaşın beş qızının nəql edir, hər birisi də öz bibisindən nəql edirlər"."[664]

### Əllinci səhabə: Əmirəlmöminin Əli ibn Əbu Talib (əleyhissəlam)

O həzrətin (əleyhissəlam) Rəhbə günündə və ya başqa bir gündə camaata and verməsi hadisəsinə işarət etmədən Qədir-Xum hədisini o həzrətdən nəql edən şəxslər aşağıdakılardır:

**1-İmam Hüseyn (əleyhissəlam):**

Onun hədisini hafiz Əhməd ibn Muhəmməd ibn Əli ibn Əhməd əl-Asimi "Zeynul-fəta" kitabında nəql etmişdir:

Bizə Muhəmməd ibn Əbu Zəkəriyya nəql edib dedi: bizə Əbül-Həsən Muhəmməd ibn Əli ibn Hüseyn ibn Həsən ibn Qasim ibn Muhəmməd ibn Qasim ibn Həsən ibn Zeyd ibn Həsən ibn Əli ibn Əbu Talib əl-Həmədani əl-Vəsi – o, 384-cü ildə Buxaradan bizim yanımıza gəlmişdi – nəql edib dedi: bizə Əhməd ibn Əli ibn Məhdi ər-Rəmli Rəmlədə nəql edib dedi: mənə atam nəql edib dedi: bizə Əli ibn Musa ər-Rza nəql edib dedi: bizə atam öz atası Cəfər ibn Muhəmməd əs-Sadiqdən nəql edib dedi: mənə atam öz atası Əli ibn Hüseyndən, o, atasından, o da öz atası Əli ibn Əbu Talibdən nəql edib dedi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona yardım edənə yardım et, onuköməksiz qoyanı köməksiz qoy."[665]

Bu hədisi İbn əl-Məğazili əş-Şafei də "Mənaqibul-imam Əli" kitabında nəql etmişdir.[666]

**2-Əbut-Tufeyl Amir ibn Vasilə:**

Onun hədisini İbn Əbu Asim "əs-Sünnə" kitabında nəql etmişdir:

Bizə Əbu Məsud ər-Razi nəql edib dedi: bizə Əbdür-Rəhman ibn Musəb nəql edib dedi: bizə Fitr Əbut-Tüfeyldən, o da Əlidən nəql edib dedi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: "Məgər mən möminlərə onların özlərindən övla deyiləmmi?" Dedilər: "Bəli, üstünsən". Dedi:

---

[663] "Müsəlsəl hədis": sənədindəki ravilərin hər hansısa bir cəhətdən oxşar olduğu hədisdir. Müsəlsəl hədisin çoxlu növləri var. Bunlardan biri ravilərin ad baxımından oxşar olmasıdır (məsələn, nəql edənlərin hamısının adı Muhəmməd olur). Digəri ravilərin xüsusiyyət baxımından oxşar olmasıdır (məsələn, nəql edənlərin hamısı fəqih və ya hafiz olur). Daha ətraflı məlumat üçün müraciət et: "Mucəmul-mustalahatil-hədisiyyə": səh.720.

[664]

[665] "Zeynul-fəta": 2/261, hədis: 471.

[666] "Mənaqibul-imam Əli": səh.21.

“Elə isə mən kimin vəlisiyəmsə (kimə onun özündən övladırsa), bu da onun vəlisidir (ona onun özündən övladır)”.”[667]

Bu hədisi İbn Əsakir də “Tarixu-Diməşq” kitabında nəql etmişdir[668].

**2-Ömər ibn Əli:**

Onun hədisini İbn Əbu Asim “əs-Sünnə” kitabında nəql etmişdir:

Bizə Süleyman ibn Übeydullah əl-Ğəylani nəql edib dedi: bizə Əbu Amir nəql edib dedi: bizə Kəsir ibn Zeyd Muhəmməd ibn Ömər ibn Əlidən, o, atasından, o da Əlidən nəql edib dedi ki:

“Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xumda ağac altında Əlinin əlini tutub buyurdu: “Məgər Allahın sizin Rəbbiniz olduğuna şəhadət vermirsiniz?” Dedilər: “Veririk”. Dedi: “Məgər Allahın və Rəsulunun sizə sizin özünüzdən övla olduğuna şəhadət vermirsiniz?” Dedilər: “Veririk”. Dedi: “Allahın və Onun Rəsulunun sizin mövlanız olduğuna şəhadət verirsiniz?” Dedilər: “Bəli, veririk”. Bu zaman dedi: “Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), bu da onun mövlasıdır (ona onun özündən övladır).”[669]

Bu hədisi İbn Əsakir “Tarixu-Diməşq” kitabında [670] , Dulabi də “əz-Zürriyyətüt-tahirə” kitabında[671] nəql etmişdir.

**4-Əbu Məryəm:**

Onun hədisini Abdullah ibn Əhməd nəql etmişdir. Onun atasının “Müsnəd” kitabında belə gəlmişdir:

Mənə Həccac ibn Şair nəql edib dedi: bizə Şəbabə nəql edib dedi: bizə Nueym ibn Həkim nəql edib dedi: bizə Əbu Məryəm və Əli ilə oturub-duran bir şəxs Əlidən nəql edib dedilər:

“Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xum günündə buyurdu: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”.

Camaat bu cümlədən sonra “ona dost olana dost ol, ona düşmən olana düşmən ol” cümləsini artırıb[672]”.[673]

**5-Zeyd ibn Yusey:**

Onun hədisini İbn Əbu Asim nəql etmişdir:

Bizə Əbu Məsud nəql edib dedi: bizə Übeydullah ibn Musa Fitr ibn Xəlifədən, o, Əbu İshaqdan, o, Zeyd ibn Yuseydən, o, Əlidən, o da Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) nəql edib dedi:

---

[667] “əs-Sünnə”: səh.592, hədis: 1367.
[668] “Tarixu-Diməşq”: 42/213.
[669] “əs-Sünnə”: səh.591, hədis: 1361.
[670] “Tarixu-Diməşq”:
[671] “əz-Zürriyyətüt-tahirə”: səh.121.
[672] Bu cümləni deyən şəxsin kim olduğunu; Abdullah ibn Əhmədmi, yoxsa ravilərdən birimi olduğunu bilmirəm. Bu əlavə Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) səhih şəkildə nəql olunmuş və sübuta yetmişdir. Bu əlavə səhih, hətta mütəvatir sənədlərlə nəql olunmuşdur, necə ki, bunu buraya qədər qeyd etdiyimiz və daha sonra qeyd edəcəyimiz sənədlərdən görmək olar. Hal-hazırda qeyd etdiyimiz sənəd isə zəifdir. Biz onu məhz “şahid” olaraq qeyd etdik. “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır” cümləsi səhih sənədlərlə gəldikdən sonra bu hədisin şahid olaraq qeyd olunmasında heç bir problem yoxdur.
[673] “Müsnədü-Əhməd”: 1/152, hədis: 1310.

“Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”.[674]

۞ ۞ ۞

## İmam Əlinin (əleyhissəlam) səhabələri Qədir-Xum hədisinə şahidlik etməyə çağırması hadisəsi

### Bu hadisəni nəql edən ravilər

İmam Əmirəlmöminin Əli ibn Əbu Talibin (əleyhissəlam) Rəhbə günündə səhabələri Qədir-Xum hədisinə şahidlik etməyə çağırması hadisəsini nəql edən ravilərə gəlincə, bu hadisəni bir çox ravilər nəql etmişlər. Biz onlardan on dördünü burada qeyd edirik:

**1-Zazan ibn Ömər:**

Onun hədisini Əhməd ibn Hənbəl “Fadaiulus-səhabə” kitabında nəql etmişdir:

Bizə Abdullah nəql edib dedi: mənə atam nəql edib dedi: bizə İbn Nüməyr nəql edib dedi: bizə Əbdül-Məlik Əbu Əbdür-Rəhman əl-Kindidən, o da Zazan ibn Ömərdən nəql edib dedi:

“Əlinin Rəhbədə camaata səslənib “kim Peyğəmbərin “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”, - sözünə şahidlik edər?”, - dediyini eşitdim”.[675]

Bu hədisi Əhməd “Müsnəd” kitabında[676], İbn Əbu Asim “əs-Sünnə” kitabında[677], İbn əl-Cəvzi də “Səfvətus-səvfə” kitabında[678] nəql etmişdir.

**2-Səid ibn Vəhb:**

Onun hədisini Nəsai “əs-Sünənül-kübra” kitabında nəql etmişdir:

Bizə Hüseyn ibn Həris nəql edib dedi: bizə Fəzl ibn Musa Əməşdən, o, Əbu İshaqdan, o da Səid ibn Vəhbdən nəql edib dedi:

“Əli Rəhbədə belə dedi: “Sizi and verirəm Allaha, kim Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) “Allah mənim vəlimdir, mən də möminlərin

---

[674] “əs-Sünnə”: səh.592, hədis: 1370.
[675] “Fadailus-səhabə”: 2/585, hədis: 991.
[676] “Müsnədü-Əhməd”: 1/84, hədis: 641.
[677] “əs-Sünnə”: səh.593, hədis: 1372.
[678] “Səfvətus-səfvə”: 1/313.

vəlisiyəm, mən kimin vəlisiyəmsə, bu da onun vəlisidir. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona yardım edənə yardım et”, - dediyini eşidib?”.”

Səid deyir: “Mənim yanımdan altı nəfər ayağa qalxdı.”

Zeyd ibn Yusey isə deyir: “Mənim yanımda da altı nəfər ayağa qalxdı”.

Əmr Zu-mur isə deyir: “...Onu sevəni sev, ona nifrət edənə nifrət et”. Sonra hədisin ardını qeyd edir. Bu hədisi İsrail Əbu İshaqdan, o da Əmr Zu-murdan nəql etmişdir”.[679]

Nəsai bu hədisi “Xəsaisul-imam Əli” kitabında nəql etmişdir[680].

Əhmədin “Müsnəd” kitabında nəql etdiyi başqa bir hədisdə deyilir:

Bizə Muhəmməd ibn Cəfər nəql edib dedi: bizə Şubə Əbu İshaqdan nəql edib dedi: Səid ibn Vəhbin belə dediyini eşitdim:

“Əli camaata and verdi. Bu vaxt Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) əshabından olan beş, ya altı nəfər şəxs ayağa qalxıb Peyğəmbərin “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”, - deyə buyurduğuna şahidlik etdilər”[681].

Bu hədisi Heysəmi “Məcməuz-zəvaid” kitabında “Müsnədü-Əhməd”dən nəqlən qeyd etmiş, ardınca, “bunu Əhməd nəql etmişdir, raviləri “səhih”in raviləridir”, - demişdir[682].

Səid ibn Vəhbin bu hadisəni nəql etməsini Əhməd ibn Hənbəlin oğlu Abdullah ibn Əhməd də atasının “Müsnəd” kitabına yazdığı əlavələrdə qeyd etmişdir.[683] Həmçinin, Asimi “Zeynul-fəta” kitabında[684], İbn əl-Əsir “Usdul-ğabə” kitabında[685], İbn Əbu Şeybə “Müsənnəf” kitabında[686], Mizzi “Təhzibül-kəmal” kitabında[687], Əhməd ibn Hənbəl “Fadailus-səhabə” kitabında[688], Təbərani “əl-Mücəmül-kəbir” kitabında[689], Ziya əl-Məqdisi “əl-Əhadisul-muxtarə” kitabında[690], Bəzzar da “Müsnəd” kitabında[691] nəql etmişdir.

### 3-Zeyd ibn Yusey:

Onun hədisini Bəzzar “Müsnəd” kitabında nəql etmişdir:

---

679 “əs-Sünənül-kübra”: 5/136, hədis: 8483, həmin mənbə: 5/131, hədis: 7471, 7472.

680 “Xəsaisul-imam Əli”: səh.96.

681 “Müsnədü-Əhməd”: 5/366, hədis: 23156. Şeyx Şüeyb əl-Arnaut deyir: “**İsnadı səhihdir**”. Şeyx Həmzə Əhməd əz-Zeyn deyir: “**İsnadı səhihdir**”. (Bax: “Müsnədü-Əhməd”: 16/525, hədis: 23001. “Darul-hədis” çapı. Qahirə).

682 “Məcməuz-zəvaid”: 9/104.

683 “Müsnədü-Əhməd”: 2/18, hədis: 950. “Darul-hədis” çapı. Qahirə. Kitabın mühəqqiqi Şeyx Muhəmməd Əhməd Şakir demişdir: “**İsnadı səhihdir**”.

684 “Zeynul-fəta”: 1/12.

685 “Usdul-ğabə fi mərifətis-səhabə”: 3/321, Əbdür-Rəhman ibn Müdlicin tərcümeyi-halı.

686 “Müsənnəf”: 6/368, hədis: 32091.

687 “Təhzibül-kəmal”: 11/99.

688 “Fadailus-səhabə”: 2/598, hədis: 1021.

689 “əl-Mucəmul-kəbir”: 5/191, hədis: 5058.

690 “əl-Əhadisul-muxtarə”: 2/105, hədis: 479. Kitabın mühəqqiqi Şeyx Əbdül-Məlik ibn Abdullah ibn Duheyş demişdir: “**İsnadı səhihdir**”. Həmçinin, hədis: 480, həmçinin, 2/106, hədis: 481, kitabın mühəqqiqi bu hədislər barəsində “**isnadı səhihdir**”, - demişdir.

691 “Müsnədül-Bəzzar”: 3/35, hədis: 786.

Bizə Yusif ibn Musa nəql edib dedi: bizə Übeydullah ibn Musa Fitr Xəlifədən, o, Əbu İshaqdan, o da Əmr Zi-murrdan, Səid ibn Vəhbdən və Zeyd ibn Yuseydən nəql edib dedi ki, bu üç nəfər demişlər:

"Əlinin belə dediyini eşitdik: "Sizi Allaha and verirəm, kim Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) dediyi sözü eşidibsə, ayağa qalxsın." Bu zaman on üç nəfər şəxs ayağa qalxıb şəhadət verdilər ki, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurub: "Məgər mən möminlərə onların özlərindən övla deyiləmmi?" Bu zaman camaat deyib ki: "Eləsən, ey Allahın Rəsulu". Bundan sonra Peyğəmbər Əlinin əlini tutaraq deyib: "Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən daha övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, onu sevəni sev, ona nifrət edənə nifrət et, ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy"."[692]

Zeyd ibn Yüseyin hədisini Abdullah ibn Əhməd ibn Hənbəl atasının "Müsnəd" kitabına etdiyi əlavələrdə[693], İbn Əbu Şeybə "Müsənnəf" kitabında[694], İbn Əbu Asim "əs-Sünnə" kitabında[695], Ziya əl-Məqdisi "əl-Əhadisul-muxtarə" kitabında[696], Nəsai "əs-Sünənül-kubra"[697] və "Xəsaisul-imam Əli" kitablarında[698], Mizzi də "Təhzibül-kəmal" kitabında[699] nəql etmişdir.

**4-Əbüt-Tüfeyl Amir ibn Vasilə:**

Onun hədisini İbn Hibban "Səhih" kitabında nəql etmişdir:

Bizə Abdullah ibn Muhəmməd əl-Əzdi xəbər verib dedi: bizə İshaq ibn İbrahim nəql edib dedi: bizə Əbu Nüeym və Yəhya ibn Adəm xəbər verib dedilər: bizə Fitr ibn Xəlifə Əbüt-Tüfeyldən nəql edib dedi:

"Əli dedi: "Allaha and verirəm, hər kəs Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) dediyi sözü eşidibsə, ayağa qalxsın." Bu zaman bir dəstə şəxs ayağa qalxıb şəhadət verdilər ki, Allah Rəsulunun belə buyurduğunu eşidiblər: "Məgər bilmirsiniz ki, mən möminlərə onların özlərindən övlayam?" Bu zaman camaat deyib: "Bilirik, ey Allahın Rəsulu." Bu zaman Peyğəmbər buyurub: "Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol".

(Əbüt-Tüfeyl deyir: ) Mən qəlbimdə bu barədə bir şey (inamsızlıq) olduğu halda oradan ayrıldım. (Yolda) Zeyd ibn Ərqəmlə qarşılaşdım. Hadisəni ona

---

692 "Müsnədül-Bəzzar": 3/34, hədis: 786. Heysəmi "Məcməüz-zəvaid" (9/105) kitabında demişdir: "**Bu hədisi Bəzzar nəql etmişdir. Raviləri "səhih"in raviləridir, təkcə Fitr ibn Xəlifədən başqa, o da siqədir.**"

693 "Müsnədü-Əhməd": 2/18, hədis: 950. "Darul-hədis" çapı. Qahirə. Kitabın mühəqqiqi Şeyx Muhəmməd Əhməd Şakir deyir: "**İsnadı səhihdir**".

694 "Müsənnəf": 7/499.

695 "əs-Sünnə": 2/607, hədis: 1374.

696 "əl-Əhadisul-muxtarə": 2/87, hədis: 464. Kitabın mühəqqiqi Əbdül-Məlik ibn Abdullah ibn Düheyş deyir: "**İsnadı həsəndir**". Yenə həmin kitab: 2/105, hədis: 480, mühəqqiq deyir: "**İsnadı həsəndir**".

697 "əs-Sünənül-kubra": 5/123, hədis: 8483.

698 "Xəsaisul-imam Əli": səh.96.

699 "Təhzibül-kəmal": 11/99.

danışdım. Zeyd dedi: "Biz Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Əli barəsində bu sözü dediyini eşitmişik"."[700]

Bu hədisi Əhməd ibn Hənbəl "Müsnəd"[701] və "Fadailus-səhabə"[702] kitablarında, Nəsai "əs-Sünənül-kübra"[703] və "Xəsaisul-imam Əli"[704] kitablarında, İbn Əsakir "Tarixu-mədinəti-Diməşq" kitabında[705], Ziya "əl-Əhadisul-muxtarə" kitabında[706], Heysəmi "Məvariduz-zəman" kitabında[707], Bəzzar "Müsnəd" kitabında[708], Təhavi də "Şərhu-muşkilil-asar" kitabında[709] nəql etmişdir.

**5-Əbdür-Rəhman ibn Əbu Leyla:**

Onun hədisini Abdullah ibn Əhməd atasının kitabına yazdığı əlavələrdə qeyd etmişdir:

Bizə Əhməd ibn Ömər əl-Vəkii nəql edib dedi: bizə Zeyd ibn Hübab nəql edib dedi: bizə Vəlid ibn Üqbə ibn Nizar əl-Ənəsi nəql edib dedi: mənə Səmmak ibn Übeyd ibn Vəlid əl-Əbsi nəql edib dedi:

"Əbdür-Rəhman ibn Əbu Leylanın yanına daxil oldum. O mənə Əlinin Rəhbədə belə dediyini nəql etdi: "Allaha and verirəm, hər kəs Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) dediyi sözü eşidib ona şahid olubsa, ayağa qalxsın. (Kimdənsə eşidən kəslər deyil) yalnız bu hadisəni öz gözü ilə görən şəxslər ayağa qalxsın." Bu zaman on iki nəfər şəxs ayağa qalxıb dedi: "Biz Allah Rəsulununun Əlinin əlindən tutaraq belə dediyini gördük və eşitdik: İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona yardım edənə yardım et, onu köməksiz qoyanı köməksiz qoy." Bu vaxt (hadisəyə şahid olan) üç nəfər ayağa qalxmadı. Əli onlara qarğış etdi və qarğışı onları tutdu".[710]

Abdullah ibn Əhməd bu hədisi başqa bir təriqlə də Əbdür-Rəhman ibn Əbu Leyladan nəql etmişdir:

Mənə Übeydullah ibn Ömər əl-Qəvariri nəql edib dedi: bizə Yunis ibn Ərqəm nəql edib dedi: bizə Yəzid ibn Əbu Ziyad Əbdür-Rəhman ibn Əbu Leyladan nəql edib dedi:

"Əlinin Rəhbədə camaata and verib belə dediyini eşitdim: "Allaha and verirəm, hər kəs Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) "mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır", - dediyini eşidibsə, ayağa qalxıb şəhadət versin." Bu zaman Bədr əshabından olan on iki nəfər şəxs –

---

[700] "Səhihü-İbn Hibban": 14/375-376, hədis: 6931. Şeyx Şüeyb əl-Arnaut deyir: "**İsnadı həsəndir. Raviləri siqədirlər, Fitr ibn Xəlifədən başqa hamısı iki şeyxin raviləridir. Fitr isə səduqdur, Buxari ondan məqrun şəkildə bir hədis nəql etmişdir. "Sünən" sahibləri də ona etimad etmişlər**".

[701] "Müsnədü-Əhməd": 4/370, hədis: 19321. Şeyx Şüeyb əl-Arnaut deyir: "**İsnadı səhihdir, raviləri siqədirlər**". Şeyx Həmzə Əhməd əz-Zeyn deyir: "**İsnadı səhihdir**" ("Müsnədü-Əhməd": 14/336, hədis: 19198. "Darul-hədis". Qahirə. Hədisi Heysəmi də "Məcməüz-zəvaid" kitabında "Müsnədü-Əhməd"dən nəql etmiş, ardınca "**Bunu Əhməd nəql etmişdir. Raviləri "Səhih"in ravilərdir. Təkcə Fitr ibn Xəlifədən başqa. O da siqədir**", - demişdir.

[702] "Fadailus-səhabə": 2/682, hədis: 1167.

[703] "əs-Sünənül-kubra": 5/134, hədis: 8478.

[704] "Xəsaisul-imam Əli": səh.100.

[705] "Tarixu-Diməşq": 42/213.

[706] "əl-Əhadisul-muxtarə": 2/173-174, hədis: 553. Kitabın mühəqqiqi deyir: "**İsnadı həsəndir**".

[707] "Məvariduz-zəman": 1/544, hədis 2205.

[708] "Müsnədül-Bəzzar": 2/133, hədis: 492.

[709] "Tuhfətul-əxyar bi-tərtibi-şərhi-muşkilil-asar": 9/178, hədis: 6487.

[710] "Müsnədü-Əhməd": 1/192, hədis: 967.

sanki indi də onları görürəm – ayağa qalxıb dedilər: "Biz Allah Rəsulunun Qədir-Xum günündə belə dediyini eşitdik: "Məgər mən möminlərə onların özlərindən övla deyiləmmi və mənim xanımlarım onların anaları deyilmi?"." Dedik: "Elədir, ey Allahın Rəsulu". Buyurdu: "Elə isə mən kimin mövlasıyamsa, (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol"."[711]

Əbdür-Rəhmanın hədisini Əbu Yəla "Müsnəd" kitabında[712], Heysəmi Əbu Yəladan nəqlən "Məcməüz-zəvaid" kitabında (o, hədisi nəql etdikdən sonra "bunu Əbu Yəla nəql etmişdir, raviləri siqədir", - demişdir)[713], İbn Əsakir "Tarixu-Diməşq" kitabında[714], Xətib Bağdadi "Tarixu-Bağdad"[715] və "Tali-təlxisil-mütəşabih"[716] kitablarında, Cüveyni "Fəraidus-simteyn" kitabında[717], İbn əl-Əsir "Usdul-ğabə" kitabında[718], Ziya əl-Məqdisi də "əl-Əhadisul-muxtarə" kitabında[719] nəql etmişdir.

**6-Ümeyrə ibn Səd:**

Onun hədisini Nəsai "əs-Sünənül-kubra" kitabında nəql etmişdir:

Bizə Muhəmməd ibn Yəhya ibn Abdullah ən-Nişapuri və Əhməd ibn Osman ibn Həkim əl-Əvdi xəbər verib dedilər: bizə Übeydullah ibn Musa nəql edib dedi: bizə Hani ibn Əyyub Təlhə əl-Yamidən xəbər verib dedi: bizə Ümeyrə ibn Səd nəql edib dedi ki: Əlinin Rəhbədə camaata səslənib "kim Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) "mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" – sözünü eşidib?", - dediyini eşidib. Bu zaman on neçə nəfər şəxs ayağa qalxıb şahidlik ediblər".[720]

Bu hədisi Nəsai "Xəsaisul-imam Əli" kitabında[721], Əli ibn Muhəmməd əl-Himyəri "Cuzul-Himyəri" (جُزْءُ الْحِمْيَرِيِّ) kitabında[722], Təbərani "əl-Mücəmül-əvsət[723]" və "əl-Mücəmüs-sağir"[724] kitablarında, Əbu Nəim əl-İsfahani "Hilyətül-əvliya" kitabında[725], Mizzi "Təhzibül-kəmal" kitabında[726], İbn əl-Məğazili əş-Şafei də "Mənaqibul-imam Əli" kitabında[727] nəql etmişdir.

**7-Mühacir ibn Ümeyrə:**

---

[711] "Müsnədü-Əhməd": 1/119, hədis: 961. Şeyx Əhməd Şakir deyir: "**İsnadı səhihdir**" (bax: "Müsnədü-Əhməd": 2/22, hədis: 961. "Darul-hədis" çapı. Qahirə).
[712] "Müsnədü-Əbi Yəla": 1/428, hədis: 567.
[713] "Məcməüz-zəvaid": 9/105.
[714] "Tarixu-Diməşq": 42/206.
[715] "Tarixu-Bağdad": 14/236.
[716] "Tali-təlxisil-mütəşabih": 1/130, hədis: 53.
[717] "Fəraidus-simteyn": 1/69, hədis: 36.
[718] "Usdul-ğabə fi mərifətis-səhabə": 4/28.
[719] "əl-Əhadisul-muxtarə": 2/273, hədis: 653.
[720] "əs-Sünənül-kubra": 5/131, hədis: 8470.
[721] "Xəsaisul-imam Əli": səh.96.
[722] "Cuzul-Himyəri": səh.33.
[723] "əl-Mücəmül-əvsət": 2/324, hədis: 2110; 2/368, hədis: 2254; 7/70, hədis: 6882.
[724] "əl-Mücəmüs-sağir": 1/119, hədis: 175.
[725] "Hilyətül-əvliya": 5/26.
[726] "Təhzibül-kəmal": 22/397-398.
[727] "Mənaqibul-imam Əli": səh.26.

Onun hədisini İbn Əbu Asim “əs-Sünnə” kitabında nəql etmişdir:

Bizə Muhəmməd ibn Xalid ibn Abdullah nəql edib dedi: mənə atam Əcləhdən, o da Təlhə ibn Müsərrifdən nəql edib dedi: Mühacir ibn Ümeyrənin belə dediyini eşitdim:

“Əlinin minbər üstündə camaata səslənib “kim Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır” – sözünü eşidib?”, - dediyini eşitdim. Bu zaman on iki nəfər şəxs ayağa qalxıb “biz Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) bu sözü dediyini eşitmişik”, - dedilər.”[728]

**8-Əmr Zi-murr:**

Onun hədisini Nəsai “əs-Sünənül-kubra” kitabında nəql etmişdir:

Bizə Əli ibn Muhəmməd ibn Əli xəbər verib dedi: bizə Xələf nəql edib dedi: bizə İsrail nəql edib dedi: bizə Əbu İshaq Əmr Zi-murrdan nəql edib dedi:

“Əlinin Rəhbədə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrinə səslənib “sizdən kim Allah Rəsulunun Qədir-Xum günündə dediyi sözü eşidib?”, - dediyini gördüm. Bu vaxt bir dəstə şəxs ayağa qalxıb Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğuna şəhadət verdilər: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, onu sevəni sev, ona nifrət edənə nifrət et, ona yardım edənə yardım et”.”[729]

Bu hədisi həmçinin, Nəsai “Xəsaisul-imam Əli” kitabında[730], Hafiz Təbərani “əl-Mücəmül-əvsət” kitabında[731], Bəzzar “Müsnəd” kitabında[732], Təhavi “Şərhu-muşkilil-asar” kitabında[733], Abdullah ibn Əhməd ibn Hənbəl atasının “Müsnəd” kitabına yazdığı əlavələrdə [734], Cüveyni əl-Xorasani “Fəraidus-simteyn” kitabında[735], Gənci əş-Şafei də “Kifayətut-talib” kitabında[736] nəql etmişdir.

**9-Zeyd ibn Ərqəm:**

Onun hədisini Əhməd ibn Hənbəl “Müsnəd” kitabında nəql etmişdir:

Bizə Əsvəd ibn Amir nəql edib dedi: bizə Əbu İsrail Həkəmdən, o, Əbu Süleymandan, o da Zeyd ibn Ərqəmdən nəql edib dedi:

“Əli camaatdan şahidlik etmələrini tələb edib dedi: “Sizi and verirəm Allaha, kim Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) “İlahi, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən

---

728 “əs-Sünnə”: 2/607, hədis: 1373.
729 “əs-Sünənül-kubra”: 5/136, hədis: 8484.
730 “Xəsaisul-imam Əli”: səh.104.
731 “əl-Mücəmül-əvsət”: 2/324, hədis: 2109.
732 “Müsnədül-Bəzzar”: 3/35, hədis: 786.
733 “Tuhfətul-əxyar bi-tərtibi-şərhi-muşkilil-asar”: 9/177, hədis: 6486.
734 “Müsnədü-Əhməd”: 1/18, hədis: 951. Kitabın mühəqqiqi Şeyx Əhməd Muhəmməd Şakir deyir: “**İsnadı səhihdir**” (bax: “Darul-hədis” çapı. Qahirə).
735 “Fəraidus-simteyn”: 1/68, hədis: 34.
736 “Kifayətut-talib”: səh.63.

olana düşmən ol", - dediyini eşidib?" Bu zaman on altı nəfər şəxs qalxıb şahidlik etdilər".[737]

Bu hədisi Təbərani "əl-Mücəmül-kəbir" [738] və "əl-Mücəmül-əvsət" [739] kitablarında nəql etmişdir.

**10-Əsbəğ ibn Nübatə:**

Onun hədisini İbn əl-Əsir "Usdul-ğabə fi mərifətis-səhabə" kitabında nəql etmişdir:

Bizə Əbu Musa xəbər verib dedi: bizə Seyyid Əbu Muhəmməd Həmzə ibn Abbas xəbər verib dedi: bizə Əhməd ibn Fəzl əl-Misri xəbər verib dedi: bizə Əbdür-Rəhman ibn Muhəmməd əl-Mədini nəql edib dedi: bizə Əhməd ibn Muhəmməd ibn Səid nəql edib dedi: bizə Muhəmməd ibn İsmayıl ibn İshaq ər-Raşidi nəql edib dedi: bizə Muhəmməd ibn Xələf ən-Numeyri nəql edib dedi: bizə Əli ibn Həsən əl-Əbdi Əsbəğ ibn Nübatədən nəql edib dedi:

"Əli Rəhbədə camaata and verdi ki, kim Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) sözünü eşidibsə, desin. Bu zaman içlərində Əbu Əyyub əl-Ənsarinin, Əbu Ümeyrə ibn Əmr ibn Mihsənin, Əbu Zeynəbin, Səhl ibn Hüneyfin, Xüzeymə ibn Sabitin, Abdullah ibn Sabit əl-Ənsarinin, Həbəşi ibn Cünadə əs-Səlulinin, Übeyd ibn Azib əl-Ənsarinin, Numan ibn Əclan əl-Ənsarinin, Sabit ibn Vədiə əl-Ənsarinin, Əbu Füzalə əl-Ənsarinin və Əbdür-Rəhman ibn Əbdür-Rəbb əl-Ənsarinin olduğu on neçə nəfər şəxs ayağa qalxıb dedilər: "Şəhadət veririk ki, Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitmişik: Bilin və agah olun! Allah mənim vəlimdir, mən də möminlərin vəlisiyəm. Bilin və agah olun! Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, onu sevəni sev, ona nifrət edənə nifrət et, ona yardım edənə yardım et". Bunu Əbu Musa nəql etmişdir".[740]

Bu hədisi həmçinin İbn Həcər "əl-İsabə" kitabında[741], İbn Qüdamə əl-Məqdisi də "əl-Mütəhabbinə fillah" kitabında[742] nəql etmişdir.

**11-Həbbə ibn Cüveyn əl-Ərəni:**

Onun hədisini Təbərani "əl-Mücəmül-kəbir" kitabında nəql etmişdir:

Bizə İbrahim ibn Nailə əl-İsfahani xəbər verib dedi: bizə İsmayıl ibn Əmr əl-Bəcli nəql edib dedi: bizə Əmr ibn Sabit Əbu İshaqdan, o, Hübeyrə ibn Yərimdən, o da Səid ibn Vəhbdən, Həbbə əl-Ərənidən və Zeyd ibn Sabitdən nəql edib dedi:

"Əli camaata and verdi ki, kim Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) "mən kimin vəlisiyəmsə, Əli də onun vəlisidir"- sözünü eşidibsə qalxıb şəhadət versin. Bu zaman on neçə nəfər şəxs ayağa qalxıb şəhadət verdilər ki,

---

737 "Müsnədü-Əhməd": 5/370, hədis: 23192. Şeyx Həmzə Əhməd əz-Zeyn deyir: "**İsnadı həsəndir**" (bax: "Müsnədü-Əhməd": 16/536-537, hədis: 3237. "Darul-hədis" çapı. Qahirə).

738 "əl-Mücəmül-kəbir": 5/171, hədis: 4985; 5/175, hədis: 4996; 5/191, hədis: 5057.

739 "əl-Mücəmül-əvsət": 2/275, hədis: 1966.

740 "Usdul-ğabə": 3/307, həmçinin: 5/205.

741 "əl-İsabə fi təmyizis-səhabə": 7/136.

742 "əl-Mütəhabbinə fillah": 1/73, hədis: 92.

Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) "mən kimin vəlisiyəmsə, Əli də onun vəlisidir", - deyə buyurduğunu eşidiblər".[743]

Bu hədisi İbn əl-Məğazili əş-Şafei də "Mənaqibul-imam Əli" kitabında nəql etmişdir.[744]

**12-Ziyad ibn Əbu Ziyad:**

Onun hədisini İbn Əsakir "Tarixu-Diməşq" kitabında nəql etmişdir:

Bizə Əbu Əli ibn Sibt xəbər verib dedi: bizə Əbu Muhəmməd əl-Cəvhəri xəbər verib dedi:

Həmçinin, bizə Əbül-Qasim ibn Huseyn xəbər verib dedi: bizə Əbu Əli ibn Məzhəb xəbər verib dedi:

Bizə Əhməd ibn Cəfər xəbər verib dedi: bizə Abdullah ibn Əhməd xəbər verib dedi: mənə atam nəql edib dedi: bizə Muhəmməd ibn Abdullah nəql edib dedi: bizə Rəbi, yəni: Əbu Saleh əl-Əsləmi nəql edib dedi: mənə Ziyad ibn Əbu Ziyad nəql edib dedi:

"Əli ibn Əbu Talibin camaata səslənib belə dediyini eşitdim: "Allaha and verirəm, hansı müsəlman Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xum günündə dediyi sözü eşidib?" Bu zaman Bədr döyüşçülərindən olan on iki nəfər şəxs ayağa qalxıb Peyğəmbərin sözünü eşitdiklərinə şəhadət verdilər".[745]

Bu hədisi həmçinin, Əhməd ibn Hənbəl "Müsnəd" kitabında[746] nəql etmişdir.

**13-Səid ibn Əbi Huddan:**

Onun hədisini Cüveyni "Fəraidus-simteyn" kitabında nəql etmişdir:

Bizə Şeyx İmadəddin Əbdül-Hafiz ibn Bədran xəbər verib dedi: bizə Əbu Abdullah Muhəmməd ibn Fəzl əl-Ğərəvi xəbər verib dedi: bizə Əbu Bəkr Əhməd ibn Həsən əl-Beyhəqi əl-Hafiz xəbər verib dedi: bizə Əbu Bəkr Əhməd ibn Həsən əl-Qazi xəbər verib dedi: bizə Əbu Cəfər Muhəmməd ibn Əli ibn Duheym xəbər verib dedi: bizə Əhməd ibn Hazim ibn Əbu Ğəzrə xəbər verib dedi: bizə Əbu Ğəssan Malik xəbər verib dedi: bizə Füzeyl ibn Mərzuq Əbu İshaqdan, o da Səid ibn Əbi Huddandan və Əmr Zi-murrdan xəbər verib dedi ki, sonuncular demişlər:

"Əli dedi: "Allah Rəsulunun səhabələrini Allaha and verirəm! Kim Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xum günündə dediyi sözü eşidibsə şahidlik etsin". Bu zaman altısı Səid tərəfdən[747], altısı da Əmr Zi-murr tərəfdən olmaqla on iki nəfər qalxıb şəhadət verdilər ki, Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğunu eşidiblər: "İlahi, Əliyə dost olana dost ol, ona düşmən olana düşmən ol, ona yardım edənə yardım et, onu sevəni sev, ona nifrət edənə nifrət et"."[748]

---

743 "əl-Mücəmül-kəbir": 5/191, hədis: 5057.

744 "Mənaqibul-imam Əli": səh.20.

745 "Tarixu-Diməşq": 42/212.

746 "Müsnədü-Əhməd": 1/88, hədis: 670. Şeyx Əhməd Muhəmməd Şakir deyir: "**İsnadı səhihdir**" (bax: "Müsnədü-Əhməd": 1/460, hədis: 670. "Darul-hədis". Qahirə.) Heysəmi "Məcməüz-zəvaid" kitabında demişdir: "**Bunu Əhməd nəql etmişdir, raviləri siqədir**".

747 Yəni, Səidin oturduğu tərəfdən. Zahirən belə görünür. (Tərc.).

748 "Fəraidus-simteyn": 1/68, hədis: 34.

**14-Əbdü-Xeyr:**

Onun hədisini İbn Əsakir "Tarixu-Diməşq" kitabında nəql etmişdir:

Bizə Əbu Həfs Ömər ibn Zəfər ibn Əhməd xəbər verib dedi: bizə Tirad ibn Muhəmməd xəbər verib dedi: bizə Abdullah ibn Yəhya ibn Əbdül-Cabbar xəbər verib dedi: bizə İsmayıl ibn Muhəmməd əs-Səffar xəbər verib dedi: bizə Əhməd ibn Mənsur xəbər verib dedi: bizə Əbdür-Rəzzaq xəbər verib dedi: bizə İsrail Əbu İshaqdan xəbər verib dedi: mənə Səid ibn Vəhb və Əbdü-Xeyr nəql edib dedilər ki, onlar Əlinin Kufədə, Rəhbədə belə dediyini eşidiblər:

"Sizi and verirəm Allaha, kim Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) "mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır", - dediyini eşidib?" Bu zaman Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) əshabından olan bir dəstə şəxs ayağa qalxıb şəhadət verdilər ki, Peyğəmbərin belə buyurduğunu eşidiblər".[749]

İmam Əli (əleyhissəlam) Cəməl müharibəsi zamanı da bu hədis üçün şahidlik tələb etmişdir. Belə ki, daha öncə də qeyd olunduğu kimi, o Həzrət, Təlhə ibn Übeydullahdan bu hədisə şəhadət verməsini tələb etmişdir.

**Deyirəm:** Mən Qədir-Xum hədisini nəql edən 50 səhabənin adını çəkməklə kifayətləndim. Adıçəkilən bu 50 səhabədən başqa səhabələr də Qədir-Xum hədisini nəql etmişlər. Əllamə Əmini "əl-Ğədir" kitabında belə səhabələrdən 110-unu qeyd etmişdir. Başqaları isə bu saydan daha artığını qeyd etmişlər.

## "Əhli-sünnə vəl-cəmaə" məzhəbi alimlərinin Qədir-Xum hədisinin mütəvatirliyini etiraf etmələri

Bir çox əhli-sünnə alimi Qədir-Xum hədisinin mütəvatir olduğunu bildirmişdir. Aşağıda belə alimlərdən bir neçəsini qeyd edirik:

**Şəmsəddin əz-Zəhəbi**

Zəhəbi "Təzkirətül-huffaz" kitabında İbn Cəririn tərcümeyi-halını qeyd edərkən yazır:

"İbn Cərirə Əbu Davudun Qədir-Xum hədisi barədə mənfi danışdığı xəbəri çatınca, "Fadail" kitabını yazır və burada hədisin səhih olması barəsində danışır. Mən İbn Cəririn bu hədisin təriqlərinə dair bir cildlik bir kitabını gördüm. Mən həm kitaba, həm də hədisin çoxlu təriqlərinə baxıb dəhşətə gəldim".[750]

Həmçinin, Zəhəbi "Siyəru-əlamin-nübəla" kitabında Müttəlib ibn Ziyad ibn Əbu Züheyr əs-Səqəfinin tərcümeyi-halını qeyd edərkən öz sənədi ilə Abdullah ibn Muhəmməd ibn Əqildən belə nəql edir:

"Mən Cabirin evində idim. Əli ibn Hüseyn, Muhəmməd ibn Hənəfiyyə və Əbu Cəfər də orada idi. Bu zaman İraq camaatından olan bir şəxs içəri daxil olub dedi: "Səni and verirəm Allaha, mənə Allah Rəsulundan (sallallahu əleyhi [və

---

[749] "Tarixu-Diməşq": 42/211.

[750] "Təzkirətül-huffaz": 2/713.

alihi] və səlləm) görüb eşitdiyin bir şey danış". Cabir dedi: "Biz Cuhfədə, Xum çölündə idik. Orada Cüheynə, Müzeynə və Ğifar qəbilələrindən də çoxlu adam var idi. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) öz çadırından çıxıb bizim yanımıza gəldi və əli ilə üç dəfə işarə etdi. Sonra Əlinin əlini tutub dedi: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"."

Bunun ardınca Zəhəbi deyir:

"Bu, həsən və çox ali bir hədisdir. Mətni isə mütəvatirdir".[751]

**əl-Bədəxşani**

Əl-Bədəxşani özünün "Siratun-nəca fi mənaqibi-alil-əba" kitabında Qədir-Xum hədisinin bəzi təriqlərini qeyd etdikdən sonra deyir:

"Deyirəm: Bu, səhih və məşhur bir hədisdir. Hafiz Əbu Abdullah Muhəmməd ibn Əhməd ibn Osman əz-Zəhəbi ət-Türkümani (ət-Türkməni) əl-Fariqi əd-Diməşqi bu hədisin bir çox təriqləri üçün səhih hökmü vermişdir. Bu hədisin olduqca çoxlu təriqləri vardır. İbn Üqdə adı ilə məşhur olan Hafiz Əbül-Abbas Əhməd ibn Muhəmməd ibn Səid əl-Kufi bu təriqləri ayrıca bir kitabda toplamışdır".[752]

**Cəlaləddin əs-Süyuti**

Hafiz Süyuti özünün mütəvatir hədislərə həsr etdiyi iki kitabında: "əl-Əzharul-mütənasirə fil-əxbaril-mütəvatirə" ("Mütəvatir hədislərə dair səpələnmiş çiçəklər") və "əl-Fəvaidül-mütəkasirə fil-əxbaril-mütəvatirə" ("Mütəvatir hədislərə dair çoxlu faydalar") kitablarında Qədir-Xum hədisini qeyd etmişdir. Əllamə Mənavi "ət-Təysir fi şərhil-camii-sağir" kitabında Süyutinin Qədir-Xum hədisini mütəvatir hesab etdiyini nəql etmişdir. Belə ki, hədisi şərh edərkən demişdir:

"(Süyuti) demişdir: Mütəvatir hədisdir".[753]

Həmçinin, Əllamə əl-Əzizi "əs-Siracul-munir fi şərhil-camiis-sağir" kitabında hədisi şərh edərkən Süyutinin hədisi mütəvatir hesab etdiyini bildirmişdir:

"Müəllif (Süyuti) demişdir: Mütəvatir hədisdir".[754]

**Molla Əli əl-Qari**

Molla Əli əl-Qari "əl-Mirqat fi şərhil-mişkat" kitabında yazır:

"Zeyd ibn Ərqəmdən belə dediyi nəql olunur: "Peyğəmbər buyurdu: Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır". Bu hədisi Əhməd və Tirmizi nəql etmişdir." [755] *

Sonra yazır:

---

[751] "Siyəru-əlamin-nübəla": 7/571.
[752] "Miftahun-nəca fi mənaqibi-alil-əba": əlyazma.
[753] "ət-Təysir fi şərhil-camii-sağir": 2/442.
[754] "əs-Siracul-munir fi şərhil-camiis-sağir": 3/360.
[755] * Qeyd edək ki, "əl-Mirqat fi şərhi-mişkat" kitabı Xətib Təbrizinin "Mişkatul-məsabih" kitabına yazılan bir şərhdir. Yuxarıda qeyd olunan cümlə Xətib Təbrizinindir. O, bu hədisi qeyd etdikdən sonra ardınca "Bunu Əhməd və Tirmizi nəql etmişdir", - demişdir. Ardınca Molla Əli əl-Qari həm hədisə, həm də müəllifin bu sözünə münasibət bildirmişdir. (Tərc.).

““əl-Cami” kitabında deyilir: “Bu hədisi Əhməd və İbn Macə Bəradan, Əhməd Büreydədən, Tirimizi, Nəsai və Ziya Zeyd ibn Ərqəmdən nəql etmişdir.” Gizli deyil ki, müəllifin hədisin Zeyd ibn Ərqəm təriqi ilə nəqlini Əhməd və Tirmiziyə nisbət verməsi kiçik bir xətadır. Əhmədin və Nəsainin Büreydə təriqi ilə nəql etdiyi hədisdə “mən kimin vəlisiyəmsə, Əli də onun vəlisidir”, - cümləsi işlənmişdir. Məhamili də öz “Əmali” kitabında bu hədisi İbn Abbasdan “Əli ibn Əbu Talib mən kimin mövlasıyamsa, onun mövlasıdır”, - şəklindən nəql etmişdir. Xülasə desək: Hədis heç şübhəsiz ki, səhihdir. Hətta bəzi hafizlər onu mütəvatir hesab etmişlər. Belə ki, Əhmədin nəql etdiyi bir hədisdə 30 səhabənin bu hədisi Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) eşitdiyi və Əli üçün xilafəti zamanında bu hədisə şahidlik etdikləri bildirilir”.[756]

**İbn Həcər əl-Əsqəlani**

İbn Həcər əl-Əsqəlani yazır:

““Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır” hədisinə gəlincə, bu hədisi Tirmizi və Nəsai nəql etmişdir. Bu hədisin olduqca çoxlu təriqləri vardır. Bu təriqləri İbn Üqdə ayrıca bir kitabda toplamışdır. Bu təriqlərin bir çoxu səhih və həsən hökmündədir”.[757]

Həmçinin, İmam Əmirəlmöminin Əli ibn Əbu Talibin (əleyhissəlam) tərcümeyi-halını qeyd edərkən deyir:

“...Deyirəm: Müəllif İbn Əbdül-Bərrin dediyindən artığını deməyəcək. Onun sözü kifayət edir. Lakin, İbn Əbdül-Bərr “müvalat” [Qədir-Xum] hədisini yalnızca adlarını sadaladığı bir neçə şəxsdən nəql etmişdir. İbn Cərir ət-Təbəri isə bu hədisin təriqlərini ayrıca bir kitabda toplamış və burada İbn Əbdül-Bərrin qeyd etdiyi miqdarın qat-qat artığı qədər təriq vardır. İbn Cərir bu hədisi səhih hesab etmişdir. Həmçinin, Əbül-Abbas ibn Üqdə də hədisin təriqlərini toplamışdır. O, öz kitabında bu hədisi 70 və ya daha artıq səhabədən nəql etmişdir”.[758]

**İbn Həcər əl-Heysəmi**

İbn Həcər əl-Heysəmi yazır:

“...Bu, heç şübhəsiz ki, səhih hədisdir. Onun Tirmizi, Nəsai və Əhməd kimi bir çox şəxslər nəql etmişlər. Onun təriqləri olduqca çoxdur. Onun nəql edənlərin 16-sı səhabədir. Əhmədin nəql etdiyi bir hədisdə isə 30 səhabənin bu hədisi Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) eşitdiyi bildirilir. Onlar Əlinin xilafəti zamanında bu hədisə şahidlik ediblər, necə ki, daha öncə qeyd olundu və daha sonra da qeyd olunacaq. Onun sənədlərinin bir çoxu səhih və həsəndir. Onun səhihliyinə etiraz edən şəxsə fikir verilməz. Həmçinin, “Əli həmin vaxt Yəməndə idi”, - deyib hədisi rədd edən şəxsə fikir verilməz. Çünki Əlinin Yəməndən qayıdıb Həccdə Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) yetişməsi sübuta yetib. Həmçinin, “İlahi, ona dost olana dost ol...” cümləsinin uydurma olduğunu deyən şəxslərin sözləri də rədd olunar. Bu cümlə bir sıra

[756] “əl-Mirqat fi şərhil-mişkat”: 5/568.
[757] “Fəthul-Bari; şərhu-səhihil-Buxari”: 7/74.
[758] “Təhzibüt-təhzib”: 3/213.

təriqlərlə nəql olunmuşdur ki, Zəhəbi bu təriqlərin bir çoxunu səhih hesab etmişdir”.[759]

**əl-Əcluni**

Əcluni yazır:

"“Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”. Bu hədisi Təbərani, Əhməd və Ziya Zeyd ibn Ərqəmdən, Əlidən və 30 səhabədən “İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol” sözü ilə birgə nəql etmişlər. Hədis mütəvatir və ya məşhurdur”.[760]

**Muhəmməd Nasiruddin əl-Əlbani**

Əlbani “Silsilətül-əhadisis-səhihə” kitabında Qədir-Xum hədisinin bir çox təriqlərini qeyd edib onların bir çoxuna səhih hökmü verdikdən sonra deyir:

“Hədisin başqa çoxlu təriqləri də vardır. Onların böyük bir hissəsini Heysəmi “Məcməüz-zəvaid” (9/103-108) kitabında toplayıb. Mən bu təriqlərdən mənə müyəssər olan qədərini qeyd etdim. Yoxsa ki, hədisin təriqləri olduqca çoxdur. Bu qeyd etdiyim qədər ilə tanış olan kəs hədisin səhih olduğuna yəqin (qəti) şəkildə əmin olur. İbn Üqdə hədisin təriqlərini ayrıca bir kitabda toplamışdır. Hafiz ibn Həcər isə demişdir ki, bu təriqlər arasında səhih və həsən olanlar var.

Xülasə desək, bu hədis hər iki hissəsi ilə[761] səhihdir. Birinci hissə mütəvatirdir. Necə ki, hədisin təriqlərinə və sənədlərinə nəzər salan şəxs bunu görə bilər. Təkcə mənim qeyd etdiyim qədər belə kifayət edir”.[762]

**Əbül-Qasim Fəzl ibn Muhəmməd**

İbn əl-Məğazili əş-Şafei “Mənaqibul-imam Əli” kitabında Qədir-Xum hədisini qeyd etdikdən sonra deyir:

“Əbül-Qasim Fəzl ibn Muhəmməd demişdir: “Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) nəql edilən bu hədis səhihdir. Bu hədisi Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) 100-ə yaxın şəxs nəql etmişdir, o cümlədən də [cənnətlə müjdələnmiş] on nəfər. Bu, sabit hədisdir və mən onun üçün bir nöqsan tanımıram. Bu fəzilət yalnız Əliyə məxsusdur, heç kəs bu fəzilətdə onunla şərik deyil”.”[763]

**İbn əl-Cəzəri**

İbn əl-Cəzəri Qədir-Xum hədisinin bir təriqini qeyd etdikdən sonra yazır:

“Bu hədis bu təriqlə həsəndir. Başqa çoxlu təriqlərlə isə səhihdir. Hədis Əmirəlmöminin Əlidən mütəvatir şəkildə nəql olunub. Həmçinin, Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) də mütəvatir şəkildə nəql olunub. Onun çox böyük sayda şəxs çox böyük sayda şəxsdən nəql edib. Bu elm ilə (hədis elmi ilə)

---

[759] “əs-Səvaiqul-muhriqə”: 1/106-107.
[760] “Kəşfül-xəfa”: 2/361.
[761] Birinci hissə: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”, ikinci hissə: “İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”. (Tərc.).
[762] “Silsilətül-əhadisis-səhihə”: 4/343.
[763] “əl-Mənaqib”: səh.26.

tanışlığı olmayan bəzi kəslərin bu hədisi zəif göstərməyə çalışmasına önəm verilməz. Hədis mərfu şəkildə Əbu Bəkr əs-Siddiqdən, Ömər ibn əl-Xəttabdan, Təlhə ibn Übeydullahdan, Zübeyr ibn əl-Əvvamdan, Səd ibn Əbu Vəqqasdan, Əbdür-Rəhman ibn Əvfdən, Abbas ibn Əbdül-Müttəlibdən, Zeyd ibn Ərqəmdən, Əbu Səid əl-Xudridən, Cabir ibn Abdullahdan, Abdullah ibn Abbasdan, Həbəşi ibn Cünadədən, Abdullah ibn Məsuddan, İmran ibn Huseyndən, Abdullah ibn Ömərdən, Əmmar ibn Yasirdən, Əbu Zər əl-Ğifaridən, Salman əl-Farisidən, Səd ibn Zürarədən, Xüzeymə ibn Sabitdən, Əbu Əyyub əl-Ənsaridən, Səhl ibn Hüneyfdən, Hüzeyfə ibn əl-Yəmandan, Səmurə ibn Cündəbdən, Zeyd ibn Sabitdən, Ənəs ibn Malikdən və başqa səhabələrdən nəql olunmuşdur. Allah onlardan razı olsun.

Sözləri ilə qətilik və əminlik hasil olan bir dəstə şəxsin bu hədisi səhih bilmələri nəql edilmişdir. Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xum günündə bu sözü buyurması sübuta yetmişdir”.[764]

### Cəmaləddin əl-Mühəddis

Cəmaləddin əl-Mühəddis “əl-Ərbəin” kitabında yazır:

“On üçüncü hədis: Cəfər ibn Muhəmməd möhtərəm ata-babalarından (əleyhimussəlam) belə nəql edir:

Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) Qədir-Xumda olduğu vaxt camaatı səslədi, camaat da toplaşdı. Bu zaman Peyğəmbər Əlinin əlini tutaraq dedi: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy, Əli harada olsa, haqqı onunla birgə qərar ver”.” – Başqa bir rəvayətdə: “İlahi, ona yardım et və onunla yardım et, İlahi, ona rəhmət et və onunla rəhmət et, İlahi, ona kömək et və onunla kömək et” –. Bu xəbər şəhərlərə yayıldı. Xəbər gəlib Haris ibn Numan əl-Fihriyə çatdı. Öz dəvəsinin üzərində Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) yanına gəldi. Əbtəh məntəqəsində dəvəsindən enib dəvəni bağladı və dedi: “Ey Muhəmməd! Biz əmr etdin ki, Allahdan başqa ilah olmadığına və sənin Onun elçisi olduğuna şəhadət verək, biz də qəbul etdik. Bizə beş vaxt namaz qılmağı əmr etdin, qəbul etdik. Bizə zəkat verməyi əmr etdin, qəbul etdik. Bizə oruc tutmağı əmr etdin, qəbul etdik. Bizə həccə etməyi əmr etdin, qəbul etdik. Lakin, bütün bunlarla kifayətlənmədin və əmin oğlunun əlini qaldırıb onu bizdən üstün etdin! “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”, - dedin. Bu sənin özündəndir, yoxsa Allahdandır?” Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) buyurdu: “And olsun özündən başqa ilah olmayan Allaha ki, bu dediyim Allahdandır”.

Bunu eşidən Haris üzünü çevirib dəvəsinə tərəf getməyə başladı. Bu zaman belə dedi: “İlahi, əgər Muhəmmədin dediyi haqqdırsa, onda səmadan bizim başımıza daş yağdır, ya da bizə ağrılı bir əzab göndər.” Gedib dəvəsinə çatmamışdı ki, Allah onun üzərinə bir daş göndərdi. Daş onun başından girib arxasından çıxaraq onu öldürdü. Bu zaman Allah (əzzə və cəll) bu ayəni nazil etdi: “**Bir nəfər**

[764] “Əsnal-mətalib fi mənaqibi Əli ibn Əbi Talib”: səh.3 və 4.

**kafirlər üçün baş verəcək və heç kəs tərəfindən dəf edilə bilməyəcək bir əzab istədi**”[765].”

Deyirəm: Harisin hadisəsi istisna olmaqla bu hədisin əsli Əmirəlmömininindən (əleyhissəlam) və Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) mütəvatir şəkildə nəql olunub. Onun çoxlu sayda şəxs, o cümlədən səhabələrdən olan çoxlu sayda şəxs nəql edib”.[766]

**Ziyauddin əl-Muqbili**

Ziyauddin əl-Muqbili Əhli-Beytin (əleyhimussəlam) fəziləti barədə nəql olunan hədislərdən danışarkən yazır:

“Belə hədislərdən biri də Əli (Allah Cənnətdə onun üzünü nurlandırsın) barəsində nəql olunan aşağıdakı hədisdir. Bu hədis məna etibarilə mütəvatirdir. Bu hədisin ən aydın və ən məşhur forması belədir: “Mən kimin mövlasıyamsa, Əlində onun mövlasıdır”. Bu hədisin bəzi nəqllərində “İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol” əlavəsi, bəzilərində də “ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy” əlavəsi gəlmişdir. Bu hədisin təriqləri olduqca çoxdur. Məhz buna görə də, bəzi alimlər hədisin təkcə məna baxımından deyil, həm də ləfz baxımından mütəvatir olduğunu demişlər.[767] Süyuti “əl-Camiul-kəbir” kitabında Əhməd ibn Hənbəlin, Hakimin, İbn Əbu Şeybənin, Təbəraninin, İbn Macənin, Tirmizinin, Nəsainin, İbn Əbu Asimin, Şirazinin, Əbu Nəimin, İbn Üqdənin və İbn Hibbanın bu hədisi nəql etdiyini bildirmişdir. Onların bəziləri bu hadisəni bir səhabədən, bəziləri iki nəfərdən, bəziləri də daha çox sayda şəxsdən nəql etmişdir.

Bu hədis İbn Abbasdan, Büreydədən, Bəra ibn Azibdən, Cərir əl-Bəclidən, Cündəb əl-Ənsaridən, Həbəşi ibn Cünadədən, Əbüt-Tüfeyldən, Zeyd ibn Ərqəmdən, Zeyd ibn Sabitdən, Hüzeyfə ibn Üseyd əl-Ğifaridən, Əbu Əyyub əl-Ənsaridən, Zeyd ibn Şərahil əl-Ənsaridən, Zeyd ibn Sabitdən, Əli ibn Əbu Talibdən, İbn Ömərdən, Əbu Hüreyrədən, Təlhədən, Ənəs ibn Malikdən, Ömər ibn Murrədən, Əhmədin nəql etdiyi rəvayətlərin birində: Əlidən və 13 nəfər şəxsdən, yenə Əhmədin və Ziya əl-Məqdisinin nəql etdiyi bir rəvayətdə: Əbu Əyyubdan və bir dəstə səhabədən, İbn Əbu Şeybənin nəql etdiyi bir rəvayətdə: Əbu Hüreyrədən və 12 nəfər səhabədən, Əhmədin, Təbəraninin və Məqdisinin nəql etdiyi bir rəvayətdə isə: Əlidən, Zeyd ibn Ərqəmdən və 30 nəfər səhabədən nəql olunmuşdur. Bəli, belə bir hədis “məlum”dur (qəti şəkildə sübuta yetmiş və qəti şəkildə bilinən bir məlumatdır). Əgər belə deyilsə, onda dünyada “məlum” deyə bir şey yoxdur[768].”

---

[765] Məaric surəsi, 1 və 2-ci ayələr.

[766] “əl-Ərbəin”: əlyazma. Yuxarıdakı sözləri Seyyid Milani əlyazmadan nəql etmişdir. O bu sözləri “Nəfəhatul-əzhar” kitabında qeyd edib.

[767] Mütəvatir hədis iki növə bölünü: 1) Ləfz etibarilə mütəvatir; 2) məna etibarilə mütəvatir. Ləfz etibarilə mütəvatir hədis çoxlu sayda hədis ravisinin bir hadisəni eyni söz və cümlələr ilə nəql etməsinə deyilir. Bu zaman bütün ravilər eyni sözü nəql edirlər. Məna etibarilə mütəvatir olan hədis isə ravilərin bir hadisəni müxtəlif şəkillərdə nəql etməsinə deyilir. Bu zaman ləfzlər və nəql şəkilləri fərqli olsa da, bütün nəqllər bir mənaya dəlalət edir. (Tərc.).

[768] Bu cümlənin daha yaxşı başa düşülməsi üçün Muhəmməd ibn İbrahim əl-Vəzirin sözünü qeyd etməkdə fayda var. O, deyir:

من أنكر خبر الغدير فقد أنكر ما علم من الدين ضرورة، لأن العلم به كالعلم بمكة وشبهها، فالمنكر سوفسطائي

**Muhəmməd Mubin əl-Ləkhənəvi**

Muhəmməd Mubin əl-Ləkhənəvi Hindistandanın böyük əhli-sünnə alimlərindən biridir. Onun tərcümeyi-halı ilə "Nəzhətul-xəvatir" kitabında (7/403) tanış ola bilərsiniz. O, İmam Əlinin (əleyhissəlam) fəzilətlərinə dair bir neçə hədis qeyd etmiş, ardınca demişdir:

"Bu bölmədə qeyd olunan hədislərin əksəriyyəti mütəvatir hədislərdir. Məsələn, "sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir" hədisi kimi, "Əli məndəndir, mən Əlidənəm, İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol" hədisi kimi..."[769].

**İbn Şahin**

Ömər ibn Əhməd ibn Osman ibn Şahin deyir:

"Qədir-Xum hədisini Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) təxminən 100 nəfər şəxs nəql etmişdir. [Cənnətlə müjdələnən] on şəxs də bunların arasındadır. Bu hədis sabit hədisdir, mən onun üçün bir nöqsan tanımıram. Bu fəzilət yalnız Əliyə məxsusdur, heç kəs bu fəzilətdə onunla şərik deyil"[770].

## Osman əl-Xəmisin Qədir-Xum hədisinə həmlə etməsi

### Osman əl-Xəmis Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Əlinin müxaliflərinə etdiyi qarğışdan qurtulmağa çalışır

Osman əl-Xəmis Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) buyurduğu "İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol" cümləsindən yaxa qurtarmaqdan ötrü bu cümlənin səhih olmadığını iddia etmişdir.

Əslində o, iddiasına əsasən, hədis elmində mütəxəssis olduğu üçün bu cümlənin səhih sənədlərlə nəql olunduğunu bilməlidir. Biz daha öncə alimlərin bu cümlənin səhihliyi barəsində dedikləri sözləri qeyd etdik. Onların bəzilərinin sözlərindən bu cümlənin mütəvatir olması belə başa düşülür.

Bütün bunlardan əlavə bu cümlənin, eləcə də "ona kömək edənə kömək et", "onu köməksiz qoyanı köməksiz qoy", "ona yardım edənə yardım et" və s. kimi cümlələrin səhihliyinə dair aşağıdakı dəlilləri qeyd edə bilərik:

Heysəmi "Məcməüz-zəvaid" kitabında deyir:

---

"Kim Qədir-Xum hədisini inkar etsə, dində zəruri olaraq bilinən bir şeyi inkar etmişdir. Çünki Qədir-Xum hadisəsinə olan elm, eyniylə Məkkəyə və s. şəhərlərə olan elm kimidir. Belə bir şeyi inkar edən şəxs sofistdir".

[769] "Vəsilətün-nəcat fi fadailis-sadat": səh.104.

[770] "Şərhu-məzahibi-əhlis-sünnə": səh.103.

“Əbdüt-Tüfeyldən belə nəql olunmuşdur: Əli camaatı Rəhbədə toplayıb onlara dedi: “Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xum günündə dediyi sözü eşidən hər bir müsəlmanı Allaha and verirəm (ki, qalxıb buna şəhadət versin)”. Bu zaman 30 nəfər – Əbu Nüeym deyir: Bu zaman çoxlu sayda şəxs – ayağa qalxıb şəhadət verdilər ki, Peyğəmbər Əlinin əlini tutaraq belə deyib: “Bilirsiniz ki, mən möminlərə onların özlərindən övlayam?” Camaat deyib: “Bilirik, ey Allahın Rəsulu”. Buyurub: “Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.

Mən qəlbimdə sanki bir şey (inamsızlıq) varmış kimi oradan ayrıldım. (Yolda) Zeyd ibn Ərqəmlə qarşılaşdım. Ona dedi: “Mən Əlinin belə-belə dediyini eşitdim”. Zeyd dedi: “Niyə inkar edirsən? Biz Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) bu sözü dediyini eşitmişik”.”

Bunun ardınca Heysəmi deyir:

“Bunu Əhməd nəql etmişdir. Raviləri “səhih”in raviləridir. Təkcə Fitr ibn Xəlifədən başqa. O da siqədir”.[771]

İbn Hibban “Səhih” kitabında deyir:

Bizə Abdullah ibn Muhəmməd əl-Əzdi xəbər verib dedi: bizə İshaq ibn İbrahim nəql edib dedi: bizə Əbu Nüeym və Yəhya ibn Adəm xəbər verib dedilər: bizə Fitr ibn Xəlifə Əbüt-Tüfeyldən nəql edib dedi:

“Əli dedi: “Allaha and verirəm, hər kəs Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) dediyi sözü eşidibsə, ayağa qalxsın.” Bu zaman bir dəstə şəxs ayağa qalxıb şəhadət verdilər ki, Allah Rəsulunun belə buyurduğunu eşidiblər: “Məgər bilmirsiniz ki, mən möminlərə onların özlərindən övlayam?” Bu zaman camaat deyib: “Bilirik, ey Allahın Rəsulu.” Bu zaman Peyğəmbər buyurub: “Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.

(Əbüt-Tüfeyl deyir: ) Mən qəlbimdə bu barədə bir şey (inamsızlıq) olduğu halda oradan ayrıldım. (Yolda) Zeyd ibn Ərqəmlə qarşılaşdım. Hadisəni ona danışdım. Zeyd dedi: “Biz Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Əli barəsində bu sözü dediyini eşitmişik”.”[772]

Yenə, Heysəmi həmin mənbədə belə deyir:

“Əmr Zi-murrdan, Səid ibn Vəhbdən və Zeyd ibn Yuseydən belə nəql edilir:

Əlinin belə dediyini eşitdik: “Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) dediyi sözü eşidən şəxsi Allaha and verirəm ki, ayağa qalxsın.” Bu zaman on üç nəfər şəxs ayağa qalxıb şəhadət verdilər ki,

---

771 “Məcməüz-zəvaid”: 9/107, “Müsnədü-Əhməd” : 4/370, hədis: 19321. Kitabın mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut deyir: “**İsnadı səhihdir, raviləri siqədir.**” Həmçinin, Şeyx Həmzə Əhməd əz-Zeyn deyir: “**İsnadı səhihdir**” (bax: “Müsnədü-Əhməd”: 14/436, hədis: 19198. “Darul-hədis” çapı. Qahirə).

772 “Səhihü-İbn Hibban”: 15/375-376, hədis: 6931. Kitabın mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut deyir: “**İsnadı həsəndir, raviləri siqədir. Raviləri iki şeyxin raviləridir, təkcə Fitr ibn Xəlifədən başqa. O da səduqdur. Buxari məqrun şəkildə ondan bir hədis nəql etmiş, digər “sünən” müəllifləri ona etimad etmişlər**”. Həmçinin, “Məvaridüz-zəman” (Heysəmi): 7/137-138, hədis: 2205. Kitabın mühəqqiqləri (Şeyx Hüseyn Səlim və Əbduh Əli əl-Kuşək) deyir: “**İsnadı səhihdir**”. Əlbani “Səhihu-məvaridiz-zəman” kitabında (2/354, hədis: 2205) hədis üçün “**səhihdir**”, - demişdir.

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurub: “Məgər mən möminlərə onların özlərindən övla deyiləmmi?” Bu zaman camaat deyib ki: “Eləsən, ey Allahın Rəsulu”. Bundan sonra Peyğəmbər Əlinin əlini tutaraq deyib: “Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən daha övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, onu sevəni sev, ona nifrət edənə nifrət et, ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy”.”

Bunun ardınca Heysəmi deyir: “Bu hədisi Bəzzar nəql etmişdir. Raviləri “səhih”in raviləridir. Təkcə Fitr ibn Xəlifədən başqa, o da siqədir”.[773]

Yenə Heysəmi deyir:

“Əbdür-Rəhman ibn Əbu Leyladan belə nəql edilir:

Əlinin Rəhbədə camaata and verib belə dediyini eşitdim: “Allaha and verirəm, hər kəs Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”, - dediyini eşidibsə, ayağa qalxıb şəhadət versin.” Bu zaman Bədr əshabından olan on iki nəfər şəxs – sanki indi də onları görürəm – ayağa qalxıb dedilər: “Biz Allah Rəsulunun Qədir-Xum günündə belə dediyini eşitdik: “Məgər mən möminlərə onların özlərindən övla deyiləmmi və mənim xanımlarım onların anaları deyilmi?”.” Dedik: “Elədir, ey Allahın Rəsulu”. Buyurdu: “Elə isə mən kimin mövlasıyamsa, (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.”

Bunun ardınca Heysəmi deyir: “Bunu Əbu Yəla nəql etmişdir. Raviləri siqədir. Həmçinin, Abdullah ibn Əhməd nəql etmişdir”.[774]

Abdullah ibn Əhməd ibn Hənbəl atasnın kitabına yazdığı əlavələrdə belə nəql edir:

“Mənə Übeydullah ibn Ömər əl-Qəvariri nəql edib dedi: bizə Yunis ibn Ərqəm nəql edib dedi: bizə Yəzid ibn Əbu Ziyad Əbdür-Rəhman ibn Əbu Leyladan nəql edib dedi:

Əlinin Rəhbədə camaata and verib belə dediyini eşitdim: “Allaha and verirəm, hər kəs Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”, - dediyini eşidibsə, ayağa qalxıb şəhadət versin.” Bu zaman Bədr əshabından olan on iki nəfər şəxs – sanki indi də onları görürəm – ayağa qalxıb dedilər: “Biz Allah Rəsulunun Qədir-Xum günündə belə dediyini eşitdik: “Məgər mən möminlərə onların özlərindən övla deyiləmmi və mənim xanımlarım onların anaları deyilmi?”.” Dedik: “Elədir, ey Allahın Rəsulu”. Buyurdu: “Elə isə mən kimin mövlasıyamsa, (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.”[775]

Heysəmi deyir:

“Davud ibn Yəzid əl-Əvdi atasından belə nəql etmişdir:

---

[773] “Müsnədül-Bəzzar”: 3/34, hədis: 786, Heysəmi “Məcməüz-zəvaid”: 9/105.

[774] “Məcməüz-zəvaid”: 9/108.

[775] “Müsnədü-Əhməd”: 1/119, hədis: 961. Kitabın mühəqqiqi Şeyx Əhməd Muhəmməd Şakir deyir: “**İsnadı səhihdir**” (bax: “Müsnədü-Əhməd”: 2/22. “Darul-hədis” çapı. Qahirə).

Əbu Hüreyrə məscidə daxil oldu. Camaat onun başına cəm oldu. Bu zaman bir cavan ona müraciət edib dedi: "Sən and verirəm Allaha, Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır, İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol", - dediyini eşitmisən?" Əbu Hüreyrə dedi: "Şəhadət verirəm ki, Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır, İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol", - dediyini eşitmişəm"."

Bunun ardınca Heysəmi deyir: "Bunu Əbu Yəla və Bəzzar bu şəkildə nəql etmişlər. Təbərani də onu "əl-Mücəmül-əvsət"də nəql edib. Bəzzarın iki isnadının birində adı çəkilməyən bir şəxs var, o biri hədisin raviləri isə siqədirlər. Əbu Yəlanın isnadında isə Davud ibn Yəzid var ki, zəifidir".[776]

Yenə Heysəmi belə nəql edir:

"Zeyd ibn Ərqəmdən belə nəql edilir:

Əli camaatdan şahidlik etmələrini tələb edib dedi: "Sizi and verirəm Allaha, kim Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) "İlahi, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol", - dediyini eşidib?" Bu zaman on iki nəfər Bədr döyüşçüsü ayağa qalxıb şahidlik etdilər. Mən (həqiqəti) gizlədənlərdən idim. Buna görə də gözüm kor oldu".

Heysəmi deyir: "Bunu Təbərani "əl-Kəbir" və "əl-Əvsət" kitablarında həqiqəti gizlətmək, gözün kor olması və Əlinin qarğış etməsi məsələləri olmadan nəql etmişdir. Təbəraninin nəql etdiyi başqa bir rəvayətdə Əlinin həqiqəti gizlədənlərə qarğış etdiyi bildirilir. "Əl-Əvsət"dəki ravilər siqədir".[777]

Heysəmi deyir:

"Həbəşi ibn Cünadədən belə nəql edilir:

Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xum günündə belə dediyini eşitdim: "İlahi, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona yardım edənə yardım et, ona kömək edənə kömək et"."

Ardınca Heysəmi deyir:

"Bunu Təbərani nəql etmişdir. Raviləri siqədir".[778]

İbn Kəsir "əl-Bidayə vən-nihayə" kitabında deyir:

"Nəsai "Sünən" kitabında Muhəmməd ibn Müsənnadan, o, Yəhya ibn Həmmaddan, o, Əbu Müaviyədən, o, Əməşdən, o, Həbib ibn Əbu Sabitdən, o, Əbüt-Tüfeyldən, o da Zeyd ibn Ərqəmdən belə nəql edir:

"Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) vida həccindən qayıtdığı zaman Xum adlanan yerdə dayandı. Orada olan geniş qol-budaqlı ağacların altlarının tikanlardan təmizlənməsini əmr etdi. Sonra buyurdu: "Sanki çağırılmaq və çağırışa cavab vermək üzrəyəm. Mən sizin aranızda iki ağır əmanət qoyuram. Onların biri digərindən daha böyükdür: Allahın kitabı və itrətim – Əhli-Beytim.

---

776 "Məcməüz-zəvaid": 9/108-109.
777 "Məcməüz-zəvaid": 9/109.
778 "Məcməüz-zəvaid": 9/109.

Baxın, məndən sonra onlarla necə davranırsınız. Onlar hovuz başında mənim yanıma gəlincəyədək, əsla bir-birlərindən ayrılmayacaqlar.”

Sonra buyurdu: “Allah (əzzə və cəll) mənim mövlamdır, mən də hər bir möminin mövlasıyam.” Sonra Əlinin əlini tutub dedi: “Mən kimin mövlasıyamsa, bu da onun vəlisidir. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.

(Əbüt-Tüfeyl deyir: ) Mən Zeydə dedim: “Sən bunu Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) eşitdin?” Zeyd dedi: “O ağacların altında kim var idisə, bu hadisəni öz gözü ilə görüb qulaqları ilə eşitdi”.”

Bunun ardınca İbn Kəsir deyir:

“Hədisi bu təriqlə yalnız Nəsai nəql etmişdir. Şeyximiz Əbu Abdullah əz-Zəhəbi demişdir: “Bu, səhih və həsən hədisdir”.”[779]

Həmçinin, İbn Kəsir deyir:

“Nəsai “Xəsaisu-Əli” kitabında deyir:

Bizə Hüseyn ibn Hərb nəql edib dedi: bizə Fəzl ibn Musa Əməşdən, o, Əbu İshaqdan, o da Səid ibn Vəhbdən nəql edib dedi:

Əli Rəhbədə belə dedi: “Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona kömək edənə kömək et”, - dediyini eşidən şəxsi Allaha and verirəm (ki, şahidlik etsin)”.”

Ardınca İbn Kəsir deyir:

“Bu hədisi həmçinin, Şubə Əbu İshaqdan nəql etmişdir. Bu, ceyyid sənəddir”.[780]

Həmçinin, İbn Kəsir deyir:

“İmam Əhməd demişdir:

Bizə Əffan nəql edib dedi: bizə Əbu Əvanə Müğeyrədən, o, Əbu Übeyddən, o da Əbu Abdullah Məymundan nəql edib dedi:

Zeyd ibn Ərqəm dedi: “Allah Rəsulu ilə birgə Xum vadisi adlanan bir yerdə dayandıq. Həzrət namaz göstərişi verdi. Çox isti bir havada bizə namaz qıldırdı. Sonra Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizim üçün xütbə etdi. Günəşdən qorusun deyə bir ağacın üstünə parça atıb bununla Peyğəmbər üçün kölgəlik yaratdılar. Peyğəmbər xütbəsində buyurdu: “Məgər bilmirsiniz ki, – və ya: məgər şəhadət vermirsiniz ki – mən hər bir möminə onun özündən övlayam?” Dedilər: “Bilirik”. Dedi: “Elə isə mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.”

Sonra İbn Kəsir deyir:

“İbn Cərir demişdir:

Bizə Əhməd ibn Osman Əbul-Cəvza xəbər verib dedi: bizə Muhəmməd ibn Xalid ibn Əsmə nəql edib dedi: bizə Musa ibn Yaqub – ki o, səduqdur (doğrudanışandır) – nəql edib dedi: mənə Mühacir ibn Mismar Aişə binti Səddən nəql edib dedi:

---

[779] “əl-Bidayə vən-nihayə”: 5/228.
[780] “əl-Bidayə vən-nihayə”: 5/230.

“Atamın belə dediyini eşitdim: Allah Rəsulunun (Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır) Cuhfə günündə Əlinin əlini əlini tutaraq xütbə etdiyini, Allaha həmd-səna etdikdən sonra belə buyurduğunu eşitdim: “Ey camaat, mən sizin vəlinizəm”. Dedilər: “Doğru dedin, ey Allahın Rəsulu”. Bundan sonra Peyğəmbər Əlinin əlini tutub qaldırdı və belə dedi: “Bu da mənim vəlimdir, o, mənim adımdan çatdıran şəxsdir. Allah ona dost olana dost, düşmən olana düşməndir”.

Bunun ardınca İbn Kəsir deyir:

“Şeyximiz Zəhəbi demişdir: “Bu, həsən və qərib hədisdir”.”[781]

Təhavi “Şərhu-muşkilil-asar” kitabında deyir:

“Bizə Əhməd ibn Şüeyb nəql edib dedi: bizə Muhəmməd ibn Müsənna xəbər verib dedi: bizə Yəhya ibn Həmmad xəbər verib dedi: bizə Əbu Əvanə Süleymandan, yəni Əməşdən, o, Həbib ibn Əbu Sabitdən, o, Əbüt-Tüfeyldən, o da Zeyd ibn Ərqəmdən belə nəql etmişdir:

“Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) vida həccindən qayıtdığı zaman Xum adlanan yerdə dayandı. Orada olan geniş qol-budaqlı ağacların altlarının tikanlardan təmizlənməsini əmr etdi. Sonra buyurdu: “Sanki çağırılmaq və çağırışa cavab vermək üzrəyəm. Mən sizin aranızda iki ağır əmanət qoyuram. Onların biri digərindən daha böyükdür: Allahın kitabı və itrətim – Əhli-Beytim. Baxın, məndən sonra onlarla necə davranırsınız. Onlar hovuz başında mənim yanıma gəlincəyədək, əsla bir-birlərindən ayrılmayacaqlar.”

Sonra buyurdu: “Allah (əzzə və cəll) mənim mövlamdır, mən də hər bir mömin və möminənin mövlasıyam.” Sonra Əlinin əlini tutub dedi: “Mən kimin vəlisiyəmsə, bu da onun vəlisidir. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.

(Əbüt-Tüfeyl deyir: ) Mən Zeydə dedim: “Sən bunu Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) eşitdin?” Zeyd dedi: “O ağacların altında kim var idisə, bu hadisəni gözü ilə gördü, qulağı ilə eşitdi”.”

Bunun ardınca Təhavi deyir:

“Bu hədis səhih sənədlidir. Heç kəs bu hədisin sənədindəki ravilərdən birinə tənə etməmişdir”.[782]

Nəsai özünün “Xəsaisul-imam Əli” kitabında belə nəql edir:

“Bizə Hüseyn ibn Həris nəql edib dedi: bizə Fəzl ibn Musa Əməşdən, o, Əbu İshaqdan, o da Səid ibn Vəhbdən nəql edib dedi:

“Əli Rəhbədə belə dedi: “Sizi and verirəm Allaha, kim Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) “Allah mənim vəlimdir, mən də möminlərin vəlisiyəm, mən kimin vəlisiyəmsə, bu da onun vəlisidir. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona yardım edənə yardım et”, - dediyini eşidib?”.”

Səid deyir: “Mənim yanımdan altı nəfər ayağa qalxdı.”

Zeyd ibn Yusey isə deyir: “Mənim yanımda da altı nəfər ayağa qalxdı”.

---

[781] “əl-Bidayə vən-nihayə”: 5/232.

[782] “Tuhfətul-əxyar bi-tərtibi-şərhi-muşkilil-asar”: 9/108, hədis: 6490. Şeyx Şüeyb əl-Arnaut hədis üçün deyir: “**Raviləri siqədir. İki şeyxin raviləridir... Hədis səhihdir**”.

Əmr Zu-mur isə deyir: “...Onu sevəni sev, ona nifrət edənə nifrət et”. Sonra hədisin ardını qeyd edir. Bu hədisi İsrail Əbu İshaqdan, o da Əmr Zu-murdan nəql etmişdir”.” [783]

Kitabın mühəqqiqi Şeyx Əbu İshaq əl-Huveyni əl-Əsri hədisin səhih olduğunu bildirərək deyir: “**İsnadı səhihdir**”.[784]

Yenə Nəsai adıçəkilən kitabda belə nəql edir:

Mənə Harun ibn Abdullah əl-Bağdadi əl-Həmmal xəbər verib dedi: bizə Musab ibn Miqdam nəql edib dedi: bizə Fitr ibn Xəlifə Əbüt-Tüfeyl Amir ibn Vasilədən nəql edib dedi:

Həmçinin, bizə Əbu Davud xəbər verib dedi: bizə Muhəmməd ibn Süleyman nəql edib dedi: bizə Fitr ibn Xəlifə Əbüt-Tüfeyl Amir ibn Vasilədən nəql edib dedi:

“Əli camaatı Rəhbədə toplayıb dedi: “Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) sözünü eşidən hər bir kəsi Allaha and verirəm ki, şahidlik etsin”. (Bu zaman bir dəstə şəxs qalxıb Peyğəmbərin belə buyurduğuna şəhadət verdilər: ) “Məgər mən möminlərə onların özlərindən övla deyiləmmi?” Sonra o, Əlinin əlini tutaraq deyib: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.

Mən qəlbimdə bu barədə bir şey (inamsızlıq) olduğu halda oradan ayrıldım. (Yolda) Zeyd ibn Ərqəmlə qarşılaşdım. Hadisəni ona danışdım. Zeyd dedi: “Şəkk edirsən?!” Mən bunu Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) Əli eşitmişəm”. Hədisi Əbu Davudun nəqli əsasında qeyd etdik”.

Bunun ardınca “Xəsais” kitabının mühəqqiqi hədis barəsində belə deyir: “**İsnadı səhihdir**”.[785]

Hakim ən-Nişapuri “əl-Müstədrək ələs-səhiheyn” kitabında belə nəql edir:

Bizə Əbül-Hüseyn Muhəmməd ibn Əhməd ibn Təmim əl-Hənzəli Bağdadda nəql edib dedi: bizə Əbu Qilabə Əbdül-Məlik ibn Muhəmməd ər-Rəqaşi nəql edib dedi: bizə Yəhya ibn Həmmad nəql edib dedi:

Həmçinin, mənə Əbu Bəkr Muhəmməd ibn Baləveyh və Əbu Bəkr Əhməd ibn Cəfər əl-Bəzzar nəql edib dedilər: bizə Abdullah ibn Əhməd ibn Hənbəl nəql edib dedi: mənə atam nəql edib dedi: mənə Yəhya ibn Həmmad nəql edib dedi:

Həmçinin, bizə Əbu Nəsr Əhməd ibn Səhl əl-Fəqih Buxarada nəql edib dedi: bizə Saleh ibn Muhəmməd əl-Hafiz əl-Bağdadi nəql edib dedi: bizə Xələf ibn Salim əl-Məxrəmi nəql edib dedi: bizə Yəhya ibn Həmmad nəql edib dedi: bizə Əbu Əvanə Süleyman əl-Əməşdən (الأعمش) nəql edib dedi: bizə Həbib ibn Əbu Sabit Əbut-Tufeyldən, o da Zeyd ibn Ərqəmdən nəql edib dedi:

“Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) vida həccindən qayıtdığı zaman Xum adlanan yerdə dayandı. Orada olan geniş qol-budaqlı ağacların altlarının tikanlardan təmizlənməsini əmr etdi. Sonra buyurdu: “Sanki çağırılmaq və çağırışa cavab vermək üzrəyəm. Mən sizin aranızda iki ağır əmanət qoyuram. Onların biri digərindən daha böyükdür: Allahın kitabı və itrətim – Əhli-Beytim.

---

783 “əs-Sünənül-kübra”: 5/136, hədis: 8483, həmin mənbə: 5/131, hədis: 7471, 7472.

784 “Xəsaisul-imam Əli”: səh.99, hədis: 95.

785 “Xəsaisul-imam Əli”: səh.96, hədis: 90.

Baxın, məndən sonra onlarla necə davranırsınız. Onlar hovuz başında mənim yanıma gəlincəyədək, əsla bir-birlərindən ayrılmayacaqlar."

Sonra buyurdu: "Allah (əzzə və cəll) mənim mövlamdır, mən də hər bir möminin mövlasıyam." Sonra Əlinin əlini tutub dedi: "Mən kimin mövlasıyamsa, bu da onun vəlisidir. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol"..." hədis.

Hakim ən-Nişapuri hədisi qeyd etdikdən sonra demişdir: "Bu, iki şeyxin şərtinə əsasən səhih hədisdir, lakin onlar bunu nəql etməmişlər"[786].

Həmçinin, Ziya əl-Məqdisi "əl-Əhadisul-muxtarə" kitabında belə nəql edir:

Bizə Hafiz Əbu Tahir Əhməd ibn Muhəmməd ibn Əhməd əs-Sələfi xəbər verib dedi: bizə Əbül-Fəth Muhəmməd ibn Əhməd ibn Muhəmməd ibn Hüseyn ibn Haris əl-Müəllim xəbər verib dedi: bizə Əbu Abdullah Hüseyn ibn Əhməd ibn Muhəmməd ibn Səid ər-Razi xəbər verib dedi: bizə Əbül-Həsən Əli ibn Həssan ibn Qasim əl-Cüdeyli Bağdadda xəbər verib dedi: bizə Əbu Cəfər Muhəmməd ibn Abdullah ibn Süleyman əl-Həzrəmi nəql edib dedi: bizə Mahmud ibn Ğəylan nəql edib dedi: bizə Fəzl ibn Musa əs-Sinani nəql edib dedi: bizə Əməş Səid ibn Vəhbdən nəql edib dedi:

"Əli dedi: "Sizi and verirəm Allaha, kim Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) "Allah mənim vəlimdir, mən də möminlərin vəlisiyəm, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona yardım edənə yardım et", - dediyini eşidib?"."

Səid deyir: "Mənim yanımdan altı nəfər ayağa qalxdı."

Zeyd ibn Yusey isə deyir: "Mənim yanımda da altı nəfər ayağa qalxdı".

Darəqutniyə bu hədis barəsində sual verdikdə belə cavab verib: "Bu hədisi Əməş, Şubə və İsrail Əbu İshaqdan nəql etmiş, Əbu İshaq Səid ibn Vəhbdən, o da Əlidən nəql etmişdir." Daha sonra hədisin müxtəlif şəkillərdə nəql olunduğunu bildirərək demişdir: "Bu şəkillər içərisində doğruya ən yaxın olan Əməşin, Şubənin, İsrailin və onlara tabe olanların nəql etdiyi şəkildir. Bu hədisi Əbdür-Rəhman ibn Əbu Leyla da Əlidən nəql etmişdir"[787].

Həmçinin, Məqdisi eyni adlı kitabda deyir:

Bizə Abdullah ibn Əhməd əl-Hərbi xəbər verib dedi: bizə Əbu Müslim ibn Hibətullah ibn Huseyn xəbər verib dedi: bizə Əbu Əli ibn Məzhəb xəbər verib dedi: bizə Əbu Bəkr əl-Qətii xəbər verib dedi: bizə Abdullah ibn Əhməd nəql edib dedi: mənə atam nəql edib dedi: bizə Hüseyn ibn Muhəmməd və Əbu Nüeym əl-Məni (المَعْنِيُّ) nəql edib dedilər: bizə Fitr ibn Xəlifə Əbüt-Tüfeyldən nəql edib dedi:

"Əli camaatı Rəhbədə topladı. Sonra Allaha and verdi ki, hansı müsəlman Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) buyurduğu sözləri eşidibsə, qalxıb şəhadət versin. Bu zaman çoxlu sayda şəxs ayağa qalxıb şəhadət verdilər ki, Allah Rəsulu Əlinin əlini tutub belə buyurub: "Bilirsinizmi ki, mən möminlərə onların özlərindən övlayam?" Camaat deyib: "Bəli, ey Allahın Rəsulu". Bu zaman Peyğəmbər buyurub: "Mən kimin

---

[786] "əl-Müstədrək ələs-səhiheyn": 3/118.

[787] "əl-Əhadisul-muxtarə": 2/106, hədis: 481. Kitabın mühəqqiqi Şeyx doktor Əbdül-Məlik ibn Abdullah ibn Düheyş hədis barəsində deyir: "**İsnadı səhihdir**".

mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol. ”

Mən qəlbimdə sanki bir şey (inamsızlıq) varmış kimi oradan ayrıldım. (Yolda) Zeyd ibn Ərqəmlə qarşılaşdım. Ona dedim: “Mən Əlinin belə-belə dediyini eşitdim”. Zeyd dedi: “Niyə inkar edirsən? Mən Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) bu sözü ona dediyini eşitmişəm”.”

Bu hədisi Əbu Hatim əl-Bəsti Abdullah əl-Əzdidən, o, İshaq ibn İbrahimdən, o, Əbu Nüeym və Yəhya ibn Həmmaddan, onlar da Fitr ibn Xəlifədən bu şəkildə nəql etmişdir.”[788]

Həmçinin, Məqdisi belə nəql edir:

Bizə bu sənədlə Abdullah ibn Əhməd nəql edib dedi: bizə Əli ibn Həkim əl-Əvdi nəql edib dedi: bizə Şərik Əbu İshaqdan, o da Səid ibn Vəhbdən və Zeyd ibn Yuseydən nəql edib dedi:

“Əli Rəhbədə camaata and verdi ki, hansı müsəlman Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) dediyi sözləri eşidibsə, qalxıb şəhadət versin. Bu zaman Səid tərəfdən altı nəfər, Zeyd tərəfdən də altı nəfər qalxıb şəhadət verdilər ki, onlar Qədir-Xum günündə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) Əli barəsində belə dediyini eşidiblər: “Məgər Allah möminlərə övla deyilmi?” Bu zaman camaat deyib: “Övladır”. Peyğəmbər deyib: “İlahi, mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.”[789]

Həmçinin, İbn Həcər “əs-Səvaiqul-muhriqə” kitabında deyir:

“Təbərani və başqaları səhih sənədlə Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) belə nəql ediblər:

Peyğəmbər Qədir-Xum adlanan yerdə, ağacların altında xütbə edib dedi: “Ey camaat! Hər şeydən incəliyinə qədər xəbərdar olan Allah mənə xəbər verib ki, hər bir peyğəmbər özündən öncəki peyğəmbərin yaşadığı müddətin yarısı qədər yaşayıb. Mən çağrılmağıma və çağırışa cavab verməyimə az qaldığını düşünürəm. Həqiqətən də mən məsulam, siz də məsulsunuz. Elə isə nə deyirsiniz?” Camaat dedi: “Biz sənin (Rəbbinin göstərişlərini) çatdırdığına, cihad etdiyinə və nəsihət verdiyinə şəhadət veririk”. Peyğəmbər dedi: “Bəs şəhadət verirsinizmi ki, Allahdan başqa ilah yoxdur, Muhəmməd Onun qulu və elçisidir, Cənnət və Cəhənnəm haqqdır, ölüm haqqdır, öldükdən sonra dirilmə haqqdır, qiyamət günü haqqdır; onda heç bir şübhə yoxdur və Allah qəbirlərdə olanı dirildəcək?” Dedilər: “Bəli, şəhadət veririk”. Peyğəmbər dedi: “İlahi, şahid ol”. Sonra dedi: “Ey camaat! Allah mənim mövlamdır, mən də möminlərin mövlasıyam. Mən möminlərə onların özlərindən övlayam. Elə isə mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), bu da – yəni, Əli də – onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”...”[790]

---

[788] “əl-Əhadisul-muxtarə”: 2/173-174, hədis: 553. Kitabın mühəqqiqi Şeyx doktor Əbdül-Məlik ibn Abdullah ibn Düheyş hədis barəsində deyir: “**İsnadı həsəndir**”.

[789] “əl-Əhadisul-muxtarə”: 2/105, hədis: 480. Kitabın mühəqqiqi deyir: “**İsnadı həsəndir**”.

[790] “əs-Səvaiqul-muhriqə”: 1/108.

Həmçinin, Məhamili "Əmali" kitabında deyir:

"Bizə Əbdül-Əla ibn Vasil nəql edib dedi: bizə Malik ibn İsmayıl Cəfər ibn Ziyad əl-Əhmərdən, o, Yəzid ibn Əbu Ziyaddan və Müslim ibn Salimdən, onlar da Əbdür-Rəhman ibn Əbu Leyladan nəql edib dedi:

"Əlinin camaata səslənib belə dediyini eşitdim: "Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) dediyi sözü eşidən hər bir müsəlmanı Allaha and verirəm ki, qalxıb şahidlik etsin". Bu zaman Bədr döyüşçülərindən olan on iki nəfər şəxs ayağa qalxıb dedilər: "Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlinin əlini tutub qaldırdı və belə dedi: "Ey camaat, məgər mən"..." Qazının hədisində hədis burada dayanır, hədisin sonunda belə deyilir: "Ona dost olana dost ol, ona düşmən olana düşmən ol"."[791]

Bu hədisin sənədi səhihdir. Belə ki, Məhamili bu hədisi Əbdül-Əla ibn Vasildən nəql etmişdir. O isə siqə və doğrudanışandır. Zəhəbi[792], İbn Həcər[793], Nəsai və Darəqutni[794] onu siqə hesab edib. İbn Hibban onu "əs-Siqat" ("Siqə şəxslər") əsərində qeyd edib[795]. İbn Əbu Hatim də onun barəsində, "səduqdur (doğrudanışandır)", - deyib[796]. Tirmizinin və Nəsainin ravilərindəndir. Malik ibn İsmayıl hafiz, siqə və mutqindir. Altı kitab müəllifinin hamısı ondan hədis nəql edib[797]. Cəfər ibn Ziyad əl-Əhmər siqə və doğrudanışandır. İcli[798], Yəhya ibn Məin[799] və Yaqub ibn Süfyan[800] onu siqə hesab edib. Əbu Davud[801], Əbu Zərə[802], İbn Həcər[803] və Zəhəbi[804] onun üçün, "səduqdur", - deyib. Əhməd ibn Hənbəl onun barəsində, "hədisləri yaxşıdır", - deyib[805]. Nəsai onun barəsində "onda bir problem yoxdur", - deyib[806]. O, hədisi Yəzid ibn Əbu Ziyad və Müslim ibn Salimdən nəql edir. Yəzid ibn Əbu Ziyada gəlincə, siqə və doğrudanışan olsa da, bəzi rical alimləri yaddaşının zəif olmasına görə onu zəif hesab ediblər. Lakin, onunla yanaşı Müslim ibn Salimin adı qeyd olunur ki, o da siqə və səduqdur. Tirmizidən başqa altı kitab müəlliflərinin hamısı ondan hədis nəql ediblər. İbn Məin onu siqə bilib[807]. İbn Həcər onun barəsində, "səduqdur", - deyib[808]. İbn Hibban onu "əs-Siqat" əsərində qeyd edib[809]. Əbu Hatim onun barəsində, "hədisləri yaxşıdır, onda bir problem yoxdur", - deyib[810]. Yaqub ibn Süfyan onun barəsində "onda bir problem

791 "Əmali": səh.161-162.
792 "əl-Kaşif": 1/611.
793 "Təqribüt-təhzib": 1/332.
794 "Təhzibüt-təhzib": 6/92.
795 "əs-Siqat": 6/92.
796 "Təhzibüt-təhzib": 6/92.
797 Onun tərcümeyi-halına bax: "Təzkirətül-huffaz": 1/402, rəqəm: 404.
798 "Mərifətüs-siqat": 1/268.
799 "əl-Cərh vət-tədil": 2/480.
800 "Təhzibül-kəmal": 5/40.
801 "Tarixul-İslam": 10/105.
802 "əl-Cərh vət-tədil": 2/480.
803 "Təqribüt-təhzib: 1/140.
804 "Mən tukullimə fihi və huvə muvəssəq": səh.59.
805 "əl-Cərh vət-tədil": 2/480.
806 "Təhzibül-kəmal": 5/41.
807 "Mizanul-itidal": 6/416.
808 "Təqribüt-təhzib": 10/117.
809 "əs-Siqat": 5/390.
810 "Təhzibüt-təhzib": 10/117.

yoxdur”, - deyib[811]. Əbdür-Rəhman ibn Əbu Leylaya gəlincə isə, siqədir, altı kitab müəlliflərinin hamısı ondan hədis nəql ediblər[812].

Həmçinin, Abdullah ibn Əhməd atasının “Müsnəd” kitabına yazdığı əlavələrdə belə nəql edir:

Mənə Übeydullah ibn Ömər əl-Qəvariri nəql edib dedi: bizə Yunis ibn Ərqəm nəql edib dedi: bizə Yəzid ibn Əbu Ziyad Əbdür-Rəhman ibn Əbu Leyladan nəql edib dedi:

“Əlinin Rəhbədə camaata and verib belə dediyini eşitdim: “Allaha and verirəm, hər kəs Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”, - dediyini eşidibsə, ayağa qalxıb şəhadət versin.” Bu zaman Bədr əshabından olan on iki nəfər şəxs – sanki indi də onları görürəm – ayağa qalxıb dedilər: “Biz Allah Rəsulunun Qədir-Xum günündə belə dediyini eşitdik: “Məgər mən möminlərə onların özlərindən övla deyiləmmi və mənim xanımlarım onların anaları deyilmi?”.” Dedik: “Elədir, ey Allahın Rəsulu”. Buyurdu: “Elə isə mən kimin mövlasıyamsa, (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol””[813].

İbn Macə “Sünən” kitabında belə nəql edir:

Bizə Əli ibn Muhəmməd nəql edib dedi: bizə Əbül-Hüseyn nəql edib dedi: mənə Həmmad ibn Sələmə Əli ibn Zeyd ibn Cudandan (جدعان), o, Ədiy ibn Sabitdən, o da Bəra ibn Azibdən nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birgə həccdən qayıtdıq. Peyğəmbər Yolların (mənzillərin) birində dayandı. Cəmiyyət namazı təşkil olunmasını əmr etdi. (Namazdan sonra) Əlinin əlini tutub dedi: “Məgər mən möminlərə onların özlərindən daha üstün deyiləm?” Dedilər: “Üstünsən”. Buyurdu: “Məgər mən hər bir möminə onun özündən daha üstün deyiləm?” Dedilər: “Üstünsən”. Buyurdu: “Mən kimin mövlasıyamsa, bu da onun vəlisidir. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”.”[814]

Hələbi deyir:

“Bəzilərinin dediyi “hədisin “İlahi, ona dost olan dost ol, ona düşmən olana düşmən ol” hissəsi uydurmadır” – sözünə gəlincə, bu söz batildir. Bu cümlə bir sıra təriqlərlə nəql olunub ki, Zəhəbi bu təriqlərin bir çoxunu səhih hesab edib”[815].

Alusi “Ruhul-məani” kitabında deyir:

“Zəhəbi “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır” cümləsinin mütəvatir olduğunu, Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) bunu söylədiyi barədə yəqinlik və qəti inam hasil olduğunu demiş, “İlahi, ona dost olana

---

811 “Təhzibüt-təhzib”: 10/117.

812 Onun tərcümeyi-halına bax: “Təhzibül-kəmal”: 17/372, rəqəm: 3943.

813 “Müsnədü-Əhməd”: 2/22, hədis: 961. Kitabın mühəqqiqi Əhməd Muhəmməd Şakir hədis barəsində deyir: “**İsnadı səhihdir**”.

814 “Sünənü-İbn Macə”: 1/43, hədis: 116. Şeyx Muhəmməd Muhəmməd Nasiruddin əl-Əlbani “Səhihsü-sünəni-İbn Macə” kitabında (1/56) hədis üçün belə deyir: “**Səhihdir**”.

815 “əs-Sirətül-hələbiyyə”: 3/336.

dost ol, ona düşmən olana düşmən ol" cümləsinin isə güclü sənədlərlə nəql olunduğunu bildirmişdir"[816].

İbn Həcər demişdir:

"Bəzilərinin dediyi "hədisin "İlahi, ona dost olan dost ol, ona düşmən olana düşmən ol" hissəsi uydurmadır" – sözünə gəlincə, bu söz batildir. Bu cümlə bir sıra təriqlərlə nəql olunub ki, Zəhəbi bu təriqlərin bir çoxunu səhih hesab edib"[817].

Əcluni demişdir:

""Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır". Bu hədisi Təbərani, Əhməd və Ziya Zeyd ibn Ərqəmdən, Əlidən və 30 səhabədən "İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol" – sözü ilə birgə nəql edibdir. Hədis mütəvatir və ya məşhurdur"[818].

Əlbani "Silsilətül-əhadisis-səhihə" kitabında Qədir-Xum hədisinin bir çox təriqlərini qeyd edib onların bir çoxuna səhih hökmü verdikdən sonra deyir:

"Hədisin başqa çoxlu təriqləri də vardır. Onların böyük bir hissəsini Heysəmi "Məcməüz-zəvaid" (9/103-108) kitabında toplayıb. Mən bu təriqlərdən mənə müyəssər olan qədərini qeyd etdim. Yoxsa ki, hədisin təriqləri olduqca çoxdur. Bu qeyd etdiyim qədər ilə tanış olan kəs hədisin səhih olduğuna qəti şəkildə əmin olur. İbn Üqdə bu hədisin təriqlərini ayrıca bir kitabda toplamışdır. Hafiz ibn Həcər isə "bu təriqlər arasında səhih və həsən olanlar var", - demişdir.

Xülasə desək, bu hədis hər iki hissəsi ilə [819] səhihdir. Birinci hissə mütəvatirdir. Necə ki, hədisin təriqlərinə və sənədlərinə nəzər salan şəxs bunu görə bilər. Təkcə mənim qeyd etdiyim qədər belə kifayət edir"[820].

## Osman əl-Xəmis hədis alimlərinin təsbit etdiyi "təvatürlük" prinsipinə müxalifətçilik edir

Oxucunun diqqətinə çatdırmaq istədiyimiz başqa bir mühüm nüans odur ki, əhli-sünnə alimlərinin nəzərinə əsasən, mütəvatir hədisinin ravilərinin siqə olub-olmamasını araşdırmaq lazım deyil. Bunun səbəbi belə bir hədisin çoxlu sənəd və təriqlərinin olmasıdır. Belə ki, bu qədər sənəd və təriq bu qədər ravinin yalan danışmadığını, yaxud xəta etmədiyini deməyə əsas verir. Bu da öz növbəsində belə bir hədisin səhihliyi barəsində arxayınlıq və xatircəmlik hasil edir.

Bunu bir sıra əhli-sünnə alimləri öz sözlərində ifadə etmişlər.

Cəlaləddin əs-Süyuti "Tədribür-ravi" kitabında yazır:

[816] "Ruhul-məani": 6/195.
[817] "əs-Səvaiqul-muhriqə": 1/106.
[818] "Kəşfül-xəfa": 2/361.
[819] Birinci hissə: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır", ikinci hissə: "İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol". (Tərc.).
[820] "Silsilətül-əhadisis-səhihə": 4/343.

“Mütəvatir hədisə onun ravilərini araşdırmadan əməl etmək lazımdır. Ən doğru nəzərə əsasən, ravilərinin sayı üçün müəyyən bir ədəd nəzərdə tutulmur”[821].

Doktor Muhəmməd Əccac əl-Xətib yazır:

“Mütəvatir hədisin raviləri araşdırılmaz. Əksinə, ona onun ravilərini araşdırmadan əməl etmək lazımdır”[822].

Elə isə bir çox təriqləri səhih, bir çoxu da həsən olan Qədir-Xum hədisinə nə deməli!

Osman əl-Xəmis Qədir-Xum hədisindəki “İlahi, ona dost olana dost ol...” cümləsini uydurma adlandırarkən öz hökmünü dəstəkləyəcək, hədisin bu cümləsinin uydurma olduğunu isbat edəcək heç bir dəlil ortaya qoymayıb. Əksinə, ürəyi necə istəyib elə də hökm verib.

Görəsən, bu cümlənin səhih olduğunu bildirən alimlər əhli-sünnənin sayılıb seçilən və etimad göstərilən alimləri deyillər?

Görəsən, bu cümlənin işləndiyi hədislərin sənədlərində adları çəkilən ravilər əhli-sünnə alimlərinin nəzərində siqə və güvənilir şəxslər deyillər?

Olmaya Osman əl-Xəmisin iddia etdiyi Əli (əleyhissəlam) məhəbbəti onu bu işi görməyə vadar edib?!

## Osman əl-Xəmisin öz məzhəbinin alimlərinin İbn Teymiyyəyə rəddiyyə verdiklərindən xəbəri yoxdur

Qədir-Xum hədisi səhih, sabit və hər iki hissəsi ilə birlikdə mütəvatir olan bir hədisdir. Hətta Osman əl-Xəmisin yalan olduğunu dediyi bəzi əlavələr belə səhih sənədlərlə nəql olunub. Osman əl-Xəmis hədisin ikinci hissəsinə “səhih deyil”, “İlahi, ona dost olana...” əlavəsinə də “yalandır” hökmünü verərkən, İbn Teymiyyə əl-Hərraninin, onun kimi digər nasibilərin və onların yolu ilə addımlayan başqa şəxslərin yolu ilə gedib. Belə ki, İbn Teymiyyə hədisin birinci hissəsini zəif, ikinci hissəsini isə yalan adlandırıb[823].

Əlbani “Silsilətül-əhadisis-səhihə” kitabında İbn Teymiyyənin sözünü rədd edərək, hədisin birinci hissəsinin mütəvatir, ikinci hissəsinin isə səhih olduğunu sübut edib. Bunun ardınca İbn Teymiyyəni hədisləri qiymətləndirərkən tələskənlik etməkdə, hədisin bütün təriqlərini yığıb gözdən keçirmədən hədisə zəif hökmü verməkdə ittiham edib. Əlbani yazır:

“Məni bu hədis barəsində ətraflı danışmağa və onun səhihliyini bəyan etməyə sövq edən amil bu oldu ki, mən Şeyxül-İslam İbn Teymiyyənin bu hədisin birinci hissəsini zəif hesab etdiyini, ikinci hissəsinin isə yalan olduğunu iddia etdiyini gördüm. Bu, onun mübaliğələrindən biridir. Mənim qənaətimcə, bu iş onun hədislərin təriqlərini toplayıb onları diqqətlicə gözdən keçirmədən onlara zəif hökmü verməyə tələsməsindən qaynaqlanır. Allah yeganə yardımçıdır!”[824].

---

[821] “Tədribür-ravi”: 2/176.
[822] “əl-Müxtəsərül-vəciz fi ulumil-hədis”: səh.125.
[823] “Məcmuul-fətava”: 4/417-418.
[824] “Silsilətül-əhadisis-səhihə”: 4/334.

Şeyx Əbu İshaq əl-Hüveyni əl-Əsri isə İbn Teymiyyənin bu hədisi təkzib etməsin hədis elminin qayda-qanunlarına müxalifətçilik hesab etmişdir. Belə ki, yazır:

"Bir qeyd: Gördüyün kimi, "mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" – hədisi səhih hədisdir. Şeyxul-İslam İbn Teymiyyənin onun yalan olduğunu deməsi hədis qayda-qanunlarına müxalifdir. Ustad Muhəmməd Xəlil Hərras da İbn Xüzeymənin "Tövhid" kitabına (səh.32) yazdığı sətiraltı qeyddə İbn Teymiyyənin bu fikrinə tabe olaraq tam əminliklə belə demişdir[825]: "Hədis səhih deyildir. O, şiələrin uydurmasına bənzəyir"!!! Hafiz əz-Zəhəbi "Siyərü-əlamin-nübəla" kitabında (5/415) hədis üçün "hədis heç şübhəsiz ki, sabitdir", - demişdir. Həmçinin, "Təzkirətül-hüffaz" kitabında (2/713) İbn Cəririn tərcümeyi-halında belə demişdir: "İbn Cərirə Əbu Davudun Qədir-Xum hədisi barədə mənfi danışdığı xəbəri çatınca, "Fadail" kitabını yazır və burada hədisin səhih olması barəsində danışır. Mən İbn Cəririn bu hədisin təriqlərinə dair bir cildlik bir kitabını gördüm. Mən həm kitaba, həm də hədisin çoxlu təriqlərinə baxıb dəhşətə gəldim"..."[826].

Bəli, İbn Teymiyyə əl-Hərrani bu şərafətli hədisi və İmam Əli (əleyhissəlam) barəsində gəlib çatan bir çox başqa hədisləri təkzib etməklə hədis elminin qaydalarına zidd davranmış, öz məzhəb alimlərinin hədisə hökm verərkən əsaslandıqları prinsipləri ayaqlar altına almışdır. Onun bu hədisə zəif hökmü verməsi onun kor təəssübkeşliyindən və dərin kin-nifrətindən qaynaqlanır. Hətta, İbn Teymiyyə bununla da kifayətlənməmiş, əksinə işi İmam Əlini (əleyhissəlam) təhqir edib alçaltmağa qədər aparıb çıxarmışdır!

İbn Həcər "Lisanül-mizan" kitabında Əllamə Hillinin atasından danışarkən deyir:

"İbn Teymiyyənin Hillinin sözünü zəif çıxarmağa çalışarkən etdiyi nə çox mübaliğələr vardır ki, bu mübaliğələr Əlinin (Allah ondan razı olsun) alçaldılmasına gətirib çıxarıb!"[827]

Əllamə Ələvi ibn Tahir əl-Həddad yazır:

"İbn Teymiyyənin "Minhacüs-sünnə" kitabında elm, marrif və dəlil qəlibində Əmirəlmöminin Əliyə, Zəhra əl-Bətula, Həsəneynə və onların övladlarına ünvanlanmış elə söyüş və tənələr var ki, insanın bədəni lərzəyə gəlir, qəlbi tir-tir titrəyir. Nasibilərin və xəvariclərin onun bu kitabına meyl salmaları məhz bu kitabın onların onların havalarını çalmasına və onların istəklərinə uyğun olmasına görədir. Elə isə ondan da, nasibi və xəvariclərdən də uzaq ol"[828].

"İlahi, Əli harada olursa olsun, haqqı onunla birgə qərar ver" cümləsinə gəlincə, bu cümlə də Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Əli (əleyhissəlam) barədə buyurduğu kəlamlardandır. Bir çox əhli-sünnə alimi Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Qədir-Xum günündə bu sözü

---

[825] **Deyirəm: Bir bu əl-Hərrasa baxın! Görün necə hədisin səhih olmadığını deyib şiələri onu qondarmağda ittiham edir. Halbu ki, daha öncə də qeyd olunduğu kimi, hədis səhih, sabit və mütəvatir bir hədsidir və bir çox əhli-sünnə alimi onun səhihliyinə və mütəvatirliyinə hökm verib.**

[826] "Xəsaisül-imam Əli": səh.92-nin haşiyəsi. Əbu İshaq əl-Hüveyninin təhqiqi ilə.

[827] "Lisanül-mizan": 6/319.

[828] Onun bu sözünü Şeyx Abdullah əl-Hərəri "əl-Məqalatus-səniyyə fi kəşfi zəlalati-İbn Teymiyyə" kitabında nəql edib: səh.340.

buyurduğunu qeyd etmişdir. Əllamə Şeyx Muhəmməd əs-Səbban "Nurul-əbsar" kitabının ardında çap olunan "İsafur-rağibin" kitabında (səh.167) deyir:

"Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) Qədir-Xum günündə buyurub: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, onu sevəni sev, ona nifrət edənə nifrət et, ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy, o harada olursa olsun, haqqı onunla birgə et". Bu hədisi 30 səhabə Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) nəql edib. Onun bir çox təriqləri səhih və həsəndir"[829].

Şeyx Hüsaməddin əl-Mərdi əl-Hənəfi özünün "Alu-Muhəmməd" kitabının 454-cü səhifəsində deyir:

"Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) buyurub: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, onu sevəni sev, ona nifrət edənə nifrət et, ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy, o harada olursa olsun, haqqı onunla birgə et"."[830]

Şeyx Əllamə Muhəmməd ibn Əli əl-Hənəfi əl-Misri "İthafu-əhlil-İslam" kitabında deyir:

"Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xum günündə dedi: "Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) buyurub: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, onu sevəni sev, ona nifrət edənə nifrət et, ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy, o harada olursa olsun, haqqı onunla birgə et"."[831]

Əllamə Seyyid Xacə Mirmuhəmmədi özünün "İlmul-kitab" kitabında 261-ci səhifədə deyir:

"Səhabələrin əksəriyyəti nəql edib ki, Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) Qədir-Xumda dayandığı vaxt belə deyib: "Bilirsiniz ki, mən hər bir döminə onun özündən övlayam?" Camaat deyib: "Bəli, bilirik". Peyğəmbər deyib: "İlahi, mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, onu sevəni sev, ona nifrət edənə nifrət et, ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy, o harada olursa olsun, haqqı onunla birgə et". Bundan sonra Ömər Əlinin yanına gəlib deyib: "Xoş halına, ey Əbu Talibin oğlu! Hər bir möminin mövlası oldun"."[832]

İbn Əbdü-Rəbbih deyir:

"Əli on yaşında ikən müsəlman olub. O, Allahdan başqa ilah olmadığına və Muhəmmədin Onun elçisi olduğuna ilk şəhadət verən kəsdir. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onun barəsində belə buyurub: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən

---

[829] Seyyid Mərəşi ondan nəqlən bunu "İhaqul-haqq" kitabında (6/292), Seyyid Milani də "Nəfəhatul-əzhar" kitabında (7/217) qeyd etmişdir.

[830] Seyyid Mərəşinin nəqli, "İhqaqul-haqq": 21/58.

[831] "İthafu-əhlil-İslam": səh.67.

[832] Seyyid Mərəşinin nəqli əsasında, "İhqaqul-haqq": 6/290.

olana düşmən ol, ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy, o harada olursa olsun, haqqı onunla birgə et”...”[833].

Əbdül-Məlik əş-Şafei əl-Asimi əl-Məkki deyir:

“Təbərani Qədir-Xum hədisini səhih sənədlə belə nəql edib: Peyğəmbər Zil-hiccə ayının 8-də vida həccindən qayıdan zaman Qədir-Xumda, ağacların altında xütbə etdi. Həmin vaxt zöhr namazı qılındıqdan sonra ağacların altı (tikanlardan) təmizləndi, Peyğəmbər də xütbə edib dedi: “Ey camaat! Hər şeydən incəliyinə qədər xəbərdar olan Allah mənə xəbər verib ki, hər bir peyğəmbər özündən öncəki peyğəmbərin yaşadığı müddətin yarısı qədər yaşayıb. Mən çağrılmağıma və çağırışa cavab verməyimə az qaldığını düşünürəm. Həqiqətən də mən məsulam, siz də məsulsunuz. Elə isə nə deyirsiniz?” Camaat dedi: “Biz sənin (Rəbbinin göstərişlərini) çatdırdığına, cihad etdiyinə və nəsihət verdiyinə şəhadət veririk”. Peyğəmbər dedi: “Bəs şəhadət verirsinizmi ki, Allahdan başqa ilah yoxdur, Muhəmməd Onun qulu və elçisidir, Cənnət və Cəhənnəm haqqdır, ölüm haqqdır, öldükdən sonra dirilmə haqqdır, qiyamət günü haqqdır; onda heç bir şübhə yoxdur və Allah qəbirlərdə olanı dirildəcək?” Dedilər: “Bəli, şəhadət veririk”. Peyğəmbər dedi: “İlahi, şahid ol”. Sonra dedi: “Ey camaat! Allah mənim mövlamdır, mən də möminlərin mövlasıyam. Mən möminlərə onların özlərindən övlayam” – başqa bir hədisdə: “Məgər bilmirsiniz ki, mən möminlərə onların özlərindən övlayam?” Dedilər: “Bilirik”. Bu zaman Peyğəmbər dedi: – “Elə isə mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), bu da – yəni, Əli də – onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy, o harada olursa olsun, haqqı onunla birgə et”.

Sonra dedi: “Ey camaat! Mən (hovuz başına) sizdən tez çatacağam. Siz də hovuz başında mənim yanıma gələcəksiniz. O, genişliyi Busra və Səna arası məsafə qədər olan bir hovuzdur. Orada səmanın ulduzlarının sayı qədər gümüş qədəhlər vardır. Siz mənim yanıma gəldiyiniz zaman mən sizdən (əmanətlərimə necə davrandığınızı) soruşacağam. Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm, baxın görün məndən sonra onlarla necə davranırsınız. Böyük əmanət Allahın kitabıdır. O, bir ucu Allahın, bir ucu da sizin əlinizdə ola bir ipdir. Ondan yapışın, azmayın, (əqidənizi) dəyişməyin. (Digər əmanət isə) itrətim – Əhli-Beytimdir. Hər şeydən incəliyinə qədər xəbərdar olan Allah mənə onların hovuz başında mənim yanıma gəlincədəyək əsla bir-birlərindən ayrılmayacaqlarını xəbər verib”.”[834]

Yenə Asimi deyir:

“Bəra ibn Azibdən belə nəql olunur: ”

Bir səfərdə Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birgə idik. Xum çölündə dayandıq. Camaat namazı üçün çağırış edildi. Bir ağacın altını Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) üçün təmizlədilər. Peyğəmbər zöhr namazını qıldı. Sonra Əlinin əlini tutub dedi: “Məgər bilmirsiniz ki, mən möminlərə onların özlərindən daha üstünəm?” Dedilər: “Bəli, bilirik”. Buyurdu:

---

833 Seyyid Mərəşinin nəqli əsasında, “İhqaqul-haqq”: 6/290.

834 “Simtun-nucumil-əvali”: 2/379.

"İlahi, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol, ona kömək edənə kömək et, onuköməksiz qoyanı köməksiz qoy, o harada olursa olsun, haqqı onunla birgə et"." Əhmədin "Mənaqib" kitabında nəql etdiyi hədisdə "onu sevəni sev, ona nifrət edənə nifrət et" – cümləsini də vardır. Bu hədisi 18-dən çox səhabə nəql edib. Bundan sonra Ömər Əlinin yanına gəlib ona dedi: "Xoş halına, ey Əbu Talibin oğlu! Sən hər bir mömin və mömin ənin mövlası oldun!"[835].

Fəxri-Razi öz təfsir kitabında belə deyir:

"Kim Əli ibn Əbu Talibin ardınca getsə, hidayət olub. Dəlil də Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) bu sözüdür: "İlahi, Əli harada olursa olsun, haqqı onunla birgə et"."[836]

**Osman əl-Xəmisin Qədir-Xum xütbəsinin səbəbini təhrif etməyə çalışması**

Osman əl-Xəmis deyir:

"Qədir-Xum hədisi Əlidən – Allah ondan razı olsun – də nəql olunmuşdur. Əli Kufənin Rəhbə məntəqəsində olarkən belə deyir: "Kim Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xum günündə mənim barəmdə "mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır", - dediyini eşidib?". Bu zaman on iki nəfər Bədr döyüşçüsü qalxıb şahidlik edirlər. Gəlin əvvəlcə Peyğəmbərin Əli üçün dediyi bu sözün səbəbini qeyd edək.

Şiələr iddia edirlər ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) sayı 100 mindən artıq olan o qədər camaatı o cür isti gündə Cuhfədə - Xum çölündə məhz məsələni onlara izah etməkdən ötrü, yəni "mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır", - deməkdən ötrü toplayıb. Daha öncə də dediyim kimi, onlar bu hədisə başqa əlavələr də edirlər[837]. Bu sözün səbəbi iki şeydir:

Birinci: Büreydə ibn əl-Həsibdən – Allah ondan razı olsun – belə nəql edilir:

Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Əlini xümsü almaqdan ötrü Xalid ibn Vəlidin yanına göndərdi. Mən Əliyə nifrət bəsləyirdim. Mən (Əlinin yanına getdikdə) onun qüsul aldığını gördüm. Xalidə "görürsən bunu?!", - dedim. Peyğəmbərinin (sallallahu əleyhi [və alihi] və səlləm) yanına gəldikdə hadisəni ona nəql etdim. Peyğəmbər dedi: "Ey Bureydə, Əliyə nifrət bəsləyirsən?" Dedim: "Bəli". Dedi: "Ona nifrət bəsləmə. Onun xümsdəki payı bundan daha çoxdur". Bu hədisi Buxari öz "Səhih" kitabında nəql etmişdir. Tirmizinin nəql etdiyi bir hədisdə isə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) Bureydəyə belə dediyi qeyd olunur: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".

İkinci: Beyhəqi Əbu Səiddən nəql edir ki, Əli döyüşçülərə sədəqə malından olan dəvələrə minməməyi əmr edir. Sonra onların üzərinə bir nəfəri təyin edib, özü Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) yanına yollanır. Lakin yolda bir-birləri ilə qarşılaşıca, Əli başçı təyin etdiyi adamın camaata dəvələrə minmək

---

[835] "Simtun-nucumil-əvali": 3/35-36.

[836] "Təfsirül-Quranil-Əzim" ("Təfsirür-Razi): 1/205.

[837] Daha əvvəl qeyd etdik ki, Osman əl-Xəmisin "şiələrin əlavələri" adlandırdığı bu əlavələri elə əhli-sünnə nəql etmiş və səhih bilmişdir.

icazəsi verdiyini görür. Onları və dəvələrin üzərindəki minilmə əlamətini görüncə, qəzəblənir və öz yerinə qoyduğu adamı danlayır.

Əbu Səid deyir: Mədinəyə çatdıqda Əlidən gördüyümüz sərtlik və təzyiqi Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) danışdıq.

Başqa bir hədisdə deyilir ki, ələ keçirilən qənimət yaxşı növdən olan təzə paltarlar imiş və səhabələr onları geyinmək istəmişlər, lakin Əli onlara icazə verməmişdir.

Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Əbu Səidə deyir: "Qardaşın Əli barəsində dediyin sözləri saxla, Səd ibn Malik. Allaha and olsun, mən onun Allah yolunda sərt olduğunu bilirəm". İbn Kəsir bu hədis barəsində "isnadı Nəsainin şərtinə əsasən, ceyyiddir (çox yaxşıdır). Beyhəqi və başqaları bunu nəql etmişlər", - demişdir.

İbn Kəsir deyir: "Sədəqə dəvələrindən istifadəyə icazə verməməsi və öz naibi tərəfindən qoşun üzvlərinə paylanılan paltarları geri qaytarması səbəbindən – Allah daha yaxşı bilər –Əli barəsində narazılıq artınca, Peyğəmbər həcc əməllərini bitirib həccdən Mədinəyə qayıdarkən Qədir-Xum adlanan yerdə camaata xütbə edib Əlini müdafiə etdi. Bir çoxunun qəlbində yaranan narazılığı aradan aparmaq üçün onu tərifləyib fəzilət və üstünlüyünü qeyd etdi".

Deməli hədisin səbəbi məhz budur. Camaat Əli barəsində narazılıq etmiş, Peyğəmbər də Mədinəyə qayıdanadək sözünü ertələmişdir. Peyğəmbər həccdə və ya ərəfə günündə heç nə danışmamış, sözünü qayıdıncayadək ertələmişdir. Nə üçün? Çünki bu məsələ Mədinə camaatına aid bir məsələ idi. Çünki Əli barəsində narazılıq edənlər mədinəlilər idilər və hərbi yürüşdə Əli ilə birgə iştirak edənlər də məhz onlar idilər." [838]

**Deyirəm:**

**Birincisi:** Osman əl-Xəmisin etdiyi iddia – Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) o çox isti yay günündə camaatı məhz Əlini (əleyhissəlam) sevmələrini, ona məhəbbət bəsləmələrini və onu təhqir etməmələrini onlardan tələb etmək üçün və Əlinin fəzilətinə diqqət çəkmək üçün toplayıb – heç bir dəlili olmayan quru bir iddiadır. Bu, onların uydurub ortaya atdıqları sözlərdəndir. Qədir-Xum hadisəsindən bəhs edən hədislərin heç birində belə bir şeyə işarə edilmir.

**İkincisi:** Osman əl-Xəmis Tirmiziyə bir hədis nisbət vermiş və həmin hədisdə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Büreydəyə "mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır", - dediyini bildirmişdir. Ardınca kitabın haşiyəsində hədisin ünvanını qeyd etmişdir: "Sünənüt-Tirmizi", "mənaqib" kitabı, "Əlinin fəzilətləri" bölməsi, hədis: 3712. Biz "Sünənüt-Tirmizi"ə, "mənaqib" kitabına, "Əli ibn Əbu Talibin fəzilətləri" bölməsinə müraciət etdik, lakin belə bir hədis tapmadıq! Bəli, burada 3713 nömrəli bir hədisdə Qədir-Xum hadisəsindən bəhs edən bir hədis var, lakin bu hədisdə də nə Büreydədən, nə də Peyğəmbərin ona bu cümləni deməsindən danışılır!

---

[838] "Tarixdən bir an": səh.182-184.

Osman əl-Xəmisin qeyd etdiyi rəqəm altında ("Sünənüt-Tirmizi": 5/632, hədis: 3712) mövcud olan hədisə gəlincə isə, hədis belədir:

Bizə Qüteybə nəql edib dedi: bizə Cəfər ibn Süleyman əd-Dabi Zeyd ər-Rəşkdən, o, Mütərrif ibn Abdullahdan, o da İmran ibn Huseyndən nəql edib dedi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bir qoşun göndərdi və qoşuna Əli ibn Əbu Talibi başçı qoydu. Əli qoşunla getdi və (döyüşdə) bir cariyə ələ keçirdi. (Səhabələr) onun bu işindən xoşlanmadılar. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) əshabından olan dörd nəfər sözləşib dedilər: "Allah Rəsulu ilə görüşdükdə, Əlinin etdiyini ona xəbər verəcəyik". O zamanlar müsəlmanlar bir səfərdən qayıtdıqda birinci Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) baş çəkər, ona salam verər, sonra öz evlərinə yollanardılar. Qoşun Mədinəyə çatdıqda qoşundakılar gəlib Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) salam verdilər. Həmin dörd nəfərdən biri dedi: "Ey Allahın Rəsulu, Əli filan-filan şeylər etdi". Bu zaman Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) ona cavab verməyib üzünü çevirdi. Sonra ikinci şəxs qalxıb birincinin sözünü dedi. Peyğəmbər ona da cavab verməyib üzünü çevirdi. Sonra üçüncü şəxs qalxıb eyni sözü dedi. Peyğəmbər ona da cavab verməyib üzünü çevirdi. Sonra dördüncü şəxs qalxıb əvvəlkilərin sözlərini təkrarladı. Bu zaman Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) üzündə qəzəb görünən bir halda onlara üz tutub dedi: "Əlidən nə istəyirsiniz? Əlidən nə istəyirsiniz? Əlidən nə istəyirsiniz? Əli məndəndir, mən də ondanam. O, məndən sonra hər bir möminin vəlisidir"" !!.

Bəli, Osman əl-Xəmisin qeyd etdiyi hədisi Hakim ən-Nişapurinin "əl-Müstədrək ələs-səhiheyn" kitabında aşağıdakı şəkildə nəql etmişdir:

Bizə Muhəmməd ibn Saleh ibn Hani nəql edib dedi: bizə Əhməd ibn Nəsr nəql edib dedi: bizə Muhəmməd ibn Əli əş-Şeybani xəbər verib dedi: bizə Əhməd ibn Hazim əl-Ğifari nəql edib dedi:

Həmçinin, bizə Muhəmməd ibn Abdullah əl-Öməri xəbər verib dedi: bizə Muhəmməd ibn İshaq nəql edib dedi: bizə Muhəmməd ibn Yəhya və Əhməd ibn Yusif nəql edib dedilər:

Bizə Əbu Nüeym nəql edib dedi: bizə İbn Əbu Ğünyə Həkəmdən, o, Səid ibn Cübeyrdən, o, İbn Abbasdan, o da Büreydə əl-Əsləmidən nəql edib dedi:

"Əli ilə birlikdə Yəmənə hərbi yürüşə getdim. Orada ondan bir sərtlik gördüm. Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) yanına qayıdınca Əlidən danışıb onun barəsində pis sözlər dedim. Bu zaman Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) üzünün dəyişdiyini gördüm, o dedi: "Ey Büreydə, məgər mən möminlərə onların özlərindən övla deyiləm?" Dedim: "Övlasan, ey Allahın Rəsulu". Dedi: "Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır)."

Hakim hədis üçün belə deyir: "Bu, Müslimin şərtinə əsasən səhih hədisdir. Lakin Buxari və Müslim bu hədisi nəql etməyiblər"[839].

Bu hədisdə Qədir-Xum günündə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) o qədər sözü məhz Büreydənin həzrət Əlini (əleyhissəlam) təhqir etməsinə

---

[839] "əl-Müstədrək": 3/119, hədis: 4578.

və ya həzrət Əlidən şikayət etməsinə görə dediyinə dəlalət edən heç bir şey yoxdur! Qədir-Xum hədisində gələn sözlərin zahirindən edilən xitabın xüsusi olaraq Büreydəyə deyil, əksinə, o zaman orada olan bütün şəxslərə ünvanlandığı anlaşılır. Bu hədisdə isə xitab yalnızca Büreydəyə ünvanlanıb. Buna əsasən, Büreydənin şikayətini Qədir-Xumda deyilən sözlərin səbəbi hesab edə bilmərik. Bu, birincisi.

İkincisi: Hətta Büreydənin həzrət Əlini (əleyhissəlam) təhqir etməsindən və ondan şikayətlənməsindən sonra Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Büreydəyə ünvanladığı bu sözlərin özündə belə İmam Əli (əleyhissəlam)-ın imamətinə və vilayətinə dəlil vardır. Belə ki, Büreydə həzrət Əlidən (əleyhissəlam) şikayətlənib Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) hüzurunda onun barəsində pis sözlər dediyi zaman Peyğəmbər-Əkrəm ona belə cavab verir: "*Ey Büreydə, məgər mən möminlərə onların özlərindən övla deyiləm?*". Büreydə də, "övlasan, ey Allahın Rəsulu", - deyə cavab verir. Bunun ardınca Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm): "*Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır)*", - deyir. Peyğəməbər bu cümləsi ilə Büreydəyə deyir ki, sən onu təhqir edə, ondan şikayətlənə və ya ona nifrət bəsləyə bilməzsən, çünki mənim sizin üzərində mütləq vilayətim olduğu kimi, Əlinin (əleyhissəlam) da sizin üzərinizdə mütləq vilayəti vardır. Necə ki, mən möminlərə onların özlərindən övlayam, eləcə də Əli belədir. Hədisin mənası məhz bu şəkildədir. Əks halda, Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) özünün möminlərə övla olması ilə bağlı Büreydədən şahidlik tələb edib ardınca "mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır", - deməsinin nə kimi əlaqəsi ola bilər? Bu cümlənin nə mənası başqa nə mənası ola bilər?!

Bu həqiqəti səhih sənədlə İmran ibn Huseynin nəql edilən hədis də təsdiqləyir. Belə ki, həmin hədisdə Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) həzrət Əlidən (əleyhissəlam) şikayət edən dörd nəfər şəxsə belə deyir: "*Əlidən nə istəyirsiniz? Əlidən nə istəyirsiniz? Əlidən nə istəyirsiniz? O, məndən sonra hər bir möminin vəlisidir*". Əgər buradakı "vəli"dən məqsəd müxaliflərin iddia etdiyi kimi "dost" mənası olsaydı, onda Peyğəmbər "***məndən sonra***" ifadəsini işlətməzdi. Çünki Əlini (əleyhissəlam) həm Peyğəmbərin sağlığında, həm də vəfatından sonra sevmək lazımdır. İndi ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bu ifadəni işlədib, başa düşürük ki, o Həzrət "vəli" sözü ilə özündən sonra müsəlmanlar üzərində mütləq vilayəti nəzərdə tutub. Bunun özü həzrət Əlinin (əleyhissəlam) Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra imam və xəlifə olmasına dəlalət edən açıq-aşkar bir nəssdir.

### Beyhəqinin nəql etdiyi hədisdə Osman əl-Xəmisin iddia etdiyi şeyə heç bir dəlil yoxdur

**Üçüncüsü:** Osman əl-Xəmisin tam şəkildə nəql etmədiyi və kəsib-doğradığı hədis kamil mətni və sənədi ilə aşağıdakı şəkildədir:

Bizə Əbül-Hüseyn Muhəmməd ibn Hüseyn ibn Muhəmməd ibn Fəzl əl-Qəttan Bağdadda xəbər verib dedi: bizə Əbu Səhl Ziyad əl-Qəttan xəbər verib

dedi: bizə Əbu İshaq İsmayıl ibn İshaq əl-Qazı nəql edib dedi: bizə İsmayıl nəql edib dedi: bizə İsmayıl ibn Əbu Üveys nəql edib dedi: mənə qardaşım, Süleyman ibn Bilaldan, o, Səid ibn İshaq ibn Kəb ibn Əcəzədən, o, bibisi Zeynəb binti Kəb ibn Əcəzədən, o da Əbu Səid əl-Xudridən nəql edib dedi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əli ibn Əbu Talibi Yəmənə göndərdi. Mən də onunla birgə gedənlərdən idim. Əli sədəqə malından sayılan dəvələri ələ keçirdikdə biz ona bu dəvələrə minməyi, öz dəvələrimizə isə istirahət verməyi təklif etdik; çünki biz dəvələrimizin yorulduğunu görmüşdük. Lakin Əli bunu qəbul etməyib dedi: "Sizin sədəqədən payınız, başqa müsəlmanların payı qədərdir."

Əli işini bitirib Yəməndən qayıtdığı vaxt bizim üzərimizə bir nəfəri başçı qoydu. Özü isə tez yola düşüb özünü həccə çatdırdı. Orada işini bitirdikdən sonra Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) ona dedi: "Öz yoldaşlarının yanına qayıt".

Biz Əlinin bizə qadağan etdiyi şeyi Əlinin öz yerinə qoyduğu adamdan istədik (o da razılaşdı). Əli qayıdıb gəlincə dəvələrin minildiyini başa düşdü. Dəvələrin üzərində yəhərin yerini gördü. Buna görə də başçı qoyduğu adamı məzəmmət edib danladı. Bu zaman mən dedim: "Mən Mədinəyə gedincə, inşallah, qarşılaşdığımız sərtliyi və təziyiqi Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) xəbər verəcəyəm!"

Mədinəyə gəlincə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) yanına getdim. And içdiyim şeyi yerinə yetirmək istəyirdim. Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) otağının çölündə Əbu Bəkrlə qarşılaşdım. Əbu Bəkr dayanıb məni salamladı, məndən hal-əhval tutub dedi: "Nə vaxt gəlmisən?" Mən dedim: "Dünən". Bundan sonra o, mənimlə birgə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) yanına qayıtdı və dedi: "Səd ibn Malik əş-Şəhid gəlib". Peyğəmbər dedi: "İcazə ver ona". Mən içəri daxil olub Allah Rəsulunu (sallallahu əleyhi [və alihi] və səlləm) salamladım. Peyğəmbər də mənim qarşıma gəlib məni salamladı, məndən özümün və ailəmin vəziyyətini ətraflı şəkildə soruşdu. Mən ona dedim: "Ey Allahın Rəsulu, Əlidən yaman sərtlik, pis yodaşlıq və təzyiq gördük!" Bunu deyincə Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) (məndən) uzaqlaşdı. Mən də Əlidən gördüyümüz şeyləri bir-bir sadalamağa başladım. Elə ki sözümün yarısına çatmışdım, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) əlini mənim dizimə vurdu. Həmin vaxt mən onun yaxınlığında əyləşmişdim. Ardınca dedi: "Səd ibn Malik əş-Şəhid! Qardaşın Əli barəsində dediyin sözünün ardını saxla! Allaha and olsun ki, mən onun Allah yolunda sərt olduğunu bilirəm". Bu vaxt mən öz-özlüyümdə dedim: "Anan matəmində ağlasın, ey Səd ibn Malik! Bundan sonra Allah Rəsulunun xoşlamadığı işi görməyəcəyəm. Allaha and olsun ki, bundan sonra heç vaxt Əlinin barəsində nə gizlində, nə də aşkarda pis söz deməyəcəyəm"."[840]

Bu hədisdən başa düşülür ki, Əli (əleyhissəlam) ilə birgə həmin səfərdə iştirak edən şəxslər həccdə Peyğəmbərlə (sallallahu əleyhi və alihi və səlləm) birgə

[840] "Dəlailün-nübüvvə": 5/398-399.

olmamışlar və onlar arasından yalnız İmam Əli (əleyhissəlam) həccdə iştirak etmişdir. Həmçinin, hədisdən bu başa düşülür ki, bu şəxslər Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) vida həccindən qayıtdıqdan sonra Mədinəyə gəliblər. Həmçinin, hədisdən o da başa düşülür ki, Əbu Səidin şikayət etməsi Məkkədə və ya Məkkə ilə Mədinə arasında deyil, məhz Mədinədə baş tutub. Bütün bunlara əsasən, bu hədis və onda qeyd olunanlar Osman əl-Xəmisin iddiasına dəlil olmağa yaramır. Deməli, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Qədir-Xumda həzrət Əli (əleyhissəlam) barəsində buyurduğu sözlərin səbəbi Əbu Səid və onunla birgə olan şəxslərin şikayəti deyildir.

## Qədir-Xum xütbəsinin əsl səbəbi

**Dördüncüsü:** Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) Qədir-Xum günündə insanlara etdiyi xütbənin əsl səbəbi odur ki, Allah-taala o Həzrətə "**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır, əgər bunu etməsən, (elə bil ki) Onun (heç bir) tapşırığını çatdırmamısan. Allah səni camaatdan qoruyacaq**" ayəsini nazil edərək ona Əli ibn Əbu Talibi (əleyhissəlam) insanlara rəhbər və imam təyin etməsini əmr etdi. Bu məsələ əhli-sünnə yolu ilə də nəql olunub.

Əbu İshaq Əhməd ibn Muhəmməd əs-Sələbi öz təfsirində mərfu şəkildə İbn Abbasdan belə nəql edir:

""**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır**" ayəsi Əli ibn Əbu Talib barəsində nazil olub. Allah Peyğəmbərə Əli barəsində (ona əmr edilən şeyi) çatdırmağı əmr etdi. Peyğəmbər də Əlinin əlindən tutub dedi: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol"[841].

Əllamə Seyyid Cəmaləddin Ətaullah ibn Fəzlullah özünün "əl-Ərbəunə hədisa" kitabında belə nəql edir:

"Peyğəmbərə özünə verilən (imamət) məqamı(nı özündən sonra) Əli ibn Əbu Talib üçün təyin etmək əmr edildiyində, Peyğəmbər Məkkəyə getdi və dedi: "Camaatı cahiliyyət dövrünün küfründən yeni çıxmış gördüm. Nə vaxt bu işi etsəm, "əmisi oğludur deyə belə etdi", - deyəcəklər." Sonra Peyğəmbər gedib həccini yerinə yetirdi. Sonra həccdən qayıdıb gəldi. Qədir-Xum çölünə çatdığı vaxt Allah-taala "**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır**" ayəsini nazil etdi. Çünki, Qədir-Xum çölü (hamıya) səslənmək üçün (münasib) bir yer idi. Peyğəmbər cəmiyyət namazı təşkil olunmasını istədi. Sonra qalxıb Əlinin əlini tutaraq dedi: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol"."[842]

Əllamə əl-Amritsəri özünün "Ərcəhul-mətalib" kitabında deyir:

"İbn Abbasdan belə nəql olunub: "**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır**", yəni, Əlinin fəzilətlərini çatdır ayəsi Qədir-Xumda nazil oldu. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) xütbə edib buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır". Ömər dedi: "Bəh-bəh, ey Əli!

---

[841] "Təfsirüs-Sələbi": 4/92.
[842] "əl-Ərbəunə hədisa": əlyazma. Seyyid Mərəşinin nəqli əsasında, "İhaqul-haqq": 6/348.

Mənim və hər bir mömin və möminənin mövlası oldun!” Bunu Əbu Nüeym və Sələbi nəql edib”[843].

Əllamə Əli ibn Şəhabəddin əl-Həmədani “Məvəddətül-qurba” kitabında deyir:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birgə vida həccindən qayıtdıq. Qədir-Xuma çatdığımızda cəmiyyət namazı təşkil olunması əmr edildi. (Namazdan sonra) Allah Rəsulu bir ağacın altında əyləşdi və Əlinin əlini tutub dedi: “Məgər mən möminlərə onların özlərindən daha üstün deyiləmmi?” Dedilər: “Üstünsən, ey Allahın Rəsulu”. Dedi: “Məgər mən hər bir möminə onun özündən daha üstün deyiləm?” Dedi: “Elə isə agah olun! Mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır (ona onun özündən övladır). İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”. Bundan sonra Ömər Əlinin yanına gəlib dedi: “Xoş halına, ey Əli ibn Əbu Talib! Sən mənim və hər bir mömin və möminənin mövlası oldun!”. “**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır**” ayəsi bu münasibətlə nazil olub...”[844].

Hakim əl-Həskani “Şəvahidüt-tənzil” kitabında belə nəql edir:

Bizə Seyyid Əbdül-Həsən Muhəmməd ibn Əli ibn Hüseyn əl-Həsəni nəql edib dedi: bizə Əbül-Həsən Muhəmməd ibn Muhəmməd ibn Əli əl-Ənsari Tusda xəbər verib dedi: bizə Qüreyş ibn Xəddaş ibn Saib nəql edib dedi: bizə Əbu İsmə Nuh ibn Əbu Məryəm, İsmayıldan, o, Əbu Məşərdən (مَعْشَر), o, Səid əl-Məqbəridən, o, Əbu Hüreyrədən, o da Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) nəql edib dedi:

“Səmaya aparıldığım zaman ərşin altından belə bir səs eşitdim: “Əli hidayət bayrağı, Mənə iman gətirənin həbibidir (dostudur). Çatdır, ey Muhəmməd!”

(Əbu Hüreyrə) deyir: Peyğəmbər səmadan endikdən sonra bu məsələni gizli saxladı. Allah (əzzə və cəll) bu ayəni nazil etdi: “**Ey Peyğəmbər! Rəbbin tərəfindən** – Əli ibn Əbu Talib barəsində – **sənə nazil olanı çatdır, əgər bunu etməsən, (elə bil ki) Onun (heç bir) tapşırığını çatdırmamısan. Allah səni camaatdan qoruyacaq**”...”[845]

Həmçinin, belə nəql edir:

Bizə Əbu Abdullah əd-Dinəvəri xəbər verib dedi: bizə Əhməd ibn Muhəmməd ibn İshaq ibn İbrahim əs-Sünni nəql edib dedi: mənə Əbdür-Rəhman ibn Həmdan xəbər verib dedi: bizə Muhəmməd ibn Osman əl-Əbəsi nəql edib dedi: bizə İbrahim ibn Muhəmməd ibn Məymun nəql edib dedi: bizə Əli ibn Abbas Əməşdən, o, Əbdül-Cəhhaf Davud ibn Əvfdən, o, Ətiyyədən, o da Əbu Səid əl-Xudridən nəql edib dedi:

““**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır**” ayəsi Əli ibn Əbu Talib barəsində nazil olub.”[846]

Yenə belə nəql edir:

---

843 “Ərcəhul-mətalib”: səh.67.
844 “Məvəddətül-qurba”: səh.55.
845 “Şəvahidüt-tənzil”: 2/249.
846 “Şəvahidüt-tənzil”: 2/250.

Bizə Hakim Əbu Abdullah əl-Hafiz xəbər verib dedi: bizə Əli ibn Əbdür-Rəhman ibn İsa əd-Dehqan Kufədə xəbər verib dedi: bizə Hüseyn ibn Həkəm əl-Həbri nəql edib dedi: bizə Həsən ibn Həsən əl-Ərəni nəql edib dedi: bizə Hibban ibn Əli əl-Ənəzi nəql edib dedi: bizə Kəlbi Əbu Salehdən, o da İbn Abbasdan nəql edib dedi:

"“**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır**” ayəsi Əli ibn Əbu Talib barəsində nazil olub. Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) onun barəsində çatdırması əmr edildi. Peyğəmbər də Əlinin əlini tutub dedi: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”."[847]

Yenə belə nəql edir:

Bizə Əbu Bəkr əs-Sukkəri xəbər verib dedi: bizə Əbu Əmr əl-Muqri xəbər verib dedi: bizə Həsən ibn Süfyan xəbər verib dedi: bizə Əhməd ibn Zahir xəbər verib dedi: bizə Əbdür-Rəhman ibn Əmr ibn Cəbələ xəbər verib dedi: bizə Əmr ibn Nüeym ibn Ömər ibn Qeys əl-Masir xəbər verib dedi: babamın belə dediyini eşitdim: bizə Abdullah ibn Əbu Əvfa nəql edib dedi:

"Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) “**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır, əgər bunu etməsən, (elə bil ki) Onun (heç bir) tapşırığını çatdırmamısan...**” ayəsini tilavət etdiyini, ardınca qollarının altı görünənə qədər Əlinin əlini qaldırıb belə dediyini eşitdim: “Bilin və agah olun! Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol”. Sonra dedi: “İlahi, şahid ol”."[848]

Yenə belə nəql edir:

Bizə Əmr ibn Muhəmməd ibn Əhməd əl-Ədl xəbər verib dedi: bizə Zahir (Zahid) ibn Əhməd xəbər verib dedi: bizə Əbu Bəkr Muhəmməd ibn Yəhya əs-Suli nəql edib dedi: bizə Müğeyrə ibn Muhəmməd nəql edib dedi: bizə Əli ibn Muhəmməd ibn Süleyman ən-Nofəlidən nəql edib dedi: mənə atam nəql edib dedi: Ziyad ibn əl-Münzirin belə dediyini eşitdim:

"Əbu Cəfər Muhəmməd ibn Əlinin yanında idim. O, camaat üçün hədis nəql edirdi. Birdən Bəsrədən olan Osman əl-Əşa (الأَعْشى) adlı bir şəxs – o, Həsən əl-Bəsridən hədis nəql edərdi – qalxıb dedi: “Ey Allah Rəsulunun oğlu, Allah məni sənə fəda etsin! Həsən bizə deyir ki, “**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır**” ayəsi bir kişinin barəsində nazil olub, lakin həmin kişinin kim olduğunu demir." Əbu Cəfər dedi: “Əgər demək istəsəydi, deyərdi, lakin qorxur. Cəbrail (əleyhissəlam) Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) nazil olub dedi: “Allah sənə ümmətinə namazı açıqlamağı əmr edir”. Peyğəmbər ümmətə namazı açıqlamağı. Sonra Cəbrail nazil olub dedi: “Allah sənə ümmətinə zəkatı açıqlamağı əmr edir”. Peyğəmbər ümmətə zəkatı açıqlamağı. Sonra Cəbrail nazil olub dedi: “Allah sənə ümmətinə orucu açıqlamağı əmr edir”. Peyğəmbər ümmətə orucu açıqlamağı. Sonra Cəbrail nazil olub dedi: “Allah sənə ümmətinə həcci açıqlamağı əmr edir”. Peyğəmbər ümmətə həcci açıqlamağı. Sonra Cəbrail nazil olub dedi: “Allah sənə ümmətinə namazı, zəkatı, orucu və həcci açıqladığın kimi

[847] "Şəvahidüt-tənzil": 2/252.
[848] "Şəvahidüt-tənzil": 2/252.

onların vəlilərinin kim olduğunu da açıqlamağı əmr edir. Beləcə bütün bu mövzularda höccət tamam olsun". Peyğəmbər dedi: "Ya Rəbb! Mənim tayfam cahiliyyət dövründən yenicə çıxıb. Onlar arasında rəqabət və öyünmə var. Onlar arasında elə bir şəxs yoxdur ki, vəliləri onu bir yaxınını öldürməmiş olsun. Buna görə də mən qorxuram". Bu zaman Allah-taala "**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır, əgər bunu etməsən, (elə bil ki) Onun (heç bir) tapşırığını çatdırmamısan. Allah səni insanlardan qoruyacaq.**" Allah-taala onu qoruyacağını zəmanət verdikdən sonra Peyğəmbər Əli ibn Əbu Talibin əlindən tutub dedi: "Ey camaat! Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol. Ona kömək edənə kömək et, onu köməksiz qoyanı köməksiz qoy. Onu sevəni sev, ona nifrət bəsləyənə nifrət et".

Ziyad deyir: "Osman deyir: "Öz vətənimə bu hədisdən gözəl bir şeylə qayıtmadım"."[849]

Əbül-Həsən Əli ibn Əhməd əl-Vahidi özünün "Əsbabün-nüzul" adlı kitabında belə nəql edir:

Bizə Əbu Səid Muhəmməd ibn Əli əs-Səffar xəbər verib dedi: bizə Həsən ibn Əhməd əl-Məxlədi xəbər verib dedi: bizə Muhəmməd ibn Həmdun ibn Xalid xəbər verib dedi: bizə Muhəmməd ibn İbrahim əl-Xəlvəti xəbər verib dedi: bizə Əli ibn Abbas Əməşdən və Əbu Həccab Ətiyyədən, onlar da Əbu Səid əl-Xudridən nəql edib dedilər:

""**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır**" ayəsi Qədir-Xum günündə Əli ibn Əbu Talib barəsində nazil olub"[850].

Şəvkani "Fəthül-qədir" adlı təfsirində belə deyir:

"İbn Əbu Hatim, İbn Mərdəveyh və İbn Əsakir Əbu Səid əl-Xudrinin belə dediyini nəql ediblər: ""**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır**" ayəsi Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xum günündə Əli ibn Əbu Talib barəsində nazil olub." İbn Mərdəveyh və İbn Əsakir İbn Məsuddan belə nəql ediblər: "Biz Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) vaxtında ayəni belə oxuyurduq: "**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı** – Əlinin möminlərin mövlası olduğunu – **çatdır. Əgər bunu etməsən, (elə bil ki) Onun (heç bir) tapşırığını çatdırmamısan Allah səni insanlardan qoruyacaq**""."[851]

Fəxrəddin ər-Razi öz təfsirində deyir:

"(Ayənin nazilolma səbəbi barədə deyilən) onuncu nəzər: Ayə Əli ibn Əbu Talibin (əleyhissəlam) fəziləti barəsində nazil olub. Bu ayə nazil olduğu zaman Peyğəmbər Əlinin əlindən tutub deyib: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol". Bundan sonra Ömər Əlinin yanına gəlib deyib: "Xoş halına, ey Əbu Talibin oğlu! Sən

---

849 "Şəvahidüt-tənzil": 2/253-255.
850 "Əsbabün-nüzul": səh.115.
851 "Fəthül-qədir": 2/76.

mənim və hər bir mömin və mömінənin mövlası oldun.” Bu, İbn Abbasın, Bəra ibn Azibin və Muhəmməd ibn Əlinin nəzəridir”[852].

Əbu Nüeym əl-İsfahani “Ma nuzilə minəl-Qurani fi Əli” adlı kitabında deyir:

Bizə Əbu Bəkr ibn Xəllad nəql edib dedi: bizə Muhəmməd ibn Osman ibn Əbu Şeybə nəql edib dedi: bizə İbrahim ibn Muhəmməd ibn Məymun nəql edib dedi: bizə Əli ibn Abbas Əbül-Cəhhaf ət-Təmimi Davud ibn Əbül-Əvfdən, o, Əməşdən, o, Ətiyyədən, o da Əbu Səid əl-Xudridən nəql edib dedi:

““““**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır. Əgər bunu etməsən, (elə bil ki) Onun (heç bir) tapşırığını çatdırmamısan Allah səni insanlardan qoruyacaq**” ayəsi Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) Əli ibn Əbu Talib barəsində nazil olub”[853].

**Osman əl-Xəmisin Qədir-Xum hədisinin mənasını sapdırmağa çalışması**

Osman əl-Xəmis deyir:

“Şiələr ilə sünnilər arasındakı ixtilaf Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) Qədir-Xumdakı sözünün sübuta yetib-yetməməsində yox, bu sözün mənasındadır. Şiələr deyirlər ki, “mən kimin mövlasıyamsa”, yəni mən kimin rəhbəriyəmsə, Əli də onun rəhbəridir. Əhli-sünnə isə deyir ki, Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) sözündəki “mövla” sözü – əksi düşmənçilik olan, dostluq və məhəbbət mənasındadır. Bunun dəlili də bir neçə şeydir:

Birincisi: Hədisdə gələn əlavə. Hansı ki, bəzi alimlərin onu səhih bildiyini qeyd etdim[854]. Bu əlavə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) “İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol” sözüdür. Bu cümlədəki dostluq və düşmənlik “...Əli də onun mövlasıdır” cümləsindəki mövla sözünün şərhidir. Yəni, kim məni sevirsə, Əlini də sevməlidir.”[855]

**Deyirəm:** Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) “*İlahi, ona dost olan dost ol, ona düşmən olana düşmən ol*” cümləsi Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) öz Rəbbinə ünvanladığı bir duadır. Burada Peyğəmbər Allahdan istəyir ki, Əli (əleyhissəlam)-a dost olana dost olsun, ona düşmən olana düşmən olsun. Ona görə ki, Əli (əleyhissəlam) Peyğəmbərdən sonra müsəlmanların imamı, rəhbəri və xəlifəsidir, bu səbəbdən də ona dost olmaq hər bir müsəlmana vacib, ona düşmən olmaq isə hər bir müsəlmana haramdır. Üstəlik, Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) belə mütləq və qeyd-şərtsiz bir şəkildə dua etməsi həzrət Əlinin (əleyhissəlam) məsum olduğuna dəlalət edir. Əks halda Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Allah-taaladan Əliyə dost olana dost olmasını, ona düşmən olana düşmən olmasını istəməzdi. Çünki Əli məsum deyilsə, deməli xəta edə bilər. Xəta edə bilərsə, deməli şəriətə müxalif davrandığı məsələdə onu düşmən tutmaq olar.

---

852 “Təfsirür-Razi”: 13/49.

853 “ən-Nurul-muştəil”: səh.86.

854 **Lakin sən bu əlavənin səhih olmadığını da qeyd etdin, ey Osman Xəmis, elə isə onu necə dəlil gətirirsən?!**

855 “Tarixdən bir an”: səh.184-185.

Bütün bunlardan aydın olur ki, “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır” cümləsindən məqsəd budur ki, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) insanlar üzərində vilayəti olduğu kimi, Əlinin də (əleyhissəlam) insanlar üzərində vilayəti vardır. Peyğəmbər insanlara onların özlərindən övla olduğu kimi, həzrət Əli də onlara onların özlərindən övladır. O həzrətin insanlar üzərində belə bir vilayəti olması səbəbindən onu sevmək və ona məhəbbət bəsləmək vacib, ona düşmən olmaq və ona nifrət bəsləmək isə haramdır. Belə olunca, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Rəbbinə dua edərək Əliyə dost olana dost, ona düşmən olana düşmən olmasını istəyir. Bununla da dinləyicilərə çatdırmaq istəyir ki, Əli müsəlmanların imamı və vilayət sahibi olduğu üçün onu sevmək vacibdir; heç bir halda ona qarşı düşmənçiliyə qalxmaq olmaz; ona kömək etmək, onu əsla köməksiz və tək qoymamaq lazımdır.

Sonra Osman əl-Xəmis deyir:

“İkinci: Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) xütbəsi Əliyə görə deyildi[856]. Hərçənd Əli – Allah ondan razı olsun – buna və daha artığına layiq idi. Əslində, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) istirahət etmək üçün dayanmışdı. Məkkədən Mədinəyə səfər uzun çəkirdi. Peyğəmbər də bu səfər əsnasında bir neçə dəfə dayanıb istirahət etmişdi. Peyğəmbər Allahın kiabını və Əhli-Beyti camaata xatırlatmış, onlara hörmət və ehtiram etmək və onlara tabe olmaq[857] lazım gəldiyini demiş, bundan sonra isə Əli – Allah ondan razı olsun – barəsində deyilənlərə işarə edərək onun barəsində “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”, - demişdi.

Üçüncü: Mövla sözü hansı mənalara gəlir? İbn əl-Əsir deyir ki, mövla sözü aşağıdakı mənalara gəlir: Rəbb, sahib, nemət verən, kömək edən, sevən, həmpeyman (müttəfiq), qul, azad edilən, əmi oğlu və kürəkən.

Bütün bunların hamısına ərəblər “mövla” deyirlər.

Dördüncü: Hədisdə imamətə dəlalət edən heç bir şey yoxdur. Çünki əgər Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) məqsədi xəlifəlik olsaydı, onda bu qədər müxtəlif məna daşıyan bir söz işlətməzdi[858], elə deyərdi ki, “Əli məndən sonra mənim xəlifəmdir”, yaxud, “məndən sonra imam Əlidir”, yaxud, “mən öldükdən sonra, Əlini eşidib ona itaət edin”. Lakin Peyğəmbər ixtilafa bir dəfə son qoyan bu sözlərdən heç birini işlətməmiş, əvəzində sadəcə “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”, - demişdir.

---

**[856] Daha əvvəl Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) hansı məqsədlə o yerdə və o gündə müsəlmanlara xütbə etdiyini qeyd etdik. Peyğəmbəri-Əkrəm məhz Allahın əmri ilə Əli ibn Əbu Talibin (əleyhissəlam) özündən sonra camaatın rəhbəri olduğunu insanlara çatdırmaqdan ötrü bu xütbəni etmişdi.**

**[857] Görəsən, Əhli-Beytin fəzilətlərini inkar edib Peyğəmbəri-Əkrəmin onlar barəsində buyurduğu sözləri öz həqiqi mənalarından sapdırmağa çalışmaq Əhli-Beytə tabe olmaqdırmı, ey şeyx Osman əl-Xəmis?!**

**[858] O gün Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) “məgər mən möminlərə onların özlərindən övla deyiləmmi?”, - deyərək, camaatdan özünün onlara övla olması ilə bağlı iqrar alması və ardınca “mən kimin mövlasıyamsa (kimə onun özündən övlayamsa), Əli də onun mövlasıdır”, - deməsi, bütün şübhələrə son qoyaraq “mövla” sözündən məqsədin yalnız bir məna olduğunu sübut edir. Bu məna isə həzrət Əlinin (əleyhissəlam) Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) kimi müsəlmanların işlərinə nəzarətdə hamıdan övla (üstün) olması mənasıdır.**

Beşinci: Allah-taala buyurur: “**Sizin yeriniz Cəhənnəmdir. O sizin mövlanızdır**”. Allah bu ayədə möhkəm şəkildə kafirlərə yapışması və onları tamamilə bürüməsi baxımından Cəhənnəmi “mövla” adlandırmışdır.

Altıncı: Müvalat, yəni dostluq sifəti Əli üçün Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) sağlığında da sabit idi, vəfatından sonra da sabit idi, Əlinin vəfatından sonra da sabitdir. Əli – Allah ondan razı olsun – Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) sağlığında da möminlərin mövlası idi, onun vəfatından sonra da belə idi, öz vəfatından sonra da belədir. O, bizim mövlamızdır, necə ki, Allah-taala buyurur: “**Sizin vəliniz yalnız Allah, Onun elçisi və iman gətirənlərdir**”. Əli iman gətirənlərin başda gedənlərindəndir[859].

Yeddinci: Əgər Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) “övla” mənasını nəzərdə tuturdusa, onda “mövla” sözü yox, “övla” sözünü işlədərdi. “Mövla” sözü “vali” sözündən fərqlənir. “Vali” sözü “vilayət”, yəni hakimiyyət sözündən düzəlib, “məvla” sözü isə “vəlayət”, yəni sevgi və yardım sözündən düzəlib. Allah-taala deyir: “**Onun mövlası Allah, Cəbrail və saleh möminlərdir**”. Burada mövladan məqsəd “dost”, “yardımçı” və “dəstəkləyici” mənalarıdır.

Səkkizinci: Allah-taala İbrahim (əleyhissəlam)-ın qövmü barədə danışarkən belə deyir: “**İbrahimə ən övla olanlar, ona tabe olanlardır**”. Burada Allah “övla” sözü ilə “rəhbər” mənasını nəzərdə tutmamışdır. Əgər belə olsa, onda ayənin mənası bu olar ki, camaat İbrahimin rəhbərləridir. Halbuki, İbrahim (əleyhissəlam) onların rəhbərləri və imamları idi.

Doqquzuncu: İmam Şafei – Allah ona rəhmət etsin – Zeydin hədisi barədə belə deyir: “Bu sözlə islam dostluğunu nəzərdə tutur. Necə ki, Allah-taala buyurur: “**Allah iman gətirənlərin mövlasıdır (dostudur), kafirlərin isə mövlası (dostu) yoxdur**”. Hədis Əlinin – Allah ondan razı olsun – Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) sonra xəlifə olmasına dəlalət etmir. Hədis məhz Əlinin Allah dostlarından biri olduğuna və ona məhəbbət bəsləmək, yardım etmək və dəstəkləməyin vacib sayıldığına dəlalət edir”.”[860]

Həmçinin başqa yerdə deyir:

“Şiələr bu hədisi dəlil gətirərək Əlinin – Allah ondan razı olsun – Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) sonra xəlifə olduğunu deyirlər. Bunu belə əsaslandırılar ki, Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır” kəlamındakı “mövla” sözü xəlifə, rəhbər və itaət edilməsi lazım olan ağa mənasıa gəlir.”[861]

---

[859] **Şiəli sünnili hər iki məzhəb sözügedən ayənin Əli ibn Əbu Talib (əleyhissəlam) barəsində nazil olduğunu nəql etmişdir. O həzrət, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) məscidində öz üzüyünü bir dilənçiyə sədəqə verərkən bu ayə nazil olmuşdur. Ayədəki “iman gətirənlər” sözündən məqsəd, xüsusi olaraq, Əli ibn Əbu Talibdir. Mən “Osman əl-Xəmisin vilayət ayəsi barədə batil sözlərinə cavab” kitabımda bu ayənin Əli ibn Əbu Talib (əleyhissəlam) barəsində nazil olmasına dair əhli-sünnə kitablarından hədislər nəql etmiş, onların alimlərindən sitatlar qeyd etmişəm.**

[860] “Tarixdən bir an”: səh.185-187.

[861] “Tarixdən bir an”: səh.182.

Onların üslubları budur: hədisi sənəd yönündən rədd edə bilmədikdə mətni yozmağa başlayırlar!

**Deyirəm:** Allaha həmd olsun ki, Qədir-Xum hədisi İmam Əli (əleyhissəlam)-ın Peyğəmbərdən sonra bu ümmətin imamı, xəlifəsi və rəhbəri olduğuna açıq-aşkar şəkildə dəlalət edir.

İnsaflı şəxsə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) "mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözünü oxumaq kifayət edər. Əgər bir şəxs bu sözə nəzər salsa, başa düşər ki, bu söz Əli (əleyhissəlam)-ın xilafətini, vilayətini, o Həzrətin müsəlmanların dini və dünyəvi işləri üzərində təsərrüf etmə haqqına sahib olduğunu çatdırır.

"Mövla" sözü bir çox mənada işlədilə bilsə də, Qədir-Xum hədisinin daxilində mövcud olan dəlillər bu sözün hansı mənada işlədildiyini müəyyənləşdirir. Bu dəlillər mövla sözünün məhz Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra xilafət mənasına gəldiyi barəsində heç bir şəkk-şübhə qoymur. Biz bu dəlillər aşağıdakı kimi sıralaya bilərik:

**Birinci:** Peyğəmbəri-Əkrəm (sallallahu əleyhi və alihi və səlləm) sözünün əvvəlində dünyadan köçmək ərəfəsində olduğunu bildirir.

**İkinci:** Peyğəmbər müsəlmanlara Quranı və itrəti tapşırır. Onların Qiyamətədək əsla bir-birlərindən ayrılmayacaqlarını vurğulayır.

**Üçüncü:** Peyğəmbər Əlini (əleyhissəlam) özü ilə birlikdə minbər üzərinə çıxarır və onun əlini tutaraq belə elan edir: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır". Bununla ümmətə Quranla birgə sarılması vacib olan şəxslərin kimliyini açıqlayır.

**Dördüncü:** Müsəlmanlar bu hadisədən sonra həzrət Əlini (əleyhissəlam) təbrik edir, Ömər ibn əl-Xəttab "bəh-bəh", - deyir: "*Bəh-bəh, ey Əbu Talibin oğlu! Sən mənim və hər bir mömin və möminənin mövlası oldun*".

**Beşinci:** Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) İmam Əlinin mövlalığını bəyan etməzdən qabaq özünün övlalığı barədə müsəlmanlardan şahidlik tələb edir. Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) "*məgər mən möminlərə onların özlərindən övla deyiləmmi?*" sözü həm bizim, həm də müxaliflərin mənbələrində səhih sənədlərlə nəql olunub. Bu cümlənin səhihliyi barəsində heç bir şübhə yoxdur. Daha əvvəl bu cümlənin işləndiyi səhih hədislərdən nümunələr qeyd olundu.

İnadkar şəxsə bu cümlənin mənasını başa düşmək, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) bununla nəyi nəzərdə tutduğunu bilmək kifayət edər.

Bu cümlənin bənzəri Qurani-Kərimdə gəlmişdir. Allah-taala buyurur: "**Peyğəmbər möminlərə onların özlərindən övladır**"[862]. Ayənin mənası budur ki, Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) müsəlmanların dini və dünyəvi işləri üzərində mütləq vilayət vardır; Peyğəmbər bütün ictimai və fərdi

[862] "Əhzab" surəsi, 6-cı ayə.

məsələlərdə, habelə hökumət, qəzavət, dəvət və s. məsələlərdə müsəlmanlardan övladır – üstündür; onun fikri və göstərişi bütün müsəlmanların fikir və göstərişlərindən öndədir; Əgər Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) bir xətər üz gətirsə, müsəlmana onu qoruması və canını ona fəda etməsi vacibdir; həmçinin, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) hər bir müsəlmana onun özündən daha sevimli olmalıdır.

Peyğəmbər-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) öz övlalığı barədə iqrar tələb edib ardınca Əli (əleyhissəlam)-ın övlalığını bəyan etməsi bunu sübut edir ki, Peyğəmbərin həzrət Əli (əleyhissəlam) üçün təsbit etdiyi övlalıq məhz bu övlalıqdır.

Əhli-sünnə alimləri ümumilikdə Əhzab surəsinin 6-cı ayəsinin mənasının bu dediyimiz məna olduğunu qeyd etmişlər. Onların bəzilərinin bu vilayət və övlalığın bəzi misdaq və nümunələrini qeyd etməklə kifayətlənmələri ayənin mənasının məhz bu misdaqlarla məhdudlaşdığı anlamına gəlmir.

Üstəlik, ayədə övlalıq mütləq və qeyd-şərtsiz işlənib. Belə məqamda ayədəki övlalığı müəyyən bir misdaqla məhdudlaşdırmaq üçün əlavə dəlil tələb olunur. Belə bir dəlil isə mövcud deyildir.

Əhli-sünnə alimləri arasında ayəni bizim qeyd etdiyimiz şəkildə təfsir edən şəxslərə misal olaraq aşağıdakıları göstərə bilərik:

1-Beyzavi. O, öz təfsirində deyir:

"“**Peyğəmbər möminlərə onların özlərindən övladır**”, yəni, bütün işlərdə onlara özlərindən övladır. Öz nəfslərindən fərqli olaraq Peyğəmbər möminləri yalnız xeyir və faydaları olduğu işləri əmr edər.. Məhz buna görədir ki, ayə mütləq və qeyd-şərtsiz şəkildə işlənib. Peyğəmbər möminlərə onların özlərindən daha sevimli olmalı, onun göstərişi onların öz şəxsi göstərişlərindən daha üstün olmalı, onların ona olan şəfqət və mehribanlıqları özlərinə olan şəfqət və mehribanlıqlarından artıq olmalıdır”[863].

2-Nəsəfi. O, öz təfsirində deyir:

"“**Peyğəmbər möminlərə onların özlərindən övladır**”, yəni, bütün din və dünya işlərində onlar üzərində onların özlərindən daha çox haqq sahibidir. Onun hökmü müsəlmanların öz hökmlərindən daha nüfuzlu və daha keçərlidir. Müsəlmanlar öz canlarını Peyğəmbərin yolunda qoymalı, öz canlarını ona fəda etməlidirlər. Yaxud, məna budur ki, Peyğəmbər möminlərə onların özlərindən daha mehriban, daha mərhəmətli, daha faydalıdır. “**O (Peyğəmbər) möminlərə qarşı çox mehriban və mərhəmətlidir**” ayəsində olduğu kimi.”[864]

3-İbn əl-Qəyyim əl-Cəvziyyə. O, “Zadul-mühacir” kitabında deyir:

“Allah-taala buyurub: “**Peyğəmbər möminlərə onların özlərindən övladır**”. Bu ayə onu göstərir ki, kimə Peyğəmbər onun özündən daha övla deyilsə, o şəxs mömin deyil. Bu övlalıq özündə bir neçə mənanı ehtiva edir: bir məna budur ki, Peyğəmbər möminə onun özündən daha sevimlidir. Çünki övla sözünü kökü “sevgi”, “məhəbbət”dir. İnsanın özü ona başqasından daha sevimlidir. Lakin, bu sevgiyə rəğmən əgər Peyğəmbər insana onun özündən daha sevimli olarsa, o

---

[863] “Təfsirül-Beyzavi”: 4/364.
[864] “Təfsirün-Nəsəfi”: 3/297.

zaman iman hasil olar. Bu övlalıq və sevgi kamil şəkildə tabeçiliyi, təslimçiliyi, itaəti, Peyğəmbərin əmrindən razı qalmağı və onu özündən üstün tutmağı tələb edir. Başqa bir məna budur ki, bəndənin özü üzərində heç bir hökmü yoxdur, əksinə onun üzərində hökm yalnız Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) məxsusdur. Peyğəmbərin müsəlmanın üzərində hökmü ağanın öz qulunun və ya atanın öz övladının üzərindəki hökmündən daha artıqdır..."[865].

4-Zəməxşəri. O, özünün "əl-Kəşşaf" təfsirində deyir:

""**Peyğəmbər möminlərə"** – bütün din və dünya işlərində – "**onların özlərindən övladır**". Məhz buna görədir ki, cümlə mütləq şəkildə, heç bir qeyd-şərt olmadan qeyd olunub. Gərək Peyğəmbər müsəlmanlara onların özlərindən daha sevimli ola, onun hökmü müsəlmanlar üzərində onların öz hökmlərindən daha üstün və daha keçərli ola, onun haqqı onların öz haqqlarından daha üstün ola, onların ona olan şəfqət və canyandırmaları özlərinə olan şəfqət və canyandırmalarından daha öndə ola. Bir müsibət üz verdiyində müsəlmanlar canlarını onun yolunda qoymalı, özlərini ona fəda etməlidirlər, müharibə baş verdiyində onu qorumalıdırlar. Öz nəfslərinin dəvət edib çəkindirdiyi şeylərə tabe olmamalı, Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) dəvət edib çəkindirdiyi şeylərə tabe olmalıdırlar. Çünki, Peyğəmbər müsəlmanları nəyə dəvət edirsə, həmin şey nicat tapmaq və hər iki dünyada səadətə çatmaq üçündür. Peyğəmbər müsəlmanları nədən çəkindirirsə, həmin şey onların bədbəxtliyə və Cəhənnəm əzabına düçar olmamaları üçündür. Yaxud ayənin mənası budur ki, Peyğəmbər möminlərə onların özlərindən daha mehriban, daha mərhəmətli, daha faydalıdır. "**O (Peyğəmbər) möminlərə qarşı çox mehriban və mərhəmətlidir**" ayəsində olduğu kimi"[866].

5-Alusi. O, özünün "Ruhul-məani" adlı təfsirində deyir:

""**Peyğəmbər möminlərə övladır**", yəni: onların üzərində onların özlərindən daha çox haqq sahibidir, onlara onların özlərindən daha yaxındır, yaxud, onlara onların özlərindən daha çox dost və köməkçidir. Öz nəfslərindən fərqli olaraq Peyğəmbər (əleyhissəlatu vəssəlam) möminləri yalnız xeyir və faydaları olduğu işləri əmr edər, nəfs isə pisliyə əmr edər; onun vəziyyəti elə əvvəldən bəllidir; bəzən faydalı və xeyirli olan şeylərdən xəbərsiz olur.

Ayədə övlalığın mütləq şəkildə, heç bir qeyd-şərt olmadan zikr olunması bu övlalığın bütün işlərə aid olmasını çatdırmaq üçündür. Həmçinin, Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) möminlərə onların özlərindən övla olmasından onun möminlərə bütün şəxslərdən övla olması başa düşülür."[867]

6-Şəvkani. O, özünü "Fəthül-qədir" kitabında deyir:

""**Peyğəmbər möminlərə onların özlərindən övladır**", yəni: Peyğəmbər bütün din və dünya işlərində möminlər üzərində onların özlərindən daha çox haqq sahibidir. Peyğəmbər onlara nəinki başqalarından, hətta özlərindən belə övladır. Əgər Peyğəmbər onların mallarından bir şey istəsə, möminlər ehtiyaclı olsalar belə o şeyi ona verməlidirlər. Onlar Peyğəmbəri özlərindən çox sevməlidirlər.

---

[865] "Zadul-mühacir": səh.29.
[866] "əl-Kəşşaf": 3/523.
[867] "Ruhul-məani": 12/228-229.

Peyğəmbərin özləri barəsindəki hökmünü özlərinin özləri barəsində olan hökmlərindən üstün tutmalıdırlar. Bir sözlə desək, əgər Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onları bir şeyə dəvət etsə, nəfsləri isə onları başqa bir şeyə dəvət etsə, onlar Peyğəmbərin dəvətini üstün tutmalı, öz nəfslərinin dəvət etdiyi şeyi geriyə salmalıdırlar. Nəfslərinə [nəfslərinin çağırışına] etdikləri itatətdən daha üstün bir şəkildə ona itaət etməlidirlər. Peyğəmbərə itatə etməyi öz nəfslərinin meyl etdiyi və ürəklərinin istədiyi şeydən öndə tutmalıdırlar.

Həmçinin demişlər ki, ayədəki "özlərindən" sözündən məqsəd "bir-birlərinə" mənasıdır. Yəni, Peyğəmbər möminlərə onların bir-birlərindən daha övladır.

Həmçinin, demişlər ki, ayə sırf qəzavət və hökm vermə mövzusuna aiddir. Yəni, Peyğəmbər möminlər arasında verdiyi hökmdə onlara onların özlərindən daha övladır (üstündür, gərək onun hökmünə itət etsinlər).

Həmçinin də demişlər ki, ayə cihad mövzusundadır, yəni, Peyğəmbər cihad mövzusunda möminlərdən övladır (üstündür, öndədir). Gərək möminlər canları bahasına onu qorusunlar. Birinci nəzər daha üstündür."[868]

7-Hibə əz-Züheyli. O, özünün "ət-Təfsirül-münir" kitabında deyir:

""**Peyğəmbər möminlərə onların özlərindən övladır**", yəni: bütün dini və dünyəvi işlərdə onlara onların özlərindən övladır. Öz nəfslərindən fərqli olaraq Peyğəmbər (əleyhissəlatu vəssəlam) möminləri yalnız xeyir və faydaları olduğu işləri əmr edər. O, dəvət etdiyi şey mövzusunda möminlərə onların nəfslərindən daha mehriban və daha şəfqətlidir. Çünki o, möminləri nicata dəvət edir, nəfsləri isə onları həlaka dəvət edir"[869].

Yenə həmin mənbədə deyir:

""**Peyğəmbər möminlərə onların özlərindən övladır**", yəni: Muhəmməd Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) öz ümmətindən olan möminlərə onların özlərindən (nəfslərindən) daha mehriban və daha şəfqətlidir. Belə ki, o, onları nicata dəvət edir, nəfsləri isə həlaka dəvət edir. Necə ki, özü buyurur: "Mən Oda düşməməyiniz üçün sizin kəmərlərinizdən yapışmışam, siz isə pərvanə kimi oda atılırsınız". Həmçinin, o, yalnız xeyrə əmr edir, nə deyirsə vəhy deyir...".

Sonra deyir: "Vilayət bütün dini və dünyəvi işlərə şamil olsun deyə mütləq şəkildə qeyd olunmuşdur"[870].

8-Doktor Muhəmməd Mahmud Hicazi. O, özünün "əl-Vadih" adlı təfsirində deyir:

""**Peyğəmbər**", Allahın salavatı və salamı olsun onun üzərinə, "**möminlərə onların özlərindən övladır**", bütün din və dünya işlərində. Gərək Allah və Onun Rəsulu möminlərə hər bir şeydən, hətta özlərindən belə sevimli ola. Gərək Allah Rəsulunun hökmü onlar üzərində öz hökmlərindən daha üstün və daha keçərli ola, onların canları ona fəda ola, bədənləri hər bir şər qarşısında onun üçün sipər ola, sahib olduqları hər bir şey Peyğəmbərin sərəncamında ola. Peyğəmbər onlara nəyi əmr etsə və ya onları nədən çəkindirsə, gərək ona əməl etsinlər. Çünki, Peyğəmbərin buyuruğu hidayət və doğruluqdur. Möminlər bu buyuruqlara əməl

---

868 "Fəthül-qədir": 4/327-328.
869 "ət-Təfsirül-münir": 21/244.
870 "ət-Təfsirül-münir": 21/245.

etməklə hər iki dünyada səadətə çatarlar. Bununla yanaşı, Peyğəmbər möminlərə onların özlərindən daha mehriban, daha şəfqətli və daha faydalı olmaq baxımından övladır”[871].

9-Cəssas. O, özünün “Əhkamul-Quran” adlı kitabında deyir:

““**Peyğəmbər möminlərə onların özlərindən övladır**” ayəsi.

Bizə Abdullah ibn Muhəmməd ibn İshaq əl-Mərvəzi nəql edib dedi: bizə Həsən ibn Əbür-Rəbi əl-Curcani nəql edib dedi: bizə Əbdür-Rəzzaq Məmardan, o da Zühridən “**Peyğəmbər möminlərə onların özlərindən övladır**” ayəsi ilə bağlı belə nəql etdi: mənə Əbu Sələmə Cabirdən nəql edib dedi:

“Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mən hər bir möminə onun özündən övlayam. Əgər bir şəxs ölsə və özündən sonra borc qoyub getsə, mənə gəlin. Əgər özündən sonra mal qoyub getsə, onda mal vərəsələrinindir”.

“**Peyğəmbər möminlərə onların özlərindən övladır**” ayəsinin mənası barədə belə demişlər ki, ayənin mənası “başqasının və ya insanın nəfsinin çağırışı deyil, məhz Peyğəmbərin çağırışı qəbul edilməyə daha layiqdir” – şəklindədir. Həmçinin demişlər ki, Peyğəmbər insan üzərində onun özünün özü üzərində vermədiyi hökmü verə bilər. Çünki Peyğəmbərə itaət etmək vacibdir, ona itaət etmək Allaha itaət etmək sayılır.

Əbu Bəkr deyir: Əvvəldə qeyd etdiyimiz hədis daha sonra qeyd etdiyimiz məna ilə ziddiyyət təşkil etmir, ayənin mənasının yalnızca borc ilə məhdudlaşdığını çatdırmır. Çünki mümkündür Peyğəmbər öz nəfslərinin deyil, məhz onun dəvət etdiyi şeyi seçmək mövzusunda, həmçinin, üzərlərində hökm etmək mövzusunda möminlərdən övla (üstün) olduğunu, eləcə də, özünə itaət etməyin vacib olduğunu nəzərdə tutmuş olsun, ardınca da borc məsələsini qeyd etsin.”[872]

10-Vahidi. O, özünün təfsir kitabında deyir:

““**Peyğəmbər möminlərə onların özlərindən övladır**”, yəni: əgər Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onları bir şeyə, nəfsləri isə başqa bir şeyə dəvət etsə, onda Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) itaəti daha üstündür”[873].

11-İbn əl-Cəvzi. O, özünün “Zadul-məad” kitabında deyir:

““**Peyğəmbər möminlərə onların özlərindən daha övladır**”, yəni: daha çox haqq sahibidir. Peyğəmbər möminlər barəsində necə istəsə hökm verə bilər.

İbn Abbas demişdir: “(Yəni) əgər Peyğəmbər onları bir şeyə, nəfsləri isə başqa bir şeyə dəvət etsə, onda Peyğəmbərə itaət etmək nəfslərinə itaət etməkdən daha üstündür.”

Bu, doğrudur. Çünki, möminlərin nəfsləri onları həlakətə, Peyğəmbər isə nicata dəvət edir”[874].

12-Bəğəvi. O, öz təfsir kitabında deyir:

---

871 “ət-Təfsirül-vadih”: 21/75-76.
872 “Əhkamul-Quran”: 5/223.
873 “Təfsirül-Vahidi”: 2/858.
874 “Zadul-məad”: 6/352.

““**Peyğəmbər möminlərə onların özlərindən övladır**”, yəni: hökmünün keçərliliyi və itaətinin vacibliyi məsələsində möminlərdən üstündür.

İbn Abbas və Əta demişlər: “Yəni, əgər Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onları bir şeyə, nəfsləri isə başqa bir şeyə dəvət etsə, Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) itaət etmək öz nəfslərinə itaət etməkdən üstün olacaq”.

İbn Zeyd demişdir: “**Peyğəmbər möminlərə onların özlərindən övladır**”, yəni: onlar arasında verdiyi hökm mövzusunda onlara özlərindən daha üstündür, necə ki, sən öz qulun barəsində verdiyin hökm mövzusunda ona onun özündən daha üstünsən.

Həmçinin, demişlər ki, Peyğəmbər cihada aparmaq və uğrunda canından keçilmək mövzusunda möminlərə onların özlərindən daha üstündür.

Həmçinin, demişlər ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) cihada gedərdi, bu zaman bir dəstə şəxs gəlib “atalarımızdan və analarımızdan icazə alaq”, - deyərdilər. Bu səbəbdən də bu ayə nazil oldu.

Bizə Əbdül-Vahid Əbdül-Müleyhi xəbər verib dedi: bizə Əhməd ibn Abdullah ən-Nüeymi xəbər verib dedi: bizə Muhəmməd ibn Yusif xəbər verib dedi: bizə Muhəmməd ibn İsmayıl xəbər verib dedi: bizə Abdullah ibn Muhəmməd xəbər verib dedi: bizə Əbu Amir xəbər verib dedi: bizə Füleyh Hilal ibn Əli ibn Əbdür-Rəhman ibn Əbu Əmrdən, o da Əbu Hüreyrədən xəbər verib dedi:

Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: “Mən dünya və axirət işlərdinə hər bir möminə onun özündən övlayam. Əgər istəyirsinizsə, bu ayəni oxuyun: “**Peyğəmbər möminlərə onların özlərindən övladır**”. Hansı mömin ölsə və geri mal qoyub getsə, ailə üzvləri o malı irs alsın, hansı mömin ölsə və geriyə borc və ya övladlar qoyub getsə, (borc sahibi və övladlar) mənim yanıma gəlsin, çünki mən o möminin mövlasıyam.”[875]

13-Əbüs-Süud. O, özünün təfsir kitabında deyir:

““**Peyğəmbər möminlərə onların özlərindən övladır**”, yəni: bütün din və dünya işlərində, necə ki, ayənin mütləq şəkildə olması buna dəlalət edir. Buna əsasən, Peyğəmbər möminlərə onların özlərindən daha sevimli olmalıdır, onun möminlər barəsindəki hökmü möminlərin özləri barəsindəki hökmlərindən daha üstün olmalıdır, möminlərin nəzərində onun haqqı öz haqqlarından daha öndə olmalıdır, möminlərin ona olan şəfqət və canyandırmaları özlərinə olan şəfqət və canyandırmalarından daha çox olmaldır...”[876].

Elə isə görəsən, Qədir-Xum hədisindəki “mövla” kəlməsinin mənası barədə qaranlıq bir məqam qalırmı?!

“Mövla” sözünün lüğətdə bir çox mənası olsa da, Qədir-Xum hədisində bu söz məhz təsərrüf etməkdə övlalıq mənasına gəlir.

---

[875] “Təfsirül-Bəğəvi”: 3/507.

[876] “Təfsirü-Əbis-Süud”: 7/91.

Burada Təbərinin sözünü də qeyd etmək faydalı olardı. Təbəri öz təfsirində deyir:

“Allah-taala buyurur: “**Peyğəmbər**”, yəni, Muhəmməd (sallallahu əleyhi [və alihi] və səlləm), “**möminlərə onların özlərindən övladır**”. Yəni, Peyğəmbər möminlər üzərində onların özlərindən daha çox haqq sahibidir, yəni, onlar arasında necə istəsə hökm verə bilər və bu hökm onlar üzərində keçərli olur.” (“Təfsirüt-təbəri”: 19/14, təhqiq: Doktor Türki). (Tərc.).

Buna əsasən, Osman əl-Xəmis və başqalarının İmam Əli ibn Əbu Talibin (əleyhissəlam) vilayətindən qaçmaqdan ötrü Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) sözünün mənasını sapdırmaq cəhtləri heç bir fayda vermir.

Qədir-Xum hədisindəki "mövla" sözü Hədid surəsinin 15-ci ayəsindəki "mövla" sözü mənasındadır. Allah-taala buyurur: "**Sizin yeriniz Cəhənnəmdir. O sizin mövlanızdır**". Təfsir alimləri "**o sizin mövlanızdır**" cümləsini "o sizə övladır" – "sizə daha layiqdir" şəklində təfsir etmişlər.

İbn Kəsir sözügedən ayənin təfsirində deyir:

""**O sizin mövlanızdır**", yəni, etdiyiniz küfrə və şübhəyə görə sizə övla (layiq) olan mənzil odur"[877].

Vahidi deyir:

""**O sizin mövlanızdır**", yəni, o sizə övladır (daha layiqdir)."[878]

Bəğəvi deyir:

""**Sizin yeriniz Cəhənnəmdir. O sizin mövlanızdır**", yəni, etdiyiniz günahlar səbəbindən sizin sahibiniz və sizə övla (daha layiq) olan odur"[879].

Beyzavi ayənin təfsirində deyir:

""**Sizin yeriniz Cəhənnəmdir. O sizin mövlanızdır**", yəni, o sizə övladır (daha layiqdir). Bunun bir bənzəri Ləbidin sözündə gəlib:

(Vəhşi inək) iki fərcini – önünü və arxasını önünü və arxasını "qorxunun mövlası" (qorxulmağa daha layiq) hesab etdi

Ayədəki "sizin mövlanızdır" sözünün həqiqəti "sizin layiq olduğunuz yerdir" şəklindədir. Yəni, barəsində sizə laqyi olduğu deyiləcək yerdir...

Yaxud, ayənin mənası "mütəvəlli" (işləri öz öhdəsinə götürən) mənasındadır. Yəni, siz dünyada Cəhənnəmi qazandıran işləri öz öhdənizə götürdüyünüz [Cəhənnəmi qazandıran işlər gördüyünüz] kimi, Cəhənnəm də sizi öz öhdəsinə götürəcək [sizə əzab verməklə məşğul olacaq]"[880].

Şəvkani "Fəthül-qədir" kitabında deyir:

""**O sizin mövlanızdır**", yəni: o sizə övladır (sizə daha layiqdir). "Mövla" sözü kök etibarilə "insanın işlərini öz öhdəsinə götürən, insanın işlərini görən adam" mənasındadır, sonradan "insanın yanında olan adam" mənasında işlədilib..."[881].

Təbəri deyir:

""**O sizin mövlanızdır**", yəni: o sizə övladır (sizə daha layiqdir)"[882].

İbn Qüteybə deyir:

""**O sizin mövlanızdır**", yəni: o sizə övladır (sizə daha layiqdir)"[883].

---

[877] "Təfsirü-İbn Kəsir": 4/311.
[878] "Təfsirül-Vahidi": 2/1068.
[879] "Təfsirül-Bəğəvi": 4/298.
[880] "Təfsirül-Beyzavi": 5/300.
[881] "Fəthül-qədir": 5/171.
[882] "Təfsirüt-Təbəri": 11/680.
[883] "Ğəribül-Quran": səh.390.

Şeyx Səid ibn Əhməd əl-Kindi deyir:

"“**O sizin mövlanızdır**”, yəni: o sizə övladır (sizə daha layiqdir). Həmçinin demişlər ki, məna “siz dünyada onu qazandıracaq əməlləri öz öhdənizə götürdüyünüz [onu qazandıracaq əməllər etdiyiniz] kimi, o da sizin öz öhdəsinə götürəcək” şəklindədir”[884].

Əbül-Fərəc İbn əl-Cövzi deyir:

"“**O sizin mövlanızdır**”, yəni: o sizə övladır (sizə daha layiqdir)”[885].

Həmçinin, “Zadul-musir” kitabında deyir:

"“**O sizin mövlanızdır**”. Əbu Übeydə demişdir: Yəni, o sizə övladır (sizə daha layiqdir)”.

Nəsəfi deyir:

"“**O sizin mövlanızdır**”, yəni: o sizə övladır (sizə daha layiqdir), sizə layiq olan yerdir, yəni barəsində sizə layiq olduğu deyiləcək yerdir...”[886].

“Təfsirül-cəlaleyn” kitabında deyilir:

"“**O sizin mövlanızdır**”, yəni: o sizə övladır (sizə daha layiqdir)”[887].

Muhyiddin əd-Dərviş “İrabul-Quran” kitabında deyir:

"“**Sizin yeriniz Cəhənnəmdir. O sizin mövlanızdır**”. “*Məvakumun-nar*” (sizin yeriniz Cəhənnəmdir), bu cümlədə xəbər öndə, mübtəda isə arxada gəlib, əksinə də ola bilər. Həmçinin, ayədəki “*hiyə*” (o) mübtədadır, “*məvlakum*” (sizin mövlanızdır) isə xəbər. “*Məvlakum*” (sizin mövlanızdır) sözünün “*əvla bikum*” (sizə daha layiqdir) mənasında başa düşülməsi doğrudur”[888].

Buxari öz “Səhih” kitabının təfsir bölməsində, Hədid surəsinin təfsirində deyir:

“Mücahid demişdir: ...“**O sizin mövlanızdır**”, yəni: o sizə övladır (sizə daha layiqdir)”[889].

Eləcə də bir çox leksikologiya və təfsir alimi Ləbid ibn Rəbiə əl-Amirinin şerindəki “mövla” sözünü “övla” kimi təfsir etmişlər.

Əbu Nəsr İsmayıl ibn Həmmad əl-Cəvhəri deyir:

“Ləbidin dediyi “*Vəhşi inək iki fərcini – önünü və arxasını “qorxunun mövlası” hesab etdi...*” sözünə gəlincə, bunu nəzərdə tutur ki, qorxulmağa ən layiq olan yer məhz bu yerdir (ön və arxadır)”[890].

Bu fikir qrammatika alimi Əbül-Abbas Sələb Əhməd ibn Yəhya ibn Zeyd əş-Şeybanidən (vəf. 291-ci hicri ili) də nəql olunub. Bunu ondan qazı Əbu Abdullah Hüseyn əz-Zuzəni “Şərhül-müəlləqatis-səb” kitabında nəql etmişdir:

“Sələb demişdir: “Bu beytdəki mövla sözü “bir şeyə övla olan” (bir şeyə daha layiq olan) mənasındadır. Allah-taalanın bu ayəsindəki kimi: “**Sizin yeriniz Cəhənnəmdir. O sizin mövlanızdır**”, yəni, o sizə övladır (daha layiqdir)”.”[891]

---

884 “ət-Təfsirül-müyəssər”: 3/318.
885 “Təkzirətül-ərib”: 1/206.
886 “Təfsirün-Nəsəfi”: 4/217.
887 “Təfsirül-cəlaleyn”: səh.721.
888 “İrabul-Quran və bəyanuh”: 9/463-464.
889 “Səhihül-Buxari”: 4/1851.
890 “Sihahul-lüğə və tacul-ərəbiyyə”: “vəliyə” kökü.
891 “Şərhül-müəlləqatis-səb”: səh.229.

Həmçinin, doktor Ömər Faruq ət-Təbba Ləbidin divanına yazdığı şərhində deyir:

"Sələb demişdir: "Bu beytdəki mövla sözü "bir şeyə övla olan" (bir şeyə daha layiq olan) mənasındadır. Allah-taalanın bu ayəsindəki kimi: "**Sizin yeriniz Cəhənnəmdir. O sizin mövlanızdır**", yəni, o sizə övladır (daha layiqdir)"."[892]

İbn Mənzur "Lisanül-mizan" kitabında deyir:

"Ləbidin dediyi "*Vəhşi inək iki fərcini – önünü və arxasını "qorxunun mövlası" hesab etdi*" sözünə gəlincə, bunu nəzərdə tutur ki, döyüş baş verməyə ən layiq olan yer məhz bu yerdir (ön və arxadır)"[893].

Qazı Beyzavi "**O sizin mövlanızdır**" sözünün təfsirində deyir:

"Yəni, o sizə övladır (daha layiqdir). Ləbidin bu beytindəki kimi: "*Vəhşi inək iki fərcini – önünü və arxasını "qorxunun mövlası" hesab etdi*"."[894]

Leksikoloq alim Əbu Bəkr Muhəmməd ibn Qasim əl-Ənbari deyir:

"Mövla sözü daxilində antonimlik olan bir sözdür. Belə ki, mövla sözü həm nemət verən və azad edən mənasına, həm də nemət verilən və azad edilən mənasına gəlir... Onun bu iki mənadan başqa 6 digər mənası da vardır. Biri budur ki, mövla sözü "bir şeyə övla olan" (daha layiq olan) mənasında işlənə bilir. "**Sizin yeriniz Cəhənnəmdir. O sizin mövlanızdır**" ayəsində olduğu kimi. Belə ki, buradakı "o sizin mövlanızdır" sözü "o sizə övladır" mənasındadır. Həmçinin, Ləbid demişdir ki:

*Vəhşi inək iki fərcini – önünü və arxasını "qorxunun mövlası" hesab etdi*"[895].

Həmçinin, Əbu Zəkəriyya Yəhya ibn Əli əl-Xətib ət-Təbrizi deyir:

"Mövla sözü bir neçə mənaya gəlir: qul, ağa, əmioğlu, kürəkən, qonşu, dost, bir şeyə daha layiq olan"[896].

Muhəmməd ibn Əbu Şakir ər-Razi "Ğəribül-Quran" kitabında deyir:

"Mövla, yəni, bir şeyə daha layiq olan. Allah-taalanın "**Sizin yeriniz Cəhənnəmdir. O sizin mövlanızdır**" ayəsi də məhz bu mənadadır, yəni, o sizə övladır (daha layiqdir). Lüğətdə mövla sözü 8 mənada işlədilir: qul azad edən, əmioğlu, köməkçi, qonşu, həmpeyman, rəhbər[897] və bir şeyə daha layiq olan"[898].

İbn Səbbağ əl-Maliki "əl-Füsusul-muhimmə" kitabında deyir:

"Alimlər demişlər ki, mövla sözü bir neçə mənada işlədilə bilər. Qurani-Əzim bu mənaları qeyd etmişdir. Bəzən "övla" – daha layiq mənasında ola bilir. Necə ki, Allah-taala münafiqlər barəsində buyurur: "**Sizin yeriniz Cəhənnəmdir. O sizin mövlanızdır**", yəni, o sizə övladır (daha layiqdir)"[899].

---

892 "Divanu-Ləbid ibn Rəbiə əl-Amiri", doktor Ömər Faruqun şərhi və hərəkələməsi ilə: səh.147.
893 "Lisanül-mizan": 15/410.
894 "Təfsirül-Beyzavi": 5/300.
895 "əl-Əddad": 2/46.
896 "Şərhu-divanil-həmasə": 1/23.
897 Bu sözün orijinalında "əqid" sözü işlənib. Əqid sözü həm rəhbər və başçı mənasına, həm də müttəfiq mənasına gələ bilir. Həmpeyman mənası ilə müttəfiq mənası sinonim mənalar olduğuna görə, zahirən bu sözdən məqsəd rəhbər və başçı mənasıdır. (Tərc.).
898 "Ğəribül-Quran" (Xətib Təbrizi): "vəliyə" kökü.
899 "əl-Füsulul-muhimmə": səh.43.

Əbu Bəkr Muhəmməd ibn Əziz əs-Sicistani özünün “Təbsirətür-Rəhman” kitabının ardında çap olunan (2/154) “Nəzhətül-qülub fi təfsiri-ğəribil-Quran” kitabında deyir:

“Mövla sözünün 8 mənası vardır: qul azad edən, qulluqdan azad edilən, vəli, bir şeyə övla (daha layiq) olan...”.

Ərəb dilində mövla sözünün övla mənasında işlənə bildiyini və Qədir-Xum hədisinin də yalnızca bu mənada təfsir edilə biləcəyini isbat etdikdən sonra sübuta yetir ki, Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) müsəlmanlar üzərində vilayəti olduğu kimi Əli (əleyhissəlam) da vilayəti vardır. Məhz buna görə deyirik ki, Qədir-Xum hədisi İmam Əli (əleyhissəlam)-ın imamlığına və xəlifəliyinə dəlalət edən açıq-aşkar nəssdir.

Böyük şiə alimlərindən olan və İbn əl-Bitriq kimi tanınan Şəmsəddin Yəhya ibn Həsən əl-Hilli (Allah ona rəhmət etsin) özünün “əl-Ümdə” kitabında deyir:

“Əgər deyilsə ki, fərzən mövla sözünün övla mənasında işlədilə bildiyini və “övla” mənasının mövla sözünün mənalarından biri olduğunu qəbul etdik, bəs dəlil nədir ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Qədir-Xum günündə başqa mənaları deyil də məhz bu mənanı – övla mənasını nəzərdə tutub?

Bu suala belə cavab verilər ki, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) öz xütbəsinin əvvəlində dediyi, barəsində ümmətdən iqrar aldığı və ardınca həm onun mənasına, həm də başqa bir mənaya gələ bilən bir söz (“mövla” sözü) işlətdiyi “*məgər mən sizə sizin özünüzdən övla deyiləmmi?*” cümləsi ona dəlalət edir ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) başqa mənaları deyil, məhz ümmətdən iqrar aldığı mənanı nəzərdə tutub; onun iqrarın ardınca buyurduğu cümlədən məqsəd elə barəsində iqrar aldığı məsələdir. Çünki, hikmət sahibi bir şəxsin xüsusi bir məna ifadə edən bir söz deyib, ardınca onun mənasına gələn başqa bir sözü ona əlavə etməsi yalnız o vaxt doğru ola bilər ki, onun (ikinci sözü deyərkən) nəzərdə tutduğu məna həmin birinci işlətdiyi xüsusi məna olmuş olsun.

Bunu daha aydın bir dillə izah etmək istəsək belə bir misalı göstərə bilərik. Fərz edək ki, bir şəxsin bir neçə evi var. Həmin şəxs camaatı yığıb “siz mənim filan yerdəki evimi tanıyırsınız?”, - deyib həmin evi vəsf edir, evin və xüsusiyyətlərini hüdudlarını bəyan edir. Bunun ardınca camaat “bəli, tanıyırıq”, - deyir. Bundan sonra həmin şəxs deyir ki, “elə isə şahid olun ki, mən evimi yoxsullara və evsizlərə vəqf edirəm”. Belə bir halda həmin şəxsin vəqf etdiyi ev barəsində dediyi söz onun başqa evlərinə yox, məhz barəsində iqrar aldığı evə aid edilə bilər.

Həmçinin, başqa bir misalla bəyan etmək istəsək: Əgər Peyğəmbərin bir neçə qulu olsa və camaata “mənim filan qulumu tanıyırsınız?”, - desə, camaat da desə ki, “bəli tanıyırıq”, bunun ardınca da Peyğəmbər “elə isə şahid olun ki, mən onu Allah üçün azad edirəm”, - desə, belə bir halda onun bu sözü başqa qullara deyil, məhz barəsində iqrar aldığı qula aid edilə bilər.

İndi ki, məsələ belədir, deməli aydın olur ki, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır” – cümləsindəki “mövla” sözündən məqsədi, daha öncə barəsində iqrar aldığı məna – övla mənasıdır. Buna görə də bu sözü onun başqa mənalarına aid etmək olmaz.

Bu, o mənaya gəlir ki, Əli (əleyhissəlam) camaata onların özlərindən övladır. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Allah-taala tərəfindən özü üçün sabit edilən övlalığı onun üçün də sabit etmişdir... Elə isə aydın olur ki, mövlalıqdan məqsəd məhz bu mənadır”[900].

Sünni alimlərindən olan Sibt İbn əl-Cəvzi deyir:

“Peyğəmbərin “mən kimin mövlasıyamsa...” sözü. Ərəb dili alimləri mövla sözünün bir neçə mənada işlədildiyini demişlər... Doqquzuncu məna: Ağa, itaət olunan şəxs. Yəni, mütləq mövla. “əs-Sihah” kitabının müəllifi demişdir: “Hər kəs bir nəfərin işini öz öhdəsinə alırsa, onun vəlisidir”. Onuncu məna: Övla mənası. Allah-taala buyurur: “**Bu gün nə sizdən, nə də kafirlərdən fidyə qəbul olunacaq. Sizin yeriniz Cəhənnəmdir. O sizin mövlanızdır**”, yəni, o sizə övladır (daha layiqdir). Bu deyilənlər aydın oldusa, (deyirik: ) hədisdəki mövla sözü “qul sahibi” mənasına aid edilə bilməz. Çünki Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bu mənada Əlinin sahibi deyildi. Həmçinin, mövla sözü “qul azad edən” mənasına aid edilə bilməz. Çünki nə Peyğəmbər Əlini qulluqdan azad etmişdi, nə də Əli idi. Əli azad şəxs idi. Həmçinin, mövla sözü “köməkçi” mənasına aid edilə bilməz. Çünki Əli (zatən) Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) kömək edənə kömək edir, onu köməksiz qoyanı köməksiz qoyurdu. Həmçinin, “əmioğlu” mənasına aid edilə bilməz, çünki Əli məhz Peyğəmbərin əmisi oğlu idi. Həmçinin, “həmpeyman” mənasına aid edilə bilməz, çünki peyman düşmənlər arasında, yardımlaşmaq və bir-birlərinə dəstək olmaq məqsədiylə bağlanır. Həmçinin, “cərirə zəmanətini öz üzərinə götürən”[901] mənasına aid edilə bilməz, çünki daha öncə də qeyd etdiyimiz kimi bu, nəsx olunub. Həmçinin “qonşu” mənasına aid edilə bilməz, çünki belə olunca boş və bihudə söz deyilmiş olar ki, Peyğəmbərin məqamı bundan çox-çox ucadır. Həmçinin də “itaət olunan ağa” mənasına aid edilə bilməz. Çünki Əli Peyğəmbərə itaətkar idi, canı ilə onu qoruyur, onun önündə cihad edirdi. Hədisdən məqsəd əsl-xalis itaətdir. Elə isə aydın olur ki, hədisdəki mövla sözünün mənası onuncu məna – övla mənasıdır. Yəni, mən kimə onun özündən övlayamsa, Əli də ona onun özündən övladır. Bu məsələni hafiz Əbül-Fərəc Yəhya ibn Səid əl-İsfahani özünün “Mərəcül-bəhreyn” kitabında qeyd etmişdir. Belə ki, o, bu hədisi öz şeyxləri yolu ilə nəql etmiş və demişdir: Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) Əlinin əlini tutub dedi: “Mən kimin vəlisi və ona onun özündən övlayamsa, Əli də onun vəlisidir”. Bunun aydın olur ki, hədisin mənası onuncu mənadır. Buna həmçinin, Peyğəmbərin “məgər mən möminlərə onların özlərindən övla deyiləmmi?” sözü də dəlalət edir. Bu cümlə, Əlinin imamətinin və itaətinin vacibliyini ifadə edən açıq-aşkar sözdür. Həmçinin də Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) “İlahi, Əli harada olsa, haqq onunla birgə et” sözü belədir. Bu sözdə ona dəlil vardır ki, Əli ilə səhabələr arasında nə ixtilaf baş vermişsə, hamısında haqq məhz Əli ilə birgə olmuşdur. Bu, bütün ümmətin icması ilə qəbul olunmuş bir məsələdir. Məgər görmürsən ki,

[900] “əl-Ümdə”: səh.161-162.

[901] “Cərirə zəmanəti” iki şəxs arasında baş tutan bir sözləşmədir. Bu zaman tərəflərin hər ikisi bir-birinə, yaxud biri digərinə zəmanət verir ki, əgər qarşı tərəf diyə ödənəcək bir cinayət etsə, həmin cinayətin diyəsini ödəmək öz üzərinədir, eyni zamanda qarşı tərəf ondan irs alacaq. (Tərc.).

alimlər “baği”lərin (həddi aşanların) hökmlərini məhz Cəməl və Siffeyn döyüşlərindən istinbat edib çıxarıblar?...”[902].

Şeyx Muhəmməd ibn Təlhə əş-Şafei “Mətalibus-səul” kitabında deyir:

“Tirmizi öz sənədi ilə Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) belə buyurduğunu nəql etmişdir: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”. Tirmizi bu hədisi elə bu şəkildə, heç bir əlavə olmadan nəql etmişdir. Başqaları isə bu hədisi onun deyildiyi gün və məkanla birgə qeyd etmişlər. Hədisin deyildiyi vaxt Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) vida həccindən qayıtdığı zamandır. Hədisin deyildiyi məkan isə Məkkə ilə Mədinə arasında “Xum” adlanan bir çöldür. Bu səbəbdən də həmin gün “Qədir-Xum günü” adlanmışdır. Peyğəmbər (əleyhissəlam) bu hədisi qeyd etdiyimiz səfərində demişdir. Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) həmin gündə Əliyə bu uca və şərəfli məqamı bəxş etməsi səbəbindən həmin gün bir bayrama çevrildi.

Zazandan belə nəql olunur:

Əlinin Rəhbədə camaata səslənib belə dediyini eşitdim: “Kim Qədir-Xum günündə Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) sözünü eşidibsə, qalxıb şahidlik etsin”. Bu zaman on üç nəfər şəxs ayağa qalxıb şəhadət verdi ki, Allah Rəsulunun “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”, - dediyini eşidiblər”.

Daha artıq izah üçün deyirik:

İmam Əbül-Həsən əl-Vahidi özünün “Əsbabün-nüzul” kitabında mərfu şəkildə Əbu Səid əl-Xudridən (Allah ondan razı olsun) belə nəql edir: ““**Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı çatdır**” ayəsi Qədir-Xum günündə Əli ibn Əbu Talib barəsində nazil olub. Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) “mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır” sözündə “mən” (ərəbcə, azərbaycanca: “kimin” – tərc.) əvəzliyi işlənib, bu əvəzlik də ümumilik bildirir. Buna əsasən, cümlə bu mənanı verir ki, Əli Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) mövlası olduğu hər bir insanın mövlasıdır.

Həmçinin, bu cümlədə “mövla” sözü işlənib. Bu sözün də bir neçə mənası vardır. Qurani-Kərim bu mənaları qeyd etmişdir. Bu söz bəzən “övla” – daha layiq mənasında olur. Məsələn, Allah-taala münafiqlər barəsində buyurur: “**Sizin yeriniz Cəhənnəmdir. O sizin mövlanızdır**”, yəni, o sizə övladır (daha layiqdir). Bəzən köməkçi mənasında olur, məsələn, Allah-taala buyurur: “**Bu ona görədir ki, Allah iman gətirənlərin mövlasıdır və kafirlərin heç bir mövlası yoxdur**”, yəni, Allah möminlərin yardımçısıdır, kafirlərin isə heç bir yardımçısı yoxdur. Bəzən varis mənasında olur, məsələn, Allah-taala buyurur: “**Onların hər birini valideynlərin və qohumların qoyub getdikləri şeylərə mövla etdik**”, yəni, varis etdik. Bəzən “əsəbə”[903] mənasında olur. Allah-taala buyurur: “**Mən özümdən sonra gələn mövlalarıma görə qorxuram**”, yəni: əsəbəmə görə qorxuram. Bəzən yaxın dost mənasında olur, məsələn, Allah-taala buyurur: “**O gün heç bir mövla öz mövlasına kömək edə bilməyəcək**”, yəni, o gün heç bir əziz adam öz əziz

[902] “Təzkirətül-xəvass”: səh.37-38.

[903] “Əsəbə”: kişinin övladları və ata tərəfdən olan qohumları. (“Tacul-ərus”, Əz-Zəbidi: əsəbə kökü). (Tərc.).

adamına, heç bir dost öz dostuna, heç bir qohum öz qohumuna kömək edə bilməyəcək. Bəzən də ağa və qul azad edən mənasında işlənir, bu da məlumdur.

İndi ki, mövla sözü bütün bu mənalarda işlənə bilir, o zaman o, istər "övla" mənasına aid edilsin, istərsə də yaxın dost mənasına aid edilsin, (fərq etməz,) hədisin mənası belə olacaq: Mən kimə övla, yardımçı, varis, əsəbə, əziz və ya dostamsa, Əli də ona nisbətdə belədir... Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) bu hədislə özünün möminlərə nisbətdə sahib olduğu bütün imtiyazları Əli üçün də sabit edib. Peyğəmbər möminlərə övladır, onların yardımçısıdır və onların ağasıdır. Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) mövla sözünün ifadə etdiyi bütün mənaları Əli üçün sabit edib. Bu, çox uca bir məqam, çox yüksək bir şərəf, çox ali bir dərəcədir. Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) bu məqamı yalnız və yalnız Əliyə məxsus edib. Məhz bu səbəbdəndir ki, həmin gün Əli dostları üçün bayram və sevinc günü olmuşdur."[904]

Osman əl-Xəmisin dediyi bu sözə gəlincə: "Allah-taala İbrahim (əleyhissəlam)-ın qövmü barədə danışarkən belə deyir: "**İbrahimə ən övla olanlar, ona tabe olanlardır**". Burada Allah "övla" sözü ilə "rəhbər" mənasını nəzərdə tutmamışdır. Əgər belə olsa, onda ayənin mənası bu olar ki, camaat İbrahimin rəhbərləridir. Halbuki, İbrahim (əleyhissəlam) onların rəhbərləri və imamları idi", cavabı belədir:

Allah-taalanın "**İbrahimə ən övla olanlar ona tabe olanlardır**" ayəsində övla sözünün "təsərrüf etməkdə övlalıq" mənasına aid edilməsinə mane olan açıq-aşkar dəlil vardır. Buna əsasən, bu ayə ilə bizim dediyimiz ""*mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" hədisindəki mövla sözü "təsərrüf etməkdə övla olmaq" mənasındadır*" sözü müqayisə edilə bilməz. Çünki az əvvəl də şahid olduğunu kimi, əhli-sünnə alimləri "**Peyğəmbər möminlərə onların özlərindən övladır**" ayəsinin mütləq, yəni qeyd-şərtsiz olduğunu demişlər. Belə olunca "təsərrüf etməkdə övlalıq" mənası zəruri olaraq bu ayənin məna çərçivəsinə daxil olur. Digər tərəfdən, siz onu da bildiniz ki, Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) xütbəsinin əvvəlində bu mübarək ayəyə əsaslanaraq özünün övlalığını bəyan etmiş, ardınca bu övlalığı Əli (əleyhissəlam) üçün sabit etmişdir. İndi ki, bu övlalıq Əli (əleyhissəlam) üçün sabitdir, deməli onun məna çərçivəsi daxilində olan təsərrüf etməkdə övlalıq mənası da o həzrət üçün sabitdir. Elə isə aydın olur ki, yuxarıdakı mübarək ayənin bu mövzuya bir əlaqəsi yoxdur.

Bununla Allah-taalaya həmd olsun ki, Şeyx Osman əl-Xəmisin Qədir-Xum hədisi ilə bağlı ortaya atdığı bütün şübhə və iradları cavablamış olduq. Belə ki, əvvəlcə hədisin səhihliyini və mütəvatirliyini isbat etdik, ardınca hədisin Şeyx Xəmisin yalan, yaxud zəif olduğunu iddia etdiyi müxtəlif sözlərinin səhihliyini sübut etdik, daha sonra isə onun Qədir-Xum hədisinin İmam Əmirəlmöminin Əli ibn Əbu Talibin (əleyhissəlam) imamətinə dəlalət etməməsini göstərmək cəhdlərini batil etdik. Qədir-Xum hədisi açıq-aşkar şəkildə imamətə dəlalət edir.

---

904 "Mətalibus-səul": səh.44-45.

# OSMAN ƏL-XƏMİSİN “ƏLİ MƏNDƏNDİR, MƏN DƏ ƏLİDƏNƏM” HƏDİSİ BARƏSİNDƏ DEDİYİ SÖZLƏRƏ CAVAB

### Osman əl-Xəmis başqalarını İmam Əlinin (əleyhissəlam) xüsusiyyətlərinə şərik etməyə çalışır

Osman əl-Xəmis deyir:

““Əli məndəndir, mən də Əlidənəm” hədisi. Şiələr Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) bu sözünün Əlinin ondan sonra imam olmasına dəlil olduğunu deyirlər.

Deyirik: Tabe olmaq və yardım məsələsində Əli Peyğəmbərdəndir (sallallahu əleyhi [və alihi] və səlləm), Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) də Əlidən. Buna görədir ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) (Uhud döyüşündə itdiyi vaxt) Cüleybib barəsində, “Cüleybibi axtarın”, - demiş, səhabələr “onu tapmadıq”, - demişlər, sonra Peyğəmbər “onu ölülərin arasında axtarın”, - demiş, səhabələr də gedib onu ətrafında yeddi öldürülmüş kafirlə ölmüş vəziyyətdə tapmışlar, sonra gəlib bunu Peyğəmbərə xəbər vermişlər, Peyğəmbər də onun barəsində “yeddi nəfəri öldürmüş, sonra onu öldürmüşlər. Cüleybib məndəndir, mən də ondan”, - demişdir. Bunu Müslim nəql etmişdir.

Həmçinin, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) əşəriləri xatırlayanda “onlar mənədndirlər, mən də onlardanam”, - demişdir. Buna əsasən, Peyğəmbərin Əli barəsində “Əli məndəndir, mən də ondanam” deməsindən Əlinin Peyğəmbərdən sonra xəlifə olması nəticəsi çıxmır. Əksinə, bu cümlə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) yolu ilə Əlinin yolunun birliyini və Əlinin Peyğəmbərə olan itaətinin dərəcəsini bəyan etməkdən ötrü deyilmiş bir sözdür”[905].

**Deyirəm:**

**Birincisi:** Şeyx Osman əl-Xəmisin sözündən belə başa düşülür ki, onun bu mübarək hədisə sənəd nöqteyi-nəzərindən heç bir iradı yoxdur; o, bu hədisin

---

[905] “Tarixdən bir an”: səh.206-207.

həqiqətən də Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) tərəfindən deyilməsini və səhih olmasını qəbul edir. Necə etməyə bilər ki, hədis bir çox təriqlər və səhih sənədlərlə nəql olunub və hətta öz nəzərlərində ən səhih sayılan kitabda belə gəlib.

Biz aşağıda Peyğəmbəri-Əkərmin (sallallahu əleyhi və alihi və səlləm) bu sözünü özündə ehtiva edən əhli-sünnə təriqli hədislərdən bir neçə nümunə qeyd edirik.

Buxari öz "Səhih" kitabında belə nəql edir:

Bizə Übeydullah ibn Musa İsraildən, o, Əbu İshaqdan, o da Bəra ibn Azibdən belə nəql etdi:

"Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Zil-qədə ayında ümrə ziyarətinə getdi. Lakin Məkkə camaatı Peyğəmbərdən orada cəmi üç gün qalacağı barədə zəmanət almadan onu şəhərə buraxmaq istəmədi. Elə ki, sözləşmə yazdılar, sözləşmədə belə yazıldı: "Allah Rəsulu Muhəmməd (sallallahu əleyhi [və alihi] və səlləm) buna zəmanət verir". Müşriklər dedilər: "Biz bunu təsdiq etmirik. Əgər sənin Allahın rəsulu olduğunu bilsəydik, sənə mane olmazdıq. Sən sadəcə Abdullah oğlu Muhəmmədsən". Peyğəmbər dedi: "Mən həm Allahın rəsuluyam, həm də Abdullah oğlu Muhəmmədəm." Sonra Əliyə dedi: ""Allah Rəsulu" sözünü sil". Əli dedi: "Xeyr, vallah! Sənin adını əsla silmərəm". Bu zaman Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) sözləşməni götürüb belə yazdı: "Abdullah oğlu Muhəmməd zəmanət verir ki, Məkkəyə nə silah daxil olacaqsa, qınında daxil olacaq; əgər Məkkə camaatından bir şəxs ona tabe olmaq istəsə, onu (özü ilə) Məkkədən çıxarmayacaq; əgər onun əshabından bir nəfər Məkkədə qalmaq istəsə, ona mane olmayacaq". Peyğəmbər Məkkəyə daxil olduqdan və müddət bitdikdən sonra müşriklər Əlinin yanına gəlib dedilər: "Yoldaşına de ki, şəhərimizdən çıxsın, artıq vaxt bitib". Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) şəhərdən çıxdı. Bu zaman Həmzənin qızı "ey əmi! Ey əmi!",- deyə-deyə onun arxasınca gəldi. Əli onun əlindən tutdu və Fatiməyə (əleyhəssəlam) dedi: "Əmin qızını götür, ona bax". Sonra Əli, Zeyd və Cəfər onun barəsində ixtilaf etdilər. Əli dedi: "Mən ona daha layiqəm, o, mənim əmim qızıdır". Cəfər dedi: "O, mənim əmim qızıdır, onun xalası da mənim həyat yoldaşımdır". Zeyd isə dedi: "O, mənim qardaşım qızıdır". Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) "xala ana yerindədir", - deyib onu xalasına verdi. Sonra Əliyə dedi: "Sən məndənsən, mən də səndənəm". Cəfərə dedi: "Sən həm zahiri görünüş, həm də əxlaq baxımından mənə bənzəyirsən". Zeydə isə dedi: "Sən bizim qardaşımız və mövlamız (azad etdiyimiz qul)san"."[906]

Buxari bu hədisi həmçinin, "Ümrətül-qəza" adlı bölmədə də azacıq fərqlə qeyd etmişdir[907].

Habelə eyni hadisəni bu və ya digər sözlərlə, içində "**sən məndənsən, mən də səndənəm**" cümləsinin keçdiyi şəkildə aşağıdakılar nəql etmişlər: İbn Hibban "Səhih" kitabında[908], Hakim "əl-Müstədrək ələs-səhiheyn" kitabında[909], Əbu

---

906 "Səhihül-Buxari": 2/960, hədis: 2552.
907 "Səhihül-Buxari": 4/1551, hədis: 4005.
908 "Səhihü-İbn Hibban": 11/229, hədis: 4873.
909 "əl-Müstədrək ələs-səhiheyn": 3/130, hədis: 4614.

Abdullah Muhəmməd ibn Əbdül-Vahid əl-Hənbəli əl-Məqdisi "əl-Əhadisul-muxtarə" kitabında[910], Tirmizi "Sünənüt-Tirmizi" kimi məşhur olan "əl-Camius-səhih" kitabında[911], Beyhəqi "əs-Sünənül-kübra" kitabında[912], Məmər (مَعْمَرٌ) ibn Raşid "əl-Cami" kitabında[913], Bəzzar "Müsnəd" kitabında[914], Əhməd ibn Hənbəl "Müsnəd" kitabında[915], Beyhəqi "Şüəbül-iman" kitabında[916], Nəsai "Xəsaisu-əmiril-muminin Əli ibn Əbu Talib" kitabında[917] (burada cümlə "**sənin mənə Harun kimisən və mən səndənəm**" şəklindədir) və başqa bir çox şəxslər də öz kitablarında.

"Sən məndənsən, mən də səndənəm" sözünü hər hansısa bir hadisəyə işarə etmədən nəql etmişlər: İbn Əbu Şeybə "Müsənnəf" kitabında[918], Nəsai "Xəsaisul-imam Əli" kitabında[919] və Hafiz İbn Əsakir "Tarixu-Diməşq" kitabında[920].

İbn Macə "Sünən" kitabında belə nəql edir:

Bizə Əbu Bəkr ibn Əbu Şeybə, Süveyd ibn Səid və İsmayıl ibn Musa nəql edib dedilər: bizə Şərik Əbu İshaqdan, o da Həbəşi ibn Cünadədən nəql edib dedi:

"Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitdim: "Əli məndəndir, mən də Əlidənəm. Mənim adımdan yalnız Əli çatdıra bilər"."[921]

Bu hədisi İbn Əbu Şeybə "Müsənnəf" kitabında[922], Əhməd ibn Hənbəl "Müsnəd" kitabında[923], Təbərani "əl-Mücəmül-kəbir" kitabında[924], İbn Əbu Asim

---

910 "əl-Əhadisul-muxtarə": 2/392, hədis: 778; 2/393, hədis: 779.

911 "əl-Camius-səhih": 5/635, hədis: 3716.

912 "əs-Sünənül-kübra": 8/5, 8/6 və 12/226.

913 "əl-Cami", Əbdür-Rəzzaq əs-Sənaninin "Müsənnəf" kitabın ardınca çap olunub: 11/227.

914 "Müsnədül-Bəzzar": 2/316, hədis: 744.

915 "Müsnədü-Əhməd": 1/115, hədis: 931.

916 "Şüəbül-iman": 4/284.

917 "Xəsaisul-imam Əli": səh.79, hədis: 68.

918 "Müsənnəf": 6/368, hədis: 32090.

919 "Xəsaisul-imam Əli": səh.78, hədis: 67.

920 "Tarixu-Diməşq": 42/63.

921 "Sünənü-İbn Macə": 1/44, hədis: 119.

**Deyirəm: Şeyx Osman əl-Xəmis "Kəşfül-cani" kitabında (səh.115) "Əli məndəndir, mən də Əlidənəm. Mənim adımdan yalnız Əli çatdıra bilər" hədisi mövzusunda doktor Muhəmməd ət-Ticaniyə rəddiyyə verərkən hədisi zəif çıxarmağa çalışmış və demişdir: "Deyirəm: Bu hədisin sənədində Əbu İshaq əs-Səbii vardır. O, zəif şəxslərdən çoxlu tədlis etməsi ilə məşhur olan bir müdəllisdir. Əgər o, açıq-aşkar şəkildə "mənə filankəs nəql edib dedi", - desə, onda onun hədisi səhih sayılar, hətta səhihin ən yüksək mərtəbəsində olar. Lakin, əgər bunu deməsə, onda onun hədisinin qəbulu məsələsində ehtiyat edilər".**

**Mən deyirəm: Nəsai özünün "əs-Sünənül-kübra" kitabında (5/45, hədis: 8147) bu hədisi nəql etmişdir. Orada Əbu İshaq əs-Səbii açıq-aşkar şəkildə hədisi Həbəşi ibn Cünadədən eşitdiyini bildirmişdir. Hədisin sənədi belədir: "Bizə Əhməd ibn Süleyman xəbər verib dedi: bizə Yəhya ibn Adəm xəbər verib dedi: bizə İsrail Əbu İshaqdan xəbər verib dedi: *mənə Həbəşi ibn Cünadə əs-Səluli nəql edib dedi*: "Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: "Əli məndəndir, mən də Əlidənəm. Mənim adımdan yalnız Əli çatdıra bilər"."**

**Həmçinin, İbn Əbu Şeybənin nəql etdiyi hədisin sənədindən də bu məsələ başa düşmək olur. İbn Əbu Şeybə deyir:**

**Bizə Şərik Əbu İshaqdan, o da Həbəşi ibn Cünadədən nəql etdi. Şərik dedi: "Əbu İshaqa dedim: "Ey Əbu İshaq, sən Həbəşi ibn Cünadəni harada gördün?" Dedi: "*Bizim məclisimizə yanımıza gəldi və dedi*: Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitdim: "Əli məndəndir, mən də Əlidənəm. Mənim adımdan yalnız Əli çatdıra bilər""."**

**Elə isə sübuta yetir ki, Əbu İshaq əs-Səbii hədisi Həbəşi ibn Cünadənin özündən eşidib. Buna əsasən, hədis Şeyx Osman əl-Xəmisin də dediyi kimi, səhihin ən yüksək mərtəbəsində olur. İnşallah, bu kitabın ikinci cildində bu hədis mövzusunda ona ətraflı rəddiyyə veriləcək.**

922 "Müsənnəf": 6/366, hədis: 32071.

923 "Müsnədü-Əhməd": 4/165.

“əs-Sünnə” kitabında[925], Nəsai “Fadailus-səhabə”[926] və “əs-Sünənül-kübra”[927] kitablarında, İbn Əsakir “Tarixu-Diməşq” kitabında[928], başqaları da öz kitablarında nəql etmişlər. İbn Əsakir bu hədisi bir çox təriqlə nəql etmiş, onların bəzilərində “Əli məndəndir, məndən ondanam” cümləsi əvəzinə “Əli məndəndir, mən də Əlidənəm” cümləsi işlənmişdir.

İbn Cərir ət-Təbəri öz “Tarix” kitabında belə nəql edir:

Bizə Əbu Küreyb nəql edib dedi: bizə Osman ibn Səid nəql edib dedi: bizə Həyyan ibn Əli Muhəmməd ibn Übeydullah ibn Rafidən, o, atasından, o da öz atasında nəql edib dedi:

“Əli bayraq sahiblərini öldürdükdə, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bir dəstə Qüreyş müşriki gördü və Əliyə dedi: “Onlara hücum et!” Əli onların üzərinə hücum edib onların cəmini dağıtdı, Əmr ibn Abdullah əl-Cuməhini öldürdü. Sonra Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) başqa bir Qüreyş dəstəsi gördü və Əliyə dedi: “Onlara hücum et!” Əli onların da üzərinə hücum edib onların cəmini dağıtdı, Bəni Amir ibn Leydən olan Şeybə ibn Maliki öldürdü. Bu zaman Cəbrail dedi: “Ey Allahın Rəsulu, budur müdafiə etmək!” Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: “Həqiqətən də o, məndəndir, mən də ondanam”. Cəbrail dedi: “Mən də siz ikinizdənəm”. Bu zaman belə bir səs eşidildi: “Zülfiqardan başqa qılınc, Əlidən başqa igid yoxdur”.”[929]

Bu hədisi müəyyən ixtisarla Təbərani “əl-Mücəmül-kəbir” kitabında[930], Əhməd ibn Hənbəl “Fadailus-səhabə” kitabında[931], başqaları da öz kitablarında nəql etmişlər.

Hakim ən-Nişapuri “əl-Müstədrək ələs-səhiheyn” kitabında belə nəql edir:

Bizə Əbu Bəkr Əhməd ibn Cəfər ibn Həmdan əl-Qətii Bağdadda öz kitabından nəql edib dedi: bizə Abdullah ibn Əhməd ibn Hənbəl nəql edib dedi: mənə atam nəql edib dedi: bizə Yəhya ibn Həmmad nəql edib dedi: bizə Əbu Əvanə nəql edib dedi: bizə Əbu Bəlc nəql edib dedi: bizə Əmr ibn Məymun nəql edib dedi:

“Mən İbn Abbasın yanında oturmuşdum. Bu zaman doqquz nəfər şəxs onun yanına gəlib dedi: “Ey Abbasın oğlu, ya bizimlə gəl, ya da bu şəxslər qalxsınlar, biz təkbaşına oturaq”. İbn Abbas dedi: “Mən sizinlə gələrəm”. Həmin vaxt İbn Abbas sağlam idi və gözləri tutulmamışdı. Onlar gedib danışmağa başladılar. Biz onların nə dediklərini bilmirdik. Birdən İbn Abbasın öz paltarını çırpa-çırpa bizim yanımıza gəldiyini gördük. O dedi: “Vay olsun, tfu! Elə bir şəxsi təhqir etdilər ki, onda heç kəsdə olmayan ondan yuxarı fəziləti vardır! Elə bir şəxsi təhqir etdilər ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onun barəsində “elə bir şəxsi göndərəcəyəm ki, Allah əsla onu zəlil-xar etməyəcək. O Allahı və Onun Rəsulunu

---

924 “əl-Mücəmül-kəbir”: 4/16.
925 “əs-Sünnə”: 2/598, hədis: 1320.
926 “Fadailus-səhabə”: 1/15, hədis: 44.
927 “əs-Sünənül-kübra”: 5/45, hədis: 8147; 5/127, hədis: 8454; 5/128, hədis: 8459.
928 “Tarixu-Diməşq”: 42/435-436.
929 “Tarixut-Təbəri”: 2/65.
930 “əl-Mücəmül-kəbir”: 1/318.
931 “Fadailus-səhabə”: 2/657.

sevir, Allah və Rəsulu da onu sevirlər", - demişdir. Həmin vaxt bəziləri bu şərəfə nail olmaq istədilər. Lakin Peyğəmbər buyurdu: "Əli haradadır?" Dedilər: "Əli (əl) dəyirmanının başında dən üyüdür". Peyğəmbər buyurdu: "Dən üyüdəcək başqa adam yox idi?" (və ya İbn Abbas dedi: "O vaxt dən üyüdəcək başqa bir adam yox idi). Bu zaman Əli gözləri ağrayan və az qala heç bir şey görə bilməyəcək vəziyyətdə gəldi. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) ağzının suyunu onun gözlərinə atdı. Sonra bayrağı üç dəfə yelləyib ona verdi.

Sonra İbn Abbas dedi: Sonra Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) filankəsi "Tövbə" surəsi ilə birgə göndərdi. Lakin onun ardınca Əlini göndərib surəni ondan aldırdı və "bu surəni yalnız elə bir şəxs apara bilər ki, məndən olsun, mən də ondan olum!", - deyə buyurdu.

Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) əmisi oğlanlarına dedi: "Sizlərdən hansı biriniz dünya və axirətdə mənim vəlim olar?" Bu zaman Əli də onlarla birgə əyləşmişdi. Sonra Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) yenidən onlara üz tutub dedi: "Sizlərdən hansı biriniz dünya və axirətdə mənim vəlim olar?" Onlar imtina etdilər. Peyğəmbər Əliyə dedi: "Sən dünya və axirətdə mənim vəlimsən".

Əli Xədicədən (Allah ondan razı olsun) sonra iman gətirən ilk şəxs idi.

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) libasını götürüb Əlinin, Fatimənin, Həsənin və Hüseynin üzərinə saldı və buyurdu: "**Ey əhli-beyt! Allah sizdən (hər növ) çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!**".

Sonra İbn Abbas dedi: Əli öz canını (Allahın razılığı müqabilində) sataraq Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) paltarını geyindi və onun yerində yatdı. Müşriklər Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) daş atırdılar. Bu vaxt Əbu Bəkr gəldi. Həmin vaxt Əli Peyğəmbərin yerində uzanmışdı. Əbu Bəkr onun Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) olduğunu zənn edib dedi: "Ey Allahın Peyğəmbəri!" Bu vaxt Əli dedi: "Allahın Peyğəmbəri (sallallahu əleyhi [və alihi] və səlləm) Məymun quyusuna tərəf yollandı. Get ona yetiş". Bundan sonra Əbu Bəkr yola düşdü və Peyğəmbərlə birgə mağaraya daxil oldu. Sonra İbn Abbas dedi: Müşriklər Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) atdıqları kimi Əli yə daş atmağa başladılar. Bu zaman Əli qıvrılıb qarnına tərəf yığılırdı. O başını örtmüş, başını çölə çıxarmırdı. Nəhayət sübh olunca başını çıxardı. Müşriklər onu görüb dedilər: "Sən dəyərsiz və zəif adamsan. Biz sənin yoldaşını daşlayırdıq, lakin o qıvrılmırdı. Sən isə qıvrılırdın. Biz burada nəsə bir iş olduğunu sezmişdik". Sonra İbn Abbas dedi: Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) camaatla birgə Təbuk döyüşünə getdi. Əli ona: "Mən də səninlə gəlimmi?", - dedi. Peyğəmbər: "Xeyr", - dedi. Bu zaman Əli ağladı. Peyğəmbər ona dedi: "Məgər razı olmazsan ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur? Mən getdiyim təqdirdə məhz sən mənim xəlifəm olmalısan". (Sonra) İbn Abbas dedi: Peyğəmbər ona: "Sən məndən sonra hər bir mömin və möminənin vəlisisən", - dedi. Həmçinin, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlinin qapısından başqa məscidə açılan bütün qapıları bağlatdırdı. O, cənabətli olduğu halda məscidə daxil olurdu. Onun evinə gedən yeganə yolu məsciddən keçirdi, başqa yolu yox idi.

(Sonra) İbn Abbas dedi: Peyğəmbər onun barəsində: "**Mən kimin mövlasıyamsa, Əli də həmin şəxsin mövlasıdır**", - dedi...

Hakim bu hədisi qeyd etdikdən sonra demişdir: "**Bu, səhih sənədli hədisdir, lakin iki şeyx bu hədisi nəql etməmişlər**"[932]. Zəhəbi də "Təlxis"də "**Səhihdir**", - demişdir.

Bu hədisi bu ləfzlə və ya ona yaxın bir ləfzlə, içində "**o məndəndir, mən də ondanam**" sözü olduğu halda aşağıdakılar nəql etmişlər: İbn Əbu Asim "əs-Sünnə" kitabında,[933] Nəsai "əs-Sünənül-kübra" kitabında[934], İbn Əsakir "Tarixu-Diməşq" kitabında[935], Nəsai "Xəsaisul-imam Əli" kitabında[936], Təbərani "əl-Mücəmül-kəbir"[937] və "əl-Mücəmül-əvsət"[938] kitablarında, Əhməd ibn Hənbəl "Müsnəd" kitabında[939] və başqaları öz kitablarında.

Əhməd ibn Hənbəl "Müsnəd" kitabında belə nəql edir:

Bizə İbn Nümeyr nəql edib dedi: bizə Əcləh əl-Kindi Abdullah ibn Büreydədən, o da atası Büreydədən nəql edib dedi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Yəmənə iki qoşun göndərdi. Birinə Əli ibn Əbu Talibi, digərinə isə Xalid ibn Vəlidi başçı qoydu. Və buyurdu ki: "Əgər bir araya gəlsəniz, camaatın başçısı Əlidir. Əgər ayrı olsanız, onda hər biriniz öz dəstənizin başçısısınız".

Biz Yəmənin Bəni-Zeyd qəbiləsi ilə üz-üzə gəlib döyüşdük. Müsəlmanlar müşriklərə qələbə çaldı. Biz döyüşənləri öldürdük, ailələrini isə əsir etdik. Əli əsir qadınlar içərisində bir qadını özünə götürdü. Xalid ibn Vəlid bu barədə Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) bir məktub yazıb məktubu mənimlə göndərdi. Peyğəmbərin yanına gəlib məktubu ona verdim. Elə ki, məktubu Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) üçün oxudular, onun üzündə qəzəbi gördüm. Bu zaman dedim: "Ey Allahın Rəsulu, əfvinə sığınıram. Sən məni bir adamla göndərib ona itaət etməmi əmr etdin. Mən də onun əmrini icra etmişəm".

Allah Rəsulu dedi: "Əli barəsində pis söz demə! O məndəndir, mən də ondanam. O məndən sonra sizin vəlinizdir! O məndəndir, mən də ondanam. O məndən sonra sizin vəlinizdir!"[940].

Əhməd ibn Hənbəl bu hədisi "Fadailus-səhabə" kitabında da nəql etmişdir[941].

**İkincisi:** Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) "Əli məndəndir, mən də ondanam" kəlamı Əmirəlmöminin Əli ibn Əbu Talibin (əleyhissəlam) xüsusiyyətlərindən sayılır və bu məsələdə heç kəs onunla şərik deyildir. Bunu az əvvəl qeyd etdiyimiz səhih hədisdə Abdullah ibn Abbas da

---

932 "əl-Müstədrək ələs-sahiheyn": 3/143, hədis: 4652.
933 "əs-Sünnə": 2/603.
934 "əs-Sünənül-kübra": 5/133, hədis: 8409.
935 "Tarixu-Diməşq": 42/98 və 100.
936 "Xəsaisul-imam Əli": səh.48-49.
937 "əl-Mücəmül-kəbir": 12/77.
938 "əl-Mücəmül-əvsət": 3/165.
939 "Müsnədü-Əhməd": 1/330, hədis: 3062.
940 "Müsnədü-Əhnməd": 5/356, hədis: 23062.
941 "Fadailus-səhabə": 2/688, hədis: 1175.

(Allah ondan razı olsun) açıqca ifadə etmişdir. Burada həmin hədisin lazım olan hissəsini bir daha qeyd edirik.

Əmr ibn Məymun deyir: "Mən İbn Abbasın yanında oturmuşdum. Bu zaman doqquz nəfər şəxs onun yanına gəlib dedi: "Ey Abbasın oğlu, ya bizimlə gəl, ya da bu şəxslər qalxsınlar, biz təkbaşına oturaq". İbn Abbas dedi: "Mən sizinlə gələrəm". Həmin vaxt İbn Abbas sağlam idi və gözləri tutulmamışdı. Onlar gedib danışmağa başladılar. Biz onların nə dediklərini bilmirdik. Birdən İbn Abbasın öz paltarını çırpa-çırpa bizim yanımıza gəldiyini gördük. O dedi: "Vay olsun, tfu! Elə bir şəxsi təhqir etdilər ki, onda heç kəsdə olmayan ondan yuxarı fəziləti vardır! Elə bir şəxsi təhqir etdilər ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onun barəsində "elə bir şəxsi göndərəcəyəm ki, Allah əsla onu zəlil-xar etməyəcək. O Allahı və Onun Rəsulunu sevir, Allah və Rəsulu da onu sevirlər", - demişdir. Həmin vaxt bəziləri bu şərəfə nail olmaq istədilər. Lakin Peyğəmbər buyurdu: "Əli haradadır?" Dedilər: "Əli (əl) dəyirmanının başında dən üyüdür". Peyğəmbər buyurdu: "Dən üyüdəcək başqa adam yox idi?" (və ya İbn Abbas dedi: "O vaxt dən üyüdəcək başqa bir adam yox idi). Bu zaman Əli gözləri ağrayan və az qala heç bir şey görə bilməyəcək vəziyyətdə gəldi. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) ağzının suyunu onun gözlərinə atdı. Sonra bayrağı üç dəfə yelləyib ona verdi.

Sonra İbn Abbas dedi: Sonra Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) filankəsi "Tövbə" surəsi ilə birgə göndərdi. Lakin onun ardınca Əlini göndərib surəni ondan aldırdı və "**bu surəni yalnız elə bir şəxs apara bilər ki, məndən olsun, mən də ondan olum!**", - deyə buyurdu...".

**Deyirəm:** İbn Abbasın "*Vay olsun, tfu! Elə bir şəxsi təhqir etdilər ki, onda heç kəsdə olmayan ondan yuxarı fəziləti vardır*" sözünə diqqət edin. Bu söz açıqca ona dəlalət edir ki, "Əli məndəndir, mən də Əlidənəm" sözü məhz İmam Əlinin (əleyhissəlam) xüsusiyyətlərindəndir.

**Üçüncüsü:** Osman əl-Xəmisin Müslimdən nəql etdiyi Cüleybibin hədisi cəmi bir təriqlə – Həmmad ibn Sələmə təriqi ilə nəql olunub. Bəzi alimlər də Həmmadın yaddaşının pis olduğunu deyiblər. Zəhəbi onu "siqədir, səduqdur, lakin səhv edir", - deyə vəsf etmişdir[942].

Əşərilərin hədisinə gəlincə isə, o da mötəbər deyildir. Belə ki, hədisin sənədində bir dəstə əşərinin adı çəkilir. Hədisin sənədində Əbu Amir əl-Əşəri və Büreyd ibn Abdullah ibn Əbu Burdə əl-Əşəri var. Büreyd hədisi babası Əbu Burdə əl-Əşəridən nəql edir. Əbu Burdə də hədisi Əbu Musa əl-Əşəridən nəql edir. Xüsusən də nəzərə almaq lazımdır ki, bu hədis Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) başqa bir təriqlə nəql edilməyib. Bundan əlavə, Büreyd ibn Abdullah barəsində bəzi sünni "cərh və tədil" alimləri mənfi sözlər deyiblər. Əbu Hatim onun barəsində: "Güclü deyildir, hədisi yazılar", - deyib[943]. İbn Ədiy deyib: "İbn Həmmadın belə dediyini eşitdim: Büreyd ibn Abdullah ibn Əbu Burdə o qədər də güclü deyil. Elə zənn edirəm ki, o bunu Buxaridən nəql edib"[944]. Nəsai

[942] "əl-Kaşif": 1/349.
[943] "Təhzibüt-təhzib": 1/272, "Təhzibül-kəmal": 1/335.
[944] "əl-Kamil fid-duəfa": 2/62.

deyib: "O qədər də güclü deyil"[945]. Əhməd deyib: "Münkər hədislər nəql edir"[946]. İbn Hibban deyib: "Xəta edir"[947]. Əzdi deyib: "Onda zəiflik var. İçində münkər hədislər olan bir nüsxədə atasından hədislər nəql edir"[948].

**Dördüncüsü:** Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) "Əli məndəndir, mən də Əlidənəm", - sözünün mənası budur ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) və Əli (əleyhissəlam) təbliğ, çatdırmaq və itaətlərinin ümmətə vacib olması məsələsində birdirlər. Bircə fərqləri vardır ki, birinci peyğəmbərdir, ikinci imam. Çünki peyğəmbərlik Muhəmməd Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) peyğəmbərliyi ilə sona yetmişdir. Bunu Peyğəmbərdən nəql edilən çoxlu hədislər, o cümlədən də mənzilət hədisi təsdiq edir: "Ey Əli, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur".

**Beşincisi:** Bəzi vaxtlarda Peyğəmbəri-Əkrəm (sallallahu əleyhi və alihi və səlləm) "Əli məndəndir, mən də Əlidənəm" cümləsinə bizim bu dediyimiz mənanı təsdiq edəcək bir sıra sözlər əlavə etmişdir. Məsələn, bəzən "Əli məndəndir, mən də Əlidənəm, mənim adımdan yalnız Əli çatdıra bilər", - deyə buyurmuş, bəzən "o məndəndir, mən də ondanam, o məndən sonra sizin vəlinizdir", - deyə buyurmuş, bəzən də "mənim adımdan yalnızca Əli çatdıra bilər", - deyə buyurmuşdur. Bu cümlələrin ifadə etdiyi ən mühüm məna odur ki, Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) və Əli (əleyhissəlam) ümmətə çatdırmaq məsələsində birdirlər. "O məndən sonra sizin vəlinizdir" sözünə gəlincə isə, onun da ifadə etdiyi ən mühüm məna budur ki, Əli Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra ümmətin işlərini öz üzərinə götürən və onu idarə edəndir; Peyğəmbərdən sonra Peyğəmbərin vəhy yolu ilə şəri hökmlər almaq vəzifəsi istisna olmaqla digər vəzifələrini yerinə yetirən şəxsdir.

---

945 "Təhzibüt-təhzib": 1/272.
946 "əd-Duəfaul-kəbir": 1/158, "Təhzibüt-təhzib": 1/272.
947 "Təhzibüt-təhzib": 1/272.
948 "Təhzibül-kəmal": 1/335-ci səhifənin haşiyəsi. **Elə bu cildin bu səhifəsinin haşiyəsində qeyd olunur ki, Zəhəbi "Tarixul-İslam" kitabında Əbu Hatimin onun barəsində "höccət deyildir", - dediyini nəql edir.**

# İMAM ƏLİNİN (əleyhissəlam) İMAMƏTİNƏ DƏLALƏT EDƏN ƏN MÜHÜM DƏLİLLƏRDƏN BİRİ DƏ "VİLAYƏT" HƏDİSİDİR

### İmam Əlinin (əleyhissəlam) imamətinin dəlillərindən biri "vilayət" hədisidir

İmam Əlinin (əleyhissəlam) imamətinə və onun Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra xəlifə olmasına dəlalət edən dəlillərdən biri də Allah Rəsulunun o həzrət barəsində buyurduğu: "Əli məndən sonra hər bir mömininin vəlisidir" hədisidir[949]. Hədisi bu şəkildə İbn Hibban "Səhih" kitabında[950], Tirmizi "əl-Camius-səhih" kitabında (və hədisi həsən hesab edib)[951], Nəsai "əs-Sünənül-kübra" kitabında [952], Əhməd "Müsnəd" [953] və "Fadailus-səhabə" [954] kitablarında, Əbu Yəla "Müsnəd" kitabında[955], Təyalisi "Müsnəd" kitabında[956], Təbərani də "əl-Mücəmül-kəbir" kitabında[957] nəql etmişdir.

Hədisi Hakim ən-Nişapuri "əl-Müstədrək" kitabında "sən məndən sonra hər bir mömininin vəlisisən" şəklində nəql etmiş, ardınca "bu, səhih sənədli hədsidir, lakin iki şeyx bunu nəql etməmişlər", - demiş, Zəhəbi də "Təlxisül-müstədrək" kitabında "səhihdir", - demişdir[958]. Həmçinin, Əbu Davud ət-Təyalisi "Müsnəd"

---

[949] Bu hədis şiələrin İmam Əli ibn Əbu Talibin (əleyhissəlam) Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra ümmətin imamı olması məsələsində əsaslandıqları dəlillərdən biridir. Lakin, Osman əl-Xəmis bu hədisi görməzdən gəlmiş, onu şiələrin dəlilləri sırasında qeyd edib barəsində şübhələr ortaya atmamışdır. Bu hədisdən başqa da bir çox dəlillər vardır ki, Osman əl-Xəmis onları görməzdən gəlmişdir.

[950] "Səhihü-İbn Hibban": 15/373, hədis: 6928. Kitabın mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut deyir: "**İsnadı qəvidir (güclüdür)**". Şeyx Əlbani isə "ət-Təliqatul-hisan əla səhihi-İbn Hibban" kitabında hədisi **səhih** hesab etmişdir (10/67-68, hədis: 6890).

[951] "Sünənüt-Tirmizi": 5/632, hədis: 3712. Şeyx Əlbani "Səhihü-sünənit-Tirmizi" kitabında hədisi **səhih** hesab etmişdir (3/521, hədis: 3712).

[952] "Sünənün-Nəsai": 5/45, hədis: 8146; 5/132, hədis: 8474.

[953] "Müsnədü-Əhməd": 4/437, hədis: 19942.

[954] "Fadailus-səhabə": 2/605, hədis: 1035; 2/649, hədis: 1104.

[955] "Müsnədü-Əbi Yəla": 1/293, hədis: 355. Kitabın mühəqqiqi Hüseyn Səlim Əsəd deyir: "**Raviləri səhihin raviləridir**".

[956] "Müsnədüt-Təyalisi": 2/168, hədis: 868. Kitabın mühəqqiqi deyir: "**Həsən hədisdir**".

[957] "əl-Mücəmül-kəbir": 18/128.

[958] "əl-Müstədrək ələs-səhiheyn": 3/143, hədis: 4652.

kitabında[959], Təbərani "əl-Mücəmül-kəbir" kitabında[960], Əhməd ibn Hənbəl də "Fadailus-səhabə" kitabında[961] hədisi bu şəkildə nəql etmişdir.

Hədisi İbn Əbu Şeybə "Müsənnəf" kitabında[962], Əhməd ibn Hənbəl də "Fadailus-səhabə" kitabında[963] "Əli məndən sonra hər bir möminin vəlisidir" şəklində nəql etmişdir.

Hədisi Əhməd ibn Hənbəl "Müsnəd"[964] və "Fadailus-səhabə"[965] kitablarında "o, məndən sonra sizin vəlinizdir" şəklində nəql etmişdir.

Hədisi Nəsai "əs-Sünənül-kübra" kitabında[966] "bu, məndən sonra sizin vəlinizdir" şəklində nəql etmişdir.

Hədisi Təbərani "əl-Mücəmül-əvsət" kitabında[967] "həqiqətən də o, məndən sonra sizin vəlinizdir" şəklində nəql etmişdir.

Bu hədis heç bir nöqsan və irad tutula bilməyən səhih sənədlərlə nəql olunub. Buna görə də bir çox böyük hafizlər və əhli-sünnə alimləri onu səhih hesab etmişlər.

İbn Həcər "əl-İsabə" kitabında deyir: "Tirmizi qəvi sənədlə İmran ibn Huseyndən bir əhvalat nəql etmiş, burada Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyi nəql olunmuşdur: "Əlidən nə istəyirsiniz? Həqiqətən də Əli məndəndir, mən də Əlidənəm. O, məndən sonra hər bir möminin vəlisidir"."[968]

Müttəqi əl-Hindi deyir: ""Əli məndəndir, mən də Əlidənəm. Əli məndən sonra hər bir möminin vəlisidir". "Ş"[969]. Bu hədis İmran ibn Huseyndən nəql olunub. **Səhihdir**."[970]

Həmçinin, deyir:

"İmran ibn Huseyn belə nəql edir: Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bir qoşun göndərdi və qoşuna Əli ibn Əbu Talibi başçı qoydu. Müsəlmanlar (döyüşdə) qənimət qazandılar. Sonra Əli bir şey etdi ki, səhabələr bundan xoşlanmadılar. – Başqa nəqlə əsasən: Əli qənimətdən bir cariyə götürdü –. Qoşundan dörd nəfər sözləşib dedilər ki, əgər Allah Rəsulu ilə görüşsələr, Əlinin etdiyini ona xəbər verəcəklər. O zamanlar müsəlmanlar bir səfərdən qayıtdıqda birinci Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) baş çəkər, ona salam verib sonra öz evlərinə yollanardılar. Qoşun Mədinəyə çatdıqda qoşundakılar gəlib Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) salam verdilər. Həmin dörd nəfərdən biri dedi: "Ey Allahın Rəsulu, Əli qənimətdən bir cariyə götürdü". Bu zaman Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) üzünü ondan çevirdi. Sonra ikinci şəxs qalxıb birincinin sözünü dedi. Peyğəmbər ondan da üzünü çevirdi. Sonra üçüncü şəxs qalxıb eyni sözü dedi. Peyğəmbər ondan da üzünü

---

959 "Müsnədüt-Təyalisi": 4/469, hədis: 2875. Kitabın mühəqqiqi deyir: "**İsnadı həsəndir**".
960 "əl-Mücəmül-kəbir": 12/98.
961 "Fadailus-səhabə": 2/682.
962 "Müsənnəf": 6/372, hədis: 32121.
963 "Fadailus-səhabə": 2/620, hədis: 1060.
964 "Müsnədü-Əhməd": 5/356, hədis: 23062.
965 "Fadailus-səhabə": 2/688, hədis: 1175.
966 "əs-Sünənül-kübra": 5/133, hədis: 8475.
967 "əl-Mücəmül-əvsət": 6/163, hədis: 6085.
968 "əl-İsabə": 4/569.
969 İbn Əbu Şeybənin "Müsənnəf" kitabının adının qısaldılmış formasıdır. (Tərc.).
970 "Kənzül-ümmal": 11/608, hədis: 32941.

çevirdi. Sonra dördüncü şəxs qalxıb əvvəlkilərin sözlərini təkrarladı. Bu zaman Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) üzündə qəzəb görünən bir halda onlara üz tutub dedi: "Əlidən nə istəyirsiniz? Əli məndəndir, mən də ondanam. O, məndən sonra hər bir möminin vəlisidir". "Ş" və İbn Cərir. İbn Cərir hədisi səhih hesab etmişdir"[971].

Salihi əş-Şami deyir:

"İbn Əbu Şeybə İmran ibn Huseyndən – Allah-taala ondan razı olsun – səhih şəkildə belə nəql edir: "Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: Əli məndəndir, mən də ondanam. Əli məndən sonra hər bir möminin vəlisidir"."[972]

İbn Əbu Asim "əs-Sünnə" kitabında öz sənədi ilə İmran ibn Huseyndən belə nəql edir:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: Əli məndəndir, mən də ondanam. O, məndən sonra hər bir möminin vəlisidir". Kitabın mühəqqiqi Şeyx Əlbani deyir: "**İsnadı səhihdir, raviləri siqədir, Müslimin şərtinə əsasəndir**"[973].

Əlbani bu hədisi "Sisilətül-əhadisis-səhihə" və "Səhihü-sünənit-Tirmizi" kitablarında da səhih hesab etmişdir[974].

Süyuti özünün "əl-Qəvlul-cəliyy" kitabında deyir:

"Qırxıncı hədis: İmran ibn Huseyndən belə nəql olunur: Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: "Əli məndəndir, mən də Əlidənəm. O, məndən sonra hər bir möminin vəlisidir". Bu hədisi İbn Əbu Şeybə nəql etmiş və onu səhih hesab etmişdir"[975].

Bu hədis açıq-aşkar şəkildə Əmirəlmöminin Əli ibn Əbu Talibin (əleyhissəlam) imamətinə dəlalət etdiyindən bəziləri onu gözdən salmağa çalışmışdır.

Məsələn, İbn Teymiyyə hədisin səhih olmasını inkar etmiş, hədisin Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) adından deyilmiş bir yalan olduğunu bildirmişdir. Belə ki, "Minhacüs-sünnə" kitabında İbn əl-Mütəhhər əl-Hilliyə (Allah ona rəhmət etsin) rəddiyyə verərkən demişdir:

"Onun qeyd etdiyi "o, məndən sonra hər bir möminin vəlisidir" sözü də həmçinin Allah Rəsuluna nisbət verilmiş bir yalandır!"[976].

Bir qədər əvvəl də şahid olduğunuz kimi, hədis ən səhih və ən sabit hədislərdəndir. Bir çox əhli-sünnə alimi və hafizi onun səhih olduğunu bildirmişdir. Bəzi alimlər İbn Teymiyyənin bu hədisi təkzib etməsini rədd edərək onun bu işini pisləmişlər. Belə şəxslərdən biri Şeyx Muhəmməd Muhəmməd Nasiruddin əl-Əlbanidir. O özünün "Sisilətül-əhadisis-səhihə" kitabında İbn Teymiyyəni bu hədisi inkar etməyə cürət etməkdə ittiham edib. Əlbani deyir:

"Şeyxül-İslam İbn Teymiyyənin bu hədisi inkar və təkzib etməyə cürət etməsi həqiqətən də təəccüblüdür"[977].

---

971 "Kənzül-ümmal": 13/142, hədis: 36444.
972 "Subulul-huda vər-rəşad": 11/297.
973 "əs-Sünnə": səh.550, hədis: 1187.
974 "Səhihü-sünənit-Tirmizi": 3/521, hədis: 3712.
975 "Dirasatun fi minhacüs-sünnə": səh.282.
976 "Minhacüs-sünnə": 7/391.

Ardınca Əlbani İbn Teymiyyənin hədisi təkzib etməsini onun şiələrə rəddiyyə verərkən tələskənliyə və ifrata varmasından qaynaqlandığını bildirir:

"Bütün bunlardan sonra onun bu hədisi təkzib etməsinin səbəbini yalnız onun şiələrə rəddiyyə verərkən tələskənlik etməsində və ifrata varmasında görürəm"[978].

İbn Teymiyyənin bu hərəkətini yolverilməz hesab edən şəxslərdən biri də Şeyx Abdullah əl-Hərəridir. O, özünün "əl-Məqalatus-səniyyə fi kəşfi zəlalati-bni-Teymiyyə" kitabında deyir:

"İbn Teymiyyə Əlinin fəzilətləri barəsində olan hədislərdən danışarkən tez-tez bu hədislər zəif çıxarmağa çalışır, hətta onların əksəriyyətinə uydurma hökmü verir. O bütün bunları həmin hədislər Əli üçün fəzilət sübuta yetirməsin deyə edir. Onun vəziyyəti İbn Həcərin dediyi kimidir: rəddiyyə verərkən bir çox yaxşı hədisləri, yəni səhih və həsən hədisləri inkar etmişdir.

Oxucular bilsinlər ki, İbn Teymiyyə hafizlərin səhih hesab etməsinə fikir vermədən bir sıra hədisləri zəif hesab edir. Bu, onun qəlbinin öz nəfsinin istəklərini dəstəkləməyə olan şiddətli bağlılığından qaynaqlanır. Həmçinin, onun adətlərindən biri də budur ki, o, Allahdan və elm əhlindən utanıb xəcalət çəkmədən öz nəfsinin bəyənib sevdiyi bidətlər üzərində alimlərin ittifaq etdiyini iddia edir.

Bəli, İbn Teymiyyə bu cürdür. Öz nəfsinə uyğun gələn uydurma hədisi dəlil gətirir, onun səhih çıxarmağa çalışır, öz rəyinə və əqidəsinə uyğun gəlməyən sabit və mütəvatir hədisləri isə zəif çıxarmağa çalışır. Hətta onun tələbəsi Zəhəbi belə ona nəsihət məzmunda göndərdiyi bir məktubunda belə deyir:

"Nə vaxta qədər öz sözlərini, vallahi, hətta "səhiheyn"in hədislərini belə mədh etmədiyin bir şəkildə mədh edəcəksən?! Kaş "səhiheyn"in hədisləri sənin əlindən qurtula biləydi. Xeyr, sən həmişə o hədislərə zəif çıxarma, batil etmə, təvil və ya inkar etmə ilə hücum çəkirsən".

İbn Teymiyyənin, barəsində öz həva-həvəsi əsasında hökm verdiyi belə hədislərdən biri...".

Bunun ardınca Şeyx əl-Hərəri birinci hədisi, yəni, Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) Əmmar ibn Yasirə (Allah ondan razı olsun) dediyi "**səni azğın bir tayfa öldürəcək**" hədisini qeyd edir. Sonra deyir:

"İkinci hədis: Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Əliyə dediyi bu söz: "Sən məndən sonra hər bir möminin vəlisisən". İbn Teymiyyə "Minhacüs-sünnə" kitabında bu hədis barəsində belə deyir:

""Sən məndən sonra hər bir möminin vəlisisən" sözü. Bu, hədis elmindən agah olan şəxslərin ittifaqı ilə uydurmadır!".

Həmçinin, başqa bir yerdə deyir: "Onun qeyd etdiyi "o, məndən sonra hər bir möminin vəlisidir" sözü də həmçinin Allah Rəsuluna nisbət verilmiş bir yalandır"."

Bundan sonra Şeyx əl-Hərəri bu hədisi nəql edən bir qrup mötəbər əhli-sünnə mənbəsi qeyd edir, ardınca Hakim ən-Nişapurinin hədisi səhih hesab etməsini, İbn Həcərin "əl-İsabə" kitabında onu güclü hesab etməsini zikr edir[979].

---

[977] "Silsilətül-əhadisis-səhihə": 5/263.
[978] "Silsilətül-əhadisis-səhihə": 5/264.
[979] "əl-Məqalatus-səniyyə fi kəşfi zəlalati-Əhməd-ibni-Teymiyyə": səh.348-351.

Hədisə tənə vurmağa və onu mənasından sapdırmağa çalışan şəxslərdən biri də hafiz Əbul-Əla əl-Mubarəkpuridir. O, özünün “Tuhfətül-əhvəzi” kitabında deyir:

“Şiələr bu hədisi Əlinin Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) sonra birbaşa xəlifə olduğuna dəlil gətirmişlər. Onların bu hədisi dəlil gətirmələri batildir. Çünki, bu hədisin dəlil gətirilə bilməsi hədisdəki “məndən sonra” əlavəsinin səhih olmasından, onun dəlil gətirilməyə yararlı olmasından asılıdır. Halbuki, belə deyildir...”[980].

Sonra iddia edir ki, “məndən sonra” ifadəsini ancaq Cəfər ibn Süleyman əd-Dabbi nəql etmişdir, o da qatı şiədir. Sonra öz sözünə düzəliş edərək deyir ki: “Deyə bilərsən ki, “məndən sonra” ifadəsini ancaq Cəfər ibn Süleyman nəql etməmişdir, əksinə Əcləh əl-Kindi də nəql etmişdir”, və bunun ardınca “Müsnədü-Əhməd” kitabından Əcləh əl-Kindinin hədisini nəql edərək deyir: “Deyərəm ki, Əcləh əl-Kindi də həmçinin, şiədir”. Sonra deyir: “Görünən budur ki, bu hədisdəki “məndən sonra” ifadəsi bu iki şiə ravinin xətasıdır”!!.

Mübarəkpuri hədisin ümmət üzərində vilayətə dəlalət etməsini inkar etmir. Əksinə, onun sözündən belə başa düşülür ki, o, hədisin bu mənaya dəlalət etdiyini qəbul edir, lakin o, şiələrin “hədisdə Əlinin Peyğəmbərdən sonra birbaşa xəlifə olmasına dəlil vardır” – sözünü rədd etməyə çalışır. İddia edir ki, “məndən sonra” ifadəsi başqa hədislərdə nəql olunmayıb və o, Cəfər ibn Süleyman və Əcləh əl-Kindinin xətasıdır!! Onun bu sözü deməkdən məqsədi Əmirəlmöminin (əleyhissəlam)-dan öncə Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) xilafət kürsüsünə əyləşən ilk üç xəlifənin xəlifəliyini doğru çıxarmaqdır.

Onun bu sözündən həmçinin o da başa düşülür ki, şiələrin bu hədisi Əlinin (əleyhissəlam) Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra birbaşa xəlifə olmasına dəlil gətirmələri məhz o zaman düz olar ki, hədisdəki “məndən sonra” ifadəsi sübuta yetsin, Cəfər ibn Süleyman və Əcləh yolu ilə deyil, başqa səhih yollarla nəql olunsun. Bəli, onun sözündən məhz bu başa düşülür.

Əgər bu aydın oldusa, onda gəlin Şeyx Muhəmməd Nasiruddin əl-Əlbaninin “Sisilətül-əhadisis-səhihə” kitabında dediyi sözə nəzər salaq. Onun dediyi söz hafiz Mübarəkpuriyə cavab olaraq kifayət edər. Onun qeyd etdiyi sözlər Mübarəkpurinin dəlilini batil edib şiələrin nəzərini təsdiqləyir.

Şeyx Əlbani hədisi Əcləh və Cəfər ibn Süleyman təriqi ilə nəql etdikdən sonra deyir:

“Əgər kimsə desə ki, bu hədisin ravisi şiədir, həmçinin, ona şahid olaraq gətirilən hədisin də ravisi – Cəfər ibn Süleyman şiədir, görəsən bu, hədisə tənə və illət (nöqsan) hesab edilmirmi?

**Deyərəm:** Əsla! Çünki hədis nəqlində əsas meyar doğru danışmaq və dəqiq yadda saxlamaqdır. Məzhəbə gəlincə, o, ravi ilə öz Rəbbi arasındadır, Rəbbi onu hesaba çəkəcək. Məhz buna görədir ki, biz “iki səhih” kitabının müəlliflərinin və digər müəlliflərin xəvaric, şiə və s. kimi müxaliflərdən olan bir çox siqə şəxslərdən hədis nəql etdiklərini görürük. Bizim üçün meyar budur. Özünüz də gördüyünüz

---

[980] “Tuhfətul-əhvəzi”: 10/199.

kimi, İbn Hibban hədisi səhih hesab etmişdir. Halbuki, o özü "Məşahiru-uləmail-əmsar" kitabında Cəfər barəsində "şiə idi və şiəlikdə ifrata varırdı", - demişdir. Hətta, "əs-Siqat" əsərində Cəfər barəsində "iki şeyxə [Əbu Bəkr və Ömərə] nifrət edirdi", - demişdir. Ola bilər sən bu ikinci deyilənə şəkk edəsən, lakin heç bir şübhə yoxdur ki, Cəfər şiə olub. Çünki, rical alimləri bu barədə icma ediblər. Bir şəxsin şiə olması da mütləq onun iki şeyxə nifrət etməsi anlamına gəlmir. Şiəlik sadəcə Əlini iki şeyxdən üstün bilməkdən ibarətdir. İbn Hibbanın onun barəsində nəql etdiyi ikinci nəzərin sənədində Cərir ibn Yezid ibn Harun adlı şəxs var. Mən onun tərcümeyi-halına rast gəlmədim. İbn Hibbanın nəql etdiyi bu fikir üçün də başqa bir sənəd tapmadım. [Buna görə də bu fikir zəif fikirdir]. Lakin, bununla belə, İbn Hibban həmin sözü nəql edib ardınca belə demişdir: "Cəfər ibn Süleyman hədis nəqlində siqə və mutqin olan şəxslərdəndir. Lakin, o, Əhli-Beytə meyl edirdi (!). Öz məzhəbinə dəvət edən bir şəxs olmayıb. Bizim əhli-hədis imamlarımızın hamısı deyir ki, əgər səduq və mutqin şəxsdə bir bidət[981] olarsa, lakin o, bu bidətə dəvət etməzsə, onun hədislərinə etimad etmək olar". Üstəlik, hədis içində şiə şəxs olmayan başqa sənədlərlə də nəql olunub."

Sonra Əlbani hədis üçün başqa bir səhih təriq nəql edirərək deyir:

"Peyğəmbərin "o, məndən sonra hər bir möminin vəlisidir" sözünə gəlincə, bu söz İbn Abbas yolu ilə də nəql edilmişdir. Təyalisi deyir:

Bizə Əbu Əvanə Əbu Bəlcdən, o, Əmr ibn Məymundan, o da İbn Abbasdan nəql edib dedi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əliyə dedi: Sən məndən sonra hər bir möminin vəlisisən".

Bu hədisi Əhməd və Hakim nəql etmişdir. Hakim "**isnadı səhihdir**", - demiş, Zəhəbi də onunla razılaşmışdır. Hədis Hakimin və Zəhəbinin dediyi kimidir."[982]

Elə isə aydın olur ki, "məndən sonra" ifadəsi səhih və sabitdir, səhih təriqlərlə nəql olunmuşdur. Onun bəzi təriqlərindən şiə də yoxdur ki, Mübarəkpurinin etdiyi kimi xəta və ya başqa bir şeylə ittiham olunsun. Bununla aydın olur ki, şiələrin bu hədisi İmam Əlinin (əleyhissəlam) Allah Rəsulundan sonra birbaşa xəlifə olmasına dəlil gətirmələri doğru və əsaslıdır.

Elə isə aləmlərin Rəbbi olan Allaha həmd olsun, Allahın salavatı olsun Öz güvənilir elçisi Muhəmmədə, onun pak və təmiz Əhli-Beytinə, o həzrətin seçilmiş səhabələrinə və Qiyamətədək Muhəmməd və Ali-Muhəmmədin yoluna tabe olan şəxslərə.

---

[981] Deyirəm: Məgər Əhli-Beytə (əleyhimussəlam) meyl etmək bidət sayılır?!

[982] "Silsilətül-əhadisis-səhihə": 5/262-263.

### İstifadə olunmuş əsas ədəbiyyat


1-“İhqaqul-həqq”: Seyyid Nurullah əl-Hüseyni əl-Mərəşi, nəşriyyat: “Ayətüllahül-üzma Mərəşi Nəcəfinin ofisi”, Qum, İran.

2-“Əhkamul-Quran”: Əhməd ibn Əli ər-Razi əl-Cəssas Əbu Bəkr, nəşriyyat: “Daru-ihyait-turasil-ərəbi”, Beyrut, Livan, 1405 h., təhqiq: Muhəmməd əs-Sadiq Qəmhavi.

3-“Əsbabun-nüzul”: Əli ibn Əhməd əl-Vahidi ən-Nişapuri, nəşriyyat: “Darul-Baz”, Məkkə, həmçinin, Qahirədə “əl-Hələbi” müəssisəsi, 1388 h. - 1985 m.

4-“İsticlabu-irtiqail-ğurəf”: Muhəmməd ibn Əbdür-Rəhman əs-Səxavi əş-Şafei, nəşriyyat: “Müəssəsətül-məarifil-islamiyyə”, Qum, İran, birinci çap, 1421 h., təhqiq: Nizar əl-Mənsuri.

5-“Usdul-ğabə fi mərifətis-səhabə”: İzzəddin ibn əl-Əsir Əbül-Həsən Əli ibn Muhəmməd əl-Cəzəri, nəşriyyat: “Daru-ihyait-turasil-ərəbi”, Beyrut, Livan, 1417 h. - 1996 m., birinci çap, təhqiq: Adil Əhməd ər-Rüfai.

6-“İrabul-Quranil-kərim və bəyanuh”: Muhyiddin əd-Dərviş, nəşriyyat: “Darul-irşad liş-şuunil-camiiyyə”, Homs, Suriya, üçüncü çap, 1412 h. – 1992 m..

7-“əl-Əhadisul-muxtarə”: Əbu Abdullah Muhəmməd ibn Əbdül-Vahid əl-Hənbəli əl-Məqdisi, nəşriyyat: “Məktəbətün-nəhzətil-hədisiyyə”, Məkkə, Səudiyyə Ərəbistanı, 1410 h., birinci çap, təhqiq: Əbdül-Məlik ibn Abdullah ibn Düheyş.

8-“əl-İhkam fi usulil-əhkam”: Əli ibn Əhməd ibn Həzm əl-Əndəlusi Əbu Muhəmməd, nəşriyyat: “Darul-hədis”, Qahirə, Misir, 1404 h., birinci çap.

9-“əl-Bidayə vən-nihayə”: İsmayıl ibn Ömər ibn Kəsir əl-Qürəşi Əbül-Fida, nəşriyyat: “Məktəbətül-məarif”, Beyrut, Livan.

10-“əl-İsabə fi təmyizis-səhabə”: Əhməd ibn Əli ibn Həcər Əbül-Fəzl əl-Əsqəlani əş-Şafei, nəşriyyat: “Darul-ceyl”, Beyrut, Livan, 1412 h. – 1992 m., birinci çap, təhqiq: Əli Muhəmməd əl-Bəcavi.

11-“ət-Tarixus-sağir”: Muhəmməd ibn İsmayıl əl-Buxari, nəşriyyat: “Darul-mərifə”, Beyrut, Livan, təhqiq: Mahmud İsmayıl Zayid.

12-“ət-Tarixul-kəbir”: Muhəmməd ibn İsmayıl ibn İbrahim Əbu Abdullah əl-Buxari əl-Cufi, nəşriyyat: “Darul-fikr”, təhqiq: Seyyid Haşim ən-Nədvi.

13-“ət-Təhrirüt-tavusi”: Həsən Zeynüddin, nəşriyyat: “Məktəbətü-ayətillahil-üzma əl-Mərəşi ən-Nəcəfi”, Qum, İran, 1411 h., birinci çap.

14-“ət-Tədvin fi əxbari-Qəzvin”: Əbdül-Kərim ibn Muhəmməd ər-Rafei əl-Qəzvini, nəşriyyat: “əl-Kutubul-ilmiyyə”, Beyrut, Livan, 1987 m., təhqiq: Əzizullah əl-Əttari.

15-“ət-Təfsirül-münir”: Hibə əz-Züheyli, nəşriyyat: “Darul-fikril-müasir”, Beyrut, Livan, həmçinin, “Darul-fikr”, Dəməşq, Suriya, birinci çap, 1411 h., – 1999 m..

16-“əs-Siqat”: Muhəmməd ibn Hibban ibn Əhməd Əbu Hatim ət-Təmimi əl-Bəsti, nəşriyyat: “Darul-fikr”, 1395 h. – 1975 m., birinci çap, təhqiq: Seyyid Şərəfuddin Əhməd.

17-“əl-Cərh vət-tədil”: Əbdür-Rəhman ibn Əbu Hatim Muhəmməd ibn İdris, Əbu Muhəmməd ər-Razi ət-Təmimi, nəşriyyat: “Daru-ihyait-turasil-arabi”, Beyrut, Livan, 1271 h. – 1952 m., birinci çap.
18-“əl-Xəsaisul-kubra”: Əbül-Fəzl Cəlaləddin Əbdür-Rəhman Əbu Bəkr əs-Süyuti, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, 1405 h. – 1985 m..
19-“əl-Xisal”: Muhəmməd ibn Əli ibn Hüseyn ibn Babəveyh əl-Qummi, nəşriyyat: “Cəmaətül-müdərrisin fil-həvzətil-ilmiyyə”, Qum, İran, 1413 h., təhqiq və təliq: Əli Əkbər əl-Ğəffari.
20-“əs-Sünnə”: Əmr ibn Əbu Asim əd-Dəhhak əş-Şeybani, nəşriyyat: “əl-Məktəbül-islami”, Beyrut, Livan, 1400 h., birinci çap, təhqiq: Muhəmməd Muhəmməd Nasiruddin əl-Əlbani.
21-“əz-Zürriyyətü-tahirətün-nəbəviyyə”: Əbu Bəşər Muhəmməd ibn Əhməd ibn Həmmad əd-Dulabi, nəşriyyat: “əd-Darus-sələfiyyə”, Küveyt, Küveyt, 1407 h., birinci çap, təhqiq: Səd əl-Mübarək əl-Həsən.
22-“ər-Rəsailül-əşər”: Əli əl-Hüseyni əl-Milani, birinci çap, 1418 h.
23-“əs-Sirətül-hələbiyyə fi sirətil-Əmini vəl-Məmun”: Əli ibn Bürhanəddin əl-Hələbi, nəşriyyat: “Darul-mərifə”, Beyrut, Livan, 1400 h..
24-“əş-Şəriə”: Əbu Bəkr Muhəmməd ibn Hüseyn əl-Acurri, nəşriyyat: “Darul-vətən”, Ər-Riyad, Səudiyyə Ərəbistanı, 1420 h. – 1999 m., ikinci çap, təhqiq: doktor Abdullah ibn Ömər ibn Süleyman əd-Dümeyci.
25-“əs-Səvaiqul-muhriqə əla əhlir-rafdi vəd-dəlali vəz-zəndəqə”: Əbül-Abbas Əhməd ibn Muhəmməd ibn Əli ibn Həcər əl-Heysəmi, nəşriyyat: “Müəssəsətür-risalə”, Livan, 1417 h. – 1997 m., birinci çap, təhqiq: Əbdür-Rəhman ibn Abdullah ət-Türki və Kamil Muhəmməd əl-Xərrat.
26-“əd-Duəfa”: Əhməd ibn Abdullah ibn Əhməd Əbu Nüeym əl-İsfahani əs-Sufi, nəşriyyat: “Darus-səqafə - əd-Darul-beyza”, 1405 h. – 1984 m., birinci çap, təhqiq: Faruq Həmadə.
27-“əd-Duəfaus-sağir”: Muhəmməd ibn İsmayıl Əbu Abdullah əl-Buxari əl-Cufi, “Darul-vəy”, Hələb, Suriya, 1396 h., birinci çap, təhqiq: Mahmud İbrahim Zayid.
28-“əd-Duəfaul-kəbir”: Əbu Cəfər Muhəmməd ibn Ömər ibn Musa əl-Üqeyli, “Darul-məktəbətil-ilmiyyə”, Beyrut, Livan, 1404 h. – 1984 m., birinci çap, təhqiq: Əbdül-Muti Əmin əl-Qələci.
29-“əd-Duəfa vəl-mətrukin”: Əbdür-Rəhman ibn Əli ibn Muhəmməd ibn əl-Cəvzi, Əbül-Fərəc, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, 1406 h., birinci çap, təhqiq: Abdullah əl-Qazı.
30-“əd-Duəfa vəl-mətrukin”: Əbu Əbdür-Rəhman Əhməd ibn Şüeyb ən-Nəsai, nəşriyyat: “Darul-vəy”, Hələb, Suriya, 1396 h., birinci çap, təhqiq: Mahmud İbrahim Zayid.
31-“ət-Təbəqatul-kubra”: Muhəmməd ibn Səd ibn Məni Əbu Abdullah əl-Bəsri əz-Zühri, nəşriyyat: “Darus-sadir”, Beyrut, Livan.
32-“əl-İqdül-fərid”: Əhməd ibn Muhəmməd ibn Əbdü-Rəbbih əl-Əndəlusi, nəşriyyat: “Daru-ihyait-turasil-ərəbi”, Beyrut, Livan, 1420 h. – 1999 m., üçüncü çap.

33-“əl-Fasl fil-miləl vəl-əhva vən-nihəl”: Əli ibn Əhməd ibn Səid ibn Həzm əz-Zahiri Əbu Muhəmməd, nəşriyyat: “Məktəbətül-xanəci”, Qahirə, Misir.

34-“əl-Füsulul-muhimmə”: Əli ibn Muhəmməd ibn Əhməd əl-Maliki əl-Məkki, nəşriyyat: “Darul-hədis”, Qum, İran, birinci çap, 1422 h., təhqiq: Sami əl-Ğüreyri.

35-“əl-Qamusul-muhit”: Muhəmməd ibn Yaqub əl-Firuzabadi, nəşriyyat: “Müəssəsətür-risalə”, Beyrut, Livan.

36-“əl-Kaşif fi mərifəti mən ləhu rivayətun fil-kutubis-sittə”: Muhəmməd ibn Əhməd Əbu Abdullah əz-Zəhəbi əd-Diməşqi, nəşriyyat: “Darul-qiblə lis-səqafətil-islamiyyə”, “Müəssəsətül-üluvv”, Ciddə, Səudiyyə Ərəbistanı, 1413 h. – 1992 m., birinci çap, təhqiq: Muhəmməd Əvvamə.

37-“əl-Kafi”: Muhəmməd ibn Yaqub əl-Kuleyni, nəşriyyat: “Darul-kutubil-islamiyyə”, Tehran, İran, üçüncü çap, 1388 h..

38-“əl-Kamil fi duəfair-rical”: Abdullah ibn Ədiy ibn Abdullah ibn Muhəmməd Əbu Əhməd əl-Cürcani, nəşriyyat: “Darul-fikr”, Beyrut, Livan, 1409 h. – 1988 m., üçüncü çap, təhqiq: Yəhya Muxtar Ğəzzavi.

39-“əl-Kaşif ən həqaiqit-tənzil və uyunul-əqavil fi vucuhit-təvil”: Əbül-Qasim Mahmud ibn Ömər əz-Zəməxşəri əl-Xarəzmi, nəşriyyat: “Daru-ihyait-turasil-ərəbi”, Beyrut, Livan, təhqiq: Əbdür-Rəzzaq əl-Məhdi.

40-“əl-Kəşfül-həsis əmmən rumiyə bi-vad`il-hədis”: İbrahim ibn Muhəmməd ibn Sibt ibn əl-Əcəmi Əbül-Vəfa əl-Hələbi ət-Trablisi, nəşriyyat: “Aləmul-kutub”, “Məktəbətün-nəhzətil-ərəbiyyə”, Beyrut, Livan, 1407 h. – 1987 m., birinci çap, təhqiq: Sübhi əs-Samərrayi.

41-“əl-Mütəhabbinə fillah”: İbn Qüdamə əl-Məqdisi, nəşriyyat: “Darut-tiba”, Dəməşq, Suriya, 1411 h. – 1991 m., birinci çap.

42-“əl-Məcruhin minəl-muhəddisin vəd-duəfa vəl-mətrukin”: Muhəmməd ibn Həyyan ibn Əhməd ibn Əbu Hatim ət-Təmimi əl-Bəsti, nəşriyyat: “Darul-vəy”, Hələb, Suriya, 1396 h., birinci çap, təhqiq: Mahmud İbrahim Zayid.

43-“əl-Müstədrək ələs-səhiheyn”: Muhəmməd ibn Abdullah Əbu Abdullah əl-Hakim ən-Nişapuri, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, 1411 h. – 1990 m., birinci çap, təhqiq: Mustafa Əbdül-Qadir Əta.

44-“əl-Mətalibul-aliyə bi-zəvaidil-məsanidis-səmaniyə”: Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani, nəşriyyat: “Darul-asimə”/ “Darul-ğeys”, Səudiyyə Ərəbistanı, 1419 h., birinci çap, təhqiq: Səd ibn Nasir ibn Əbdül-Əziz əş-Şətri.

45-“əl-Mücəmül-əvsət”: Əbül-Qasim Süleyman ibn Əhməd ət-Təbərani, nəşriyyat: “Darul-hərəmeyn”, Qahirə, Misir, 1415 h., təhqiq: Tariq ibn İvadillah ibb Muhəmməd və Əbdül-Muhsin ibn İbrahim əl-Hüseyni.

46-“əl-Mücəmüs-sağir”: Süleyman ibn Əhməd ət-Təbərani, nəşriyyat: “əl-Məktəbül-islami”, “Daru-Əmmar”, Beyrut və Əmman, 1405 h. – 1985 m., birinci çap, təhqiq: Muhəmməd Şəkur Mahmud əl-Hac Əmrir.

47-“əl-Mücəmül-kəbir”: Süleyman ibn Əhməd ət-Təbərani, nəşriyyat: “Məktəbətüz-Zəhra”, Mosul, 1404 h. – 1983 m., ikinci çap, təhqiq: Həmdi ibn Əbdül-Məcid əs-Sələfi.

48-“əl-Mərifətü vət-tarix”: Əbu Yusif Yaqub ibn Süfyan əl-Fəsəvi, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, 1419 h. – 1999 m., təhqiq: Xəlil əl-Mənsur.

49-“əl-Məqalatus-səniyyə fi kəşfi-zəlalati-Əhməd ibn Teymiyyə”: Abdullah əl-Hərəri, nəşriyyat: “Darul-məşari”, dördüncü çap, 1419 h. – 1998 m.

50-“əl-Mənaqib”: Müvəffəq ibn Əhməd ibn Məkki əl-Xarəzmi, nəşriyyat: “Müəssəsətün-nəşril-islami”, Qum, İran, ikinci çap, 1411 h., təhqiq: Malik əl-Mahmudi.

51-“əl-Müntəxəb min müsnədi-Əbd ibn Hümeyd”: Əbd ibn Hümeyd ibn Nəsr Əbu Muhəmməd əl-Kəşşi, nəşriyyat: “Məktəbətüs-sünnə”, Qahirə, Misir, 1408 h. – 1988 m., birinci çap, təhqiq: Sübhi əl-Bədri əs-Samərrai və Mahmud Muhəmməd Xəlil əs-Səidi.

52-“Əmali-Məhamili (İbn Yəhya əl-Beyin nəqli)”: Hüseyn ibn İsmayıl əd-Dabbi əl-Məhamili Əbu Abdullah, nəşriyyat: “əl-Məktəbətül-islamiyyə”, “Daru-İbn Qeyyim əl-Cəvziyyə”, Əmman, İordaniya və Dəmmam, 1412 h., birinci çap, təhqiq: doktor İbrahim əl-Qeysi.

53-“Əhlül-Beyt”: Tövfiq Əbu Ələm, nəşriyyat: “Daru-məktəbətil-ənclo əl-misriyyə” və “Mətbəətüs-səadə”, birinci çap, 1390 h. – 1970 m..

54-“Buğyətüt-tələb fi tarixi-Hələb”: Kəmaləddin Ömər ibn Əhməd ibn Əbu Cəradə, nəşriyyat: “Darul-fikr”, təhqiq: doktor Süheyl Zəkkar.

55-“Tarixu-İbni-Məin (əd-Durinin nəqli)”: Yəhya ibn Məin Əbu Zəkəriyya, nəşriyyat: “Mərkəzül-bəhsil-ilmi və ihyait-turasil-islami”, Məkkə, Səudiyyə Ərəbistanı, 1399 h. – 1979 m., birinci çap, təhqiq: doktor Əhməd Muhəmməd Nur Seyf.

56-“Tarixu-İbn Məin (Osman əd-Darəminin nəqli)”: Yəhya ibn Məin Əbu Zəkəriyya, nəşriyyat: “Darul-məmun lit-turas”, Dəməşq, Suriya, 1400 h., təhqiq: doktor Əhməd Muhəmməd Nur Seyf.

57-“Tarixul-İslam və vəfəyatul-məşahiri vəl-əlam”: Şəmsəddin Muhəmməd ibn Əhməd ibn Osman əz-Zəhəbi, nəşriyyat: “Darul-kitabil-ərəbi”, Beyrut, Livan, 1407 h. – 1987 m., birinci çap, təhqiq: doktor Ömər Əbdüs-Səlam Tədmuri.

58-“Tarixut-Təbəri”: Əbu Cəfər Muhəmməd ibn Cərir ət-Təbəri, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan.

59-“Tarixu-Bağdad”: Əhməd ibn Əli Əbu Bəkr əl-Xətib əl-Bağdadi, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan.

60-“Tarixu-mədinəti-Diməşq və zikru fadlihə və təsmiyətu-mən həlləhə minəl-əmasil”: Əbül-Qasim Əli ibn Həsən ibn Hibətullah ibn Abdullah əş-Şafei, nəşriyyat: “Darul-fikr”, Beyrut, Livan, 1995 m., təhqiq: Muhibbuddin Əbu Səid Ömər ibn Ğəramə əl-Öməri.

61-“Tali-təlxisil-mütəşabih”: Əhməd ibn Əli Əbu Bəkr əl-Xətib əl-Bağdadi, nəşriyyat: “Darus-Sümeyi”, Ər-Riyad, Səudiyyə Ərəbistanı, 1417 h., birinci çap, təhqiq: Məşhur ibn Həsən Alu-Salman və Əhməd əş-Şüqeyrat.

62-“Tuhfətül-əhvəzi bi-şərhi-camiit-Tirmizi”: Muhəmməd Əbdür-Rəhman ibn Əbdür-Rəhim əl-Mübarəkpuri Əbul-Əla, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan.

63-“Tədribür-ravi fi şərhi-təqribin-Nəvavi”: Əbdür-Rəhman ibn Əbu Bəkr əs-Süyuti, nəşriyyat: “Məktəbətür-Riyadil-hədisiyyə”, Ər-Riyad, Səudiyyə Ərəbistanı, təhqiq: Əbdül-Vəhhab Əbdül-Lətif.

64-“Təzkirətül-hüffaz”: Əbu Abdullah Şəmsəddin əz-Zəhəbi, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, birinci çap.

65-“Təfsirü-Əbis-Süud”: Əbüs-Süud Muhəmməd ibn Muhəmməd əl-İmadi, nəşriyyat: “Daru-ihyait-turasil-ərəbi”, Beyrut, Livan.

66-“Təfsirül-Bəğəvi”: Bəğəvi, nəşriyyat: “Darul-mərifə”, Beyrut, Livan, təhqiq: Xalid Əbdür-Rəhman əl-Əkk.

67-“Təfsirül-Beyzavi”: Beyzavi, nəşriyyat: “Darul-fikr”, Beyrut, Livan.

68-“Təfsirüs-Sələbi”: Əbu İshaq Əhməd ibn Muhəmməd ibn İbrahim əs-Sələbi ən-Nişapuri, nəşriyyat: “Daru-ihyait-turasil-ərəbi”, Beyrut, Livan, 1422 h. – 2002 m., birinci çap, təhqiq: Əbu Muhəmməd ibn Aşur, yenidən baxış və tədqiq: Ustad Nəzir əs-Saidi.

69-“Təfsirül-cəlaleyn”: Muhəmməd ibn Əhməd Əbdür-Rəhman ibn Əbu Bəkr əl-Muhəlli əs-Süyuti, nəşriyyat: “Darul-hədis”, Qahirə, Misir, birinci çap.

70-“Təfsirüt-Təbəri”: Muhəmməd ibn Cərir ibn Yezid ibn Xalid ət-Təbəri Əbu Cəfər, nəşriyyat: “Darul-fikr”, Beyrut, Livan, 1405 h..

71-“Təfsirüt-Təbəri”: Muhəmməd ibn Cərir ibn Yezid ibn Xalid ət-Təbəri Əbu Cəfər, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, birinci çap, 1412 h. – 1992 m..

72-“Təfsirül-Fəxrir-Razi”: Fəxrəddin Muhəmməd ibn Ömər ət-Təmimi ər-Razi əş-Şafei, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, 1421 h. – 2000 m., birinci çap.

73-“Təfsirül-Quranil-əzim”: İsmayıl ibn Ömər ibn Kəsir əd-Diməşqi Əbül-Fida, nəşriyyat: “Darul-fikr”, Beyrut, Livan, 1401 h..

74-“Təfsirül-Quran”: Əbül-Müzəffər Mənsur ibn Muhəmməd ibn Əbdül-Cabbar əs-Səmani, nəşriyyat: “Darul-vətən”, Ər-Riyad, Səudiyyə Ərəbistanı, 1418 h. – 1997 m., birinci çap, təhqiq: Yasir ibn İbrahim və Ğənim ibn Abbas ibn Ğənim.

75-“Təfsirül-Vahidi”: Əli ibn Əhməd əl-Vahidi Əbül-Həsən, nəşriyyat: “Darul-qələm” və “əd-Daruş-şamiyyə”, Dəməş, Suriya və Beyrut, Livan, 1415 h., birinci çap, təhqiq: Səfvan Adnan Davudi.

76-“Təhzibül-lüğə”: Əbu Mənsur Muhəmməd ibn Əhməd əl-Əzhəri, nəşriyyat: “Daru-ihyait-turasil-ərəbi”, Beyrut, Livan, 2001 m, birinci çap, təhqiq: Muhəmməd Əvəz Murib.

77-“Təqribüt-təhzib”: Əhməd ibn Əli ibn Həcər Əbül-Fəzl əl-Əsqəlani əş-Şafei, nəşriyyat: “Darur-Rəşid”, Suriya, 1406 h. – 1986 m., birinci çap, təhqiq: Muhəmməd Əvvamə.

78-“Təhzibüt-təhzib”: Əhməd ibn Əli ibn Həcər Əbül-Fəzl əl-Əsqəlani əş-Şafei, nəşriyyat: “Darul-fikr”, Beyrut, Livan, 1404 h. – 1984 m., birinci çap.

79-“Təhzibül-kamal”: Yusif ibn Zəki Əbdür-Rəhman Əbül-Həccac əl-Mizzi, nəşriyyat: “Müəssəsətür-risalə”, Beyrut, Livan, 1400 h. – 1980 m., birinci çap, təhqiq: doktor Bəşşar Əvvad Məruf.

80-“Hiqbətün minət-tarix”: Osman əl-Xəmis, nəşriyyat: “Darul-iman”, Misir.
81-“Hilyətül-əvliya və təbəqatül-əsfiya”: Əbu Nüeym Əhməd ibn Abdullah əl-İsfahani, nəşriyyat: “Darul-kitabil-ərəbi”, Beyrut, Livan, 1405 h., dördüncü çap.
82-“Hivarun məəş-şeyxil-Əlbani”: Həssan Əbdül-Mənnan, nəşriyyat: “Məktəbətül-mənhəcil-ilmi”, Beyrut, Livan, ikinci çap, 1416 h. – 1995 m..
83-“Xəsaisu-əmiril-muminin Əli ibn Əbi Talib”: Əhməd ibn Şüeyb ən-Nəsai Əbu Əbdür-Rəhman, nəşriyyat: “Məktəbətül-əla”, Küveyt, Küveyt, 1406 h., birinci çap, təhqiq: Əhməd Mirin əl-Bəluşi.
84-“Zəxairül-üqba fi mənaqibi-zəvil-qürba”: Muhibbuddin Əhməd ibn Abdullah ət-Təbəri, nəşriyyat: “Darul-kutubil-misriyyə”, Misir.
85-“Zikru-əsmai mən tukullimə fihi və huvə muvəssəq”: Muhəmməd ibn Əhməd ibn Osman ibn Qaymaz əz-Zəhəbi Əbu Abdullah, nəşriyyat: “Məktəbətül-mənar”, əz-Zərqa, İordaniya, 1406 h., birinci çap, təhqiq: Muhəmməd Şəkur Əmrir əl-Məyadini.
86-“Ruhul-məani fi təfsiril-Quranil-əzimi vəs-səbil-məsani”: Əbül-Fəzl Şihabuddin Seyyid Mahmud əl-Alusi əl-Bağdadi, nəşriyyat: “Daru-ihyait-turasil-ərəbi”, Beyrut.
87-“Zadul-məsir fi ilmit-təfsir”: Əbdür-Rəhman ibn Əli ibn Muhəmməd əl-Cəvzi, nəşriyyat: “əl-Məktəbül-islami”, Beyrut, 1404 h., üçüncü çap.
88-“Zadul-muhacir ila Rəbbih”: Muhəmməd ibn Əbu Bəkr Əyyub əz-Zəri Əbu Abdullah, nəşriyyat: “Məktəbətül-mədəni”, Ciddə, Səudiyyə Ərəbistanı, təhqiq: doktor Muhəmməd Cəmil Qazi.
89-“Zeynül-fəta”: Əhməd ibn Muhəmməd ibn Əli ibn Əhməd əl-Asimi, nəşriyyat: “Məcməu-ihyais-səqafətil-islamiyyə”, İran, birinci çap, 1418 h., Muhəmməd Baqir əl-Mahmudi.
90-“Subulul-huda vər-rəşad”: Muhəmməd ibn Yusif əs-Salihi əş-Şami, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, birinci çap, 1414 h. – 1993 m., təhqiq: Adil Əhməd Əbdül-Məvcud və Əli Muhəmməd Müəvvəz.
91-“Sislilətül-əhadisis-səhihə”: Muhəmməd Muhəmməd Nasiruddin əl-Əlbani, nəşriyyat: “Məktəbətül-məarif”, Ər-Riyad, Səudiyyə Ərəbistanı, 1415 h. – 1995 m..
92-“Səmtun-nucumil-əvali fi ənbail-əvaili vət-təvali”: Əbül-Məlik ibn Hüseyn ibn Əbdül-Məlik əş-Şafei əl-Asimi əl-Məkki, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, 1419 h. – 1998 m., təhqiq: Adil Əhməd Əbdül-Məvcud və Əli Muhəmməd Müəvvəz.
93-“Sünənü-İbn Macə”: Muhəmməd ibn Yezid Əbu Abdullah əl-Qəzvini, “Darul-kutub”, Beyrut, Livan, təhqiq: Muhəmməd Fuad Əbdül-Baqi.
94-“Sünənül-Beyhəqiyyil-kubra”: Əhməd ibn Hüseyn ibn Əli ibn Musa Əbu Bəkr əl-Beyhəqi, nəşriyyat: “Məktəbətü-daril-Baz”, Məkkə, Səudiyyə Ərəbistanı, 1414 h. – 1994 m., təhqiq: Muhəmməd Əbdül-Qadir Əta.
95-“Sünənüt-Tirmizi”: Muhəmməd ibn İsa Əbu İsa ət-Tirmizi əs-Suləmi, nəşriyyat: “Daru-ihyait-turasil-ərəbi”, Beyrut, Livan, təhqiq: Əhməd Muhəmməd Şakir və başqaları.

96-“Sünənüd-Darəqutni”: Əli ibn Ömər Əbül-Həsən əd-Darəqutni əl-Bağdadi, nəşriyyat: “Darul-mərifə”, Beyrut, Livan, 1386 h. – 1966 m., təhqiq: Seyyid Abdullah Haşim Yəmani əl-Mədəni.

97-“Siyərü-əlamin-nübəla”: Muhəmməd ibn Əhməd ibn Osman əz-Zəhəbi Əbu Abdullah, nəşriyyat: “Müəssəsətür-risalə”, Beyrut, Livan, 1413 h., doqquzuncu çap, təhqiq: Şüeyb əl-Arnaut və Muhəmməd Nüeym əl-Ərəqsusi.

98-“Şərhül-məqasid fi ilmil-kəlam”: Səduddin Məsud ibn Ömər ibn Abdullah ət-Təftəzani, nəşriyyat: “Darul-məarifin-numaniyyə”, Pakistan, 1401 h. – 1981 m., birinci çap.

99-“Şərhu-muşkilil-asar”: Əbu Cəfər Əhməd ibn Muhəmməd ibn Sələmə ət-Təhavi, nəşriyyat: “Müəssəsətür-risalə”, Beyrut, Livan, 1408 h. – 1981 m., birinci çap, təhqiq: Şüeyb əl-Arnaut.

100-“Şərhu-məzahibi-əhlis-sünnə və mərifətü-şəraiid-din vət-təməssük bis-sünən”: Əbu Həfs Ömər ibn Əhməd ibn Osman ibn Şahin, nəşriyyat: “Müəssəsətü-Qurtubə”, 1415 h. – 1995 m., birinci çap, təhqiq: Adil ibn Muhəmməd.

101-“Şüəbül-iman”: Əbu Bəkr Əhməd ibn Hüseyn əl-Beyhəqi, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, 1410 h., birinci çap, təhqiq: Muhəmməd əs-Səid Bəsyuni Zəğlul.

102-“Şəvahidüt-tənzil”: əl-Hakim əl-Həskani, nəşriyyat: “Müəssəsətüt-təb vən-nəşr vət-təvzi li-vizarətis-səqafə vəl-irşadil-islami”, “Məcməu-ihyais-səqafətil-islamiyyə”, İran, 1411 h. – 1990 m., təhqiq: Muhəmməd Baqir əl-Mahmudi.

103-“Səhihü-İbn Hibban bi-tərtibi-İbn Bəlban”: Muhəmməd ibn Hibban ibn Əhməd Əbu Hatim ət-Təmimi əl-Bəsti, nəşriyyat: “Müəssəsətür-risalə”, Beyrut, Livan, 1414 h. – 1993 m., ikinci çap, təhqiq: Şüeyb əl-Arnaut.

104-“Səhihül-Buxari”: Muhəmməd ibn İsmayıl Əbu Abdullah əl-Buxari əl-Cufi, nəşriyyat: “Daru-İbn Kəsir əl-Yəmamə”, Beyrut, Livan, 1407 h. – 1987 m., üçüncü çap, təhqiq: doktor Mustafa Dib əl-Buğa.

105-“Səhihü-sünənit-Tirmizi”: Muhəmməd Nasiruddin əl-Əlbani, nəşriyyat: “Məktəbətül-məarif”, Ər-Riyad, Səudiyyə Ərəbistanı, 1420 h. – 2000 m., birinci çap.

106-“Səhihü-şərhil-əqidətit-təhaviyyə”: Həsən ibn Əli əs-Səqqaf, nəşriyyat: “Darul-imamin-Nəvəvi”, birinci çap, 1416 h..

107-“Səhihü-Müslim”: Müslim ibn Həccac Əbül-Hüseyn əl-Qüşeyri ən-Nişapuri, nəşriyyat: “Daru-ihyait-turasil-ərəbi”, Beyrut, Livan, təhqiq: Muhəmməd Fuad Əbdül-Baqi.

108-“Səhihü-məvaridiz-zəman”: Muhəmməd Nasiruddin əl-Əlbani, nəşriyyat: “Darus-Sumeyi”, Ər-Riyad, Səudiyyə Ərəbistanı, 1422 h. – 2002 m., birinci çap.

109-“Səhihü və daifü-sünəni-İbn Macə”: Muhəmməd Nasiruddin əl-Əlbani, nəşriyyat: “Məktəbətül-məarif”, Ər-Riyad, Səudiyyə Ərəbistanı, 1417 h. – 1997 m., birinci çap.

110-“Səfvətüs-səfvə”: Əbdür-Rəhman ibn Əli ibn Muhəmməd Əbül-Fərəc, nəşriyyat: “Darul-mərifə”, Beyrut, Livan, 1399 h. – 1979 m., ikinci çap, təhqiq: Mahmud Faxuri və doktor Rəvas Qələci.

111-“Təbəqatul-muhəddisin bi-İsbahan vəl-varidinə əleyha”: Abdullah ibn Muhəmməd ibn Cəfər ibn Həyyan Əbu Muhəmməd əl-Ənsari, nəşriyyat: “Müəssəsətür-risalə”, Beyrut, Livan, 1412 h. – 1992 m., ikinci çap, təhqiq: Əbdül-Ğəfur Əbdül-Haqq Hüseyn əl-Bəluşi.

112-“Təbəqatul-müdəllisin”: Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani, nəşriyyat: “Məktəbətül-mənar”, Əmman (və ya Oman), 1403 h. – 1983 m., birinci çap, təhqiq: doktor Asim ibn Abdullah əl-Qəryuti.

113-“Kitabu-ğəribil-Quran”: Əbu Bəkr Muhəmməd ibn Əziz əs-Sicistani, nəşriyyat: “Daru-Qüteybə”, 1416 h. – 1995 m., təhqiq: Muhəmməd Ədib Əbdül-Vahid Cəmran.

114-“Fəthül-Bari şərhu-səhihil-Buxari”: Əhməd ibn Əli ibn Həcər Əbül-Fəzl əl-Əsqəlani əş-Şafei, nəşriyyat: “Darul-mərifə”, Beyrut, Livan, təhqiq: Muhibbuddin əl-Xətib.

115-“Fəthül-qədir əl-cami beynə fənneyir-rivayəti vəd-dirayə min ilmit-təfsir”: Muhəmməd ibn Əli ibn Muhəmməd əş-Şəvkani, nəşriyyat: “Darul-fikr”, Beyrut, Livan.

116-“Fadailus-səhabə”: Əhməd ibn Hənbəl Əbu Abdullah əş-Şeybani, nəşriyyat: “Müəssəsətür-risalə”, Beyrut, Livan, 1403 h. – 1983 m., birinci çap, təhqiq: doktor Vəsiyullah Muhəmməd Abbas.

117-“Fadailus-səhabə”: Əhməd ibn Şüeyb ən-Nəsai Əbu Əbdür-Rəhman, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, 1405 h., birinci çap.

118-“Feyzül-qədir şərhul-camiis-səğir”: Əbdür-Rauf əl-Mənavi, nəşriyyat: “əl-Məktəbətüt-ticariyyətül-kübra”, Misir, 1356 h., birinci çap.

119-“Kənzül-ümmal fi-sünənil-əqval vəl-əfal”: Əlaəddin Əli əl-Müttəqi ibn Husaməddin əl-Hindi, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, 1419 h. – 1998 m., birinci çap, təhqiq: Mahmud Ömər əd-Dəmyati.

120-“Lisanul-ərəb”: Muhəmməd ibn Mukərrəm ibn Mənzur əl-Əfriqi əl-Misri, nəşriyyat: “Daru-sadir”, Beyrut, Livan, birinci çap.

121-“Lisanul-mizan”: Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani əş-Şafei, nəşriyyat: “Müəssəsətül-ələmi lil-mətbuat”, Beyrut, Livan, 1406 h. – 1986 m., üçüncü çap, təhqiq: “Dairətül-məarifin-nizamiyyə”, Hindistan.

122-“Məcməüz-zəvaid və mənbəül-fəvaid”: Əli ibn Əbu Bəkr əl-Heysəmi, nəşriyyat: “Darur-rəyyan lit-turas” və “Darul-kitabil-ərəbi”, Qahirə, Misir və Beyrut, Livan, 1407 h..

123-“Məcmuul-fətava”: Əhməd Əbdül-Həlim ibn Teymiyyə əl-Hərrani Əbül-Abbas, nəşriyyat: “Məktəbətü-İbn Teymiyyə”, ikinci çap, təhqiq: Əbdür-Rəhman ibn Muhəmməd ibn Qasim əl-Asimi ən-Nəcdi.

124-“Mirqatul-məfatih şərhu mişkatil-məsabih”: Əli ibn Sultan Muhəmməd əl-Qari, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, 1422 h. – 2001 m., birinci çap, təhqiq: Camal Əytani.

125-“Müsnədü-Əbi Davud ət-Təyalisi”: Süleyman ibn Davud Əbu Davud əl-Farisi əl-Bəsri ət-Təyalisi, nəşriyyat: “Darul-mərifə”, Beyrut, Livan.

126: “Müsnədü-Əbi Davud ət-Təyalisi”: Süleyman ibn Davud Əbu Davud ət-Təyalisi, nəşriyyat: “Həcr lit-tibaə vən-nəşr vət-təvzi vəl-ilan”, Misir, 1419 h. – 1999 m., birinci çap, təhqiq: doktor Muhəmməd ibn Əbdül-Muhsin ət-Türki.
127-“Müsnədü-Əbi Yəla”: Əhməd ibn Əli ibn əl-Müsənna Əbu Yəla əl-Mosuli ət-Təmimi, nəşriyyat: “Darul-məmun lit-turas”, Dəməşq, Suriya, 1404 h. – 1984 m., birinci çap, təhqiq: Hüseyn Səlim Əsəd.
128-“Müsnədü-Əhməd ibn Hənbəl”: Əhməd ibn Hənbəl Əbu Abdullah əş-Şeybani, nəşriyyat: “Müəssəsətü-Qurtubə”, Misir.
129-“Müsnədü-Əhməd ibn Hənbəl”: Əhməd ibn Hənbəl Əbu Abdullah əş-Şeybani, nəşriyyat: “Darul-hədis”, Qahirə, Misir, 1416 h. – 1995 m., birinci çap, təhqiq və təliq: Əhməd Muhəmməd Şakir və Həmzə Əhməd əz-Zeyn.
130-“Müsnədül-Bəzzar”: Əbu Bəkr Əhməd ibn Əmr ibn Əbdül-Xaliq əl-Bəzzar, nəşriyyat: “Müəssəsətü-ülumil-Quran” və “Məktəbətül-ülum vəl-hikəm”, Beyrut, Livan və Mədinə, Səudiyyə Ərəbistanı, 1409 h., birinci çap, təhqiq: Məhfuzur-Rəhman Zeynullah.
131-“Müsnədüş-Şaşi”: Əbu Səid əl-Heysəm ibn Küleyb əş-Şaşi, nəşriyyat: “Məktəbətül-ülum vəl-hikəm”, Mədinə, Səudiyyə Ərəbistanı, 1410 h., birinci çap, təhqiq: doktor Məhfuzur-Rəhman Zeynullah.
132-“Müsnədüş-şamiyyin”: Süleyman ibn Əhməd ibn Əyyub Əbül-Qasim ət-Təbərani, nəşriyyat: “Müəssəsətür-risalə”, Beyrut, Livan, 1405 h. – 1984 m., birinci çap, təhqiq: Həmdi ibn Əbdül-Məcid əs-Sələfi.
133-“Mişkatul-məsabih”: Muhəmməd ibn Abdullah əl-Xətib ət-Təbrizi, nəşriyyat: “Darul-Ərqəm ibn Əbul-Ərqəm”, Beyrut, Livan, Muhəmməd Nizar Təmim və Heysəm Nizar Təmimin nəzarəti altında.
134-“Müsənnəfü-İbn Əbi Şeybə”: Əbu Bəkr Abdullah ibn Muhəmməd ibn Əbu Şeybə əl-Kufi, nəşriyyat: “Məktəbətür-rüşd”, Ər-Riyad, Səudiyyə Ərəbistanı, 1409 h., birinci çap, təhqiq: Kamal Yusif əl-Hut.
135-“Mətalibus-səul”: Şeyx Kəmaluddin Muhəmməd ibn Təlhə əş-Şafei, təhqiq: Macid ibn Əhməd əl-Ətiyyə.
136-“Məanil-əxbar”: Muhəmməd ibn Əli ibn Hüseyn əs-Səduq əl-Qummi, nəşriyyat: “Müəssəsətün-nəşril-islami ət-tabiətu-li-cəmaətil-mudərrisin bi-Quməl-müqəddəsə”, dördüncü çap, 1418 h., təhqiq və təshih: Əli Əkbər əl-Ğəffari.
137-“Mücəmüs-səhabə”: Əbdül-Baqi ibn Qani Əbül-Hüseyn, nəşriyyat: “Məktəbətül-ğürəbail-əsriyyə”, Mədinə, Səudiyyə Ərəbistanı, 1418 h., birinci çap, təhqiq: Səlah ibn Salim əl-Məsrati (əl-Müsərrati).
138-“Minhacü-sünnətin-nəbəviyyə”: Əhməd ibn Əbdül-Həlim ibn Teymiyyə əl-Hərrani Əbül-Abbas, nəşriyyat: “Müəssəsətü-Qurtubə”, 1406 h., birinci çap, təhqiq: Muhəmməd Rəşad Salim.
139-“Məvariduz-zəman ilə zəvaidi-İbn Hibban”: Əli ibn Əbu Bəkr əl-Heysəmi Əbül-Həsən, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, təhqiq: Muhəmməd Əbdür-Rəzzaq Həmzə.
140-“Muvaddihu-əvhamil-cəm vət-təfriq”: Əhməd ibn Əli ibn Sabit əl-Xətib əl-Bağdadi, nəşriyyat: “Darul-mərifə”, Beyrut, Livan, 1407 h., birinci çap, təhqiq: doktor Əbdül-Muti Əmin Qələci.

141-“Müvəttəül-imam Malik”: Malik ibn Ənəs Əbu Abdullah əl-Əsbəhi, nəşriyyat: “Daru-ihyatit-turasil-ərəbi”, Misir, təhqiq: Muhəmməd Fuad Əbdül-Baqi.

142-“Mizanul-itidal fi nəqdir-rical”: Şəmsəddin Muhəmməd ibn Əhməd əz-Zəhəbi, nəşriyyat: “Darul-kutubil-ilmiyyə”, Beyrut, Livan, 1995 m., birinci çap, təhqiq: Şeyx Əli Muhəmməd Müəvvəz və Şeyx Adil Əhməd Əbdül-Məvcud.

143-“Nəfəhatül-əzhar”: Əli əl-Hüseyni əl-Milani, birinci çap, 1414 h..

144-“Nəvadirul-usul fi əhadisir-Rəsul”: Muhəmməd ibn Əli ibn Həsən Əbu Abdullah əl-Həkim ət-Tirmizi, nəşriyyat: “Darul-ceyl”, Beyrut, Livan, 1992 m., təhqiq: Əbdür-Rəhman Ümeyrə.

145-“Neylül-əvtar min əhadisi-seyyidil-əxyar, şərhu muntəqəl-əxbar”: Muhəmməd ibn Əli ibn Muhəmməd əş-Şəvkani, nəşriyyat: “Darul-ceyl”, Beyrut, Livan, 1983 m..

146-“Hədyüs-sari müqəddəmətü-fəthil-Bari şərhi-səhihil-Buxari”: Əhməd ibn Əli ibn Həcər Əbül-Fəzl əl-Əsqəlani əş-Şafei, nəşriyyat: “Darul-mərifə”, Beyrut, Livan, 1379 h., təhqiq: Muhəmməd Fuad Əbdül-Baqi və Muhibbuddin əl-Xətib.

147-“Yənabiül-məvəddə”: Süleyman ibn İbrahim əl-Qunduzi əl-Hənəfi, nəşriyyat: “Darul-usva”, İran, birinci çap, 1416 h., təhqiq: Seyyid Əli Camal Əşrəf.